AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

**Meybullayev Məmməd Həsən Xanlar oğlu**

# MAKROİQTİSADİYYATA GİRİŞ

***Dərs vəsaiti***

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 13 oktyabr 2008-ci il 1142 saylı qərarı ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.*

**B A K I - 2011**

26024

Elmi redaktor: iqtisad elmləri doktoru, professor,
əməkdar elm xadimi,
**Tofiq Əvəz oğlu Quliyev**

Rəyçilər: iqtisad elmləri doktoru, professor
**Fikrət Ağagül oğlu Nəsrullayev**

iqtisad elmləri namizədi, dosent
**Fazil İbrahim oğlu Hüseynov**

iqtisad elmləri namizədi, dosent
**Qəzənfər Seyfəddin oğlu Əlləzov**

**Meybullayev M.X. Makroiqtisadiyyata giriş. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı -2011. - 480 səh.**

Qarşımızda olduqca sadə dildə yazılmış, yığcam ifadələr əsasında izah olunan, çətin görünən iqtisadi proseslərin öyrənilməsi istiqamətinə yönəldilmiş kitab durur. «Makroiqtisadiyyata giriş» təkcə «İqtisadi nəzəriyyə»ni öyrənənlər üçün deyil, eyni zamanda zahirən sadə görünən, lakin mürəkkəb və olduqca cəzbedici əks olunan bu elmin sirrini müstəqil öyrənmək istəyənlər üçün də müəyyən maraq yaradacaqdır. Bu kitabı oxumaqla siz öz dünyagörüşünüzü genişləndirməklə, eyni zamanda bir sıra müəmmalı və izahı çətin görünən iqtisadi və siyasi proseslərin mahiyyətini aydınlaşdıra bilərsiniz. Həm də bir sıra iqtisadi və sosial məsələlərin həlli istiqamətində düzgün, vaxtında əsaslandırılmış və məntiqi qərarların qəbul olunması üçün zəruri hesab olunan biliklərin əldə olunmasına nail olacaqsınız.

Dərs vəsaiti tələbələr, aspirantlar, tədqiqatçılar və ümumiyyətlə, iqtisad elmi ilə maraqlananlar, iqtisadi fənləri tədris edən və öyrənənlər üçün nəzərdə tutulmuşdur.

**Müəllif ADİU-da «Bank işi» ixtisası üzrə XİQ-in yaradılması təşəbbüsünə görə və orada «Mikroiqtisadiyyat və makroiqtisadiyyat» fənləri üzrə mühazirələrin oxunmasına cəlb edilməsinə, yaradılan şəraitə görə rektor i.e.d., prof. Şəmsəddin Hümmət oğlu Hacıyevə öz minnətdarlığını bildirir.**

**Müəllif həmçinin dərsliyin yazılmasında və çapa hazırlanmasında göstərdikləri köməkliyə görə Kəmalə Nizami qızı Hüseynovaya və Könül Tahir qızı Nühzadəyə öz təşəkkürünü bildirir.**

**© Meybullayev M.X. -2011**
**© "İqtisad Universiteti"-2011**

# MÜNDƏRİCAT

Ön söz........................................................ 8

**I fəsil. Makroiqtisadiyyatın əsasları**................ 12
1.1. Makroiqtisadi nəzəriyyənin meydana gəlməsi........................................ 12
1.2. Makroiqtisadi modellərin formalaşmasının xüsusiyyətləri.................................. 22
1.3. Makroiqtisadi təhlilin aparılmasının əsasları........................................ 27

**II fəsil. Makroiqtisadiyyatın tədqiqinin konseptual əsasları: milli iqtisadiyyat**..... 34
2.1. Milli iqtisadiyyat anlayışı...................... 34
2.2. Milli iqtisadiyyatın iqtisadi potensialı....... 42
2.3. Milli iqtisadi inkişaf modelinin formalaşması prinsipləri...................... 47

**III fəsil. Təkrar istehsal**............................ 59
3.1. Milli məhsulun təkrar istehsalı: mahiyyəti,tipləri və meyarı................. 59
3.2. Ümumi milli məhsul (ÜMM) istehsalı. müasir dövrdə reallaşdırma nəzəriyyəsi... 64
3.3. Milli sərvətin mahiyyəti və strukturu....... 73

**IV fəsil. Makroiqtisadi göstəricilər sistemi**....... 79
4.1. Ümumi milli məhsul (ÜMM) və Ümumi daxili məhsul (ÜDM). Onların hesablanması metodu........................................ 79
4.2. Nominal və real ÜDM........................ 87
4.3. Milli hesablar sistemi.......................... 93
4.4. ÜDM-in artım səviyyəsi və iqtisadi rifah halı........................................ 100

**V fəsil. Makroiqtisadi müvazinət (AD-AS) (İS-LM)** ........ **110**
5.1. Makroiqtisadi müvazinətin mahiyyəti....... **110**
5.2. Makroiqtisadi müvazinətin klassik modeli.. **113**
5.3. Makroiqtisadi müvazinətin Keyns modeli... **121**
5.4. Makroiqtisadi müvazinətin Xiks modeli.... **127**

**VI fəsil. Məcmu tələb və məcmu təklif**............ **138**
6.1. Məcmu tələb və məcmu təklif milli iqtisadiyyatın fəallıq səviyyəsi kimi.......... **138**
6.2. Məcmu tələb.............................. **144**
6.3. Məcmu təklif.............................. **151**
6.4. Məcmu tələb və məcmu təklifin müvazinət modeli.............................. **156**

**VII fəsil. İqtisadi artım**........................ **159**
7.1. İqtisadi artımın mahiyyəti və modelləri..... **159**
7.2. İqtisadi artımın amilləri..................... **170**
7.3. İqtisadi artımın tipləri....................... **178**
7.4. İstehsalın səmərəliliyi və iqtisadi artımın tərəddüdlü hərəkəti.......................... **183**
7.5. İstehsal funksiyası. İqtisadi artımın dövlət tənzimlənməsi.............................. **186**

**VIII fəsil. İstehlak, əmanət və investisiya**......... **190**
8.1.İstehlak və onun funksiyası.................. **190**
8.2. Əmanət və onun funksiyası.................. **198**
8.3. İnvestisiya, onun mahiyyəti.................. **203**
8.4. İstehlak, əmanət, investisiya və onların qarşılıqlı əlaqəsi.................... **212**
8.5. Multiplikator və akselerator nəzəriyyəsi.... **217**

**IX fəsil. İqtisadi tsikllər nəzəriyyəsi**................ 227
9.1. Tsikl makroiqtisadi dinamikanın forması kimi.................................. 227
9.2. İqtisadi tsikllərin təsnifatı və dövri xarakteri.......................................... 235
9.3. Tsiklik hərəkətin səbəbləri...................... 240
9.4. Dövlətin iqtisadi tsikl və böhrana təsiri...... 245

**X fəsil. İşsizlik**.......................................... 249
10.1. İşsizlik: mahiyyəti, səviyyəsi, səbəbləri..... 249
10.2. İşsizliyin növləri.................................. 255
10.3. İşsizliyin göstəriciləri və dinamikası. Oyken qanunu.................................. 262
10.4. İşsizliyin sosial-iqtisadi nəticələri. Dövlətin məşğulluq siyasəti................. 267

**XI fəsil. İnflyasiya**..................................... 273
11.1. İnflyasiyanın mahiyyəti və səbəbləri........ 273
11.2. İnflyasiyanın növləri və formaları.......... 282
11.3. İnflyasiyanın ölçülməsi mexanizmi: İnflyasiya məsrəfləri........................... 290
11.4. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti........................ 296

**XII fəsil. Maliyyə sistemi**............................ 306
12.1. Maliyyənin mahiyyəti, nəzəri konsepsiyaları və təkamülü.................. 306
12.2. Dövlət büdcəsi və onun strukturu........... 311
12.3. Büdcə kəsiri və onun maliyyələşdirilməsi yolları............................................ 318
12.4. Dövlət borcu və onun sosial-iqtisadi nəticələri........................................ 322

**XIII fəsil. Vergi sistemi**.......................... 329
13.1. Vergilərin iqtisadi məzmunu, funksiyası və növləri.............................. 329
13.2. Vergi sistemi. Vergiqoymanın prinsipləri.. 338
13.3. Vergi sisteminin iqtisadiyyata təsir alətləri.................................. 341
13.4. Bazar iqtisadiyyatının təşəkkülü prosesində Azərbaycanın vergi siyasəti.... 349

**XIV fəsil. Pul-kredit sistemi**...................... 354
14.1. Pulun mahiyyəti və funksiyaları............ 354
14.2. Pula olan tələb və təklif..................... 363
14.3. Kreditin funksiyaları və rolu................ 373
14.3. Bank sistemi.................................. 379

**XV fəsil. Makroiqtisadi sabitləşmə**............... 386
15.1. Makroiqtisadi sabitləşmənin mahiyyəti, məqsədi və prinsipləri........................ 386
15.2. Milli iqtisadiyyatda makroiqtisadi sabitləşmənin alətləri........................ 391
15.3. Makroiqtisadi sabitləşmədə iqtisadi səmərəlilik və kənarlaşmaların yeri......... 398
15.4. Makroiqtisadi sabitləşmə siyasətinə laqın (uyğunlaşma dövrünün, vaxtın) təsiri...... 404
15.5. Milli iqisadiyyatda sabitləşdirmə siyasətinin xüsusiyyətləri.................... 407

**XVI fəsil. İqtisadi təhlükəsizlik**.................... 417
16.1. İqtisadi təhlükəsizliyin mahiyyəti və funksional fəaliyyəti.......................... 417
16.2. İqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunmasının şərtləri, amilləri və əsas cəhətləri..................... 424
16.3. İqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmi..................................... 432

16.4. İqtisadi təhlükəsizlik balanslaşdırılmış vətəndaş-dövlət-cəmiyyət maraqlarının qorunmasının meyarı kimi.................. **437**

**XVII fəsil. İnkişaf iqtisadiyyatı nəzəriyyəsi**....... **450**
17.1. İnkişaf iqtisadiyyatı nəzəriyyəsinin mahiyyəti və xarakterik xüsusiyyətləri ..... **450**
17.2. İnkişaf iqtisadiyyatının formalaşmasının səbəbləri və amilləri.......................... **458**
17.3. İnkişaf iqtisadiyyatına nail olmanın milli aspektləri........................................ **469**

**İstifadə olunan ədəbiyyat**............................ **479**

# ÖN SÖZ

Müasir iqtisad elminin qarşısında duran əsas məsələ dünyanın təsərrüfatçılıq sistemində normal yaşayışın necə təmin olunması – sualının cavablandırılmasından ibarətdir. Bunun üçün dünyanın yeniləşən elmi mənzərəsi kontekstində iqtisad elminin fundamental əsası hesab olunan iqtisadi nəzəriyyənin fəaliyyətdə olan tərkib hissəsi kimi makroiqtisadiyyatın öyrənilməsinə ehtiyac duyulur.

«Makroiqtisadiyyat» fənni dünya və milli iqtisadiyyatlarda baş verən əsaslı dəyişikliklərin iqtisadi qanunauyğunluqlarının, prinsiplərinin, funksional asılılıqlarının vahid orqanizm halında fəaliyyət göstərməsini öyrənir. Makroiqtisadi nəzəriyyədə də əsasən milli iqtisadiyyat səviyyəsində təkrar istehsal prosesinin xüsusiyyətləri, tipləri və formaları öyrənilməklə cəmiyyətin və onun üzvlərinin istehlaka, əmanətə və investisiyaya olan münasibəti multiplikator və akselerator çərçivəsində şərh olunur. Bu əsasdan iqtisadi artımın, məşğulluğun, ümumi qiymət səviyyəsinin və makroiqtisadi müvazinətin təmin olunmasının məcmu şəkildə şərhi aparılır.

Makroiqtisadiyyat həm də hər bir kəsdə yarana biləcək bir sıra suallara cavab verməyə imkan yaradacaq:

- nə üçün iqtisadi artım sürəti eyni və ya aşağı olan ölkələrdə əhalinin gəlir səviyyəsi müxtəlifdir?
- ölkənin iqtisadi artım sürəti nə qədər olsa yaxşıdır?
- nə üçün ÜDM-in səviyyəsi daima artmır?
- nə üçün məşğulluğu daima tam təmin etmək olmur?
- nə üçün işsizliyi bəzi illər ərzində azaltmaq mümkün olur, bəzən də olmur?
- nə üçün inflyasiyanın səviyyəsi bəzən sabit qalır, bəzən də sürətlə artır?
- nə üçün iqtisadiyyat tsiklik xarakter alır? Böhranlar necə baş verir və onu necə aradan qaldırmaq olar?

Bu sualların sayını istənilən qədər artırmaq olar. Lakin bu sualların arasında ən çətin görünəni aşağı inflyasiyanın və az işsizliyin təmin olunmasıdır. Yüksək iqtisadi artım sürəti ilə az işsizliyin təmin olunduğu şəraitdə istehsalın həcminin genişlənməsi ilə qiymətlərin və əməkhaqqının yüksəlməsi baş verir. Bu da sürətli iqtisadi artım şəraitində inflyasiyanın yüksəlməsi meylini əsaslandırır. Ona görə də problemin həlli üçün iqtisadi siyasətdən və tətbiq olunan tənzimlənmə mexanizmindən istifadə olunur. Deməli, makroiqtisadiyyatın öyrənilməsi, xüsusən də yüksələn inflyasiyanın artan işsizliyin qarşısının alınması və zəif iqtisadi artımın aradan qaldırılması istiqamətində:

- həm problemlərin qoyuluşunun mahiyyətini;
- həm yeridilən iqtisadi siyasətin məzmununu;
- həm də tətbiq olunan tənzimlənmə mexanizmini aydınlaşdırmağa imkan yaradacaq.

Makroiqtisadiyyat, ümumiyyətlə, iqtisadi fəaliyyətin məqsədi:

- ÜDM-in yüksək səviyyəsinə və sürətli artımına nail olunmaq;
- təbii işsizlik olduğu şəraitdə və ya məcburi zəruri işsizlik şəraitində yüksək məşğulluq səviyyəsinin təmin olunmasını;
- bazar şəraitində ümumi qiymət səviyyəsinin stabilliyinin təmin olunmasının ümumi istiqamətlərini;
- ümumi makroiqtisadi müvazinətin təmin olunmasını öyrənir.

Makroiqtisadiyyat bütövlükdə iqtisadi nailiyyət və uğurların mənbəyi hesab olunan ÜDM-in istehsalı, bölgüsü və istifadəsinin nominal və real səviyyəsinin müəyyən edilməsini;

- ÜDM-in uzunmüddətli və davamlı inkişafını əks etdirən iqtisadi artımı, onun amillərini, sürətini, tərəddüdlü hərəkətini, səbəb və nəticələrini, iqtisadi enmələrin mahiyyətinin izahını verir. Həmçinin:

• Yüksək məşğulluğu və aşağı işsizliyin təmin olunması mexanizminin nəzəri istiqamətləri və makroiqtisadi siyasətin mahiyyəti izah olunur. Yüksək ödənişli və daimi iş yerlərinin açılması və təmin olunması ilə işgüzar tsikillik şəraitində işsizliyin baş verməsinin iqtisadi əsasları müəyyənləşdirilir;

• Qiymətlərin stabilliyin bazar şəraitində təmin olunması xüsusiyyətləri izah olunur. Qiymətlərin ümumi səviyyəsinin birdən-birə enib-qalxmasının baş verməsinin meyarı kimi istehlak qiyməti indeksinin mahiyyəti və onunla bağlı olan iqtisadi hadisələrin məzmunu açıqlanır;

• Xüsusən qiymət dəyişikliklərini özündə əks etdirən inflyasiyanın mahiyyəti, səbəb və nəticələri əsaslandırılır;

• Bazar şəraitində məcmu tələblə məcmu təklifin qarşılıqlı əlaqəsində qiymətlərin stabil və mülayim artdığı halda müəyyən qiymət səviyyəsi ilə əməkhaqqının uyğunluğu mexanizmi izah olunur.

Makroiqtisadiyyat təkcə qarşıya qoyulan məqsədləri deyil, həm də onların reallaşdırma mexanizmi üçün tətbiq olan iqtisadi siyasət alətlərinin məzmununu açıqlayır:

• Burada büdcə-vergi siyasətinin mahiyyəti, dövlət xərcləri, dövlət borcu məsələləri izah olunur;

Dövlət xərclərinin iki formada dövlət alışlarına, dövlət sektorunda çalışanların əməkhaqqının artırılması, transfert xərcləri, müəyyən əhali qrupunun gəlirlərinin artırılması kimi izahı verilir. Həm də dövlət xərclərinin iqtisadiyyatın ÜDM səviyyəsinə olan təsirinin mahiyyəti şərh olunur.

Vergiqoymanın iki səviyyədə ev təsərrüfatının malik olduğu gəlirlərə və xərclərə, eləcə də istehsal amillərinə qiymət dəyişilməsinə olan təsirinin mahiyyəti izah olunur.

• Pul-kredit siyasətinin mahiyyəti, pul sistemləri, Mərkəzi və Kommersiya banklarının iqtisadiyyatda rolu, ikipilləli bank sisteminin prinsipləri, iqtisadi müvazinətdəki

yeri müəyyənləşdirilir. Pul kütləsinin makroiqtisadi aktivliyə olan təsiri öyrənilir;

• Gəlir və sosial siyasətin mahiyyəti, onun qanunvericilik bazası, ölkə başçılarının bu siyasətə müraciət etməsinin səbəbləri izah olunaraq bu siyasətin iqtisadi fəallığın sürət və xarakterinə olan təsiri şərh olunur.

Qeyd olunan bu iqtisadi siyasətlər müxtəlif iqtisadi vasitələrdən istifadə edilərək həyata keçirilməklə, makroiqtisadi məqsədləri daha əlverişli üsullarının izahı, real vəziyyətlə əlaqəli şəkildə izahının tənzimlənmə mexanizmi göstərilir. Makroiqtisadi sabitləşməyə nail olmaq, dünya təsərrüfat sisteminə inteqrasiya, valyuta tənzimlənməsi, qlobal iqtisadi problemlərin milli iqtisadiyyatlar üçün törətdikləri fəsadlar, onların aradan qaldırılması ilə bağlı problemlərin öyrənilməsi, ümumbəşəri dəyərlərə əsaslanaraq şərhinin verilməsinə cəhd göstərilmişdir.

Bu dərs vəsaitinin xüsusiyyəti bundadır ki, o, iqtisadi nəzəriyyənin müasir iqtisadi fikrinə, dünyada baş verən dəyişikliklərin iqtisadi qanunauyğunluqlarına, milli iqtisadiyyatın kəsb etdiyi xüsusiyyətlərinə əsaslanır. Həm də Makroiqtisadiyyat – I və Makroiqtisadiyyat – II kursunu əhatə edən mövzular yığcam şəkildə şərh olunmuşdur.

Mövzuların izahı və şərhi ADİU-nun Xüsusi İstedadlar Qrupu (XİQ) üçün nəzərdə tutulduğundan burada makroiqtisadiyyatın bütövlükdə izahı verilməmişdir. Sözsüz ki, bəzi problemlər oxucunu düşündürəcək və bu problemlərin həllinə tam cavab ala bilməməsi onu narahat edəcək. Ona görə də istər tərcümə olunmuş, istərsə də ana dilində yazılmış «İqtisadi nəzəriyyə» dərsliklərinin Makroiqtisadiyyat bölməsinə müraciət edə bilərlər.

# I FƏSİL. MAKROİQTİSADİYYATIN ƏSASLARI

**1.1. Makroiqtisadi nəzəriyyənin meydana gəlməsi**
**1.2. Makroiqtisadi modellərin formalaşmasının xüsusiyyətləri**
**1.3. Makroiqtisadi təhlilin aparılmasının əsasları**

## 1.1. Makroiqtisadi nəzəriyyənin meydana gəlməsi

Müasir iqtisad elminin inkişafında iqtisadi nəzəriyyənin xüsusi bölmələrindən olan makroiqtisadiyyatın xüsusi rolu olmuşdur. XX əsrin 30-cu illərində meydana gəlməyə başlamış makroiqtisadi nəzəriyyə elminin tam və əsaslandırılmış şəkildə formalaşmasına və yeni elmi istiqamətlərin meydana gəlməsinə səbəb olmuşdur. «Makro» termini yunan sözündən tərcümədə «böyük ölçülər» mənasını verir. İqtisad elmində tətbiq olunan bu ifadə əslində iqtisadiyyatın bütöv halında öyrənilməsi vasitəsi kimi nəzərdə tutulur. Bəlli olduğu kimi iqtisadi nəzəriyyənin ilkin öyrənilməsi, klassik elmi sistem kimi təşəkkül tapması mikroiqtisadiyyatın təhlili və tədqiqi vasitəsi ilə həyata keçirilmişdir. Sonrakı inkişaf mərhələlərində o «makro», «mezo» və «meqo» səviyyədə öyrənilmişdir.

Ev təsərrüfatının öyrəndiyi elmi sahə kimi «iqtisadi nəzəriyyə», tədrici olaraq sərvəti öyrənən, istehlakçı davranışı, məhdud resurslar, təsərrüfatçılığı idarə edən qanunlar, seçim imkanını müəyyən edən elm kimi təşəkkül tapmış və müasir dövrdə insan potensialının inkişafının iqtisadi və sosial əsaslarını da, təhlili məqsədlərini də qarşıya qoymuşdur. İlkin səviyyədə iqtisad elminin böyük mütəfəkkir alimləri, müxtəlif məktəb və cərəyam nümayəndələri iqtisadi hadisələri mikrosəviyyədə öyrənmişlər. Klassik iqtisadi məktəbi, marjinalizmi, neoklassik istiqaməti buna misal göstərmək olar. Bazar mexanizminin, onun elementlərinin, istehlakçı seçiminin, firma nəzəriyyəsinin öyrənilməsi bu qəbildən olan

mikroiqtisadi təhlil və tədqiqatlardır. Əslində bu tədqiqatların ev təsərrüfatı səviyyəsində öyrənilən və dəyişən iqtisadi hadisələrin ümumi yekununu makroiqtisadiyyat öyrənir. Yəni ev təsərrüfatı səviyyəsində əldə olunan istehsalçı və istehlakçıların gəlirlərini və müxtəlif əmtəə və xidmətlər üzrə bölgüsünün dinamikasını ümumiləşdirilmiş şəkildə makroiqtisadiyyat öyrənir. Ona görə də məhdud resurslar şəraitində istehlakçının davranış qaydalarının cəmiyyət səviyyəsində mövcud iqtisadi imkanlar çərçivəsində öyrənilməsi zəruriyyəti meydana gəlir ki, bu da makroiqtisadiyyatı əsaslandırır.

Makroiqtisadiyyat iqtisadi nəzəriyyənin tərkib hissəsi kimi iqtisadiyyatın başlıca probleminin həllinin həyata keçirilməsində iqtisadi hadisələri məcmu və sistemli şəkildə öyrənir.

Makroiqtisadiyyat mikroiqtisadiyyatdan fərqli olaraq iqtisadiyyatın sosial nailiyyətlərinin səmərəli bölüşdürülməsini əks etdirməklə **davamlı iqtisadi inkişafı** xarakterizə edən bir prosesdir. Lakin qeyd etmək lazımdır ki, makroiqtisadiyyat keçən əsrin 50-ci illərindən başlayaraq riyazi təmayüllər əsasında formal modellər və öyrənilməyə başlanılmışdır. Bununla əlaqədar olaraq Q.Menkyu haqlı olaraq qeyd edir ki, «Allah makroiqtisadiyyatı yer üzünə ona görə endirmişdi ki, onlar praktiki problemlərin həlli üçün zəruri görünən nəzəriyyələrin yoxlanılmasına və irəli sürülməsinə nail olsunlar».

İlk makroiqtisadçıların qarşısında duran məsələlər olduqca müxtəlif idi. Bu xüsusən keçən əsrin 30-cu illərində mövcud olan dünya böhranı ərəfəsində idi. Bu dövrdə makroiqtisadiyyatı bir nəzəriyyə kimi formalaşdırmağa cəhd göstərən C.M.Keyns iqtisadiyyatın tənəzzüldən xilas olmaq üçün "səmərəli tələb" və «dövlətin iqtisadiyyata müdaxiləsi» ideyalarını irəli sürməklə bütövlükdə kapitalist sisteminin həyatiliyini özünə qaytardı. Əslində Keynsin irəli sürmüş olduğu ideyalar makroiqtisadiyyatın iqtisadi nəzəriyyənin mühüm bir bölməsi kimi sistemli şəkildə formalaşmasına təkan verdi.

Nəticədə 1940-ci ildə iqtisadi ədəbiyyatlarda "makroiqtisadiyyat" termini işlənməyə başlanılmışdır. Bununla əlaqədar olaraq Nobel mükafatı laureatı P.Samuelson göstərdi ki, II Dünya müharibəsinə qədər iqtisadi nəzəriyyə yatan şahzadəyə bənzəyirdi. Lakin C.M.Keynsin öpüşü ilə o ayılmağa başlamışdır... amma buna baxmayaraq iqtisadiyyatda riyaziyyatın hərarətli öpüşünü gözləyirdi. Samuelson 1948-ci ildə dərc etdirdiyi «Əsas iqtisadi təhlil» və 1954-cü ildə K.Erru və J.Debri rəqabətli iqtisadiyyatda müvazinət məsələlərini tətbiq etməklə riyazi üsullarla makroiqtisadiyyatı təhlil etmişlər. Bu istiqamət artıq keynçilikdən neoklassik nəzəriyyəyə xidmət göstərmişdir. Bəlli olduğu kimi XX əsrin ortalarından başlayaraq dəqiq elmlər sayəsində, xüsusən texniki sferada əldə olunan nailiyyətlər iqtisadi sahələrdə də tətbiq edilməyə başladı. Belə şəraitdə iqtisadiyyat riyazi modellər əsasında şərh olunmaqla formal xarakter daşıyırdı. 1970-ci illərdən meydana gələn ilk kompyuter texnologiyası çərçivəsində riyazi modellər daha üstün rol oynadığı bir dövrdə makroiqtisadi nəzəriyyə, sözün həqiqi mənasında, formal xarakter daşımağa başlamışdı. Beləliklə də riyazi dillə izah olunan iqtisad elmi, neoklassik məktəbin makroiqtisadiyyatla bağlı ideyalarını əsaslandırmaqla real iqtisadiyyatın mövcud vəziyyətinin təhlilindən xeyli uzaqlaşmasına gətirib çıxardı. Müxtəlif teoremlər və riyazi konsepsiyalar əsasında abstrakt xarakterli modellərin yaradılması nəticəsində riyazi-iqtisadi model də mütləq mənada real həyatdan uzaqlaşmağa başladı. Belə bir vəziyyət ümumi iqtisad elminin mənafeyinə deyil, bilavasitə riyaziyyatın özünə xidmət etdyinə görə iqtisad elminin əsas vəzifəsi hesab olunan real iqtisadi proseslər, iqtisadi siyasətin işlənib hazırlanması tədbirləri bir növ kölgədə qalmış oldu. Bu da səmərəli makroiqtisadi siyasət prinsiplərinin işlənib hazırlanmasına imkan vermədi. Əslində real iqtisadiyyatın fəaliyyəti konkret dövrdə dövlətin apardığı iqtisadi siyasətin nəticəsini əks etdirməyə başladı. Sözsüz ki, riyazi modellər əsasında tərtib olunan makroiqtisadi nəzəriyyənin

ən uğurlu modeli kimi AD-AS və İS-LM modelləri müstəsna olmaqla tətbiq olunan digər modellər öz əhəmiyyətini istənilən səviyyədə əks etdirə bilməmişdir. Çünki, hər bir model real iqtisadi prosesləri əks etdirməklə iqtisadi siyasətin tərtib olunması imkanını yaratmalıdır. Makroiqtisadiyyat sahəsində ilk fundamental dərsliklər keçən əsrin 50-ci illərindən başlayaraq dərc olunmuşdur. Bunlardan P.Samuelsonun «Əsas iqtisadi təhlil», P.Samuelsonun və U.Nordhauzun «İqtisadiyyat», R.Dorbnuş, S.Fişer və R.Şmalenzinin «İqtisadiyyat», Q.Menkyunun «Makroiqtisadiyyatın prinsipləri» və başqalarının dərsliklərini xüsusi qeyd etmək olar. Bundan əlavə, Qərb iqtisadçılarının dərc etdikləri iqtisadiyyata dair dərsliklərdə makroiqtisadiyyat xüsusi bölmə kimi fərqləndirilmişdir. Qeyd etmək lazımdır ki, Rusiyada da iqtisadi nəzəriyyəyə dair 130-dan artıq dərslik nəşr olunmuşdur ki, burada da makroiqtisadiyyat bölməsi ayrıca göstərilmişdir.

Azərbaycanda da müstəqillik illərində dərc olunmuş «Ümumi iqtisadi nəzəriyyə» və «İqtisadi nəzəriyyə» dərsliklərində makroiqtisadiyyata aid olan mövzular ayrıca bölmə şəklində olmasa da, lakin müəyyən ardıcıllıqla şərh olunmuşdur.

Riyazi modellər əsasında makroiqtisadçılar formal qaydada iqtisadi vasitələrdən istifadənin mahiyyətini göstərməklə faktiki olaraq iqtisadi siyasətə onun təsir dairəsini gücləndirə bilməmişlər. Bu istiqamətdə rəqabət və maliyyə sabitliyi modelini göstərmək olar. Belə bir meyil müvafiq iqtisadi siyasətin hazırlanması üçün ümumi müvazinətini əks etdirən modelin irəli sürülməsinə imkan verməmişdir. Bununla yanaşı neoklassik və keynsçi nəzəriyyəyə əsaslanan neoklassik sintez modeli bir çox aparıcı dünya ölkələrində pul-kredit siyasətinin tərtib olunmasında öz əhəmiyyətini göstərməyə başlamışdır. Bu istiqamətdə 2004-cü ildə Nobel mükafatı laureatları F.Küydlandın və E.Preskottun irəli sürmüş olduqları konsepsiyanı qeyd etmək olar. Belə ki, onlar iqtisadi siyasətlə işgüzar tsikllərin

determinantlarının müvəqqəti razılaşdırılması ideyasını irəli sürməklə makroiqtisadiyyatın dinamizmini əsaslandıra bilmişlər. Vaxt ərzində razılaşdırılan siyasət kimi onlar hakimiyyətin hər dövr ərzində öz fəaliyyətlərinin optimallaşdırılmasını göstərirdilər. Küydlandın və Preskottun ideyasının mahiyyəti belədir: hakimiyyət tərəfindən görülən tədbirlər nəticəsində meydana gələn inflyasiyanı xüsusi sektor əvvəlcədən görə bilir və konpensasiyaedici və yaxud da xərcləri örtəcək tədbirləri görürlər. Nəticədə ümumi səmərəliliyin səviyyəsi o qədər də aşağı düşmür. Keçən əsrin 80-ci illərində müvəqqəti uyğunsuzluq probleminin, aşağı inflyasiya həddi ilə iqtisadi müvazinətin tədqiqi belə qənaətə gəlmək imkanı vermişdir ki, hakimiyyətin diskresion siyasətinin həyata keçirdiyi şəraitdə də qiymət stabilliyini müəyyən şərait daxilində qoruyub saxlamaq olar.

Makroiqtisadiyyatın bir elmi istiqamət kimi formalaşmasında və inkişafında Keynsin 1936-cı ildə yazmış olduğu "Məşğulluğun, pulun, faizin ümumi nəzəriyyələri" adlı fundamental monoqrafiyası bu istiqamətdə XX əsrdə iqtisadi nəzəriyyədə, sözün həqiqi mənasında, inqilabi bir prosesə çevrildi. Nəticədə Keyns nəzəriyyəsinin dəstəklənməsi və ya tənqid olunması ilə əlaqədar iqtisad elmində yeni cərəyanlar, məktəblər və konsepsiyalar meydana gəldi. Qeyd etmək lazımdır ki, makroiqtisadiyyatın bu istiqamətdə inkişafı 60-cı illərə qədər davam etmiş oldu. Bundan sonrakı dövrlərdə yeni klassik məktəbə uyğun gələn ideyalar yarandı. Bununla əlaqədar olaraq M.Fridmenin və A.Şvardsın birgə dərc etdikləri "Birləşmiş Ştatların monitar tarixi" adlı kitablarında işgüzar tsikl probleminə toxunularaq Keynsçiliyin istehlak funksiyasına dair baxışlar tənqid edildi. Onlar qeyd edirdilər ki, iqtisadi qeyri-sabitliyin əsas səbəbi bütövlükdə səhv makroiqtisadi siyasətin aparılmasıdır. Beləliklə, onlar mərkəzi banklar üçün əsas məqsəd hesab olunan inflyasiya rejiminin aparılması ideyasını pul kütləsinin artım sürəti ilə iqtisadi artımın bəlli sürətlərinin

dəf edilməsilə əlaqələndirdilər. Belə bir vəziyyət indi də dünyanın bir çox ölkələrinin mərkəzi banklarında tətbiq olunur. Bundan sonra Lafferin «təklif iqtisadiyyatı», R.Lukasın «səmərəli gözləmə», P.Samuelsonun «iqtisadi sintez», C.Byukenenin və K.Errunun «sosial seçim» nəzəriyyələrinin meydana gəlməsi və onların makroiqtisadiyyata tətbiqi öz dəyərli töhfəsini vermişdir. Artıq makroiqtisadiyyat iqtisadi hadisələrin riyazi üsullarla deyil, həm də iqtisadi, sosial və psixoloji hadisələrin qarşılıqlı əlaqəli şəkildə öyrənilməsinə üstünlük verərək, bugünkü günə gətirib çatdırmışdır. Müasir makroiqtisadiyyatın tətbiqi başlıca olaraq aşağıdakı istiqamətlərdə aparılır: **iqtisadi fəallığın artırılması; dövlətin iqtisadiyyata müdaxiləsi həddi; iqtisadi stimullaşdırmanın təmin olunması; Milli iqtisadi inkişafın davamlı xarakter alması; qloballaşma prosesini nəzərə almaqla dünya təsərrüfat sisteminə inteqrasiya olunması.**

Cəmiyyət səviyyəsində fəaliyyət göstərən iqtisadi göstəricilərin sistemli və qarşılıqlı əlaqə və asılılığın tədqiq və təhlili makroiqtisadiyyatın predmetini təşkil edir. Halbuki mikroiqtisadiyyatın predmetini istehlakçının seçimi ilə faydalanmasına maksimum təminat verən və bu əsasdan da firma və ya müəssisənin öz mənfəətini maksimumlaşdıran seçim qaydalarının müəyyənləşdirilməsi təşkil edir. Makro- və mikroiqtisadiyyatın predmetlərinin müqayisəsindən görünür ki, birinci iqtisadi sübyektlərin məcmu fəaliyyətini öyrənir. Aqreqat göstəricilərinin qarşılıqlı və sistemli fəaliyyətinin seçimi və millət, cəmiyyət və dövlət mənafelərinin reallaşdırılması makroiqtisadiyyat vasitəsilə həyata keçirilir. Bu baxımdan makroiqtisadiyyat iqtisadi sistemin bütövlükdə funksional və səmərəli fəaliyyətinin təminatçısı kimi çıxış edir. Başqa sözlə, makroiqtisadiyyat irihəcmli və ya genişmiqyaslı problemlərin sistemli həlli yollarını göstərir. Bu əsasdan makroiqtisadi səviyyədə öyrənilən iqtisadi problemləri aşağıdakı şəkildə qeyd etmək olar:



26024

- ÜMM və ÜDM-in həcm və strukturunu müəyyən etmək;
- iqtisadi artımın mənbəyini, amillərini və həyata keçirilməsi mexanizmini öyrənmək;
- işsizliyi və məşğulluğu müəyyən edən iqtisadi mühiti aydınlaşdırmaq;
- inflyasiyanın səbəblərini və yumşaldılması yollarını müəyyən etmək;
- iqtisadi qeyri-sabitlik və tsiklik proseslərin səbəblərini göstərmək;
- makroiqtisadi müvazinətin təmin olunması və qorunması mexanizmini tədqiq etmək;
- milli iqtisadiyyatın xarici iqtisadi əlaqələrini öyrənmək;
- sabit qiymət siyasətinin həyata keçirilməsi strategiyasını əsaslandırmaq;
- iqtisadi təhlükəsizliyin təmin olunması istiqamətlərini göstərmək;
- tədiyyə balansı ilə valyuta kursunu müəyyən etmək;
- iqtisadiyyata dövlət müdaxiləsinin həddini, tənzimlənməsini və bu istiqamətdə həyata keçirdiyi iqtisadi siyasətin mahiyyətini tədqiq etmək.

Göstərilən bu istiqamətlərin hər birinin öyrənilməsi neoklassik məktəbdə olduğu kimi, abstrakt şəkildə deyil, real həyatda mövcud olan şəkildə nəzərə alınır.

Makroiqtisadiyyatın müasir şəraitdə rol və əhəmiyyətinin artması milli dövlət quruculuğunun artması ilə əlaqədardır. Milli iqtisadiyyatın formalaşması və inkişafı naminə, beynəlxalq inteqrasiya əlaqələrinin genişlənməsi, qloballaşma prosesinin sürətlənməsi şəraitində istər-istəməz makroiqtisadi siyasətin meydana gəlməsi baş verir. Ona görə də makroiqtisadiyyatın öyrəndiyi sahələrdən biri kimi iqtisadi siyasət də əhəmiyyət daşıyır. Əslində makroiqtisadiyyatın səciyyələndirici cəhət kimi sistemli şəkildə öyrəndiyi

və təhlil etdiyi iqtisadi göstəricilərin mövcud vəziyyəti və onun dünya, regional səviyyədə gedən iqtisadi proseslərlə uzlaşdırılması prizmasından qiymətləndirilməsidir. **Artıq makroiqtisadi vəziyyət, təkcə ölkədaxili problemlə deyil, qloballaşma prosesinin dərinləşdiyi dünya təsərrüfat sistemində baş verən dəyişikliklərlə əlaqələndirilərək öyrənilməlidir.** Təkcə bir faktı qeyd etmək olar ki, son illərdə dünya bazarında neftin qiymətinin qalxması, makroiqtisadi göstəricilərin səviyyəsinə, təkrar istehsalın miqyasına ciddi təsir göstərməklə, büdcə-vergi, pul-kredit, valyuta, struktur və sosial siyasət sahəsində ciddi dəyişikliklərin aparılması zərurətini meydana çıxarmışdır. Belə hal keçid iqtisadiyyatlı ölkələrin yeritdiyi makroiqtisadi siyasətdə daha tez büruzə verilir. Ona görə də makroiqtisadiyyatın mənimsənilməsində makroiqtisadi siyasətin mahiyyətinin öyrənilməsinin də xüsusi əhəmiyyəti vardır.

Makroiqtisadi siyasət bilavasitə dövlətin iqtisadi siyasətindən doğduğuna görə, onu idarəetmə və tənzimlənmə çərçivəsində deyil, sadəcə istiqamət kimi qeyd etmək olar. Ona görə də makroiqtisadi siyasət konkret iqtisadi həyatın reallıqlarından doğan və həyata keçirilməsi mümkün olan vasitədir. Onu konkret olaraq aşağıdakı kimi qeyd etmək olar:

- ekoloji siyasət;
- xammal və yarımfabrikatların ixracı siyasəti;
- yüksəkixtisaslı işçilərin artırılması siyasəti;
- dönərli valyuta siyasəti;
- idxal əməliyyatı siyasəti;
- emal sənayesinin inkişafı siyasəti;
- yüksək texnologiyaların mənimsənilməsi yolu ilə idxal olunan məhsulların əvəz olunması sahələrinin yaradılması siyasəti;
- antiinflyasiya siyasəti.

Qeyd olunan bu siyasətlərin hər birinin makroiqtisadi səviyyədə ayrı-ayrılıqda deyil, çox hallarda qarşılıqlı

şəkildə həyata keçirilməsi nəzərdə tutulur ki, bu da uzunmüddətli iqtisadi-sosial inkişaf strategiyasının tərkib hissəsində öz əksini tapır. Qeyd olunan bu siyasi istiqamətləri daha ətraflı göstərmək olar.

Makroiqtisadi siyasətin formalaşması mövcud iqtisadi resursların milli və ya dövlət mənafeləri baxımından səmərəli və dolğun istifadəsinə əsaslanır. Bəlli olduğu kimi, torpaq müqəddəs resurs olmaqla hər bir millətin sərvətinin mənbəyini təşkil edir. Torpağın özündən və onun təkindən istifadəyə görə dünya dövlətlərinin hər birinin özünəməxsus qanunvericiliyi var ki, bu da bu istiqamətdə ətraf mühitin qorunması kimi makroiqtisadi siyasət formalaşdırır. Bundan əlavə, xammal ixracının xarici ticarət dövriyyəsində azaldılması və ondan hazırlanan son məhsulun texniki parametrlərinin təmin olunması, rəqabətqabiliyyətinin yaradılması makroiqtisadi siyasətin mühüm istiqaməti kimi çıxış edir. Hər bir ölkədə yüksəkixtisaslı kadr və mütəxəssislərin sayının artırılması, müasir informasiya texnologiyasından istifadə sahəsində biliyin, savadın, təhlilin artırılması makroiqtisadi siyasət kimi özünü əks etdirir. Bundan başqa, hər bir ölkənin qızıl və valyuta ehtiyatının artırılması onun ehtiyat pul mənbəyini təşkil edir. Ona görə də bu ehtiyatlardan milli iqtisadiyyatın fəallaşması, bazar mühitinin stimullaşdırılması və milli sərvətin artırılması istiqamətində istifadə olunması, makroiqtisadi siyasətin bu istiqamətdə formalaşmasını tələb edir.

Müasir dövrdə dünya bazarında ÜTT – Ümumdünya Ticarət Təşkilatının üstün mövqedə olması və bu istiqamətdə müəyyən qaydaların yaranması ilə idxal-ixrac sahəsində bir sıra problemlərin həlli zərurəti meydana çıxır. Xüsusən xarici əmtəələrin idxalı sahəsindəki məhdudiyyətlərin aradan qaldırılması sahəsindəki ÜTT qərarı, dünyanın hegemon dövləti kimi ABŞ tərəfindən yeridilən xarici iqtisadi siyasət vasitəsilə həyata keçirilməsi qeyri-mümkünləşir. Ona görə də bu təşkilata üzv və ya üzv olmaq istəyən

dövlətlər müvafiq makroiqtisadi siyasət yeritmək məcburiyyətində qalırlar. Çünki dünyanın iri və inkişaf etmiş dövlətləri yenə də xammal və yarımfabrikatların ixracının stimullaşdırılmasına üstünlük verməklə, həmin məhsulların müqabilində elmtutumlu məhsulların verilməsi nəzərdə tutulur. Məqsəd xərc artımının mənbəyi olan enerjidən və tükənən materiallardan istifadənin məhdudlaşdırılmasını həyata keçirməkdən ibarətdir.

Bəlli olduğu kimi, müasir xarici ticarət dövriyyəsində artıq qiymətli metallardan deyil, dönərli valyutadan istifadə edilir. İdxal və ixracın həcminin bərabər olması, idxala dönərli valyutanın xərclənməməsi deməkdir. Yəni beynəlxalq müqavilələrdə bir adlı məhsulun digər adlı məhsula olan mübadiləsi nəzərdə tutulduğundan paritet faydalanma prinsipini, idxal-ixrac əməliyyatları zamanı nəzərə almaq zərurəti meydana gəlir.

Aparıcı dünya ölkələri qloballlaşma prosesindən bəhrələnmək istiqamətində yenə də xammal və yarımfabrikatların idxalına üstünlük verirlər. Bu da həmin ölkələrdə emal sənayesinin inkişafına təkan verən amil kimi çıxış edir. Nəticədə xammal və yarımfabrikat ixracatlı dövlətlərin emal sənayesinin durğunluğuna səbəb olur. Ona görə də ilkin xammal, yarımfabrikat ixracatından əldə olunan gəlirləri daxili investisiya kimi milli iqtisadiyyatın inkişafına təkan verən emal sənayesinin yüksəlməsinə yönəldilməsi makroiqtisadi siyasət istiqamətini alır.

Bundan əlavə, iqtisadiyyat üçün onun inkişaf səviyyəsindən asılı olmayaraq mövcud olan inflyasiya prosesi ilə bağlı meydana gələn problemlər antiinflyasiya siyasətinin həyata keçirilməsi qaçılmaz zərurətə çevrilir.

Məhsul və xidmətlərə qiymətin artımı real əməkhaqqının həcminin azalmasına gətirib çıxarır. Xərclərin artımı şəraitində meydana gələn bahalaşma, təkcə qiymətqalxmanın məhdudlaşdırılması yolu ilə deyil, eyni zamanda faiz dərəcələrinin tənzimlənməsi ilə təminatlı minimum

əməkhaqqının artırılması yolu ilə yumşaldıla bilər. Bu o şəraitdə həyata keçirilə bilər ki, enerjidaşıyıcı məhsullarının, nəqliyyat xidmətlərinin qiyməti mərkəzləşdirilmiş şəraitdə qaldırılıb. Digər tərəfdən, məhsulların qiyməti digər səbəblərdən, xüsusi ilə inhisarlaşma şəraiti ilə əlaqədar artmışdır. Belə şəraitdə qiymətlərin tənzimlənməsində müxtəlif metodlardan istifadə olunur. Ya inzibati məhdudlaşdırma metodundan, ya həmin sahəyə daxilolmanın stimullaşdırma metodundan, ya da ki, paritet qiymət metodundan istifadə edilir. Əlbəttə belə metodların tətbiqi təbii inhisar və təkmil rəqabət mühitinin formalaşmasından asılıdır.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, makroiqtisadiyyat qarşılıqlı əlaqə və asılılıqda olan və daima hərəkətdə olan aqreqat göstəricilərin mahiyyətini öyrənməklə, konkret nəticələrin əldə olunmasına təkan verir.

## 1.2. Makroiqtisadi modellərin formalaşmasının xüsusiyyətləri

Makroiqtisadi təhlilin aparılmasında model prinsipindən istifadə edilir. Onun mahiyyəti əsasən müxtəlif iqtisadi proseslərin funksional asılılığının üzə çıxarılmasından ibarətdir. Formal olaraq bu modellər məntiqi, qrafik, riyazi şəkildə tətbiq olunur. Hər bir model real vəziyyəti olduğu kimi göstərə bilməz. Çünki burada müəyyən abstrakt təxəyyüldən, kənarlaşmalardan, cari dəyişikliklərin vəziyyətindən eyni anda istifadə etmək mümkün deyil. Ona görə də hər hansı makroiqtisadi model dəqiq, mütləq və universal xarakter daşımır. Onlar yalnız iqtisadi hadisə və proseslərin qarşılıqlı əlaqəsindən doğan qanunauyğunluqların üzə çıxarılmasını və ümumi iqtisadi strategiyanın müəyyən edilməsini əks etdirir. Həmçinin makroiqtisadi model vasitəsilə müxtəlif iqtisadi problemlərin alternativ və çevik həlli üçün iqtisadi siyasətin seçilməsinə imkan verir. Makroiqtisadi modellərdən istifadə etməklə milli iqtisadiyyatın inkişaf

etdirilməsi üçün büdcə-vergi, pul-kredit, vergi, xarici ticarət vasitələrindən istifadə etməyin optimal həddini müəyyən etməyə imkan verir. Həmçinin makroiqtisadi sabitliyin təmin olunmasına və iqtisadiyyatda gedən tərəddüdlü vəziyyətlərin idarə olunmasına imkan verir.

Makroiqtisadiyyat iqtisadi nəzəriyyənin tərkib hissəsi olduğundan, onun üçün xarakterik olan iqtisadi metodlar makroiqtisadiyyat üçün də eynilik daşıyır.

Bəlli olduğu kimi, metod müxtəlif üsulların, prinsiplərin, fəndlərin məcmusu kimi, tədqiqatın məqsədinə nail olmağın yoludur. Ona görə də makroiqtisadiyyatın tədqiqat məqsədinə uyğun olaraq bir sıra metodlar özünü burada daha qabarıq büruzə verir. **Normativ** və **pozitiv**, abstraktdan konkretə doğru, analiz və sintez, tarixi və məntiqi metodlar belələrindəndir. Lakin makroiqtisadiyyatın özünəxas spesifik metodları da mövcuddur ki, tədqiqat prosesində bunlarsız keçinmək olmur. Bura aqreqat, model, dövran, müvazinət kimi prinsiplər daxildir.

«Məcmu» sözünü əks etdirən latın mənşəli «aqreqat» ifadəsi iqtisadi hadisələrin gedişatının qlobal səviyyəsi üçün xarakterikdir. Əgər mikroiqtisadiyyat ayrı-ayrı bazarlarda (buğda, taxta, neft, avtomobil və s.) tarazlığın xüsusiyyətlərini öyrənirsə, makroiqtisadiyyat bütövlükdə mövcud olan bazarlardakı nemətlərin müvazinət xüsusiyyətlərini tədqiq edir. Başqa sözlə, mikroiqtisadiyyat bir istehsalçının və bir istehlakçının və ya bir firmanın, bir ev təsərrüfatının fəaliyyətini öyrəndiyi halda, makroiqtisadiyyat bütövlükdə bütün milli iqtisadiyyatda mövcud olan bazar subyektlərinin məcmusunu öyrənir. Burada regional sahə, konkret müəssisə səviyyəsi sərf-nəzər edilir.

Beləliklə, makroiqtisadiyyat aqreqat kəmiyyətlər vasitəsilə iqtisadiyyatın hərəkətini vahid orqanizm şəklində təhlil edir. ÜDM-in (ayrı-ayrı firmaların məhsulu deyil) orta qiymət səviyyəsi (konkret məhsulun qiyməti deyil), faizin bazar məzənnəsi (ayrı-ayrı bankların faizi deyil),

inflyasiyanın, məşğulluğun, işsizliyin səviyyəsini funksional asılılıqlar şəraitində təhlil edir.

Makroiqtisadi nöqteyi-nəzərincə bütövlükdə milli iqtisadiyyat dörd iri blokdan ibarətdir:

- ev təsərrüfatı (minimum xərclə maksimum faydalanma);
- sahibkarlıq bölməsi (öz fəaliyyəti ilə maksimum mənfəət əldə etmək);
- dövlət bölməsi (milli iqtisadiyyatın optimal fəaliyyət göstərməsi üçün nemətlərin istehsalını və satışını təmin edir, vergiləri yığır, sosial və ekoloji sfera ilə bağlı fəaliyyət);
- xarici bölmə (xaricdəki iqtisadi subyektlərin fəaliyyəti ilə bağlı milli tədiyyə balansının və valyuta məzənnəsinin vəziyyətini müəyyən etmək).

Bu blokların qarşılıqlı fəaliyyətini makroiqtisadiyyat aqreqat metodu vasitəsilə tədqiq edir.

İqtisadi hadisələrin və proseslərin formal fəaliyyəti və qarşılıqlı əlaqəsi modellər vasitəsilə tədqiq olunur. Real həqiqətin üzə çıxarılmasında model metodunun əhəmiyyəti ondadır ki, o, iqtisadi həyatda gedən qanunauyğunluqları üzə çıxarır. Digər tərəfdən makroiqtisadi model endoqon (daxili) dəyişikliklərin mahiyyətini və qanunauyğunluqlarını üzə çıxarır. Ekzoqon (xarici) iqtisadi dəyişikliklərin mahiyyət və qanunauyğunluqlarını üzə çıxardır. Belə şəraitdə makroiqtisadi model vasitəsilə endoqon dəyişikliklərinin inkişafını ekzoqon dəyişikliklər şəraitində əsaslandırılmasıdır.

Endoqon və ekzoqon kəmiyyətlər arasındakı funksional əlaqə özünü əsasən:

- istehlakçı funksiyası ilə (ev təsərrüfatında istehlakın artımı funksiyasının gəlir kəmiyyətindən asılılığı);
- texniki funksiya (istehsal funksiyası kimi əmək və kapitalın payının dəyişilməsi);
- institusional funksiya (gəlir və vergi arasındakı nisbət).

Vaxt və məkan şəraitində iqtisadi proseslərin gedişatına ehtiyat və axın dəyişiklikləri də təsir göstərir ki, bu da özünü dövran modeli kimi əks etdirir.

Dövran modeli öz fəaliyyətinə görə açıq və qapalı iqtisadiyyatlar üçün fərqlənir. Eyni zamanda həm açıq, həm də qapalı iqtisadiyyatlarda dövlətin rolu müxtəlif olur. Qapalı iqtisadiyyatlarda ehtiyat və axın dəyişikliklərində əgər yalnız xüsusi ev təsərrüfatı ilə sahibkarlıq bölməsi üstünlük təşkil edirsə, onda iqtisadi fəaliyyətin miqyası və inkişafı məhdud xarakter daşıyır. Yəni ev təsərrüfatında və sahibkarlıq səviyyəsində məhsul istehsal edirlər. Çünki mübadilə prosesinə bərabərsəviyyəli nemət və xidmətlər çıxarılır.

Makroiqtisadi təhlilin aparılmasında ümumi müvazinat modelindən istifadənin xüsusi əhəmiyyəti vardır. «Ümumi müvazinət» terminini iqtisad elminə L.Valras gətirdiyinə görə, bəzi hallarda ona Valras qanunu da deyilir. Valras qanununa görə əgər bir bazardan başqa digərlərində müvazinət mövcuddursa, onda həmin bazar da müvazinət vəziyyətindədir. Bu qanundan çıxış edərək, makroiqtisadiyyat milli iqtisadiyyatın bütün bazarlar məcmusunu təhlil edir. Lakin bu heç də o demək deyil ki, makroiqtisadi milli iqtisadiyyatda mövcud olan bütün bazarları öyrənir. Burada da qruplaşdırılma prinsipindən istifadə edilir. Bazarların qruplaşdırma yolu ilə müvazinət modelinin tətbiqində aqreqat modelindən istifadə edilir. Yəni eyni növ və xüsusiyyətə malik olan bazarların məcmusuna üstünlük verilir:

- Məcmu əmtəə və xidmətlər bazarı;
- Məcmu qiymətlər bazarı;
- Məcmu əmək bazarı;
- Məcmu pul bazarı.

Makroiqtisadi təhlil şəraitində bu bazarların hər birinin ümumi müvazinəti öyrənilməklə onların qarşılıqlı əlaqəsinə əsaslanan məcmu tələblə məcmu təklif (AD – AS),

məcmu əmanət yığımı (S) və məcmu investisiya (İ) ilə pula və pul kütləsinə olan (M) məcmu tələb (**İS – LM**) arasında həm ayrı-ayrılıqda, həm də bütövlükdə bərabərliyin təmin olunmasını göstərir.

İstehsalın inkişaf etdirilməsi üçün investisiyanın tətbiqi nəzərə alınmır. Belə halda təkrar istehsal dəyişilməz miqyasda qalır ki, bu da gələcəkdə artmaqda olan tələbatların ödənilməməsi ilə əlaqədar böhran və durğunluğun baş verməsinə səbəb olur. Həmçinin belə şəraitdə «əmlak bölməsi» formalaşmağa başlayır. Yəni ev təsərrüfatında əldə olunan mənfəətin bir hissəsini, sahibkarlar bölməsi mənfəətinin əksər hissəsini «əmlak bölməsinə» yönəltmək məcburiyyətində qalırlar ki, bu da gəlir artığının əmlak kimi cəmiyyət yığımına səbəb olur.

Dövran modelində dövlətin iqtisadiyyata müdaxiləsi və iştirakı müxtəlif nəticələrin əldə olunmasına səbəb olur. Məsələn, sahibkarlara sifariş vermək yolu ilə (körpülərin tikilməsi, yolların çəkilməsi və s.) cəmiyyət səviyyəsində nemətlərin dövranını sürətləndirə bilər. Burada da bir cəhət nəzərə alınmalıdır ki, əgər sifariş yolu ilə nemətlərin dövranına təsir göstərilirsə, onda dövlət xərclərinin artımı baş verər və büdcə kəsiri yüksələ bilər. Əgər nəzərdə tutulan sifarişlər dövlət sahibkarlığı vasitəsilə həyata keçirilərsə, onda məhsul artıqlığı baş verər. Yəni əlavə xərci əlavə mənfəət əvəz edəcək ki, bu da büdcənin gəlir hissəsinin artımına, xərc hissəsinin isə dəyişilməz qalmasına səbəb olacaq.

Bundan əlavə, dövlət xüsusi bölmədən bazar qiymətləri ilə məhsullar alarsa, onda bir tərəfdən həmin sahədəki biznesin inkişafına səbəb olmaqla ondan birbaşa və dolayı vergilər alır. Eyni zamanda həmin sahənin stimullaşmasına səbəb olmaqla daimi vergi ödəyicilərinin sayını artırır. Belə hal həm qapalı, həm də açıq iqtisadiyyat şəraitində baş verir. Qapalı iqtisadiyyat dedikdə, burada iqtisadi sistemin xaric ilə əlaqəsi olmayan təsərrüfatçılıq nəzərdə tutulur. Əlbəttə bu da qeyri-mümkün olan prosesdir. Hər halda ayrı-

ayrı hallarda belə təsərrüfatçılıq ola bilər. Ona görə də qapalı və açıq iqtisadiyyatlar fərqləndirilir. Həmçinin iqtisadiyyatın açıq səviyyəsi üçün «xarici bölmə»ni əks etdirən cəhət idxal-ixrac əməliyyatlarının gedişatı, onların coğrafiyası üstünlük təşkil edir. İdxal və ixrac arasındakı fərq xalis idxalı əks etdirir və ya əksinə. Bundan da asılı olaraq ölkənin tədiyyə balansı formalaşır. Tədiyyə balansı xaricdə olan rezidentlərin gəliri ilə ölkə daxilindəki qeyri-rezidentlərin gəliri arasındakı fərqdən və beynəlxalq transferlərdən ibarətdir. Xarici gəlirlərin xərcləri üstələməsi dövlətin tədiyyə balansının müsbət cəhətini, əks prosesin olması isə onun mənfi tərəfini əks etdirir. Dövran modelində xarici bölmənin nəzərə alınması olduqca vacibdir. Çünki yalnız bu model vasitəsilə ÜMM həcmi haqqında məlumat əldə etmək olar.

## 1.3. Makroiqtisadi təhlilin aparılmasının əsasları

Makroiqtisadi təhlilin aparılmasında əsasən «statistik», «balans» və «riyazi» metodlardan istifadə olunur ki, bu da milli iqtisadiyyatda baş verən proseslərin asılılığının kəmiyyət tərəfini əks etdirir. Bu asılılıqları müəyyən etməklə tətbiq olunacaq makroiqtisadi siyasət vasitəsilə cəmiyyət səviyyəsində iqtisadi proseslərin keyfiyyət tərəfini təmin etmək olar. Makroiqtisadi təhlil çox hallarda riyazi bərabərliyin təmin olunması əsasında aparılır. Bu da dəyişilən aqreqatların funksional asılılığını üzə çıxarır. Hər şəraitdə makroiqtisadi modellər tarazlı və müvazinətli xarakter daşıyır. Belə şəraitdə həm bir-biri ilə bilavasitə əlaqəli olan göstəricilərin bərabərliyi zərurəti üzə çıxarılır, həm də bütövlükdə resurs və gəlir axınının hərəkətinin səmərəliliyi müəyyən edilir. Bütün bazarlarda istehsal və satış həcmi, gəlir və xərclərin, məcmu tələblə məcmu təklifin, əmanətlərlə investisiya arasındakı uyğunluğunun üzə çıxarılması mümkünləşir. Düzdür, real həyatda bunu əldə etmək bir o

qədər də mümkün deyil. Lakin bu bərabərliyin uyğunluğu, müvazinətin əldə olunması makroiqtisadi təhlilin əsasını təşkil edir. Təhlil prosesində əsasən iki mexanizmdən istifadə olunur:

- ümumiləşdirməkdən;
- modelləşdirməkdən.

Ümumiləşdirmə dedikdə, burada iqtisadiyyatın ayrıca sahəsi deyil, bütövlükdə iqtisadiyyat üçün xarakterik olan proseslər əsas götürülür. Ona görə də makroiqtisadi təhlildə ümumiləşdirilmiş göstəricilərdən, ÜMM-dən, işsizlik səviyyəsindən, inflyasiya səviyyəsindən, faiz dərəcəsindən və s. istifadə olunur.

Modelləşdirmə dedikdə, müxtəlif iqtisadi subyektlərin bütövlükdə qarşılıqlı təsir mexanizminə əsaslanan təhlil nəzərdə tutulur. Müxtəlif iqtisadi hadisə və proseslərin qarşılıqlı əlaqəsinin üzə çıxarılması çox hallarda artıq özünü model kimi əks etdirən:

- AD (məcmu tələb) – AS (məcmu təklif) modelindən;
- İS (investisiya, əmanət) – LM (pula tələb, pul kütləsi) modelindən;
- Neoklassik modeldən; burada təklifin özünə tələbin yaradılması əsas götürülür;
- C.Keyns modelindən; burada səmərəli tələb və təklifi özünə uyğunlaşdırır;
- Fillips əyrisi modelindən;
- Laffer əyrisi modelindən;
- Solou modelindən və s.

Modelləşmə üsulundan istifadə etdikdə, bütün digər şərtlərin eyniliyi prinsipi ilə, yəni yalnız bir amilin dəyişilməsi ilə, qalan digər amillərin sabitliyi şəraitində asılılıq nəzərdə tutulur.

Halbuki makroiqtisadiyyatda çoxlu göstəricilərdən istifadə olunur. Buna baxmayaraq onlar da əsas üç qrupa bölünür:

- axın göstəriciləri; bunlara zaman kəmiyyəti ilə ölçülən ÜMM, ÜDM, XMM, MG, sərəncamda qalan gəlir, əmanət, investisiya, büdcə kəsiri və s. aiddir;

- ehtiyat və aktivlər göstəriciləri; bunlara real kapital, maliyyə aktivləri, real kassa qalığı, intellektual mülkiyyət hüququ və s. aiddir;

- iqtisadi konyunktura göstəriciləri; bunlara faiz dərəcəsi, qiymət səviyyəsi, kapital aktivlərinin gəlirlilik norması, inflyasiya və işsizlik səviyyəsi və s. aiddir.

Həm ümumiləşdirmə, həm də modelləşdirmə metodlarından istifadənin əsas məqsədi iqtisadi proseslərin müəyyən zaman kəsiyində qiymətləndirilməsindən ibarətdir.

Müəyyən vaxt ərzində makrosəviyyədə alıcılarla satıcılar arasındakı uyğunsuzluğun mövcud olması, istehsal olunan məhsulların alınmaması və ya ehtiyac olunan məhsul və xidmətlərin əldə olunmaması, sərbəst pul resurslarının mövcud olması cəmiyyətdə istər-istəməz qeyri-sabitliyin əmələ gəlməsinə və ya böhranlı proseslərin baş verməsinə gətirib çıxaracaq. Bu da cəmiyyətin itkisi, sosial gərginlik deməkdir. Bunların aradan qaldırılması yalnız makroiqtisadi səviyyədə mümkündür. Çünki vaxt və məkan şəraitində iqtisadi problemləri müəyyən etmək, onların həlli istiqamətini göstərməklə ümumi səmərəni əldə etmək mümkündür. Bəllidir ki, iqtisadi fəallığın təmin olunması, bilavasitə makroiqtisadiyyatın əsasını təşkil edən iqtisadi artımın, iqtisadi tsiklin, məşğulluğun, məcmu tələbin, məcmu təklifin, inflyasiyanın qarşılıqlı əlaqə və asılılığının təmin olunmasından asılıdır. Makroiqtisadi təhlil zamanı bu göstəricilər «bir məcmu istehsalçı», «bir məcmu istehlakçı» və «bir məcmu xərc» mövqeyi əsas götürülür. Eyniliklə belə yanaşma «məcmu qiymət səviyyəsi», «vahid faiz norması», «ümumi əmanət məbləği», «ümumi investisiya həcmi» göstəricilərinin təhlili zamanı da tətbiq olunur. Makroiqtisadi təhlil zamanı qeyd olunan bu göstəricilərlə yanaşı, «dövlət müdaxiləsi» və «xarici iqtisadi əlaqə» göstəricilərindən də istifadə

olunur ki, bu da real iqtisadi həyatda baş verən proseslərin mahiyyətini tam açmağa imkan verir. Halbuki bunu mikroiqtisadi səviyyədə həyata keçirmək qeyri-mümkündür. Makroiqtisadi təhlildə subyektlərin sayının artması mürəkkəb xarakterli tədqiqatın aparılmasına gətirib çıxarır. Bununla əlaqədar makroiqtisadiyyat əsasən dörd: **əmtəə, əmək, pul və qiymətli kağızlar bazarı** sistemindəki xüsusiyyətləri əvvəl ayrı-ayrılıqda, sonra isə vəhdət şəklində öyrənməklə onları vahid **makrobazar** vəziyyətinə gətirir. Burada vaxt amilinin rolu nəzərə alınmaqla dinamik modeldən istifadə olunması zərurəti meydana gəlir. Makroiqtisadi dinamik modellər qısamüddətli, ortamüddətli və uzunmüddətli növlərə ayrılır. Bu da vaxt intervalı şəraitində milli iqtisadi istehsal amillərinin dəyişilməsi, nisbət və xüsusiyyətlərini üzə çıxarmağa imkan verir.

Dinamik iqtisadi modellərin fəaliyyət xüsusiyyətinin müəyyənləşdirilməsində bilavasitə makroiqtisadi nəzəriyyənin əsasını təşkil edən və onun tədqiqində konseptual rol oynayan ümumi müvazinət əvəzsiz və bəlkə də yeganədir. Bu onunla əlaqədardır ki, **ümumi müvazinət, milli iqtisadiyyatın optimal xarakter alması üçün, real vəziyyətdən düzgün istifadə etmək meylini müəyyən edir.** Ümumi müvazinətə doğru hərəkət, hər şeydən əvvəl:

- iqtisadi sistemin səmərəli xarakter almasına;
- tam məşğulluğun təmin olunmasına;
- inflyasiyanın yumşaldılmasına;
- davamlı iqtisadi artımın əldə olunmasına olan cəhd

kimi qiymətləndirilməlidir.

Düzdür, real həyatda makroiqtisadi müvazinətə nail olmaq olduqca çətindir, lakin bütün iqtisadi fəaliyyət ona doğru yönəldikdə mövcud problemləri itkisiz həll etmək imkanı verir.

Qeyd etmək lazımdır ki, makroiqtisadi müvazinətin təmin olunması ideyası elə ilk başlanğıc nöqtəsini klassik məktəbin görkəmli nümayəndələri A.Smitin, D.Rikardo-

nun, Ç.Millin, M.B.Seyin və b. ideyalarından götürür. Xüsusən A.Smitin «görünməyən əl» prinsipi, Sey qanunu kimi tanınan «əmtəələrin təklifi özünəməxsus olan tələb yaradır» ideyası buna bariz misaldır. Neoklassik istiqamətin görkəmli nümayəndələri A.Marşall, A.Piqu, Ç.Klark, İ.Fişer klassik məktəbin konseptual ideyaları əsasında bazar sisteminin daha səmərəli fəaliyyəti üçün mikrosəviyyədə olsa da, iqtisadi müvazinətin əldə olunması üçün olduqca dəyərli ideyalar irəli sürmüşlər. Xüsusən bazar şəraitində fərdlərin davranışının faydalılığı, təkmil rəqabət, qiymət çevikliyi, iqtisadiyyatın «statik» və «dinamik» vəziyyəti istehsal vasitələrinin «son faydalılıq», «son məhsuldarlıq» hədd nəzəriyyələri kifayət qədər iqtisadi sistemin özü-özünə tənzimlənməsi ideyasının əsaslanmasına gətirib çıxarmışdır. Burada əsas məsələ kimi dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudlaşdırılması prinsipi əsas yer tuturdu. Lakin XX əsrin 30-cu illərindəki dünya böhranı, qabaqcıl ölkələrin iqtisadiyyatında işsizliyin, inflyasiyanın artması, kapitalist iqtisadiyyatının tsiklik xarakter daşıması, bütövlükdə bütün bazar sisteminin iflic vəziyyətə düşməsi, yeni bir elmi istiqamətin C.M.Keynsin adı ilə bağlı olan keynsçiliyin meydana gəlməsinə səbəb oldu. Məhz bazar sisteminin müvazinətli xarakter alması üçün o, dövlətin iqtisadiyyata müdaxilə etməsi əsasında makroiqtisadi nəzəriyyənin təməl prinsiplərini müəyyənləşdirdi. Keyns ideyalarına əsaslanan neokeynsçilər – E.Domar, E.Hansen, F.Modelyani, C.Tobin və son dövrlərdə formalaşan N.Menkyu, O.Blanşar, Ç.Stiqlis və başqaları özütənzimlənən bazar ideyasının dövlət müdaxiləsi olmadan qeyri-mümkünlüyünü isbat edə bildilər. Düzdür, burada neokeynsçilərlə yeni keynsçilər arasında müəyyən fikir ayrılığı mövcuddur ki, bu da yeni keynsçilərin makroiqtisadi təhlil zamanı mikroiqtisadiyyata əsaslanması zəruriliyinin irəli sürülməsi fikri ilə əlaqədardır. Eyni zamanda müəyyən fikir ayrılığı:

- qiymətlərin çevik olmaması;

- qeyri-müəyyənliyin olması;
- informasiyanın təkmil olmaması;
- qlobal proseslərin nəzərə alınması ilə əlaqədardır.

Müasir keynsçilər, ümumiyyətlə, belə hesab edirlər ki, bazarın stabil fəaliyyət göstərməsi üçün dövlətin müdaxilə roluna yenə də xüsusi əhəmiyyət verirlər. Belə bir yanaşma hazırkı dünya maliyyə və iqtisadi böhran şəraitində yeni səpkidə nəzərə alınması daha vacib tədbirdir ki, önə çəkilir.

Bütövlükdə deyil, yalnız qısa müddət ərzində iqtisadiyyata dövlət müdaxiləsini qəbul edən monetaristlər makroiqtisadi müvazinətin pul-kredit vasitəsilə tənzimlənməsini qəbul edirlər. Lakin iqtisadi sistemin səmərəliliyinin pul kəmiyyəti vasitəsilə artırılması və dövlət müdaxiləsinin məhdudluğu ideyası ön plana çəkilir. Monetar istiqamətin yaradıcısı, Çikaqo məktəbinin görkəmli nümayəndəsi M.Fridmendir. Bu istiqamətə yaxın olan digər bir iqtisadi nəzəriyyə də mövcuddur ki, bu da səmərəli gözləmə nəzəriyyəsidir. Onun görkəmli nümayəndələri C.Mut, T.Sardjent, R.Lukas, ümumiyyətlə, hər cür dövlət müdaxiləsini kəskin tənqid edirlər. Onlar belə hesab edirlər ki, bazarın müvazinətinin təmin olunmasında, qiymət və əməkhaqqının bazar konyukturası ilə əlaqələndirilməsi xüsusi rol oynayır. Belə şəraitdə həyata keçirilən hər bir iqtisadi siyasətə inam yaranar. Halbuki neokeynsçilər makroiqtisadi müvazinətin təmin olunmasında əməkhaqqının və qiymət dəyişikliklərinin ləng nüfuzuna üstünlük verirlər.

Makroiqtisadi müvazinətin təmin olunmasında müxtəlif fikir ayrılığının olmasına baxmayaraq makroiqtisadi təhlilin aparılmasında məqsəd:

- ölkə üzrə mövcud resurs axını ilə gəlir axını arasındakı dövranı təmin etmək;
- məcmu tələb ilə məcmu təklif arasındakı proporsiyanı yaratmaq;

- məcmu əmanət və məcmu investisiya arasındakı nisbəti yaratmaq;

- pul təklifi və pul kütləsi arasındakı müvazinətin funksional asılılıqlarını üzə çıxarmaqdan ibarətdir.

Yalnız qeyd olunan bu göstəricilər vasitəsilə iqtisadiyyatın optimal səviyyəsini müəyyən etmək olar. Həm də milli iqtisadiyyatın mövcud və gələcək inkişaf səviyyəsinin real vəziyyətini qiymətləndirmək olar. Ümumi və ya makroiqtisadi müvazinətin yaradılması, əslində iqtisadi mühitə uyğun gələn qiymət səviyyəsinin yaradılması, tam məşğulluğun təmin olunması, inflyasiya prosesinin yumşaldılması və davamlı iqtisadi artıma nail olunması cəhdi kimi nəzərə alınmalıdır.

# II FƏSİL. MAKROİQTİSADİYYATIN TƏDQİQİNİN KONSEPTUAL ƏSASLARI: MİLLİ İQTİSADİYYAT

**2.1. Milli iqtisadiyyat anlayışı**
**2.2. Milli iqtisadiyyatın iqtisadi potensialı**
**2.3. Milli iqtisadi inkişaf modelinin formalaşması prinsipləri**

## 2.1. Milli iqtisadiyyat anlayışı

Artıq biz gördük ki, makroiqtisadiyyat iqtisadi nəzəriyyənin tərkib hissəsi kimi, ölkə iqtisadiyyatının məqsədini, inkişaf şərtlərini, amillərini və nəticələrini bütövlükdə öyrənir. Ölkə iqtisadiyyatının məqsəd və vəzifələrinin geniş, əhatəli və sistemli şəkildə öyrənilməsi makroiqtisadiyyatın tədqiqində iki müstəqil problemin qarşılıqlı əlaqə şəklində təhlil olunmasına əsas verdi:

- milli iqtisadiyyatın özəlliklərinin təhlilinə;
- ictimai təkrar istehsalın bütövlükdə iqtisadiyyatın mövcudluğunun qiymətləndirilməsinə.

Dünyada qəbul olunduğu kimi dövlət qurumlarının fəaliyyət xüsusiyyətlərindən asılı olmayaraq makroiqtisadiyyat, iqtisadi sistemin səmərəsini müəyyənləşdirməyə imkan verir. İqtisadi sistemin necə fəaliyyət göstərməsinin aydınlaşdırılması üçün həm milli iqtisadiyyatın inkişaf səviyyəsi, həm də ictimai təkrar istehsalın meyarları, makroiqtisadiyyatın konseptual əsası kimi araşdırılmalıdır. Halbuki, çox hallarda makroiqtisadiyyat, milli iqtisadiyyatla eyniləşdirilir ki, bu da problemin düzgün qiymətləndirilməsinə imkan vermir. Milli iqtisadiyyatla makroiqtisadiyyatın ümumi və oxşar cəhətləri var ki, bu da onların obyektlərinin eyniliyidir:

- vahid iqtisadi məkanın əsas götürülməsi;
- ÜDM-in səviyyəsi;
- iqtisadi artımın amilləri;

• ictimai istehsalın strukturu;

• təkrar istehsalın proporsiyaları və s.

İqtisadiyyat məvhumundan əvvəl ifadə olunan «milli» və «makro» anlayışları özlüyündə müxtəlif mənalar kəsb edir. Belə ki, «milli» məfhumu, müəyyən konkret tarixi şəraitdə yaranmış: insanların birlik formasını; ümumidövlət məfhumunu; təbii, coğrafi amillərlə əhatə olunmasını; mənəvi-dini dəyərlərə malik olmasını əks etdirir.

«Makro» məfhumu isə: böyük; iri miqyas ifadəsini verir.

Göründüyü kimi, «milli» və «makro» məvhumları eyniməzmunlu olmasalar da, lakin iqtisadi fəaliyyət prosesində onları yaxınlaşdıran cəhət eyni iqtisadi məkana əsaslanmalarıdır.

«Milli» məfhumu «Millət» anlayışından fərqlənir. «Millət» dedikdə ölkə əhalisinin böyük əksəriyyəti olan, eyni dilə, dinə, mənəvi, mədəni dəyərlərə malik olan insan birliyi başa düşülür. Lakin ölkə əhalisi müxtəlif millət və xalqlardan ibarət olduğuna görə milli iqtisadiyyat bütöv ölkə əhalisinin iqtisadi fəaliyyətinin nəticəsi kimi özünü büruzə verir. Milli iqtisadiyyatın əsas fərqləndirici xüsusiyyəti, müəyyən iqtisadi məkan və sərhəd çərçivəsində yaşayan əhalinin, mövcud iqtisadi potensialdan istifadə olunmasına görə spesifik xarakterli qanunauyğunluqlardan **konkret – tarixi şəraitdə** formalaşmasının üzə çıxarılmasıdır.

Tarixən yaranmış insan birliklərinin müəyyən ölkə və ya dövlət çərçivəsində iqtisadi fəaliyyəti, «milli iqtisadiyyat» adı altında formalaşmışdır.

Milli iqtisadiyyat nəzəriyyəsi XIX əsrin əvvəllərində Almaniyada görkəmli dövlət xadimi və alimi hesab olunan Fridrix Listin 1841-ci ildə dərc etdirdiyi «Siyasi iqtisadın milli sistemi» əsərində təşəkkül tapmışdır. İqtisadi nəzəriyyənin xüsusi inkişaf mərhələsinə daxil olan milli iqtisadiyyatın bazar təsərrüfatçılığı şəraitindəki **xüsusiyyətləri** önə çəkilmiş, onun **rəqabət** və **sahibkarlıq** mühiti ilə əlaqələndi-

rilməsi səviyyəsinə diqqət yetirilmişdir. Xüsusən **millətin mədəni və texniki səviyyəsi ilə bağlı davranışın** iqtisadi inkişafa olan təsiri göstərilmişdir. Daha sonralar XX əsrin birinci yarısında ordoliberalizmin görkəmli banisi digər alman iqtisadçısı Valter Oyken «Milli iqtisadiyyatın əsasları» əsərini yazmaqla milli iqtisadi sistemin formalaşması istiqamətlərini göstərdi. O qeyd edirdi ki, iqtisadi həyatın **institusional şəraiti** yalnız konstitusiyada hüquq normalarını deyil, həmçinin mövcud ölkəyə **xas olan adət və ənənələri də əhatə etməlidir**. Bu nəzəriyyəyə əsaslanan islahatçı dövlət xadimi Lyudviq Erxard AFR-da sosialyönümlü bazar təsərrüfatının formalaşmasına nail oldu. Beləliklə, Almaniyanın timsalında həm **iqtisadi siyasətin,** həm də **yeni səviyyəli iqtisadi nəzəriyyənin sintezləşdirilməsi** nəticəsində bazar təsərrüfatçılığı prinsiplərinə söykənən milli iqtisadi inkişaf modeli meydana gəldi.

Millətlərin iqtisadi inkişafının səbəbləri aşağıdakılardır:

- təbii və coğrafi məkan;
- müxtəlif məhsuldarlıqlı torpaqlar;
- iqtisadi, siyasi, mənəvi, mədəni dəyərlər;
- bu və ya digər sahəyə üstünlüyün verilməsi;
- iqtisadi sistemin xarakteri;
- fəaliyyət şəraitinin müxtəlifliyi;
- iqtisadi inkişaf mərhələlərinin müxtəlifliyi;
- fərdi təsərrüfata, ev təsərrüfatına və şəhər təsərrüfatına keçidin maddi-texniki qaydalarının müxtəlifliyi və s.

Göstərmək lazımdır ki, **iqtisadi qaydalarla** siyasi qaydaların uyğunluğu milli iqtisadiyyatın inkişafına təsir göstərir.

İqtisadi qaydaların tarixən üç forması mövcuddur:

- mərkəzdən idarə edilən iqtisadi qaydalar;
- sərbəst bazar tipinə xas iqtisadi qaydalar;
- rəqabətli bazar strukturuna xas iqtisadi qaydalar.

Siyasi qaydaların da dövlət timsalında əsasən üç forması var:

• demokratik prinsiplərə əsaslanan siyasi qaydalar;

• avtoritarizm, təkhakimiyyətliyə əsaslanan siyasi qaydalar;

• totalitarizm prinsiplərinə əsaslanan siyasi qaydalar.

Siyasi qaydaların hakimiyyət strukturu vasitəsilə cəmiyyət arasındakı münasibəti, **iqtisadi fəaliyyətin məqsədlərə nail olmağın** istiqamətini müəyyən edir. Bununla da milli iqtisadiyyatın inkişaf meyli müəyyənləşir. Yəni siyasi qaydalar çərçivəsində iqtisadi qaydaların tətbiqi, iqtisadi fəallığın səviyyəsini, mənafe və maraqların ödənilməsi imkanını, təşəbbüskarlığı, stimullaşdırmanı, məcburiyyəti, məsuliyyəti, seçimetmə şəraitini müəyyənləşdirir.

Müasir şəraitdə milli iqtisadiyyatın nəzəri əsaslarına və prinsiplərinə olan maraq xeyli artmışdır ki, bu da bir sıra amillərlə əlaqədardır:

• müstəqil dövlətlərin əmələ gəlməsi ilə;

• yeni milli iqtisadi inkişaf modelinin seçilməsi ilə;

• milli iqtisadi təhlükəsizliyin təmin olunması ilə;

• milli mənafelərin reallaşdırılması hədlərinin qorunması ilə;

• qloballaşma prosesindən irəli gələn iqtisadi problemlərin həlli ilə;

• dünya, regional inteqrasiya səviyyəsində öz funksional yerinin saxlanılması ilə.

Həmçinin ideoloji qaydaların, xüsusən cəmiyyət üzvlərinin dünyagörüşünün formalaşması, ümumi mentalitet səviyyəsi, dini əqidənin mövcudluğu, adət və ənənələrə riayət olunması amillərinin təsiri nəzərə alınsa, onda milli iqtisadiyyatın formalaşması və inkişafı xüsusiyyətlərini daha aydın görmək olar.

Beləliklə də qeyd etmək olar ki, **milli iqtisadiyyat müəyyən konkret tarixi şəraitdə mövcud iqtisadi potensialdan ölkə əhalisinin mənafelərinin reallaşmasını əks etdirən iqtisadi prosesdir.**

Deməli, əgər makroiqtisadiyyat, bazar sisteminin inkişafının müxtəlif modellərinin ümumi qanunauyğunluqlarından irəli gələn iqtisadi hadisələri öyrənirsə, lakin milli iqtisadiyyat ayrı-ayrı dövlətlərin inkişafının xüsusiyyətlərindən irəli gələn spesifik qanunauyğunluqları öyrənir.

Bundan əlavə, milli iqtisadiyyata ev təsərrüfatı və firmaların qarşılıqlı əlaqəsini və müstəqil qərarların qəbul olunması prosesini öyrənən mikroiqtisadiyyat da daxildir. Ona görə də milli iqtisadiyyatın inkişafında mikroiqtisadi fəaliyyətin özəllikləri xüsusi rol oynayır. Mikroiqtisadiyyatın əhatə dairəsi bilavasitə **bazar prinsipləri hesab olunan xüsusi mülkiyyətlə, rəqabətlə, iqtisadiyyatın açıqlıq səviyyəsi və dövlətin iqtisadiyyatı tənzimlənməsi ilə** əlaqədardır. Lakin makroiqtisadiyyat bu prinsiplərlə dolayı, dövlətin yeritdiyi iqtisadi siyasətlə birbaşa əlaqədardır. Göründüyü kimi milli iqtisadiyyatın inkişaf səviyyəsi həm mikroiqtisadiyyat üçün, həm də makroiqtisadiyyat üçün xarakterik olan prinsip, şərtlər və amillərin qarşılıqlı əlaqələrindən asılıdır. Həmçinin mikro və makrosəviyyəli **idarəetmə** sisteminin tətbiqi, bilavasitə milli iqtisadiyyatın inkişafına təsir göstərən amil kimi çıxış edir.

Milli iqtisadiyyatın formalaşması və inkişaf asılıdır:

- dövlət və xüsusi mülkiyyət arasındakı proporsiyadan;
- institusional sistemin qarşıya qoyduğu tələblərin səviyyəsindən;
- iqtisadi resursların marjinallıq dərəcəsindən;
- firma və dövlətin taktiki və strateji məqsədlərinin müxtəlifliyindən;
- fərdi və ictimai mənafelərin əlaqələndirilməsindən;
- mikro və makrosəviyyəli idarəetmənin optimallıq səviyyəsinin qorunmasından.

Bazar sistemi şəraitində milli iqtisadiyyatın inkişaf səviyyəsi, iqtisadi subyektlərin **maraq və mənafeləri** bir mərkəzdən idarə olunmadığından və onların reallaşmasına müxtəlif prizmalardan yanaşıldığından **milli iqtisadi model-**

**lər** meydana gəlir. Dövlətin iqtisadiyyata müdaxiləsi, iqtisadi strukturların əmələ gəlməsinə təsiri, müəssisə, sahə, rayon, region səviyyəli iqtisadi məkanın yaradılması milli iqtisadiyyatın inkişafını şərtləndirən cəhət kimi çıxış edir. Sözsüz ki, qeyd olunan bu şərtlər üzrə əmək bölgüsünün getməsi, heç də onların bərabərsəviyyəli formalaşmasını əks etdirmir. Ona görə də milli iqtisadiyyatın inkişafı hər şeydən əvvəl onun **rəqabətqabiliyyətliliyi** və **informasiyalaşdırılması** ilə səciyyələnir. Formalaşmış bazar sistemli ölkələrin təcrübəsi göstərir ki, onların milli iqtisadiyyatlarının inkişafı, müxtəlif **klasterlərə** üstünlük verilməsi şəraitində təmin olunmuşdur. Daha doğrusu, klaster milli iqtisadiyyatın rəqabət qabiliyyətinə təminat verən, iqtisadi subyektlərin fəaliyyətini uyğunlaşdıran, bir-birinə qarşılıqlı yardım göstərən sahələrin məcmusudur. M.Porterə görə hər bir sahə və region üzrə şaquli və üfüqi şəkildə klasterlərin yaradılması sənaye və firmaları birləşdirir. Nəticədə bir rəqabətədavamlı sahə yaranır. O da öz növbəsində klasterin ayrı-ayrı hissələrinin çoxalmasını əsaslandırır. Klasterin formalaşmasına, onun fəaliyyətinin tam təmin olunması, rəqabətin yeni yollarının axtarılması, milli iqtisadiyyatın inkişafının başlıca əlaməti kimi baxmaq olur. Deməli, sahə məkanında strukturlaşma, milli iqtisadiyyatın müxtəlif səviyyəli, qarşılıqlı asılı sahə bölmələrinə bölüşdürülməsi və onların **səmərəli fəaliyyətə** cəlb olunması yeni mülkiyyətçilərin əmələ gəlməsinə, mənimsəmə nöqteyi-nəzərincə oranı daha cəlbedici edir.

Milli iqtisadiyyatın inkişaf meyarı kimi, regional məkan və ya regional strukturlaşma da xüsusi rol oynayır. Hər bir sahə, orada fəaliyyət göstərən firmaların məcmusundan ibarət olsalar da, onlar müəyyən ərazilərdə yerləşir. Ərazilərin müxtəlifliyi və orada bu və ya digər sahənin inkişafına üstünlüyün verilməsi bir sıra şərtlərlə əlaqədardır:

• resursların mövcudluğu səviyyəsi ilə;

• yerli şəraitə uyğun gələn tarixi ənənələrin formalaşması ilə;

• dövlətin strateji məqsədləri ilə;

• yerli iqtisadi məkandan istifadə etmək zərurəti ilə;

• sahibkarlıq fəaliyyətinin şəraiti ilə və s.

Sahə əmək bölgüsü vasitəsilə ərazi əmək bölgüsünə keçid müxtəlif iqtisadi fəaliyyət növlərindən daha səmərəli istifadə olunmasına təkan verir. Milli iqtisadiyyatın fəaliyyəti, bilavasitə regional struktur üzrə yerləşmiş müxtəlif sahə bölmələrindən də asılıdır. Təsadüfi deyildir ki, Azərbaycanda milli iqtisadiyyatın inkişafının mühüm bir aspekti kimi, 2003-cü ildə «Regionların sosial-iqtisadi inkişaf proqramı» qəbul olunmuşdur. Ölkə ərazisi 10 region üzrə bölünərək, öz spesifikliyi ilə fərqlənən bir-neçə rayonun birləşməsini əks etdirir. Regional strukturlaşmanın aparılması, bir tərəfdən geosiyasi, iqtisadi, coğrafi baxımdan resurslardan səmərəli istifadə olunması ilə əlaqədardırsa, digər tərəfdən idarəetmənin çevik forması kimi strateji məqsəd və vəzifələrin həlli üçün qərarların qəbul olunmasına imkan yaradır. Geosiyasi, iqtisadi və coğrafi məkan baxımından ölkənin yerləşdiyi ərazinin regional xüsusiyyəti ilə ölkənin öz daxilində yerləşən regional xüsusiyyəti fərqləndirmək lazımdır. Birinci regional struktur, dünya sivilizasiyasının tarixi inkişafı ilə əlaqədar bir ölkənin qonşuluğunda yerləşən digər ölkəyə nisbətən üstünlüyünü və ya geriliyini təbii və iqtisadi potensialdan istifadə səviyyəsi ilə, sahibkarlıq mühitinin formalaşması ilə, yeraltı və yerüstü sərvətlərinin cəlbediciliyi ilə əlaqədardır. İkinci regional struktur isə bilavasitə ölkənin daxili ərazisindən daha səmərəli istifadə etməklə müəyyən olunmuş strateji məqsədlərə uyğun mövcud iqtisadi resursların məhsuldarlığının yüksəldilməsindən ibarətdir. Milli iqtisadiyyatın inkişafında regional strukturlaşmanın rolunun qiymətləndirilməsində bir sıra amillərin roluna diqqət verilir:

• regionun təbii-iqlim şəraitinə; burada təbii iqlim şəraitinin ərazidə yaşayan əhalinin həyat tərzinə və iqtisadi fəaliyyətinə olan təsiri, əhalinin məskunlaşmasına, mövcud təbii şəraitdən mənimsəmək imkanı nəzərdə tutulur;

• regionun təbii potensialına; burada regionun malik olduğu bütün təbii resurslar nəzərdə tutulur ki, bu da regionda inkişaf etdiriləbiləcək iqtisadi fəallığın tərkibini, növlərini, sahibkarlıq mühitinin formalaşdırılması imkanları əsas götürülür;

• regionun insan potensialına; burada demoqrafik vəziyyətdən asılı olaraq həm kadr potensialı, həm sosial mühit, həm də müvafiq dəyişikliklərə uyğun gələcək davranış qaydaları nəzərdə tutulur;

• regionun sahibkarlıq mühiti; burada ərazidə fəaliyyət göstərən iqtisadi subyektlərin sahibkarlığa olan meyli və yaradılan imkan əsas götürülür;

• regionun investisiya cəlbediciliyi; burada regionun təbii şəraitindən, mövcud təbii və insan potensialından istifadə etmək imkanlarından, hakimiyyət orqanlarının fəaliyyətindən asılı olaraq əsas kapitalın artırılmasına yönəldilmiş investisiyalar nəzərdə tutulur;

• regionun institusional mühiti; burada regionda qəbul olunmuş iqtisadi, dövlət, ideoloji qaydaların qarşılıqlı əlaqəli şəkildə riayət olunması başa düşülür. Ölkədə qəbul olunmuş norma və qaydalara uyğun olaraq iqtisadi fəaliyyətin təmin olunmasına şəraitin yaradılması, həm də yerli adət və ənənələrin nəzərə alınması əsasında normal həyat tərzinin gedişi əsas götürülür.

Regional səviyyədə sadalanan bu amillərin rolu, strukturlaşmaya, sonra isə milli iqtisadiyyata təsiri ayrı-ayrılıqda deyil, qarşılıqlı əlaqəli şəkildə mövcud ola bilər.

Qeyd olunanlara əsaslanaraq belə qənaətə gəlmək olar ki, milli iqtisadiyyat, ölkənin iqtisadi potensialdan daha səmərəli istifadə etmək **qaydaları** ilə əhalinin hər bir üzvünün **normal** yaşayışına imkan verən, milli təhlükəsiz-

liyinin qorunmasına təminat verən, dünya təsərrüfatına öz spesifik «iqtisadi inkişaf modeli» ilə qoşulan mürəkkəb və mütərəqqi sistemdir.

Milli iqtisadiyyat iqtisadi sistemin əsas əlamətlərini özündə birləşdirməklə və onların hər birinə ayrılıqda deyil, qarşılıqlı əlaqəli şəkildə hərəkətə gətirilməsi ilə həmçinin **qeyri-iqtisadi amillərin** rolunun nəzərə alınması ilə makroiqtisadi problemlərin həll olunmasına imkan yaradır.

## 2.2. Milli iqtisadiyyatın iqtisadi potensialı

Milli iqtisadiyyatın öyrənilməsi, bir sıra fənlər çərçivəsində həyata keçirilir:

- iqtisadi coğrafiya;
- iqtisadi tarix;
- iqtisadiyyatın tənzimlənməsi;
- regional iqtisadiyyat və s.

Milli iqtisadiyyatın iqtisadi nəzəriyyə baxımından tədqiq olunması, ölkə iqtisadiyyatını təsviri xarakterdə deyil, onu iqtisadi münasibətlər sistemində strukturyaradıcı amillərin **qarşılıqlı əlaqə və asılılıqların** üzə çıxarılması vasitəsi ilə həyata keçirilir. Bu baxımdan milli iqtisadiyyata mövcud iqtisadi sistem çərçivəsində fəaliyyət göstərən və ölkənin malik olduğu iqtisadi potensialdan istifadəsinə görə, insanların davranışlarında əks olunan **mənəvi-dini, texniki-mədəni, adət və ənənələrinə** görə fərqlənən, spesifik xarakterli faydalı fəaliyyət kimi baxmaq olar. Deməli, milli iqtisadiyyat, eyni iqtisadi sistem şəraitində, müxtəlif nəticələri ilə fərqlənən milli iqtisadi sistem kimi təzahür olunur. Lakin milli iqtisadi sistem, mövcud iqtisadi sistem çərçivəsində fəaliyyət göstərdiyindən, malik olduğu iqtisadi potensialın bölgüsü və istifadəsinə, qeyri-iqtisadi amillərə söykənməsinə və optimal tənzimləmənin həyata keçirilməsi ilə spesifik xarakterə malik olur. Ona görə də milli iqtisadi sistemin fəaliyyəti bilavasitə mövcud **iqtisadi sistemin fəaliyyətinin səmə-**

**rəliliyini əks etdirən meyar kimi çıxış edir.** Eyni iqtisadi sistemdə fəaliyyət göstərən ölkələrin iqtisadi inkişaf səviyyələrindəki fərqlər, hər şeydən əvvəl asılıdır:

- iqtisadi potensialın istifadə və bölgüsündən;
- qeyri-iqtisadi amillərdən (burada mənəvi-dini, texniki-mədəni, adət-ənənələr nəzərdə tutulur);
- optimal tənzimlənmə səviyyəsindən;
- istehlakçı liderdən.

Qeyd olunan bu amillərin təsirindən asılı olaraq **milli iqtisadi sistemin xarakteri formalaşır və fərqli fəaliyyəti meydana gəlir.**

Ümumiyyətlə, milli iqtisadi sistemin oxşar cəhətləri, çox hallarda eyni iqtisadi mexanizmlərin tətbiq olunması ilə əlaqədardır:

- eyni sosial müdafiə sistemi ilə;
- oxşar iqtisadi institutların fəaliyyəti ilə;
- dövlətin iqtisadi siyasətinin eyni prinsiplərə tətbiqi ilə.

Belə şəraitdə demək olar ki, həmin ölkələr eyni iqtisadi inkişaf modeli ilə fəaliyyət göstərir. Ona görə də bir qayda olaraq milli iqtisadi inkişaf modellərinin sayı milli iqtisadi sistemli ölkələrin sayından az olur. İqtisadi inkişaf modeli haqqında bir qədər sonra bəhs edəcəyimizdən, indi isə əsas diqqətimizi milli iqtisadi sistemin formalaşmasında **iqtisadi potensialdan istifadə və bölgüsünə yönəldək.** İqtisadi potensialdan istifadə və bölgüsü mexanizmi milli iqtisadi sistemin ardıcıl olaraq **formalaşmasına və zənginləşməsinə** təsir göstərir.

İqtisadi potensial dedikdə – **milli iqtisadiyyatın iqtisadi imkanları** nəzərdə tutulur. Çox hallarda iqtisadi potensialın mahiyyəti kimi milli iqtisadiyyatın malik olduğu **resursların** kəmiyyət və keyfiyyət xarakteristikası əsas götürülür. Lakin bir cəhət nəzərə alınmalıdır ki, iqtisadi potensialın statistik və informasiya baxımından qiymətləndirilməsi olduqca mürəkkəbdir. Ona görə də iqtisadi potensialın hesablanma-

sında bazar qiymətlərindən, rentadan, gəlirlərin kapitallaşması və digər şərti vahid göstəricilərindən istifadə olunur.

İqtisadi potensiala dair müxtəlif təsnifatlaşdırmalar olsa da, burada bir neçə resurs növlərinin birləşdirilməsi və idarəetmə sisteminin təkmilləşdirilməsi, istehsalın həcminin mümkün qədər artırılması nəzərdə tutulur.

İqtisadi potensial, milli iqtisadiyyatın həcm və miqyasının genişləndirilməsi üçün xüsusi əhəmiyyət daşıyır. Çünki, iqtisadi potensial həm milli sərvəti, həm də digər resurs potensialını əhatə edir. Ona görə də iqtisadi potensialı aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

- milli sərvət və ÜDM;
- təbii resurslar;
- insan resursları;
- investisiya potensialı;
- elm və innovasiya potensialı;
- əsas kapital, maliyyə və qeyri-maliyyə aktivləri;
- xarici iqtisadi potensial;
- idarəetmənin təşkili.

Qeyd olunan iqtisadi potensialın bu amilləri, qarşılıqlı əlaqəli şəkildə götürülərək milli iqtisadiyyatın inkişafında və formalaşmasında əhəmiyyət daşıyır. Belə olan şəraitdə ÜDM-in potensial həcminin əldə olunmasına və gələcək illər ərzində strateji məqsədlərin irəli sürülməsində iqtisadi məkanın mövcud çərçivəsində milli iqtisadiyyatın **multiplikator səmərəsinin** artmasına imkan yaradır. Lakin burada mürəkkəb bir məsələ ortalığa çıxır ki, bu da iqtisadi potensialın strukturunu əhatə edən **elementlərin nisbətl tarazlıqlarının** təmin olunmasıdır. Tutaq ki, əsas kapital resurslarının, o cümlədən yeni texnoloji avadanlıq kimi istehsal vasitələrinin potensial imkanlarından istifadə etmək lazımdır. Bunun üçün hər cür insan potensialından deyil, yüksək peşə və ixtisasa malik işçi qüvvəsindən istifadə etmək zərurəti meydana gəlir. Bunun üçün yeni texnologiya və informasiyalaşdırılmış sistemdə çalışa bilən işçi heyətinin təhsilinin artırılması

və uyğun idarəetmə sisteminin həyata keçirilməsi labüdləşir. Əgər belə tarazlaşdırılmış yanaşma mövqeyi olmasa, onda iqtisadi potensial üçün bu günləri çox əhəmiyyətli görünən texnologiyalar, sonrakı günlər, aylar və illər ərzində tədricən əhəmiyyətini itirmiş olacaq və yaxud dünya standartları səviyyəsində idarəetmə, təşkiletmə sisteminə bələd olan menecerlər, müvafiq sahibkarlıq mühiti olmadığından, mövcud resurslardan əlaqələndirilmiş şəkildə istifadə edə bilməyəcəklər. Bu da həm fərdlərin, həm firmaların, həm də nəticə etibarilə cəmiyyətin itkisi kimi özünü əks etdirəcək.

İqtisadi potensial sadəcə olaraq resursları cəmlənmiş şəkildə xarakterizə etmir. O resursların sistemli şəkildə mövcud olmasına, onların tərkibinin dinamik xarakter almasına əsaslanır. Resursların istehsal dövriyyəsinə **sistemli və əlaqəli** şəkildə cəlb olunması iqtisadi potensialın xarakterik xüsusiyyəti kimi çıxış edir.

İqtisadi potensialdan istifadənin ölkə daxili imkanlarının məhdudluğu, onun xarici iqtisadi əlaqələr, beynəlxalq ticarət, struktur dəyişiklikləri, dövlət tənzimlənməsi mexanizmi vasitəsilə reallaşdırılması üsullarının işə salınması labüdləşir. Belə vəziyyət təkcə iqtisadi potensial amillərinin çoxluğu, bolluğu şəraitində deyil, daha çox bu amillərin yoxluğu şəraitində həyata keçirilir. Belə halda milli iqtisadiyyatın mövcud iqtisadi potensialının hərəkətə gətirilməsinin səmərəliliyi, dinamikliyi yüksəlir. Bir sıra ölkələrin milli iqtisadiyyatlarının inkişafı, iqtisadi potensialın bir sıra amillərinin, ən çox da təbii resurslarının yoxluğu şəraitində həyata keçirilir. Yaponiyanın, Cənubi Koreyanın milli iqtisadi inkişafı buna misal ola bilər.

Təbii resursları, xammal ehtiyatları yüksək olan ölkələrin öz milli iqtisadiyyatının inkişafına, iqtisadi potensialın bu amili hesabına nail olunması, onun, **strateji məqsədləri** ilə uzlaşdırılmalıdır. O ölkələr ki, iqtisadi potensialın bu və ya digər amilinin üstünlüyü şəraitində, ondan istifadə etməklə, öz milli iqtisadi inkişaf strategiyası ilə uzlaşdırır, belə halda

onlar: həm milli iqtisadiyyatın haqlayıcı inkişafına; həm də iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə nail olurlar.

İqtisadi potensialdan milli iqtisadiyyatın haqlayıcı inkişafına nail olmaqdan ötrü bu və ya digər amilindən **üstün istifadəsinə** yol verilməsi, həm **konkret tarixi dövrün tələbatı ilə, həm də dünya bazarında mövcud konyunkturanın dəyişilməsi** ilə həyata keçirildiyi zaman bu, uğurlu iqtisadi siyasətin nəticəsi kimi qiymətləndirilir. Ona görə də milli iqtisadiyyatın təkcə sürətli inkişafı naminə deyil, həm də onun uzunmüddətli, dayanaqlı xarakter almasına yönəldilən iqtisadi siyasət, iqtisadi potensialdan istifadənin və bölgüsünün səmərəliliyi kimi baxmaqla, həm də onu bütövlükdə milli iqtisadiyyatın davamlı xarakter alması kimi nəzərə alınmalıdır. Deməli, bu və digər resurs amilindən istifadə konkret dövri xarakter almaqla milli iqtisadiyyatın: səmərəli inkişafının təminedicisi kimi; sürətli iqtisadi artımın amili kimi nəzərə alınmalıdır.

Milli iqtisadiyyatın iqtisadi potensialı **nominal** və **real** vəziyyət almaqla hər zaman təkrar istehsal prosesində iştirakından asılı olaraq müxtəlif həcm və miqyasda olur.

Müəyyən vaxt ərzində istifadə olunmasından asılı olmayaraq mövcud olan bütün resursların qiymətləndirilməsi nominal iqtisadi potensial kimi özünü əks etdirir. Lakin milli iqtisadiyyatın müəyyən vaxt ərzində təkrar istehsal prosesinə cəlb edilmiş, dövriyyədə iştirak edən resurslar real iqtisadi potensial formasını alır.

Nominal və real iqtisadi potensial arasındakı həddin dəyişilməsi asılıdır: texnologiyanın tətbiqindən; iqtisadi siyasətin həyata keçirilməsindən; milli iqtisadiyyatın cari və strateji tələbatından.

Nəzərə almaq lazımdır ki, iqtisadi potensialı təşkil edən element və ya amillərin hamısı eyni vaxtda istehsal dövriyyəsinə cəlb olunmadığından, onların milli iqtisadi inkişaf üçün daşıdığı əhəmiyyət müxtəlif olur. Ona görə də iqtisadi inkişafın bütün və müxtəlif mərhələlərində iştirak

edən iqtisadi potensialın amillərini fərqləndirmək lazımdır. Bu o deməkdir ki, iqtisadi potensialın milli iqtisadiyyatın inkişafında iştirak edən **daimi, müstəqil, təkmilləşdirilmiş** amillər qrupu fəaliyyət göstərir.

Daimi iqtisadi potensial kimi göstərmək olar:

- təbii potensialı;
- əmək potensialını;
- təkrar istehsal olunan maddi potensialı;
- təkrar istehsal olunan qeyri-maddi potensialı.

Müstəqil iqtisadi potensial kimi, daimi iqtisadi potensialı əhatə etməklə, onların təkmilləşdirilməsi ilə inkişafına səbəb olan amilləri qeyd etmək olar:

- təhsil potensialını;
- texnoloji potensialı;
- innovasiya potensialını;
- informasiya potensialını;
- idarəetmə potensialını.

Təkmilləşdirilmiş və ya bilavasitə iqtisadi siyasət nəticəsində iqtisadi potensialın amili kimi nəzər yetirmək olar:

- sənaye potensialına;
- maliyyə potensialına;
- müdafiə potensialına;
- xarici iqtisadi potensiala.

Qeyd etmək lazımdır ki, iqtisadi potensialın bu amillərin mövcudluğu və onların təkrar istehsal prosesinə cəlb edilməsi milli iqtisadi inkişafına təsir edərək spesifik **model formasında** fəaliyyət göstərməsinə səbəb olur.

## 2.3. Milli iqtisadi inkişaf modelinin formalaşması prinsipləri

Milli iqtisadi inkişaf milli iqtisadiyyatın təşəkkülü və formalaşması fəaliyyətindən asılı olaraq müəyyən dövr ərzində mövcud iqtisadi resurslardan istifadə olunması səviyyəsini əks etdirir. Bu prosesin uzun bir müddət ərzində

davam etməsi mövcud iqtisadi sistemin səmərəlilik səviyyəsini əks etdirməklə iqtisadiyyatın başlıca probleminin həlli istiqamətinin reallıqlarını təzahür edir. İqtisadi inkişaf modeli bir tərəfdən cəmiyyətin və onun üzvlərinin tələbatının mövcud dövrdə ödənilməsini təmin etməklə gələcək nəslin ehtiyaclarının ödənilməsi təhlükəsizliyinin aradan qaldırılmasına təminat verir. Bu istiqamətlərin həyata keçirilməsi metodları, üsulları isə özünü müəyyən model şəklində əks etdirir. **Ümumiyyətlə, model iqtisadi reallıqların yığcam təzahürüdür.** Müəyyən səviyyəli iqtisadi reallıqlar mövcud vəziyyətin müvafiq statistik rəqəmlərlə uyğunluğunu əks etdirən abstrakt ümumiləşmədir. Deməli, milli iqtisadi inkişaf modeli müvafiq iqtisadi sistem daxilində iqtisadiyyatın yığcam nəticəsini əks etdirən prosesdir.

Milli iqtisadi inkişaf modelinin fəaliyyətinin təmin olunması müəyyən prinsiplər vasitəsilə həyata keçirilir. **İqtisadi prinsiplər də ümumiləşmələrə əsaslanaraq, özündə bir sıra tam dəqiq olmayan faktları birləşdirir.** Əldə olunan faktlara əsaslanmaqla nəzəri mülahizələrin irəli sürülməsinə imkan yaradır. Faktlara əsaslanmayan müddəalar isə boş xülyadan başqa bir şey deyildir.

İqtisadi inkişaf modeli haqqında danışarkən onun nəzəri-metodoloji əsaslarına xüsusi diqqət yetirməklə, ilkin olaraq onun prinsiplərini şərh etmək vacibdir. Ona görə də milli iqtisadi inkişaf modelinin formalaşmasına prinsiplər toplusunun sistemliliyi və ardıcıllığı xüsusi təsir göstərir. Çünki hər bir milli iqtisadi modeldə iqtisadiyyatın başlıca probleminin daha səmərəli, ədalətli, ardıcıl və davamlı şəkildə həllinin üstünlükləri müşahidə olunur. Bu baxımdan ölkəmizdə formalaşmaqda olan iqtisadi modelin əsas prinsipləri kimi aşağıdakıları qeyd etmək olar:

- Ümumi rifah halının yaxşılaşdırılması.
- İqtisadiyyatın müvazinətli inkişafının təmin olunması.
- ÜDM-in davamlı artım sürətinin saxlanılması.

• Makroiqtisadi sabitləşmənin həyata keçirilməsi.

• İqtisadi mühitin stimullaşdırılması əsasında struktur siyasətinin aparılması.

• İqtisadi təhlükəsizliyin qorunması ilə iqtisadiyyatın optimal tənzimlənməsinin təmin olunması.

• Mənəvi dəyərlərin təmin olunması əsasında iqtisadi inkişafa üstünlüyün verilməsi.

Göstərilən bu prinsiplər əsasında milli iqtisadi inkişaf modelinin formalaşması bir tərəfdən ümumi bəşəri dəyərlərə əsaslanmağı əks etdirirsə, digər tərəfdən milli xüsusiyyətlərə, adət-ənənələrə və mənəvi-dini, mədəni-əxlaqi dəyərlərə söykənməyi əks etdirir.

**Milli iqtisadi inkişaf modeli özündə milli iqtisadiyyatın formalaşması prosesini əks etdirməklə, ölkənin malik olduğu iqtisadi potensialdan əhalinin rifahının yaxşılaşdırılması və ya yüksəldilməsi istiqamətini əks etdirir.**

Milli iqtisadiyyat – ölkənin coğrafi ərazisində malik olduğu **iqtisadi potensialdan** cəmiyyət və onun üzvlərinin mənafelərinin reallaşdırılması prosesini əhatə edir. İqtisadi potensialdan istifadə prosesi təbii, əmək, kapital, intellektual və texnoloji resurslardan məqsədyönlü və mənəvi dəyərlər çərçivəsində fəaliyyət göstərməyə əsaslanır. Bu da öz növbəsində cəmiyyət və onun üzvlərinin müəyyən miqdar sərvətə sahib olmaq imkanını yaradır. Milli iqtisadi mənafe baxımından sərvətin özü deyil, ondan istifadə etmək imkanları millətin daha dolğun şəraitinin yaradılmasına və rifahın yaxşılaşdırılmasına şərait yaradır. Bu da öz növbəsində adamları müstəqil iqtisadi fəaliyyət göstərməyə sövq edir. İqtisadi düşüncə tərzinin formalaşmasına həm ümumbəşəri dəyərlər, həm də milli davranış qaydaları təsir göstərir. Belə şəraitdə hər bir fərdin istehlakçı kimi şəxsi azadlığının təmin olunmasına imkan yaratmaqla, mövcud resursların mülkiyyətçisi kimi çıxış etməyə təminat verir.

Rifah halının yaxşılaşdırılması çoxcəhətli bir proses olmaqla, bir tərəfdən gəlirlərin artırılmasını, qeyri-bərabər-

liyin aradan qaldırılmasını, yoxsulluğun azaldılmasını, sosial təhlükəsizliyin təmin olunmasını, təbəqələşmənin zəiflədilməsini və s. əhatə edir. Ona görə də bu prosesə iqtisadi modelin əsas prinsipi kimi və ona nail olmağın məqsəd və üsullarının ön plana çəkilməsinə üstünlüyün verilməsi artıq özünü milli xüsusiyyət kimi əks etdirəcək.

Dövlət büdcəsində dövlətin idarəetmə, hərbi xərcləri ilə sosial sferaya yönəltdiyi xərclər arasındakı nisbət bir tərəfdən iqtisadiyyatın real vəziyyətini əks etdirirsə, digər tərəfdən qarşıya qoyulan məqsəd və vəzifələrin həyata keçirilməsi imkanlarını büruzə verir. Sosial ehtiyacların ödənilməsinə yönəldilən büdcə vəsaitlərinin artımı hələ heç də sosialyönümlü iqtisadi inkişaf modelini əks etdirmir. Əgər büdcə xərcləri strukturunda sosial sfera ilə digər xərc elementləri arasındakı nisbətə diqqət yetirilsə, bunu aydın görmək olar. Bir də müharibə və keçid mərhələsində olan ölkədə birdən-birə belə bir modelin yaradılması olduqca çətindir. Hətta neft və qaz gəlirlərindən əldə olunan gəlirlərin həcmi dəfələrlə artsa da, bunu etmək mümkün deyil. Məsələ ondadır ki, gəlirlər iqtisadi potensialın bütün mənbələrindən əldə olunmaqla ölkə ərazisini əhatə etməlidir.

Bəzi hallarda iqtisadi inkişaf modelini riyazi-kibernetik modellərlə eyniləşdirirlər. Halbuki, milli iqtisadi inkişaf modeli çox geniş və əhatəli bir prosesdir. Riyazi üsullarla yalnız bu modelin formalaşmasındakı amillərin rolunu müəyyənləşdirmək olar. Ona görə də milli iqtisadi inkişaf modelinin həm formalaşması, həm fəaliyyət göstərməsi, həm də onun işlək mexanizminin təmin olunması mürəkkəb iqtisadi bir prosesdir. Bizim ölkəmizdə bir xoşbəxt cəhət onunla əlaqədardır ki, böyük dövlət adamı, ümummilli lider Heydər Əliyev milli iqtisadi inkişaf modelinin formalaşmasının strategiyasını müəyyən etmişdir. Eyni zamanda hazırda prezident İlham Əliyevin apardığı uğurlu iqtisadi siyasətin nəticəsində milli iqtisadi inkişaf modelinin təşəkkül tapmasına imkan yaranmışdır. Məsələ ondan ibarətdir ki,

artıq milli iqtisadi inkişaf modelinin konturları, elementləri, əsas cəhətləri müəyyən edilmişdir. Məqsəd iqtisadçıların bu modelin nəzəri-metodoloji əsaslarını, prinsiplərinin üstünlüklərini, təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdən ibarətdir. Bu istiqamətdə irəli sürülən hər bir fikir, elmi mülahizə, düşüncə, mövqe mövcud reallıqlar və perspektivlər baxımından qiymətləndirilməli, elmi mübahisələrə milli mənafelər baxımından yanaşılmalı və hazırda aparılan iqtisadi siyasətin daha uğurla həyata keçirilməsi prizmasından yanaşılmalıdır. Strateji iqtisadi siyasət elmi diskussiyaya şərait yaratdıqca, taktiki iqtisadi gedişlər elmi mülahizələrə əsaslanmalıdır.

**İqtisadiyyatın müvazinətli inkişafının təmin olunması həm tədrici, həm də hərtərəfli şəkildə** ÜDM-in həcminin artım sürəti ilə əhalinin artım sürəti arasındakı optimal nisbətin nəzərə alınmasından ibarətdir. Bu proses istər ölkə, istərsə də regionlar üzrə əlaqələndirilmiş şəkildə həyata keçirilməlidir. Bu da öz növbəsində məcmu tələblə məcmu təklif arasında optimal nisbətin yaradılması və qorunması tələbini qarşıya qoyur. Eyni zamanda milli iqtisadiyyatın makro- və mikrosahələri arasında qarşılıqlı əlaqənin yaradılması prosesinə də şərait yaradır.

Milli iqtisadi inkişafın təmin olunmasında tarazlığın və proporsionallığın təmin olunması olduqca vacibdir.

Milli iqtisadiyyatın sahələrinin tarazlı inkişaf etdirilməsi, təkrar istehsal prosesinin proporsionallığının təmin olunması nəticə etibarilə ümumi iqtisadi müvazinətin yaradılmasına səbəb olar. Belə şəraitdə **iqtisadi resurslarla ictimai tələbat arasında** uzlaşmasına imkan yaranacaq.

Milli iqtisadiyyatın tarazlılığı dedikdə, ümumi milli məhsulun və ya ÜDM-in maddi əşya tərkibi ilə dəyər tərkibinin uzlaşması başa düşülür. Belə ki, milli iqtisadiyyatın bölmələri, sahələri üzrə proporsional inkişafının təmin olunması ilə maddi-dəyər tərkibinin sintezi baş verməlidir və tarazlı inkişafı əsaslandırmalıdır. Tarazlı və ya balans-

laşdırılmış iqtisadiyyat, adətən ya həcm, ya da struktur formasında özünü əks etdirir. Həcm şəklində, əgər müəyyən dövr ərzində istehsal olunmuş əmtəə və xidmətlər və onların pul ilə ödənilməsi nəzərdə tutulursa, lakin struktur anlayışında məcmu tələb və məcmu təklif çərçivəsində hər bir əmtəə və xidmət növü üzrə onlara tələb olunan yer üzrə təklifi başa düşülür. Əgər ölkə üzrə hər hansı məhsul və ya xidmət növü, tələb və təklif üzrə tarazlılıq təmin olunsa da, lakin vaxt amili çərçivəsində, onun region və ya ərazi üzrə yerinə yetirilməməsi müəyyən qeyri-tarazlığın əmələ gəlməsinə səbəb olacaq. Ona görə də ölkə üzrə qeyri-tarazlığın aradan qaldırılması üçün regionlar və ərazilər üzrə əsaslandırılmış əmtəə və xidmətlərin istehsalının təmin olunması zərurəti meydana gəlir. Həm də informasiya təminatının olmadığı bir şəraitdə əmtəə və xidmətlərin vaxt amili çərçivəsində qısamüddətli reallaşması baş vermir. Yerli idarəetmə prosesinin getdiyi bir şəraitdə regionlararası, bələdiyyələrarası istehsal-mübadilə müqavilələrinin bağlanılması tarazlı inkişafa təsir göstərən amil kimi üzə çıxacaq.

Qeyd etmək lazımdır ki, **heç bir vaxt mütləq tarazlılığa nail olmaq mümkün deyil. Sadəcə olaraq onun səviyyəsini yüksəltmək olar** ki, bu da bütövlükdə milli iqtisadiyyatın səmərəliliyinin artmasına səbəb olar.

ÜDM-in natural əşya və dəyər tərkibinə görə reallaşmasının təmin olunması tarazlı inkişafın mühüm amili olmaqla milli iqtisadi inkişaf modelinin formalaşmasının tərkib hissəsidir. İstehlakçıların tələbatına uyğun vaxtında və istənilən qədər əmtəə və xidmətlərin istehsalı və onların reallaşdırılması tarazlı inkişafın həyata keçirilməsində əsaslı vasitədir.

**Ölkəmizdə davamlı iqtisadi artıma** nail olmağın mühüm səbəblərindən biri milli iqtisadiyyatın mikro- və makrobölmələri arasında qarşılıqlı əlaqənin qurulmasından ibarətdir. Belə ki, mikroiqtisadi göstəricilər olan istehsal xərcləri, mənfəət, əməkhaqqı, sahibkarlıq, biznes, kommer-

siya, firma, gəlirlər, inhisarçılıq, rəqabət və s. səviyyəsi ilə makroiqtisadiyyat göstəriciləri olan ÜDM, iqtisadi artım sürəti, inflyasiya, işsizlik, faiz dərəcəsi, orta qiymət səviyyəsi, məşğulluq arasında qarşılıqlı əlaqənin yaradılması ilə milli iqtisadiyyatın vahid bir proses kimi hərəkətinin təmin olunmasının həyata keçirilməsi mümkündür. Düzdür, buraya müəyyən mənada mezo və meqa səviyyədə baş verən dəyişikliklər və irəliləmələr də öz təsirini göstərir. Lakin real iqtisadi proseslərin gedişatında əsas yeri mikro və makroiqtisadiyyatın qarşılıqlı təsir dairələri üstünlük təşkil edir. Makroiqtisadi səviyyədə belə qarşılıqlı əlaqə özünü **iqtisadi sabitləşdirmə və tənzimlənmə vasitələri** ilə özünü əks etdirir. Birmənalı şəkildə qeyd etmək olar ki, keçid iqtisadiyyatında tənzimlənmə prinsipindən istifadə olunması zəruri xarakter daşımaqla, keçid dövrünün başa çatması meyarı kimi özünü əks etdirmişdir. Çünki istehsalla istehlak arasında, eləcə də investisiyanın artımı ilə istehsalın həcmi arasında kəmiyyət asılılığının müəyyən edilməsi, hər vahid milli məhsulun artımına, investisiya vahidinin də müəyyənləşdirilməsi, məhz makroiqtisadi tənzimlənmənin həyata keçirilməsi ilə əlaqədar olmuşdur. Makroiqtisadi səviyyədə problemlərin həlli ev təsərrüfatında, firmada məşğul olanların, biznesmen və kommersantların əmanətlərinin, investisiyalarının, istehlak xərclərinin kəmiyyətini müəyyənləşdirməyə vadar edir. Bu da öz növbəsində məcmu tələbin kəmiyyət və strukturunu müəyyən edir. Məhz buna görə də mikro- və makroiqtisadi proseslər olduqca yaxın qarşılıqlı əlaqədədir.

Mikro və makroiqtisadi göstəricilərin milli iqtisadi inkişafın təhlilində müxtəlif nəticələrə gəlməsinə əsas verilsə də, lakin onlar bir məqsədə – **milli mənafelərin reallaşmasında oynadıqları payın müəyyənləşdirilməsinə tabedirlər.** Hər iki bölmənin qarşılıqlı şəkildə inkişafının təmin olunması, davamlı iqtisadi artıma səbəb olmaqla, cəmiyyət üzvlərinin maddi və mənəvi tələbatlarının ödənilməsinə şərait yaratmaqla milli səviyədə mənəvi-dini, mədəni-əxlaqi

dəyərlərin qorunub saxlanılmasına və inkişaf etməsinə səbəb olur.

Milli iqtisadi inkişaf modelinin fərqləndirici xüsusiyyətlərinin əsasında **iqtisadi potensialdan istifadədə** vətəndaşların seçim imkanına malik olması, qeyri-bərabərliyin aradan qaldırılması, yoxsulluğun azaldılması, optimal tənzimlənmənin aparılması, inteqrasiya proseslərinə üstünlüyün verilməsi və s. durur.

İstər keçid iqtisadiyyatında, istərsə də formalaşmış bazar sistemində olsun, milli iqtisadiyyatın həm texnoloji, həm də sosial şəraiti daima dəyişikliklərə məruz qaldığından onun iqtisadi təhlükəsizliyinin qorunması naminə optimal şəkildə tənzimlənməsi qarşıda duran daimi problemə çevrilir. Məhz **optimal tənzimlənmə prosesinin həyata** keçirilməsi milli iqtisadi inkişafın müxtəlif modellərinin meydana gəlməsinə səbəb olmuşdur. Nəzərə alsaq ki, ümumi iqtisadi inkişaf strategiyasında da əsas yeri mövcud iqtisadi resurslardan istifadə olunması, yerləşdirilməsi və bölgüsü müəyyən iqtisadi siyasət vasitəsilə həyata keçirilir, onda istər-istəməz dövlət səviyyəsində makroiqtisadi optimal tənzimlənmə prinsipindən istifadə olunmaq zərurəti meydana gəlir. Ölkəmizdə aparılan iqtisadi islahatların həyata keçirilməsində və iqtisadi inkişafın dinamizmində optimal tənzimlənmənin tətbiqinin də xüsusi əhəmiyyəti vardır. Əslində optimal tənzimlənmə dövlətin yeritdiyi iqtisadi siyasətin mahiyyətindən irəli gəlir. İqtisadi siyasət **strategiyasında makroiqtisadi sabitləşməyə nail olmaq xüsusi yer tutmaqla** qeyd olunduğu kimi, milli iqtisadi inkişaf modelinin əsas prinsiplərindəndir. Burada əsas diqqət 4 blok məsələlərin həllinə yönəldilir. **Birinci blok,** millətin malik olduğu iqtisadi potensialdan məqsədyönlü istifadə etməkdən, ekoloji mühiti qorumaqla, ümumi nemət hesab olunan sərvətdən bəhrələnmək istiqamətini müəyyənləşdirməkdən ibarətdir.

**İkinci blok**a milli iqtisadi inkişafın davamlı xarakter alması üçün iqtisadi sabitliyin təmin olunması daxildir. Bu-

rada 1) davamlı iqtisadi artım sürətinin təmin olunması; 2) stabil qiymət səviyyəsinin formalaşdırılması; 3) ardıcıl məşğulluğun həyata keçirilməsi; 4) faydalı tədiyyə balansının yaradılması; 5) regionların tarazlı inkişaf etdirilməsi; 6) sahibkarlıq fəaliyyətinin stimullaşdırılması; 7) milli davranış qaydalarının əsasında duran mənəvi-dini dəyərlərin qorunması durur.

**Üçüncü bloka** əldə olunmuş gəlirlərin bölgüsünün ədalətli həyata keçirilməsi, yoxsul əhalinin mənafelərinin illik əldə olunmuş ÜDM artımı ilə əlaqələndirilməsi daxildir.

**Dördüncü bloka** xüsusi bölmə ilə ictimai bölmə arasında tarazlı inkişafın təmin olunması daxildir. Bu, xüsusi mülkiyyətçilərlə dövlət mülkiyyətini idarə edənlər arasında olan nisbətin qorunmasından ibarətdir:

- xüsusi mülkiyyətçilər üçün bazar mühitinin daima təmin olunmasında informasiyanın əldə olunması;
- qeyri - təkmil rəqabət mühitinin yaradılması;
- inhisarçılığın aradan qaldırılması;
- iqtisadi potensialdan istifadə etmək üçün imkan və şəraitin yaradılması ilə bağlı hüquqi-normatik sənədlərin qəbulu, digər tərəfdən ictimai bölmədəki xərclərin azaldılması, büdcə vəsaitlərindən səmərəli istifadə olunması durur.

İctimai bölmə də vəsaitlərin məqsədyönlü istifadəsi ilə bütövlükdə milli iqtisadiyyat üzərində nəzarətin həyata keçirilməsi kimi qiymətləndirilməlidir.

İqtisadi inkişaf modelinin üstünlüklərini əks etdirən mühüm cəhətlərdən biri onun ölkənin ayrı-ayrı regionlarında **məhsuldar qüvvələrin bərabərşəkilli yerləşdirilməsi ilə iqtisadi potensialdan səmərəli istifadəsidir.** Bu o deməkdir ki, iqtisadi məkan daxilində məhsuldar qüvvələrin inkişafına təsir göstərən amillərin qarşılıqlı əlaqəsinin genişlənməsinə imkan yaranır. Belə amillər cərgəsinə enerji, su, əmək, torpaq, xammal, nəqliyyatı daxil etmək olar. Regional iqtisadi inkişaf da bu amillərin kompleks şəkildə istifadəsinə üs-

tünlük verməklə, ölkənin bütün ərazi çərçivəsində resurs potensialından səmərəli istifadəsinə şərait yaradacaq. Bu da milli iqtisadiyyatın hərtərəfli müvazinətli inkişaf etməsinə təminat verəcək.

İqtisadi inkişaf modelində xarici iqtisadi fəaliyyətin təmin olunmasında dövlət idarəetmə sisteminin gücləndirilməsi, iqtisadi təhlükəsizliyin qorunması cəhəti kimi qiymətləndirilməlidir. Xarici iqtisadi fəaliyyət, valyuta mübadiləsi və xarici ticarət haqqında qanunla tənzimlənsə də, lakin onun səmərəliliyinin artması istiqamətində hər zaman əlavə tədbirlərin görülməsi vacibdir. Çünki dövlət təkcə bu qanunla və gömrük tənzimlənməsi ilə daxili bazarı qorumaqla kifayətlənməyərək, xarici iqtisadi fəaliyyətin institusional əsaslarının möhkəmlənməsinə təminat yaratmalıdır. **Burada inzibati, əlaqələndirici, məsləhətverici və informasiyaverici orqanların səmərəli fəaliyyətini həm milli, həm də iqtisadi mənafelərinin qorunmasına** istiqamətləndirəcək. Nəticədə dövlətlə biznes arasında xüsusi əlaqə formasının yaranmasına şərait yaradacaq. Dövlətin xarici iqtisadi fəaliyyətinin tənzimlənməsindəki rolunun artması əslində **onun struktur siyasətinin aparılması** ilə əlaqədar olan məqsəd və prioritetlərin həyata keçirilməsindən irəli gəlir. Liberal fəaliyyət isə istər keçid şəraitində, istərsə də sabitləşmə şəraitində iqtisadi təhlükəsizliyin qoruyucu amili kimi fəaliyyət göstərə bilməz. Çünki dövlət milli mənafelərin qorunması naminə bazarın həm yaradıcısı, həm oyunçusu, həm də biznesin tərəfdaşıyıcısı kimi çıxış etməlidir. Belə bir cəhətlə dövlət milli və qlobal mənafelərin tarazlığına təminat yaradar, xarici amillərin daxili amillərə çevrilməsinin qarşısını alar.

Milli iqtisadiyyatın inkişafının mühüm istiqamətlərindən biri **inteqrasiya prosesinin dərinləşməsidir.** Sözsüz ki, inteqrasiya heç də bütün milli iqtisadiyyatlar üçün eyni şəraiti və ya iqtisadi mühiti formalaşdırmır. Burada o ölkələr daha çox sərbəstliyə malik olur ki, onlar davamlı iqtisadi

inkişafa və rəqabətqabiliyyətli məhsul istehsal etmək imkanına malikdir. MDB məkanına daxil olan ölkələrin iqtisadi inteqrasiya prosesləri üçün bir sıra cəhətlər xarakterikdir. Qloballaşma prosesinə uyğun olaraq, dünya siyasətində bəzi ölkələrə ikili standartlar tətbiq olunur, o cümlədən bizim ölkə üçün, digər tərəfdən bəzi ölkələrin qlobal rəqabət məkanına daxil olmaq imkanları olduqca sərt şərtlərlə hüdudlaşdırılır. Beynəlxalq maliyyə qurumları daha çox zəngin təbii sərvətlərə malik olan ölkələrə müəyyən həvəsləndirici proqramlar təklif edirlər. Bununla da təmsil etdikləri ölkələr üçün tamamilə yeni əmtəə və xidmətlər bazarı müəyyənləşdirirlər.

Dünyada gedən qlobal xarakterli iqtisadi dəyişikliklər, davranış qaydaları sübut edir ki, əhalinin həyat səviyyəsi təkcə seçilmiş iqtisadi modeldən deyil, **eyni zamanda milli ənənələri formalaşdıran dini-mənəvi dəyərlərdən də bilavasitə asılıdır.** Bəşəriyyət öz stabil inkişafının təmin olunmasında istifadə edəcəyi amillər cərgəsində mütləq ehtiyat mənbəyi kimi mövcud olan dini-mənəvi dəyərlər sistemindən bəhrələnməlidir. Ona görə də həyata keçirilən islahatlar sistemində dini-mənəvi dəyərlərin yerini və rolunu müəyyən etmək lazımdır. Dini-mənəvi dəyərlərin insan həyatında oynadığı rol həmişə təkamül xarakteri daşımalıdır. Təkamüldən sıçrayışlı inqilabi yola o vaxt daxil olmaq olar ki, insan həyatının bütün sahələri tamamilə qazanılmış, onların haqları tam pozulmuş, zorakılıq və mənəviyyatsızlıq hökm sürmüş olsun. Əlbəttə, insan həyatında keyfiyyət dəyişikliklərinin baş verməsində iqtisadi sistemin oynadığı rol nə qədər böyük olsa da, lakin ona milli adət-ənənələr səpkisində mövcud olan milli dəyərlər daxil edilməsə, adamların davranış qaydalarında təkamüllü inkişaf da süstləşər. Ona görə də yeni iqtisadi sistemi formalaşdıran hər bir ölkə istər-istəməz milli iqtisadiyyatın dirçəlməsi üçün dini-milli dəyərlərdən istifadə etməlidir. Əqidəsi, inamı, mənəviyyatı müəyyən olunmayan ölkədə heç vaxt mütərəqqi irəliləyişlərə

nail olmaq olmaz. Ona görə də dünya iqtisadiyyatının inteqrasiyasında qlobal xarakterli iqtisadi problem kimi adamların davranış qaydalarında mənəvi dəyərlərin yeri və rolunun qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Müasir şəraitdə milli iqtisadiyyatın davamlı inkişafı, onun sosialyönümlülüyünün artırılması, sahibkarlığın stimullaşdırılması ilə iqtisadiyyatın dövlət tərəfindən optimal tənzimlənməsinə əsaslanan və **bu əsasdan da milli iqtisadi inkişaf modelinin əsas konturlarını müəyyən etmək olar.**

# III FƏSİL. TƏKRAR İSTEHSAL

**3.1. Milli məhsulun təkrar istehsalı: mahiyyəti, tipləri və meyarı**
**3.2. Ümumi milli məhsul (ÜMM) istehsalı. Müasir dövrdə reallaşdırma nəzəriyyəsi**
**3.3. Milli sərvətin mahiyyəti və strukturu**

## 3.1. Milli məhsulun təkrar istehsalı: mahiyyəti, tipləri və meyarı

Milli məhsulun mahiyyəti haqqında danışmazdan əvvəl ictimai təkrar istehsal haqqında bir sıra mülahizələri özümüz üçün aydınlaşdırmalıyıq. Ona görə ki, cəmiyyətin əldə etdiyi bütün məhsul və xidmətlər təkrar istehsalın nəticəsidir.

İctimai təkrar istehsal deyərkən bu, daima fasiləsiz, qarşılıqlı və ardıcıl axın şəklində mövcud olan iqtisadi əlaqələrin yeniləşməsidir. Hər bir ictimai istehsal, eyni zamanda ictimai təkrar istehsaldır. Təkrar istehsal bir qayda olaraq, istehsal, bölgü, mübadilə və istehlak fazalarını əhatə edir. Hər bir istehsalın məqsədi istehlakla bağlı olduğundan, hər bir istehlakın da məqsədi istehsalın baş verməsi zəruriliyini törədir. Deməli, istehsalla istehlak və təkrar istehsalın digər fazaları arasında, eyni zamanda hər birinin eyni xüsusiyyətlərə malik qarşılıqlı əlaqələri mövcuddur. Təkrar istehsal əslində cəmiyyət miqyasında baş verən iqtisadi münasibətlərin təkrar istehsalıdır, yəni iqtisadi münasibətlər çərçivəsinə daxil olan bütün iqtisadi elementlər, mütləq təkrar istehsal prosesi ilə rastlaşır. Heç kəs inkar edə bilməz ki, cəmiyyətdə istehsalın baş verməsi üçün mütləq onun element və amilləri təkrar istehsal olunmalıdır. Deməli, iqtisadi sistemin gedişatı üçün mütləq, xammal, materiallar, istehsal vasitələri, iş qüvvəsi, sair iqtisadi münasibətlər məcmu şəkildə təkrar istehsal olunmalıdır. Bu pro-

sesin gedişatı ictimai əmək bölgüsünün dərinləşməsinə, iqtisadi əlahiddəliyin güclənməsinə, hər cür ölkə daxili və xarici iqtisadi əlaqələrin möhkəmlənməsinə gətirib çıxarır. Göstərilən bu əlamətlərin hər biri təkrar istehsal prosesi üçün nəzərə alınmazsa, istər-istəməz orada istehsalın miqyası zəifləyəcək və onun iqtisadi potensialı aşağı düşəcəkdir. Bir cəhəti də xüsusi nəzərə almaq lazımdır ki, təkrar istehsal üçün əsas xarakter cəhət onun reallaşma prosesinin həyata keçirilməsidir, yəni təkrar istehsal o vaxt baş verir ki, istehsal olunan bütün əmtəə və xidmətlər satılmalıdır. Bu şərait iqtisadiyyatda müvazinətli, tarazlı, proporsional, dayanaqlı və sabit inkişaf istiqamətini əsaslandırır.

Təkrar istehsal haqqında danışarkən, bir qayda olaraq, onun tipləri haqqında məlumat vermək lazımdır:

- Təkrar istehsalın ilkin tipi, sadə təkrar istehsal və istehsal prosesinin əvvəlki miqyasda təkrarı olub əldə olunan bütün gəlirlərin son məqsədinin şəxsi istehlaka yönəldilməsidir.
- Təkrar istehsalın geniş tipi istehsal prosesinin daima artırılmasını nəzərdə tutur ki, əldə olunan gəlirlərin bir hissəsi əlavə istehsal amillərinin alınmasına, digər hissəsi isə şəxsi istehlaka istiqamətləndirilir.
- Təkrar istehsalın tarixi tipləri olan sadə və geniş təkrar istehsalla yanaşı onun tənəzzüllü tipinin mövcudluğu əsaslandırılmalıdır.

Bir qayda olaraq, tarixi inkişaf statik vəziyyətdə deyil, dinamik vəziyyətdə öyrənildiyindən həmişə sadə formadan sonra geniş formanın mövcudluğu əsaslandırılıb. Lakin iqtisadi həyatda elə proseslər yaranır ki, texniki tərəqqi sadə formanı inkar edib, geniş tipi əsaslandırsa da, resurs təminatı baxımından onun tənəzzüllü tipi baş verir. Deməli, təkrar istehsalın tənəzzüllü tipi dedikdə, istehsal prosesinin tədrici azalması ilə təkrarlanması nəzərdə tutulur. Bu proses əsasən iki amil nəticəsində baş verir:

- ya cəmiyyət üzvlərinin gəlirlərinin azalması ilə tə-

krar istehsalın nəticəsi olan əmtəə və xidmətlərlə rastlaşmır;

- ya da ki, resurs təminatının məhdudluğu nəticəsində mövcud istehsal prosesinin miqyası daralır. Bazara keçidin ilk illərində Azərbaycanın iqtisadiyyatı üçün tənəzzüllü təkrar istehsal tipi xarakterik olmalıdır. Belə ki, milli iqtisadiyyatın aparıcı sahələrində bütövlükdə istehsalın miqyasının sərt şəkildə aşağı düşməsinə baxmayaraq, lakin onun bir sıra sahələrində istehsal prosesi keyfiyyətcə yeni formada geniş miqyasda fəaliyyət göstərmişdir. Təkrar istehsalın bu tipi bütün iqtisadi sistemlər üçün xasdır. Əgər inzibati sistemdə o, iqtisadiyyatda olduqca ağır nəticələr törədərək, bütün xalq təsərrüfatı kompleksini əhatə edirsə, lakin bazar sistemində bir qrup istehsalçılar tam var-yoxdan çıxır, digərləri bir o qədər varlanırlar. Bununla yanaşı, bu sistemdə xüsusi mülkiyyətin çevik və səmərəli fəaliyyəti ilə bağlı, iqtisadiyyatda qısa bir müddətdən sonra müvazinət yaranır. Ümumiyyətlə, bir qayda olaraq, tarixi inkişaf prosesi üçün geniş təkrar istehsal daima iqtisadi inkişafı əsaslandırır, onu həm kəmiyyətcə, həm də keyfiyyətcə zənginləşdirərək onun miqyasını artırır.

Yuxarıda qeyd olunan təkrar istehsalın tiplərindən əlavə onun özünəməxsus meyarları da fəaliyyət göstərir. Bu meyarlara **ekstensiv, intensiv və qarışıq** təkrar istehsal hədləri daxildir. Bir qayda olaraq, bu meyarlar təkrar istehsalın geniş tipi üçün əhəmiyyət daşıyır.

Ekstensiv təkrar istehsal dedikdə, bu, onun ilkin meyarı olub, istehsalın miqyasının əlavə iqtisadi resursların cəlb olunması ilə fəaliyyətini əks etdirir. Əvvəlki texnologiyaya və işçilərin mövcud peşəsinə, ixtisasına, əlavə əmək və kapital resurslarının istehsala cəlb olunması ilə, onun miqyası genişləndirilir. Bu o deməkdir ki, **hər əlavə məhsul vahidinin əldə olunması, əlavə zəruri resurs təminatının artırılmasına səbəb olur**. Bildiyimiz kimi, istehsalın miqyas həddinin belə genişləndirilməsi çox davam edə bilməz, çünki bütün resurslar məhduddur. Düzdür, bəzi hallarda

tükənməz görünən əmək və təbii resurslar çox vaxt uyğun kapital və texnologiya resursunun olmamasına görə istifadəsiz qalır.

Ona görə də çox hallarda ekstensiv təkrar istehsal şəraitində onun əsas inkişaf yolu:

- məşğul olanların sayının artırılması,
- iş günlərinin çoxaldılması,
- əsaslı kapital qoyuluşlarının həcminin artırılması,
- yeni yararlı torpaq sahələrinin mənimsənilməsi,
- hasilat sənayesinin gücləndirilməsi,
- yeni enerji mənbələrinin tapılması və s. hesab olunur.

Təsərrüfatçılığın bu metodla aparılması tam məqsədli xarakter daşıyır. Başqa sözlə, geniş təkrar istehsalın miqyasının artımı, hər məhsul vahidinə sərf olunan resursların həcminin çoxalmasına səbəb olur. **İstehsalın belə inkişafı uzun müddət davam edirsə, onda hər əldə olunan resursların qiyməti, əvvəlki illərə nisbətən mütləq çox olacaqdır**. Deməli, cəmiyyət onsuz da məhdud olan resurslarını xərcləməklə, həm nisbətən az, həm də olduqca baha əmtəə və xidmətlər əldə edəcək. Belə bir vəziyyət Azərbaycan iqtisadiyyatı üçün inzibati-amirlik sistemində xarakterik idi. Onun çətinlikləri hələ indi də mövcuddur. Keçid iqtisadiyyatı şəraitində iqtisadi resurslara olan tələbatın artımını nəzərə alsaq, bu çətinliklər hələ müəyyən müddət ərzində davam edəcəkdir. Göründüyü kimi, geniş təkrar istehsalın **mütərəqqi meyarı intensiv təkrar istehsaldır**. Belə şəraitdə ekstensiv meyardan fərqli olaraq istehsal amillərindən keyfiyyətcə yeni səviyyədə istifadə edilir. **İstehsal, artıq texniki tərəqqi ilə bağlı texnoloji inkişaf üsuluna daxil olur**.

Ümumiyyətlə, intensiv təkrar istehsal öz inkişafında iki mərhələdən keçir. **Birinci mərhələdə istehsal tədrici intensivləşdirilir**. Başqa sözlə, istehsalın yalnız bir amili intensivləşdirilir. Digər amillər isə olduğu kimi fəaliyyət göstərir.

Məsələn, əl əməyi mexanikləşdirilir, yaxud da avtomatlaşdırılır, ancaq məhsul vahidinə sərf olunan digər amillər olduğu kimi qalır. Qeyd etməliyik ki, intensivləşdirmənin tədrici mərhələsi üçün bir qayda olaraq, iş qüvvəsindən istifadədə irəliləyişlər xarakterik hal alır. **İntensiv təkrar istehsalın ikinci mərhələsi üçün onun hərtərəfli intensivləşdirilməsi lazımdır**. Belə şəraitdə əmək məhsuldarlığının artımı hesabına, məhsul vahidinə sərf olunan digər resursların qənaəti baş verir. Başqa sözlə desək, istehsalın bütün amilləri intensivləşdirilir.

Belə şəraitdə elm və texnikanın nailiyyətlərini iqtisadiyyata cəlb etməklə mövcud olan resurslardan daha səmərəli və tam istifadə edilir. İqtisadi inkişafın nəticələri daha çox resurslu olur.

**Təkrar istehsalın qarışıq meyarı haqqında danışarkən qeyd etməliyik ki, real həyatda intensiv və ekstensiv amillər daima qarışıq şəkildə fəaliyyət göstərir**. Heç vaxt nə xalis ekstensiv, nə də intensiv geniş təkrar istehsal mövcud olunmuşdur. Lakin burada iqtisadi inkişaf üçün zəruri olan **ekstensiv və intensiv amillərin payının çoxluğu fərqlənir**. Əgər ekstensiv amillər çox olursa, iqtisadiyyat ekstensiv və ya məsrəfli, əgər intensiv amillər üstünlük təşkil edirsə, iqtisadiyyat resursqoruyucu adlandırılıb. Əgər cəmiyyətin gəlirləri bərabər səviyyədə həm intensiv, həm də ekstensiv amillər hesabına əldə edilibsə, onda belə təkrar istehsalın me'yarı qarışıq hesab olunur.

Qeyd etməliyik ki, müasir dövrün xarakterik xüsusiyyətlərindən biri, geniş təkrar istehsal prosesi üçün xarici iqtisadi əlaqələrin müstəsna əhəmiyyətə malik olmasıdır. Çünki, ölkə daxili milli iqtisadiyyat resurslardan istifadə imkanı mövcud iqtisadi məkan çərçivəsində məhdud xarakter daşıyır. Ona görə də resursların bir qismi xaricə ixrac olunur, ya da resurslardan səmərəli istifadə olunmaq üçün texnologiya, əsas kapital, istehlak şeyləri və s. idxal olunur. Belə şəraitdə xarici iqtisadi əlaqələrdən məq-

sədyönlü və qarşılıqlı faydalanma şəklində istifadə etmək olduqca zəruri bir haldır.

## 3.2. Ümumi milli məhsul (ÜMM) istehsalı. Müasir dövrdə reallaşdırma nəzəriyyəsi

Cəmiyyətin inkişaf səviyyəsini xarakterizə edən göstəricilərdən biri də ümumi milli məhsuldur. Ümumi milli məhsul iqtisadiyyatın bütövlükdə fəaliyyətinin nəticəsi kimi özünü əks etdirir. Başqa sözlə desək, ümumi milli məhsul il ərzində istehsal edilmiş əmtəə və xidmətlərin bazar qiymətləri ilə ifadə olunmasına deyilir. Yəni ümumi milli məhsul il ərzində xüsusi təsərrüfatlarda, şirkət və birliklərdə, dövlət sektorunda istehsal olunmuş, saxlanılmış əmtəə və xidmətlərin həcminin yekununda əks olunur.

Ümumi milli məhsul bir tərəfdən il ərzində istehsal amillərindən istifadə olunmasını, digər tərəfdən isə milli iqtisadiyyatın səmərəliliyini əks etdirir.

İctimai istehsalın hərəkəti və onun nəticəsi olan ÜMM haqqında mə'lumat verərkən iqtisadçılar bir qayda olaraq, onu maddi əşya və dəyər, yaxud qiymət cəhətdən fərqləndirmişlər.

Bir qayda olaraq, ÜMM-in maddi əşya tərkibi dedikdə, burada istehsal vasitələri və istehlak şeyləri istehsalı başa düşülür.

Milli məhsulun dəyərcə, yaxud qiymətcə tərkibi dedikdə, bura ödəmə və ya bərpa fondu, yəni istehsal prosesində istehlak olunmuş əsas və dövriyyə kapitalının həcmi, milli gəlir, yəni yeni yaradılmış və satışdan əldə edilmiş gəlir başa düşülür.

Qərb iqtisadi ədəbiyyatında ÜMM strukturu əsas dörd elementə bölünür.

1. **İstifadə olunan xərclər**. Bu xərclərə əsas vəsaitlərin dəyəri, onların saxlanması və yaxşılaşdırılması daxil edilir. Başqa sözlə, mövcud istehsal prosesində istifadə edilmiş is-

tehsal vasitələrinin dəyəri (xammal, yanacaq, detallar və s.) daxil edilir.

2. **Amillər üzrə xərclər**. Bura sahibkarların başqa istehsal amilləri sahiblərinə cari xidmətlərinə görə ödədikləri gəlirin bir hissəsi daxil edilir. Yəni bura daxildir: a) *əmək-haqqı*, b) *borc kapitalına görə faiz*, v) *torpaq rentası*. Bu xərclər bilavasitə tətbiq olunan məsrəflərdir və onların həcminin azaldılması gəlirlərin kəmiyyətinin çoxalmasına səbəb olur.

3. **Əlavə xərclər**. Bura milli məhsulun dəyər tərkibində avadanlıqların qiymətdən düşməsi və yaxud tətbiq olunan avadanlıqlardan istifadə üçün əlavə xərclərin çəkilməsi daxildir. Adətən avadanlıqların mənəvi aşınması şəraitində bu növ xərclər çəkilir.

4. **Sahibkarların gəliri**. Bura fəaliyyətdə olan sahibkarların əldə etdiyi mənfəət nəzərdə tutulur.

Ümumi milli məhsulun dəyər tərkibində bu şəkildə təsnifatlaşdırılması bazar sistemli ölkələrin tətbiq etdiyi üsuldur.

Əlbəttə, istehsal olunan bazar təyinatlı bazar qiymətlərinin reallaşdırılması, məhsulların hesablanması işi nə qədər asandırsa, il ərzində istehsal olunan, amma bazar qiyməti almayan əmtəə və xidmətlərin müəyyən edilməsi bir o qədər çətindir.

İş orasındadır ki, əvəzsiz ictimai xidmətlərin göstərilməsi (dövlətin təhsil, səhiyyə, müdafiə, hüquqi təminatlar və s.) konkret olaraq həmin müddət ərzində onlara çəkilən xərclərin dəyəri ilə müəyyən edilir. Öz tələbatını ödəmək üçün istehsal olunan dəzgahqayırma müəssisələrinin məhsulları müqayisəli qiymətlərlə müəyyənləşdirilir. Ev təsərrüfatına görülən xidmətlər bazara çıxarılmadığından onların hesablanması çətindir. Ona görə də bu qəbildən olan xidmətlərin və işlərin həcmi ümumi milli məhsulda nəzərə alınmır.

İqtisadi ədəbiyyatlarda və təsərrüfatçılıq təcrübəsində ümumi milli məhsulun həcminin müəyyənləşdirilməsində iki

mövqe fəaliyyət göstərir. Bir mövqeyə görə daha doğrusu, marksist nəzəriyyəsinə görə ÜMM maddi istehsal sferasının nəticəsidir. Xidmətlər həmin məhsulların dəyərinə daxil edilmir. Belə yanaşma üsulu bizim ölkədə istifadə edilmişdir.

Dünya təsərrüfatçılıq praktikasında isə belə mövqe fəaliyyət göstərir ki, milli məhsulu hesablayarkən bura təkcə maddi istehsal sferasının deyil, eyni zamanda xidmət sferasında da yaradılan nemətlərin qiyməti də daxil edilir.

Milli məhsulun strukturunda **maddi istehsalla** yanaşı **qeyri-maddi istehsal və ya xidmət sferası** da xüsusi yer tutur. ÜMM-in formalaşmasında təkcə maddi nemət yaradan **məhsuldar əmək deyil**, həmçinin maddi nemət yaratmayan, lakin onun səmərəli və məqsədyönlü istifadəsinə xidmət göstərən qeyri-məhsuldar əmək də iştirak edir.

Maddi istehsala daxildir:

- sənaye sahələri;
- kənd təsərrüfatı;
- tikinti sahələri;
- ticarət sahələri.

Maddi xidmət göstərən sahələrə daxildir:

- nəqliyyat sahələri;
- rabitə, telekommunikasiya sahələri;
- kommunal təsərrüfat sahələri;
- şəxsi yardımçı təsərrüfat sahələri.

Qeyri-istehsal və ya xidmət sferasına daxildir:

- təhsil sahələri;
- səhiyyə sahələri;
- elm sahələri;
- mədəniyyət və incəsənət sahələri;
- məişət xidməti sahələri;
- idarəetmə sferası;
- maliyyələşmə və kreditləşmə sahələri;
- idman sahələri.

Belə təsərrüfatlaşmanın aparılması, sadəcə olaraq hər bir ölkədə ÜMM-in formalaşmasında xüsusiyyətlərinin

aydınlaşdırılması üçün zəruridir. Əslində beynəlxalq hesabatlarda, BMT-nin tövsiyələrində ÜMM-in qiymətləndirilməsi üç sfera üzrə həyata keçirilir:

- hasilat sənayesi üzrə;
- emal sənayesi üzrə;
- xidmət sferası üzrə.

Həm məhsuldar, həm də qeyri-məhsuldar əmək ÜMM-in yaradılmasında **faydalı funksiya** yerinə yetirməklə iqtisadi inkişafı sürətləndirməklə, təkrar istehsal prosesinin səmərəliliyinin yüksəldilməsinə xidmət göstərir.

Müasir dünya iqtisadiyyatına ETT-nin sürətlə təsir etməsi, xammal və enerji istehsalına xərclərin nisbi azalması, maddi istehsal sahəsində əmək resurslardan istifadənin azalması, xidmət sferasının inkişafı ÜMM-in strukturunda da dəyişikliklərin getməsinə səbəb oldu. Belə ki, hazırda ÜMM-in strukturu, təkcə istehsal vasitələri, istehlak şeyləri ilə deyil, həm də qeyri-istehsal xarakterli nemətlərdən, hərbi sənayeni əhatə edən nemətlərdən ibarətdir. ÜMM-in strukturunu müəyyənləşdirməklə həm real əmtəə bazarları ilə maliyyə bazarları arasındakı tarazlığı, həm də milli iqtisadiyyatın müvazinətli inkişafının təmin olunması istiqamətini müəyyənləşdirmək olar.

Hər hansı iqtisadi sistemin formalaşmasından asılı olmayaraq, onun təkrar istehsal prosesini əhatə edən elementləri fasiləsiz olaraq qarşılıqlı əlaqəli şəkildə yeniləşməsi ilə yanaşı, eyni zamanda iqtisadi münasibətlər kimi də təkrar istehsal olunmalıdır.

Digər iqtisadi sistemlərdən fərqli olaraq, bazar sistemi o şəraitdə fəaliyyət göstərir ki, istehsal olunan bütün məhsullar istər istehsal vasitələri, istərsə də istehlak şeyləri şəklində olsun, həm reallaşmalıdır, həm də ödənilməlidir. Başqa sözlə demiş olsaq, istehsal olunan məhsullar həm dəyər tərkibinə görə, həm də natural tərkibinə görə reallaşmalıdır. Dəyər bir əmtəə və ya xidmətin başqa **məhsulla mübadilə dərəcəsini əks** etdirir. Nəzərə almaq lazımdır ki,

dəyəri olan əmtəə və ya xidmət tələbi ödəmək qabiliyyətində olmalıdır. Tələbi ödəmək qabiliyyətində orta vahid göstəricisi kimi **pul çıxış** edir. Məhsulların dəyəri pul vasitəsilə ifadə olunur. Yəni əmtəələrə və xidmətlərə qoyulan pul vahidi kimi qiymət məhsulların dəyəri kimi müəyyənləşdirilir. Deməli, müəyyən qiymətlə məhsulların reallaşması, onların mübadilə oluna biləcək dərəcəsini əks etdirməklə ÜMM-in həm dəyərcə, həm də natura şəklidə reallaşmasını əks etdirir. Başqa sözlə, ÜMM-in həcmi, cəmiyyətin ümumi gəlirlərinin həcmi ilə ümumi xərclərin bərabərlik səviyyəsini əks etdirir. Əgər cəmiyyətdə ictimai əmək bölgüsünə və fərdi əlahiddəliyə uyğun olaraq istehsal olunan məhsulların dəyər tərkibi, yaxud faydalılığı onların maddi əşya tərkibinə uyğun gələrsə, onda təkrar istehsal başa çatmış olur. Onun səmərəliliyi, ictimai seçimi də daxil olmaqla ümumi optimallıq səviyyəsinə uyğun gələcək. Belə şəraitdə təkrar istehsalın proporsiyaları müəyyən optimallıq səviyyəsinin gözlənilməsini zəruriləşdirir.

XVIII əsrdə fransız iqtisadçısı **Fransua Kene ilk dəfə olaraq, təkrar istehsalın cəmiyyət miqyasında xarakteristikasını verərək göstərmişdir ki, hər hansı milli məhsul tədricən xərclənir, istehlak olunur, aşınır**. Ona görə də bütün iqtisadi məhsulların əvəz olunması zəruriləşir. Təkrar istehsal prosesində bunlar fazalara uyğun olaraq ya tədrici, ya da birdəfəlik əvəz olunur. Onun üçün də bütün məhsullar yenidən yaradılmalı və ya təkrar istehsal olunmalıdır.

F.Kenenin makroiqtisadi təhlilinə əsas diqqət xalis məhsulun yaradılmasında və mənimsənilməsində iştirak edən milləti üç sinfə bölməklə özünün təkrar istehsal modelini yaratmışdır:

- məhsuldar sinif; bura kənd təsərrüfatı işləri ilə məşğul olub, xalis məhsul yaradanlar aid edilir;
- mülkiyyətçilər sinfi; bura kral ailəsi, senyorlar, kilsə xadimləri, kapitalist fermerlər, fəhlə-torpaq mülkiyyətçiləri aid edilir;

• qeyri-məhsuldar sinif; bura kənd təsərrüfatı işləri ilə deyil, yalnız yaradılmış məhsulun natural formasının dəyişilməsi ilə məşğul olanlar aid edilir. Beləliklə F.Kene kənd təsərrüfatı məhsulları istehsalı timsalında təkrar istehsalın həm maddi əsasını, həm də sinfi xarakterinin mahiyyətini açıb göstərdi.

Reallaşdırma prosesi üçün «təbii qaydalar» prinsipi üzrə proporsionallığın mövcudluğu əsas götürülür. Lakin iqtisadi həyatda proporsionallığın pozulması ilə təkrar istehsalın baş verməsi, belə bir prinsipi reallaşma üçün tam əsas kimi götürməyə imkan vermir.

Başqa fransız iqtisadçısı **Sismond de Sismondi isə hesab edirdi ki, reallaşma prosesi üçün ən vacib cəhət istehsalla istehlakın uyğun gəlməsidir**. İstehlak da gəlirlə müəyyən olunduğundan, cəmiyyət miqyasında istehsalla gəlirlərin məbləği uyğun olmalıdır. Lakin istehsalın həcmi gəlirlərin məbləğindən üstün olduğundan reallaşma prosesi üçün xarici bazarların olması zəruridir. Daha doğrusu, Sismondi reallaşma prosesini xarici bazarlarla əlaqələndirirdi.

Daha sonralar alman iqtisadçısı **K.Marks reallaşma prosesinə müraciət edərək göstərirdi ki, ictimai təkrar istehsal üçün istehsal vasitələri istehsal edən I bölmənin, istehlak şeyləri istehsal edən II bölməyə nisbətən üstün inkişafı əsas şərtdir**. Lakin iqtisadi inkişafın bütün mərhələləri üçün istehsal vasitələri istehsalının, istehlak şeyləri istehsalına nisbətən üstün artımının qəbul edilməsi, reallaşma prosesində ciddi çatışmazlığa səbəb olduğundan, ona yalnız abstrakt nəzəriyyə kimi diqqət yetirmək olar. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, keçmiş SSRİ-də ictimai təkrar istehsal üçün K.Marksın abstrakt reallaşma nəzəriyyəsindən irəli gələn iqtisadi qanunauyğunluqlar əsas götürülmüşdü.

K.Marksın yaratmış olduğu ictimai kapitalın təkrar istehsal nəzəriyyəsi özündə:

• mücərrəd və ya abstrakt reallaşdırma nəzəriyyəsini;
• milli gəlir nəzəriyyəsini;

• iqtisadi böhranlar nəzəriyyəsini birləşdirir.

K.Marksın təkrar istehsal modelində əsas diqqət məcmu ictimai məhsulun həm istehsal, həm də tədavül sferasındakı hərəkətinə verilir. Özü də təkrar istehsal ictimai istehsalın dörd fazasını da əhatə edir:

• istehsal fazasını; burada cəmiyyətin varlığını əsaslandıran maddi nemətlərin yaradılması nəzərdə tutulur;

• bölgü fazasını; burada istehsal olunmuş məhsulun cəmiyyət üzvlərinin hər birinin payının müəyyənləşdirilməsi nəzərdə tutulur;

• mübadilə fazasını; burada maddi nemət və xidmətlərin iqtisadi subyektlər arasında hərəkət formasını, həm də istehsalçılarla istehlakçıların maddi nemətlər vasitəsilə ictimai əlaqə forması nəzərdə tutulur;

• istehlak fazasını; burada istehsalın nəticələrinin müəyyən tələbatların ödənilməsi məqsədi ilə istifadə olunması nəzərdə tutulur.

İctimai istehsalın təkrar istehsal prosesinin fazalar üzrə hərəkətini müəyyənləşdirməklə, K.Marks üç başlıca prosesin fərqləndirilməsini göstərmişdir:

• məcmu ictimai məhsulun təkrar istehsal prosesini;

• məhsuldar qüvvələrin və ya işçi qüvvəsinin təkrar istehsal prosesini;

• istehsal münasibətlərinin təkrar istehsal prosesini.

Lakin real həyatda bu üç prosesi bir-birindən ayırmaq mümkün olmadığından, həmçinin istehsal münasibətləri özünü bilavasitə «iqtisadi münasibətlər» kimi əks etdirdiyindən bu nəzəriyyə elmi əhəmiyyət kəsb etməsindən asılı olmayaraq, mücərrəd xarakter daşıyır. Çünki, iqtisadiyyatın hərəkəti müvazinətliklə deyil, qeyri-müvazinətliklə müşahidə olunur.

Ümumi milli məhsulun reallaşmasının həyata keçirilməsi, müasir şəraitdə formalaşmış **iqtisadi məkandan asılıdır**. Belə bir iqtisadi məkanın olması təkrar istehsal prosesinin sistemli şəkildə hərəkətinə təminat yaradır. İqti-

sadi məkanın formalaşmasından asılı olaraq, təkrar istehsalın nəticələrinin mənimsənilməsi üsulu özünü təsdiqləyir.

**Vahid iqtisadi məkan dedikdə, milli məhsul istehsalının bütün maddi-texniki şərtləri, istehsal infrastrukturu və ölkə üzrə yaradılmış institutların məcmusu nəzərdə tutulur**. Adətən vahid iqtisadi məkanın daşıyıcısı dövlət hesab olunur. Çünki, maddi-texniki şərtlərin əsasını ölkənin ərazisi, daha doğrusu, torpaq sahələri əhatə edir. Torpaq sahələri dedikdə burada nəzərdə tutulur:

- istehsal vasitəsi kimi torpağın özü;
- kənd, meşə, balıqçılıq təsərrüfatları;
- torpaqda yerləşən su hövzələri;
- mədən sənayesi sahələri;
- mənzil və sənaye tikintisi.

İstehsal infrastrukturu iqtisadi məkanın mühüm elementi olmaqla milli məhsulun təkrar istehsalının fasiləsizliyini və səmərəliliyini təmin edən xidmət sahələri nəzərdə tutulur:

- yolların salınması və ya çəkilməsi;
- körpülərin salınması;
- şəbəkə informasiya texnologiyalarından istifadə mühitinin yaradılması.

Milli məhsulun təkrar istehsalında yaradılmış institutların əhəmiyyəti olduqca böyükdür. Ölkənin iqtisadi təhlükəsizliyinin qorunmasına xidmət göstərən bu institutlar **əsasən təbii resurslardan istifadə həddinin** müəyyənləşdirilməsinə xidmət göstərir. Daha doğrusu, bu institutlar istər ölkə daxili şirkətlərin, istərsə də transmilli korporasiyaların iqtisadi davranış qaydalarını müəyyən edir. Vahid iqtisadi məkanın təşəkkülü, makroiqtisadi mülkiyyətin yaradılmasına təkan verməklə, onun nəticələrini renta formasında mənimsəməyə, milli sərvətin yaradılmasına və artırılmasına imkan yaradır.

Müasir Qərb iqtisadi ədəbiyyatlarında cəmiyyət miqyasında təkrar istehsal prosesi məhsulların və gəlirlərin

dövranı kimi əsaslandırılır.

Məhsul və gəlirlərin reallaşması iqtisadi dövran kimi qəbul edilir. Sxematik olaraq bunu aşağıdakı kimi izah etmək olar.

**Sxem 3.1.**

**Məhsul və gəlirlərin iqtisadi dövriyyəsinin neoklassik modeli**




Bu iqtisadi dövran bazar sistemli ölkələr üçün əsas olmaqla, onların fəaliyyəti milli iqtisadiyyatın xarakterik xüsusiyyətlərindən asılı olaraq müxtəlif ola bilər. Yəni dövlətin iqtisadi resurslar və məhsullar bazarına, eləcə də müəssisə və ev təsərrüfatına müdaxilə etməsindən asılı olaraq, dövran prosesi, vaxt amillərindən istifadə olunması,

gəlir və xərclərin hərəkəti, əmtəə və xidmətlərin mübadiləsi, bütün təsərrüfat subyektlərini vəhdət halında, sıx, qarşılıqlı əlaqə və asılılıq şəklində bir-birinə birləşdirir. Beləliklə, məhsul və gəlirlərin dövranı, əslində cəmiyyət miqyasında ictimai təkrar istehsalın reallaşması prosesi kimi özünü əks etdirir. Bu dövran daimi xarakter daşımaqla, mövcud əlaqələrin yeniləşməsinə, təkrarlaşmasına və davam etməsinə əsaslanır. Belə bir dövran prosesi hər hansı ictimai istehsalın meyarı olmaqla, milli iqtisadiyyatın üstünlüklərini və ya məhdudiyyətlərini əks etdirir.

## 3.3. Milli sərvətin mahiyyəti və strukturu

Milli sərvət cəmiyyətin müəyyən tarixi inkişaf mərhələsində yaradılan maddi və mənəvi nemətlərin məcmusunu əks etdirir. Ona bütövlükdə milli iqtisadiyyatın inkişafının nəticəsi kimi baxmaq lazımdır. Çünki hər bir milli iqtisadiyyatın nəticəsi yalnız maddi ne'mət və xidmətlərin istehsalının yüksəldilməsində deyil, sərvətin artırılmasında öz əksini tapmalıdır.

Hamıya bəllidir ki, nə istehsal olunursa, o bütövlükdə istehlak olunur. Eyni zamanda biz nələrdən istifadə ediriksə, onların da hamısını biz yaratmamışıq.

Yaşadığımız binalar, sürdüyümüz maşınlar və yaxud istifadə etdiyimiz mebel, dincəldiyimiz bağ mənzilləri, əmək fəaliyyətimizdən xeyli əvvəl yaradılmışdır. Eyni zamanda salınan dəmir yolları, şosələr, gəmi bərələri, muzeylər, konsert zalları və s. bizim ata və babalarımız tərəfindən yaradıldığından o da milli sərvət hesab olunmalıdır. Buna görə də digər maddi və mənəvi sərvətlərlə, indi yaradılan nemətlərin üzvi əlaqəsinin qovuşdurulmasını təmin etmək və gələcək üçün daha mütərəqqi sərvətlərin artım mənbələrini üzə çıxarmaq lazımdır.

Sərvət yalnız cəmiyyət üzvləri tərəfindən qiymətləndirildikdə və onların şəxsi mənafelərinə uyğun gəldikdə maddi

forma alır. Sərvət ayrı-ayrı adamların və qrupların mənafeyinə uyğun gəlirsə, o milli formadan kənarlaşır.

Beynəlxalq təsisatlar, xüsusən BMT, BVF, Dünya Bankı, milli iqtisadiyyatların vəziyyətini milli sərvətlə qiymətləndirməyi aşağıdakı göstəricilər vasitəsilə müəyyənləşdirir:

• təbii resursların dəyəri;

• əmək resurslarının dəyəri;

• milli iqtisadiyyatı əhatə edən firma və sahələrin dəyəri;

• adambaşına düşən ÜDM-in payı.

Qeyd etmək lazımdır ki, milli sərvətin artımında ölkənin malik olduğu iqtisadi potensialdan daha səmərəli istifadə olunması xüsusi rol oynayır. Başqa sözlə, iqtisadi potensialdan istifadəsinə və təkrar istehsalına **çəkilən xərclərin payı**, əldə olunan səmərə hesabına aşağı düşməlidir.

Bu baxımdan milli sərvətin səviyyəsi ora daxil olan potensiallara çəkilən xərclə dəyişilir:

• insan potensialı inkişafına, yəni onun ömrünün uzadılmasına, sağlamlığının qorunmasına, təhsilinin intellektual, mədəni, ixtisasının artırılmasına çəkilən xərclər;

• təbii resurs potensialı hesab olunan faydalı qazıntıların, qazma-kəşfiyyat işlərinin aparılmasına, torpaq, meşə, su resurslarından istifadəsinə çəkilən xərclər;

• elmi-texniki potensial kimi tədqiqat və layihə işlərinə, elmi-tədqiqat işlərinə, intellektual mülkiyyətin yüksəldilməsinə çəkilən xərclər.

Milli sərvətin artırılması, həm dövlətin strateji məqsədlərinin, həm də milli mənafelərinin reallaşmasına imkan yaradır. Milli sərvətin qorunması və ondan səmərəli istifadə olunması:

• milli və iqtisadi təhlükəsizliyinin qorunmasına;

• ölkənin rəqabətqabiliyyətinin yüksəlməsinə;

• əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yaxşılaşmasına imkan yaradır.

Ümumiyyətlə, sərvət anlayışı çoxmənalıdır və əsasən adamların qiymətləndirdiyi maddi və mənəvi nemətlər kütləsini əks etdirir. Bir cəhəti xüsusi qeyd etmək lazımdır ki, milli sərvətə insanların tələbatının ödənilməsi səpgisində yanaşmaq lazımdır. Özü də bu tələbatın ödənilməsi həm istehsal istehlakını, həm də şəxsi istehlakı əhatə etməlidir.

Digər tərəfdən, milli sərvət şəxsi tələbatı ödəməklə, eyni zamanda ictimai tələbatı da ödəməlidir. Məsələn, neft boruları konkret adamın tələbatı sferasından kənarda olsa da, gələcəkdə onların tələblərinin kəmiyyətində dəyişiklik etmək qabiliyyətinə malik olduğu baxımından qiymətləndirilməlidir. Göründüyü kimi, təbii resurslar, texniki vasitələr, adamların malik olduqları maddi və mənəvi nemətlər sərvətin spesifik forma almasına səbəb olur.

Milli sərvət keçmiş dövrlərdə istehsal edilib yığılmış və cari dövrdə istehsal edilmiş maddi və mənəvi dəyərlərin qiymətlərinin cəmini əks edir. Bununla da milli sərvət göstəricisi, digər makroiqtisadi göstəricilər olan ümumi milli məhsul, ümumi daxili məhsul və milli gəlirdən fərqlənir.

Azərbaycanda tətbiq olunan metodikaya görə milli sərvətin tərkibinə aşağıdakılar daxil edilir:

- əsas istehsal fondları (bina və qurğular, maşın və dəzgahlar, nəqliyyat vasitələri, ötürücü qurğular, ətlik və işlək heyvanlar və s.);
- əsas qeyri-istehsal fondları (mənzillər, səhiyyə, təhsil, sosial təminat, mədəniyyət, incəsənət, idman və istirahət və s. sahələrin binaları, qurğuları, tikililəri və s.);
- maddi istehsal sferasındakı maddi dövriyyə vasitələri;
- istehsal və xidmət sferasındakı ehtiyatlar;
- dövlətin istehsal vasitələri və istehlak şeyləri ehtiyatları.

Sadaladığımız bu elementləri və eyni zamanda milli sərvətin strukturunu xarakterizə edərkən qeyd etməliyik ki, onun elementləri eyni rola malik deyildir. Çünki, istehsal fondları bir qayda olaraq ümumi milli məhsulun təkrar

istehsalının texniki imkanlarını müəyyən edir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövriyyə istehsal fondları əsas istehsal fondlarının 25-30 faizini təşkil edir.

Qeyri-istehsal fondları haqqında danışarkən qeyd etməliyik ki, bura dövlətin mənzil fondu və sosial mədəni təyinatlı idarələr daxil edilir. Mənzil fonduna daxil olduğundan qeyri-istehsal fondlarının müəyyən edilməsi bir qədər şərti xarakter daşıyır. Çünki, mənzil qeyd olunarkən, ora daxil olan uzunmüddətli işlədilən məişət avadanlıqları xüsusi rola malikdir. Lakin mənzillərdə olan mebel, xalılar, televizor, soyuducular və s. qeyri-istehsal təyinatlı fondlarda nəzərə alınmır. Halbuki, dünyanın əksər ölkələrində belə məmulatlar ayrıca qeyd olunur.

Ölkəmizdə hələlik bu statistik qruplaşma aparılmasa da gələcəkdə yəqin ki, onun hesablanması nəzərdə tutulacaq.

Material ehtiyatları haqqında danışarkən qeyd olunmalıdır ki, bura tədavül sferasında olan hazır məhsullar, firmalardakı material ehtiyatları, dövlət ehtiyat və sığorta fondları daxil edilir.

Öz təyinatına görə material ehtiyatları, görünməz nəticələrə görə iqtisadiyyatda sabitləşdirmə funksiyasını oynayır. İstehsalın fasiləsiz axınının təmin olunması, müxtəlif səpkili iqtisadi təcavüzün qarşısının alınması, təbii fəlakətlərdən xilas olması imkanlarını özündə birləşdirən material ehtiyatları da olduqca məhdud çərçivədə olmamalıdır. Başqa sözlə, sığorta fondları və ehtiyatlar istehsal fondlarının heç olmasa dörddə birini təşkil etməlidir. İnkişaf etmiş dünya dövlətlərinin iqtisadiyyatında belə bir vəziyyət normal hal kimi qəbul edilir.

Milli sərvətin tərkibində özünəməxsus spesifikliyi ilə yer tutan təbii resurslar haqqında onu qeyd etmək lazımdır ki, **yalnız təsərrüfat dövriyyəsinə cəlb olunan və yaxud yaxın müddətdə istifadə olunacaq resursları milli sərvət elementi hesab etmək lazımdır.** Bəzi hallarda yerin təkində olan ehtiyatlar, yerüstü resurslar, su hövzələri birbaşa milli sərvətə daxil edilir ki, bu da düzgün deyil.

Əslində təbii resursları təsərrüfat dövriyyəsinə cəlb etmək və ondan istifadə etmək imkanları onu milli sərvətə çevirir.

Bununla yanaşı qeyd etmək lazımdır ki, vaxtilə iqtisadi nəzəriyyənin ilkin inkişaf mərhələsində milli sərvətə cəmiyyətin real tələbatına cavab verən resurslar daxil edilirdi. Bu resurslar hesabına bəşəriyyət özünün sənayeləşmə dövrünü yaşamış, özünün mexanikləşmə, konveyerləşmə, avtomatlaşma mərhələləri ilə səciyyələnmişdir. Hazırda bəşər sivilizasiyası özünün sənayeləşmədən daha mütərəqqi dövrünə daxil olmuşdur. Deməli, müasir dövrdə milli sərvətin həm qiymətləndirilməsinə, həm də hesablanmasına yeni mövqelər baxımından yanaşmaq lazımdır. Bu mövqelərin mərkəzində isə iki mühüm istiqaməti: birincisi, cəmiyyətin informasiyalaşdırma və ya kompyuterləşmə səviyyəsini, ikincisi isə, onların yaşayış səviyyələrinin keyfiyyət cəhətdən artımını nəzərdə tutmaq lazımdır. Buna misal olaraq rabitə sistemini göstərməklə kifayətlənmək olar. Əgər geridə qalmış ölkələr hələ rabitə sisteminin ilkin istiqamətlərindədirsə, inkişaf etmiş ölkələr isə artıq peykli əlaqələndirmə rabitə sistemindən istifadə edirlər. Deməli, informasiya cəhətdən texnologiyası inkişaf etmiş ölkələrin milli sərvəti daha yüksək olur, çünki informasiya biznes sferasında həlledici rola malik olub bazar sisteminin inkişafedici istiqamətini müəyyən edir.

Milli sərvətin strukturunu müəyyənləşdirərkən nəzərə almaq lazımdır ki, onda gedən mütərəqqi irəliləyişlər, xüsusən də informasiyalaşma prosesi ölkə iqtisadiyyatının inkişafına səbəb olur. Xüsusən də hasiledici və emaledici sahələr arasındakı nisbət sonuncunun xeyrinə olaraq dəyişilir. Əmək tutumlu sahələr inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına keçir. Ucuz işçi qüvvələrinə, peşə hazırlığına malik olan ölkələrdə əmək tutumlu sahələrdən hesab olunan toxuculuq, maşınqayırma və s. sahələr inkişaf etmiş olur.

Digər tərəfdən inkişaf etmiş ölkələrdə texnoloji cəhətdən daha yüksək informasiyadaşıyıcı məhsulların istehsalı və

hazırlanması sürətlə artır.

Göründüyü kimi, informasiyaların və təbii resursların milli sərvətin strukturundakı yeri, ölkələrin iqtisadi potensiallarının möhkəmləndirilməsində müxtəlif rola malikdir.

Sözün ən geniş mənasında milli sərvətə millətin malik olduğu maddi nemətlərlə yanaşı təbii resurslar, incəsənət nümunələri, iqlim şəraiti və s. daxildir. Lakin bunların hesablanması və adamların şəxsi mənafelərinin reallaşmasına birbaşa daxil edilməsi çətin olduğundan, adətən milli sərvət dar mənada nəzərdə tutulur. Çünki yerin təkindəki milyon tonlarla neft ehtiyatları, dənizdəki balıq ehtiyatı, meşədəki ağaclar iqtisadi potensialın mənbəyi kimi mövcuddur. İqtisadiyyat inkişaf etdikcə, bu ehtiyat mənbələrindən istifadə olunduqca milli sərvət insan əməyi ilə yaranır və təkrar istehsal olunur. Deməli, **tarixi inkişafın müəyyən mərhələsi ərzində bir sıra nəsillərin əməyi nəticəsində yaradılan və mövcud dövr ərzində hesablanması mümkün olan maddi və mənəvi nemətlərə milli sərvət deyilir**.

Düzdür, artıq haqqında bəhs edəcəyimiz ümumi milli məhsul və onun təkrar istehsalı bilavasitə milli sərvətin mənbəyini təşkil edir. Ümumi milli məhsul təkrar istehsal olunduqca və onun bir hissəsi cari istehlakdan artıq olduqca milli sərvət artır. Deməli, milli sərvətin mənbəyi kimi ümumi milli məhsul geniş təkrar istehsal olunmalıdır. Əlbəttə, bu proses heç də birtərəfli inkişaf etmir. Çünki ümumi milli məhsulun artırılması da eyni zamanda mövcud milli sərvətin artımından asılıdır. Əgər milli sərvət qorunmazsa, o gələcək dövrlər ərzində ümumi milli məhsulun təkrar istehsalı üçün yararsız vəziyyətə salınarsa, onda cari dövrdə onların heç birinin istənilən artımı baş verməyəcək. Məsələn, neft hasilatı üçün imkanlar azalacaq, eyni zamanda onun tətbiqi ilə bağlı sahələr də inkişaf etməyəcək. Bu da milli sərvətin artımını ləngidəcək. Deməli, milli sərvətin həm mütləq, həm də onun səmərəli strukturu ümumi milli məhsulun artımının sürətləndirilməsinə səbəb olur.

# IV FƏSİL. MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR SİSTEMİ

**4.1. Ümumi milli məhsul (ÜMM) və Ümumi daxili məhsul (ÜDM). Onların hesablanması metodu.**
**4.2. Nominal və real ÜDM.**
**4.3. Milli hesablar sistemi.**
**4.4. ÜDM-in artım səviyyəsi və iqtisadi rifah halı**

## 4.1. Ümumi milli məhsul (ÜMM) və Ümumi daxili məhsul (ÜDM). Onların hesablanması metodu

Mikroiqtisadiyyatın və makroiqtisadiyyatın əsasları ilə tanışlıqdan sonra aydın olur ki, ev təsərrüfatı, firmalar, müstəqil qərarlar qəbul etsələr də onlar qarşılıqlı əlaqədədirlər və müxtəlif bazarlarda fəaliyyətdə olmaqla baş verən ümumi dəyişikliklərin nəticəsinə məruz qalırlar. Yəni ev təsərrüfatından və firma fəaliyyətindən bazar qiymətləri ilə əldə olunan gəlirlərin səviyyəsi bazarlarda baş verən **ümumi dəyişikliklərdən** asılı olaraq (işsizliyin, qiymət səviyyəsinin, faiz dərəcələrinin və s.) müxtəlif olacaq. Belə şəraitdə bütövlükdə fəallıq şəraitində dəyişikliklər, iqtisadiyyatın ümumi səviyyəsinə təsir göstərəcək. Çünki ümumilikdə iqtisadiyyatın fəaliyyəti, ayrı-ayrı firmaların, ev təsərrüfatlarının fəaliyyətindən və müxtəlif bazarlarda qarşılıqlı əlaqələrdən və baş verən ümumi dəyişikliklərdən asılıdır. Ona görə də mikroiqtisadiyyat və makroiqtisadiyyat bir-biri ilə sıx əlaqədardır. Belə sıxı əlaqəni biz bazarın ilkin elementləri olan tələb, təklif, qiymət üzrə müşahidə edə bilərik. Lakin onların mikro- və makrosəviyyəli izahları tamamilə müxtəlif iqtisadi qənaətə gəlməyə səbəb olur.

Bu baxımdan ümumi dəyişiklikləri əks etdirən makroiqtisadi mövqedən etməyin zəruriliyinə diqqət yetirək. Belə şəraitdə ümumi dəyişiklikləri özündə əks etdirə biləcək ümumiləşdirici göstəricilərdən istifadə etmək lazımdır. Bu-

nun üçün bütün firmaların, ev təsərrüfatlarının gəlirlərini məcmu şəkildə özündə birləşdirən ÜMM, ÜDM, MG, SM və s. kimi statistik göstəricilər mövcuddur. Müasir şəraitdə istər dünya, istərsə də milli iqtisadiyyatların inkişaf səviyyəsini, müqayisəsini statistik göstəricilərdən istifadə etmədən mümkün deyil.

Makroiqtisadi göstəricilər iqtisadiyyatda baş verən ümumi dəyişikliklərin mahiyyətini əks etdirməklə:

- milli iqtisadiyyatın inkişaf səviyyəsini;
- əhalinin rifah halını;
- insan inkişafı potensialı indeksini.

İndi isə hər bir makroiqtisadi göstəricinin mahiyyəti mövqeyindən onun hesablanmasına diqqət yetirək. Bunun üçün sadə bir misala müraciət edək. Tutaq ki, Poladəritmə zavodunda çalışan Soltan dəniz qırağında yerləşən bağ sahəsini qonşusu Orxana müraciət edərək, onu 150 manata bellətdirmək istədiyini bildirir. Qonşu bu məbləğlə sahəni bellməsinə razılıq verir. Soltan xidmətin satıcısı, Orxan isə onun alıcısı qismində iştirak edir. Razılaşmadan sonra xərclərin və gəlirlərin ümumi həcminə eyni məbləğ daxil olur və ÜDM 150 manat artır. Biz bunu I fəsildə xərclərin və gəlirlərin axınlarının dövranı sxemində və ya modelində görmüşdük.

Beləliklə, belə qənaətə gəlmək olar ki, Poladəritmə zavodunun işçisi əməkhaqqı ilə müəyyən istədiyi işin həyata keçirilməsinə nail ola bilir. Digərləri isə bu pulla digər işlərin görülməsinə nail olurlar. Nəticədə sadələşdirilmiş şəkildə görürük ki, pullar fasiləsiz şəkildə ya xərclərin cəmi kimi, ya da gəlirlərin cəmi kimi hərəkət edirlər. Ona görə də ÜMM və ya ÜDM-in hesablanmasında **fasiləsiz axın** müəyyən vaxt çərçivəsində məhdudlaşdırılır ki, bu da bir qayda olaraq **bir il** kimi götürülür.

İndi isə məsələnin bir qədər ətraflı, daha doğrusu, ümumi şəkildə izahını verməyə çalışaq.

Hər bir ölkənin iqtisadiyyatı, külli miqdar bir-birilə qarşılıqlı əlaqədə olan və müxtəlif təsərrüfatçılıq fəaliyyəti ilə məşğul olan firmalardan ibarətdir. Onların fəaliyyət növündən asılı olmayaraq onlar bütövlükdə məcmu şəkildə ölkənin iqtisadiyyatını, millilik səviyyəsini, xalq təsərrüfatını əhatə etməklə makroiqtisadiyyatın öyrənilmə obyektinə çevrilirlər. Bu o deməkdir ki, cəmiyyət səviyyəsində və ya milli iqtisadiyyatda istehsal olunan əmtəə və xidmətlərin həcmi, məcmu xərclərin və məcmu gəlirlərin cəmlənməsi, çox hallarda aqreqatlaşdırılma adlanır ki, nəticə etibarilə bu statistik göstərici kimi əks olunur.

Bütün dünya ölkələrində belə məcmu makroiqtisadi göstəricilər «Milli hesablar sistemi» (MHS) adlandırılır. Milli hesablar sistemi vasitəsilə dövlət öz iqtisadi siyasətini formalaşdırmaqla, hökumət iqtisadiyyatın mövcud səviyyəsi ilə əlaqədar qərarlar qəbul edir. Bir qayda olaraq milli hesablar sisteminin göstəricilərindən, əsasən, beynəlxalq statistika orqanları müxtəlif ölkələrin iqtisadi dinamikasının həm müqayisəli təhlilini aparır, həm də standart göstəriciləri kimi istifadə edirlər.

Makroiqtisadi göstəricilər sistemində əsasən aşağıdakı göstəricilər əsas yer tutur:

- Ümumi milli məhsul (ÜMM);
- Ümumi daxili məhsul (ÜDM);
- Xalis milli məhsul (XMM);
- Milli gəlir (MG);
- Şəxsi gəlir (ŞG);
- Sərəncamda olan şəxsi gəlir (SŞG). Bu göstəricilər hal-hazırda 1993-cü ildə BMT MHS yeni versiyasına uyğun olaraq həm də MHS-nın müasir standart göstəriciləri kimi də qəbul olunmuşdur.

Milli iqtisadiyyat səviyyəsində iqtisadi aktivliyi və ya fəallığı əks etdirən əsas göstəricilərdən biri ÜMM-dir. Ölkəmizdə ÜMM-in hesablanması BMT-nin metodologiyası üzrə 1988-ci ildən həyata keçirilir. ÜMM dedikdə, **bu il ər-**

**zində ölkədə istehsal edilmiş bütün son nemətlərin bazar qiymətlərilə məcmusu başa düşülür.** Hər şeydən əvvəl, ÜMM son əmtəə və xidmətlərin məcmusudur. Bəllidir ki, iqtisadi proseslərdə başa çatmamış «aralıq» məhsulları da vardır ki, bunlar ÜMM hesablanmasında nəzərə alınmır. **Son məhsul (SM) dedikdə, bu son istifadə üçün alınan məhsul başa düşülürsə, lakin «başa çatmamış» (BÇ), «aralıq məhsul» (AM) dedikdə isə bu yenidən istehsal prosesinə cəlb olunmaq üçün nəzərdə tutulan və ya yenidən emal olunmaq üçün, eləcə də alınıb satılmaqdan ötrü mövcud olan məhsullara deyilir.** Ona görə də ÜMM hesablanmasında SM istifadə edilir. Digər tərəfdən ÜMM həcminə ev təsərrüfatında istehsal olunan və özü tərəfindən istehlak olunan məhsullar daxil edilmir. Tutaq ki, dərzi sexində çalışan ailə üzvləri tikdikləri kostyumların bir qismini özləri istehlak edəcəklər. Ona görə də bu məhsullar ÜMM müəyyən edərkən nəzərə alınmayacaq, çünki onlar bazar üçün deyil, özləri üçün istehsal olunmuşdur.

Eyniliklə şəxsi və bağ təsərrüfatlarında istehsal olunan məhsullar, özləri istehlak etdiyindən ÜMM-ə daxil edilmir.

Digər bir cəhət də nəzərə alınmalıdır ki, ÜMM «gizli» iqtisadiyyatda istehsal olunmuş məhsulların dəyəri nəzərə alınmır. Çünki həmin sahənin məhsulları daha aktiv reallaşdırılma üçün nəzərdə tutulsa da, lakin rəsmi statistika onu nəzərə almaq imkanına malik deyildir.

İstər ÜMM, istərsə də sonra haqqında bəhs edəcəyimiz digər makroiqtisadi göstəricilər üçün ümumi olan bir cəhəti də nəzərə almaq lazımdır. Bu onların hesablanması zamanı dəyər və natural-əşya tərkibinin nəzərə alınmasıdır. Çünki natural-əşya tərkibinə görə ÜMM həcminin artması iqtisadi inkişafın dinamikasını xarakterizə edə bilməyəcək. Çünki hər məhsul çeşidinin həcmi, miqdarı, sayı bilavasitə bazar qiymətlərinin dəyişilməsindən asılı olaraq reallaşacaq. Tutaq ki, il ərzində iqtisadiyyatda yalnız iki

adda yağ və sement istehsal olunur. Birinci il 5 ton yağ, 3 ton sement istehsal olunur, yağın qiyməti 20 manata, sementin qiyməti isə 40 manata bərabərdir. İkinci ildə isə əksinə, 3 ton yağ, 5 ton sement istehsal olunmuşdur. Əgər ÜMM natural-əşya tərkibinə diqqət yetirsək görəcəyik ki, hər iki ildə eyni natural-əşya tərkibli 8 vahid məhsul istehsal olunmuşdur. Lakin dəyər tərkibinə və ya pul formasına diqqət yetirsək görəcəyik ki, ÜMM həcmi ikinci ildə birinci ilə nisbətən çox olmuşdur: birinci ildə 0, 220 manata (5x20+3x40), ikinci ildə isə 260 manata (3x20+5x40).

Nəzərə almaq lazımdır ki, ÜMM iqtisadi inkişafın dinamikası haqqında ümumi təsəvvür yaratmaqla ölkənin iqtisadi vəziyyəti haqqında məlumat verməklə, müəyyən dövr ərzində müxtəlif ölkələrin iqtisadi potensiallarının müqayisələrinin aparılmasına imkan verir. Müxtəlif ölkələrin iqtisadi potensialının müqayisəsində bir tərəfdən ÜMM-in həcmi, digər tərəfdən isə həmin ölkələrin əhalisinin say tərkibi əsas götürülür. Tutaq ki, «A» ölkəsində 100 mlrd.doll., «B» ölkəsində isə 20 mlrd.doll. ÜMM istehsal olunur.

Bu o deməkdir ki, «A» ölkəsi «B» ölkəsinə nisbətən 5 dəfə çox əmtəə və xidmətlər istehsal edir. Lakin bu, heç də o demək deyildir ki, «A» ölkəsinin əhalisi «B» ölkəsinin əhalisindən 5 dəfə yaxşı yaşayır. Burada əsas kimi həmin ölkələrdəki əhalinin sayını hədəf kimi götürmək lazımdır. Əgər «A» ölkəsinin əhalisi «B» ölkəsinin əhalisindən 6 dəfə çoxdursa, onda ÜMM-də olan kəskin fərqin olmasına baxmayaraq, «B» ölkəsinin əhalisinin həyat səviyyəsi daha yüksək olacaqdır. Ona görə də makroiqtisadi göstəricilərdən istifadə zamanı ümumi nəticənin əhalinin sayına olan nisbəti, iqtisadi təhlilin aparılmasında əsas götürülür.

Makroiqtisadi göstəricilər sırasında mühüm yerlərdən birini ÜDM tutur. ÜDM bir növ ÜMM-in modifikasiya olunmuş forması kimi çıxış edir. Əgər ÜMM bütövlükdə ölkənin istər daxildəki, istərsə də xaricdəki rezident

iqtisadi subyektlərin fəaliyyətinin nəticəsini nəzərə alırsa, lakin ÜDM ölkə ərazisində milli mənsubiyyətindən asılı olmayaraq, bütün iqtisadi subyektlərin nəticəsini əhatə edir. ÜMM ilə ÜDM arasındakı fərq ikili xarakter daşıyır. Bir tərəfdən ÜDM-ni hesablayarkən ÜMM-dən xaricdə ölkənin resurslarından istifadə olunmasına görə gəlirlərin məbləği çıxılır (əməkhaqqı, faiz, divident və s.). Digər tərəfdən ÜDM hesablanarkən ÜMM-a xarici vətəndaşların mövcud ölkədə olduqları analoji gəlir əlavə edilir. Məsələn, xarici investorların aldıqları dividentlər, daimi yaşadıqları ölkənin ÜMM-ə əlavə olunur.

ÜDM-lə ÜMM arasındakı fərqi, onların hesablanması zamanında tətbiq olunan amillərdən istifadə edərkən görmək olar. ÜDM üçün əgər coğrafi amil nəzərdə tutulursa, lakin ÜMM üçün «rezidentlik» amili əsas götürülür. Ona görə də ÜMM-lə ÜDM arasındakı 1%± fərq götürülür. Belə fərq bir qədər sonra haqqında bəhs edəcəyimiz milli hesablar sistemində – MHS özünü biruzə verir.

Beləliklə, ÜDM-lə tərif vermək istəsək onu bu səpkidə qeyd edə bilərik:

• **ÜDM müəyyən müddət ərzində (bir il) ölkə daxilində istehsal olunan bütün son əmtəə və xidmətlərin bazar qiymətidir.** Deməli, ÜDM-in hesablanması üçün vacib görünən şərtlərin birbaşa onun tərkibindən irəli gələn cəhətlərin nəzərə alınmasıdır:

• müəyyən müddətin;

• ölkə daxilində istehsal olunmasını;

• bütün qanuni istehsal olunan və satılan əmtəə və xidmətləri;

• son əmtəə və xidmət xarakteri almasını;

• müxtəlif əşya-natural tərkibli əmtəələrin və çeşidli xidmətlərin bir bazar qiyməti vahidinə gətirilməsi.

ÜDM-in tərkibini əhatə edən elementlərin mahiyyətini daha dərindən başa düşmək üçün onun düstur şəkilli

təhlili birmənalı şəkildə makroiqtisadi tədqiqatlarda qəbul olunmuşdur. Düstur belədir:

$$Y = C + J + G + NX$$

Göründüyü kimi ÜDM-in tərkibi **dörd ünsürün və ya iqtisadi həcm göstəricilərinin** birləşməsi nəticəsində əmələ gəlir.

Burada: Y – ÜDM həcmini;

C – **istehlak xərclərini,** yəni ev təsərrüfatının əmtəə və xidmətlərin əldə olunmasına çəkilən xərclərini;

J – **investisiyaları,** yəni firmaların, ev təsərrüfatının, avadanlıqların, ehtiyatların, daşınmaz əmlakın alınmasına çəkilən xərcləri;

G – **dövlət xərclərini,** dövlət hakimiyyət orqanlarının istənilən səviyyədə saxlanılması üçün zəruri görünən əmtəə və xidmətlərin alınması və ya uyğun sifarişlərin verilməsi ilə əlaqədar olan xərcləri;

NX- **xalis ixrac xərclərini**, yəni ixrac mallarının satışından əldə olunan gəlirlərin məbləği ilə idxal olunan malların alınmasına çəkilən xərclərin məbləği arasındakı fərqi əks etdirir.

Xalis ixracın hesablanması zamanı bu sadə şəkillə aparılaraq ixracın həcmindən idxalın həcmi çıxılır. Bu onunla əlaqədardır ki, xaricdəki əmtəə və xidmətlər ÜDM-in digər ünsürlərinə daxil edilir. Tutaq ki, Yaponiyanın «Toyota» firmasından olan 50 min manatlıq minik avtomobili alır. Belə halda bu istehlaka çəkilən xərc kimi, istehlakın həcmini azaldır. Xalis ixracın müsbət və ya mənfi meyilli həcm göstəricisi, istehlakın, investisiyanın, dövlət xərclərinin səviyyəsinə təsir etdiyindən müəyyən edilmiş ÜDM-in həcmini və ya kəmiyyətini dəyişmir.

Dövlət xərcləri anlayışının da bir qədər izaha ehtiyacı var. Tutaq ki, dövlət hüquq və mühafizə orqanlarında çalışanların əməkhaqqını artırır. Bu pullar birmənalı şəkildə dövlət xərcinə aiddir. Lakin sosial sığorta proqramı üzrə, qeyd olunan orqanlarda çalışanların pensiya ödəmələri və

ya transfert ödəmələri dövlət xərclərinə aid olunmur. Çünki, onlar əmtəə və xidmətlərin cari istehsalına görə haqq deyildir.

ÜDM-in həm özünün, həm də onun tərkib hissələrinin ümumi kəmiyyətlərinin, həm də adambaşına düşən kəmiyyətlərinin müəyyənləşdirilməsinin makroiqtisadi tədqiqatda xüsusi əhəmiyyəti var. Onların hər biri:

- iqtisadi inkişafın dinamizmini;
- əhalinin rifah halının səviyyəsini;
- sənayeləşmə səviyyəsini;
- sosial və ya investisiya yönümlü büdcəni;
- idxaldan asılılıq səviyyəsini;
- ixrac potensialının səviyyəsini əks etdirir.

ÜDM-in tərkibini müəyyənləşdirdikdən sonra onun hesablanması metodları haqqında bəhs etmək olar.

Müasir makroiqtisadiyyat elmində ÜDM-in hesablanmasının üç üsulundan:

- istehsal (əlavə dəyərlərin cəmlənməsi) metodundan;
- xərclərin cəmlənməsi metodundan ;
- gəlirlərin cəmlənməsi metodundan istifadə olunur.

**İstehsal metodundan** istifadə olunarkən ÜDM müəyyən müddət ərzində ölkə sərhədləri çərçivəsində cari ilin son əmtəə və xidmətlərin istehsalının bazar qiymətləndirilməsi yolu ilə cəmini əks etdirir. Yəni hər bir firmanın istehsal etdiyi məhsulda **xidməti əlavə dəyər şəklində** müəyyənləşdirilir. Əlavə dəyər, məhsulun satışından əldə olunan pul məbləği ilə istehsalın maddi amillərinə çəkilən xərclər arasındakı fərqdir.

Belə şəraitdə bütün yeni yaradılmış dəyər müəyyənləşdirilir və bura yalnız amortizasiya əlavə olunur.

**Xərclərin cəmlənməsi** metodundan istifadə olunarkən ÜDM bütün iqtisadi agentlərin bütün son əmtəə və xidmətlərə sərf etdikləri xərclərin cəmini əks etdirir. Burada ÜDM-in tərkibini müəyyən edən düsturdan istifadə olunur:

$$Y = C + J + G + NX$$

**Gəlirlərin cəmlənməsi** metodundan istifadə olunarkən ÜDM bütün əlavə dəyərlərin məbləği ilə bütün gəlirlərin bərabərliyi şəraitində, amortizasiya ilə dolayı vergilərin cəmlənməsini əks etdirir. Bu metod üçün isə $Y = W + R + J_{n+} + M$ düsturundan istifadə olunur. Burada:

W – əməkhaqqını;

R – rentanı;

$J_{n+}$ - faiz ödənişləri;

M – mənfəəti əks etdirir.

Belə vəziyyətdə ÜDM-in tərkibində olan amortizasiya və dolayı vergilər gəlir formasını alınır. Çünki, dolayı vergilər, qiymətə və tarifə əlavələr müəyyənləşdirilməsi yolu ilə əmtəə və xidmətlərə görə yığılan vergidir. Dolayı vergilərin də əsasən üç növü mövcuddur: aksizlər, fiskal inhisar və gömrük rüsumları.

Hər üç metodun tətbiqi nəticəsində ÜDM həcmi eynilik təşkil etməlidir. Əgər ÜDM hesablayarkən məlum olur ki, gəlirlərin məbləği xərclərin məbləğini üstələyir, bu o deməkdir ki, ölkə borcla yaşayır.

## 4.2. Nominal və real ÜDM

ÜDM-in tərkibi ilə və onun hesablanması metodları ilə tanışlıqdan sonra gördük ki, o, istehsal olunan bütün son əmtəə və xidmətlərin bazar qiymətindən ibarətdir. Sonra biz gördük ki, ÜDM-i təşkil edən əmtəə və xidmətlərin həm istehsal, həm də istehlak həcmi artır. Bunun da iki səbəbi var:

- ya istehsalın ümumi həcmi artıb;
- ya da əmtəə və xidmətlərin qiyməti artıb.

Lakin bu səbəbləri nəzərə alınadan bu ilin istehsal olunan əmtəə və xidmətlərin cari ilin qiymətləri ilə və ya bazis ilinin qiymətləri ilə hesablanmasından asılı olaraq, müvafiq olaraq nominal ÜDM və real ÜDM göstəricilərini müəyyən etmiş oluruq. Hər iki şəraitdə nominal və real

ÜDM-in artımının müşahidə olunması, ölkə iqtisadiyyatının sabit inkişafını əks etdirir.

Ümumiyyətlə, **ÜDM-in artım sürəti bir qayda olaraq ölkənin iqtisadi inkişaf dinamikasını, adambaşına düşən kəmiyyəti isə əhalinin həyat səviyyəsini və ya iqtisadi rifahının vəziyyətini əks etdirir.** Əgər ÜDM il ərzində 5, 10, 26, 35% artım sürəti ilə yüksəlirsə, bu o deməkdir ki, bir bu qədər də cəmiyyətdə məhsul və xidmət kütləsi artmışdır. Nə qədər əmtəə və xidmətlər çoxalırsa, bir o qədər də ÜDM yüksələcək. Bəzi hallarda ÜDM-in artım sürəti, məhsulların fiziki həcmini tam əks etdirə bilmir. Bəzən də elə olur ki, ÜDM artımı sürəti məhsul və xidmətlərin fiziki həcminin azaldığı şəraitində baş verir. Bu o şəraitdə olur ki, ÜDM-i dəyər formasında hesablayarkən, mövcud formalaşmış qiymət səviyyəsi əsas götürülür. Bu da onu göstərir ki, istehsalın fiziki həcminin azalmasına baxmayaraq qiymətlərin artımı nəticəsində ümumi gəlir məbləğinin artımı baş verir və iqtisadi proseslərdə qıtlıq, inflyasiya müşahidə olunur.

Əgər ÜDM cari qiymətlərlə hesablanarsa, onda nə iqtisadiyyatın vəziyyəti və əhalinin həyat səviyyəsi haqqında həqiqi və düzgün məlumat əldə etmək mümkün olmur. Onda belə vəziyyət müşahidə olunur ki, ÜDM sürətlə artır, lakin həyat səviyyəsi yüksəlmək əvəzinə aşağı düşür. Ona görə də iqtisadi inkişafın real vəziyyətinin və istehsalın dinamikasının düzgün qiymətləndirilməsi üçün cari qiymətlərlə yanaşı, bazis ilinin qiymətlərindən istifadə etməklə, ÜDM-in dəyər tərkibini korrektə etmək lazımdır. Bu o deməkdir ki, ÜDM-in dəyişilməz qiymətlərlə hesablanması ölkədə qiymətin dəyişilməsinin nominal və real ÜDM-in həcmini müəyyənləşdirməyə imkan verəcək. Beləliklə də nominal ÜDM dedikdə, onun cari qiymətlərlə təzahürü, real ÜDM dedikdə isə onun dəyişilməz qiymətlərlə (bazis ilinin qiyməti) təzahürü nəzərdə tutulur.

Real ÜDM həcmini müəyyənləşdirməkdən ötrü nominal ÜDM qiymət indeksinə olan nisbəti əsas götürmək

lazımdır. Məsələn, ÜDM 2009-cu ildə 100 manat, bu il üçün isə qiymət indeksi 1,25 olmuşdursa, onda real ÜDM belə olacaq: $\frac{100\,\text{manat}}{1{,}25} = 80\,\text{manat}$. Bundan əlavə, makroiqtisadi təhlil zamanı ÜDM-in deflyatoru deyilən göstəricidən də istifadə olunur.

ÜDM-in deflyatoru qiymət indeksinin dəyişilməsini əks etdirir. Bunu formula şəklində belə izah etmək olar:

$$\text{ÜDM deflyatoru} = \frac{\text{nom. ÜDM}}{\text{real ÜDM}}.$$

Ayrı-ayrı məhsul növ və çeşidləri üzrə ÜDM deflyatorunun hesablanması iqtisadi proseslərdə hansı sahə məhsullarının, hansı bazar növlərinin kəskin dəyişikliklərə məruz qaldığını üzə çıxarmaqla, bu istiqamətdə gələcək tədbirlərin görülməsi imkanlarını müəyyənləşdirməyə imkan verəcək.

ÜDM deflyatoru ilə yanaşı əhali üçün daha maraqlı olan cəhət istehlak qiymətləri indeksinin (İQİ) müəyyənləşdirilməsi üstün rol oynayır.

İqtisadi nəzəriyyədə əsasən İQİ müəyyənləşdirilməsində alman iqtisadçısı Ernest Laspeyras və German Paaşe indekslərindən istifadə olunur. Laspeyrasın indeksində dəyişilməz (istehlak səbətinə daxil olan) məhsul dəstləri əsas götürülür. Lakin indeks termininin yaradıcısı hesab olunan alman iqtisadçısı German Paaşe indeksində isə dəyişilən (istehlak səbətinə daxil olan) məhsul dəstləri əsas götürülür. Bu formulalar aşağıdakı şəkildədir:

Laspeyras indeksi: $$İ_L = \frac{\sum p_1^{1} q_0^{1}}{\sum p_0^{1} q_0^{1}}$$

Paaşe indeksi: $$İ_P = \frac{\sum p_1^{1} q_1^{1}}{\sum p_0^{1} q_1^{1}}$$

Burada:

$q_0^1$ - bazis ilində istehsal olunan əmtəə və xidmətlərin kəmiyyəti;

$p_0^1$ - bazis ilində əmtəə və xidmətlərin qiyməti;

$p_1^1$ - cari ilin məhsullarının qiyməti;

$q_1^1$ - cari ilin əmtəə və xidmətlərinin kəmiyyəti;

Qeyd etmək lazımdır ki, ÜDM haqqında danışarkən potensial ÜDM barədə də bəzi mülahizələr nəzərə alınmalıdır. Potensial ÜDM, hər şeydən əvvəl, mövcud olan bütün resurslardan tam istifadə olunması səviyyəsinin müəyyənləşdirilməsi üçün vacibdir. Burada istehsal, əmək, təbii kapital, texnoloji, maliyyə resurslarından tam istifadənin həyata keçirilməsi istiqamətlərinin müəyyən edilməsi nəzərdə tutulur.

ÜMM-in istehsalında istehlak olunan istehsal amillərinin bərpası üçün nəzərdə tutulan amortizasiyanın xüsusi rolu vardır. Belə ki, həqiqi son məhsulun həcminin müəyyənləşdirilməsi və onun əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında istifadə olunması üçün ÜMM-dən amortizasiyanın həcmini çıxmaq lazımdır. Yəni yaradılan dəyərin o hissəsi çıxılmalıdır ki, onlar istehsal prosesində istifadə olunan istehsal amillərinin bərpasına yönəldilir. Yerdə qalan ÜMM hissəsi **xalis milli məhsul (XMM) adlanır.** Başqa sözlə, XMM = ÜMM – amortizasiya.

Makroiqtisadi göstəricilərdən biri də Milli gəlirdir (MG). MG – bu istehsal amillərinin sahiblərinin qazandıqları gəlirlərin məcmusuna deyilir. Yəni muzdlu işçilər, əmək sahibləri kimi əməkhaqqı, kapital sahibləri mənfəət və faiz, torpaq sahibləri renta əldə edirlər.

Milli gəlir göstəricisinin əhəmiyyəti, onun millətin ümumi gəlirinin qazanılmasında tətbiq olunan istehsal amillərinin rolunun qiymətləndirilməsi baxımından müəyyən edilir. Bunun nəticəsidir ki, haqqında növbəti paraqrafda bəhs edəcəyimiz MHS-də istifadə olunan əsas ümumiləşdirici göstərici MG hesab olunur. İqtisadi fikrin görkəmli

nümayəndəsi **U.Petti** 1669-cu ildə İngiltərə əhalisinin əməkdən və əmlakdan əldə etdiyi gəlirlərin məbləği kimi müəyyən etmişdir. Sonra **Q.Kinq** 1696-cı ildə İngiltərənin milli gəlirini müəyyənləşdirir. Klassik məktəbin görkəmli nümayəndələri **A.Smit və D.Rikardo** «milli gəlir» anlayışını nəzəri cəhətdən əsaslandıraraq onun yaradılmasında istifadə olunan istehsal vasitələrinin dəyərinin çıxılması fikrini təsdiqləyirlər. Sonralar neoklassik məktəbin banisi **A.Marşall** bazar tarazlığının qiymətləndirilməsində «milli dividendlər» anlayışından istifadə edir. Fransada «milli gəlir» anlayışından **P.Buagilber, F.Kene, J.B.Sey** tədqiqatlarında istifadə edirlər. MG yaradılmasına istehsal amillərinin – əməyin, kapitalın və torpağın iştirakı əsas götürülür.

Almaniyada **K.Marks** sinifli cəmiyyətin istismarçı xarakterini göstərməklə, qeyd edirdi ki, milli gəlir il ərzində istehsal prosesində iştirak etmiş fəhlələrin canlı əməyi ilə yaradılmış yeni dəyərdir. K.Marksın bu fikri istisna olmaqla klassik iqtisadi məktəbdən tutmuş müasir iqtisadi məktəbin nümayəndələri də istehsal amilləri üzrə milli gəlirin yaradılması konsepsiyası qəbul etdilər.

İqtisadi təhlilin aparılmasında MG göstəricisindən istifadə olunması bir də onunla əlaqədardır ki, onun həcmində **amortizasiya və dolayı vergilər** nəzərə alınmadığından o konkret dövrdə və ya ildə millətin əldə etdiyi gəlir kimi çıxış edir. Daha doğrusu, mövcud istehsal amillərinin sərfi ilə əldə olunmuş xalis gəlirin ümumi həcmi müəyyənləşir.

**MG-in müəyyən edilməsi üçün XMM-dan dolayı vergiləri çıxmaq lazımdır.** Dolayı vergilər əmtəə və xidmətlərin qiymətinə olan əlavələr kimi əks olunur. Məsələn, aksizlər əlavə dəyər vergisi, gömrük rüsumları və s. bu qismdən olan dolayı vergilərdir. Deməli, MG =XMM – dolayı vergilər.

İstehsal amilləri sahiblərinin qazandıqları gəlirlərin olduqca böyük əhəmiyyəti vardır. Çünki onları həm istehsalın inkişafına, həm də şəxsi istehlakın genişləndirilməsinə yönəltmək olar. Bir qayda olaraq qazanılmış gəlirlər həmişə

onları real əldə edənlərdən çox olur. Bu onunla əlaqədardır ki, qazanılmış gəlirlərin bir hissəsi, dövlət təşkilatlarının sazlanılması və əmək qabiliyyətini itirmişlərə yardım göstərilməsi üçün çıxılır. Digər tərəfdən qazanılan gəlirlərdən sosial sığortaya ayırmalar, mənfəətdən vergi və korporasiyaların bölünməmiş gəlirləri çıxılır.

Qazanılmış gəlirlərdən, dövlətin iqtisadiyyatın və sosial sferanın tənzimləmə mexanizminin nəticəsi kimi vergi və müxtəlif çıxmalar, yenidən cəmiyyətin müəyyən təbəqələrinə qaytarılır. Vergi və çıxmalar vasitəsilə dövlətin topladığı vəsaitlərin qaytarılması iqtisadi nəzəriyyədə «transfert tədiyyələri» adlandırılır. İngilis ifadəsindən tərcümədə «transfert» «ötürmək», «vermək» kimi anlaşılır. Transfert tədiyyəsinə təqaüd, az təminatlılara, işsizlərə, əlillərə yardım, əmək və müharibə veteranlarına hökumət subsidiyaları daxildir.

MG-dən sosial sığorta ayırmaları, mənfəət vergisi, korporasiyaların bölünməmiş mənfəətləri və transfert tədiyyələri çıxılmasından sonra daha yeni bir makroiqtisadi göstərici meydana gəlir ki, **bu da şəxsi gəlir (ŞG) adlanır.**

Şəxsi gəlirlərin belə müəyyən olunmasına baxmayaraq, ölkə vətəndaşları onlardan öz tələbatlarının tam ödənilməsi və müvafiq əmanətlərin yığılması üçün tam istifadə edə bilmirlər. Sahibkarların mənfəəti kimi, vətəndaşların da ŞG-ləri vergiyə cəlb olunur ki, bu da «gəlir vergisi» kimi çıxış edir.

Gəlir vergisi ödənildikdən sonra ŞG ayrı-ayrı fərdlərin tam sərəncamına daxil olur. **Bu göstərici də sərəncamda olan şəxsi gəlir (SŞG) adlanır.** Beləliklə də göstərmək olar ki, SŞG = ŞG – fərdi vergilər.

Makroiqtisadi göstəricilərin mahiyyətini aydınlaşdırmaqla, onların milli iqtisadiyyatın formalaşması və inkişafında da oynadığı rolu, iqtisadi inkişafın real vəziyyətini və iqtisadi fəallıq mühitini qiymətləndirmək mümkündür. Eyni zamanda makroiqtisadi göstəricilərin dinamikasında baş

verən dəyişikliklərin nəzərə alınması əsasında, hökumət makroiqtisadi siyasətin əsas məqsədini müəyyən etmək imkanına malik olur.

## 4.3. Milli hesablar sistemi

Dünya ölkələrində milli ictimai məhsulun təkrar istehsalının xarakterizə edilməsinin mühüm istiqamətlərdən biri, milli hesablar sisteminin (MHS) müəyyənləşdirilməsdir. MHS dedikdə, bu makrosəviyyədə milli iqtisadiyyatın vəziyyətinin şərhi və təhlili üçün istifadə olunan qarşılıqlı əlaqəli göstəricilər və təsnifatlar sistemidir. Hal-hazırda 1993-cü ildə BMT-nin beynəlxalq standart kimi qəbul etdiyi MHS bütün dünya ölkələrində, o cümlədən bizim ölkədə də istifadə olunur. Müasir bazar iqtisadiyyatında müxtəlif səviyyəli iqtisadi əməliyyatların aparılması nəticəsində iqtisadi subyektlər, yeni dəyərlərin yaradılması ilə əlaqədar qarşılıqlı əlaqəyə girməklə əmtəələrin, xidmətlərin, aktivlərin mübadiləsini aparırlar. İqtisadiyyatda baş verən proseslərin mahiyyətini və nəticəsini qiymətləndirməkdən ötrü xüsusi qaydalara və prosedurlara əsaslanan MHS-dan istifadə olunur. MHS-nin məqsədi mühüm makroiqtisadi göstəricilər arasındakı qarşılıqlı əlaqənin üzə çıxarılması ilə milli iqtisadiyyatın inkişafının ümumi vəziyyətini xarakterizə etməsindən ibarətdir. Mühüm makroiqtisadi dəyişiklikləri əks etdirən göstəricilər kimi MHS-nə əsasən daxil edilir:

- ÜDM;
- son istehlak;
- investisiyalar;
- əmanət;
- sərəncamda qalan gəlir və s.

Belə makroiqtisadi dəyişiklikləri əks etdirən göstəricilər vasitəsilə əldə olunan informasiyalar dövlət idarəetmə orqanları üçün zəruridir ki, bu da müvafiq makroiqtisadi siyasət məsələləri üzrə qərarların qəbul olunmasına əsas verir.

MHS cari bazar qiymətləri ilə hesablanır. Məsələn, ÜDM alıcının aldığı qiymətlərlə hesablanır. Ondan məhsullar üzrə subsidiyalar çıxılır, bütün vergilər və ticarət – nəqliyyat əlavələri daxil edilir. Bununla yanaşı ÜDM-in və onun istifadə olunan elementləri, həmçinin əlavə dəyər göstəriciləri daimi və ya bazis ilinin qiymətləri ilə hesablanır. Bununla da fiziki həcmin indeksləri müəyyənləşdirilir.

İstər sektorlu hesablarda, istərsə də bütöv iqtisadiyyat üçün mövcud olan informasiya **aqreqat** adlandırılan makroiqtisadi göstəricilərin müəyyənləşdirilməsinə imkan verir:

- Ümumi daxili məhsulu (ÜDM);
- Ümumi milli gəliri (ÜMG);
- Ümumi milli sərəncamda qalan gəliri (ÜMSQG);
- son istehlakı;
- ümumi yığımı;
- milli əmanəti;
- xalis kreditləşməni və xalis borclanmanı;
- milli sərvəti.

**Ümumi daxili məhsul (ÜDM)** – müəyyən müddət ərzində mövcud ölkənin rezidentlərinin istehsal etdiyi son əmtəə və xidmətlərinin bazar qiymətləri ilə hesablanır.

**Ümumi milli gəlir (ÜMG)** – mövcud ölkənin rezidentlərinin istər ölkə daxilində, istərsə də ölkə xaricindən əldə etdikləri ilkin gəlirlərinin məbləğinin cəmi kimi hesablanır. Bura: əməyin ödənilməsi, mülkiyyətə görə gəlirlər, istehsal və idxala görə vergilər, ümumi mənfəət və ümumi qarışıq gəlir daxildir.

**Ümumi milli sərəncamda qalan gəlir (ÜMSQG)** – bura mövcud ölkənin rezidentlərinin əldə etdiyi (ÜSQG), əldə olunan cari transfertlərinin məbləği daxildir. Ondan yalnız ödənilmiş cari transfertlər çıxılır.

**Son istehlak** – bura ev təsərrüfatının, dövlət idarəetmə orqanlarının, ev təsərrüfatına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının son istehlak xərcləri daxildir.

**Ümumi yığım** – bura ÜDM-in istifadə olunan komponentləri dexildir. Onlar əsas kapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitlərinin artımını və xalis əldə olunmuş qiymətliləri əhatə edir.

**Milli əmanət** – özünü iqtisadiyyatın bütün sektorlarının əmanətlərinin məbləği kimi əks etdirir. Yaxşı iqtisadiyyatın bütün sektorlarının əmanəti bərabərdir, onun sərəncamda qalan gəliri ilə son istehlak xərcləri arasındakı fərqə.

**Xalis kreditləşmə və xalis borclanma** - mövcud ölkənin hər hansı digər dünya ölkəsinə müvəqqəti verdiyi maliyyə resurslarının həcmi kimi müəyyənləşdirilir. Yaxud da qaytarılmaq və ödənilmək şərti ilə ölkənin digər dünya ölkələrindən aldığı maliyyə resursu kimi nəzərdə tutulur.

**Milli sərvət** – özünü müəyyən vaxt ərzində ölkə rezidentlərinin mülkiyyətində olan bütün qeyri-maliyyə aktivlərində, üstəgəl xarici maliyyə resurslarının rezident və qeyri-rezidentlər arasındakı fərqdə əks etdirir.

Milli hesablar sistemi göstəricilərinin asılılığını aşağıdakı şəkildə şərh etmək olar:

1. Ümumi daxili məhsul (ÜDM)
2. Xaricdən əldə olunmuş ilkin gəlirlər saldosu
3. Ümumi milli gəlir (ÜMG) = (1+2)
4. Xaricdən alınmış cari transfert saldosu
5. Ümumi sərəncamda qalan milli gəlir (ÜSQMG) = (3+4)
6. Son istehlak
7. Milli əmanət = (5 – 6)
8. Xaricdən alınmış kapital transfertləri saldosu
9. İnvestisiyanın maliyyələşdirilməsinin ümumi mənbəyi (7+8)
10. Xalis yığım
11. Torpaq və digər istehsal olunmayan maddi aktivlərin əldə olunması

12. İstehsal olunmayan qeyri-maddi aktivlərin (lisenziya, patent və s.) əldə olunması

13. Xalis kreditləşmə / Xalis borclanma (9–10–11 – 12)

MHS vasitəsilə başlıca olaraq üç qrup iqtisadi əməliyyatlar həyata keçirilir:

• əmtəə və xidmətlərlə əlaqədar olan;
• gəlirlərlə bağlı olan;
• maliyyə vasitələrilə əlaqədar olan.

Qeyd etmək lazımdır ki, MHS müasir statistikanın mühüm bölməsi olmaqla iqtisad elminə keçən əsrin 50-ci illərindən etibarən gəlmişdir. Holland iqtisadçısı **Van Kliff** tərəfindən ilk dəfə işlədilən «milli hesablar» anlayışı, mühasibat uçotu və balans formasını xatırladan və makrosəviyyədə iqtisadiyyatı əks etdirən sistemləşdirilmiş cədvəllərin təsviri kimi göstərmişdir.

MHS öz inkişafında bir sıra mərhələləri keçməklə keçən əsrin 93-cü ilində BMT-nin statistika komissiyası tərəfindən vahid standart kimi qəbul olunmuşdur. Əvvəlki 1988-ci ildə qəbul olunmuş MHS-də:

• istehsalın iqtisadi sərhədləri;
• dəyəri yaradan amilləri;
• mühüm makroiqtisadi göstəricilərin məzmunu əsas götürülürdü. Lakin yeni hesab olunan 1993-cü ildəki MHS-nin fərqli cəhəti, bütün təsərrüfat subyektlərinin beş institusional sektorları üzrə fərqləndirilməsidir:

• qeyri-maliyyə korporasiyaları və kvazi – korporasiyalar;
• maliyyə korporasiyaları və kvazi – korporasiyalar;
• dövlət idarəçiliyi;
• ev təsərrüfatı;
• ev təsərrüfatına xidmət göstərən qeyri-kommersiya təşkilatları.

Hazırkı MHS-də iqtisadiyyatın sektorlar üzrə iqtisadi proseslərin gedişatı və qarşılıqlı əlaqəsi əsas götürülür. Burada qarşılıqlı əlaqədə olan:

• məhsul istehsalını;
• gəlirlərin bölgüsünü;
• son istehlak və əmanətləri;
• aktivlərin və passivlərin təhlilini aparmağa imkan verən hesablar sistemi mövcuddur.

MHS-nin tətbiqinin əsas məqsədi ondan ibarətdir ki, istər ÜDM, istərsə də ÜMM hesablanarkən il ərzində istehsal edilmiş əmtəə və xidmətin bazar qiyməti bir dəfə nəzərə alınsın. Daha doğrusu, istehsal edilmiş əmtəə və xidmətlər son məhsul kimi nəzərə alınsın, ora aralıq məhsullar daxil edilməsin, çünki aralıq məhsullar bir neçə dəfə istehsal prosesinə daxil olur və təkrar hesablanır.

**Son məhsul** istehlakçıların təkrar satış üçün deyil, öz istifadələri üçün aldıqları əmtəə və xidmətlərin dəyərinə deyilir.

**Aralıq məhsullar** dedikdə isə gələcəkdə emal olunacaq və yaxud gələcəkdə bir neçə dəfə təkrar satılacaq əmtəə və xidmətlərin dəyəri nəzərdə tutulur.

Əgər ölkədə bütün sahələr üzrə istehsal edilmiş əmtəə və xidmətləri cəmləmiş olsaq, görərik ki, burada təkrar hesablanmaya yol verilir. Real istehsal edilmiş milli məhsulun və daxili məhsulun həcmi həddindən artıq şişirdilmiş olacaq.

Məsələn, yanacaq sənayesi üçün məhsulun benzinə çevrilməsi bir neçə mərhələdən keçir. Əvvəla, o hasil olunur, sonra emal sənayesinə daxil olur. Axırda isə yanacaqdoldurma stansiyalarına göndərilir. Əgər hesab etsək ki, istehsal edilən neftin tonunun qiyməti X manatdırsa, onda üç dəfə istehsal, emal, istifadə olunma mərhələsində istehsal xərcinin tərkibinə daxil olacaq. Lakin neftin real dəyəri hər emal mərhələsindən sonra konkret müəssisələrin əməkhaqqı, amortizasiya mənfəəti kimi üzə çıxır.

Deməli, ÜDM və ÜMM təkrar hesablanmasının aradan qaldırılması üçün hər aralıq emal mərhələsindən sonra yaradılmış əlavə dəyəri nəzərə almaq lazımdır.

Əlavə dəyər (ƏD) dedikdə, istehsal prosesində yaradılmış məhsulun dəyərinə mövcud müəssisənin real payı nəzərdə tutulur. Daha doğrusu, həmin müəssisənin əmək haqqı, mənfəəti və amortizasiyası əlavə dəyərin həcmini müəyyən edir.

İqtisadiyyatın bütün sahələrində yaradılan ƏD-ə subsidiyalar çıxıldıqdan sonra əmtəələrə xalis vergi və amortizasiya əlavə olunur.

Tələbatı az olan, lakin çox istehsal olunan məhsullar şəraitində ƏD mənfi xarakterdə olur ki, bu da resursların qeyri-səmərəli istifadəsini əks etdirir.

Bütün bu deyilənlərlə əlaqədar olaraq qeyd etməliyik ki, mühüm makroiqtisadi göstəricilərdən biri də xalis milli məhsuldur (XMM). Bu göstəricinin ÜDM və ÜMM fərqi ondan ibarətdir ki, onun həcminə il ərzində amortizasiya ayırmaları daxil edilmir. Əgər amortizasiya ayırmaları istehsalın inkişafını bilavasitə təmin edirsə, onda o, əhalinin rifah halının yüksəldilməsində bir o qədər rol oynayır.

**Amortizasiya** ÜMM və ÜDM-in müəyyən bir hissəsi olub millətin istehsal potensialının qorunmasına yönəldilmiş vəsaitdir. O, əsasən il ərzində əsas kapitalın aşınması ilə əlaqədar, onun bərpasına və ya ödənilməsinə yönəldilən kəmiyyətdir.

Ona görə də MHS-də XMM milli iqtisadiyyatın real göstəricisi kimi il ərzində istehsal və istehlak etdiyi əmtəə və xidmətlərin dəyərini əks etdirir. Deməli, ÜDM və ÜMM-dən il ərzində nəzərdə tutulmuş amortizasiya ayırmalarını çıxdıqdan sonra yerdə qalan hissəyə XMM və XDM deyilir. XMM-dən dolayı vergiləri çıxdıqdan sonra yerdə qalan əməkhaqqının həcmi, renta ödənişləri və mənfəətin kəmiyyətini, makroiqtisadiyyatın daha mühüm bir göstəricisini, milli gəliri (MG) əks etdirir. **Milli gəlir il ərzində yeni yaradılmış dəyər olub, cari istehsal ilinin əhalinin həyat səviyyəsi üçün real imkanlarını əks etdirir.** Ona görə də onun kəmiyyətini hesablayarkən ÜDM fərqli olaraq onun

həcminə amortizasiyanın, dolayı vergilərin, dövlətin maliyyə yardımının məbləği daxil edilmir.

Təsərrüfatçılıq fəaliyyətində istehsal və istehlak edilmiş MG fərqləndirilir.

İstehsal edilmiş MG dedikdə, bura il ərzində yeni yaradılmış əmtəə və xidmətlərin ümumi həcmi nəzərdə tutulur.

İstifadə edilmiş MG dedikdə, bu, istehsal edilmiş MG-dən təbii fəlakətin törətdiyi itkilərin, məhsulların saxlanılmasındakı ziyanların, xarici ticarət saldosunun fərqinin çıxılması nəzərdə tutulur.

Beləliklə görürük ki, MHS XDM-in və MG-in istehsalı, bölgüsü və istifadəsi mərhələsində ölkə əhalisinin işgüzar fəallığı görünür. Xüsusən də şəxsi sərəncamda qalan gəliri (ŞSQG), MHS-ni əks etdirməklə ailə xərclərinin həyata keçirilməsi imkanlarını üzə çıxarır. ŞSQG bərabərdir:

- ÜDM çıxılsın
- Amortizasiya çıxılsın
- Korporasiyaların bölüşdürülməmiş mənfəəti, üstəgəl
- Transfert ödəmələri çıxılsın
- Vergilər.

ŞSQG-in belə sxematik şərhini verdikdən sonra MHS-nin mürəkkəb sxemindən fərqlənən daha sadə sxemi müəyyənləşdirmək olar:

**MHS-nin ümumi sxemi**




Beləliklə görünür ki, MHS iqtisadiyyatın bütün sektorları üzrə balans məlumatlarını verir. MHS həm hər bir sektor üzrə hesabı, həm də balans məlumatlarını əlaqələndirmiş şəkildə verir. Yəni, MHS vasitəsi ilə həm iqtisadiyyatın bütöv fəaliyyətini, həm də ayrılıqda götürülmüş sektorlarının: ev təsərrüfatının; biznes fəaliyyətinin; dövlətin iqtisadi fəaliyyətinin; xarici iqtisadi fəaliyyətin qarşılıqlı əlaqəsinin mahiyyətini əks etdirən informasiya toplusu olmaqla, milli iqtisadiyyatın konkret müddət ərzində iqtisadi inkişafını və əhalinin rifahını və dəyişiklikləri (gəlir, istehlak, əmanət) əks etdirən makroiqtisadi göstəricilər sistemidir.

## 4.4. ÜDM-in artım səviyyəsi və iqtisadi rifah halı

MHS-nin şərhinə qədər də biz milli iqtisadiyyatın inkişafında və əhalinin rifahının yaxşılaşmasında, həmçinin yüksəldilməsində ÜDM-in artımının xüsusi rol oynadığını qeyd etmişdik. Keçən əsrin 90-cı illərinə qədər dünya ölkələrinin ÜDM-in səviyyəsi, onların iqtisadi inkişaflarının müqayisəsi üçün ən etibarlı göstərici hesab olunurdu. Lakin

1990-cı ildən sonra BMT-də iqtisadi inkişafın səviyyəsi yalnız ÜDM-in həcmi və onun adambaşına düşən kəmiyyəti deyil, bilavasitə onun nə dərəcədə **insan inkişafı potensialı indeksinə təsir göstərilməsi** ön plana çəkildi. Daha doğrusu, insan inkişafı potensialı indeksinin (İİPİ) müəyyənləşdirilməsində ÜDM-in adambaşına düşən kəmiyyəti **reytinq göstəricilərindən** biri kimi nəzərdə tutuldu (əsas reytinq göstəriciləri dörddür: gözlənilən ömür müddəti; təhsil səviyyəsi; səhiyyənin səviyyəsi; adambaşına düşən ÜDM).

ÜDM cəmiyyətin həyatında müstəsna rol oynasa da, onun artım sürəti yüksəlsə də, lakin o iqtisadi inkişafın dayanaqlığında vacib olan bütün problemləri həll etmək iqtidarında olmur. Çünki, ÜDM-in artım sürəti:

• ekoloji vəziyyəti əks etdirmir;

• kölgə iqtisadiyyatının fəaliyyətini nəzərə almır;

• əhalinin maddi rifah halını müvafiq işgüzarlıq fəaliyyətinə uyğun əks etdirmir;

• asudə vaxtı nəzərə almır.

ÜDM-in artım sürətinin qeyd olunan çatışmazlıqlarına baxmayaraq, onun real səviyyəsi əhalinin iqtisadi rifahının qiymətləndirilməsi üçün tətbiq olunan ən dürüst göstəricidir. Çünki, yalnız onun vasitəsilə əhalinin orta yaşayış səviyyəsini əks etdirən İstehlak Qiymətləri İndeksini (İQİ) müəyyənləşdirmək olar. Bu göstəricinin əhəmiyyəti onunla müəyyən olunur ki, o yaşayış səviyyəsində baş verən dəyişiklikləri əks etdirir.

Qayıdaq yenə ÜDM-in həcminə, onun artımına və illik sürətinə. Bəllidir ki, ÜDM həm bazar qiymətləri ilə son əmtəə və xidmətlər istehsalçılarının gəlirlərini, həm də bunların ödənilməsinə yönəldilmiş xərclərin ümumi məbləğini əks etdirir. Bu da onu deməyə əsas verir ki, ÜDM-in adambaşına düşən kəmiyyəti, ölkənin hər bir sakininin orta gəlir və xərclərini əks etdirməklə, onun **iqtisadi rifahının meyarı** kimi çıxış edir. Buna baxmayaraq qərb iqtisadi nəzəriyyəsi ÜDM-in adambaşına düşən kəmiyyətini -- iqtisadi rifahı əks

etdirən göstərici kimi qəbul etmir. Ona yalnız prezident seçkilərində istifadə olunan süni göstərici kimi, hökumətə ölkədəki iqtisadi fəaliyyəti istədiyinə uyğun aparılması vasitəsi kimi baxılır. Həm də ÜDM-in yuxarıda qeyd olunan çatışmazlıqlara malik olduğu, əsas kimi göstərilir.

ÜDM-lə bağlı Q.Menkyunun «Ekonomiksin prinsipləri» dərsliyində bir misalı da çəkmək yerinə düşər. O, senator Robert Kennedinin 1968-ci ildə prezident seçkiləri zamanı ÜDM-lə bağlı söylədiyi fikri qeyd edir: «ÜDM sizin övladlarınızın sağlamlığının vəziyyətini, dərslərinin qiymətini, fərəh və sevincini nəzərə almır. Buraya poeziyanın gözəlliyi, yaxud siyasi diskussiyaların intellektual səviyyəsi, yaxud dövlət adamlarının vicdanlığı daxil deyil. Onun tərkibində bizim cəsarətimizdən, müdrikliyimizdən və vətənə sədaqətimizdən heç nə yoxdur. Onun tərkibinə bizim həyatımızı gözəl edən hər şey daxildir». Doğrudanmı bu belədir – sualına birmənalı cavab tapmaq mümkün deyil. Çünki, ÜDM istehsal olunan əmtəə və xidmətlərin il ərzindəki fiziki həcm göstəricisi olduğundan ora nə vicdan, nə vətənə sədaqət, nə cəsarət, nə də ki, müdriklik daxil deyil. Lakin, onun həcmi, adamların gündəlik **maddi və mənəvi** problemlərinin həllində, sağlamlığının təmin olunmasında, mənəvi davranışında, əqidə möhkəmliyində, savadlı olmasında, mədəni səviyyəsində mühüm rol oynayır. Həm də ÜDM-in həcmi, adambaşına düşən kəmiyyəti, insanların **ləyaqətli həyat tərzinin** formalaşmasının maddi əsası kimi çıxış edir.

Bir cəhəti də nəzərə almaq lazımdır ki, ÜDM-in artımının səviyyəsi, onun çatışmazlıqları kimi qeyd etdiyimiz amillərlə birbaşa deyil, dolayı şəkildə və ya nisbi şəkildə əlaqədardır. ÜDM-də əgər **ekoloji** vəziyyət əks olunmursa, lakin onun həcmindən asılı olaraq ətraf mühitin qorunmasına şərait yaradır. Həm də nəzərə alsaq ki, ÜDM nəyin hesabına olursa-olsun artırılıbsa, orada təbiətin, torpağın, suyun, ərazinin pisləşməsi vəziyyətinə diqqət yetirilməyibsə,

onda belə artım gələcəkdə ekoloji fəlakətin baş verməsinə səbəb olacaq.

ÜDM-də «kölgə iqtisadiyyatı»nın nəzərə alınmamasına gəldikdə qeyd etməliyik ki, yeni MHS-də onun nəzərə alınması tövsiyə olunur. Lakin bu sahədə çalışanların fəaliyyətini nəzərə almaq, ölçmək olduqca çətindir. Çünki, bu sahədə fəaliyyət göstərənlərin də özü bir neçə qismə bölünür:

- gizli iqtisadiyyata;
- vergi və sosial ödənişlərdən yayınan formal iqtisadiyyata;
- qeyri-leqal iqtisadiyyata;
- nəzarətdə olmayan iqtisadiyyata.

Bu sahədə mövcud olan istehsal və xidmət fəaliyyəti, əsasən korporativləşmiş firmalar tərəfindən, ev təsərrüfatı bölməsi vasitəsilə həyata keçirilir. Tutaq ki, Şadlıq sarayında toy şənliklərini tortlarla, dondurmayla təmin olunmasında, ondan xeyli uzaqda yaşayan, heç bir qeydiyyatdan keçməyən, şəxsi mənzilində fəaliyyət göstərən ailə üzvləri tərəfindən hazırlanır və çatdırılır. Belə fəaliyyət qeyri-formal xarakter daşımaqla, ÜDM-ə daxil olmur. Lakin belə fəaliyyət növü ÜDM-in həcminin artmasına dolayı yolla təsir göstərir. Bu qisimdən olan qeyri-leqal istehsalçı və xidmətçilər əldə etdikləri gəlirlərlə, fərdi mənzil tikintisi ilə bağlı daş, qum, taxta, pəncərə, qapı və s. əşyalar alırlar.

ÜDM-in əhalinin maddi rifah halını müvafiq işgüzarlıq fəaliyyətinə uyğun əks etdirmədiyinə gəldikdə onu göstərmək olar ki, onun adambaşına düşən kəmiyyəti məsələni tamam həll etmir. Tutaq ki, 10 mln. əhalisi olan və adambaşına düşən illik gəliri 10 min dollar olan ölkənin ÜDM-i 10 mlrd. dollara bərabərdir. Lakin burada 100 min əhalinin illik gəliri 800 min dollara bərabərdirsə, bu heç də o demək deyil ki, yerdə qalan əhalinin gəlirləri də eynilik daşıyacaq. Əgər ölkə əhalisinin az bir qismi çox varidata

sahib olursa, bu heç də digərlərinin işgüzarlıq səviyyəsini tam əks etdirməyəcək.

Bununla əlaqədar olaraq qərb iqtisadi məktəbinin görkəmli nümayəndələri V.Nordhaus və C.Tobin işgüzar fəallığın ÜDM-də əks olunmasından ötrü **xalis iqtisadi rifah** halı göstəricisinin hesablanmasını təklif edirlər. Bunun üçün ÜDM-dən amillərin pula qiymətləndirilməsi çıxılmalı, ona müsbət təsir edən amillərin pula qiymətləndirilməsi əlavə olunmalıdır. Lakin belə qiymətləndirmənin aparılması olduqca mürəkkəb və çətindir. Buna baxmayaraq beynəlxalq təşkilatlar bu istiqamətdə müxtəlif tövsiyələr irəli sürürlər ki, bu da işgüzar fəallığın iqtisadi rifah halına olan təsirini müəyyən etməyə imkan verir. Misal olaraq yeni MHS-nin istifadəsi əsasında, ona əlavə olaraq «Nəzarətdə olmayan iqtisadiyyatın hesablanması üzrə rəhbərlik» tövsiyəsini göstərmək olar. Məsələn, dünyanın bir sıra ölkələrinin timsalında aparılan ekspert hesablamalarına görə «nəzarətdə olmayan iqtisadiyyatın» məhsulları ÜDM-in 10-60%-i arasında tərəddüd edir. Belə olan şəraitdə hər bir ölkədə alternativ yolla iqtisadi fəallığı əks etdirən və ÜDM-in nəzarətdə olmayan iqtisadiyyatın payını müəyyən edib və onun rəsmi hesablanılan həcminə əlavə etmək olar. Aydındır ki, dövlətin korrupsiyalaşmaya və «gizli iqtisadiyyat»ın leqallaşdırılmasına qarşı apardığı mübarizə səviyyəsindən və həyata keçirdiyi tədbirlərdən asılı olaraq, **nəzarətdə olmayan iqtisadiyyatda istehsal olunan** əmtəə və xidmətlərin həcmini ÜDM-də azaltmaq olar.

ÜDM-in iqtisadi rifahın meyarı kimi asudə vaxtın nəzərə alınmaması çatışmazlığını da göstərmişdik. Əgər iş günlərinin və iş saatlarının miqdarı artırılsaydı, onda söz yox ki, ÜDM-in həcmi artardı. Belə olan hallarda adamların işə bağlılıq dərəcəsi xeyli yüksəlmiş olardı. Onun nəinki ailəsinə, hətta özünə sərf edəcəyi vaxtın miqdarı azalacaqdır. Nəticədə yüksək artımlı ÜDM onun istehsalçılarının həyat keyfiyyətlərini yüksəltmək əvəzinə, aşağı salmış

olardı. Asudə vaxtın artması ÜDM-in nəticəsi kimi, onun məhdudlaşması isə əldə olunan nəticənin rifah halının yaxşılaşdırılmasına **yönəldilməyən** həcm kimi qiymətləndirilməlidir. ÜDM-in hətta göstərilən çatışmazlıqlar şəraitində belə onun iqtisadi rifah halını əks etdirən ən dolğun göstərici olduğunu və hər bir ölkədə onun həcmi və adambaşına düşən kəmiyyəti və **layiqli həyat tərzini** və **yaşayış keyfiyyətini** əks etdirdiyini görürük. Deməli, ÜDM-in həcmi və reallığı **ləyaqətli həyat tərzini** əks etdirən göstəricidir.

ÜDM-in milli iqtisadiyyatların inkişaf səviyyəsində və iqtisadi rifah halında oynadığı rolu göstərməkdən ötrü təkcə onun ölkə üzrə hesablanması deyil, həm də onun artımın dünya iqtisadiyyatında oynadığı rolun müqayisəli təhlilinin aparılmasının da çox böyük əhəmiyyəti var. Bu baxımdan 2005-ci ildə BMT-nin Statistika Komissiyasının qərarı ilə dünyanın 146 ölkəsinin timsalında ÜDM-in qlobal beynəlxalq müqayisəsinin aparılmasının xüsusi əhəmiyyət daşıdığını göstərmək olar.

Müqayisəli təhlilin aparılmasında BMT-nin təşəbbüsü ilə 1960-cı ildən tətbiq olunan valyutanın paritet alıcılıq qabiliyyəti (PAQ) göstəricisindən istifadə olunmuşdur. Belə göstəricidən istifadə onunla əlaqədardır ki, ölkə üzrə ÜDM-un hesablanması zamanı istifadə olunan valyuta kursu qiymətlərin nisbətini dəqiq əks etdirmir.

ÜDM-in göstəricilərinin PAQ formasında qiymətləndirilməsi, ən ümumi şəkildə mövcud ölkənin: əmtəə və xidmətlərin alınmasına sərf etdiyi pulun kəmiyyətini; müvafiq valyuta vahidi ilə onun digər ölkədən almaq imkanını əks etdirir.

Məsələn, PAQ manatın dollara, Avroya, yuana olan nisbəti onu göstərir ki, eyni kəmiyyətli məhsulun alınmasına 100 vahidli məbləğlə Azərbaycanda, ABŞ-da, AY-da, Çində analoji olaraq nə qədər məhsul almaq olar.

ÜDM-in müqayisəli valyuta ilə hesablanması imkan verir ki, hər bir ölkənin regional və dünya iqtisadiyyatında tutduğu yer müəyyənləşdirilsin. Belə hesablama əsasında dünyanın ÜDM-nin tərkibində ayrı-ayrı ölkələrin payı 2005-ci il üçün müəyyən edilmişdir:

**Cədvəl 1.**

**Ayrı-ayrı ölkələrin Ümumdünya Daxili Məhsulunda payı**
(PAY üzrə qiymətləndirmə %-lə)

| | | | |
|---|---|---|---|
| ABŞ | 23 | Fransa | 3 |
| Kitay | 10 | Rusiya | 3 |
| Yaponiya | 7 | İtaliya | 3 |
| Almaniya | 5 | Braziliya | 3 |
| Hindistan | 4 | İspaniya | 2 |
| Böyük Britaniya | 3 | Meksika | 2 |

Başqa bir hesablamanı da göstərmək olar. Bu da dünyanın 10 ölkəsi üzrə ÜDM-in adambaşına düşən kəmiyyətinin hesablanmasıdır:

**Cədvəl 2.**

**Dünyanın 10 ölkəsi üzrə adambaşına düşən ÜDM payı**
(dünyanın ilk onluğu )

| Ölkələr | Adambaşına ÜDM | | Ölkələr | Adambaşına ÜDM | |
|---|---|---|---|---|---|
| | PAQ üzrə doll. | orta dünya səviyyəsindən %-lə | | PAQ üzrə doll. | orta dünya səviyyəsindən %-lə |
| Lüksemburq | 70014 | 781 | Sinqapur | 41478 | 462 |
| Qətər | 68749 | 769 | ABŞ | 41674 | 464 |
| Norveç | 47551 | 530 | İrlandiya | 38058 | 424 |
| Brüney | 47465 | 530 | İslandiya | 35630 | 397 |
| Küveyt | 44982 | 506 | İsveçrə | 35520 | 396 |

ÜDM-in adambaşına düşən kəmiyyətinin müəyyənləşdirilməsi, həmçinin onun aşağı, orta və yüksək səviyyəsini

əks etdirməklə ölkələrin bu gəlir növü üzrə bölgüsünün aparılmasına imkan verir:

**Cədvəl 3.**

**Müxtəlif qrup ölkələr üzrə dünya gəlirinin bölgüsü**

| Ölkələr qrupu | Dünya gəlir payı | Dünya əhalisinin sayına görə pay |
|---|---|---|
| Adambaşına aşağı səviyyəli gəlir səviyyəsi ilə | 7 | 36 |
| Adambaşına orta səviyyəli gəlir səviyyəsi ilə | 32 | 48 |
| Adambaşına yüksək səviyyəli gəlir səviyyəsi ilə | 61 | 16 |

ÜDM-in dünyanın 146 ölkəsi üzrə aparılmış müqayisəli təhlili, bizim üçün iki cəhətdən maraqlıdır:

• dünyanın qabaqcıl ölkələrinin ÜDM-nin qlobal nəticələri ilə tanışlıq baxımından;

• aparılmış qlobal layihə çərçivəsində MDB ölkələrinin nəticələrinin qiymətləndirilməsi baxımından.

Hər iki yanaşmada cədvəl məlumatlarına diqqət yetirmək maraqlıdır.

**Cədvəl 4.**

**2005-ci ilin məlumatları üzrə ÜMM-in müqayisəsinin qlobal nəticələri**

| Ölkələr | PAQ üzrə ÜDM trln. doll. | Dünya ÜDM-ində ölkələrin payı, %-lə | Adambaına ÜDM | | PAQ (ABŞ=1) | Qiymət vəziyyəti indeksi (ABŞ=100) | Valyuta kursu (SŞA=1) |
|---|---|---|---|---|---|---|---|
| | | | PAQ üzrə min doll. | İndeks (ABŞ=100) | | | |
| Avstralya | 6715,0 | 1,22 | 32,798 | 78,7 | 1,4 | 106 | 1,3 |
| Kanada | 1133,0 | 2,06 | 35,078 | 84,2 | 1,2 | 100 | 1,2 |
| Çexiya | 207,6 | 0,38 | 20,281 | 48,7 | 14,4 | 60 | 23,9 |
| Daniya | 182,2 | 0,33 | 33,626 | 80,7 | 8,5 | 142 | 6,0 |
| Finlandiya | 159,8 | 0,29 | 30,469 | 73,1 | 1,0 | 122 | 0,8 |
| Fransa | 1862,2 | 3,39 | 29,644 | 71,1 | 0,9 | 115 | 0,8 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Almaniya | 2514,8 | 4,57 | 30,496 | 73,2 | 0,9 | 111 | 0,8 |
| Yunanıstan | 282,8 | 0,51 | 25,520 | 61,2 | 0,7 | 87 | 0,8 |
| Macarıstan | 171,6 | 0,31 | 17,014 | 40,8 | 128,5 | 64 | 199,5 |
| İtaliya | 1626,3 | 2,96 | 27,750 | 66,6 | 0,9 | 109 | 0,8 |
| Yaponiya | 3870,3 | 7,04 | 30,290 | 72,7 | 129,6 | 118 | 110,2 |
| Hollandiya | 566,6 | 1,03 | 34,724 | 83,3 | 0,9 | 112 | 0,8 |
| Norveç | 219,8 | 0,40 | 47,551 | 114,1 | 8,8 | 137 | 6,4 |
| Polşa | 518,0 | 0,94 | 13,573 | 32,6 | 1,9 | 59 | 3,2 |
| Portuqaliya | 211,0 | 0,38 | 20,006 | 48,0 | 0,7 | 88 | 0,8 |
| Rumıniya | 202,7 | 0,37 | 9,374 | 22,5 | 1,4 | 49 | 2,9 |
| Rusiya | 1697,5 | 3,09 | 11,861 | 28,5 | 12,7 | 45 | 28,4 |
| Böyük Britaniya | 1901,7 | 3,46 | 31,580 | 75,8 | 0,6 | 118 | 0,5 |
| ABŞ | 12376,1 | 22,51 | 41,674 | 100,0 | 1,0 | 100 | 1,0 |
| Çin | 5333,2 | 9,7 | 4,091 | 9,8 | 3,4 | 42 | 8,2 |
| Bütün dünya | 54980 | 100,00 | 8,972 | 21,5 | | 81 | |

Belə müqayisə ilə həm ölkənin PAQ ilə valyuta kursu arasındakı nisbəti, həm də orada yaşayış səviyyəsinin baha və ucuzluğunu müəyyənləşdirmək olar.

Bazar iqtisadi sisteminə keçid ərəfəsində olan ölkələrdə, o cümlədən MDB məkanındı olan milli iqtisadiyyatın ÜDM-un həcmi və adambaşına düşən kəmiyyətinin müqayisəsi isə həm bazara keçidin meyarlarının müəyyənləşdirilməsi, həm də iqtisadi potensialdan istifadə imkanını əks etdirən yekun göstəricisi kimi nəzərə alına bilər.

**Cədvəl 5.**

**Qlobal layihə çərçivəsində MDB ölkələri üzrə ÜMM-nin müqayisəsinin əsas nəticələri**

| Ölkələr | PAQ üzrə ÜDM trln. doll. | Dünya ÜDM-ində ölkələrin payı, % | Adambaşına ÜDM | | PAQ (ABŞ=1) | Qiymət səviyyəsi indeksi (ABŞ=100) |
|---|---|---|---|---|---|---|
| | | | PAQ üzrə, doll. | İndeks (ABŞ=100) | | |
| Azərbaycan | 38,1 | 0,07 | 4648 | 11,2 | 1631,6 | 35 |
| Ermənistan | 12,6 | 0,02 | 3903 | 9,4 | 178,6 | 39 |
| Belorusiya | 83,5 | 0,15 | 8541 | 20,5 | 779,3 | 36 |
| Gürcüstan | 15,3 | 0,03 | 3505 | 8,4 | 0,7 | 41 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Qazaxıstan | 131,8 | 0,24 | 8699 | 20,9 | 57,6 | 43 |
| Qırğızıstan | 8,9 | 0,02 | 1728 | 4,1 | 11,4 | 28 |
| Moldova | 8,5 | 0,02 | 2362 | 5,7 | 4,4 | 35 |
| Rusiya | 1697,5 | 3,09 | 11861 | 28,5 | 12,7 | 45 |
| Tacikistan | 9,7 | 0,02 | 1413 | 3,4 | 0,7 | 24 |
| Ukrayna | 263,0 | 0,48 | 5583 | 13,4 | 1,7 | 33 |
| MDB bütövlükdə* | 2269,2 | 4,13 | 9202 | 22,1 | | 43 |

*İştirak edən ölkələr üzrə (Özbəkistan və Türkmənistandan başqa)

Qeyd olunan cədvəl məlumatlarından görmək olur ki, dünya iqtisadiyyatında ABŞ-da istehsal olunan ÜDM-in həcmi həlledici rol oynadığı kimi (23%), MDB ölkələrindən Rusiyanın ÜDM-i həlledicidir (75%). Lakin MDB regionun payına ümumdünya ÜDM-nin 4,1%-i düşdüyü halda, bu rəqəm AJ üzrə 24%-ə bərabərdir.

Bütün bu deyilənlərdən belə qənaətə gəlmək olar ki, ÜDM-ın həcmi, artım sürəti, adambaşına düşən kəmiyyəti iqtisadi rifah halının yaxşılaşmasına və yüksəldilməsinə imkan yaradan potensial resursdur.

# V FƏSİL. MAKROİQTİSADİ MÜVAZİNƏT (AD-AS) (İS-LM)

**5.1. Makroiqtisadi müvazinətin mahiyyəti**
**5.2. Makroiqtisadi müvazinətin klassik modeli**
**5.3. Makroiqtisadi müvazinətin Keyns modeli**
**5.4. Makroiqtisadi müvazinətin Xiks modeli**

## 5.1. Makroiqtisadi müvazinətin mahiyyəti

Makroiqtisadi müvazinət milli iqtisadiyyatın elə vəziyyəti deməkdir ki, ölkənin malik olduğu iqtisadi potensialın müəyyən bir hissəsini resurs formasında, əmtəə və xidmətlər şəklində istehsal etməklə onların cəmiyyətin müxtəlif üzvləri arasında tələbata uyğun tarazlı bölgüsü həyata keçirilmiş olsun. Belə vəziyyətə nail olması olduqca çətin və mürəkkəbdir. Çünki makroiqtisadi səviyyədə əmtəə və xidmətlər, qiymətlər, əmək və pul bazarlarının bütöv şəkildə qarşılıqlı əlaqələndirilmiş vəziyyətə gətirilməsi külli miqdarda amillərlə əlaqədardır. Biz milli iqtisadiyyat mövzusunun izahında, onun bir prinsipi kimi, ümumiyyətlə, müvazinətin mahiyyətinə toxunmuşduq. İndi isə bütövlükdə iqtisadi sistemlərin formasından asılı olmayaraq onun malik olduğu xüsusiyyətlərdən bəhs etməklə, bu istiqamətdə mövcud olan iqtisadi baxışlara diqqət yetirəcəyik.

Makroiqtisadi müvazinət hər şeydən əvvəl proporsionallığın təmin olunmasını:

-resurs və onlardan istifadəsində;

-istehsal amillərinn istifadəsi və nəticəsində;

-istehsalla istehlak arasındakı nisbətdə;

-məcmu tələblə məcmu təklif arasındakı nisbətdə;

-əmək bazarının subyektləri arasındakı qarşılıqlı əlaqədə;

-maddi-əşya və maliyyə axınları arasındakı əlaqədə əks olunur.

Qeyd olunanları nəzərə alaraq belə qənaətə gəlmək olar ki, makroiqtisadi müvazinət mövcud iqtisadi resursların cəmiyyətin fərdlərinin iqtisadi qabiliyyətləri ilə sabit istifadə olunması ilə onların müəyyənliyini milli iqtisadiyyatın bütün sferalarında əks etdirən prosesdir. Əlbəttə, belə prosesə nail olunması olduqca çətindir. Çünki real həyatda yuxarıda qeyd etdiyimiz bazarlarda belə vəziyyətə nail olunması daima müəyyən tərəddüdlü, enib-qalxan, dalğavarı hərəkətlərlə müşahidə olunur. Ona görə də o iqtisadi sistemlər səmərəli və faydalı görünmür ki, orada iqtisadi müvazinətə qısa və uzun müddət ərzində çevik və tez nail olunur. Bu baxımdan makroiqtisadi müvazinətin mahiyyətini nəzəri baxımdan dərk etməklə, real həyatda iqtisadi proseslərdəki ümumi və konkret vəziyyət arasında daima baş verən kənarlaşmaların mahiyyətini görməklə iqtisadiyyatın optimal vəziyyətə gətirilməsi yollarını müəyyən etmək olar.

Göstərməliyik ki, Keyns nəzəriyyəsinin meydana gəlməsinə qədər, ümumiyyətlə, iqtisad elmində ümumi makroiqtisadi müvazinət probleminə müstəqil şəkildə toxunulmamışdır. Lakin, təkrar istehsal prosesinin tədqiqi, bazarların fəaliyyəti, rəqabət mühitinin təhlili ilə əlaqədar bir çox iqtisadi fikir nümayəndələrinin ümumi müvazinətlə bağlı baxışları mövcud olmuşdur:

-F.Kenenin XVIII əsrdə Fransa iqtisadiyyatının timsalında sadə təkrar istehsal modeli. Buna «iqtisadi cədvəl» də deyilir.

-K.Marksın kapitalist iqtisadiyyatının bütövlükdə tədqiqi əsasında sadə və geniş təkrar istehsal modeli.

-L.Valrasın azad rəqabət şəraitində ümumi iqtisadi müvazinət modeli.

Bununla yanaşı qeyd etməliyik ki, formalaşmaqda olan iqtisad elmi və xüsusilə klassik iqtisadi məktəbin

görkəmli nümayəndələri D.Rikardo, C.Mill, J.Sey və neoklassik məktəb nümayəndələrindən A.Marşall, A.Piqu hesab edirlər ki, bazar iqtisadiyyatı müstəqil şəkildə resursların səmərəli bölgüsü və tam istifadənin öhdəsindən gələ bilər. Əslində belə yanaşma mikrosəviyyəli tarazlığın baş verməsi mexanizminin şərhi idi. Yaxın makroiqtisadi müvazinətin təmin olunması üçün tutarlı hesab olunan nəzəri müddəaların əsasını təşkil edirdi. Bu barədə bir qədər sonra daha ətraflı şərh verəcəyik.

XX əsrin 30-cu illərinə qədər iqtisad elmində iqtisadi müvazinətin klassik modeli hakim mövqedə idi. Lakin bu dövrdə dünyada baş verən iqtisadi böhran və işsizliyin sürətlə artması klassik iqtisadçıların C.Keyns tərəfindən tənqid olunmasına səbəb oldu. Bununla da makroiqtisadi müvazinətin yeni yanaşma baxımından modellərinin əmələ gəlməsinin əsası qoyuldu:

-C.Keynsin qısamüddətli makroiqtisadi müvazinət modeli (AD-AS).

-V.Leontyevin «məsrəf-buraxılış»ın makroiqtisadi modeli.

-C.Xiksin əmtəə-pul bazarında eynivaxtlı makroiqtisadi müvazinət modeli. (İS-LM).

-C.Neymanın iqtisadiyyatın genişlənən müvazinətli modeli.

Bu modellərdə əsas diqqət ona yönəldilmişdir ki, bütövlükdə iqtisadiyyat qeyri-müvazinətli formada olur. Hər bir makroiqtisadi müvazinət qeyri-müvazinətli şəraitdən törənir.

Bununla əlaqədar iqtisad elmində qeyri-müvazinətli nəzəriyyə əmələ gəldi ki, bu da makroiqtisadi dinamika nəzəriyyəsinin institusional istiqamətini müəyyənləşdirdi. Burada əsas diqqət ona yönəldildi ki, iqtisadi sistem statik səviyyədə olduğundan hər şəraitdə makroiqtisadi müvazinəti təmin etmək olmur. Ona görə də bazara yeniləşmələr əsasında əmtəə və xidmətlər çıxarılmalıdır ki, bu da istehsal

amilləri bazarında yeni kombinasiyalaşmaya uyğun olaraq irəliləyiş və fəallığın güclənməsinə səbəb olur.

Nəticədə fərdi sahibkarlığın inkişafı ilə onun fəaliyyətinin davamlılığına xidmət edən institutların əmələ gəlməsinə səbəb olur. Beləliklə də, iqtisadi inkişafın təmin olunmasının institusional istiqaməti formalaşdı. Başqa sözlə, iqtisadi inkişafın davamlı xarakter almasında qeyri-müvazinətli vəziyyətin mövcud olmasının əhəmiyyəti müəyyənləşdirildi.

Qeyri-müvazinatlı vəziyyətdən çıxıb makroiqtisadi müvazinatın yaradılmasının xüsusiyyətləri və ondan çıxma səbəbləri də müəyyənləşdirildi. Bu istiqamətdə qeyd etmək olar:

-Y.Şumpeterin qeyri-müvazinatlı nəzəriyyəsini (innovasiyalı-yeniləşmə prosesinin həyata keçirilməsi).

-Y.Kornainin defisit nəzəriyyəsini. Defisitin bütün iqtisadi sistemlərdə mövcudluğundan onun makroiqtisadi müvazinatın yaradılmasındakı mane törədici amil kimi nəzərə alınmasının zəruriliyi.

-İnstitusional cərəyanın qeyri-müvazinat nəzəriyyələrini sosial-iqtisadi sistemin sabitləşməsi üçün xüsusi və ictimai nemətlərin təmin olunmasına yönəldilmiş fərddən dövlətə qədər institusional innovasiyanın təmin olunması.

## 5.2. Makroiqtisadi müvazinətin klassik modeli

Makroiqtisadi müvazinətin mahiyyəti ilə əlaqədar qeyd olunan bu qısa şərhdən sonra konkret olaraq bu istiqamətdə ilkin mövcud olan klassik modelin məzmununa diqqət yetirmək olar.

Makroiqtisadi müvazinətin klassik modelinin mahiyyəti onunla əlaqələndirilirdi ki, iqtisadiyyat təkmil rəqabət şəraitində fəaliyyət göstərdiyindən özünütənzimləmə şəklində cari istehsalın və məşğulluğun səviyyəsi avtomatik təmin olunur. Ona görə də bazar iqtisadiyyatının normal vəziyyəti üçün vacib hesab olunurdu:

-tam məşğulluğun mövcudluğu;

-iqtisadiyyata dövlət müdaxiləsinin olmaması.

Klassik nəzəriyyəyə görə xərclər tam məşğulluq şəraitində həmişə istənilən səviyyədədir. Bu da J.Seyin ideyasından «Əmtəə təklifi öz tələbini yaradır» irəli gəlirdi ki, əmtəə istehsalı prosesi özlüyündə gəlir yaradır ki, bu da tamamilə istehsal olunan əmtəələrin dəyərinə bərabərdir. Yəni təklif öz xüsusi tələbini yaradır. Beləliklə də, ümumi müvazinət Σ - ümumi təklifin = Σ ümumi tələblə bərabərliyi əmələ gəlir.

**Bir anlığa elmi xidmətin mahiyyətinə nəzər salaq:** Jan Batist Sey (1767-1832) Fransanın Leon şəhərində anadan olmuşdur. Yaxşı təhsil almaqla yanaşı müstəqil maariflənməyə üstünlük vermişdir. A.Smitin «Xalqların sərvəti» əsərinin təsiri altında elmi ümumiləşmələr etmişdir. Böyük Fransa inqilabı ordusunda xidmət etmişdir. Parisə qayıtmaqla, çox nüfuzlu jurnallardan birinin redaktoru olmuşdur. «Siyasi iqtisadın traktatı» əsərini yazmışdır. Burada sərvətin bölgüsünün və istehlakının gedişatının izahı verilmişdir. Seyin bu əsəri 1803-cü ildə dərc olunmuşdur. Ondan sonra o dəfələrlə nəşr olunmuş və müəllifə böyük uğur gətirmişdir. Sey qeyd edirdi ki, əmtəə və xidmətlərin istehsalı onlara tələb yaradır. Başqa sözlə, təklif özünəməxsus tələb yaradır. İstehsalçılar burada əmtəə və xidmətlərini reallaşdırmaqla əldə etdikləri pul vəsaitlərini özlərinə lazım olan digər əmtəə və resursların alınmasına xərcləməli olurlar. Belə bir proses bütövlükdə milli iqtisadiyyat üçün ümumi hal alır. Hər bir «təklif öz tələbini yaradır» ideyası iqtisad elmində Seyin bazar qanunu adı ilə daxil olmuşdur. Bu qanuna görə bütün istehsal olunmuş ÜDM-in reallaşdırılması üçün zəruri olan məcmu xərclərin səviyyəsinin çatışmazlığı qeyri-mümkündür.

Seyin bu mülahizəsi uzun illər azad bazar təsərrüfatının fəaliyyət göstərməsinin əsası kimi hesab olunurdu. Sözsüz ki, məhsul istehsalı müəyyən kəmiyyətli gəlirin əldə olunmasını təmin edir. Lakin elə bir təminat heç kim tərəfindən verilmir ki, bütün əldə olunan gəlirlər tamamilə xərclənəcək. İstehlakçıların davranışı, onların əmanətə me-

yillikləri gəlir-xərc axınına maneə törətməklə istehlak səviyyəsində çatışmazlığın baş verməsinə səbəb olacaq. Nəticədə satılmayan əmtəələrin çoxalmasına istehsalın ixtisar olunmasına, işsizliyin və gəlirlərin azalmasına gətirib çıxaracaq.

Digər bir mülahizəyə görə makroiqtisadi müvazinətin klassik modeli başlıca olaraq:

-qiymətlərin mütləq çevikliyinə;
-subyektlərin rasional davranışına;
-faiz dərəcələrinin çevikliyinə;
-əməkhaqqının çevikliyinə əsaslanırdı.

Bu da ona gətirib çıxarmalıydı ki, hər bir bazardakı müvazinət avtomatik yaranır. Hər hansı müddət ərzində müvazinətli vəziyyətdən kənarlaşma təsadüfi amillərlə bağlıdır və müvəqqəti xarakter daşıyır.

Digər tərəfdən əmtəələrin mübadiləsi, pulun oynadığı rola o qədər də əhəmiyyət verilməyərək, ona yalnız hesab aparmaq aləti kimi baxılaraq müstəqil amil kimi qiymətləndirilmirdi. Nəticədə pul və nemət bazarları bir-birindən əlahiddələşdirilmiş şəkildə baxılırdı. Halbuki, əmtəə və pul bazarları bir-biri ilə qarşılıqlı əlaqədədir. Həmçinin məşğulluğu əmək bazarının özü-özünü tənzimlədiyindən ona tam, işsizliyi isə təbii halda nəzərdə tutulurdu.

Bu istiqamətdə A.Marşall «Ekonomiksin prinsipləri» (1890) əsərində müxtəlif əmtəə bazarında (ət bazarında, buğda bazarında) ümumi müvazinətin məcmusu kimi nəzərdən keçirərək, onların mərkəzində müvazinətli qiymətin durduğunu göstərirdi. Həmçinin ümumi müvazinətin nail olmasında qiymət amilinin qısa və uzun müddət ərzindəki rolu göstərildi. Bu da olduqca vacib ümumiləşmə idi. Çünki qiymətin qısa müddət ərzində formalaşması tələbə, uzun müddət ərzində isə təklifə təsir göstərir. Qeyd olunan mülahizələrini iqtisad elminə gətirmiş olduğu qrafik təhlil metodu vasitəsilə izah etmişdir. Xüsusilə də müvazinətin bərpa olunmasına resursların yerdəyişməsinin təsiri əsas götürülürdü.

Beləliklə də, ümumi iqtisadi müvazinətin klassik modelinin başlıca fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, bazar mexanizmi milli iqtisadiyyat səviyyəsində yaranan qeyri-müvazinətliyi:

-özü-özünə bərpa etməyə qadirdir;

-əmtəə və qiymətlər bazarlarının tarazlığı avtomatik xarakter daşıyır;

-məcmu tələbin səviyyəsi sabitdir (çünki, qiymətin və əməkhaqqının elastikliyi bazar mexanizminin fəaliyyətini təmin edir);

-istehsalın həcmi ilə təbii işsizlik səviyyəsi sabit xarakter daşıyır;

-makroiqtisadi səviyyədə dövlətin müdaxiləsi vacib deyil.

İstər klassik, istərsə də digər makroiqtisadi modellərin mahiyyətinin daha dərindən təhlili və dərk olunmasında və ümumi qanunauyğunluqların üzrə çıxarılması üçün məcmu tələbə (AD) və məcmu təklifə (AS) xüsusi diqqət yetirmək lazımdır. Çünki milli iqtisadiyyatda baş verən dəyişikliklər onların özündə və kəmiyyətində baş verən dəyişikliklərlə əlaqədardır. Əslində məcmu tələblə məcmu təklif arasında bərabərliyin yaradılmasını makroiqtisadi müvazinətin təmin olunmasının ilkin şərti kimi qəbul etmək olar. Lakin bu prosesin baş verməsi sadə xarakter daşımadığından, onun əmtəə və pul bazarında, investisiya, istehlak, əmanət sferasında iqtisadiyyatın tsiklik xarakterindən, işsizlik, inflyasiya, real gəlirlərin və s. asılılığı məcmu tələblə məcmu təklifin arasındakı bərabərliyin təmin olunmasının özü mürəkkəb xarakter daşıyır. Bu barədə növbəti fəsildə daha ətraflı bəhs olunacaq.

İndi isə makroiqtisadi müvazinət modelinin mahiyyəti çərçivəsində məcmu tələb və məcmu təklifə diqqət yetirək. Məcmu tələb (AD) əmtəə bazarında təklif olunan son əmtəə və xidmətlərə olan və müəyyən qiymətə alına bilən bütün fərdi tələblərin məbləğindən ibarətdir.

Ümumiyyətlə, məcmu tələbə daxil edilir:

-istehlakçı xərclərindən (ev təsərrüfatlarının məcmu istehlak xərcləri-C);

-investisiya xərclərindən (sahibkarların kapital avadanlıqlarına yönəldikləri xərclər-J);

-dövlət xərcləri (dövlət tərəfindən əmtəə və xidmətlərə tam tələb-G);

-xalis ixrac xərcləri (ölkə əmtəələrinə olan xarici tələblə, ölkənin xarici əmtəələrə olan tələbi arasındakı fərq-NX);

Beləliklə də, məcmu tələb qeyd olunan xərclərin cəmi kimi formlaşır və ümumi qəbul olunmuş bir formula alır.

AD=C+İ+G+NX

Makroiqtisadi səviyyədə məcmu tələbə əsasən iki amil təsir göstərir: 1) -təklif olunan pulun həcmi; 2) onların dövriyyə sürəti.

Məcmu tələbə təsir göstərən digər amillər:

-istehlakçıların gəlirləri;

-istehlakçıların zövqü;

-əvəz olunan və ya müşayiət olunan əmtəələrin qiyməti.

Dövlətin vergiqoyma, pul, kredit və s. sahədə yeritdiyi siyasət bilavasitə yuxarıda qeyd olunan təklif olunan pulun həcminə və onun dövriyyə sürətinə təsir göstərir.

Məcmu təklif (AS) - qiymətlərin bütün mümkün səviyyələrində müəyyən müddət ərzində bütün fərdi təklif olunan son əmtəə və xidmətlərin cəmindən ibarətdir. Məcmu təklif, satış üçün təklif olunan son əmtəə və xidmətlərin həcmini əks etdirən pul kəmiyyətinə malikdir. Məcmu təklifə məcmu tələbə təsir göstərən amillər də təsir göstərməklə yanaşı həm də istehsalın texnoloji quruluşu; istehsal xərclərinin səviyyəsi də təsir edir.

Məcmu təklifin bu amilləri müxtəlif əmtəə bazarlarına fərqli təsir göstərdiyindən makroiqtisadi səviyyədə ciddi dəyişikliklərin baş verməsinə səbəb olunur. Bu baxımdan da makroiqtisadi müvazinətin təmin olunmasındakı modellərdə fərqli xüsusiyyətlər baş verir. Məcmu xərclərlə

məcmu gəlirlər arasında ümumi müvazinət olduqca təsadüfi hal alır və məcmu tələblə məcmu təklif arasında kənarlaşmalar daimi xarakter alır.

Məcmu tələblə məcmu təklifin bərabər vəziyyətə gətirilməsinin mümkünlüyünü hesab edən klassiklər, «təklif» prinsipi əsasında AD-AS arasında, yəni faktiki gəlirlərlə (buraxılış) potensial səviyyəsi arasında qısa müddət ərzində az və ya sox kənarlaşma ola biləcəyini təsdiq edirlər. Çünki, bazar iqtisadiyyatında qiymətlərin nemətlər bazarında və resurslar bazarında ikitərəfli çevikliyə malik olduğundan qısa müddət ərzində müvazinəti bərpa etmək mümkündür. Bununla əlaqədar olaraq klassik modeldə məcmu təklif bəlli həcmdə qeyri-klassik şəkildə götürülərək şaquli xarakterli olduğu göstərilir.

Qısa müddət ərzində makroiqtisadi müvazinətin klassik modelinin qrafik təsvirinə diqqət yetirərək bunu müşahidə etmək olar.




**Şəkil 1**

Göründüyü kimi, klassik modeldə qısa müddət ərzində məcmu tələb sabitdir. Hətta onun aşağı düşdüyü şəraitdə qiymətin və əməkhaqqının elastikliyi vasitəsilə istehsalın həcminin və təbii işsizliyin səviyyəsinin qorunması ilə ümumi müvazinatı bərpa etmək mümkündür.

İqtisadiyyatın optimal müvazinət vəziyyətini aldıqdan sonra klassiklər bazarın özü-özünü tənzimləmə prinsipindən çıxış edərək uzun müddətdə ümumi müvazinətin qorunması prosesini göstərmişlər. Bu, bazar müvazinətinin avtomatik olaraq bərpa olunması qrafikində göründüyü kimi şərh olunur (şəkil 2).




**Şəkil 2**

Şəkil 2-dəki vəziyyətə diqqət yetirərkən belə vəziyyətin alınmasına yalnız ideal müvazinət şəraitində, xüsusən də təkmil rəqabətin baş verdiyi vaxt müşahidə etmək olar. Hesab edək ki, milli iqtisadiyyat $\Sigma_0$ nöqtəsində müvazinət vəziyyətindədir. Məhsul və resurslara olan qiymət səviyyəsi - $P_o$ nöqtəsindədir. Real buraxılışın və ya gəlirin $Y_\Sigma$ həcmi

tam məşğulluq şəraitində ümumi xərclərin səviyyəsinə uyğun olur, məcmu tələb (AD əyrisi) isə istehsal olunmuş milli məhsul üçün tam əlverişlidir.

Bu və ya digər səbəb üzündən $AD_1$ əyrisinin $AD_2$ vəziyyətinə düşməsi bütün istehsal olunmuş milli məhsulun reallaşması üçün məcmu tələb aralıq təşkil edəcək. Nəticədə qiymətin səviyyəsi $P_o$ nöqtəsindən enib $P_1$ vəziyyətinə düşəcək ki, bu da məcmu təklifin həcminin azalmasına səbəb olmaqla işsizliyin artımı baş verəcək. Qiymətin səviyyəsinin aşağı düşməsi milli məhsulun həcmini $Y_\Sigma$ vəziyyətindən çıxarıb $Y_1$ vəziyyətinə gətirəcək ki, bu da müvazinətin $\Sigma_1$ nöqtəsində qərarlaşmasına gətirib çıxarmaqla qısamüddətli xarakter daşıyacaq. Qiymətlərin səviyyəsinin aşağı düşməsi ilə istehsal xərclərinin azalması istehsalçıların xeyrinə olduğundan məcmu təklif əyrisi $AS_1$ sağa meyil edərək $AS_2$ vəziyyətini alacaq. İqtisadiyyat belə şəraitdə $AD_2$ əyrisi üzrə aşağı enərək yeni $\Sigma_2$ müvazinət nöqtəsində qərarlaşacaq. Ümumi milli məhsul istehsalının $Y\Sigma$ nöqtəsinin bərpası və resursların tam istifadəsi baş versə də, lakin həddindən artıq qiymət səviyyəsinin $P_2$ nöqtəsinə keçməsi ilə müşahidə olunur. Belə vəziyyətdə ümumi iqtisadi müvazinətin bərpa olunması ÜMM həcminin azalmasına, istehsal və istifadə olunmuş milli gəlirin həcmində kəskin fərqin baş verməsinə səbəb olacaq. Əgər hesab etsək ki, məcmu tələb istifadə olunmuş milli gəliri, məcmu təklif isə istehsal olunmuş milli gəliri əks etdirir, onda məcmu tələb və məcmu təklif əyrilərinin kəsişməsi nəticəsində bərpa olunan ümumi iqtisadi müvazinət heç də iqtisadiyyatın genişlənməsi ilə deyil, sadəcə enməsi ilə müşahidə olunacaq. Ona görə də qiymət amilinin enib qalxması nə məcmu tələbə, nə mümkün təklifə, nə də ki, onların əyrilərinin kəsişdiyi nöqtəyə birmənalı təsir göstərmir. Qiymət səviyyəsinin dəyişməsi təsir göstərir:

-ÜMM həcminə;

-Məcmu gəlirlərin səviyyəsinə;

-İnflyasiyanın formalaşmasının dəyişməsinə;

-Məşğulluğun və işsizliyin kəmiyyətinə.

Bütün qeyd olunan bu amillər makroiqtisadi müvazinətin klassik modelində nəzərə alınmadığından, bazar mexanizminin özü-özünü tənzimləmə qabiliyyətində olduğunu əsas götürməklə qiymətin və əməkhaqqının çevik xarakterli olduğunu sübut etməklə böhransız iqtisadiyyatın mövcudluğu əsaslandırıldı. Real iqtsadi həyatda baş verən iqtisadi dəyişikliklər makroiqtisadi müvazinəti nail olmanın müxtəlif modellərinin meydana gəlməsinə səbəb oldu.

## 5.3. Makroiqtisadi müvazinətin Keyns modeli

Dünyada 1929-1933-cü illərdə baş verən ümumi böhran Qərbin aparıcı ölkələrinin iqtisadiyyatında ciddi çətinliklər yaratdı. İstehsalın həcmi kəskin azaldı, işsizliyin səviyyəsi yüksəldi, inflyasiya hiper səviyyəsini aldı. Bir sözlə, böhranlı vəziyyət makroiqtisadi müvazinəti tamamilə pozaraq klassik iqtisadi nəzəriyyənin bu istiqamətdəki müddəaların ciddi şəkildə pozdu. Nəticədə kapitalist iqtisadiyyatı iflic vəziyyətini aldı. Beləliklə də klassiklərin tam məşğulluq şəraitində iqtisadiyyatın optimal müvazinətinin təmin olunması fikirləri öz təsdiqini tapmadı.

Görkəmli ingilis iqtisadçısı C.M.Keyns vəziyyətdən çıxış yolunu, «səmərəli tələbin» yaradılmasında görərək klassik nəzəriyyəni tənqid edərək göstərdi ki, nə qiymət nə də ki, əməkhaqqı çevik xarakter daşımır. Klassiklərin bazarın özü-özünə tənzimləmə müddəalarının doğma olduğunu qeyd etdi. O qeyd etdi ki, bazar iqtisadiyyatı üçün qeyri-müvazinətlik xarakterikdir:

-tam məşğulluğa təminat verilmir;

-qiymət və əməkhaqqı çevik xarakter daşımır;

-bazar sistemi daha çox qeyri-təkmil vəziyyətdədir;

-istehsalçı inhisarçıların və güclü həmkarlar təşkilatının bazar prosesinə olan təsirinə məruz qalır.

Beləliklə, Keyns sübut etdi ki, bazar özü-özünü tənzimləmək qabiliyyətində deyil. O, dövlət tərəfindən makro-

iqtisadi səviyyədə tənzimlənməlidir. Həmçinin, o, qeyd edirdi ki;

-məcmu tələb dəyişkəndir;

-qiymətlər qeyri-elastikdir;

-belə şəraitdə işsizlik uzun müddət ərzində mövcud olur.

Bir anlığa elmi xidmətin mahiyyətinə nəzər salaq. Con Meynard Keyns (1883-1946) Kembric məktəbinin ən görkəmli nümayəndələri olan A.Marşallın və A.Piqunun tələbəsi və davamçısı olmuşdur. İlk dəfə olaraq makroiqtisadi nəzəriyyənin bir elmi sistem kimi əsasını qoymuşdur. Klassik elmi sistemdə hakim mövqedə olan «azad bazar» ideyasının «tənzimləyən bazar» ideyası ilə əvəz olunmasını nəzəri-metodolji baxımdan əsaslandırdı. Keynsin ən böyük elmi xidməti XX əsrin 30-cu illərində «Kapital dünyası asılmaq» təhlükəsi altında olduğu bir şəraitdə 1936-cı ildə «Məşğulluğun faizi və pulun ümumi nəzəriyyələri» əsərini yazmaqla və orada «səmərəli tələb» nəzəriyyəsi «qayçısı» ilə onu xilas etdi.

Keyns iqtisadi təfəkkür tərzinin formalaşmasında psixoloji qanunların rolunu üzə çıxarmışdır. Xüsusən səmərəli tələbin əmələ gəlməsində dövlətin stimullaşdırıcı imkanlarını göstərmişdir. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin makroiqtisadi istiqamətini üzə çıxarmışdır.

İnvestisiyanın artımı ilə gəlirin artımı arasındakı birbaşa əlaqənin mahiyyətini multiplikator nəzəriyyəsi ilə əsaslandırmışdır.

Ümumi müvazinətin əsaslandırılmasında bazar iqtisadiyyatının qeyri-müvazinətli xarakterini üzə çıxarmışdır.

Tam məşğulluğun mümkünlüyünü, əməkhaqqının çevik olmasının iqtisadi əsasını qeyd etməklə onun siyasi fenomen olduğunu qeyd etmişdir.

Keynsin ideyaları güman ki, uzun müddət yaşamaqla fundamental iqtisad elminin inkişafında xüsusi rol oynayacaq.

Makroiqtisadi müvazinətin Keyns modelində əsas yeri nemətlər bazarı tutur. Məcmu tələbin aparıcı rola malik olmasının başlıca səbəbi onun pul bazarı ilə qarışlıqlı əlaqədə olduğu ilə bağlıdır. Ona görə də ümumi müvazinətin təmin olunmasında səmərəli tələb müəyyənləşdirici rol oynayır. Bu fikrin əsaslandırılmasına qədər Keyns klassiklərə bir sıra iradlarını bildirir:

-Məşğulluğun səviyyəsi məcmu təkliflə deyil, məcmu tələblə müəyyənləşdirilir. Ona görə də diqqət mərkəzində məcmu tələbin (məcmu xərclərin) kəmiyyətinə təsir göstərən amillər durmalıdır;

-Əmək təklifi real əməkhaqqının funksiyası deyil. Nominal əməkhaqqının aşağı düşməsi əmək təklifini azalda bilər, lakin tam məşğulluğu təmin edə bilməz. Əməkhaqqı yalnız bir yüksələn istiqamətdə dəyişilə bilər. Ona görə də əmək bazarında müvazinət yalnız tam məşğulluq olmadığı şəraitdə mümkündür. Əmək bazarının dövlət tərəfindən tənzimlənməsi və ya güclü həmkarlar təşkilatlarının müdaxiləsi, əməkhaqqının aşağı səviyyəsinin müəyyənləşdirilməsi məcburi işsizliyin uzun müddət ərzində qalmasına səbəb olur.

-İstehlakçıların əmanətə meyillikləri faiz dərəcələri ilə deyil, sərəncamında qalan gəlirin səviyyəsi ilə əlaqədardır. İnvestisiya və əmanətin kəmiyyətləri arasında daima bərabərləşdirici mexanizm mövcud deyil.

-Klassik nəzəriyyənin qiymət və əməkhaqqının çevikliyi haqqındakı müddəaları səhvdir. Çünki hər iki göstəricinin nominal kəmiyyətləri qısa müddət ərzində nisbətən sərt olduğundan bazar tərəddüdlərinə zəif münasibət bəsləyir. Halbuki istehsalın həcmi, məşğulluq, real əməkhaqqı və s. bazar dəyişikliklərinə daha həssas və dəyişkəndir. Əməkhaqqının və qiymətin səviyyələrinin sabitliyi şəraitində digər resursların istehsal xərcləri azalmır. Ona görə də qiymətin aşağı enməsi baş vermir. Qiymət və əməkhaqqının enmədiyi halda məcmu xərclərin azaldılması, buraxılışın real həcminin azaldılmasına səbəb olur.

Beləliklə də, Keyns belə qənaətə gəlir ki, milli iqtisadiyyatın makroiqtisadi müvazinətinin tam məşğulluq şəraitində bərpası, yalnız mümkün variantların biri kimi qiymətləndirilə bilər. Reallıqda isə o yalnız o vaxt müvazinətli vəziyyətdə fəaliyyət göstərə bilər ki, məşğulluq natamam olsun. Ona görə də bazarın çatışmazlıqlarının aradan qaldırılması üçün dövlət müdaxiləsi vacibdir.

Keyns sübut edir ki, tənzimlənməyən iqtisadiyyatda tam məşğulluğa nail olunması olduqca təsadüfi hallarda baş verə bilər. Məcmu tələblə məcmu təklif müvazinətliyi şəraitində buraxılışın müvazinətli səviyyəsi, çox hallarda resursların tam məşğulluğu vəziyyətindəki buraxılışın səviyyəsi ilə uyğun gəlmir. Bunun da əsas səbəbi firmanın investisiya planı ilə ev təsərrüfatının əmanət etmək planlarının uyğun gəlməməsidir. İnvestisiyaya və əmanətə meyillilik müxtəlif iqtisadi agentlər tərəfindən həyata keçirildiyindən və müxtəlif məqsəd və motivlə bağlı olduğundan, onlar külli miqdar amillərin təsirinə məruz qalırlar. Ona görə də onları kəmiyyətlərinin uyğun gəlməsi və makroiqtisadi müvazinətin təmin olunması şərti kimi qəbul etmək olmaz. Qeyd olunanları nəzərə alaraq Keynsin makroiqtisadi müvazinətə dair nəzəriyyəsinin qrafik təsvirini göstərmək olar (şəkil 3).




**Şəkil** 3

Şəkil 3-dən göründüyü kimi, məcmu təklif əyrisi üfüqi formadadır. Çünki qiymətlər enməyə doğru meylli deyillər. Məcmu tələb dəyişkəndir. İstehsalın həcmi aşağı düşür. Beləliklə də, Keyns belə nəticəyə gəlir ki, istehsal olunan əmtəə və xidmətlə, eləcə də məşğulluğun səviyyəsi birbaşa məcmu xərclərin (məcmu tələbin) səviyyəsindən asılıdır. Məcmu xərclər - əmtəə və xidmətlərə sərf olunan vəsaitdir. Məcmu xərclərin əsas ünsürü istehlakdır. İstehlakın səviyyəsi gəlirlərin həcmindən asılıdır. Gəlir, vergilərin ödənilməsindən sonra istehlakla əmanətin cəmindən ibarətdir. Ona görə də istehlakı müəyyən edən amillər, eyni zamanda əmanət üçün də əhəmiyyət daşıyır. Bu məsələyə sonrakı mövzularda daha ətraflı baxılacaq.

Keyns makroiqtisadi müvazinətin təmin olunmasında məcmu tələbin səmərəli olması fikrini irəli sürür. Əslində hər bir makroiqtisadi müvazinətin təmin olunmasının məqsədi istər məcmu xərclər, istərsə də məcmu gəlirlər baxımından səmərəli istifadə olunmasına yönəldilir. Ona görə ki, Keyns səmərəli tələbə iki səviyyədə yanaşırdı:

-istehlaka yönəldilən xərclər;

-investisiyaya yönəldilən xərclər.

Səmərəli tələbə nail olunması yolunu Keyns multiplikator üsulundan istifadə etməkdə görürdü. Multiplikator effekti tələbin səmərəliliyinin artımının, investisiya artımının əlaqəsini əks etdirir. Hər bir investisiya vahidi nəticə etibarı ilə fərdi gəlirə çevrilir ki, onun bir hissəsi istehlaka, digər hissəsi isə əmanətə gedir. Nəticədə tələbin səmərəliliyinin artımı (bütün xərclərlə milli gəlirin artımı) ilkin investisiyanın çoxaldılmış kəmiyyətinə çevrilir. Beləliklə, multiplikator effektinin səviyyəsi birbaşa adamların əldə etdikləri gəlirlərinin hansı hissəsinin istehlaka sərf olunmasından asılıdır. Şəxsi istehlakın artımı, gəlirlərin artımı ilə baş verir. Lakin onların artımı, gəlirlərin artımına nisbətən aşağı səviyyədə qalır. Çünki burada artıq psixoloji qanun işə düşür. Bu qanun isə gəlir artımının bir hissəsinin əmanətə yönəl-

dilməsini tələb edir. Bu isə istehlakın payının məcmu gəlirlərdə azalmasına səbəb olur. İstehlakın məcmu gəlirlərdə payının azalması təbii və daimi xarakter olduğundan, məcmu gəlirlərin digər hissəsi olan investisiyanı qorumaqlarıdır. Bunu isə yalnız dövlət edə bilər. Dövlət xüsusi investisiyaları vergi, pul-kredit siyasəti vasitəsilə qorumaqla, dövlət xərclərini həyata keçirir. Dövlət, beləliklə, «səmərəli tələbin» çatışmazlıqlarını əlavə olaraq dövlət tələbi ilə kompensasiya edir.

Beləliklə, Keyns hesab edir ki, dövlət müdaxiləsi ilə qeyri-müvazinətli iqtisadiyyatı müvazinətli vəziyyətə gətirmək mümkündür.

Bir cəhəti də nəzərə almalıyıq ki, istər klassik, istərsə də Keyns modelində əməkhaqqı və qiymətlə bağlı onların elastik və ya qeyri-elastik olması, nə də ki, təklif əyrisi sırf şaquli şəkildə özünü əks etdirmir. Çünki bəzi hallarda qiymət də, əməkhaqqı da enib-qalxa bilər. Həmçinin iqtisadi resurslardan tam və natamam istifadə olunur. Eləcə də tam və natamam məşğulluq baş verir. Uyğun olaraq bu proseslərin gedişatı ilə milli iqtisadiyyatlarda ÜMM-in, ÜDM-in, milli gəlirin səviyyəsi yüksək və aşağı ola bilər. Həmçinin hər bir makroiqtisadi göstəricinin artımında, sürətində enib-qalxmalar müşahidə olunur. Belə vəziyyətin baş verməsi müasir iqtisadiyyat üçün olduqca xarakterikdir. Çünki bir tərəfdən dünyada gedən qloballaşma prosesi, iqtisadi əlaqələrin genişlənməsi, inteqrasiyalaşmanın dərinləşməsi, digər tərəfdən hər bir milli iqtisadiyyatın daimi inflyasiya, işsizlik və tsiklik vəziyyətlə üzləşməsi makroiqtisadi müvazinətin yaradılmasına, qorunmasına və bərpasına müxtəlif yanaşmaların olmasını əsaslandırır.

## 5.4. Makroiqtisadi müvazinətin Xiks modeli

Makroiqtisadi müvazinətin klassik və keynsçi modelləri ilə yanaşı, müasir iqtisad elmində ayrı-ayrılıqda əmtəə və xidmətlər, pul bazarında baş verən dəyişiklikləri nəzərdən keçirməklə yanaşı, hər iki bazarın bir-birindən qarşılıqlı əlaqəli şəkildə götürüb təhlil olunmasına xüsusi diqqət yetirilir. Makroiqtisadi müvazinətin bu modeli özünü İS-LM formulu kimi əks etdirir. Bu formulu ilk dəfə ingilis iqtisadçısı Con Xiks 1937-ci ildə işləyib hazırlamışdı. Modelin mahiyyəti ondan ibarətdir ki, o, eyni vaxtda hər iki bazarda baş verən müvazinəti və dövlətin makroiqtisadi tənzimləmə vasitələri ilə onun əldə olunması imkanlarının müəyyənləşdirilməsinə imkan verir.

Bir anlığa elmi xidmətin mahiyyətinə nəzər salaq: Con Xiks (1904-1989) Böyük Britaniyada anadan olmuşdur. Oksford Universitetində təhsil almışdır (1922-1926), London İqtisad Məktəbində dərs demişdir (1926-1935). Mançestr Universitetinin (1935-1946) professoru olmuş və yenidən Oksforda qayıtmışdır. C.Xiks mikroiqtisadiyyat üzrə mütəxəssis olsa da, lakin iqtisadi dinamika və pul nəzəriyyələri ilə bağlı elmi mülahizələri onu makroiqtisadi problemlərin bilicisinə çevirmişdir. O, 1939-cu ildə mikroiqtisadiyyat üzrə nəşr etdirdiyi «Dəyər və kapital» əsəri ilə məşhur olmuşdur. Buna baxmayaraq, C.Xiks sonrakı elmi xidmətləri, xüsusən ümumi makroiqtisadi müvazinat və rifah halı nəzəriyyəsinə görə 1972-ci ildə Nobel mükafatına layiq görülmüşdür. Bundan əlavə, Xiksin iqtisadi tsiklə, iqtisadi artıma həsr etdirdiyi əsərləri də mövcuddur.

Xiks Keyns ideyalarından bəhrələnməklə onu çox böyük məharətlə inkişaf etdirə bilmişdir. Xüsusən Keynsin nemətlər bazarında ümumi müvazinətin əldə olunmasını, həm əmtəə, həm də pul bazarlarında eyni vaxtlı əldə olunması modelini İS-LM-i işləyib hazırlamışdır. Onun, həmçinin, iqtisadiyyatın tarixi inkişafının məntiqi barəsində çox

dəyərli tədqiqatları olmuşdur ki, bunlardan əməkhaqqı nəzəriyyəsi, istehlak nəzəriyyəsi, iqtisadi dəyişikliklərin baş verməsi səbəblərinin təhlilini göstərmək olar.

Bu modelin fərqləndirici xüsusiyyətləri ondan ibarətdir ki:

-faizin bazar dərəcələri daxili (endogen) amillərin dəyişməsinə çevrilir;

-əldə olunan müvazinət kəmiyyəti iqtisadi proseslərin dinamikasını əks etdirir;

-belə şəraitdə təkcə pul bazarında deyil, əmtəə bazarlarında baş verən müvazinətli vəziyyətlə əhatə olunur.

Əslində İS-LM modeli bütövlükdə milli iqtisadiyyatın makroiqtisadi səviyyəli əmtəə və xidmətlər, pul, əmək və qiymətli kağızlar bazarında baş verən qarşılıqlı əlaqələrini əks etdirməklə həm daxili (endogen), həm də xarici (ekzogen) amillərin dəyişilməsi nəticəsində əldə olunan müvazinəti göstərir. Beləliklə də, iqtisadiyyatda tətbiq oluna biləcək və ya üstünlük veriləcək həm fiksal, həm də monetar və ya pul-kredit siyasətlərinin səmərəliliklərinin müəyyən olunmasına imkan verəcək. Lakin bu o demək deyil ki, İS-LM modeli fiksal və monetar siyasətlərin eyni vaxtlı tətbiqinin vacibliyini əsaslandırır. Burada bu siyasətlərin tətbiqinin üstünlüyünü əsaslandıran amillər xüsusi rol oynayır. Bu barədə sonrakı fəsillərdə daha ətraflı məlumat veriləcək.

İS-LM modeli, bilavasitə əmtəə və pul bazarlarında baş verəcək müvazinətin: eyni vaxtlı birləşməsi mümkünlüyünü göstərmək və müvafiq siyasətin tətbiqinin səmərəliliyinin qiymətləndirilməsi üçün əhəmiyyətlidir.

Makroiqtisadi müvazinətin klassik və keynsçi modellərinin müqayisəli təhlili nəticəsində C.Xiks belə qənaətə gəlmişdir ki, İS-LM modeli əmtəə və pul bazarının qarşılıqlı asılılıqda olması ilə milli gəlirin faiz dərəcəsinin müxtəlif kombinasiyasını göstərməklə eyni vaxtlı müvazinəti əks etdirir.

İndi isə diqqət yetirək ki, milli gəlirin müvazinətli artımı faiz dərəcələrinin müxtəlif kombinasiyası şəraitində necə baş verir. Hər şeydən əvvəl o asılıdır:

-İS əyrisindən, onun elastiklik və yerdəyişmə amillərindən;

-LM əyrisindən, onun elastiklik və ya yerdəyişmə amillərindən;

-Müvazinətli vəziyyətin dəyişdirilməsi mexanizmindən.

Qeyd olunan amillərin hər biri makroiqtisadi müvazinətə nail olmanın ən ümumi səviyyəli amilləridir. Onların hər biri ayrı-ayrılıqda xüsusi təhlil və araşdırma üçün çox əhəmiyyətli vasitədir. Çünki İS və LM əyrilərinin hər biri müxtəlif amillərin təsiri nəticəsində müxtəlif kombinasiyaların qurulmasına imkan verir.

İS əyrisi, yəni İ (investisiyalar), S (əmanətlər), milli gəlirin (Y) faiz dərəcələrinin (r) elə müxtəlif kombinasiyaları şəraitində mövcud olur ki, bu vaxt onların kəmiyyəti bərabər olur. Nəzərə almaq lazımdır ki, İ-bir qayda olaraq planlaşdırılan investisiya xərclərdir. Deməli, S=İ bərabərliyi ümumiyyətlə iqtisadiyyatda investisiyaların cəminin əmanətlərin cəminə bərabər olduğunu əks etdirsə də, lakin, bu, heç də o demək deyil ki, bu şərt həmişə mümkün olmur. Çünki, əmanət və investisiyaya meyllilik ev təsərrüfatında, firmalarda müxtəlif şəkildə baş verir. Buna da sonrakı mövzularda daha ətraflı toxunacağıq. Ən ümumi şəkildə qeyd etməliyik ki, istər investisiyalar, istərsə də əmanətlər faiz dərəcələrinin dəyişilməsinə olduqca həssasdılar. Məhz bunun nəticəsidir ki, İS əyrisinin hər nöqtəsi əmtəə bazarlarında faiz dərəcələri ilə (r) milli gəlirin (Y) uyğunluğunu əks etdirməklə pul bazarında LM əyrisində baş verən dəyişikliklə əlaqədardır. Çünki, LM əyrisi, bilavasitə pulun likvidliyinə üstünlüyün verildiyi şəraitdə daha elastik olur.

Qeyd etdiyimiz bu mülahizələri qarafik təsvirlə aydınlaşdıraq. Əvvəla ondan başlayaraq ki, İS əyrisi əmtəə

bazarlarında hansı elastikliyə və yerdəyişməyə məruz qalır. Bəllidir ki, real faiz dərəcələri ilə investisiyalar arasında əks mütənasiblik mövcuddur. Ona görə də investisiyaların faiz dərəcələrinin dəyişilməsinə olan həssaslıq qrafik təsvirdə özünü çox aydın şəkildə büruzə verir (şəkil 4.).




**Şəkil 4. Əmtəə bazarında müvazinət**

Şəkil 4-ün a) hissəsində göründüyü kimi, faiz dərəcəsi $r_1$ olduğu şəraitdə planlaşdırılan investisiyanın həcmi $İ_1$ bərabər olacaqdır. Müvafiq olaraq məcmu xərclərin həcmi

$A\Sigma = C + İ$, G-kimi olacaqdır (YS). Deməli, məcmu xərclərin (A) $\Sigma_1$ nöqtəsinin milli gəlirin ($Y_1$) ilkin kəsişdiyi nöqtə makroiqtisadi müvazinəti əks etdirir. Beləliklə, faiz dərəcəsinin $r_1$ bərabər olduğu şəraitdə əmtəə bazarında müvazinət gəlirin $Y_1$ həcmində baş verir. Bu vəziyyət isə 4b şəklindəki A nöqtəsini müəyyənləşdirir. Məcmu tələbin D nöqtəsi ümumi müvazinat şəraitində kənarlaşdığından onun ödənilməsi üçün əlavə milli gəlirin $Y_2$-nin yaradılmasına ehtiyac duyulur. Bunun üçün real vəziyyətin əldə olunması üçün faiz dərəcəsi $r_1$-dən $r_2$-yə endirilir ki, bu da investisiyanın artımına ($İ_1$-dən $İ_2$-yə) səbəb olur. Nəticədə məcmu xərclərin artımı baş verir. Məcmu xərclərin əyrisi $C+İ_1+G$ yuxarıya doğru meyil etməklə $C+İ_2+G$ vəziyyətini alacaq (şəkil 4c). Əmtəə bazarında yeni müvazinət nöqtəsi $\Sigma_2$ bərpa olunacaq. Nəticədə D nöqtəsinə cavab verən müvazinətli məcmu gəlir $Y_2$ əldə olunacaq.

Nəzərə alsaq ki, investisiya multiplikator effektinə malikdir, gəlirin artımı, ($Y_2$-$Y_1$) investisiyanın artımını investisiyanın multiplikatorunun hasili ilə müəyyənləşdirmək olar. Şəkil 4b-də B nöqtəsi üçün $r_2$, $Y_2$-nin əhəmiyyəti görünür.

Xiksin investisiya-əmanət adlandırdığı İS əyrisinin əmtəə bazarındakı müvazinətinə diqqət yetirək. Şəkil 4b İS əyrisinin hər nöqtəsi r və Y-nün müxtəlif kombinasiyalarda uyğunluğunu əks etdirməklə əmtəə bazarındakı müvazinəti göstərir. İS əyrisindən kənarda yerləşən bütün nöqtələr (CD) əmtəə bazarında qeyri-müvazinətli vəziyyəti əks etdirir. Qeyd olunan nöqtələrlə ümumi gəlirlərlə faiz normasını müqayisə edərkən bunun şahidi oluruq.

İS əyrisi müxtəlif meylli ola bilər ki, bu da onun elastikliyinə təsir göstərən amillərdən asılıdır:

-faiz dərəcələrinin dəyişilməsinə olan həssaslıq dərəcəsindən;

-multiplikator effektindən;

-əmanətə olan son hədd meylliyindən;

-istehlaka olan son hədd meylliyindən;

-investisiya tələbinin dəyişilməsindən;

-dövlət xərclərinin səviyyəsindən;

-faiz dərəcələrinin dəyişilməsindən asılı olmayan vergilərdən.

Bu amillərin təsirindən asılı olaraq İS əyrisi məcmu gəlirin (buraxılışın) ümumi şəkildə müvazinətli səviyyəsini müəyyənləşdirə bilmir. Çünki, əmtəə bazarında davamlı müvazinətin olması bilavasitə milli gəlirlə faiz dərəcəsi arasında mövcud olan müxtəlif kombinasiyaların baş verməsindən asılıdır. Belə asılılıq özünü pul bazarında (LM) əks etdirir. Ona görə də Xiks pul bazarını pul kütləsi (L), pul təklifi (M) şəklində götürməklə LM əyrisinin mahiyyətini açıqlamışdı.

Ən sadə şəkildə onu qeyd etmək olar ki, LM əyrisi milli gəlirlə faiz dərəcələri arasındakı müxtəlif kombinasiyalar şəraitində pul kütləsinin pula olan tələbin bərabərliyini əks etdirir: L=M.

Real pul qalığının ona olan tələbin bərabərliyi şəraitində LM əyrisinin qrafik təsvirinə diqqət yetirək. Burada hesab edək ki, real pul kütləsi dəyişilməz qalır. Belə şəraitdə real pul qalığı təklifi $M_s$ şaquli vəziyyət alacaq.




**Şəkil 5. Pul bazarında müvazinət**

LM əyrisindən kənarda yerləşən C və D nöqtələri, pul bazarının qeyri-müvazinətliyini əks etdirir. Bu onunla əlaqədardır ki, faiz dərəcəsinin səviyyəsi və milli gəlirin kəmiyyəti müxtəlifdir. Belə ki, LM əyrisinin solunda yerləşən C nöqtəsi $r_2$ və $Y_1$-lə, D nöqtəsi $r_2$ və $Y_2$ nöqtəsi ilə şərtlənir. Halbuki, LM əyrisi B nöqtəsində $r_2$-nin $Y_2$- yə bərabərliyi şəraitində müvazinətli vəziyyət alır. Buradan da belə qənaətə gəlmək olar ki, LM əyrisinin elastikliyi bilavasitə iki mühüm amildən asılıdır:

-pula tələbin faiz dərəcəsinin dəyişilməsinə olan həssaslığından;

-pula tələbin milli gəlirin həcminin dəyişilməsinə olan həssaslığından.

Bu amillərin təsirinin hər birinin özünəməxsus xüsusiyyətləri var. Faiz dərəcələrin artması pula olan tələbi azaltmaqla LM əyrisində az meyllilik, milli gəlirin həcminin dəyişilməsi zamanı isə LM əyrisində çox meyllilik baş verəcək. Vəziyyətdən asılı olaraq müstəqil şəkildə L və M əyrisində müxtəlif maillik dərəcələri baş verə bilər. Deməli, pula tələb və təklifində dəyişikliklər nöqtəsində paralel sağa aşağı və ya sola yuxarı yerdəyişmələri ola bilər.

LM əyrisində baş verən irəliləmələr asılıdır:

-pul təklifinin dəyişilməsindən və ya müstəqil artmasından;

-pula olan muxtar tələbin artınasından;

-pula olan muxtar tələbin artmasından;

Qrafik təsvir vasitəsilə LM əyrisinin göstərilən amillər əsasında alınış olduğu vəziyyətə diqqət yetirək (şəkil 6.): Hesab edək ki, $Y_1$ gəliri zamanı pula olan tələb, $M_D$-yə pul təklifi isə $Ms_1$-bazarda müvazinətli vəziyyət $\Sigma_1$ nöqtəsində faiz dərəcəsinin $r_1$ olduğu şəraitdə mövcud olmuşdur (6a). Belə qəbul edək ki, antiböhran tələbləri çərçivəsində Mərkəzi Bank nominal pul kütləsini artırır. Lakin gəlirin və qiymətin səviyyəsi əvvəlki vəziyyətdə qalır. Onda real pul təklifi artaraq $M_{s1}$ əyrisi $M_{s2}$ vəziyyətini alacaq. Əgər dəyi-

şilməz gəlir $Y_1$ və pula olan tələb $M_D$ şəraitində pul təklifi artırılırsa, onda pul arasındakı müvazinətin qorunması aşağı səviyyəli faiz dərəcəsinin tətbiqi ilə mümkünləşir, $r_2$. Onda $LM_1$ əyrisi aşağı enməklə $LM_2$ vəziyyətini alacaq (şəkil 6b). Müvafiq olaraq pul təklifi azaldılarsa, onda mövcud gəlir və pula olan tələb səviyyəsində onda müvazinətli faiz dərəcəsi müşayiət olunmaqla $LM_1$ əyrisi yuxarıya doğru yüksələcək.




**Şəkil 6. Pul təklifinin dəyişilməsi ilə LM əyrisindəki irəliləmələr**

İndi isə LM əyrisinin pula olan muxtar tələbin dəyişilməsindən asılı olaraq baş verən irəliləmələrə diqqət yetirək. Qrafik təsvirdə bunu əyani şəkildə müşahidə etmək olar.




**Şəkil 7. Pula olan muxtar tələbin dəyişilməsi ilə LM əyrisindəki irəliləmələr**

Qrafik təsvirə əsaslanaraq hesab edək ki, pul bazarındakı müvazinət $\Sigma_1$ nöqtəsindədir və müvazinətli faiz dərəcəsi $r_1$-ə bərabərdir (şəkil 7a). Şəkil 7-nin b hissəsində bu müvazinət $LM_1$ uyğun gəlir. Nəzərə alsaq ki, maliyyə böhranı şəraitində qiymətli kağızlara olan tələb sürətli şəkildə aşağı düşür və riskin səviyyəsi yüksəldiyindən muxtar pula olan tələb $M_{D1}$ nöqtəsindən $M_{D2}$ nöqtəsinə qədər irəliləyir. Müvazinət nöqtəsi $\Sigma_1$ vəziyyətindən $\Sigma_2$ vəziyyətinə daxil olur. Yeni müvazinətli vəziyyətin baş verməsi o halda baş tuta bilər ki, $Y_1$-in buraxılış həcmi daha yüksək $r_2$ faiz dərəcəsi ilə dəyişilməz qalır (şəkil 7b). Belə vəziyyətdə $LM_1$ əyrisi vəziyyətini dəyişərək $LM_2$ vəziyyətinə doğru hərəkət edir.

Pula olan muxtar tələbin azalması və ya artması LM əyrisinin aşağı və yuxarıya doğru meylliyinə səbəb olur.

Ayrı-ayrılıqda əmtəə və pul bazarında müvafiq olaraq İS və LM əyrilərinin hərəkətini və onların müvazinətli nöqtələrindəki xüsusiyyətlərini izlədik. Gördük ki, həm İS,

həm də LM əyrilərində baş verən yerdəyişmələr və elastiklik səviyyələri müxtəlif amillərlə əlaqədardır. Bundan sonra isə bizim üçün daha maraqlı görünən və makroiqtisadi model formasını ala bilərək İS və LM əyrilərini birləşdirməklə təhlilini aparaq. Bu birləşmə ilkin olaraq İS və LM əyrilərinin kəsişməsi nöqtəsi baş verməklə makroiqtisadi müvazinəti əks etdirir. Əmtəə və pul bazarlarında birgə müvazinətin müəyyənləşdirilməsi üçün bir qrafik təsvirdə hər iki əyrini daxil etmək lazımdır (şəkil 8.).




**Şəkil 8. İS – LM modeli**

İS əyrisinin və LM əyrisinin Σ nöqtəsindəki kəsiyi özünü İS-LM makroiqtisadi modeli kimi əks etdirir. Σ nöqtəsi makroiqtisadi müvazinətin elə bir mövqeyini əks etdirir ki, belə şəraitdə həm əmtəə, həm də pul bazarı müvazinətli vəziyyətdə olur. Makroiqtisadi müvazinətin İS-LM modeli çərçivəsində əldə olunması hələ də tam məşğulluğa nail olunması demək deyil. Qrafik təsvirdən göründüyü kimi, Σ müvazinət nöqtəsinin solundakı $A_1$ $C_r$ nöqtələri istər-istəməz həm İS əyrisinin, həm də LM əyrisinin dəyişilməsinə təsir göstərir. Ona görə də İS-LM modelinin qorunması bi-

lavasitə hökumətin həyata keçirəcəyi makroiqtisadi sabitləşmə siyasətindən asılı olacaqdır. Burada əsas yeri tutacaq:

-makroiqtisadi tənzimləmə vasitələrindən istifadə;

-fiskal siyasətə üstünlüyün verilməsi;

-monetar siyasətə üstünlüyün verilməsi;

-fiskal və monetar siyasətin sintezləşdirilməsi.

Bütün bu deyilənləri yekunlaşdırıb demək olar ki, makroiqtisadi modellərin mahiyyətini dərk etməklə, iqtisadi problemlərin həlli istiqamətində zəruri iqtisadi siyasətlərin işlənib hazırlanması və tətbiq olunması imkanlarını genişləndirir.

# VI FƏSİL. MƏCMU TƏLƏB VƏ MƏCMU TƏKLİF

**6.1. Məcmu tələb və məcmu təklif milli iqtisadiyyatın fəallıq səviyyəsi kimi**
**6.2. Məcmu tələb**
**6.3. Məcmu təklif**
**6.4. Məcmu tələb və məcmu təklifin müvazinət modeli**

## 6.1. Məcmu tələb və məcmu təklif milli iqtisadiyyatın fəallıq səviyyəsi kimi

Biz əvvəlki fəsildə bütövlükdə müvazinət haqqında məlumat əldə etmişdik. Onun həm tədrici, həm də ümumi formada olduğunu qeyd etmişdik. O cümlədən ona dair mövcud olan klassik, keynsçi təklif iqtisadiyyatı, institusional baxışları müəyyən səviyyədə araşdırmışdıq. Həmçinin mikroiqtisadiyyat bölməsində tələb və təklif arasında tarazlığın təmin olunması şərtlərinə diqqət yetirməklə ayrı-ayrı bazar subyektərinin davranışını öyrənmişdik. Lakin makroiqtisadi səviyyədə məcmu tələblə məcmu təklif arasında müvazinətin yaradılmasına, onu şərtləndirən amillərin mahiyyətinin açıqlanmasına diqqət yetirəcəyik. Ən başlıca cəhət kimi nəzərə almaq lazımdır ki, məcmu tələb və məcmu təklif ən sadə formada milli iqtisadiyyatın makromüvazinətli vəziyyətini əks etdirməklə, onun mövcud **dəyişikliklər** şəraitində fəallıq səviyyəsini əks etdirir. Bəllidir ki, hər bir milli iqtisadiyyatın fəallılığı iqtisadi artım amilləri çərçivəsində ÜDM-in həcminin yüksəldilməsi ilə xarakterizə olunur. Digər tərəfdən daxili və ya xarici konyunkturanın dəyişilməsi nəticəsində və yaxud təbii fəlakətlə bağlı ÜDM-in həcminin azalması, işsizliyin yüksəldilməsi və qiymətlərin artması baş verir. Bunu dünya bazarında neftin qiymətinin 2007-2010-cu illərdəki kəskin dəyişilməsi ilə əlaqədar müşahidə etmişik. Belə şəraitdə hər bir milli iqtisadiyyatda dəyişikliklər və daha çox **enib-qalxmalar** baş verir. (Enib-qalx-

malara bəzi iqtisadi ədəbiyyatlarda iqtisadi flukturasiya da deyilir). Belə hallarda iqtisadi vəziyyətin yaxşılaşdırılması üçün hökumət müəyyən təcili və təxirəsalınmaz tədbirlər görməyə başlayır. Çünki hökumət müəyyən **iqtisadi alətlərə** malikdir ki, onlardan istifadə etməklə makroiqtisadi mühiti yaxşılaşdıra bilir və milli iqtisadiyyatın fəallığını təmin etmək iqtidarında olur. Əslində iqtisadi alətlərdən istifadə etməklə **iqtisadi dəyişikliklərə** nail olmağa imkan verir. İqtisadi alətlərin hökumətin nəzarətində olması və onun tətbiqi **iqtisadi siyasət** forması kimi bir neçə makroiqtisadi **məqsədin** dəyişilməsinə imkan verir. Yəni hökumət nəzarətində olan iqtisadi alət kimi:

- büdcə-vergi siyasətini;
- pul-kredit siyasətini;
- sosial siyasəti;
- xarici iqtisadi siyasəti dəyişməklə müəyyən qısamüddətli, daha sonra isə uzunmüddətli dəyişikliklərə nail ola bilir. Beləliklə, dövlət milli iqtisadiyyatın daha əlverişli şəraitdə fəaliyyət göstərməsinə **imkan** yaradır. Yəni ÜDM-un buraxılışını stabil qiymət və məşğulluq səviyyəsi ilə uzlaşdıra bilir. Bu baxımdan iqtisadçılar makroiqtisadi nəzəriyyənin mərkəzi aləti olan **məcmu tələb (AD)** və **məcmu təklif (AS)** anlayışlarını irəli sürmüşlər. Makroiqtisadiyyatın bu alətlərinin hər birinin ayrı-ayrılıqda, həm də qarşılıqlı əlaqəli şəkildə təhlili **milli buraxılışın (ÜDM) məşğulluğun və qiymət səviyyəsinin** nə dərəcədə **funksional asılılığa** malik olduğunu görmək olar. Həm də bir sıra suallara cavab tapmaq olar:

- nəyə görə idxal ixraca görə sürətlə artır?
- qiymətlərin enib-qalxma səbəbləri nədir?
- nəyə görə ümumi qiymət səviyyəsi müəyyən dövr ərzində nisbətən sabit qalır başqa dövrlərdə kəskin dəyişir?
- daxili bazarda müəyyən əmtəələrin tarazlı kəmiyyətlərinə necə nail olmaq olar?
- milli buraxılışın müəyyən müddət ərzində real həcminin azalıb və ya çoxalmasına nə səbəb olur?

Bütün bu suallara o vaxt cavab tapmaq olar ki, bütün istehsal nəticələri bir aqreqat göstəricisinin məzmununda birləşdirilsin, həmçinin saysız-hesabsız məhsulların fərdi qiymətləri (ayaqqabının, neftin, buterbrotun, qutabın, traktorun, kompyuterin və i.a) bir məcmu qiymətdə və ya **qiymət səviyyəsində** əks olunsun. Bütün müxtəlif əmtəə və xidmətlərin qiymətinin bir qiymət səviyyəsində əks olunması və bütün istehsal olunan əmtəə və xidmətlərin kəmiyyətinin **real milli istehsal həcmində** birləşdirilməsi özünü aqreqat göstəricisi kimi «məcmu tələb və məcmu təklif» modelində əks etdirir.

Milli iqtisadiyyatda enib-qalxmaların müşahidə olunması ümumi bir haldır. Lakin bu enib-qalxmaların kəskin xarakter almaması üçün məcmu tələblə məcmu təklifin müvazinətli vəziyyətdə olmasının nəzərə alınması olduqca vacibdir. Çünki qiymət səviyyəsinin kəskin artması milli buraxılışın ümumi həcminin artımını qat-qat üstələyirsə, onda cəmiyyət üzvlərinin həyat səviyyəsində yaxşılaşma müşahidə olunmayacaq. Bir qayda olaraq iqtisadi artım, cəmiyyətin hər bir üzvünün həyat səviyyəsinin yaxşılaşmasında əks olunmalıdır. XXI əsrin birinci onilliyi ərzində Azərbaycan iqtisadiyyatında ÜDM-lə ölçülən milli istehsalın həcmi böyük sürətlə artmışdır. Lakin ÜDM-in artım sürətində onilliyin ayrı-ayrı illərində kəskin fərqlər müşahidə olunmuşdur. Belə ki, onilliyin ən yüksək artım sürəti 34,5%, ən aşağı artım sürəti isə 3,5% olmuşdur. Belə vəziyyət ÜDM-in istehsalında endogen və ekzogen amillərin rolundan, qiymət səviyyəsindən və iqtisadi resursların potensial istifadə olunmasından xəbər verir. Eyni zamanda iqtisadiyyatın bütün sektorları bərabər səviyyəli fəaliyyət göstərmək imkanına malik olmamışlar. İqtisadiyyatın müəyyən sahələrində baş vermiş iqtisadi fəallıq digər sahələrdə müşahidə olunmamışdır. Bu da milli iqtisadiyyatda enib-qalxmaların mövcudluluğunu əks etdirir. Bəllidir ki, əmtəə və xidmətlərin vaxtında reallaşması, növbəti illərdə

istehsalın həcminin azalmasına və işsizliyin meydana gəlməsinə səbəb olur. Ümumiyyətlə, ÜDM-in həcminin enmələr şəraitində azalması, işsizliyin artması iqtisadiyyatda tənəzzülün olduğunu göstərir. Belə tənəzzülə adətən **resessiya** deyilir. Resessiya şəraiti, böhrandan fərqli olaraq iqtisadi fəallığın qorunmasına səbəb olmaqla, müəyyən yüksəlişə təkan verəcək mühit formalaşdırır. Resessiya şəraiti qısamüddətli xarakter alırsa, onun uzunmüddətli xarakter almaması üçün məcmu tələb – məcmu təklif modelindən istifadənin zəruriliyi meydana gəlir. Deməli, qısa müddətli qalxıb-enmələr şəraitində milli iqtisadiyyatın fəallıq səviyyəsinin qorunması bir tərəfdən məcmu tələb və məcmu təklifin müvazinətliliyinin təmin olunmasına və məcmu təklifin uzunmüddətli artmasına, makroiqtisadi mühitin yaradılmasına imkan yaranır.

İlbəil təkrar olunan qalxıb-enmələr demək olar ki, bütün dünya ölkələrində müşahidə olunur. Lakin enib-qalxmalar şəraitində, milli iqtisadi fəallığın qorunması şəraitində və ya belə vəziyyətdə dövlətin tətbiq etdiyi iqtisadi alətlər müxtəlifdir. Məsələn, dünya maliyyə böhranının ilk illərində ABŞ-da ÜDM-in artım surəti 0,5% təşkil edirdisə, bu rəqəm ÇXR-də 9,5% təşkil etmişdir. Bu da milli iqtisadiyyatın enmə-qalxmalar şəraitində fəallığının müxtəlifliyini əks etdirir. Belə şəraitdə makroiqtisadi dəyişiklikləri əhatə edən göstəricilər demək olar ki, **ardıcıl,** zəncirvari şəkildə dəyişilir. Əgər resessiya zamanı ÜDM-in real həcmi azalırsa, onda şəxsi gəlirlərin, sahibkar mənfəətinin faiz dərəcələrində aşağı düşməsi baş verəcək. Həmçinin istehlakçı xərcləri, investisiyanın həcmi, pərakəndə ticarətin həcmi, daşınmaz əmlakın qiyməti də aşağı düşəcək. Bu isə iqtisadi tənəzzüldən xəbər verir. Lakin qalxıb-enmələr makroiqtisadi dəyişənlərə **vaxt** etibarı ilə müxtəlif səviyyədə təsir göstərir. Tutaq ki, əgər şəxsi gəlirlərin azalması ilə istehlakçının əmanətə olan son meylliyini azaldaraq son istehlak meyilliyini artırmaqla, onun almaq istədiyi mebelin, avtomobilin,

tozsoranın və s. olan tələbatının ödənilməsi vaxtını uzadacaq. Lakin investisiya qoyuluşlarının azalması isə yeni əsas fondların azalmasına, yaşayış binalarının tikintisinin məhdudlaşdırılmasına, əmtəə-material ehtiyatlarının həcminin azaldılmasına gətirib çıxaracaq. Əlbəttə, digər dəyişənlərin qısamüddətli enib-qalxmalar şəraitində makroiqtisadi prosesə olan təsirini təhlil etsək, onda daha konkret nəticələrə gələ bilərik. Deməli, iqtisadi hadisələrin konkret milli iqtisadiyyat çərçivəsində tədqiqi, onun qısa və uzun dövrlər üçün kəsb etdiyi xüsusiyyətləri üzə çıxarmağa imkan verəcək, xüsusən də iqtisadi reallığı daha canlı əks etdirən milli iqtisadiyyatın fəallıq səviyyəsini qısa bir müddət ərzində əks etdirən bir iqtisadi model kimi məcmu tələblə məcmu təklifin tədqiqinə böyük ehtiyac duyulur.

İndi isə bir qədər məcmu tələblə məcmu təklifin makroiqtisadi proses kimi meydana gəlməsi tarixini yada salaq. Necə olmuşdur ki, müxtəlif makroiqtisadi dəyişənlər arasında buraxılışın, qiymətin və işsizliyin səviyyələri arasında əlaqədə meydana gəlmişdir. Belə bir nəticəyə iqtisadçılar makromüvazinətə dair klassik və keynsçi nəzəriyyələrin müqayisəli təhlilindən sonra gəlmişdilər. Belə ki, **makroiqtisadi müvazinətin əldə olunması** fikrinə əsaslanaraq iqtisadçılar o vaxt belə qənaətə gəlmişlər ki, **məcmu buraxılışla ümumi qiymət səviyyəsi uyğun gəlir**. Yəni nə alıcılar, nə də ki, satıcılar öz alacaqları, satacaqları həcmi və qiymət səviyyəsini dəyişməz saxlayırlar. Qrafik olaraq qeyd olunan vəziyyəti belə təsvir etmək olar.




**Şəkil 1. Məcmu tələblə məcmu təklifin müvazinəti**

Təsvirdən göründüyü kimi, AD əyrisi müxtəlif qiymət səviyyəsində məcmu xərcləri, digər amillərin sabit qaldığını, AS əyrisi isə bərabər şəraitdə müxtəlif qiymətlərlə firmaların nə qədər nemət sata biləcəklərini əks etdirir. Belə şəraitdə milli buraxılışla ümumi qiymət səviyyəsinin bərabərliyi, Σ nöqtəsində məcmu tələblə məcmu təklifin kəsişməsində əks olunur. Bu o deməkdir ki, Σ nöqtəsinə cavab verən firmaların istehsal həcmləri ilə ev təsərrüfatı və digər alıcıların mövcud qiymət səviyyəsi ilə almağa hazırdırlar. Göründüyü kimi, milli buraxılışın həcmi və ümumi qiymət səviyyəsi məcmu təklif və məcmu tələb kimi əks olunur.

Məcmu tələb – bu istehlakçıların, istehsalçıların və dövlətin qiymət səviyyəsindən asılı olaraq xərclərin məbləğidir. Daha doğrusu, milli iqtisadiyyatda fəaliyyət göstərən bütün təsərrüfat subyektlərinin cəmi xərcləridir.

Məcmu təklif - bu ölkə müəssisələrinin mövcud dövr ərzində istehsal etdiyi məcmu əmtəə və xidmətlərin kəmiyyətidir. Başqa sözlə, milli iqtisadiyyatın potensial buraxılışından və qiymət səviyyəsindən asılı olaraq təqdim olunan əmtəə və xidmətlərin cəmi kəmiyyətidir.

Beləliklə də biz gördük ki, enib-qalxmaların qısamüddətli dövr ərzində milli iqtisadiyyatda **iki dəyişəni** mövcuddur:

- ÜDM-in real həcmi ilə müəyyən olunan əmtəə və xidmətlərin həcmi;
- İndeks vasitəsilə ölçülən istehlak qiymətləri.

Bu iki dəyişən arasında əlaqəni tədqiq etməklə aydın görünür ki, şaquli ox üzərində əks olunan qiymətlərin ümumi səviyyəsi ilə üfüqi ox üzərində əks olunan əmtəə və xidmətlərin ümumi miqdarının bərabərlik səviyyəsi nəticə etibarı ilə məcmu tələblə məcmu təklifin müvazinətli vəziyyətə gətirilib çıxarılmasına səbəb olur. Beləliklə də, makroiqtisadi təhlil üçün zəruri görünən məcmu tələb və məcmu təklif modelinin əhəmiyyət daşıdığını görürük.

## 6.2. Məcmu tələb

Məcmu tələb bütün mümkün qiymətlər səviyyəsində istehlakçıların, istehsalçıların, dövlətin, xaricilərin milli istehsalın real nəticələrinin həcmini almaq istəyidir. Belə şəraitdə qiymətlərin səviyyəsinin nə qədər aşağı olmasından asılı olaraq milli istehsalın real həcminin daha çox həm ölkə, həm də xarici alıcılar almaq arzusunda olacaq. Əksinə qiymətin səviyyəsi nə qədər yüksək olarsa, onda almaq istəyində olanların sayı azalacaq.

Qiymətin səviyyəsi ilə milli iqtisadiyyatın real həcmi arasında əks əlaqə mövcuddur. Bu əlaqənin məcmu tələbin həcminə olan təsirini müəyyənləşdirməkdən ötrü ilk növbədə məcmu tələbin ünsürlərini fərqləndirmək lazımdır.

Açıq iqtisadiyyat şəraitində məcmu tələb özünü məcmu xərc şəklində əks etdirir:

- istehlakçı xərci (C);
- investisiya xərcləri (İ);
- dövlət xərcləri (G);
- xalis ixrac (NX).

Məcmu tələbin mahiyyətini məcmu tələb əyrisi vasitəsilə aydınlaşdırmaq olar. Yeri gəlmişkən, bu ifadəni məcmu təklifə də aid etmək olar. Artıq biz enib-qalxmalar şəraitində məcmu tələb əyrisi ilə məcmu təklif əyrisinin müvazinətliliyini əks etdirən qrafik təsviri ilə tanışıq. Qeyd etməliyik ki, **məcmu tələb əyrisi** qiymətlərin mümkün səviyyəsində ev təsərrüfatının, firmaların, dövlətin, xaricilərin milli istehsalın real həcminin alışını göstərir. **Məcmu təklif əyrisi** isə qiymətlərin hər bir səviyyəsində istehsal olunmuş əmtəə və xidmətlərin kəmiyyətinin satışını əks etdirir.

Hər iki məcmu tələb və məcmu təklif əyrilərini tədqiq etməzdən əvvəl vacib görünən bir cəhəti nəzərdən qaçırmaq olmaz. Bu ondan ibarətdir ki, mikroiqtisadi səviyyədə tanış olduğumuz tələb əyrisi ilə (DD) təklif əyrisini (SS), məcmu tələb əyrisindən (AD) və təklif əyrisindən (AS) fərqləndirmək lazımdır. Əgər mikroiqtisadi tələb və təklif əyriləri dəyişilən milli gəlirin və ayrı-ayrı nemətlərin qiymətlərin **daimiliyi** şəraitində ayrı-ayrı məhsulların kəmiyyət və qiymətini əks etdirirsə, lakin məcmu tələb və məcmu təklif əyriləri isə **dəyişilməyən** pul kütləsi, büdcə-vergi, kapital ehtiyatları şəraitində müəyyən məcmu buraxılış və ümumi qiymət səviyyəsini əks etdirir. Bu makro əyrilər vasitəsi ilə vergilərin məcmu milli buraxılışa və bütün qiymətlərin hərəkətinə olan təsirini müəyyən etmək olar. Mikroiqtisadi əyrilər vasitəsilə isə taxıl məhsullarına vergilərn artırılması heyvan saxlayanların sayının dəyişilməsinə səbəb olacaq. Zahirən eyni görünən mikro və makroiqtisadi səviyyəli əyrilər, iqtisadi hadisələrin təhlil və izahında tamam fərqli nəticələrə gəlməsinə imkan verir. Məcmu tələbin özündə və

kəmiyyətində baş verən dəyişikliklər barədə ətraflı məlumatı məcmu tələb əyrisi vasitəsilə əldə etmək olar. Çünki, **məcmu tələb əyrisi** qiymətlərin hər bir səviyyəsində əmtəə və xidmətlərə olan **tələb** haqqında məlumat verir. Qrafik təsvirlə bu vəziyyəti daha aydın görmək olar.




**Şəkil 2. Məcmu tələb əyrisi**

Məcmu tələb əyrisinin belə vəziyyəti azalan, mənfi və ya arzuolunmaz əyri kimi özünü göstərir. Bu o deməkdir ki, qiymətlərin ümumi səviyyəsinin aşağı enməsi, əmtəə və xidmətlərə olan tələbi artırır. Əmtəə və xidmətlərə olan tələbin həcmi ilə qiymət səviyyəsi arasında olan əks əlaqənin mahiyyətini məcmu tələbin ünsürləri olan məcmu xərclərin hərəkəti vasitəsilə aydınlaşdırmaq olar. Nəzərə alsaq ki, real buraxılışın həcmi özünü ÜDM (Y) kimi təqdim edir. Onda məcmu tələb istehlak (C), investisiya (İ), dövlət alışlarından (G) və xalis ixrcın (NX) cəmi formasını alır. Yəni

$$Y=C+İ+C+NX$$

İndi isə məcmu tələbi xarakterizə edən hər bir xərc elementinə ayrı-ayrılıqda diqqət yetirməklə onun qiymət səviyyəsindən asılılığını müşahidə edək. Görəcəyik ki, dövlət

xərcləri və ya alışları istisna olmaqla, məcmu tələbin istehlak, investisiya və xalis ixrac qiymətlərinin səviyyəsi ilə əlaqədardır. Deməli, dövlət alışları üçün qiymət səviyyəsi bir o qədər əhəmiyyətli görünməsə də, məcmu tələbin digər xərc elementləri üçün daha çox əhəmiyyətlidir. Çünki dövlətin əmtəə və xidmətlərə yönəldilən xərcləri, qiymət səviyyəsindən asılı olmayaraq **daimi** xarakter daşıyır. Beləliklə, biz görürük ki, məcmu tələb əyrisinin azalan, mənfi və ya arzuolunmaz meyli qiymət səviyyəsi ilə birbaşa əlaqədar olan bir neçə xərc effekti ilə əlaqədardır:

- istehlak – sərvət effekti ilə;
- investisiya – faiz dərəcəsinin effekti ilə;
- xalis ixrac – valyuta məzənnəsi effekti ilə.

**İstehlak–sərvət effektinin** izahını ondan başlamalıyıq ki, istehlaka yönəldilən xərc kimi nəzərdə tutulan pulun real kəmiyyəti daima dəyişən kəmiyyətdir. Bu əmtəə və xidmətlərə olan qiymət səviyyəsindən asılıdır. Pulun alıcılıq qabiliyyəti və xərclənən kəmiyyəti qiymət səviyyəsindən asılı olaraq dəyişilir. Əgər əmtəə və xidmətlərin qiyməti aşağı düşərsə, onda pulun alıcılıq qabiliyyəti yüksəlir. Onda hər bir istehlakçı daha çox əmtəə və xidmətlər əldə edir. Bu o deməkdir ki, qiymətlərin ümumi səviyyəsinin aşağı düşməsi istehlakçının daha çox nemət və sərvət əldə etmək imkanını artırır. Belə bir vəziyyətin davam etməsi istehlakçıların əlavə xərclərə yol vermək imkanını artırır. Yəni qiymətlərin ümumi vəziyyətinin aşağı düşməsi ilə istehlakçılarda sərvət effekti kimi müşahidə olunan əmtəə və xidmətlərə olan məcmu tələbin həcmini daha da artırır.

**İnvestsiya və faiz dərəcəsinin effekti.** İstehlak xərci kimi investisiya faiz dərəcəsinin dəyişilməsindən asılı olaraq məcmu tələb əyrisinin arzuolunmaz meylinin baş verməsinə səbəb olan amil kimi çıxış edir. Bu o vaxt baş verir ki, qiymət səviyyəsinin artması pulun miqdarına olan tələbi dəyişdirəcəkdir. Yəni qiymət artımı ilə ev təsərrüfatı əmtəə və xidmətlərin alışına daha çox pul xərcləməli olacaqlar. Hal-

buki, qiymətin azaldığı şəraitdə onlar az pul xərcləməklə nağd pulun bir hissəsini borc vermək imkanına malik idi. İstiqrazların alınmasına, əmanət yatırımlarına olan meyil yüksələcəkdir. Çünki faiz dərəcələrinin əldə olunması imkanı meydana gəlmişdir. Banklarda belə şəraitdə kreditlərin həcmini genişləndirəcəklər. Ev təsərrüfatında pulu faiz gətirən gəlirə çevirmək üçün banka müraciət etməli olacaqlar. Faiz gətirən gəlir kimi pul təklifinin artması faiz dərəcələrinin aşağı düşməsinə səbəb olacaqdır. Aşağı faiz dərəcələri investisiya mühitinin fəallaşmasına gətirib çıxaracaqdır.

Firmalar, yeni istehsal və xidmət sahələrinin tikintisinə, əlavə kapital ehtiyatlarının alınmasına olan meyli artacaq və onlar ev təsərrüfatı yeni yaşayış binalarının tikintisinə, əlavə yaşayış sahələrinin genişləndirilməsinə vəsaitlərini yönəldəcəklər. Deməli, qiymət səviyyəsinin aşağı düşməsi, faiz dərəcəsinin aşağı enməsinə səbəb omaqla, həm də investisiya əmtəələrinə olan tələbi artırmaqla, bütövlükdə əmtəə və xidmətlərə olan tələbi yüksəldəcəkdir.

**Xalis ixrac və valyuta məzənnəsinin effekti.** Azərbaycanda əsrin müqaviləsindən sonra neft hasilinə olan bir çox xarici investorların marağı xeyli artmışdır. Dünyanın aparıcı şirkətləri öz kapitallarını daha gəlirli sahə kimi neft sektoruna yerləşdirməklə, xarici valyuta kimi dollar, avro, funt-sterlinq təklifi öz təsirini daxili bazarda göstərəcəkdir. Çünki, xarici ölkənin milli pul vahidi kimi manatın təklifini azaldacaqdır. Bir tərəfdən yerli əhalinin xarici valyutanın dönərliyinə olan inamı ilə onun alınmasına üstünlüyün verilməsi, digər tərəfdən xarici ticarətdə dönərli valyutadan istifadə olunması ilə milli manat vahidinin təklifi ucuzlaşacaqdır. Bunun nəticəsində istehsal olunan əmtəələr nisbətən ucuz olacaqdır. Xalis ixracın (ixrac və idxal arasındakı fərq) həcmi artacaqdır. Lakin ixrac və idxalın strukturundakı fərq xalis ixracın səviyyəsinə təsir göstəcəkdir. Tutaq ki, ölkəmizin ixrac strukturunda neft və neft məhsullarının üstünlük təşkil etməsi xalis idxalın artımını əsaslandıracaq.

Bu o vaxta qədər davam edəcək ki, qeyri-neft sektorunun payı ixrac strukturunda layiqli yer tuta bilsin. Hər halda xalis idxalda olan tələbin də yüksəldilməsini əsaslandıracaq ki, bu da məcmu tələb əyrisinin meylliyinə birbaşa təsir göstərəcək.

Beləliklə də, biz görürük ki, məcmu tələb əyrisinə sərvətin artımı effekti, faiz dərəcəsinin aşağı düşməsi effekti, milli valyutanın mübadilə məzənnəsi effekti təsir göstərir. Bu effektlər özünü qiymətlərin aşağı düşdüyü şəraitdə baş verir. Lakin, bu məcmu tələb əyrisinin enən, arzuolunmaz meyli olduğundan bir sıra amillər mövcuddur ki, onlar məcmu tələbin enmə meylinin qarşısını alır və onun fəal hərəkətini təmin edir. Bu amillərə aiddir:

- istehlak enib-qalxmaları ilə əlaqədar dəyişiklik;
- investisiya həcmi ilə əlaqədar dəyişiklik;
- dövlət alışlarının həcmi ilə əlaqədar baş verən dəyişiklik;
- xalis ixracla əlaqədar dəyişiklik.

İndi isə bu amillərin məcmu tələb əyrisinin müsbət meylliliyinə diqqət yetirək.

**İstehlak enib-qalxmaları** ilə əlaqədar olan dəyişiklik elə istehsal enib-qalxmaları dövrü ilə əlaqədardır. Enmələr şəraitində əmtəə və xidmətlərin alınmasına olan meyil aşağı enir, qalxmalar şəraitində isə onların alınması stimullaşır. Fərqli cəhət ondan ibarətdir ki, istehlakçılar ərzaq və qeyri-ərzaq məhsullarına olan meyli dəyişir. Həmçinin banklara fond bazarlarına üz tutmalarında da dəyişiklik baş verir. Enmələr şəraitində qənaətçilik barəsindəki düşüncələr, qalxmalar zamanı xərcləmək düşüncələrilə əvəz olunur. Nəticədə istehlak xərcləri əmtəə və xidmətlərin alınmasına yönəldilir və məcmu təklif əyrisi enmədən sağa doğru meyil edir.

**İnvestisiya həcmi** ilə əlaqədar dəyişiklik barədə onu qeyd etmək olar ki, bu, qiymət səviyyəsindəki enib-qalxmalarla əlaqədardır. Hətta qiymətin qalxdığı şəraitdə hər hansı əmtəəyə olan tələbatın artması, tutaq ki, informasiya

tutumlu əl telefonlarında olan tələbin artması həmin firmanın daha məhsuldar texnologiyaya malik olması üçün əlavə investisiya resurslarını xərcləməyə vadar edəcək. Belə şəraitdə əmtəə və xidmətlərə olan tələb artdığına görə məcmu tələb əyrisi də sağa doğru meyil edəcəkdir. İnvestisiya xərclərinin dəyişilməsinə bir neçə amil təsir göstəirir ki, onların nəzərə alınması məcmu tələb əyrisinin meylliyini əsaslandırır. Bu amillərə aiddir:

- faiz dərəcələri;
- investisiyadan gözlənilən mənfəətin səviyyəsi;
- texnologiyadan və əlavə istehsal güclərindən istifadə.

**Dövlət alışlarının həcmi** ilə əlaqədar baş verən dəyişikliklər məcmu tələb əyrisinin arzuolunan meylinin qorunmasının əsas amilidir. Tutaq ki, ölkənin iri şəhərlərində, paytaxda olduğu kimi körpülər salınsın, onda qiymətlərin verilmiş səviyyəsindən asılı olmayaraq əmtəə və xidmətlərə olan məcmu tələb əyrisi sağa doğru meyil edəcəkdir.

**Xalis ixracla** əlaqədar dəyişikliklər barədə onu demək olar ki, enib-qalxmalar şəraitində xalis ixrac kəmiyyətində dəyişikliklər baş verir. Bu proses qlobal maliyyə-iqtisadi böhranı şəraitində daha çox əks etdirmişdir. Bütün ressesiya dövrü keçmiş ölkələrin iqtisadiyyatında xalis ixracın mənfi meylli olmasına səbəb olmuşdur. Bu baxımdan məcmu tələb əyrisi sola meyil etmişdir. Lakin dünya ölkələrində 2010-cu ildən iqtisadi yüksəlişin baş verməsi, iqtisadi əlaqələrdə irəliləyiş baş vermiş və nəticədə əmtəə və xidmətlərin həcminin çoxalmasına səbəb olmuşdur ki, bu da məcmu tələb əyrisinin sağa meylliyini artırmışdır.

Beləliklə də qənaətə gəlmək olar ki, istehlak, investisiya, dövlət xərclərinin və xalis ixrac həcminin dəyişilməsindən asılı olaraq məcmu tələb əyrisinin sola və ya sağa meyl etməsinə səbəb olur.

## 6.3. Məcmu təklif

Məcmu tələb əyrisindən fərqli olaraq məcmu təklif əyrisi **artmağa doğru** meyllidir. Bu o deməkdir ki, (məcmu tələbin bütün determinatorlarının sabitliyi şəraitində) qiymətlərin hər bir şəraitində firmalar əmtəə və xidmətləri istehsal etməklə onları satırlar. Qiymətlərin səviyyəsinin artımı ilə istehsalçılar məhsullarını, onların reallaşa biləcəyi mümkünlüyünü nəzərə alaraq istehsalın həcmi və miqyasını genişləndirirlər ki, bu məcmu tələbin artan meylliyini əsaslandırır.

Məcmu təklif əyrisinin əsas mahiyyəti verilmiş və ya mövcud qiymət səviyyəsində nə qədər məhsul istehsalının kəmiyyətini əks etdirməkdən ibarətdir. Məcmu təklif əyrisi qiymətin səviyyəsi ilə təklifin həcmi arasındakı əlaqədən asılı olaraq dəyişildiyindən onun qısa və uzun vaxt üçün alınmış olduğu vəziyyəti nəzərə almaq lazımdır. Çünki qısa vaxt ərzində o müsbət meylli, lakin uzun müddət üçün şaquli vəziyyət alır. Qısa müddət ərzində məcmu təklif əyrisinin müsbət meylliyi verilmiş qiymət səviyyəsindən və milli istehsalın real həcmindən asılıdır. Lakin uzun müddət ərzində isə milli istehsalın iqtisadi artımındakı irəliləyişlərdən asılı olaraq məcmu təklifin kəmiyyəti **təbii səviyyə** alır. Bildiyimiz kimi, iqtisadi artımın əmək, kapital, təbii, texnoloji amillərdən asılı olaraq kəmiyyətinin dəyişilməsi heç də qiymətlərin verilmiş səviyyəsindən asılı olmur. Ona görə də ÜDM-in real həcminin uzunmüddətli **determinantına** qiymət səviyyəsi təsir etmir və bu əsasdan da məcmu təklif əyrisi şaquli vəziyyət alır. Qrafik təsvirdə bunu aydın görmək olar.




**Şəkil 3. Uzunmüddətli məcmu təklif əyrisi**

Bu təsvirdə nəzərə almaq lazımdır ki, qiymət dəyişməsi qısa müddət ərzində məcmu təklifə təsir göstərir. Lakin uzun müddət ərzində əmtəə və xidmətlərin kəmiyyətinə təsir etmir. Ona görə də qısa və uzunmüddətli dövrlər üçün məcmu təklif əyrisi **müsbət və şaquli** meylli olur. Məcmu təklif əyrisinin izahındakı çətinlik bundan ibarətdir. Çünki yada salaq ki, bütövlükdə bir makroiqtisadi müvazinəti əvvəlki fəsildə izah edərkən görmüşdük ki, onun izahında klassik, keynsçi və s. iqtisadi baxışlarda eyni fikir birliyi yoxdur. Fərqli baxışların mövcudluğu məcmu təklif əyrisi ilə də bağlıdır.

İş burasındadır ki, konkret əmtəə və xidmətlərin təklifi **nisbi qiymətlərdən** asılıdır. Çünki konkret əmtəə və xidmətlərə qiymətin müəyyənləşdirilməsi digər əmtəə və xidmətlərə olan qiymətlərlə müqayisədə həyata keçirilir. Məsələn, dönərin qiymətinin qalxması, heç də onun istehsalının genişlənməsinə gətirib çıxarmır. Sadəcə dönərin hazırlanması üçün istifadə olunan mal, qoyun, quş ətinin həcmində pomidor, xiyar, bibərin və piyin sərfində baş verir. Bu isə **istehsal xərclərinin effekti** ilə bağlı olan iqtisadi prosesdir. Yəni qiymət dəyişikliyi ilə müşahidə olunan əmtəə və

xidmətlərin hər vahidinə düşən xərclərdə əks olunur. Belə şəraitdə milli iqtisadiyyatda resursların istifadəsində fərqli vəziyyət meydana gəlir. Burada üç müxtəlif vəziyyət ola bilər:

- məşğulluğun natamam vəziyyəti;
- məşğulluğun tam səviyyəsinə yaxınlaşan vəziyyət;
- məşğulluğun tam vəziyyəti.

Beləliklə görürük ki, AS əyrisi üç vəziyyətin birləşməsindən irəli gəlir: üfüq, aralıq və şaquli. Qeyd olunan vəziyyətlər AS əyrisində birləşdiyindən onun qısa və uzun müddətdə hərəkətində dəyişikliklər olur. Bununla da istehsalın potensial həcmi ilə qiymətlərin səviyyəsi arasındakı fərqli əlaqə baş verir. Yeri gəlmişkən yada salaq ki, real ÜDM-in həcmi ilə qiymət səviyyəsinin asılılıq vəziyyəti ilə əlaqədar keynsçi və klassik, yaxud neoklassik məktəblər müxtəlif yanaşmalara malik idilər. Keynsçiliyə görə resurslardan yarımçıq istifadə qiymətləri artırmadan ÜDM-in artımına səbəb olan məcmu tələbi genişləndirmək olar. Yəni ölkədə istehsalı, ümumi qiymətlər səviyyəsini artırmadan genişləndirmək olar. Qiymətlərin **qeyri-elastik** olması onunla izah olunurdu ki, depressiyalı iqtisadiyyat şəraitində, hər şeydən əvvəl, yarımçıq istehsal güclərini, işçi qüvvəsini istehsala cəlb etməklə həmkarlar ittifaqının tələbinin, məşğul olanların əməkhaqqı səviyyəsinin qaldırılması tələbinin, faiz dərəcələrinin qaldırılması, icarə haqlarının artırılması müşahidə olunmayacaq. AS müsbət meyilli üfüqi xətlə hərəkət edəcək. İqtisadiyyat ÜDM-in potensial vəziyyətinə yaxınlaşdıqca, istehsalın ayrı-ayrı sahələrində əmək, kapital, təbii resurslardan tam istifadə olunmağa başlanır. Belə şəraitdə əlavə əmək, kapital, xammal göndərənlər üçün, eləcə də ÜDM **həcmini** genişləndirmək üçün istehsal amillərinin qiymətlərinin artırılması zəruriləşir. Nəticədə məhsul buraxılışının hər vahidinə çəkilən istehsal xərci artacaq ki, bu da mənfəət səviyyəsinin qorunması naminə istehsal xərclərinə müqabil istehsal olunan əmtəə və xidmətlərin qiyməti artırılır. Yəni təklifin həcmi ilə qiymətlərin səviyyəsi qeyri-elastikdir. Ona görə də iqtisadiyyata dövlət müdaxilə et-

məklə məcmu tələbin səmərəliliyini artırmaqla makromüvazinatı təmin etmək olar.

Lakin klassik və neoklassik məktəbin nümayəndələri göstərirdilər ki, iqtisadiyyata dövlət müdaxilə etmədən, bazar öz-özünə tam məşğulluğu təmin edə bilər. AS-nin özünə AD-nin yaradılması isə müəyyən hədlə hüdudlaşır ki, bu da firmaların istehsalın genişləndirilməsi imkanının məhdudluğu ilə əlaqədardır və əmtəə və xidmətlərin həcminin şaquli vəziyyət almasına gətirib çıxarır. Bu da ümumi qiymətlər səviyyəsinin **çevik** artırılmasına səbəb olacaq. Qeyd olunan bu yanaşmalardan belə nəticəyə gəlmək olar ki, AS əyrisi qısa müddət ərzində üfüqi vəziyyət aldığından o müsbət meylli olur. AS əyrisi uzun müddət ərzində şaquli vəziyyət aldığından o arzuolunmaz meyillidir. Burada nəzərə almaq lazımdır ki, uzunmüddətli dövr ərzində buraxılış həcminin hər hansı amili olan əməkdən, kapitaldan, təbii resurslardan, texnologiyadan asılı olaraq AS əyrisini hərəkətə gətirmək mümkündür. Bildiyimiz kimi də potensial ÜDM-in həcmi hər şəraitdə qeyd olunan amillərin istifadə səviyyəsindən asılı olaraq daimi xarakterlidir. Bu amillərin təsiri istər qısa, istərsə də uzunmüddətli dövrlər üçün əhəmiyyətlidir. Fərq yalnız amillərin istifadəsindəki **vaxt effektindədir**.

Beləliklə də hesab etmək olar ki, AS əyrisinin uzun müddətdə hərəkətinin mümkün səbəblərinə aşağıdakıları aid etmək olar:

- əmək bazarında baş verən dəyişiklik;
- kapitalla əlaqədar yaranan dəyişiklik:
- təbii resursların həcmindən istifadə ilə əlaqədar yaranan dəyişiklik.

Qeyd olunan bu dəyişikliklər uzunmüddətli dövr üçün AS əyrisinə təsir etməklə onu, müxtəlif istiqamətdə hərəkət etməsinə səbəb ola bilər. Digər bir mühüm cəhətdə nəzərə almalıyıq ki, bu iqtisadi artım sürəti ilə inflyasiya səviyyəsinin qarşılıqlı əlaqəsinin AS-nin yerdəyişməsinə olan təsiridir. Əlbəttə, bu təsir təkcə AS üçün deyil, eləcə də AD üçün, xüsusən də AD–AS əyrilərinin müvazinətli modellərinin

qurulması üçün daha əhəmiyyətlidir. İqtisadi artım suürəti ilə inflyasiyanın səviyyəsi arasındakı əlaqənin nəzərə alınması AS əyrisinin uzun müddətdə deyil, elə qısa müddət ərzində də müsbət meylliyinə təsir göstərir. Çünki, bazarların qeyri-təkmilliyi buna şərait yaratmaqla qiymət səviyyəsi ilə məhsul buraxılışının həcmi arasında birbaşa əlaqəyə əsas verir.

Ümumiyyətlə qeyd etməliyik ki, qısamüddətli məcmu təklif əyrisinin müsbət meylliyi barədə üç elmi konsepsiya fəaliyyət göstərir:

- qeyri-səlist nəzəriyyə;
- sərt əməkhaqqı nəzəriyyəsi;
- sərt qiymət nəzəriyyəsi.

Bu konsepsiyalarda qısamüddətli dövrlər üçün qeyri-təkmil bazarın dinamikası nəzərdə tutulur.

**Qeyri-səlist nəzəriyyə** qiymətin ümumi səviyyəsinin dəyişməsi məhsul bazarına əmtəə çıxaranları müvəqqəti olaraq çaşdıra bilər. Belə şəraitdə məcmu təklif əyrisinin qiymətlərə reaksiyası nəticəsində müsbət meylli olmaqla əmtəələrin həcmini məntiqi olaraq azaldırlar.

**Sərt əməkhaqqı nəzəriyyəsində** qısamüddətli məcmu təklif əyrisinin müsbət meylliyi onunla izah olunur ki, nominal əməkhaqqı olduqca dəyişkənli olur. Nominal əməkhaqqının sərtliyi həm də onunla əlaqədar olan müqavilələrin bağlanmasının uzunmüddətli xarakter daşımasıdır.

**Sərt qiymət nəzəriyyəsində** qısamüddətli məcmu təklif əyrisinin müsbət meylliyi belə izah olunur ki, əmtəələr üzərində qiymətlərin səviyyəsindəki dəyişiklik **ətalətli, süst** xarakterlidir. Əks təqdirdə yüksək qiymət səviyyəsi, satış həcminin azalmasına, işçilərin ixtirasına səbəb ola bilər.

Ümumiyyətlə, AS əyrisinin yerdəyişməsinə bir sıra qeyri-qiymət amilləri təsir göstərə bilər:

- əməkhaqqı səviyyəsində olan dəyişiklik;
- xammal və materiallara olan qiymətlərdə dəyişikliklər;
- dövlət tənzimlənməsindəki metodlarda dəyişiklik;
- hüquqi normalardakı dəyişiklik.

Bu və ya digər şəraitdə qeyd olunan bu qeyri-qiymət amillərinin hər birinin dəyişilməsi, məhsul vahidinə çəkilən xərclərin dəyişilməsinə gətirib çıxarır ki, bu da milli istehsalın həcminin dəyişilməsinə və müvafiq olaraq AS əyrisinin müxtəlif vəziyyət almasına gətirib çıxarır.

## 6.4. Məcmu tələb və məcmu təklifin müvazinət modeli

Artıq biz ayrı-ayrılıqda iki əsas aqreqat göstəriciləri – məcmu tələb və məcmu təklifi, onların mahiyyətini, əyrilərindəki dəyişiklikləri, qiymət və qeyri-qiymət amillərini nəzərdən keçirdik. İndi isə bizim üçün ən maraqlı cəhət AD ilə AS arasında müvazinətin yaradılması və qorunmasının izahıdır. Bir anlığa mikroiqtisadiyyatdakı tələb və təklif arasındakı tarazlıq vəziyyətin yaradılmasını yada salaq. Onda görmüşdük ki, ayrı-ayrı bazarlarda tarazlığın yaradılması alıcılarla satıcıların istəyinin üst-üstə düşməsi ilə əlaqədardır. Ona görə də bazarların iqtisadi subyektləri öz təsərrüfat davranışlarında israrlı olub, onun dəyişdirilməsinə az meyllidirlər. Lakin makroiqtisadiyyatda vəziyyət tamam başqa xarakterlidir. Çünki burada ayrı-ayrı məhsulları bazarlara deyil, məcmu şəkildə götürülmüş aqreqat göstəricilərin qarşılıqlı əlaqəsi, müvazinətin yaradılması imkanları şərh olunacaq.

İndi isə makroiqtisadi müvazinətin AD əyri ilə AS əyrisinin özü-özünə necə əmələ gəlməsinə diqqət yetirək. Bunu qrafik təsvir vasitəsilə daha aydın şəkildə şərh edə bilərik. Artıq biz bilirik ki, istər AD əyrisi, istərsə də AS üç bizə məlum – üfüqi, aralıq və şaquli vəziyyətdə hərəkət edir və kəsişməyə məruz qalırlar. AD və AS əyrilərinin qeyd olunan bu üç variantlı kəsişmə nöqtələri $\Sigma_1$, $\Sigma_2$, $\Sigma_3$ timsalında müvazinətliliyin o səviyyəsi müşahidə olunur ki, verilən qiymətlər səviyyəsində alıcıların almaq istədiyi ilə eyni qiymətlər səviyyəsində satıcıların məcmu istehsal həcminin təklif istəyi **üst-üstə düşür**. Real istehsalın həcmi ÜDM kimi

müxtəlif səviyyələrdə ($Y_1$ $Y_2$ $Y_3$) ona olan məcmu tələblə bərabərdir.

Beləliklə görünür ki, qiymətlərin qeyri-çevik və ya sərt şəraitində $AD_2$–AS modelinin müvazinətliyi $\Sigma_1$ nöqtəsində qiymətə görə deyil, ÜDM-in və ya istehsalın real həcmi hesabına ($Y_1$) başa gələcək. Bu da milli iqtisadiyyatın dəyişməz qiymətlər şəraitində azalıb və ya artmasından xəbər verəcək.

AD – AS modelinin müvazinatliliyi $\Sigma_2$ nöqtəsində həm qiymət, həm də istehsalın həcminin dəyişilməsi ilə ÜDM-un təbii səviyyəsinin artımı müşahidə olunacaq ($Y_2$).

AD – AS moldelinin müvazinatliliyi $\Sigma_3$ nöqtəsində üzünmüddətli dövrdə ÜDM-in ($Y_3$) potensial səviyyəsinin artımı ilə şaquli vəziyyəti əks etdirəcək. Bu isə o deməkdir ki, istehsalın real həcmi **dəyişilməz**, qiymətlərin səviyyəsi isə elastik olacaq ($Y_3$).




**Şəkil 4. AD – AS modelinin makroiqtisadi müvazinət modeli**

Qeyd olunan vəziyyətlə əlaqədar belə nəticəyə gəlmək olar:

- qısamüddətli dövrdə ÜDM-in real həcmi məcmu tələbin tərəddüdü ilə müəyyən edilir. Çünki qiymət və əməkhaqqı elastik deyil;

- uzunmüddətli dövrdə qiymət səviyyəsinin elastik olması, ÜDM-in real həcmi məcmu təklifin tərəddüdü ilə müəyyən edilir.

Yeri gəlmişkən qeyd etməliyik ki, qısamüddətli dövr ərzində ÜDM-un real həcminin dəyişilməsi **çox kəskin** şəkildə **təklif şokları** nəticəsində baş verir. Belə vəziyyət keçən əsrin 1970-1973-cü illəri üçün, XXI əsrin isə 2005-2007-ci illəri üçün xarakterik olmuşdur. Dünyada baş verən təbii fəlakətlər, quraqlıqlar, fond bazarlarındakı möhtəkirliklər istisna olmaqla enerjidaşıyıcı məhsulların, xüsusən də neftin hər barelinin qiymətinin **sıçrayışlı yüksəlməsi** məcmu təklif şoku kimi qiymətləndirilə bilər. Təklif şokları bir qayda olaraq təklif əyrisini yuxarı, sağa doğru sürətli qalxmasını əks etdirir. Bu da o deməkdir ki, istehsalın real həcmi əvvəlki səviyyədə qalmaqla qiymət səviyyəsinin yüksəlməsi nəticəsində məcmu təklif əyrisi şaquli vəziyyətdən kənara çıxaraq sağa meyil edir. Məcmu təklif şoku makroiqtisadi məqsədlərin:

-milli istehsal həcminin artırılmasına;

-sabit qiymət səviyyəsinin saxlanmasına;

-işsizliyin azaldılmasına **birbaşa mənfi** təsir göstərir.

İqtisadi məkanda makroiqtisadi müvazinətin AD – AS modeli səviyyəsində qorunması dövlətin fəal makroiqtisadi sabitləşmə siyasəti yeritmək vasitəsilə həyata keçirilə bilər. İstər qısa müddət ərzində məcmu tələbin, istərsə də uzun müddət ərnzində məcmu təklifin **effektli dəyişilmələrlə** uzlaşdırılması dövlətin makroiqtisadi sabitləşdirmə siyasətinin əsas məntiqidir. Bu məntiqlə də həm məcmu tələbin, həm məcmu təklifin, həm də onların qarşılıqlı əlaqəsindən irəli gələn makroiqtisadi problemlərin həlli istiqamətini müəyyən etmək olar.

# VII FƏSİL. İQTİSADİ ARTIM

**7.1. İqtisadi artımın mahiyyəti və modelləri**
**7.2. İqtisadi artımın amilləri**
**7.3. İqtisadi artımın tipləri**
**7.4. İstehsalın səmərəliliyi və iqtisadi artımın tərəddüdlü hərəkəti**
**7.5. İstehsal funksiyası. İqtisadi artımın dövlət tənzimlənməsi**

## 7.1. İqtisadi artımın mahiyyəti və modelləri

Müasir iqtisadi nəzəriyyələr sistemində iqtisadi artım nəzəriyyəsinin öyrənilməsinin xüsusi əhəmiyyəti vardır. Çünki iqtisadi artım, qısa müddət ərzində istehsalın artım və azalma sürətini deyil, uzun müddət ərzində iqtisadi inkişafın parametrlərini nəzərə alaraq onun real həcminin dəyişilməsi istiqamətini müəyyən edir. İqtisadi artım, ümumi müvazinətin yaranmasından əmələ gələn maksimum rifah halını əks etdirdiyindən, bu istiqamətdə baş verən hər cür dəyişikliklərin nəzərə alınması vacib hesab olunan məsələlərdəndir. Ona görə ki, iqtisadiyyatın bir müvazinətli vəziyyətə daxil olması, rifah halının yaxşılaşdırılmasını, real imkanları üzə çıxarır.

Ona görə də iqtisadi artım nəzəriyyəsini şərh edərkən onun mahiyyətini izah etməklə yanaşı, eyni zamanda onun məqsədini, amillərini, keyfiyyət halını, tiplərini aydınlaşdırmaq zərurəti meydana çıxır.

İqtisadiyyatın əsas ziddiyyəti olan iqtisadi resursların məhdudluğu ilə ictimai tələbatın hüdudsuzluğunun həll olunmasında, iqtisadi artımın oynadığı rolun diqqət mərkəzində saxlanması ilə əlaqədar olaraq, dinamik müvazinətin inkişaf modellərinin fərqləndirilməsində xüsusi əhəmiyyəti vardır.

İqtisadi artım istehsal imkanlarının yüksəldilməsi hesabına və ya mövcud imkanlardan daha səmərəli istifadə

olunması ilə bağlı tələbatların ödənilməsinə nail olduğundan, bu istiqamətdə də nəzəri ümumiləşmələrə xüsusi diqqət yetirmək lazımdır.

İqtisadi artım dedikdə, həyat səviyyəsinin yüksəldilməsinə imkan verən, kəmiyyətcə çox və keyfiyyətcə yaxşı əmtəə və xidmətlərin istehsalı başa düşülür.

İqtisadi artımın öyrənilməsi, hər şeydən əvvəl, hamını düşündürən bir suala cavab tapmağa sövq edir - necə etmək olar ki, cəmiyyətdə istehsal olunan ümumi milli məhsul hamının tələbatını ödəməklə onların yaxşı yaşamasına imkan yaratsın. Bu baxımdan iqtisadi artımın əhəmiyyətinin müəyyən edilməsi zərurətə çevrilir.

İqtisadi artım mahiyyətcə müəyyən müddət ərzində istehsal edilmiş ümumi milli məhsulun və ya xalis milli məhsulun faizlə artımını və ya onların adambaşına düşən kəmiyyətini əks etdirir. Hər halda iqtisadi artım iqtisadi məqsəd olmaqla əhalinin həyat səviyyəsinin müəyyən edilməsində müəyyənedici mövqe tutur. Bu vaxta qədər bir qayda olaraq, iqtisadi artım yalnız ölkələrin iqtisadi potensialını müəyyən edən sırf kəmiyyət göstəricisi kimi öyrənilmişdir. Halbuki iqtisadi artım mahiyyət etibarilə kəmiyyət və keyfiyyət anlayışlarını özündə vəhdət halında əks etdirən prosesdir. Sual oluna bilər ki, iqtisadi artım özündə maddi nemət və xidmətlərin həcmini əks etdirməklə yanaşı onların keyfiyyətini özündə necə əks etdirə bilər?

Burada nəzərə almaq lazımdır ki, əgər adambaşına maddi və mənəvi nemətlər artırsa, yəni tələb, həm də onun kəmiyyəti ödənilmirsə, deməli, yeni tələbatların meydana gəlməsinə səbəb olur. Belə şəraitdə iqtisadi artım yeni keyfiyyət halına düşür. Bu da yeni təklifin edilməsinə sövq edir. İqtisadi artımın belə hərəkəti ümumi müvazinətin, yəni məcmu tələb və məcmu təklif arasındakı nisbətin həm qorunmasına, həm də pozulmasına səbəb olur. Məcmu tələb və məcmu təklif arasındakı nisbətin qorunub saxlanılması, həm də onların pozulması prosesi, iqtisadiyyatın

müvazinətli hala gətirilməsi, məhz iqtisadi artımdan asılıdır. Deməli, iqtisadi artım - ümumi müvazinətin pozulması səbəblərini əks etdirməklə, müvazinətin bir vəziyyətdən digər vəziyyətə düşməsinə səbəb olur. Ona görə də iqtisadi artımı müşahidə olunmayan ölkələrdə tələb və təklif arasındakı zəruri nisbəti qoruyub saxlamaq olmur. Çünki, ümumi müvazinətə görə məcmu tələb və məcmu təklif müəyyən dövr ərzində uyğun gəlməlidir. Lakin həm məcmu tələbin, həm də məcmu təklifin kəmiyyətləri müxtəlif amillərin təsiri nəticəsində uyğun gəlmədiyindən iqtisadi artım da daima düzxətli istiqamətdə fəaliyyət göstərmir. Daha doğrusu, iqtisadi artım sürətində daima qalxma, enmə və ya dalğavarı proses müşahidə olunur. İqtisadi artımın müasir problemləri içərisində bu cəhətə xüsusi diqqət yetirmək lazımdır. İqtisadi artımın sürətindən asılı olaraq iqtisadiyyatın tarazlı inkişafını təmin etmək olar. Bütün canlı aləm kimi iqtisadiyyat da daima hərəkət və fəaliyyətdə olmalıdır. Süstlük, ətalət, qeyri-sabitlik iqtisadiyyatın ən pozucu elementləridir.

Bəlli olduğu kimi, kəmiyyət dəyişiklikləri hər şəraitdə iqtisadi artımın dinamikasını xarakterizə edəcəkdir. Lakin iqtisadi dəyişikliklər nəzərə alınmasa, istehsalda əldə olunan son nəticənin mahiyyəti də öz əhəmiyyətini itirmiş olur. Yəni əgər cəmiyyətdə tələbata daxil olmayan külli miqdar məhsul istehsal edilmişsə, resurslardan tam istifadə olunmuşsa, əhalinin məşğuliyyəti tam təmin edilmişsə, bu hələ o demək deyildir ki, ölkənin iqtisadi artım sürəti yüksəlmişdir. Belə vəziyyət yalnız müharibə şəraiti üçün xarakterik ola bilər. Digər tərəfdən, belə vəziyyət keçmiş İttifaqın yeritdiyi hərbi-siyasi doktrinası üçün səciyyəvi hal idi. İnzibati-amirlik sisteminə əsaslanıb iqtisadi sistemin üstünlüklərini sübuta yetirmək üçün hərbi-siyasi xəttin yeridildiyi bir şəraitdə iqtisadi artımı yalnız kəmiyyət cəhətdən xarakterizə etmək əlverişli olurdu. Lakin iqtisadi həyat sübut edir ki, məhsuldar qüvvələrin kəmiyyətcə artımı (tank, qırıcı təyyarələr, kosmik raketlər, nüvə silahları, sualtı gəmilər və s.)

yalnız müharibə illərini sərf-nəzər etməklə, təkrar istehsalın son nəticələrində reallığa doğru heç bir irəliləyiş baş vermir. Bu xəttin davam edilməsi, əmək qabiliyyətli əhalinin zahirən məşğuliyyətini təmin etsə də, əldə etdikləri yaşayış vasitələri bütün şəraitdə minimum səviyyədən yuxarı qalxmırdı. Ona görə də iqtisadi artımı xarakterizə edərkən mütləq onun kəmiyyət tərəfi ilə yanaşı keyfiyyət tərəfini də nəzərə almaq lazımdır. Bu bizim ölkənin iqtisadiyyatında əks olunmuş və formalaşmış totalitar təsərrüfat forması ilə təşəkkül tapmışdır. Bütün maddi nemət və sərvətlər dövlət mülkiyyətindədir. Nə qədər ki, iqtisadiyyatda vahid dövlət mülkiyyəti fəaliyyət göstərir, orada hansı siyasi qüvvələrin olmasından asılı olmayaraq xalqın xeyrinə heç bir irəliləyiş baş verməyəcəkdir. Bunun üçün də heç bir əlavə dəlil və sübut gətirməyə ehtiyac yoxdur, çünki dövlət bütün xalqın mənafeyini ümumilikdə əks etdirirsə də iqtisadiyyatın inkişafı, yalnız adamların şəxsi mənafelərinin ödənilməsi şəraitində baş verir.

Ona görə də nə qədər ki, ölkəmizdə dövlət mülkiyyəti ilə rəqabət apara biləcək mülkiyyət strukturları yaradılmayıb, iqtisadi artımın reallığından danışmağa dəyməz, hər halda bizə aydın olmalıdır ki, əhalinin tələbatını ödəyən məhsullar istehsal etmədən, xidmətlər görmədən, bundan cəmiyyət nəinki udur, əksinə bununla o, cəmiyyətdə növbəti illər üçün artacaq iqtisadi böhran və tənəzzüllərin təməl daşını qoyur. Deməli, böhranyaradıcı amillərin meydana gəlməsi iqtisadi artımda kəmiyyət göstəricilərinin rolunun qiymətləndirildiyi şəraitdə baş verir.

Ancaq belə düşünmək olmaz ki, iqtisadi artımın məqsədi cəmiyyətin və onun üzvlərinin artmaqda olan tələbatını ödəyən maddi nemətlər istehsal etməkdən ibarətdir. Nəzərə almaq lazımdır ki, əgər bu məhsullar adamların həyat səviyyəsini keyfiyyətcə yaxşılaşdırmırsa, onda onlar da iqtisadi artımın məzmununu əks etdirir. Ağ-qara rəngli televizorların piştaxtalarda dolu olduğu vaxt, onların alın-

mamasını yada salmaq kifayətdir. Çünki, artıq dünya ölkələrinin çoxunda məsafədən idarə olunan, çoxkanallı televizorların bir neçə nəsli istehsal edilmişdir. Deməli, bütün bu deyilənlərdən belə nəticəyə gələ bilərik ki, iqtisadi artım təkrar istehsalın nəticəsi kimi onun kəmiyyət və keyfiyyətini əks etdirən prosesdir. Başqa sözlə, iqtisadi artım təkrar istehsalın son nəticəsinin dinamikasını əks etdirir. Dinamik iqtisadi inkişaf, bir qayda olaraq, məhdud iqtisadi resurslardan tələbata uyğun istifadə olunması imkanlarından asılıdır. Təkrar istehsalın kəmiyyət tərəfi bir tərəfdən istehsal olunan məhsulların həcminin dinamikasını, digər tərəfdən iqtisadi resurslara çəkilən xərc və əldə olunan nəticənin nisbətini əks etdirir. Lakin, təkrar istehsalın keyfiyyət tərəfi xalq təsərrüfatının bütün sahələrində gedən proqressiv struktur dəyişikliklərini, onların proporsionallıq və tarazlıq səviyyəsini, təsərrüfatçılığın təşkil və idarə olunması istiqamətini, istehsalın bütün amillərindən necə istifadə olunmasını əks etdirir. Başqa sözlə, iqtisadi artım anlayışı nəticə etibarilə iqtisadiyyatın başlıca probleminin **nə? necə? kimin üçün?** məsələsinin həll olunması imkanını və səviyyəsini xarakterizə edir. Deməli, iqtisadi artımın səviyyəsi, iqtisadi sistemlərin müxtəlifliyindən asılı olmayaraq iqtisadiyyatın başlıca probleminin necə həll olunmasını əks etdirir. Digər tərəfdən, iqtisadi artım, millətin nailiyyətlərini və uğursuzluqlarını göstərməklə, iqtisadi siyasət sahəsində - vergilər, xərclər, qiymət səviyyəsi və tədavülə pul buraxılmasındakı dəyişikliklərin edilməsinə gətirib çıxaracaqdır.

İqtisadi artımın mahiyyəti etibarilə iqtisadiyyatın sabit inkişafı üçün dediklərimiz bir qədər empirik, zahiri, təsviri xarakter daşısa da, onun iqtisadi həyatda daşıdığı əhəmiyyət ön plana keçir. Çünki, o hər şəraitdə iqtisadi həyatın əsas praqmatik vəziyyəti üçün xarakterik olan bir suala cavab axtarır: iqtisadi artımın olub və ya olmamasından asılı olmayaraq iqtisadiyyat, sabit qiymətlərlə tam məşğulluğa nail olarmı? Yaxud da iqtisadi tənəzzülün və inflyasiyanın

qarşısı alına bilərmi? Bütün bu sualların cavablandırılması iqtisadi artıma dair mövcud olan bir sıra modellərdə öz əksini tapmışdır. İndi isə yığcam şəkildə həmin modellərin bəzilərinin xarakterik xüsusiyyətlərinə diqqət yetirək.

İctimai inkişafın məqsədi kimi baxılan iqtisadi artımın modelləşdirilməsi iqtisad elminin ən mühüm aktual və çətin həll olunan problemlərindən biri kimi özünü təqdim edir. Bunun da başlıca səbəbi iqtisad elminin formalaşması, inkişafı və yeni keyfiyyət hallarının alınması ilə əlaqədardır. Makroiqtisadi dinamikanın tərkib hissəsi kimi iqtisadi artımın modelləşdirilməsi iqtisadi düşüncə ilə riyazi məntiqin birləşməsi çərçivəsində meydana gəlmişdir ki, bunun da baniləri XX əsrdə iqtisad elmində hakim cərəyan kimi özünü təqdim etmiş neoklassik məktəb olmuşdur. Düzdür, bu dövrdə keynsçi məktəb də fəaliyyət göstərməklə iqtisadi artım modelinə tamam başqa şəkildə yanaşılmışdır. Həmçinin XXI əsrin əvvəllərindən iqtisadi artımın institusional və yeni institusional istiqamətləri formalaşmışdır.

İqtisadi artımın modelləşdirilməsindəki əsas fərqli xüsusiyyətlər əlaqədardır:

- artımın riyazi modellərində digər şərtlərin eyniliyinə əsaslanması ilə;
- hadisələrin səthi və empirik şərhi ilə;
- artım amillərnin qarşılıqlı əlaqəli şəkildə rolunun qiymətləndirilməsi ilə;
- riyaziləşdirməyə üstünlük verməklə iqtisadi hadisələrin mahiyyətindəki funksional dəyişikliklərin nəzərə alınması ilə.

Nəzərə almaq lazımdır ki, iqtisadi artım modelləri dedikdə, əslində milli iqtisadiyytın inkişaf xüsusiyyətlərini özündə əks etdirməklə ÜDM-in artmasında və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında, yüksəldilməsində və insan potensialı keyfiyyətində təzahür olunur. Əslində iqtisadi artıma nail olunmanın **müasir məntiqi, insan potensialının inkişafının əldə olunması** ilə səciyyələnməsidir. Ona görə

də iqtisadi artım **iqtisadi-sosial-ekoloji** inkişafın uzunmüddətli xarakter alması müasir milli iqtisadi inkişaf modelinin xarakterik xüsusiyyəti kimi özünü büruzə verməlidir.

Yada salaq ki, iqtisadi artımın uzunmüddətli xarakter almasına dair mülahizələr klassik məktəbdən başlayaraq bugünkü yeni institusional cərəyana kimi diqqət mərkəzində olmuşdur. Lakin bu yanaşmalarda sərvət, milli dividend, milli gəlir, milli məhsul, ÜDM kimi anlayışlarla əlaqələndirilmişdir.

**Klassik məktəb** nümayəndələri sərvətin artırılmasında tətbiq olunan istehsal amillərini onların kəmiyyəti və məhsuldarlığı ilə əlaqələndirirdilər. Belə şəraitdə **qənaətçiliyə** üstünlük verilməsinə xüsusi diqqət yetirilirdi. Kapital artımının bir hissəsinin yığılması və investisiyaya yönəldilməsi fikri irəli sürülmüşdür.

**Marksist məktəb.** Klassiklərdən fərqli olraq iqtisadi artımın uzunmüddətli xarakter alması üçün istehsal vasitələrinə və ya fiziki kapitala qoyulmuş sabit kapitalın dəyişən kapitala (iş qüvvəsinə) nisbətən xarakter daşıması ilə əlaqədardır. Yəni hər dəfə kapitalist əldə etdiyi və fəhlələrin haqqı ödənilməmiş nəticəsi kimi görünən mənfəəti kapitalın artırılmasına yönəldir.

**Marjinalist məktəb** iqtisadi artımı iqtisadiyyatın elə müvazinətli vəziyyəti hesab edirdi ki, bu zaman istehlakçıların subyektiv davranış qaydalarından irəli gələn və üstünlük vermə mövqeyinə görə investisiyaları iqtisadi artım mənbəyi kimi istifadə edirlər. Bu zaman real iqtisadiyyatın vəziyyəti, bir qayda olaraq, enib-qalxmalarla müşahidə olunur.

**Neoklassik məktəb** marjinalist yanaşmanı inkişaf etdirəcək iqtisadi artımı milli gəlirin orta illik artımı kimi götürərək, ilk dəfə olaraq istehsal funksiyası kimi onun riyazi şərhini verdilər. Sonralar bu ideya inkişaf etdirilərək 1923-cü ildə iqtisadi artımın neoklassik modeli yarandı. Məhz bu dövrdən başlayaraq insanın rasionalist davranışına və riyazi təhlil metodlarına əsaslanan yanaşmaları iqti-

sadi münasibətlərə qarşı qoyaraq «Ekonomiks» tətbiqi üsuluna üstünlük verməklə, iqtisad elmində yeni istiqamətin əsasını qoydular. Bazar sistemini müvazinətli şəkildə qəbul edib, riyazi təhlilə əsaslanaraq iqtisadi artımın müxtəlif ölkələrin milli iqtisadiyyatları timsalında mücərrəd xarakter alması, artıq keçən əsrin 30-cu illərində özünü əks etdirməsinə baxmyaraq, bu istiqamət hələ də öz nüfuzunu saxlamaqdadır.

**Keynsçi məktəb** marksist neoklassik yanaşmaya qarşı öz kəskin tənqidi mövqeyini bildirməklə iqtisad elmində inqilabi çevriliş kimi görünür. İqtisadiyyatı qeyri-müvazinətli böhranlı vəziyyəti nəzərə alınmaqla iqtisadi artım prosesinin həm qısa, həm də uzunmüddətli dövrlər üçün ilk dəfə olaraq makroiqtisadi yanaşmanın əsası qoyuldu. İqtisadi artımın əmanət–investisiya prosesi ilə əlaqədar olduğu, qiymət və əməkhaqqının qeyri-elastik olduğu əsas gətirilərək «səmərəli tələb» prinsipinin oynadığı rolun əhəmiyyəti sübuta yetirildi.

**İnstitusional və yeni institusional məktəbin** nümayəndələri insan amilinin həm iqtisadi artım, həm də bütövlükdə iqtisadiyyatın inkişafındakı rolunu ön cərgəyə çəkdilər. İnsanın iqtisadi artımdakı rolu **sosial** institutlardan fəal istifadə olunması ilə əlaqələndirilir. İqtisadi sistemdə insanın malik olduğu bilik səviyyəsi informasiya, mənəvi davranışı, intellektual qabiliyyəti onun bir **sosial-iqtisadi** qrup kimi fəaliyyətini əsaslandırır. Bu da institusional tənzimlənmənin **bazar, dövlət və sosial** amillərinin vəhdət şəklində istifadəsinə gətirib çıxarır. Həmçinin müasir dövrün xarakterik xüsusiyyəti yeni bilik sferasının təhsil, mənəviyyat, etik-mədəni qaydalara söykənən qarışıq iqtisadiyyatın ali tənzimləyicilərinə çevrildiyi ideyası əsas götürülür. İnstitusionalizmdəki sosial amillər, **yeni intellektual biliklər, mənəvi-mədəni** amillərlə birləşdirilərək yeni institusionalizm cərəyanının əsası kimi çıxış edir və belə şəraitdə insan təbiə-

tindən doğan yeni cəhət kimi iqtisadi artımdakı rolu qiymətləndirilir.

**Müasir yeni sintezləşdirici məktəb** nümayəndələri XXI əsrin ərəfəsində və ilk illərindən başlayaraq uzunmüddətli iqtisadi artımın əldə olunması üçün klassik, neoklassik, keynsçi, institusional məktəb nümayəndələrinin irəli sürdükləri **əsas artım elementlərinin seçimi** və birləşdirilməsi ideyasını irəli sürdülər. Artım elementlərinin **sintezinə** əsaslanan iqtisadi inkişafa nail olunması istiqamətinin formalaşması **əməkhaqqının yüksəldilməsi və stimullaşdırılması prinsipinə** söykənir. Yüksək əməkhaqqı həm əmək məhsuldarlığının yüksəldilməsinə, həm də həyat keyfiyyətinin yaxşılaşdırılmasına səbəb olar. Bu, iqtisadi artımın kəmiyyətcə çox, keyfiyyətcə yaxşı məhsul istehsalına və insanların **layiqli** həyat səviyyəsinə malik olmağa gətirib çıxarır. Bu istiqamət iqtisadi artımın nəticələrinin insan potensialının inkişafı baxımından qiymətləndirilməsinə əsas verir.

İndi isə konkret olaraq iqtisadi ədəbiyyatlarda həyat vəsiqəsi almış, iqtisadi nəzəriyyədə özünü təsdiqləmiş iqtisadi artımın modelləri barədə danışaq.

**Kobb-Duqlas modeli.** İlk dəfə olaraq iqtisadi artım modeli neoklassik məktəbin nümayəndələri tərəfindən 1928-ci işlənib hazırlamışdır. İqtisadçı K.Duqlas və riyaziyyatçı C.Kobb birlikdə milli istehsalın həcmi ilə iki müstəqil, lakin dəyişilən və qarşılıqlı əlaqədə olan əmək və kapital xərcləri şəklində istehsal funksiyası kimi tədqiq etmişlər. Məqsəd ondan ibarət olmuşdur ki, iqtisadi artımın hansı amil hesabına daha səmərəli və optimal strukturu müəyyənləşdirilsin. Ümumi formada isə belə təqdim olunmuşdur:

$$Y = AK^{\alpha} L^{\beta}$$

Burada,

Y – istehsalın həcmi;

K – kapital;

L – əmək;

$\alpha$, $\beta$ – elastiklik əmsalları (funksiyanın parametrləri);

A – miqyas və ya proporsionallıq əmsalı.

Bu modeldə həddən artıq riyaziləşməyə yer verilərək qeyd olunurdu ki, 1% iş qüvvəsinin və kapitalın dəyişilməsi istehsalın həcminin müvafiq olaraq 0,75% və 0,25% dəyişilməsinə səbəb olur (digər şərtlərin daimiliyi nəticəsində). Yəni bu o deməkdir ki, əgər hər iki amil 1% artırsa, onda istehsalın həcmi də 1% artır. Lakin bəllidir ki, istehsalın həcminə digər amillər də təsir göstərir.

**Yan Tinbergen modeli.** İqtisad elmi üzrə 1969-cu ildə ilk dəfə Nobel mükafatı almış Yan Tinbergen Kobb-Duqlas modelini təkmilləşdirərək, istehsal funksiyasına ETT-ni əks etdirən amilin daxil edilməsini tövsiyə etdi. İstehsal funksiyasına çoxalan $e^{n}$ – yəni ETT nəticəsində istehsalın artım sürətini əks etdirən göstəricisini daxil etdi. Beləliklə də, istehsal funksiyası belə şəkil aldı:

$$Y= AK^{a} L^{B} e^{n}$$

Məhz istehsal funksiyasının bu tipi iqtisad elmində özünə geniş yer almış oldu. Bununla da istehsalda «kapitalizm», bölgüdə «sosializm» şüarına cavab verən ekonometrik model kimi təqdim olunmaqla iqtisadi siyasətin və iqtisadi inkişafın vəhdətini təşkil etdi.

**V.Leontyev modeli.** İqtisadi artımın bu modeli xərc–buraxılış kimi təqdim olunur. Burada xətti cəbrin aparatından istifadə edilərək şahmat tipli cədvəllər şəklində hər bir sahənin iqtisadiyyatındakı rolu və onun ÜMM-dəki payı müəyyənləşdirilərək onların iqtisadi artımındakı yeri təyin edilmişdi. Keçmiş sovet iqtisad elmində sahələrarası balans kimi öyrənilən fənn əslində «xərc–buraxılış» modelinin modifikasiyası idi. Çünki, hələ 1924-cü ildə V.Leontyev SSRİ-də yaşadığı dövrdə sahələrarası balansın yaradılması ideyasını irəli sürmüşdü. «Xərc–buraxılış» modelinin əhəmiyyəti ondadır ki, hər bir ölkə milli iqtisadiyyatın inkişafında əməktutumlu, kapitaltutumlu və texniki tərəqqini müəyyən edən sahələrdən istifadə etməklə istehsalın həcmini artırır.

**R.Solou modeli.** Bu modeldə iqtisadi artımın optimallıq meyarı kimi texniki tərəqqi əsas götürülür. Burada texniki tərəqqinin o səviyyəsi nəzərdə tutulur ki, o əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yol verən əlavə əmək və əlavə kapital amillərinin roluna diqqət yetirir. Bu modeldə texniki tərəqqinin ekzogen (daxili) xarakteri nəzərdə tutulur. Texniki tərəqqini dəyişilmələrdən (kapital, əmək, vaxt) asılı olmayaraq istehsalın həcmində baş verən dəyşikliklərin səbəbi kimi nəzərə almaqla, onun istehsalın hər amilinə təsir edən və müstəqil amil rolunu oynayan istehsal funksiyasının elementi kimi nəzərə alırdı. Lakin nə yığım prosesi, nə də pul normasının artması, iqtisadi artımın sürətindəki rolu izah olunmurdu.

**E.Domar modeli.** Onun mahiyyəti birbaşa sistemli artım modelinin yaradılması ilə əlaqədar olmasa da, lakin investisiyaların artım rolunun həm multiplikator, həm də akselerator effektlərində nəzərə alınmasından ibarət olmuşdur. Yeni keynsçi məktəbin nümayəndəsi kimi keçən əsrin 50-ci illərində onun tətqiqatı belə bir fikri əsaslandırmışdır ki, investisiyalar iqtisadiyyatda fəal rol oynamaqla müvazinətli iqtisadi artımın əldə olunmasına səbəb olur. Yəni investisiyalar iqtisadiyyata iki səviyyədə təsir göstərir:

-bir tərəfdən yeni əsas fondlar yaradır;

-digər tərəfdən dövlətin tənzimlənən multiplikator effekti kimi yeni tələb formalaşdırır.

Beləliklə də, investisiyaların və milli gəlirin artım sürətləri müvazinətli şəkildə kapital veriminin sürətini əsaslandırır.

**R.Harrod modeli.** Domardan fərqli olaraq Harrod iqtisadi artımın müvazinətli vəziyyəti üçün investisiyaların təminatlı rolunun müəyyənləşdirilməsi fikrini qarşıya qoymuşdur. Bu fikrini «İqtisadi artımın dinamikası» əsərində əsaslandırmışdır. Bazarın təbiəti etibarilə dinamik müvazinətin qeyri-mümkünlüyünü əsas gətirməklə milli gəlirin artımının bir amil – investisiyalar hesabına mümkünlüyü nə-

zərə alınaraq dövlətin **faiz dərəcələrinin və gəlirin** tənzimlənməsinə yönəldilmiş tədbirləri müvəqqəti deyil, **daimi və fəal** xarakter daşımalıdır.

Qeyd olunan iqtisadi artımın bu müəllif modellərindən fərqli olan bir sıra modellərin də adını qeyd edə bilərik:

-yoxsulluğun qüsurlu çevrəsi modeli;

-özüdəstəklənən artım modeli;

-sıfra bərabər artım modeli;

-böyük təkan artım modeli;

-iki kəsirli (daxili – yığım; xarici – ticarət) iqtisadi artım modeli;

-insan potensialı inkişafını əsaslandıran iqtisadi artım modeli.

## 7.2. İqtisadi artımın amilləri

İqtisadi artımın baş verməsinə səbəb olan amillərin üzə çıxarılması, onların birbaşa və ya dolayı xarakter daşımasının şərh olunması müasir artım nəzəriyyəsinin əsas xüsusiyyətlərindəndir.

Qərbin müasir iqtisadi məktəbinin görkəmli nümayəndələri R.Makkonnell və L. Bryunun qeyd etdikləri kimi bütün ölkələrin iqtisadi artımları altı əsas amildən asılıdır.

İqtisadi artımın bu amillərinin hər birinin özünəməxsus təsir dairəsi olmasına baxmayaraq, onları birləşdirən bir ümumi cəhət vardır ki, onlardan bir qismi təklif, bir qismi isə tələb amilləri formasında birləşir. Deməli, ayrı-ayrı ölkələrin iqtisadi artım səviyyələrindəki fərq məhz bu amillər qrupunun vəhdət formasında necə və hansı nisbətdə tətbiq edilməsindən asılıdır. Əgər iqtisadi artımın təklif amilləri onun fiziki həcmini, yəni kəmiyyət cəhətdən artımını əks etdirirsə, tələb amilləri isə keyfiyyət cəhətdən əks etdirir. Tutaq ki, ölkə resurs cəhətdən və texnoloji baxımdan zəngindirsə, həmin artım amilləri yığılıb qalır, istehsal potensialından istifadə edilmir. Başqa sözlə, həmin artım amilləri

üçün zəruri olan məcmu xərclərin səviyyəsi dəyişməz qalır, yaxud da artan resurslardan faydalı məhsul əldə olunması üçün səmərəli bölgü aparılmır. Yəni iqtisadi potensialın məqsədyönlü istifadəsi üçün resursların istehsal dövriyyəsinə tam cəlb olunması ilə yanaşı eyni zamanda onlardan daha səmərəli istifadə etmək lazımdır.

Qeyd etməliyik ki, iqtisadi artımın keyfiyyət tərəfini əks etdirən tələb amilləri onun növbəti illər üçün səviyyəsinə daha çox təsir göstərir, çünki iqtisadi artım keyfiyyətcə dəyişməsə tələbin səmərəliliyi meydana gəlməyəcəkdir. Tutaq ki, neft, pambıq və ya üzüm istehsalı, potensial baxımdan istənilən səviyyədədir. Lakin onlardan real və ya maksimum faydalı son məhsul əldə olunması üçün məqsədəuyğun istifadə olunmazsa, onda onların fiziki həcmlərinin artırılmasının heç bir faydası yoxdur. Çünki, **iqtisadi artım maksimum faydalı məhsul səviyyəsinin əldə olunması ilə hüdudlaşır.** Görkəmli Amerika iqtisadçısı P. Samuelsonun iqtisadi artımın tələb amillərinin rolu barədə gətirdiyi dəlillər də olduqca dəyərlidir.

Lakin bu heç də o demək deyildir ki, iqtisadi artımın təklif və tələb amilləri bir-birindən ayrılıqda fəaliyyət göstərirlər. Əslində iqtisadi dinamikanın gedişatına bu amillər qarşılıqlı əlaqə şəklində təsir göstərirlər. Məsələn, işsizlik əgər investisiyanın, yəni əsas kapital qoyuluşunun artım sürətini ləngidirsə, deməli, investisiyanın bu səviyyəsi yeni iş yerlərinin açılması imkanını da məhdudlaşdırır. Yaxud inflyasiyanın sürətli gedişatı mövcud təbii resursların faydalı məhsul istehsalı üçün tətbiq olunması əvəzinə mövcud vəziyyətin qorunması xatirinə həmin resursların qiyməti, daxili bazar nəzərə alınmadan qaldırılır və xarici bazar hesabına reallaşdırılır. Bu da yeni istehsal prosesi üçün zəruri olan əlavə texniki avadanlıqların qiymətlərinin bahalaşmasına, istehsal xərclərinin inflyasiya girdabına düşməsinə gətirib çıxarır. Ümid yalnız çarxı saxlayan oxda olur. Əgər ox sıradan çıxana qədər müxtəlif fiziki, texniki tədbirlər görül-

məklə yanaşı, ciddi iqtisadi tədbir görülməsə, o da sıradan çıxacaq. Yəni iqtisadi artımı iqtisadi azalma yox, iqtisadi tənəzzül əvəz edəcək. Belə vəziyyətdə də yalnız iqtisadiyyatı bir qədər əlverişli şəraitə gətirmək üçün qısamüddətli tədbirlər görüləcək. Ona görə də iqtisadi artımı makroiqtisadi səviyyədə mövcud olan göstəricilər vasitəsilə qiymətləndirmək də çox vacib olan şərtlərdəndir.

İndi isə konkret olaraq iqtisadi artımın ayrı-ayrı amillərinin mahiyyəti üzərində dayanaq.

**Təbii resursların kəmiyyət və keyfiyyəti.** Qeyd etməliyik ki, iqtisadi artımın bu amili iqtisadiyyatın bir növ start götürülməsi üçün çox vacibdir. Çünki, təbii resursların istehsala cəlb olunmasından əvvəl onun mövcud səviyyəsi iqtisadiyyatın aparılma istiqamətinin müəyyənləşdirilməsinə imkan yaradır. Bu da bir qayda olaraq, təbii resursları zəngin olan ölkələrdə kənd təsərrüfatının sürətli inkişafına səbəb olmaqla onun sənayesinin inkişafının təməl daşını qoyur. Təbii resurslar dedikdə, burada adətən torpaq, xammal resurslarını, yerin təkindən hasil olunan və su şelfindən əldə olunan resursları fərqləndirmək lazımdır. Torpaq bir qayda olaraq, kənd təsərrüfatı işlərinin aparılması üçün zəruridir. Aydındır ki, münbit torpaq sahələrinin çoxluğu kənd təsərrüfatı məhsullarının artırılması deməkdir. Lakin bu, bir qayda olaraq, sənayecə zəif inkişaf etmiş ölkələr üçün əhəmiyyət daşıyır. Sənayecə inkişaf etmiş ölkələrdə torpaq keyfiyyətcə yaxşılaşdırılır, onun həcminin çox və ya azlığı heç də əsas amil rolunu oynamır. Lakin torpaq istehsal üçün əhəmiyyətini hər şəraitdə saxlayır. Çünki, şoran, yararsız, qumlu, bataqlıqlı torpaq sahələrini əlavə kapital tətbiq etməklə yararlı vəziyyətə gətirmək mümkündür ki, bu da istehsalın amili kimi onun fəaliyyətini əsaslandırır.

Xammal resurslarına gəldikdə göstərməliyik ki, onlar iki qismə bölünür: birinci, tükənən resurslara və ikinci, yenilənən resurslara. İstehsal olunan məhsulların kəmiyyəti,

bir qayda olaraq, tükənən və yeniləşən resurslara müxtəlif şəkildə təsir göstərir. Əgər neft-yanacaq sənayesində yalnız mazut kimi istifadə olunursa, onda onun tükənməsi ilə yanaşı sürətli şəkildə hasilat vaxtının azalmasına da gətirib çıxaracaqdır. Yaxud bir hektar meşə sahəsi kəsilib taxta-şalban kimi istifadə olunursa və əvəzində başqa sahədə meşə salınmırsa, bu gələcəkdə taxta-şalbana olan ehtiyacın sürətlə artmasına gətirib çıxaracaqdır.

Tükənən xammallara, bir qayda olaraq, neft, qaz, daş kömür və s., yeniləşən xammallara isə balıqçılığı, meşəçiliyi misal göstərə bilərik.

Hər iki şəraitdə, istər tükənən, istərsə də yeniləşən resurslardan səmərəli istifadə etmək lazımdır. Göstərdiyimiz kimi, əgər yanacaq sənayesi yalnız mazutla işləsə, deməli, onun tükənməsi sürətlənəcək və yaxud da onu əvəz edəcək digər yanacaq növündən istifadə olunarsa, (elektrik enerjisi, atom-nüvə enerjisi, günəş şüası və s.) onda neft tükənməsinin qarşısı tədricən alınacaq. Başqa sözlə demiş olsaq, xammal resurslarından istifadədə təbii təkamül yoluna üstünlük verilməlidir. Bir cəhəti də xüsusi qeyd etmək lazımdır ki, təbii sərvətləri zəngin olan ölkələr, bir qayda olaraq, onlardan sənayecə inkişaf etmiş ölkələrin vasitəsilə (OPEK istisna etməklə) istifadə olunur, yaxud da həmin sərvətlərə müxtəlif korporasiyalar nəzarət edir. Deməli, iqtisadi artım üçün təbii resursların kəmiyyət və keyfiyyətini qiymətləndirərkən onların son məhsulların əldə olunmasındakı roluna diqqət yetirmək lazımdır.

**Əmək resurslarının kəmiyyət və keyfiyyəti** iqtisadi artımda xüsusi rola malikdir. Belə ki, məhsul artımını, ya əmək resurslarından, ya da onlardan daha məhsuldar istifadə etmək yolu ilə əldə etmək olar. Yəni əmək sərfinin artırılması ilə vaxt vahidi ərzində daha çox məhsul istehsal etmək olar. Bu baxımdan əmək sərfi dedikdə, məhsul istehsalında məşğul olanların sayı və işlənmiş saatların orta miqdarı nəzərdə tutulur. Əmək sərfinin daşıyıcısı olan iş qüvvəsi

təhsil və peşə hazırlığından asılı olaraq iqtisadi artımın sürətinə müxtəlif dərəcədə təsir göstərir. Əhalinin təbii artım sürəti yüksək olan, lakin onların təhsili və peşə hazırlığı aşağı olan ölkələrdə o, iqtisadi artımın nəinki sürətinə, əksinə onun ləngiməsinə səbəb olur.

Belə bir cəhəti də diqqət mərkəzində saxlamaq lazımdır ki, istehlak məhsullarının artımı, həyat səviyyəsinin artımı ilə yanaşı əhalinin sayının artmasına da səbəb olur. Bu hər şeydən əvvəl o şəraitdə baş verir ki, istehsalın şəxsi istehlak sahəsindəki artımı, onun əhalinin təbii artımı arasındakı uyğunsuzluq hallarının qarşısını almış olur. Digər tərəfdən səhiyyə xidmətinin yaxşılaşması ilə uşaq ölümünün qarşısı alınmış olur. Lakin demoqrafik proseslərin, yəni əhali arasında doğum və ölüm hallarının müxtəlifliyi əhalinin və məşğul olanların sayına təsir göstərməklə iqtisadi artımın mühüm göstəricisi kimi iqtisadi inkişaf proqramının önündə durmalıdır.

**Əsas kapitalın həcmi.** Göstərmək lazımdır ki, ölkənin milli məhsulunun və ya milli gəlirinin artımının xeyli hissəsi əsas kapitalın həcminin, başqa sözlə, əsaslı vəsait qoyuluşunun yüksəlməsi hesabına əldə olunur. Təxmini hesablamalara görə dünyanın bir sıra inkişaf etmiş ölkələrində əsaslı vəsait qoyuluşu hesabına milli gəlirin real artımının 15-20 faizi əldə olunur. Aydındır ki, işçinin əmək məhsuldarlığı o vaxt yüksəlir ki, o, vaxt vahidi ərzində daha çox kapitaldan istifadə etmiş olsun. Bu da o vaxt baş vermiş olur ki, istehsal prosesində daha səmərəli və faydalı nəticə verən investisiyaya cəlb olunmuş olsun. Başqa sözlə, torna dəzgahı, pambıqyığan maşın, neft emal edən qurğu, dondurma buraxan, ətçəkən maşınlar, daha təkmil və qısa müddətdə daha çox fayda gətirən maşın, texnika və qurğularla əvəz olunsun. Əlbəttə, belə şəraitdə əgər işçilərin sayı azalarsa, onda əsas kapitalın məcmu kütləsi artar və onun adambaşına düşən həcmi, yəni fondlarla silahlanma yüksələr. Əgər işçilərin sayının artımı investisiya olunan kapitalın həcminin artımına

nisbətən yüksək olarsa, onda faktiki olaraq əmək məhsuldarlığı aşağı düşər və iqtisadi artımın da sürəti ləngiməyə başlayar. Belə vəziyyət istər bazar sistemli ölkələr üçün istərsə də inzibati-dövlət idarəetmə sistemli ölkələr üçün olsun, nəticə eynidir, lakin, çıxış yolu müxtəlifdir. Bazar sistemli ölkələrdə xüsusi mülkiyyətin çevik və səmərəli fəaliyyəti hesabına mövcud vəziyyətdən çıxış yolu tez tapılır, çünki, bu ölkələrdə ağırlıq mərkəzi, müxtəlif sahibkarlar üzərinə düşür.

Bazar sistemli ölkələrdə əsas kapital qoyuluşu dövlət tərəfindən çox vaxt elə sahələr üzərinə yönəldilir ki, onlar gələcəkdə iqtisadiyyatın bütün bölmələrinin səmərəli fəaliyyətinə təkan vermiş olurlar. Məsələn, dəmir yolları, şoselər, su təjhizatları, kanalizasiya, hava limanları, qaz və istixana sistemləri və s. infrastruktur sahələr kimi dövlət tərəfindən investisiya edilir. Öz növbəsində bu sahələr iqtisadi artımın təmin olunmasına imkan yaradır.

**Texniki tərəqqi.** Göstərməliyik ki, iqtisadi artıma təsir edən amillər arasında texniki tərəqqinin özünəməxsus yeri vardır. Düzdür, texniki tərəqqiyə qədər izah etdiyimiz amillər də özünəməxsus təsir dairəsinə malikdir, lakin texniki tərəqqi iqtisadi artımı hərəkətə gətirən mərkəzi qüvvədir. Texniki tərəqqinin iqtisadi artım üçün həlledici rola malik olmasını onda görmək olar ki, istər təbii, istər əmək resursları, istərsə də kapital tətbiqi olsun, bunların hər biri bilavasitə texniki tərəqqidən asılıdır. Bu baxımdan artımın bu amilləri texniki tərəqqi vasitəsilə vəhdət halında fəaliyyət göstərirlər. İqtisadi həyatda texniki tərəqqiyə doğru meyil müşahidə olunmursa, onda artım amilləri təcrid olunmuş şəkildə fəaliyyət göstərəcək və tələb olunan heç bir istənilən nəticə əldə olunmayacaq. Ona görə də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə texniki tərəqqinin özünün təminedici amilləri olan elmin özünə, təhsilə və idarəetmə sisteminə xüsusi diqqət yetirilir. Daha doğrusu, iqtisadi artım üçün elə bir dövrün gəlib çatacağı nəzərdə tu-

tulur ki, bütün investisiyanın önündə insan kapitalı duracaq. Bunun nəticəsində də dünyanın bütün qabaqcıl ölkələrində elm və təhsil sahəsindəki problemlər uzunmüddətli iqtisadi siyasətin önündə durur.

Adətən texniki tərəqqi dedikdə, burada yeni texnologiyanın, yüksək keyfiyyət göstəricilərinə malik olan alət və avadanlıqların yaradılması, yaxud da tamamilə yeni metodla aparılan istehsal prosesi başa düşülür. Halbuki yeni istehsal prosesinin özünün təşkili və idarə olunması da məhz texniki tərəqqinin mühüm istiqamətlərindəndir. Ona görə də texniki tərəqqi dedikdə, yeni istehsal prosesi və təkmilləşdirilmiş texnologiya, istehsalın təşkili və idarə edilməsinin yeni metodu başa düşülməlidir. Texniki tərəqqinin tətbiqində məqsəd yalnız məhdud resurslardan səmərəli istifadə edib tələbatı ödəyə bilən və ya ona müəyyən dövr ərzində cavab verə bilən son məhsul istehsalı başa düşülür. Tutaq ki, neft hasilatı sahəsində yeni avadanlıqlar tətbiq edilib ki, çox neft istehsal edilsin, lakin onun emalı zamanı ondan yüksək oktanlı benzin alınmırsa, deməli, neft hasilatı sahəsində texniki tərəqqinin kəsb etdiyi əhəmiyyətdən hələ tam danışmaq olmaz. Texniki tərəqqinin nailiyyəti istehsalın elə istiqamətini əhatə etməlidir ki, həmin proses son məhsulda hüdudlaşsın. Deməli, neft hasilatında, onun həm emalı, həm də ona xidmət edən sahələrdə kompleks şəkildə texniki tərəqqinin nailiyyətlərindən istifadə edilməlidir.

Göstərməliyik ki, iqtisadi artıma təsir edən amillərdən biri də **məcmu xərclərin səviyyəsinin yüksəldilməsidir.** Əvvəlki sadaladığımız 4 amildən fərqli olaraq, bu amil və haqqında bir qədər sonra danışacağımız **resursların kəmiyyətinin səmərəli bölgüsü** amili tələb amillərinin fəaliyyəti ilə bağlanır (yəni iqtisadi artımın bütün amilləri məcmu şəkildə fəaliyyət göstərdiyi bir şəraitdə tətbiq olunacaq, məhdud resurslardan istifadə məsələsi qarşıya çıxacaqdır). Deməli, hər hansı bir məhsul istehsalı üçün nəzərdə tutulan resursun xərclənməsi, onun digər bir alternativ məhsul is-

tehsalı üçün istifadəsini qeyri-mümkünləşdirir. Bu o deməkdir ki, iqtisadi artımın hər hansı səviyyəli sürətini əldə etmək üçün istehsal imkanlarını mütləq nəzərə almaq lazımdır. Hesab edək ki, sement istehsalının illik imkanı 100 min tona bərabərdirsə, onun bir hissəsi mənzil tikintisi, digər hissəsi özüllüklərin hazırlanması üçün nəzərdə tutulmuşdursa, bu halda iri bəndlərin hazırlanması üçün ondan istifadə etmək mümkün olmayacaqdır. Onda gərək ya mənzil tikintisi dayansın, ya da özüllüklər istehsalı. Yəni xərclərin səviyyəsini yüksəldərkən mütləq onun tətbiq olunduğu digər sahələrdəki həcmini azaltmaq lazımdır.

Digər tərəfdən hesab edək ki, il ərzində 100 min ton unüyüdən dəyirmana gətirilən buğdanın həcmi 50 min ton aşağı düşürsə, deməli, orada tətbiq olunan bütün məcmu xərclərin səmərəliliyi və həmin sahədə çalışan işçilərin məhsuldarlıqları aşağı düşəcək. Hesab edək ki, 100 hektar sahənin hər hektarında heç bir əlavə kultivasiya aparmadan 15 sent. pambıq əldə edilir. Əgər həmin sahə bir dəfə kultivasiya edilirsə məhsuldarlıq 30 sentnerə, iki dəfə kultivasiya edilirsə 34 sentnerə, üç dəfə kultivasiya edilərək 39 sentnerə çatdırılsa, sonrakı edilən bütün kultivasiya işlərində artıq məhsuldarlıq dayanacaqdır (yəni sonradan tətbiq olunacaq xərclərə nisbətən əldə olunacaq məhsul sıfra bərabər olacaqdır). Əgər belə olmasaydı bütün torpaqlardan intensiv istifadə etməklə dünyada pambığa olan tələbatı tam ödəmək olardı. Bütün bu misallardan o nəticəyə gəlmək olur ki, çəkilən hər cür xərclərin olduğundan istənilən nəticəni əldə etmək mümkün deyil. Xərclərin tətbiqi artdıqca onların verimi heç də düz istiqamətdə artmır, çünki xərclərin müəyyən tətbiqi səviyyəsində verimi sıradan çıxmağa başlayır.

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, iqtisadi artımın tə'min edilməsinə məcmu xərclərin tətbiqi elə səviyyədə olmalıdır ki, onlar mövcud resurslardan tam istifadə etməklə müəyyən tələbatı ödəyən məhsul istehsalı

ilə hüdudlaşmış olsunlar. Yəni istehsal imkanları resurs tətbiqi ilə uyğunlaşdırılarkən istənilən artım səviyyəsini əldə etmək mümkün olsun.

**Artan resursların kəmiyyətinin səmərəli bölgüsü.** Resurslardan səmərəli istifadənin iqtisadi artım üçün oynadığı rol nə qədər əhəmiyyətlidirsə, onların səmərəli bölgüsü də bir o qədər əhəmiyyətə malikdir.

Tutaq ki, 5 ton həcmində mövcud olan metal lövhələr həm avtomobil, həm paltaryuyan maşın, həm də soyuducular üçün istifadə olunmalıdır. Deməli, bu metal lövhələr elə bölünməlidir ki, mövcud dövr ərzində heç bir sahənin inkişaf perspektivini ləngitmədən həmin sahənin fəaliyyətini təmin etməklə bu sahələrin məhsullarına olan tələbatın ödənilməsi üçün məhsul təklif etmək imkanı olsun. Artan resursların kəmiyyətinin səmərəli bölgüsü bazar sisteminə keçid şəraitində bizim ölkəmizin iqtisadiyyatı üçün daha xarakterikdir. Çünki tələb amili rolunda çıxış edən resursların bölgüsü dövlətin əlində cəmləşdiyi üçün onun səmərəli mexanizminin tətbiqi istehsal sahələrinin məhsuldar fəaliyyətini təmin edə bilər.

## 7.3. İqtisadi artımın tipləri

İqtisadi artımın amilləri barədə danışarkən biz əsasən təklif və tələb amilləri qrupları barədə məlumat verdik. Lakin qeyd etməliyik ki, bu amillərlə yanaşı elə amillər də fəaliyyət göstərir ki, onlar iqtisadi artımın keyfiyyət halına təsir göstərməklə, son nəticədə, istehsal prosesinin nəticəsini yüksəltməklə artım sürətinin mənbəyini əks etdirir. Buna misal olaraq istehsalın proporsional inkişafını, stimullaşdırma mexanizminin yaxşılaşdırılmasını, xalq təsərrüfatı strukturunun tarazlaşdırılmasını, istehsalın ərazi üzrə tənzimlənməsini və s. göstərmək olar. Onların barəsində yeri gəldikcə məlumat verəcəyimizi nəzərə alaraq yalnız onu qeyd edə bilərik ki, bu amillər qrupunun fəaliyyət mexa-

nizmini iqtisadi gedişatın tipindən asılı olaraq həyata keçirmək mümkündür.

Ümumiyyətlə, iqtisadi artımın iki mühüm tipi mövcuddur: ekstensiv və intensiv. Lakin bu tiplərin iqtisadi inkişafın müxtəlif mərhələlərində bir sıra formaları ola bilər. İqtisadi artımın ekstensiv tipi dedikdə, burada istehsal prosesinin həm miqyasının genişlənməsinə səbəb olan, həm də əldə olunan nəticə üçün daha artıq resurslardan, kapitaldan ibarət iqtisadi artımın amillər qrupundan istifadə edilməsi başa düşülür. Başqa sözlə, amillərin kəmiyyət çoxluğunu istehsala cəlb etməklə əldə olunan nəticə üçün daha çox resurs sərf olunduğu müşahidə olunur. Lakin intensiv tip barəsində bunu demək olmur. Çünki belə şəraitdə istehsalın miqyasını yalnız əlavə resurslardan istifadə etməklə tələbatı ödəyə biləcək məhsul istehsalı nəzərdə tutulur.

Ümumiyyətlə, artımın ekstensiv tipi əgər onun kəmiyyət tərəfini daha çox əks etdirirsə, intensiv tipi isə onun keyfiyyət göstəricilərini əks etdirir. Məhz bu baxımdan bəzən elə iqtisadi artımın amillərini və ya mənbələrini göstərərkən, bir qayda olaraq, onun ekstensiv və intensiv amillərinin adı çəkilir. Bir cəhəti də xüsusi qeyd etməliyik ki, iqtisadi artımın «qiymətini», daha doğrusu, onun cəmiyyətə neçəyə başa gəldiyini müəyyənləşdirmək üçün iqtisadi artımın tiplərindən istifadə etmək zəruriləşir.

İqtisadi həyatda artımın tipləri xalis formada fəaliyyət göstərmir, yəni tam demək mümkün deyil ki, iqtisadi inkişafın filan mərhələsində sırf iqtisadi artımın ekstensiv və ya intensiv tipi fəaliyyət göstərmişdir. Adətən, onlar vəhdət şəklində fəaliyyət göstərirlər. Lakin inkarolunmaz hal kimi qeyd olunmalıdır ki, artımın intensiv tipi hər şəraitdə iqtisadi inkişafın yeni keyfiyyət halına salınmasına səbəb olur.

Bir qayda olaraq, iqtisadi artımın intensiv tipi ictimai istehsalın intensivləşdirilməsinin meydana gəlməsi, qərarlaşması və inkişafı şəraitində baş verir. İntensivləşdirmə, ümumiyyətlə, təsərrüfatçılığın qanunauyğun prosesi olub

istehsalın səmərəliliyini təmin edir. Bu baxımdan intensivləşdirmə bazar sistemli ölkələrlə qeyri-bazar sistemli ölkələrdəki fəaliyyətə uyğun şəraitdə baş vermir. Düzdür, hər şəraitdə intensivləşdirmə tətbiq olunan istehsal məsrəfləri vahidinin səmərəsinin yüksəldilməsini əks etdirir. Lakin bazar sistemli ölkələrdə, əgər intellektual və informasiya potensialı birbaşa təkrar istehsal prosesinin sosialyönümünün qərarlaşmasına xidmət göstərirsə, bu cəhət qeyri-bazar sistemli ölkələrin iqtisadiyyatına, əsasən istehsalın miqyasının istehsal xatirinə genişlənməsinə təsir göstərir.

Başqa sözlə, intensivləşdirmə prosesinin gedişatı, texnoloji istehsal üsulunun formalaşmasını təmin etməklə intensiv tipli iqtisadi artımı əsaslandırır.

Texnoloji istehsal üsulunun mütərəqqi istehsal prosesinə əsaslanan intensivləşdirmə, əsasən məhsul vahidinə sərf olunan resursların miqdarının azalmasına, vaxt vahidi ərzində tələbatı ödəyəcək məhsul artımının baş verməsinə səbəb olur. Deməli, intensivləşdirmə prosesi məhdud resurslardan artan tələbatların ödənilməsinə xidmət edərək şəxsiyyətin hərtərəfli inkişaf etməsinə şərait yaradır, yəni intensivləşdirmənin fəaliyyət baxımından sosial istiqamətə yönümü daha genişdir. Çünki intensivləşdirmə iri, mütərəqqi maşınlı istehsala əsaslanır, vaxta qənaətə aparır, tələbatın artmasına səbəb olur. Lakin belə qənaətə gəlmək olmaz ki, intensivləşdirmə özbaşına fəaliyyət göstərir. İntensivləşdirmə prosesinin təmin olunmasında ixtisaslaşdırmanın genişləndirilməsi və dərinləşdirilməsi xüsusi rol oynayır. İqtisadi əlaqələrin fasiləsizliyi və möhkəmlənməsi mühüm üstünlüklərə malikdir. Ona görə də bazar sisteminə keçid şəraitində onun tənzimlənmə mexanizminə əsaslanmaq lazımdır.

Çox böyük bir səhv nəticə olardı ki, azad bazar iqtisadiyyatı hər cür demokratikləşməyə şərait yaradır. İstehsalın, xüsusən də intensiv tipli iqtisadiyyatın demokratikləşdirilməsində, mütləq, birmə'nalı olaraq iqtisadiyyat dövlət tərəfindən tənzim olunmalıdır. Çünki yeni iqtisadi

sistemin özünəməxsus dövlət quruculuğu olmaqla ona uyğun iqtisadi mexanizmi yaranmalıdır.

Tutaq ki, keçmiş SSRİ iqtisadiyyatı sistemində əks olunan bir sıra iqtisadi mexanizmin üzərinə, müxtəlif bazar sistemli ölkələrin iqtisadi mexanizmini, bir qədər də milli xüsusiyyətləri əlavə etməklə yeni iqtisadi sistem yaranır. Burada xalqın mənafeyinə tamamilə uyğun gələn, uzun müddət hamının məcburi şəkildə tətbiq etmiş olduğu əməyin nəticəsində yaranmış sərvətləri qorumaqla, ondan hamının töhfələnməsi üçün ilkin start yaratmaq lazımdır. Yəni şəxsi azadlıqla iqtisadi azadlığın vəhdətlənməsi üçün iqtisadiyyat demokratikləşməlidir. Burada dövlət ilkin şəraitdə əsas rol oynamaqla və iqtisadiyyatın sabit inkişafına şərait yaratmaqla xüsusi sahibkarlığa meydan açmalıdır. Belə şəraitdə tənzimlənmə prosesi dövlətin iqtisadi funksiyasına tabe olmalı, onun hüquqi funksiyasının icra olunmasına meydan açmalıdır.

İqtisadi artımın amillərinin inkişaf meylindən və nisbətlərindən asılı olaraq onun intensiv tipinin başlıca olaraq üç forması mövcuddur: fondtutumlu, resursqoruyucu, fondaneytral.

Fondtutumlu forma canlı əməyin qənaətini əks etdirməklə, məsrəflərdə istehsal vasitələrinin payının artması ilə əməyin fondlarla silahlanmasının yüksəldilməsini göstərir.

Resursqoruyucu forma üçün məhsul vahidinə sərf olunan canlı əmək məsrəflərinin və istehsal fondlarının payının eyni vaxtdakı qənaəti xarakterikdir.

Fondaneytral forma isə istehsalın intensivləşdirilməsinin xüsusi hallardakı xüsusiyyətini əks etdirir, fondtutumlu və resursqoruyucu formalar arasındakı hədləri müəyyənləşdirməyə imkan verir.

İqtisadi artımın intensiv tipinin bu formalarını göstərməklə belə nəticəyə gəlmək olmaz ki, iqtisadi inkişafın hər hansı bir mərhələsi üçün bu formaların hər bir səviyyəsi olub. Deməli, əgər intensiv tip fəaliyyət göstəribsə, belə şə-

raitdə onun formalarının hər üçü eyni vaxtda fəaliyyət götərib. Ancaq belə şəraitdə hər hansı biri aparıcı olub. Hazırkı dövrün sosial-iqtisadi inkişafına nəzər salsaq, iqtisadi tənəzzülün dərinləşdiyi bir şəraitdə iqtisadi artımın intensiv tipindən danışmaq bir qədər iqtisadi hadisələrin gedişatından kənarda olsa da göstərməliyik ki, yaxın gələcək üçün labüd hal kimi iqtisadi artımın intensiv tipinin fondtutumlu forması üstünlüyə malik olacaqdır. Çünki texniki tərəqqini müəyyən edən sahələri (bu sahələr də fondtutumludur) inkişaf etdirmədən heç cür iqtisadi artımın ekstensiv amillərindən belə səmərəli istifadə etmək olmayacaqdır. Sonrakı mərhələdə iqtisadiyyatın sosial yönümü genişləndikcə iqtisadi inkişafın fondtutumlu formasını resursqoruyucu forması əvəz edəcəkdir. İntensivləşdirmə şəraitində fondtutumlu və resursqoruyucu formalar sadəcə olaraq bir-birini əvəz etmir. Onların bir-birinə təsir dairəsi elədir ki, fondtutumlu formanın amilləri resursqoruyucu formanın amillərinə çevrilə bilər. Məsələn, buna misal olaraq göstərə bilərik ki, əsas istehsal fondlarının aktiv hissəsini yeniləşdirməklə intensivləşdirmə intensiv inkişafın fondtutumlu forması vasitəsilə təmin olunur. Yaradılmış istehsal avadanlıqlarının hər manatından əlavə xalis məhsul əldə etmək mümkün olar. Bu da o deməkdir ki, intensiv artımın resursqoruyucu amili fəaliyyət göstərməyə başlamışdır. Ona görə də hər hansı konkret dövrdə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi ilə əlaqədar iqtisadi artımın intensiv tipinin formalarının bir-biri üçün zəmin yaratdığını müşahidə etmək olar.

Bununla yanaşı qeyd etməliyik ki, iqtisadi artımın ekstensiv tipi şəraitində onun kəmiyyət amilləri tükəndikcə (əmək, maddi, yanacaq, enerji resursları, kapital qoyuluşları) eyni zamanda onlardan istifadənin səmərəliliyi aşağı düşdükcə, təbii resursların əldə olunması bahalaşdıqca cəmiyyətin sərf edəcəyi mövcud xərclərin kütləsi də artmağa başlayacaqdır. Digər tərəfdən, onun intensiv tipi üçün xarakterik olan keyfiyyət amillərinə ehtiyac, eyni za-

manda resurslara olan tələbat yüksəldikcə, əlavə məsrəflərin xərclənməsinə səbəb olacaqdır. Belə şəraitdə iqtisadi artımın ən zəruri səviyyəsinin əldə olunması üçün iqtisadi artımın tiplərinin fəaliyyətindəki iqtisadi mühiti diqqət mərkəzində saxlamaq lazımdır.

### 7.4. İstehsalın səmərəliliyi və iqtisadi artımın tərəddüdlü hərəkəti

Səmərəlilik, ümumiyyətlə, iqtisadiyyatın hərəkətverici qüvvəsidir. Səmərəlilik prosesinin həyata keçirilməsi istehsalın həcminin artırılmasına, iqtisadi artımın sürətinin yüksəldilməsinə, təkrar istehsal prosesinin miqyas və xarakterinə təsir göstərir. Ümumiyyətlə, hər bir səmərənin müəyyən həddi vardır. Hesab edək ki, bir sahənin səmərəsinin artırılmasına çalışırıqsa, deməli, bu, digər sahənin səmərəsinin azalması deməkdir. Yaxud da bir qrup əhali üçün tutaq ki, yalnız birtərəfli olaraq uşaq paltarları istehsal edən sahənin səmərəsinin yüksəldilməsinə çalışırıqsa, deməli, böyüklər üçün paltar istehsal edən sahənin səmərəsi azalacaqdır. Belə şəraitdə səmərəlilik kompleks şəkildə yüksəldilməlidir. Yəni məhsul istehsalına çəkilən xərclər, tətbiq olunan maşın və avadanlıqlara, ümumiyyətlə, texnoloji sistemdən buraxılan məhsullara maddi və əmək məsrəfləri azaldılmalıdır.

Ümumiyyətlə, səmərəlilik anlayışı ən çox dövlət təsərrüfatçılıq forması üçün səciyyəvidir, çünki bazar sistemi hər şəraitdə səmərəli formada fəaliyyət göstərir. Başqa sözlə, səmərəli təsərrüfat qurmayanların bazarda yeri yoxdur. Məhz dövlətin iqtisadiyyata müdaxilə etməsi səbəblərindən biri cəmiyyət miqyasında istehsalın səmərəli fəaliyyət göstərməsi ilə bağlıdır. Çünki, bildiyimiz kimi, bazar sistemli ölkələrdə hamının nəinki səmərəli fəaliyyət göstərməyə imkanı yoxdur, heç onların hamısının işləmək qabiliyyəti yoxdur.

Belə ki, istehsalın tərəddüd halına düşməsində, il ərzindəki iqtisadi aktivliyə təsir göstərən mühüm amillərdən biri də mövsümilikdir. İl ərzindəki iqtisadi artımın tərəddüdünə ölkələr üzrə diqqət yetirilsə, görmək olar ki, bu proses sənayecə, kənd təsərrüfatı üzrə inkişaf etmiş ölkələr üçün eyni hala malik deyildir. Belə ki, sənayecə inkişaf etmiş ölkələrdə iqtisadi aktivlik yay aylarında aşağı düşdüyü halda, kənd təsərrüfatı inkişaf etmiş ölkələrdə isə əksinə, bu aylarda iqtisadi aktivlik yüksəlir. Çünki, birində yay aylarında çoxu istirahət edir, digərlərində isə il ərzində tərəddüdlü proseslərin gedişatı iqtisadi artım səviyyəsinə təsir göstərir.

İqtisadi artımın tərəddüdlü vəziyyətə düşməsi və ya kəsikli hərəkəti demoqrafik sahədə baş verən dəyişikliklərdən asılıdır. Buna misal olaraq ancaq, yoluxucu xəstəlikləri və ya müharibənin baş verdiyi şəraitdə ölüm və doğum sahəsindəki kəskin dəyişiklikləri göstərmək olar. Belə hallarda ölənlərin sayı durmadan artır, lakin doğum səviyyəsi həddindən artıq aşağı düşür. Bu da öz növbəsində uzun müddət həm əhalinin, həm də məşğul olanların sayına ciddi təsir göstərərək iqtisadi inkişafın dinamikasını ləngidir.

Uzun, qısa və dalğavarı iqtisadi artımın mühüm amillərindən biri əsas kapitalın xidmətinin müddəti və yeniləşdirilməsidir. Ümumiyyətlə, aparılan hesablamalara görə, adətən əsas kapitalın elementlərinin yeniləşdirilməsi 4 il müddətində baş verir. Başqa sözlə, bu məqsədlə ehtiyacların həddindən çox buraxılması və ya saxlanılması bu sahədəki resurslardan qeyri-səmərəli istifadə olunması deməkdir.

İqtisadiyyatda baş verən tərəddüdlü vəziyyətin uzun müddət davam etməsi iqtisadçıları daima düşündürmüş və ona cavab tapmağa sövq etmişdir. İngilis iqtisadçısı U.Cevons uzunmüddətli dalğavarı artımın ilk tədqiqatçısı olmuşdur. Statistik məlumatların məhdudluğu üzündən o, yalnız qiymətin dinamikası ilə kifayətlənmişdir. Bundan sonra isə uzunmüddətli dalğavarı iqtisadi artımı borc faizi

stavkasının dinamikası ilə əlaqələndirmişdir. Lakin rus iqtisadçısı N.Kondratyevin 20-ci illərdə dərc etdirdiyi əsərindən sonra, uzunmüddətli dalğavarı iqtisadi artımın baş verməsinin bütün təsərrüfatçılıq sistemində baş verən dəyişikliklərlə əlaqədar olduğu göstərilmişdir.

Məşhur Avstriya iqtisadçısı Y.Şumpeterin uzunmüddətli dalğavarı artım nəzəriyyəsinin inkişafında böyük xidməti olmuşdur. O, kapitalizmin modelləşdirilməsi ilə bağlı göstərmişdir ki, innovasiya prosesinin gedişatı həm sahibkar mənfəətinə, həm kapitalın həcminə, həm də faizin səviyyəsinə təsir göstərir. O dərc etdirdiyi «İqtisadi inkişafın nəzəriyyəsi» (1911-ci il) və «İqtisadi tsikl» (1939-cu il) əsərlərində kapitalist istehsal prosesinin həm nəzəri, həm tarixi, həm də statistik təhlilini verməklə, ümumiyyətlə, iqtisadiyyat üçün xarakterik olan tərəddüdlü tsiklik vəziyyətlərin qarşılıqlı əlaqədə olduğunu sübut etmişdir. Qısa, uzun və dalğavarı artım vəziyyətinin gedişatının bilavasitə elmi-texniki tərəqqi ilə əlaqədar olduğunu göstərmişdir. İlk dəfə olaraq göstərmişdir ki, uzunmüddətli dalğavarı artımdakı tərəddüdlərin gedişatı elmi-texniki tərəqqinin qeyri-bərabər inkişaf etdirilməsindən asılıdır. Məhz buna görə də elmi-texniki tərəqqinin nailiyyətlərinin əldə olunması və tətbiqi iqtisadi artımın gedişatının müntəzəmliyinin təmin olunmasının, onun bütün amillərinin kompleks hərəkətə gətirilməsinin önündə durmalıdır.

İqtisadi artım nəzəriyyəsinin mənimsənilməsində istehsal funksiyasının rolunun müəyyənləşdirilməsinin xüsusi əhəmiyyəti vardır. Hələ zahiri, empirik tədqiqatların aparıldığı şəraitdə iqtisadi artımın əldə olunmasında istehsal funksiyasının rolu qeyd olunmuşdur. J.B.Klark məhsul buraxılışının həcmi ilə məsrəf amilləri arasındakı əlaqəni istehsal funksiyası adlandırmışdır. İstehsal funksiyasının fərqləndirici cəhəti, iqtisadi artımın müəyyən müddət ərzində istehsal məsrəfləri ilə amillərinin dəyişilməsini əks etdirilməsindədir. İstehsal funksiyası iqtisadi dinamikanın vaxt ərzində istehsal həcmi

ilə ona sərf olunmuş amillər arasındakı əlaqəni əks etdirməkdən ibarətdir. Lakin zahiri müşahidələr heç də məhsul istehsalındakı sərf olunan amillərin artımını tam əks etdirmir. Başqa sözlə, vaxt keçdikcə, məhsul vahidi ilə ona sərf olunan əmək və kapital məsrəfləri arasındakı uyğunsuzluq istehsalın həcmi, ona sərf olunan məcmu resursların məsrəfinə nisbətən daha sürətlə artır. Belə şəraitdə iqtisadi artıma digər amillərin təsirinin də üzə çıxarılması zəruriləşir. Daha doğrusu, istehsal üçün təkcə əmək və kapital resursları ilə yanaşı texniki tərəqqinin də mühüm rola malik olduğu göründü. Yəni texnoloji proseslərin mövcud vəziyyəti və onların dəyişilməsi vaxt vahidi ərzində adambaşına düşən məhsul istehsalını artıracaq.

## 7.5. İstehsal funksiyası. İqtisadi artımın dövlət tənzimlənməsi

Amerika iqtisadçısı Ş.Duqlas və riyaziyyatçı J.Kobb 1928-ci ildə istehsal funksiyası ideyasını iqtisadi tədqiqatlara gətirmişlər. Onların şərəfinə də istehsal funksiyası Kobb-Duqlas funksiyası adı ilə məşhurlaşmışdır. İlk dəfə olaraq onlar ABŞ-ın sənayesində əmək və kapital məsrəflərinin məhsulun həcminə olan təsirini müəyyənləşdirməyə cəhd etmişlər. Elektrik xarakterli bu tədqiqatlar əslində real iqtisadi həyatda baş verən dəyişikliklərin təhlilinin verilməsinə imkan yaratdı. Lakin bu tədqiqatlarla istehsalla kapital və əmək arasındakı statistik əlaqəni göstərməklə «Son məhsuldarlıq» nəzəriyyəsi ilə kifayətlənmiş olurlar. Bununla yanaşı, onlar iqtisadi artımın ayrı-ayrı amillərin kəmiyyəti üzrə qiymətləndirilməsinin və istehsalın həcmindən asılı olmayaraq amillərin daimi səmərəliliyi fikrindən daşınmağın əsasını qoydular. Digər tərəfdən iqtisadi artıma müstəqil amil kimi texniki tərəqqinin təsir göstərdiyi sübuta yetirildi.

Beləliklə, istehsal funksiyasını əks etdirən Kobb-Duq-

las modeli aşağıdakı kimi şərh edilir.

$$Y = A \cdot L \cdot K$$

Burada, Y- məcmu məhsul, A - istehsalın texnoloji parametri, L - əmək məsrəfi, K - kapital məsrəfi.

Göründüyü kimi, bu formulda təbii resursların rolu nəzərə alınmayıb. Əslində bu heç də o demək deyildir ki, təbii resursların rolu bilərəkdən nəzərə alınmayıb. Bu real şəraitdə təbii resurs məsrəflərinin hesablanması çətinliyi ilə əlaqədardır.

Bu modelin neoklassik şərhi, orada əmək və kapital məsrəflərinə üstünlük verilməsi, təbii resursların rolunun nəzərə alınmaması, xüsusən ETT-nin iqtisadi artımdakı rolunun istehsal funksiyasına daxil edilməməsi, sonralar onun Xiksə, Solouya, Xarroda görə modellərinin meydana gəlməsinə səbəb olmuşdur.

Dinamik müvazinətli artımın Kobb-Duqlas, Xiks, Solou, Xarrod modellərindən fərqli olaraq, onun yeni keynsçilik formulu da mövcuddur ki, bu da iqtisadi ədəbiyyatlarda akselerator adı ilə məşhurdur. Bu modelin mahiyyəti ondan ibarətdir ki, hər əlavə investisiya hesabına nə qədər milli gəlir artımı əldə etmək mümkündür. Yeni keynsçilər belə hesab edirlər ki, əgər investisiya istehsal şeylərinə əlavə tələb yaradırsa, onda bu yeni tələbdən asılı olaraq yeni istehsal vasitələrinə, eləcə də yeni investisiyaya tələb yaradır. Bu da ilk növbədə satış həcminin artım faizindən asılıdır.

Bununla əlaqədar E.Domarın və R.Xarrodun modellərini qeyd etmək lazımdır.

Amerika iqtisadçısı E.Domar qarşısına artım nəzəriyyəsi yaratmaq qoymasa da, lakin o, öz tədqiqatında sübut etmişdir ki, artım prosesində investisiya səmərəsini, həm multiplikator, həm də akselerator nöqteyi-nəzərincə qiymətləndirmək lazımdır. Bununla əlaqədar o qeyd edirdi ki, istehsal gücündən tam istifadə etmək üçün uyğun olaraq investisiyanı artırmaq lazımdır. Özü də əmanətə yönümlü kapital məhsuldarlığının törəməsini nəzərə alaraq bu

prosesi həyata keçirməyi qeyd edirdi. Digər tərəfdən tam məşğulluğu qorumaq üçün əmək təklifinin artım sürətini əməyə olan tələbin artım sürəti ilə bərabər götürmək lazımdır. Nəzərə alaq ki, istehsal amilləri sırasında qarşılıqlı əvəzetmə yoxdur, onda əməyə olan tələbin artım sürəti, kapitalın artım sürətinə bərabər olacaqdır. Deməli, əmək bazarındakı müvazinəti əmək təklifinin artım sürətinin bərabərləşməsi ilə yaratmaq mümkün olacaqdır.

Beləliklə, iqtisadi artımın E.Domar modelində tam məşğulluğun və nemətlər bazarında müvazinətinin qorunması üçün daima investisiyanın həcmini verilmiş artım sürəti ilə yüksəltmək lazımdır. Bundan əlavə, iqtisadi artımın Leontyev modeli də mövcuddur ki, o da istehsal amillərinin əvəz olunmasına deyil, qarşılıqlı əvəz olunması ilə müşahidə edildiyini qeyd etmişdir.

İqtisadi artımın neoklassik və yeni keynsçilik modellərinin mövcud olması, ilk növbədə iqtisadi müvazinətin dinamik və statik vəziyyətinin tətbiq edilməsi ilə bağlı olub, istehsal amillərinin funksionallığını, tam məşğulluğa nail olmağı, tələbin, investisiyanın səmərəsinin yüksəldilməsini əks etdirməyə istiqamətləndirilmişdir.

İqtisadi artımın istər ümumi milli məhsulun və ya milli gəlirin həcminin, eləcə də onların adambaşına düşən kəmiyyət göstəricilərinin istənilən səviyyədə saxlanılması hər bir inkişaf edən ölkənin iqtisadi məqsədlərinin özəyində durur. Bu baxımdan iqtisadi artımın stimullaşdırılması prosesi baş verir ki, o dövlət tənzimlənməsi kimi meydana çıxır. Qeyd etməliyik ki, bazar sistemli ölkələrdə bu proses müxtəlif iqtisadi cərəyanlarla həyata keçirilmiş və hər biri də özünəməxsus spesifikliyə malik olmuşdur.

Belə ki, neoklassik, keynsçilik, neokeynsçilik, monetarist, səmərəli gözləmə nəzəriyyələrinə əsaslanan iqtisadi artımın dövlət tənzimlənməsi müxtəlif nəticələr vermişdir.

Keynsçilik nəzəriyyəsinə görə azad bazar sistemi kapitalist iqtisadiyyatının makroiqtisadi sabitləşməsinə imkan vermir. Ona görə də dövlət tələb amillərini idarə etməklə,

əsaslı kapital qoyuluşu ilə iqtisadi aktivliyi artırmaqla istehsalın həcmi ilə məşğulluq səviyyəsini yüksəltməlidir. Bu nəzəriyyə özünü 1929-1933-cü illərdəki böyük depressiyadan sonra doğrultmuşdur.

R.Reyqan hökumətinin hakimiyyəti illərində Amerika iqtisadiyyatına yeni iqtisadi siyasət yeridildi. Onun da mahiyyəti ondan ibarətdir ki, məcmu tələb və iqtisadiyyatın stimullaşdırılması əvəzinə, investisiya proseslərinin optimallaşdırılması ilə təklif iqtisadiyyatı nəzəriyyəsi meydana gəldi. Bəzi hallarda bunu reyqanomika da adlandırırlar. Təklif nəzəriyyəsinə görə iqtisadiyyata dövlət müdaxiləsi həm sosial sferada, həm həyat səviyyəsinin qorunmasında, eləcə də xüsusi sahibkarlıq sahəsində dayandırıldı. Federal Ehtiyat Sistemi iqtisadi artımın sürətinin saxlanılmasını mükafatlandırdı. Vergi sisteminə köklü dəyişikliklər edilərək əldə ediləcək səviyyəni 50 faizdən 28 faizə endirdi.

Beləliklə, dövlətin iqtisadi artıma olan təsiri başlıca olaraq üç istiqamətdə formalaşdı:

1. ETT və tədqiqatların stimullaşdırılması.

2. Dövlət miqyasında kadrların ixtisaslarının və təhsil üçün nəzərdə tutulan xərclərin yüksəldilməsi.

3. Vergi sisteminin əsaslı olaraq dəyişilməsi.

Görkəmli Amerika iqtisadçısı, təklif nəzəriyyəsinin tərəfdarı Artur Laffer iqtisadi artımın dövlət tənzimlənməsində vergi sisteminin oynadığı rolu nəzərə alaraq sübut etmişdir ki, aşağı vergi tarifləri nəinki büdcənin əvvəlki həcmini doldurur, əksinə onu daha da yüksəldir.

İqtisadi artımın dövlət tənzimlənməsində istehsalın artım sürətinin saxlanılması, məşğulluğun sosial problemlərinin həlli, işsizliyin iqtisadi həddinin müəyyən edilməsi, yoxsulluğun azaldılması, gəlirlərin səviyyəsinin yüksəldilməsi sahəsində görülən tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır.

# VIII FƏSİL. İSTEHLAK, ƏMANƏT VƏ İNVESTİSİYA

**8.1. İstehlak və onun funksiyası**
**8.2. Əmanət və onun funksiyası**
**8.3. İnvestisiya, onun mahiyyəti**
**8.4. İstehlak, əmanət, investisiya və onların qarşılıqlı əlaqəsi**
**8.5. Multiplikator və akselerator nəzəriyyəsi**

## 8.1. İstehlak və onun funksiyası

Ümumi milli məhsulun, eləcə də ÜDM-in böyük bir hissəsini istehlak təşkil edir. Öz mahiyyətinə görə istehlak özünü istehsal və şəxsi formada əks etdirir. İstehsal prosesində istehlak edilmiş xammal, material, yanacaq, enerji və s. resurslar özünü yeni yaradılmış əmtəə və xidmətlərdə, lakin şəxsi istehlak isə özünü əldə olunmuş gəlirlər vasitəsilə əks etdirir. İstehlakın mahiyyətinin dərk olunması ilk növbədə iqtisadiyyatın funksional fəaliyyətinin nəticəsinin mənimsənilməsi deməkdir. Bu da onunla əlaqədardır ki, gəlirlərin səviyyəsi artdıqca adamlar öz həyat səviyyələrini yüksəltməkdən ötrü daha çox əmtəə və xidmətlər əldə edirlər. Yəni adamlar daha yaxşı məişət avadanlıqları, mebel, avtomobil, geniş mənzillər və s. almağa cəhd göstərirlər. İş adamları, biznesmenlər də öz növbəsində əldə etdikləri mənfəət hesabına, daha əlverişli iqtisadi mühitin yaradılması hesabına yığdıqları əmanətləri investisiyaya yönəltmək hesabına üstün gəlir əldə etmək imkanına malik olmağa cəhd göstərirlər. Belə şəraitdə dövlət də artan gəlirlər hesabına daha əlverişli hesab olunan, iqtisadi siyasətində vacib görünən məqsədlərin həyata keçirilməsi istiqamətində proqramlarını reallaşdırmağa üstünlük verir. Hər şəraitdə istehlakın səviyyəsi iqtisadiyyatın strukturundan asılıdır. Ən sadə şəkildə iqtisadiyyatın strukturunda ÜDM, istehlak, investisiya,

dövlət gəlirləri, idxal və ixrac göstəriciləri üstün rola malikdir.

İstehlak və onun səviyyəsi bilavasitə gəlirlərin həcmindən asılıdır. Belə ki, ev təsərrüfatında əldə olunan gəlirlər istehlakı əsaslandırır. Ev təsərrüfatı əməkhaqqı, yardım, təqaüd və digər daxilolmalar hesabına formalaşan şəxsi gəlirlərin səviyəsindən asılı olaraq əmtəə və xidmətlərə olan tələbi formalaşdırır. Lakin zahirən sadə görünən bu iqtisadi prosesdən istənilən nəticəyə gəlmək mümkün deyil. Çünki istehlaka olan son meyil, gəlirlərin artımına nisbətən daha ləng artır. Gəlirlərin artımı ilə istehlakın artımı arasındakı əlaqəni C.M.Keyns **əsas psixoloji qanun** adlandırmışdır. Gəlirlərdə istehlakın payı təkcə gəlirlərin kəmiyyətindən başqa, həm də əməyin ödənilməsi səviyyəsindən, milli və regional ənənələrdən, iqlim şəraitindən və s. amillərdən asılıdır. Gəlirlərin artımı ilə istehlakın nisbətən ləng artımı onun onun əmanətə yönəldilən hissəsinin artımı baş verir. Bunu cədvəl şəklində izah etmək olar.

Hesab edək ki, ümumi gəlirdən qiymət indeksi nəzərə alınmaqla, vergilər çıxıldıqdan sonra sərəncamda qalan gəlir (Y) 100 manatdırsa, onun hamısı istehlak (C) olunarsa, onda əmanət (S) sıfra bərabər olacaq. Lakin gəlirlərin artımı ilə istehlakın səviyyəsi nisbətən sabit xarakter almaqla, əmanətə yönəldilən gəlir hissəsinin artımı müşahidə olunacaq.

| Y – sərəncamda qalan gəlir | C - istehlak | Y- C = S – əmanəl |
|---|---|---|
| 100 | 100 | - |
| 300 | 250 | 50 |
| 400 | 300 | 100 |
| 600 | 340 | 260 |
| 700 | 400 | 300 |
| ... | ... | ... |

Bir qayda olaraq gəlirlərin aşağı səviyyəsi, onun birbaşa istehlakı ilə, gəlirlərin yüksək səviyyəsi onun əmanət hissəsinin formalaşmasını əsaslandırır.

**Beləliklə də istehlak – təkrar istehsalın mühüm fazası olmaqla maddi nemət və xidmətlərin əldə olunmasına yönəldilən yeni vəsaitlərin məbləği olub, insanların maddi və mənəvi tələbatlarının ödənilməsini əks etdirir.**

İstehlak, insanların tələbatının ödənilməsi üçün nəzərdə tutulan məhsul və nemətlərin fərdi və birgə istifadəsini əks etdirir. Ona görə də istehlak ÜDM 2/3 və 3/4 hissəsini əhatə edərək istehlakçı davranışını formalaşdırmaqla iqtisadi inkişafın tsiklik xarakter almasının indikatoru rolunu oynayır.

Qeyd etmək lazımdır ki, istehlakın mahiyyətini, xüsusiyyətini və miqyasını başa düşmək üçün bir sıra nəzəriyyələr irəli sürülmüşdür. Əlbəttə, bunların arasında Keynsin nəzəriyyəsi xüsusi yer tutur ki, bu da istehlakın funksiyasının müəyyən olunması ilə, yəni onun əmanət və ya yığımla hüdudlaşması ilə əlaqədar olmasıdır. Lakin istehlak səviyyəsini hansı amillərin müəyyən etdiyi empirik müşahidələrdən uzaqlaşmaq, nisbətən daimi istehlak normasının müəyyən olunması, istehlakın artımına və ya azalmasına səbəb olan amillər qrupunun müəyyən olunması suallarına cavab tapmaq, həm də dünyanın müxtəlif ölkələrində şəxsi istehlakın, məcmu tələbin böyük bir hissəsini, 60-90%-ni inkişaf etməkdə olan ölkələrdə – 45-65%-ni inkişaf etmiş ölkələrdə təşkil etməsi yeni nəzəriyyələrin meydana gəlməsinə səbəb olmuşdur. Eyni zamanda ev təsərrüfatındakı əmanətlərin investisiyaların maliyyələşdirilməsindəki və onun ölkənin iqtisadi inkişafındakı rolu istehlak nəzəriyyəsinə olan marağı xeyli artırmışdır.

Vergiləri ödədikdən sonra istehlakçılar gəlirlərin böyük bir hissəsini istehlaka deyil, əmanətə yönəldirlər, ümumi daxili əmanətlərin ÜDM-də olan payının və ya normasının müxtəlifliyini çox hallarda ölkənin iqtisadi inkişa-

fındakı artım sürəti ilə əlaqələndirirlər. Sənayecə inkişaf etmiş ölkələrin timsalında aparılan tədqiqatlar bunu sübut etmişdir. Məsələn, XX əsrin son 30 ili ərzində ABŞ-ın Yaponiya və Almaniyaya nisbətən aşağı artım sürətinə malik olmasını əmanətlərin normasının aşağı olması ilə əlaqələndirmişlər. Göstərilən müddətdə ABŞ-da əmanətlərin norması 12%-ə, artım sürəti isə 1,6%-ə bərabər olmuşdur. Müvafiq olaraq bu göstəricilər Yaponiyada 34% və 4,3%-ə, Almaniyada isə 27% və 2,4%-ə bərabər olmuşdur. Ümumi daxili əmanətlərə həm xüsusi, həm də dövlət əmanətləri aiddir. Lakin ev təsərrüfatının əmanətləri əsas götürülsə onda bu normanın payı xeyli aşağı olacaqdır. Lakin hər halda əmanətlərin yüksək norması ilə ölkələrin iqtisadi artım sürətləri arasında sıxı əlaqənin mövcudluğu inkar- olunmazdır.

İstehlakın funksiyasını təkcə əmanətlərin formalaşması ilə deyil, gələcəkdə istehlakın gələcəkdəki dövrlərdə istehlakın təmin olunması, daimi gəlir gətirmək, həyat tsikli deyilən ideyalarının meydana gəlməsinə səbəb olmuşdur.

1948-ci ildə Ceyms Dyuzenberri istehlakçı davranışı nəzəriyyəsini işləyib hazırlamaqla «nisbi gəlir dipotezyası» əsasında belə qənaətə gəlir ki, mövcud istehlakın funksiyası, həm gələcək dövrlərdəki istehlakın, həm də gəlirin mütləq və nisbi həddinin müəyyən edilməsi ilə əlaqədardır. Beləliklə, istehlakçının davranışı, adəti, istəyi müşahidə olunmaqla, həm də istehlaka olan orta meyli müəyyən etməyə imkan verir.

1957-ci ildə Nobel mükafatı laureatı Milton Firidmen daimi gəlir nəzəriyyəsini irəli sürdü. O, belə qənaətə gəlmişdir ki, istehlak daimi gəlirlə əlaqədardır. Daimi gəlir, adamın qalan ömür saxlamaqla, hazırda əldə etdiyi, üstəgəl gələcəkdə əldə edəcəyi məbləği əks etdirir. Bununla əlaqədar o, belə qənaətə gəlir ki, adam öz daimi gəlirini cari və keçmiş gəlirini tutuşdurulmuş orta həddi kimi qiymətləndirir. Lakin bir qədər sonra görəcəyik ki, həyat tsikli nəzəriy-

yəsində istehlakçı, bərabər istehlak səviyyəsinə üstünlük verir. Konkret gün ərzindəki istehlak, heç də həmin gün ərzindəki əldə olunan gəlirlə deyil, orta günlük gəlirin qiymətləndirilməsi ilə əlaqədardır.

Fridmen «keçici gəlir» terminindən istifadə edir və onu heç də saxlanılması vacib olmayan məbləğ kimi nəzərə almaqla, onun istehlaka elə bir ciddi təsir göstərmədiyini qeyd edir. Belə ki, əgər vəzifədə çalışanın vəzifəsi yüksəldikcə əməkhaqqının artmasına daimi məbləğ kimi baxırsa, lakin qısa müddət ərzində vaxtdan əlavə işləyən fəhlə əldə etdiyi əməkhaqqının artımına müvəqqəti, keçici gəlir artımı kimi baxacaq. Bu nəzəriyyəyə görə adamın istehlaka olan son hədd meyli uzun və qısa müddətlər ərzində müxtəlif olacaqdır. Qısa müddət ərzində istehlaka olan son hədd meyli aşağı olmalıdır. Çünki adamların cari gəlir artımının uzunmüddətli olacağına inamlı deyillər. İlkin olaraq onların əldə edəcəkləri gəlirə, keçici gəlir kimi baxacaqlar. İstehlaka son hədd meyli müxtəlif adamlar üçün müxtəlif olacaqdır. Onun yüksək həddi gəlirlərin daimi xarakter aldığı şəraitdə, aşağı həddi isə keçmiş gəlirin qeyri-sabitliyi şəraitində müşahidə olunacaqdır.

1963-cü ildə Franko Modelyani və Albert Endou tərəfindən ilk dəfə olaraq həyat tsikli nəzəriyyəsini işləyib hazırladılar. Onun mahiyyəti belə əsaslandırılırdı ki, adam öz istehlakını özünün həyatı boyu malik olacağı gəlir və sərvəti qiymətləndirməklə öz həyat tsikli boyu istehlakını planlaşdırır. Həmçinin əməkhaqqının bir hissəsini əmanət kimi yığmaq zərurətində qalacaqlar ki, bu da onların təqaüdə çıxdıqdan sonra ehtiyaclarının ödənilməsi ilə əlaqədardır. Beləliklə də sərvətdən istehlaka olan son hədd meyli, adamın həyat tsiklindən asılı olaraq dəyişən formada müşahidə olunacaqdır. Beləliklə də həyat tsikli nəzəriyyəsinə görə gəlirlərlə istehlak arasında birbaşa əlaqə yoxdur. Lakin bununla yanaşı bu nəzəriyyədə həyat tsikli üç fazaya ayrılır ki,

bu da gəlirlərin dinamikasındakı dəyişikliklərlə əlaqələndirilir.

Gənc yaşındakı adamların, xüsusən tələbələrin gəlirləri yüksək olmur, onlar hesab edirlər ki, gələcəkdə onların gəlirləri artacaq. Ona görə də öz istehlaklarını təmin etmək məqsədi ilə pul borc götürə bilirlər. Belə şəraitdə istehlakın məbləği gəlirin məbləğindən yüksək olur. Yetkin yaşında gəlirlərin məbləği artır və optimal kəmiyyətə çatır. Bu da həm borcların qaytarılmasına imkan verir, həm də qarşıdan gələn təqaüd barəsində düşünməyə əsas verir.

Bu dövrdə nəzərəçarpacaq dərəcədə əmanətlərin gəlirdəki payı artır. Gənclik və qocalıq dövrü əmanətlərin yığılmasına mənfi, yetkinlik dövrü isə müsbət təsir göstərir.

Gəlirlərlə istehlak arasındakı əlaqənin mahiyyətini ilkin olaraq ev təsərrüfatı timsalında izah etmək olar. Ev təsərrüfatı ümumi istehlak büdcəsini, mənzil və əmlak əmanətini əks etdirir. Bu əsasdan da çox hallarda istehlakın funksiyasını izah etməyə cəhd göstərilmişdir. Keyns istehlakın funksiyasını üç səviyyədə qeyd etmişdir.

1.Sərəncamda qalan gəlir əsasında. Bu bütün vergiləri verdikdən sonra qalan gəlirdir ki, onun vasitəsilə istehlak xərclərinin strukturunu müəyyən etmək olur. Lakin klassik məktəbə görə yüksək faiz dərəcələri istehlakın ziyanına əmanətə olan meyli yüksəldir.

Ümumiyyətlə, istehlaka aşağıdakı amillər təsir göstərir:

- istehlak kreditlərinin % dərəcələri;
- əmanət qoyuluşlarına % dərəcələri;
- ev təsərrüfatındakı sərvətin məbləği;
- gözlənilən gəlirlər;
- istehlak qiymətlərinin real və gözlənilən dəyişiklikləri;
- demoqrafik amillər.




İstehlakın funksiyasını makroiqtisadi səviyyədə sərəncamda olan şəxsi gəlirlə istehlaka yönəldilən xərc arasındakı əlaqəni əks etdirir. Bunu qrafik şəkildə aşağıdakı kimi izah etmək olar.



Şaquli xətdə istehlaka yönəldilən xərc, üfüqi xətdə isə sərəncamda olan xərc əks olunmuşdur. Əgər istehlaka yönəldilən xərc gəlirlərlə üst-üstə düşsəydi onda 45$^0$ altındakı xəttin hər hansı nöqtəsində bu özünü əks etdirməli idi. Həqiqətdə isə bu baş vermir. Yalnız daimi sərvət nöqtəsinə qədər belə azalma müşahidə olunur. Sonrakı nöqtələrdə əmanət prosesi müşahidə olunur. B nöqtəsinin sol tərəfi əmanətin mənfi meylliyini, sağ tərəfi isə müsbət meylliyini əks etdirir.

Beləliklə də belə qənaətə gəlmək olar ki, 45$^0$ altındakı xəttin hər hansı nöqtəsindəki istehlak dəqiqliklə gəlirə bərabər olur və burada sıfra bərabər əmanət olur. İstehlakın funksiyası 45$^0$ -li xətdən yuxarı meyil edərsə, onda ev təsərrüfatı əmanəti xərcləməli olur. Əgər istehlak funksiyası 45$^0$ -li xətdən aşağı meyil edərsə, onda ev təsərrüfatının əmanət kəmiyyəti müsbət hal alır. Əmanətin kəmiyyəti və onun xərclənməsi, bir qayda olaraq 45$^0$ -li xətdən qalxan tərəfi ilə istehlak funksiyasının qrafik dəyişilməsi arasındakı sahədə əks olunur. Qrafik təsvirdəki (E -- E$^1$) məsafə.

Müasir makroiqtisadi nəzəriyyədə istehlakın, gəlirin dəyişilməsinə olan reaksiyasına xüsusi diqqət yetirilir. Buna çox hallarda istehlaka olan son hədd meyli də deyilir (MPC).

İstehlaka olan son hədd meyli dedikdə, əlavə gəlirin əldə olunması ilə əlaqədar adamların istehlaka yönəltdiyi əlavə məbləğdir.

Bəllidir ki, biz artıq «son hədd» anlayışı ilə tanışıq. İqtisadi nəzəriyyədə bu anlayışdan əlavə kəmiyyətlərin mahiyyətini izah etməkdən ötrü istifadə olunur. Məsələn, «son xərc», «son faydalılıq», «son məhsuldarlıq» bu qəbildən olan terminlərdir. «İstehlaka olan meyil» arzulanan istehlak səviyyəsini xarakterizə edir. Lakin «istehlaka olan son meyil» MPC isə əlavə gəlirdən törənən əlavə istehlakı əks etdirir. İstehlaka olan son meyil həndəsi yönümlüdür. Yəni əlavə gəlirin əksər hissəsi bir qayda olaraq əlavə istehlaka

yönəlir. Bunu əyani olaraq qrafik təsvirdən də aydın görmək olar. Daimi sərvət nöqtəsi olan B-dən C nöqtəsinə qədər gəlirin 100 manat artması istehlakın 85 manatlıq artımına səbəb olub. Ona görə də MPC burada 85/100=0,85 bərabərdir. Bununla da demək olar ki, istehlak funksiyasının yönümü, B nöqtəsindən C nöqtəsinə qədər hərəkəti zamanı 0,85-ə bərabərdir.

İstehlak funksiyasının yönümü, gəlirlərin dəyişikliyi əsasında istehlak dəyişikliyini müəyyən etməklə istehlaka olan son meyli əks etdirir.

İstehlaka olan son meyillə yanaşı onu görgü kimi əks etdirən əmanətə olan son meyildə MPC-də fəaliyyət göstərir. Əmanətə olan son meyil gəlirin əlavə payının, əlavə əmanətə getməsini əks etdirir. Gəlirin hər əlavə manatının istehlak olunmaması əmanət kimi çıxış edir. Gəlirin hər əlavə manatı ya əlavə istehlaka, ya da əlavə əmanətə yönəlir.

## 8.2. Əmanət və onun funksiyası

Əmanət, gəlirin elə uzadılmış istehlakıdır ki, o hazırkı şəraitdə deyil, gələcək dövrlərdə istehlakını nəzərdə tutur. O gəlirlərlə cari istehlak arasındakı fərqə bərabərdir. Əmanət gələcəkdə istehsal və istehlak ehtiyaclarını ödəyən prosesdir.

Əmanətin funksiyası, əmanətin səviyyəsi ilə gəlir arasındakı əlaqəni əks etdirir. Əmanət funksiyası həm də istehlak funksiyasını əks etdirən vasitə kimi də görünür.

Deməli, əmanət və onun funksiyası iqtisadi bir proses kimi, cari dövrdəki istehsal və istehlaka sərf olunmayan xərc kimi yığılır. Əmanət və ev təsərrüfatını həm də firmalar həyata keçirirlər. Ev təsərrüfatındakı əmanətlə, firmadakı əmanətlər fərqli xarakter daşıyır. Əgər ev təsərrüfatındakı əmanətlər daşınmaz əmlakın, qiymətli və uzunmuddətli işlədilən vəsaitlərə, torpaq alqısına, qocalığın təmin olunmasına, əldə olunan sərvətin uşaqlara ötürülməsi ilə əlaqədardır. Lakin firmalarda məqsəd – yığılan vəsaitləri istehsalın geniş-

ləndirilməsi üçün onun investisiya olunmasına yönəldilməsi ilə mənfəətin əldə olunması ilə bağlıdır. Göründüyü kimi, müxtəlif iqtisadi subyektlər üçün əmanət və investisiya prosesi eyni xarakter daşımır. Bu da hər şeydən əvvəl gəlirin istehlaka və əmanətə bölgüsü ilə əlaqədardır.

Səmərəli tələb çərçivəsində şəxsi istehlakın aparıcı rolunu nəzərə alaraq, iqtisadiyyatdakı irəliləyişlər ilkin olaraq gəlirin istehlaka yönəldilən hissəsində dəyişiklikləri etməklə, onun istehlak olunmayan, yəni yığılan hissəsinə də təsir edəcəkdir. Daha doğrusu, gəlirin bölgüsü həm istehlakın, həm də əmanətin səviyyəsinə təsir göstərəcəkdir. Belə şəraitdə dəyişilən proses, həm istehlakın son hədd meyli, həm də əmanətin son hədd meyli olacaqdır.

Sərəncamda olan gəliri Y, istehlakı C, əmanəti S, investisiyanı J ilə işarə etsək, onların hərəkətində olan dəyişiklikləri və asılılıqları müşahidə edə bilərik.

Əgər Y=C+S bərabərdirsə, burada gəlirlərin bir hissəsi şəxsi istehlaka C yönəldilirsə, yerdə qalan əlavə hissə əmanətə yönələrək S formasını alır. Eyni zamanda cəmiyyətin xərcini bir tərəfdən istehlak ehtiyacı kimi C, digər tərəfdən investisiya kimi J, qəbul etmək olar. Onda Y=C+J. Buradan da belə qənaətə gəlmək olar ki, gəlir təkcə istehlakı deyil, eyni zamanda da əmanəti də müəyyən edən əsas amildir. Ona görə də həm istehlak, həm də əmanət gəlirin hərəkəti istiqamətindən asılıdır. Lakin burada vacib olan bir cəhət vardır ki, istehlak təkcə gəlirdən deyil, həm də istehlakın son hədd meylindən asılıdır. Bu asılılıq səviyyəsi əmanətin hədd dəyişikliyini də müəyyən edir. İstehlaka son hədd meyli, istehlakda baş verən hər cür dəyişikliklərin, gəlirlərdə baş verən dəyişikliklərin asılılıq səviyyəsini əks etdirir. Yəni hər vahid istehlakın son hədd meylinin artımı, hər vahid gəlir artımı meyli ilə üst-üstə düşmür. İstehlakın müəyyən həddindən sonra, gəlirlərin növbəti artımı, istehlakın artımını bərabər şəkildə artırmır. Burada artım meyli

əmanətin səviyyəsində müşahidə olunacaq. Əgər istehlakın son hədd meylini MPC kimi işarə etsək onda belə bir formula əldə edəcəyik.

$$MPJ = \frac{\text{İstehlakda dəyişiklik}}{\text{Gəlirdə dəyişiklik}} = \frac{\Delta J}{\Delta Y}$$

Bu model əlavə gəlirin, istehlakın genişlənməsinə yönəldilməsini əks etdirir. Bunu şərti rəqəmlərlə də izah etmək olar. Lakin məsələnin mahiyyəti onunla əlaqədardır ki, istehlakın son hədd meylinin dəyişilməsi, gəlir səviyyəsinin dəyişilməsindən asılı olmaqla, eyni zamanda əmanətin səviyyəsinin mütləq kəmiyyətinin artırılmasına səbəb olmaqla, özünün nisbi artımını ləngidir. Gəlirlərin artması ilə həm istehlakın, həm də əmanətin həcmi mütləq artır. Lakin gəlirlərin tərkibində nisbi olaraq istehlakın payı azalır, ancaq əmanətin payı isə artır. Əsas psixoloji qanuna görə gəlirlərdə istehlakın payı ləng şəkildə artdığından, deməli, əmanətin payı daha yüksək sürətlə artacaq. Lakin əmanətin də son hədd meyli olduğundan (MPS) onu da aşağıdakı formula ilə izah etmək olar.

$$MPS = \frac{\text{Əmanətdə dəyişiklik}}{\text{Gəlirdə dəyişiklik}} = \frac{\Delta S}{\Delta Y}$$

Yığımın son hədd meyli MPS hər vahid əlavə gəlirin, əlavə yığıma yönəlməsini əks etdirir.

Bununla da izah etmək olar ki, gəlirlərin artımı istehlakın son həddi meylinin aşağıya doğru hərəkətini əsaslandırır. Lakin hər şəraitdə MPC+MPS=1 bərabərdir. Buradan da belə qənaətə gəlmək olar ki, vahid kimi qəbul olunan gəlir artımı, iqtisadi inkişafın xarakterindən, sürətindən və müvazinətindən asılı olaraq istehlak və əmanətə yönəldilən hissələrin müxtəlif artım sürətinə malik ola bilər. Belə ki, davamlı sabit iqtisadi artım şəraitində MPC-nin aşağı düşmə meyli, MPS-nin isə yuxarı qalxma meyli müşahidə olunacaqdır. Makroiqtisadi qeyri-sabitlik şəraitində antiinflyasiya tədbirlərinin görünmədiyi şəraitdə isə əmanətlərin

böyük bir hissəsi uzunmüddətli əşyaların alınmasına, ziynət şeylərinin, müxtəlif bahalı məişət avadanlıqlarının torpaq, bağ, avtomobil və s. alınmasına olan meyli yüksəldəcək. Bu da əmanətin investisiyaya yönəldilə biləcək hissəsinin birbaşa o qədər də zəruri olmayan istehlak şeylərinin alınmasını sürətləndirəcək. Əmanətin səviyyəsinə təsir göstərən amilləri qruplaşdırarkən əsasən aşağıdakıları qeyd etmək olar:

- vergilərin artımı;
- qiymətlərin yüksəldilməsi;
- gəlirlərin artımı;
- sosial sığorta ayırmaların artımı;
- bazarda təklifin həcminin dəyişilməsi və s.

Bu amillərin dəyişilməsi istiqamətindən asılı olaraq istehlakın kəmiyyəti əmanətin kəmiyyətinin əks istiqamətində dəyişilir. Çünki əmanətin funksiyası istehlakın funksiyasından törəmədir. Həm də əmanət gəlirin istehlak olunmayan hissəsidir. Bu da onunla əlaqədardır ki, əmanət və istehlakın cəmi gəlirin ümumi kəmiyyətini əks etdirir. Əmanət qrafikini əks etdirmək üçün istehlak funksiyasını əks etdirən qrafik təsvirindən istifadə etmək olar.




İstehlakın son hədd meyli ilə yanaşı, əmanətin də son hədd meyli olduğundan, onların hər vahid gəlir artımından asılılığını aşağıdakı cədvəl vasitəsilə daha aydın şəkildə izah etmək olar.

**İstehlaka və əmanətə olan son hədd meyli**

| | 1<br>Sərəncamda olan gəlir (manat) | 2<br>İstehlak xərcləri (manat) | 3<br>İstehlaka son hədd meyli (MRC) | 4<br>Xalis yığım (manat) | 5<br>Yığıma son hədd meyli (MRS) |
|---|---|---|---|---|---|
| A | 2400 | 2410 | 90/100=0,90 | -10 | 10/100=0,10 |
| B | 2500 | 2500 | | 0 | |
| C | 2600 | 2585 | 85/100=0,85 | +15 | 15/100=0,15 |
| Ç | 2700 | 2660 | 75/100=0,75 | +40 | 26/100=0,26 |
| D | 2800 | 2724 | 64/100=0,64 | +76 | 36/100=0,36 |
| E | 2900 | 2783 | 59/100=0,59 | +117 | 41/100=0,41 |
| Ə | 3000 | 2836 | 53/100=0,53 | +164 | 47/100=0,47 |

Cədvələ diqqət yetirərkən aydın olur ki, gəlirlərin artımı ilə istehlakın artımı da müşahidə olunur. İstehlakın qrafik təsvirində göstərilən rəqəmlərə uyğun olaraq hazırkı cədvəldən görünür ki, sərəncamda olan gəlirin artımı ilə istehlak xərcləri yalnız B nöqtəsində bərabərlik təşkil etmişdir. Sonrakı nöqtələrdə hər 100 manat gəlirin artımı ilə istehlakın artımı artıq azalan kəmiyyətlə müşahidə olunur. Belə ki, bərabərlik nöqtəsi olan B-dən sonrakı C nöqtəsində istehlak 85 manat artmışdırsa sonrakı nöqtələrdə onun azalması görünür: Ç – 75 manat, D – 64 manat, E – 59 manat, Ə – 53 manat. Bu onu göstərir ki, gəlirlərin səviyyəsinin aşağı olması ilə istehlakın son hədd meyli 0,90-na, yuxarı olduqda isə onun son hədd meyli 0,53 bərabər olur. Lakin belə vəziyyət əmanətin son hədd meyli üçün əks xarakter daşıyır. Yəni gəlirlərin səviyyəsi artdıqca əmanətin son hədd meyli MPS yüksəlməyə doğru meyil edir. C nöqtəsindən başlayan gəlirin artım meyli MRS – 0,15-dən C nöqtəsində 0,47-ə qədər qalxmasına səbəb olmuşdur. Ümumiyyətlə, hər şəraitdə sərəncamda olan gəlir istehlakla əmanətin məbləğinə bərabərdir. Bu o deməkdir ki, hər vahid əlavə gəlir artımı, əlavə istehlak və əlavə əmanət artımı arasında bölünməlidir. Belə ki, əgər MPC 0,75-ə bərabər olarsa, onda MPS – 0,25 olmalıdır. Ona görə də MPC və MPS məbləği dəqiqliklə 1-ə bərabər olmalıdır. Bu baxımdan MPC və MPS əlavə gəlir bölgüsünün güzgüsü hesab olunur.

## 8.3. İnvestisiya, onun mahiyyəti

Milli iqtisadiyyatın inkişafı və miqyasının artması bilavasitə investisiyanın tətbiqi səviyyəsindən asılıdır. İnvestisiyanın həcmi və tətbiqi səviyyəsi isə öz növbəsində əmanətin son hədd meylindən asılıdır. ÜDM və ya milli gəlirin real həcmindən və real faiz dərəcəsindən asılı olaraq investisiyanın həcmi və dinamikası da dəyişilir. Yeni müəssisələrin tikilməsi, yaşayış binalarının, yolların, körpülərin salınması,

yeni iş yerlərinin açılması investisiya prosesindən asılıdır. İnvestisiyaların həcmi əmtəə və xidmətlər bazarına qısa və uzun müddət ərzində eyni dərəcədə təsir göstərmir. İnvestisiya prosesinin iqtisadiyyatın inkişafında oynadığı rolu aydınlaşdırmaq üçün onun qısa və uzun dövrlərdə tətbiqini nəzərə almaq lazımdır. Belə ki, qısa müddət ərzində investisiya nemətlərə olan məcmu tələbin elementi kimi çıxış edir. Onlar məcmu təklifə təsir göstərmirlər. Çünki tikilən yeni obyektlər əlavə əmtəə və xidmətlər şəklində məhsul vermirlər. Uzun dövr ərzində isə investisiyalar kapital ehtiyatını, ölkənin istehsal imkanlarını artırmaqla məcmu təklifin həcmini yüksəldəcək.

Məcmu təklifin elementi kimi investisiyanın əsas xüsusiyyəti, onun təsərrüfat konyunkturasından asılı olaraq, onun kəmiyyətinin qeyri-sabit olmasıdır. Bu özünü ən çox iqtisadiyyatın qeyri-sabitliyi dövründə xarakterizə edir. İnflyasiya səviyyəsinin yüksəlməsi, işsizliyin yüksəlməsi, böhran və tənəzzül şəraitində məcmu təklif ilə investisiya xərcləri də kəskin şəkildə aşağı düşür. Uzunmüddətli iqtisadi fəallığın aşağı düşməsi, qeyri-sabitliyin davam etməsi investisiya xərclərinin aşağı düşməsini, sürətləndirir. Belə şəraitdə daxili və xarici investisiyaların nisbəti sonuncunun xeyrinə dəyişilir. Ölkəmizdə müstəqilliyin ilk illərində «Əsrin müqaviləsi»nin imzalanmasına qədər real vəziyyət belə idi.

Makroiqtisadi sabitliyin bərpa olunması və qorunması uzun dövr ərzində investisiya xərclərinin tətbiq olunması imkanlarını artırır. Məcmu təklifin artırılması bilavasitə investisiya xərclərinin yüksəldilməsindən asılıdır.

Ümumiyyətlə, investisiya xərcləri öz funksional tətbiqinə görə üç növə bölünür:

1. Firmaların və müəssisələrin əsas fondlarına olan investisiya;
2. Ehtiyatlara yönəldilən investisiya;
3. Mənzil tikintisinə olan investisiya.

Firma və müəssisələrin əsas fondlarına olan investisiya dedikdə, bu binalara, qurğulara, maşın və avadanlıqlara yönəldilən vəsait olub, istehsal fəaliyyətinin təmin və ya bərpasını əks etdirir Belə investisiyaların tətbiqi ya istehsal imkanlarının genişləndirilməsi, ya da aşınan kapitalın bərpa olunmasına xidmət göstərir.

Ehtiyatlara olan investisiya dedikdə isə bu elə əmtəə və məhsulların alınmasıdır ki, onlar kapital və material, hazır məmulat və bitməmiş istehsal və tikintiyə yönəldilir. Ehtiyatları firmalar öz məqsədlərinə uyğun olaraq həyata keçirirlər. Çox hallarda isə bazarda baş verə biləcək qiymət dəyişiklikləri ilə əlaqədar olaraq buna əl atmaq məcburiyyətində qalırlar. Çox hallarda bu proses enerjidaşıyıcılarının qiymətlərindəki vaxtaşırı artımlarla, bəzi hallarda isə bu istehsalın texnoloji xüsusiyyətləri ilə əlaqədardır. İstehsalın fasiləsizliyi və səmərəliliyi əlavə ehtiyatların yaradılmasına ehtiyac yaradır. Belə hal müsbət cəhət kimi nəzərə alınmalıdır. Onda məcmu təklifin də kəmiyyəti yüksələcəkdir. Əgər qısamüddətli tərəddüdlərin müşahidəsi zamanı firmalar alqı və satqı obyektinə daxil olan ehtiyatlara reaksiya verirlərsə bu investisiyaların səmərəliliyinə birmənalı şəkildə təsir göstərməyəcək.

Mənzil tikintisinə olan investisiya dedikdə isə ev təsərrüfatının yeni tikilmiş binalarda mənzillərin alınmasına yönəldilən vəsait nəzərdə tutulur. Burada bir cəhət nəzərə alınmalıdır ki, əgər mənzil ehtiyacının ödənilməsi ilə bağlıdırsa bu tamam başqa səmərədir. Lakin mənzilin icarəyə verilməsi ilə əlaqədardırsa bu tamam başqa səmərədir. Məcmu təklif belə şəraitdə məhdudlaşdırıcı xarakter alınış olur. Ona görə də tikinti prosesində bu cəhət nəzərə alınmalıdır. Çünki bu investisiyanın qısamüddətli xarakter almasına səbəb olur və əlavə məhsul və xidmət göstərməsinə nail olunmur. İnvestisiya, uzunmüddətli, kapital verimli vəsait kimi çıxış etməlidir.

Mənzil tikintisi hətta icarə münasibətləri ilə əlaqədar olsa da, bu sahədən əldə edilən gəlir faiz dərəcəsindən asılı olar, investisiyanın verim səviyyəsi real sektorun mənfəət səviyyəsindən aşağı olacaqdır. Ona görə də sahibkarlıq mühitinin formalaşması prosesində bu amil xüsusi rol oynayır. Milli iqtisadiyyatın inkişafında investisiyanın tətbiqində tikinti sindromunun xroniki hal alınması üçün onun regionlar üzrə, əmək ehtiyatları artıq olan rayonlar üzrə həyata keçirilməsinə üstünlük verilməlidir.

Bu baxımdan investisiya nəzəriyyəsində əsas yeri kapitalların fiziki həcminin artırılması, firmaların ehtiyatlarının artırılması və ya mənzil tikintisinin aparılmasıdır. Birinci iki amil iqtisadiyyatın sahibkarlıq bölməsinə xidmət göstərən xalis investisiyalı sahə kimi çıxış edir.

Qeyd etdiyimiz kimi investisiyaların həcm və dinamikası ÜDM və ya milli gəlirin real həcmindən (Y) və faizin real dərəcəsindən (r) asılı olduğundan onun funksiyası da bu iki göstəricinin dəyişilməsini əks etdirir. Bu amillərdən asılı olaraq investisiyaya olan tələbin formalaşması iki səviyyədə baş verir. Törəmə və əlahiddə investisiya.

Törəmə investisiya əmtəə və xidmətlərə olan tələbin davamlı xarakter aldığı şəraitdə baş verir. Bəlli olduğu kimi tələbin genişlənməsi qiymət artımını törədir. Qiymət artımı isə öz növbəsində nemətlər bazarında təklifin genişləndirilməsinə səbəb olur ki, bu da mənfəətin artırılmasına imkan yaradır. Sahibkarlar ilk vaxtlarda tələbi mövcud ehtiyatlar hesabına dəyişilməz istehsal həcmi ilə ödəyə bilərlər. Lakin tələbin davamlı xarakter alması ehtiyatların tükənməsi ilə, sahibkarların istehsalın həcminin artırılması marağı ilə meydana gələcək. Əgər istehsal güclərini optimal intensivliklə istifadə olunduğu şəraitdə əlavə məhsul istehsal, yalnız istehsal güclərinin yüksəldilməsi hesabına az xərclə həyata keçirilə bilər. İstehsal güclərinin veriminin yüksəldilməsini isə investisiya vasitəsilə icra etmək mümkündür. Törəmə investisiyanın stimullaşma mexanizmi, bilavasitə

tələbin daimi xarakter alması ilə əlaqədardır. Məcmu tələbin aşağı düşməsi davamlı xarakter alarsa, onda törəmə investisiyaya olan ehtiyac zəncirvari şəkildə aşağı düşəcək. Tələbin və qiymətlərin aşağı düşməsi, istehsalın həcminin azaldılmasına olan meyilin güclənməsi, yəni mənfəətin azalması, əlavə ehtiyatın meydana gəlməsi, istehsal güclərindən intensiv və optimal istifadəsinin qarşısını almış olur.

İnvestisiya dedikdə, əmanətin yeni istehsal güclərinin yaradılması və kapital aktivlərinin təmin olunması üçün istifadə olunması nəzərdə tutulur. Avadanlıq və maşınların, dəzgahların alınmasına, bütün tikinti-quraşdırma işlərinin aparılmasına, ehtiyatların yaradılmasına yönəldilən maliyyə resursları investisiyanın tərkib hissəsi kimi çıxış edir. İnvestisiya prosesinin həyata keçirilməsi bilavasitə əmtəə bazarı ilə əlaqədardır. Əmtəə bazarlarında aparılan alqı-satqı əməliyyatı, birbaşa investisiya prosesi ilə əlaqədardırsa, lakin qiymətli kağızlar bazarındakı əməliyyatlar bir o qədər investisiya ilə əlaqədar deyil. Çünki, qiymətli kağızlar bilavasitə aktivlərin sahiblərinin dəyişilməsini əks etdirməklə, faktiki olaraq nemətlərin istehsalında heç bir rola malik olmur. Daha doğrusu, həm tələbin, həm də təklifin istər qısa, istərsə də uzun bir dövr ərzində formalaşmasına birbaşa təsir göstərmir.

İnvestisiya, məcmu təklifin tərkibində istehlakçı tələbi ilə yanaşı xüsusi yer tutur. Belə şəraitdə əmanət və istehlak tələbin səmərəliliyinə müxtəlif səviyyədə təsir göstərir. Əgər əmanət tələbi məhdudlaşdırırsa, lakin investisiya onun həcm və kəmiyyətini yüksəldir. İnvestisiyanın səviyyəsi milli gəlirin həcminə əhəmiyyətli dərəcədə təsir göstərməklə, milli iqtisadiyyatın bir çox makroiqtisadi göstəricilərinə fəal təsir göstərir. Ona görə də əmanət və investisiya səviyyələri milli iqtisadiyyatın inkişafına, onun davamlı xarakter almasına fərqli şəkildə təsir edir. Əmanət səviyyəsinin sərəncamda olan gəlirdə payının çox olması və onun investisiyaya yönəldilən hissəsinin az olması milli iqtisadiyyatının artım sürə-

tində tərəddüdlü vəziyyətin gətirilib çıxarılmasına səbəb olur. Lakin əmanətin investisiyaya yönəldilən hissəsinin yüksəldilməsi, bütövlükdə milli iqtisadiyyata fəallıq mühitini formalaşdırmaqla, xalis investisiyanın artımını əsaslandırır. Ona görə də hər şəraitdə ölkə miqyasında investisiya geniş təkrar istehsal prosesini müəyyən etməklə onun tiplərinin qiymətləndirilməsinə əsas verir. Bu da onu göstərir ki, əmanət investisiyanın ilkin mənbəyidir. Lakin nəzərə almaq lazımdır ki, əmanəti bir qisim təsərrüfat subyektləri, lakin investisiyanı isə başqa təsərrüfat subyektləri həyata keçirirlər. Bununla yanaşı investisiyanın mənbəyi fəaliyyətdə olan müxtəlif firmaların əmanətləri də ola bilər. Yalnız belə şəraitdə əmanətçi ilə investor bir simada çıxış edə bilər. Nəzərə almaq lazımdır ki, ev təsərrüfatçısının, muzdlu işçinin əmanəti, onu sahibkar olmadığına görə eyni səviyyədə investor olmaq imkanından məhrum edir. Ona görə də əmanət bütün əhali qrupu üçün əhəmiyyətlidirsə, lakin onun investisiya mənbəyinə çevrilməsinə daha çox sahibkarlar, biznesmen və iş adamları üçün sərfəlidir.

Ümumiyyətlə, investisiya əsasən aşağıdakı amillərdən asılıdır:

- gözlənilən mənfəət normasından;
- faiz dərəcəsinin səviyyəsindən;
-ölkənin vergi mühitindən;
- pulun qiymətdən düşməsinə səbəb olan inflyasiyanın sürətindən.

Gözlənilən mənfəət və ya rentabellik norması bank faizindən aşağı olduğu şəraitdə investisiya və ya kapital qoyuluşu həyata keçirilməyəcəkdir. Çünki investor öz kapital tətbiqi şəraitində həmişə alternativ variantlardan istifadə edir. Bir qayda olaraq investor üçün əsas meyar faiz dərəcəsinin səviyyəsidir. İnvestor vəsaiti ya yeni müəssisələrin tikilməsinə, ya da banklara yönəldə bilər. Əgər faiz dərəcəsi, gözlənilən mənfəət normasından yüksək olarsa, onda investisiya prosesi baş tutmayacaq, o yeni əmanət vasitəsinə

çevriləcək. Yoxsa faiz dərəcələri gözlənilən mənfəət normasından aşağı olarsa, onda biznesmenlər kapital qoyuluşları layihələrinin həyata keçirilməsinə maraq göstərəcəklər. Beləliklə də görünür ki, investisiya faiz dərəcəsi funksiyasından, əmanət isə gəlir funksiyasından asılıdır. Bu baxımdan müasir keynsçilər belə hesab edirlər ki, investisiyanın və əmanətin dinamikası müxtəlif amillərdən asılıdır. Lakin həm investisiya, həm də əmanət üçün faiz norması xüsusi rol oynayır. Neoklassik məktəbə görə həm investisiya, həm də əmanət faiz norması funksiyasıdır. Bununla əlaqədar C.M.Keynsin fikri, müəllimi A.Marşallın fikrindən fərqlənir. O qeyd edir ki, investisiya faiz norması funksiyasından asılıdırsa, lakin əmanət gəlirin funksiyasından asılıdır. Yəni, S=S (Y).

Faiz dərəcəsinin investisiya və əmanətlə olan qarşılıqlı əlaqəsini qrafik təsvirlə daha aşkar görmək olar:




Şəkildən göründüyü kimi faiz norması həm əmanətlə, həm də investisiya ilə əlaqədardır. Lakin investisiya daha çox faiz norması ilə əlaqədardır. Faiz norması artdıqca

investisiyanın səviyyəsi aşağı düşür və əksinə. Bununla da investisiyanın faiz norması funksiyasını daşıdığının şahidi oluruq. J=f (r).

Əmanətdə faiz norması funksiyasını daşıyır. S=S (r). Lakin, artıq burada faiz norması artdıqca əmanətin səviyyəsi yüksəlir. Faiz norması $r_0$ – bərabər olduqda makrosəviyyədə əmanətlə investisiya arasındakı bərabərlik təmin olunur. $r_1$ və $r_2$ şəraitində ümumi bərabərlik səviyyəsindən kənarlaşmalar baş verir. Ümumiyyətlə, əmanətlərin faiz dərəcəsinə uyğun olaraq investisiyaya yönəldilməsi iqtisadi fəallıq mexanizmində xüsusi yer tutur. Eyni zamanda onların hər biri müxtəlif amillərin təsiri vasitəsilə dəyişikliklərə məruz qalırlar. Lakin investisiya prosesinin mahiyyətinin dəqiqləşdirilməsində üç elementin roluna diqqət yetirilməsi olduqca vacibdir. Bunlar buraxılış, xərc və gözləmə elementləridir.

İnvestisiya firmaya o vaxt əlavə ödəniş gətirə bilər ki, onun vasitəsilə istehsal olunan məhsul daha iri pul məbləğini reallaşdıra bilsin. Bu o deməkdir ki, investisiyanın əsas gücü onun məcmu məhsul istehsalının səviyyəsinin yüksəldilməsinə nail olunmasındadır. Fabrik və zavodların istehsal güclərindən tam istifadə olunmadığı şəraitdə, firmaların yeni avadanlıqların alınmasına olan meyli nisbətən aşağı düşür ki, bu da investisiya səviyyəsinin aşağı olmasına səbəb olur. Başqa sözlə, investisiya, ümumi iqtisadi fəallığın əsasında duran buraxılışın artımından asılıdır. İşgüzar tsiklik şəraitdə buraxılışın tərəddüdlü hərəkəti, investisiyanın dinamikasına təsir göstərir. İnvestisiya dinamikası bir qayda olaraq buraxılışın artım sürətinin dəyişilməsindən asılıdır. Başqa sözlə, investisiyanın səviyyəsi, buraxılışın yüksəldiyi şəraitdə artacaq və əksinə.

İnvestisiya prosesinə təsir göstərən xərc elementinin, hesablanması mürəkkəb olsa da, lakin onun nəzərə alınması olduqca vacibdir. Əgər alınan əmtəə uzun illər ərzində istifadə olunursa, onda kapital xərcini, kreditə görə faiz dərəcəsi ilə müəyyən etmək olar. Bəllidir ki, investorlar kapital

nemətlərini istiqrazlar vasitəsilə əldə etmək istəyirlər. Faiz dərəcəsi müəyyən vaxt ərzində kreditə götürülmüş pula görə verilən qiymətdir. Məsələn, il ərzində götürülmüş 1000 manat kreditə görə ödənilən 15% xərc elementi kimi çıxış edir. O cümlədən dövlətin yeritdiyi büdcə-vergi siyasəti iqtisadiyyatın bu və ya digər sahəsində investisiyanın aparılmasına yönəldilir ki, bu da xərc elementi kimi görünür. İnvestisiyaya yönəldilmiş xərc vasitəsilə əldə olunan mənfəətin vergiyə cəlb olunması dərəcəsi həmin sahənin milli iqtisadiyyat üçün daşıdığı əhəmiyyətdən asılıdır. Ona görə də iqtisadiyyatın müxtəlif sahələrinin fərqli vergi dərəcələrinin tətbiqi istər-istəməz həmin sahələrin investisiya xərclərinin həcminə təsir göstərməsinə səbəb olur. Bu da öz növbəsində mənfəət səviyyəsinə təsir göstərir. Xərc elementi özünü daha çox investisiyanın uzunmüddətli tətbiqi zamanı əks etdirir.

İnvestisiyanın üçüncü hərəkətverici bir qüvvəsi biznesmenlərin gözləməsidir. İnvestisiya, gələcək dövrə görə tətbiq olunan vəsaitdir. Hadisələrin gedişatı, qoyulan vəsaitlərdən buraxılışın əldə olunması, reallaşmadan sonra mənfəətin səviyyəsi, gözləmə elementinin əsasında durur.

Əgər sahibkarlar hər hansı sahənin durğunluq vəziyyətini görərlərsə həmin sahəyə investisiya vəsaiti yönəltməyəcəklər və əksinə, məsələn, şəkər çuğundurunun ölkə ərazisində istehsalı üçün münbit şəraitin və dünya bazarında şəkərin qiymətinin artmaqda olduğunu gördükdə, onda şəkər zavodlarının tikintisi üçün biznesmenlərdə maraq əmələ gələcəkdir. İlk növbədə bu həmin sahənin perspektivli olduğunu və ondan nisbətən tətbiq olunan hər manatlıq investisiya vəsaitinə görə daha çox mənfəət gözləmək inamından irəli gəlir. Deməli, investisiya üçün gözləmə və gələcək hadisələrin gedişatını proqnozlaşdırmaq xüsusi əhəmiyyət daşıyır.

Beləliklə də demək olar ki, investisiya qərarları aşağıdakı üç amildən asılıdır:

-yeni kapital qoyuluşları nəticəsində buraxılan məhsullara olan tələbdən;

-investisiya xərclərinə təsir göstərən faiz və vergi dərəcəsindən;

-iqtisadiyyatın vəziyyətindən asılı olaraq sahibkarların gözləməsindən.

## 8.4. İstehlak, əmanət, investisiya və onların qarşılıqlı əlaqəsi

Məcmu təklifin mühüm tərkib hissələri olan istehlak və investisiya makroiqtisadi fəallıq mexanizminə aktiv təsir göstərir. Eyni zamanda investisiya prosesinə əmanət xüsusi təsir dairəsinə malikdir. Göründüyü kimi, istehlak, investisiya və əmanət qarşılıqlı əlaqəyə malik olub, ÜDM həcminə təsir göstərməklə iqtisadiyyatın makromüvazinətli vəziyyətinin yaradılmasına imkan yaradır. Mövcud qarşılıqlı əlaqə prosesini qrafik təsvir vasitəsilə aydın görmək olar.



Qrafik təsvirdə şaquli xəttə əmanət və investisiyanı, üfüqi xəttə isə ÜDM daxil etsək, görərik ki, investisiyanın məbləği ÜMM həcmindən asılı olmayaraq dəyişilməz qaldığından o da ÜMM kimi üfüqi istiqamətdə hərəkət edəcəkdir. Lakin qrafikdə əhalinin yığımı ümumi asılı olduğundan o düz xətlə müşahidə olunacaqdır. Qrafik təhlildən görünür ki, əmanətin qrafiki ilə investisiyanın qrafiki E nöqtəsində kəsişir. Bu nöqtədə investisiya ilə əmanətlərin bərabərliyi əks olunur. Deməli, bu nöqtə makroiqtisadi müvazinəti əks etdirməklə ÜDM-in uyğun həcmini xarakterizə edir. Bu o deməkdir ki, ÜMM-in həcmi makroiqtisadi müvazinət şəraitində imkan verir ki, E nöqtəsində həm əhali əmanətləri EM həcmində, həm də firmalar EM kəmiyyətində investisiyaları həyata keçirə biləcəklər. Əgər əhalinin əmanətləri E nöqtəsindən K nöqtəsinə qalxarsa, onda ÜDM = $OM_1$ bərabər olmaqla əmanətlərin investisiyalardan üstünlüyü vəziyyəti müşahidə olunacaqdır. ÜMM belə səviyyəsində əhali daha çox əmanət etməklə investisiya meylinin aşağı düşməsinə səbəb olacaq. İnvestisiya hazır olan müəssisələrdə proses baş tutmadıqda, faktiki olaraq bu əhalinin əlavə istehlak etmək imkanlarını məhdudlaşdıracaq. Bu da öz növbəsində firmaların bazarlardakı əlavə məhsullara olan tələbini kəskin şəkildə aşağı salacaq ki, bu da vəsaitin əmtəə ehtiyatlarına olan yönümünü sürətləndirəcək. Təbii olaraq belə vəziyyət nə investisiyaya olan meyli, nə də ki, istehsalın miqrasiyasının genişləndirilməsi marağını artırmayacaq. Məcmu tələbin artımı tədrici olaraq gəlirin əlavə artımınınn daha çox istehlaka yönəldilməsini əsaslandıracaq, bu da əlavə əmanət həcmini azaltmaqla, investisiya kəmiyyətinin məhdudlaşdırılmasına səbəb olmaqla ÜDM həcminin aşağı düşməsinə, qrafik təsvirdə sola doğru meyil etməsinə səbəb olacaqdır. Bu proses zəncirvari şəkildə əhalinin məşğulluğunu aşağı salacaq. Nəticə etibarilə əmanətlərin azalması prosesi baş verəcəkdir. Belə vəziyyət o vaxta qədər davam edəcəkdir ki, E nöqtəsində əmanətlərin

həcmi ilə investisiyaların kəmiyyətinin müvazinəti baş versin. Yalnız bu nöqtədən sonda, daha doğrusu makroiqtisadi müvazinətin təmin olunmasından sonra ÜDM-in azalma meylinin qarşısı alınacan. Bu isə o deməkdir ki, nə həddindən artıq istehsal genişlənəcək, nə də ki, məhsul çatışmazlığı baş verəcək. Eyni zamanda əmanətlə investisiyanın müvazinətliyi ÜDM-in optimal həcmini müəyyənləşdirəcək. Əmanətlə investisiya arasındakı müvazinətin yaradılması ilə makrosəviyyədə məhsul buraxılışının optimal həcminin əldə olunması Keyns ideyası ilə klassik məktəbin qəbul etdiyi müvazinət modeli arasında fərq meydana gəldi. Klassik məktəbin müvazinət modelinə görə:

- uzunmüddətli işsizlik mümkün ola bilməz. Çünki qiymətin çevik mexanizmi pozulan müvazinəti bərpa edəcək, yəni əmək bazarında qiymət səviyyəsi tələblə təklifi uzlaşdıracaq;
- bazara xas olan çevik qiymət mexanizmi hər şəraitdə müvazinəti qoruyacaq;
- əmanət yalnız, faiz dərəcəsi funksiyasıdır.

Lakin bu modeldən fərqli olaraq Keynsin irəli sürdüyü fikirlər nəinki istehlakın, əmanətin və investisiyanın funksional mahiyyətini, həm də onların qarşılıqlı əlaqə mexanizmini aydınlaşdırdı.

Keynsin müvazinət modelinə görə:

- investisiya ilə əmanət arasındakı bərabərliyi, hətta tam məşğulluğun olmadığı şəraitdə də yaratmaq olar;
- sahibkarlar bazarda məhsullarına olan tələbin aşağı düşdüyünə görə qiymətləri azaltmaq əvəzinə, istehsalın həcmini azaltmaqla işçiləri azad etməyə üstünlük verirlər. Bu da işsizliyin əmələ gəlməsinə çevrilir;
- əmanət təkcə faiz dərəcəsi funksiyasını deyil, həm də gəlir funksiyasını əks etdirir.

Beləliklə də əmanətlə investisiya arasında qarşılıqlı əlaqə meydana gəlir. Bu qarşılıqlı əlaqədən də ÜDM-in optimal səviyyəsinin müəyyən olunması imkanı meydana

yaranır. Artıq istehlakla əmanət arasında, əmanətlə investisiya arasında mövcud olan qarşılıqlı əlaqəni və onların xüsusiyyətlərini gördük. İndii isə istehlakla investisiya arasındakı əlaqəyə diqqət yetirək. Bunu da qrafik təsvir əsasında nəzərdən keçirək.




B qrafik təsvir əslində ÜDM-in istehlak və investisiya vasitəsilə müəyyən olunmasını əks etdirəcək. Üfüqi xətdə ÜDM, şaquli xətdə firma və əhalinin istehlak və investisiya xərclərinin məcmusu əks olunur. $45^0$ xətt isə onun hər nöqtəsində P ilə ÜDM kəsişməsi, onların kəmiyyət bərabərliyini əks etdirir. Buradakı CC xətləri isə gəlirin istehlaka bərabərliyini əks etdirilməsi ilə əlaqədar daxil edilmişdir. Yəni, ÜDM artımı ilə gəlirlərin artımından asılı olaraq istehlakın artımının baş verməsi CC xəttinin, ÜDM xətti ilə paralelliyi mövcuddur. B nöqtəsi əhalinin gəliri ilə istehlakının bərabərliyini əks etdirir. Lakin sonrakı E, K, F nöqtəsində əhalinin gəlirinin artımı ilə istehlakın həcmi arasındakı qeyri-bərabərlik müşahidə olunur. Bu qeyri-bərabərlik əmanət və investisiya vəsaitlərinin formalaşması ilə əlaqədardır.

Əgər əhali əsaslı şəkildə istehlak şeylərinə olan tələblərini artırsa, onda firmalar istehsalın genişləndirilməsi naminə yeni maşın və avadanlıqların, xammal və materialların alınmasına yönəldilən xərclərini artırmalı olacaqlar. Bu da bazarda tələbin J kəmiyyətində artmasına səbəb olacaq. Məcmu xərclər əhalinin istehlakı ilə investisiyaya bərabər olacaq (C+J). Birbaşa xərc kimi görünən (C+J) birbaşa CC xətti üzrə J kəmiyyətində yüksələcək. İlkin prosesdə ÜDM-in istehlaka yönəldiləcək həcmi E nöqtəsində üst-üstə düşəcək. Bu da OM kəmiyyətinin ÜDM kəmiyyətində optimallıq səviyyəsini əks etdirəcək. Yəni, B nöqtəsindəki $OM_1$ kəmiyyəti OM kəmiyyətinə çatmaqla istehlakın ödənilməsində ÜDM-də bərabərlik təmin olunacaq. Bu isə o deməkdir ki, istehsal olunan bütün məhsullara tələb göstəriləcək. Yəni, EM həddi sərf olunan istehlak və investisiya xərclərinin məbləğinə bərabər olacaq. $45^0$ xətdəki E nöqtəsində məcmu xərclərlə ÜDM bərabərliyi əks olunacaq. Yəni, OM = EM. ÜDM həcminin $M_2$ $M_3$ məbləğdə artması $45^0$ xətt üzrə müşahidə etdikdə bəlli olur ki, onun istehlakı K nöqtəsində isə baş tutmayacaq. Çünki F nöqtəsndə əhalinin və firmaların nəzərdə tutduğu məcmu xərclərdən daha çox ÜDM istehsal olunmuşdur. Bu da istehsalın həcminin azaldılması meylini sürətləndirəcək. Onun K, E səviyyəsinə enməsinə səbəb olacaq. Bu isə istifadəsiz məhsulların olduğu bir şəraitdə, məşğulluğun azalmasına gətirib çıxaracaq. Ona görə də belə şəraitin baş verməməsi üçün həm xüsusi investisiyaların stimullaşdırılması, həm də xüsusi xərclərin artırılması zəruriliyi meydana gəlir. Yəni, bir C+J-nin C+J+G çevrilməsi zərurəti meydana gəlir. Daha doğrusu, ÜDM kəmiyyətinin optimallığının təmin olunması üçün məcmu xərclərlə firma və əhalinin xərcləri ilə yanaşı dövlət xərclərini də daxil etmək vacibdir. G – dövlət xərci kimi istehlak- CC xəttinə investisiya ilə bərabər şəkildə daxil olmaqla həm istehlakı, həm də investisiyanı stimullaşdırır.

Dövlət xərcləri – G, həm əmanət-investisiya metodu üçün, həm də istehlak-investisiya metodu üçün xüsusi əhəmiyyət daşıyır.

Beləliklə də aydın olur ki, gəlirlər və onların artım səviyyəsi istehlak, əmanət və investisiya üçün, digər amillərin rolunu nəzərə almaqla xüsusi əhəmiyyət daşımaqla onların hər birinin səmərəlilik səviyyəsi aralarındakı qarşılıqlı əlaqənin təmin olunmasında görülən tədbirlərdən bilavasitə asılıdır.

İnvestisiya, onun səviyyəsi, mühiti, iqtisadi artımın təmin olunmasında mühüm rol oynamaqla o, bilavasitə ÜDM-in yüksəlməsinə, işsizliyin azaldılmasına, tam məşğulluğun təmin olunmasına xidmət göstərməklə onun hər vahidinin artımı hesabına əldə olunan səmərənin çoxalması və sürətlənməsi özünü multiplikator və akselerator vasitəsilə büruzə verir.

## 8.5. Multiplikator və akselerator nəzəriyyəsi

Multiplikator termini «çoxalan» mənasını verməklə, gəlirin dəyişilməsinin investisiyanın dəyişilməsindən asılılığını əks etdirən əmsaldır. Bu əmsal vasitəsilə əlahiddə investisiya ilə ÜMM arasında davamlı əlaqənin olduğunu sübut etməkdən ötrü C.M.Keyns bu anlayışdan istifadə etmişdir. 1936-cı ildə nəşr etdirdiyi «Məşğulluğun, pulun və faizin ümumi nəzəriyysi» əsərində onun mahiyyətini şərh etmişdir. Lakin ona qədər 1931-ci ildə digər ingilis iqtisadçısı Riçard Kann (1905-1989) multiplikatorun ümumi prinsiplərini şərh etmişdir. Kann iqtisadiyyatın hər hansı sektorunda ilkin investisiyanın gəlirlərin artımı ilə məşğulluğun təmin olunması vasitəsilə istehlak təyinatlı məhsullar istehsal edən sahələrdə təkrar məşğulluğa nail olunmağın mahiyyətini şərh etmişdir.

Multiplikatorun rəqəmli misal kimi gəlirin artımının, investisiyanın artımına nisbətən üstünlüyünü əks etdirir.

Bazar iqtisadiyyatında multiplikator təkcə «çoxalan» kəmiyyət kimi deyil, səmərə baxımından qiymətləndirilir. Multiplikator səmərəsi dedikdə, hər vahid əlahiddə xərclərin artımı ilə cəmiyyətin milli gəlirinin artımı, ilkin xərclərin artımından üstün olur. Multiplikator investisiyanın hər vahidinin artımı hesabına ÜDM artımını əks etdirməklə bir növ suya atılmış daşın əmələ gətirdiyi dairələrə bənzəyir. Bu dairələr böyüyərək özündən sonra digər dairələrini əmələ gətirir. Yaxud televiziya «qülləsinin», sputnik antenalarının yayımladığı informasiya dalğalarına bənzəyir. Hər bir dalğa özündən sonra nisbətən kiçik dalğaları yaratmaqla informasiya yayımı fasiləsiz şəkildə həyata keçirilir. İqtisadiyyatın fasiləsiz və səmərəli fəaliyyəti üçün investisiya «dalğasının» tətbiqi ilə zəncirvari reaksiya baş verir. İqtisadiyyatın əlaqəli sahələrində istehsalın miqyası genişlənir, gəlirlərin səviyyəsi yüksəlir, ən başlıcası isə məşğulluq təmin olunur. ÜDM-in optimal həcmi şəraitində iqtisadiyyatdı ümumi müvazinət yaranır. Belə şəraitdə investisiyanın artımı ilə əldə olunmuş ÜDM artımının kəmiyyəti, ilkin tətbiq edilmiş əlavə investisiyanın kəmiyyətindən xeyli, nəzərəçarpacaq dərəcədə yüksək olur. Bu ondan irəli gəlir ki, investisiya təkrar səmərənin əmələ gəlməsinə səbəb olur. Yəni investisiyanın ilkin səmərəsindən sonra, törəmə şəklində ikinci, üçüncü, dördüncü və s. səmərə prosesinə şərait yaradır. Hesab edək ki, investisiya 80 mln. man. artıb. Bunun müqabilində istehsalın məcmu həcmi 240 mln. man. artıb. Bu onu əks etdirir ki, həmin iqtisadiyyatda multiplikator 3-ə bərabərdir. Əgər əlavə investisiya artımı məhsul buraxılışını 32 mln. man. çatdırıbsa, onda multiplikator 4–ə bərabər olardı. Multiplikator formulu belədir:

$$\text{Multiplikator} = \frac{\text{ÜDM artımı}}{\text{İnvestisiya artımı}} = \frac{\Delta \text{ÜDM}}{\Delta C}$$

Sual oluna bilər - niyə multiplikator həmişə ilkin əlavə investisiya artımından üstün olur? Bunu konkret misalla

izah edə bilərik. Hesab edək ki, «Taxta körpü» dəryaçasının tikintisi üçün ilkin olaraq 100 mln. əlahiddə investisiyaya yönəldilmişdir. Dəryaçanın tikntisinin təşkili ilə bağlı olan bütün istehsal amilləri sahibləri hamısı öz gəlirlərini əldə edəcəklər. Məsələn, fəhlələr öz əməkhaqlarının **bir hissəsini** tələb şəklində istehlak malları bazarına soyuducuların alınmasına yönəldirlər. Digər hissəsini isə əmanət edirlər. Deməli, digər təsərrüfat subyektlərinin, yəni soyuducu istehsal edənlərin pul gəlirləri artmağa başlayacaq. Soyuducu istehsal edənlər də əldə etdiyi əlavə pul gəlirlərinin bir hissəsini kondisioner almağa, digər hissəsini əmanətə yönəldəcək.

Kondisioner istehsalçıları da gəlirlərinin bir hissəsini «Avropa qapıları»nın alınması, digər hissəsini də əmanətə yönəldəcək. Belə bir zəncirvari proses iqtisadiyyatın bütün sahələrində fəallığın yaradılması ilə məcmu tələbin artımına uyğun məcmu təklifin artmasına da səbəb olmaqla, məşğulluğun təmin olunmasına imkan yaradacaq. Əslində multiplikator səmərəsi əlavə investisiyanın, əlavə ÜDM-in üstün artımını təmin etməklə, bir tərəfdən iqtisadiyyatın intensivləşdirmə səviyyəsini, digər tərəfdən əhali təbəqələrinin istehlak bazarına yönəldilmiş tələblərinə uyğun olaraq məşğulluq səviyyəsini yüksəldir.

Daha konkret olaraq multiplikatorun üstün artıma nail olunması əlahiddə investisiyanın tətbiqindən sonra, iqtisadiyyatda gedən zəncirvari prosesla əlaqədardır. Yəni, məcmu tələbin artması ilə gəlirlərin artımı prosesi gedir. Əməkhaqqının artımı ilə onun bir hissəsinin istehlaka, digər hissəsinin əmanətə yönəldilməsi və MPC+MPS=1 «son həddmeyli» prinsipinə əsasən multiplikator əmsalı həndəsi silsiləni əsaslandırmaqla investisiyanın artımını üstələyir. Bunun əyaniliyinə diqqət yetirək. Hesab edək ki, 100 mln. manatlıq ilkin investisiya gəlir artımına səbəb olub. 100 mln. gəlir sahibləri onun bir hissəsini xərcləyirlər. Tutaq ki, son istehlak yönümü (MRC) 0,75-ə bərabərdir. Deməli, 100 mln. manatın yalnız 75 mln. manatı istehlaka xərclənəcək.

Yerdə qalan hissəsi 25 mln. manat əmanətə yönəldiləcək, başqa sözlə, MPS = 0,25. Gəlirin sonrakı artımı kimi görünən 75 mln. manatda yalnız 75% istehlaka yönəldiləcək. Yəni istehlaka yönəldilən milli gəlirin artımı 75x0,75= 56,25 mln. manatdır Bu prosesin hər yeni iqtisadi agentləri üzrə yayılması (MPC =0,75; MPS=0,25) əlavə gəlirlərin 1/3 prinsipi ilə bölgüsü ilə artacaq. Beləliklə də ilkin investisiya ilə milli gəlirin artımını, hər sonrakı sahələrdə əldə olunmuş gəlirlərin artımının cəmi kimi nəzərə almaq lazımdır. Yəni 100 mln. man. + 75 mln. man. + 56,25 mln. man. + ... Mövcud hesablamada həndəsi silsilədə son məbləğ 400 mln. manata bərabər olacaq.

Bu rəqəm aşağıdakı formula əsasında hesablanmışdır:

$$C \times 1/(1\text{-}MPC)=V$$

Yəni

$$100x(1+0,75+0,75^2+0,75^3+0,75^4+...)=100x1/(1\text{-}PC)=$$
$$=100x(1/0,25)=400mln.man.$$

İlkin olaraq investisiyanın 100 mln. man. artımı, multiplikator vasitəsilə gəlirin dörd dəfə artımına səbəb olmuşdur. Beləliklə də istehlak xərcləri 400x0,75=300 mln. man. əmanət isə 400-300=100 mln. manat artmışdır. Əmanətin sonrakı artımının investisiyanın ilkin artımı həcmində olması məcmu gəlirin dəyişilməsi hesabına baş vermişdir. İqtisadiyyatın müxtəlif sahələrindəki iqtisadi fəallıq məcmu gəlirlərin həcmini artırmaqla bir tərəfdən məcmu xərclərin həcmi ilə ÜDM-in optimallıq səviyyəsi arasındakı müvazinəti, digər tərəfdən isə investisiya ilə əmanət arasındakı müvazinəti təmin edə bilmişdir. Mövcud rəqəmlər əsasında multiplikatoru (K) son istehlak yönümü və son əmanət yönümü vasitəsilə müəyyən etmək olar.

MPC+MPS=1 və ya MPC=1-MPS.

Onda multiplikatoru belə qeyd etmək olar.

$$K = \frac{1}{1 - MPC} = \frac{1}{MPS}$$

Beləliklə, belə nəticəyə gəlmək olar ki, multiplikator son əmanət yönümü ilə tərs mütənasibli kəmiyyətdir.

Deməli, $$\Delta ÜDM = \frac{1}{MPS} \times \Delta C = \frac{1}{1 - MPC} \times \Delta C$$

Biz multiplikator səmərəsini əsasən istehlak xərclərinin artımı ilə əlaqədar izah etmişik. Lakin nəzərə almaq lazımdır ki, ilkin investisiya məşğulluğun həcminə də təsir göstərir. «Taxta körpü» dəryaçasının tikintisi ilə əlaqədar yönəldilən ilkin investisiya məbləğini xatırlasaq görərik ki, orada digər istehsal amilləri ilə yanaşı muzdlu əməyə olan tələb də yüksək olacaq. Multiplikator səmərəsi hərəkətə gəldikdə isə artıq məcmu tələb dairəsi genişlənməklə, məcmu təklifdə dəyişikliklərin olunmasını zəruriləşdirəcək. Beləliklə, ilkin investisiya, uzun müddətə təkrar istehsalın miqyasının genişlənməsinə, yeni investisiya qoyuluşlarının tətbiq olunmasına, yeni iş yerlərinin açılmasına və nəticə etibarı ilə ÜDM-in artırılmasına səbəb olur. Multiplikatorun mahiyyətini daha konkret və sadə rəqəmlərlə də izah etmək olar. Tutaq ki, «Oğuz-Qəbələ-Bakı» su kəmərinin çəkilməsinin təşkili üçün dövlət 100 mln. man. pul ayırıb. Əgər cəmiyyətdə son istehlak yönümü MPC-0,8-ə bərabər olursa, onda multiplikator, başqa sözlə, K aşağıdakı formanı alacaq.

$$K = \frac{1}{1 - MPC} = \frac{1}{1 - 0,8} = \frac{1}{0,2} = 5$$

Belə olan şəraitdə ÜDM-in həcmi 500 mln. man. olacaqdır. $\Delta İ = \Delta İ x K = 100.000.000 x 5 = 500$ mln. man.

Deyilənlərə əsasən belə nəticəyə gəlmək olar ki, multiplikatorun hərəkəti, investisiyanın hər dəfə əlavə istehlak və əmanətin törədilməsi ilə əlaqədardır. Multiplikatorun qrafik təsvirini aşağıdakı kimi vermək olar:




Belə hesab etmək olar ki, makroiqtisadi səviyyədə ÜDM müvazinəti 60 mlrd. man. səviyyəsində əldə olunmuşdur. İstehlak səviyyəsi 40 mlrd. man., əmanət səviyyəsi 20 mlrd. man. İnvestisiya da uyğun olaraq 20 mlrd. man. olmuşdur. MPS=1/3. Bazarda yeni ixtiralar, daha 10 mlrd. yeni investisiyanın cəlb olunması zərurəti meydana gəlir. Multiplikator nəzəriyyəsinə görə investisiyanın əlavə artımının 10 mlrd. artımı ÜDM-in 30 mlrd. artımı deməkdir. İnvestisiyanın 10 mlrd. artımı İİ- xəttinin $İ^1İ^1$ xətti ilə əvəz olunmasına gətirib çıxardacaqdır. ÜDM-in yeni müvazinət nöqtəsi $E^1$-də baş verəcəkdir. Belə şəraitdə göründüyü kimi ÜDM investisiyaya nisbətən 3 dəfə çox artmışdır.

ÜDM-in üstün artımı əhalinin gəlirlərinin də artımına səbəb olur. Əhalinin əmanətə olan istəyi artır. Bu da yeni, daha yüksək investisiya səviyyəsinin tətbiq olunması imkanını əsaslandırır. Beləliklə, multiplikator, yeni investisiyaların əlavə gəlir mənbəyinin artırılması ilə əmanət mey-

linin investisiya meylinə çevrilməsi istiqamətində fasiləsiz hərəkət mexanizmi kimi fəaliyyət göstərir.

Artıq investisiyanın gəlirə və məhsul buraxılışına olan təsirini multiplikator vasitəsi ilə izah etdik. İndi isə gəlirin, yəni ÜDM, ya da milli gəlirin investisiyaya olan təsirinə diqqət yetirək. Belə təsir mexanizmi özünü **akselerator** vasitəsilə əks etdirir. Akseleratorda ədədi əmsal kimi iqtisadiyyatda tətbiq olunması prinsipi multiplikator ədədi əmsalından da əvvəl tətbiq olunmuşdur. Hələ XX əsrin əvvəlində fransız iqtisadçısı Alber Aftaliyon (1824-1956) 1907-ci ildə, Amerika iqtisadçısı Con Beyts Klark (1847-1938) 1917-ci ildə akseleratorun ümumi prinsipini göstərmişdir. İqtiəad elminə bu terminin gətirilməsi, daha sonralar neoklassiklərdən Roy Harrodun, Con Hiksin, neokeynsçilərdən olan Con Robensonun, Pol Samuelsonun və Elmiv Hansenin əsərlərində istifadə olunmuşdur. Xüsusən iqtisadi artım modellərinin tətbiq olunmasında onlar akseleratordan daha ətraflı, funksional asılılıqlar şəraitində istifadə etmişlər. Onlar belə hesab edirdilər ki, gəlirin hər cür artımı müəyyən həcmdə investisiyanın, **kapitalın optimal həcminə** uyğun olaraq, proporsional şəkildə meydana gəlməsinə səbəb olur. Əgər **kapitalın optimal həcmini** - $K^0$ ilə işarə etsək, görərik ki, o həm real faiz dərəcəsindən (r), həm də real gəlir səviyyəsindən (y) asılıdır. Yəni, $K^0=K^0(r, y)$.

Müəyyən investisiya həcminin kapitalın optimal həcminə proporsional olaraq meydana gəlməsi əslində kapitalın həcminin gəlirın həcminə nisbətən daha çox tərəddüdlərə məruz qalmasına səbəb olur. İnvestisiya həcmi $K^0$ həcmi əsasında formalaşdığından onun ümumi gəlir səviyyəsinə olan nisbət akselerator adlanır.

Akselerator - ədədi əmsal olub, məcmu gəlir (istehsal) səviyyəsinin dəyişilməsini, törəmə investisiyaya olan təsirini əks etdirir:

$\upsilon$ - akselerator;

$İ_t$ – t – vaxt momentində törəmə investisiyanın səviyyəsi;

$Y_{t-1}$ – (t-1) vaxt momentində məcmu gəlirin səviyyəsi;

$Y_{t-2}$ – (t-2) vaxt momentində məcmu gəlirin səviyyəsi.

İnvestisiyanın strukturunda əlahiddə və törəmə investisiyanı fərqləndirmək lazımdır. Çünki əlahiddə investisiyanın səbəbi kimi əhalinin sayının dəyişilməsini, elmi-texniki kəşf və ixtiraları, müxtəlif daxili və xarici qeyri-iqtisadi amilləri göstərmək olar. Lakin törəmə investisiyanın başlıca səbəbi istehsalın və məcmu gəlirin həcminin dəyişilməsidir. Beləliklə də qeyd etmək olar ki, akseleratorun prinsipi başlıca olaraq gəlirin kəmiyyətinin dəyişilməsi ilə investisiyanın səviyyəsinin daha yüksək həddə dəyişilməsi ilə əlaqədardır. Yəni gəlirin kəmiyyətinin hər dəfə dəyişilməsi daha yüksək həddi, investisiya səviyyəsini əsaslandırır. Məsələn, hesab edək ki, ölkədə istehsal təyinatlı kapitalın həcmi 100 mln. manata bərabərdir. Mövcud tələb səviyyəsində ildə 10% kapitalı bərpa etmək lazımdır. Başqa sözlə, kapitalın amortizasiyası üçün 10 mln. man. lazımdır. Əgər tələb 10% artsa da, onda istehsal güclərinin həddindən artıq yüklənməsi meydana gələcək ki, firmalar istehsalın genişləndirilməsi məcburiyyətində qalacaq. Onda investisiyanın səviyyəsi 20 mln. manata çatacaq (10 mln. man. amortizasiyaya investisiya, 10 mln. man. istehsalın genişlənməsinə yönəldilən investisiya). Bu şəraitdə tələbin (gəlirin) 10% artımı investisiyanın həcminin 2 dəfə artmasına səbəb olur. Məcmu tələbin (sərəncamda olan gəlirin) artımı ilə əlaqədar hər dəfə investisiya həcminin daha çox artımı prosesi labüdləşir. Bu göstəricilər arasında əlaqənin və ya nisbətin gözlənilməməsi iqtisadiyyatda qeyri-sabitliyi törədir. Həm də iqtisadi inkişafın tsiklik xarakter almasına səbəb olur. Əlavə investisiyanı əsaslandırmaqla multiplikator səmərəsinə görə istehsalın həcmi gələcəkdə genişlənir. Əgər multiplikatorun və akseleratorun səmərəliliyi enməyə

doğru meyil edərsə, onda iqtisadi inkişafda dalğavarı artım meyli müşahidə olunacaq. Ümumiyyətlə, tsiklik tərəddüdlər o vaxt müşahidə olunur ki, məcmu tələbin və investisiyanın həcmindəki dəyişikliklər qarşılıqlı əlaqəli şəkildə nəzərə alınmır. Yaxud da belə demək olar ki, tsiklik tərəddüdlərdən xilas olmaq üçün istehlaka son həddi yönümü ilə akseleratora olan son həddi yönümünün cəminin kvadratı 4 dəfəlik akseleratordan az olmasın:

$$[C+\upsilon]^2<4\upsilon$$

Qeyd etmək lazımdır ki, investisiyanın tətbiqi ilə əlaqədar olaraq ÜDM optimallıq səviyyəsinin əldə olunmasına, son istehlak yönümünün, son əmanət yönümünün formalaşmasına, eləcə də iqtisadiyyatın tsiklik vəziyyətdən makroiqtisadi müvazinətli vəziyyətə gətirilməsinə səbəb olduğundan multiplikatorla akseleratorun qarşılıqlı əlaqəsi də diqqətdən yayınmamışdır.

XX əsrin 40-cı illərində Pol Samuelson ilk dəfə olaraq multiplikatorla akseleratorun qarşılıqlı əlaqəsini tədqiq etmiş və keynsçi məcmu tələb nəzəriyyəsini işgüzar tsikl nəzəriyyəsi ilə əlaqələndirmişdir. Bu model statik vəziyyətində olmaqla dövlətin iştirakı ilə qapalı makroiqtisadiyyat üçün xarakterik olmuşdur. Samuelsonun modeli belədir:

$$C = ay_{t-1};$$
$$\dot{I} = \beta (C_{t-1}-C_{t-2})$$
$$C + \dot{I} + G = y;$$

On bir ildən sonra bu modelin C.Hiks tərəfindən başqa versiyası irəli sürüldü.

$$C = C_{yt-1};$$
$$\dot{I} = \beta (y_{t-1} - y_{t-2})$$
$$C + \dot{I} + G = y;$$

Burada $\beta$ - akseleratordur.

Sonralar onlar bu statik bərabərliyə vaxt amilini daxil etməklə tsiklin dinamik modelini əldə etdilər ki, bu da Samuelson – Hiks modeli adını aldı:

Burada $\beta$ - akseleratordur.

Sonralar onlar bu statik bərabərliyə vaxt amilini daxil etməklə tsiklin dinamik modelini əldə etdilər ki, bu da Samuelson – Hiks modeli adını aldı:

$$y_t = C_y\, y_{t-1} + \beta\,(y_{t-1} - y_{t-2}) + A_t$$

A – burada əlahiddə və ya avtonom tələbin kəmiyyətidir.

Beləliklə, qeyd olundu ki, iqtisadi sistemin keyfiyyət xarakteri akselerator ($\beta$) və multiplikator [ $1/(1-C_y)$ ] göstəricilərinin qarşılıqlı əlaqəsindən asılıdır.

Real iqtisadi həyatda Samuelson – Hiks modeli heç də tam real vəziyyəti əks etdirmədiyindən daha sonralar T.Terez modeli 70-ci illərdə tədqiq olunmağa başlandı. Onun da fərqli cəhəti ondan ibarət idi ki, nemət bazarı ilə yanaşı pul bazarının da nəzərə alınması tövsiyə olunurdu. Bununla da Samuelson – Hiks modeli üçün xarakterik olan davamlı müvazinətli sistemin qeyri-davamlılığı müşahidə olunurdu.

İnvestisiya ilə əmanətin qarşılıqlı əlaqəsindən və onların qeyri-xətti xarakter almasından asılı olaraq N.Kaldor son investisiyaya yönümü ($MPİ=İ_y$) ilə son əmanət yönümü ($MPS=S_y$) göstəricilərinə əsaslanan model irəli sürdü. Bu modelə görə $İ_y>S_y$ olanda iqtisadi sistem qeyri-müvazinətli, lakin $S_y>İ_y$ olanda iqtisadi sistemin müvazinəti davamlı olur. İnvestisiya və əmanət göstəriciləri qarşılıqlı əlaqədə olsalar da, lakin onların funksional fəaliyyətinə eyni xarakterli göstəricilər müxtəlif şəkildə təsir göstərir.

Beləliklə də, iqtisadi sistemin davamlı müvazinətli vəziyyəti üçün multiplikator ilə akseleratorun qarşılıqlı əlaqəsi və hər birinin ayrı-ayrılıqdakı fəaliyyəti müxtəlif təsir dairəsinə malikdir.

# IX FƏSİL. İQTİSADİ TSİKLLƏR NƏZƏRİYYƏSİ

**9.1. Tsikl makroiqtisadi dinamikanın forması kimi**
**9.2. İqtisadi tsikllərin təsnifatı və dövri xarakteri**
**9.3. Tsiklik hərəkətin səbəbləri**
**9.4. Dövlətin iqtisadi tsikl və böhrana təsiri**

## 9.1. Tsikl makroiqtisadi dinamikanın forması kimi

İqtisadi sistemin səmərəli və optimal fəaliyyəti bilavasitə onun əsasında fəaliyyət göstərən milli iqtisadiyyatın makroiqtisadi dinamik hərəkəti ilə əlaqədardır. Çünki makroiqtisadi dinamika bir tərəfdən iqtisadi artımla, digər tərəfdən iqtisadi tsikllə əlaqədardır. Biz artıq həm iqtisadi artımla, həm də ümumiyyətlə makroiqtisadi müvazinətlə tanışıq. Onu da xatırlayaq ki, artıq milli iqtisadiyyatlar üçün makroiqtisadi müvazinətli vəziyyət deyil, qeyri-müvazinətli vəziyyət xarakterikdir. Belə şəraitdə makroiqtisadi müvazinətə nail olunması və onun dinamizminin təmin olunması qeyri-müvazinətli vəziyyətdən **çıxmaq** üçün iqtisadi tədbirlər görülür. Çünki qeyri-müvazinatlı vəziyyət milli iqtisadiyyatın makroiqtisadi qeyri-sabitliyini əsaslandırır. Makroiqtisadi qeyri-sabitlik daha çox əks olunur:

-iqtisadi tsikldə;

-işsizlikdə;

-inflyasiyada.

İqtisadi **konyunkturanın,** makroiqtisadi **dəyişilənlərin** (ÜDM məşğulluq, qiymət səviyyəsi, faiz dərəcəsi, işgüzarlıq fəaliyyəti) müəyyən **vaxt** ərzində dəyişilməsi dinamik inkişafda tərəddüdlü vəziyyətin baş verməsi tsiklik prosesin baş verməsindən xəbər verir. Makroiqtisadi qeyri-sabitliyin işsizlik və inflyasiya formalarından fərqli olaraq iqtisadi tsikl daha mürəkkəb, həll olunması çətin görünən bir prosesdir. Çünki makroiqtisadi dinamikanın iki qütbünün birində

duran iqtisadi artım üçün real istehsal həcminin bərabər vəziyyətdə yüksəldilməsi xarakterikdirsə, lakin iqtisadi tsikl üçün isə istehsalın həcminin qeyri-bərabər artımı şəraitində fəaliyyət göstərməsi ilə şərtlənir. Qeyri-bərabər inkişaf, **tərəddüdlü vəziyyəti, enib-qalxmaları** (fluktuasiya), istehsalın real həcminin azalması və işgüzarlıq fəaliyyətin zəifləməsini müəyyən vaxt ərzində təzahür etdirir. Makroiqtisadi dinamikada iqtisadi artım qısa- və uzunmüddətli dövrlərə hədəflənirsə, lakin iqtisadi tsikl qısa müddətdə deyil, uzun müddətdə daha çox istehsalın real həcminin **tərəddüdlü şəkildə** azaldılmasına hədəflənir. **Ona görə də qeyd etmək olar ki, iqtisadi tsikl bir neçə il ərzində bir-birinin ardınca iqtisadi fəaliyyət səviyyəsinin yüksəlişi və enməsini xarakterizə edir.** İqtisadi tsikl sanki iqtisadi artımı müşayiət edir. İqtisadi artımın baş verməsi ilə onun enməsi baş verir. Belə yüksəliş və enmələr makroiqtisadi dinamikanın səviyyəsinə təsir etməklə işgüzarlıq fəaliyyətində tərəddüdlərin baş verməsinə səbəb olur. Daha doğrusu, iqtisadi tsikl **bir ildən çox müddət ərzində ÜDM-in yüksəliş və enməsi arsındakı vaxtda müəyyən edilir.** Ona görə də müasir iqtisadi işgüzar tsikl, biznes tsikl adı ilə **real ÜDM-la ifadə olunan işgüzar fəallıq səviyyəsinin daimi xarakterli tərəddüdü kimi qəbul olunur.** Lakin eyni şəkildə mövcud olan iqtisadi fəallığın tsiklik vəziyyətini də müşahidə etmək olmur. Ona görə də iqtisadi tsikllərin başvermə və davametmə müddətlərini nə proqnozlaşdırmaq, nə də müəyyənləşdirmək olmur. P.Samuelsonun obrazlı ifadəsi ilə demiş olsaq, «tsikllər dağ silsiləsinə oxşayaraq yoxuş və vadilərin müxtəlif hündürlüyündə yerləşir. Bir sıra vadilər geniş və dərindir (Böyük durğunluq kimi), digərləri dar və dayazdır (1970-ci illərdəki enmə kimi). Tsikllər bir növ hava durumuna bənzəyir. Gün ərzində təkrarlanan və müxtəlif hava temperaturunun əmələ gəlməsini xatırladır».

Tiskl anlayışı yunan sözü «kuklos» sözündən olub «dairə» mənasını verir. Bu o deməkdir ki, iqtisadi nöqteyi-

nəzərdən hər hansı bir **aralıq** zaman ərzində başa çatmış **inkişaf dairəsini** yaradan qarışılıqlı əlaqədə olan hadisələrin, proseslərin, işlərin məcmusu özünü tsikl şəklində əks etdirir.

İqtisadi tsiklin bu qədər mürəkkəb xarakter daşıdığı bir vəziyyətdə onun dərindən mənimsənilməsinin əhəmiyyəti nədən ibarətdir – sualı meydana gəlir. Sualın cavabını belə verə bilərik ki, makroiqtisadi dinamikadakı iqtisadi artım iqtisadiyyatın qeyri-müvazinətli gedişindən asılı olaraq daima düzxətli şəkildə deyil, **dalğavarı** formada inkişaf edir. İnkişaf dairəsindəki yüksəlişin enib-qalxması bütün nəticələrdə tənəzzül dövrü ilə rastlaşır. Beləliklə, iqtisadi nəzəriyyədə istifadə olunan tsikl anlayışı iqtisadi sistemin eyni bir vəziyyətə qaytarılmasını əks etdirməklə, makroiqtisadi göstəricilərin dinamikasındakı iqtisadi konyunkturanın eyni bir vəziyyəti arasındakı zamandır.

Tsiklik tərəddüdlərin zaman kəsiyindəki müxtəlif vəziyyət almasını qrafik təsvirlə daha aydın müşahidə etmək olar.




**Şəkil 1. İşgüzar fəallığın trend və fəallığı**

Qrafik təsvirdəki ÜDM ordinat oxu üzrə, vaxt isə absis oxu üzrə göstərilmişdir. Düz xətt – trend (meyil), dalğavarı xətt isə tsikl kimi nəzərdə tutulur. İqtisad elmində belə vəziyyət qəbul olunaraq ÜDM-in qısa- və uzunmüddətli dövrlər ərzində tsiklik inkişafı və ya işgüzarlıq fəallıq səviyyəsi müşahidə olunur.

İqtisadi tsikl nəzəriyyəsində **tsikl** və **trend** fərqləndirilir. Bu onunla əlaqədardır ki, makroiqtisadi dinamikada iqtisadi artım yüksələn düz xətt kimi qəbul olunur. Halbuki onun üçün dalğavari xətt xasdır. Düz xətt inkişafın meylini əks etdirir. **Trend – meyil** real ÜDM-in zaman kəsiyində faktiki səviyyəsindəki **yüksəliş** və **enmənin** xarakterizə olunması üçün vacibdir. İqtisadi tsikl isə düzxətli inkişaf üzrə makroiqtisadi dinamikanın müntəzəm xarakterli tərəddüdləri əks etdirir. İqtisadi tsiklin dalğavari şəkildə trend xətti ətrafında hərəkəti onu xarakterizə edən cəhətləri əks etdirməklə, ÜDM-in qısa və uzun müddətlərdəki real səviyyəsinin tərəddüdlərini əks etdirir. Qrafik təsvir vasitəsilə vəziyyəti araşdıraq. Trend xətti ətrafındakı F xətti işgüzar fəallığın tərəddüdünü göstərir. Beləliklə də belə bir vəziyyətlə rastlaşırıq ki, işgüzar fəallıq trend xəttinin başlanğıcında dövri dəyişmələrin qısamüddətli vaxt ərzində fluktuasiya (qalxma-enmə) vəziyyətini aldıqdan sonrakı dövri dəyişmələrdə, uzunmüddətli vaxtda isə tsiklik vəziyyəti alır. Ona görə də uzunmüddətli və qısamüddətli dinamikadakı işgüzar fəallığı fərqləndirmək lazımdır. Çünki trend xəttinin başlanğıcındakı vəziyyət bütün milli iqtisadiyyatlar üçün xarakterik ola bilər, lakin trend xətti boyunca uzunmüddətli vaxt ərzində isə **yüksəliş** və **enməyə** səbəb olan makroiqtisadi dəyişənlərin rolunun qiymətləndirilməməsi nəticəsində baş verir.

İqtisadi tsiklik prosesin mahiyyətinin təhlilində əsas diqqət, bir qayda olaraq, **zirvə** [(b,f) (bunu pik bum kimi də adlandırırlar)] və **enmə** [(d,h) (bunu da resessiya depressiya kimi adlandırırlar)] nöqtələrinə diqqət yetirilir. İqtisadi

yüksəlişi əks etdirən zirvənin və tənəzzülü əks etdirən enmənin iki qonşu nöqtələri arasındakı məsafə tsiklin davamiyyətini göstərir. Bizim qrafikdəki **bf** və **dh** tsiklin davamiyyətini əks etdirir.

İqtisadi tsiklin mahiyyətinin aşkarlanmasında onun malik olduğu və ardıcıl olaraq bir-birini əvəzləyən dörd fazanın mövcudluğu: **böhran, depressiya, canlanma və yüksəliş** göstərilirdi. Kapitalist iqtisadiyyatının tsiklik xarakterli olduğunu qeyd edən K.Marksın bu elmi müddəası demək olar ki, 2007-2009-cu illərdəki qlobal maliyyə və iqtisadi böhrana qədər qərbdə qəbul olunmuşdu. Ekonomiks dərsliklərində tsiklin əsasən **bum, enmə, depressiya, canlanma** fazaları göstərilir. Bəzi hallarda isə iqtisadi tsiklin yalnız iki **tənəzzül** (resessiya) və **yüksəliş** fazaları qeyd olunur.

İqtisadi tsiklin böhran fazasına olan maraq, müasir şəraitdə həm siyasi xadimlər, həm də iqtisadçılar tərəfindən xeyli artmışdır.

**Böhran** fazası tsiklik prosesin başlanğıcı kimi real ÜDM-in çatmış olduğu zirvə nöqtəsindən tərəddüdlərlə enmə nöqtəsinə qədər davam edir. Lakin enmə birdən-birə baş vermir. Bu aylarla, hətta illərlə davam edir. ABŞ Milli İqtisadi Tədqiqatlar Bürosunun (MİTB) məlumatlarına görə **resessiyanı buraxılışın, real gəlirlərin, məşğulluğun və ticarətin** 6 aydan bir ilə qədər davam etməsində əks olunur. Bundan sonrakı dövr **durğunluq** halını alır. Yəni əmtəə və xidmətlərə tələb azalır, müəssisələrin istehsal imkanları zəifləyir, kütləvi işsizlik artır. Bu hal zəncirvari şəkildə iqtisadiyyatın bütün sektorlarına yayılır ki, bu da bir neçə il davam edir və tsiklin depressiya fazasını əsaslandırır.

Böhranın baş verməsi özünü əks etdirir:

-əmtəələrin ifrat istehsalında;

-kreditlərin verilməsindəki ixtisaslarda;

-faiz dərəcələrinin yüksəlməsində.

Belə vəziyyət mənfəətin azalmasına, istehsalın həcminin aşağı düşməsinə səbəb olur. Banklara olan borc

artır və müəssisələrin müflisləşməsi baş verir. İqtisadi tsiklin bütün fazaları üzrə hərəkətin ardıcıllıqla getməsi baş versə də, lakin onların davametmə müddətləri müxtəlif olur. Ona görə də müxtəlif ölkələrdə baş verən böhranlar və müvafiq olaraq iqtisadi tsikllər oxşar və ya bir-birini təkrarlayan olmurlar. Xatırlayaq ki, XIX, XX və XXI əsrin onilliyində baş verən iqtisadi böhranlar, resessiyalar və yüksəlişlər tamamilə fərqlənir. Məsələn, XIX və XX əsrlərdə baş verən böhranlar zamanı ona qarşı dünya ölkələrinin dövlət başçılarının birgə fəaliyyəti mümkün deyildisə, artıq XXI əsrin birinci onilliyindəki qlobal maliyyə-iqtisadi böhranı üçün dünyanın «20 ölkəsinin» dövlət başçılarının birgə səyi xarakterikdir. Ona görə də Y.Şumpeterin ifadəsində deyildiyi kimi, «kapitalist sisteminin təkamüllü gedişatında tsikllərin özləri də dəyişikliklərə məruz qalırlar». Deməli, nəinki ölkələrdə, eləcə də ölkə daxilində baş verən tsikllərin hər biri **təkrarolunmazdır**. Öz xarakterinə görə fərqlənən tsikllər təkrarlanan hallardır. Onların təkrarlanan hallarındakı fərqlənməyən cəhətlərinə daxildir:

-müntəzəm xarakterdə olması;

-yüksəliş və enmə fazalarının hərəkətinin eyniliklə davam etməsi;

-tərəddüdlərin amplituda vəziyyətində olması.

Hər bir milli iqtisadiyyatın müxtəlif dövrlər ərzində tsiklik inkişafında müxtəlifliyini görmək olar. Məsələn, UJTB məlumatlarına əsasən ABŞ-da tsiklik yüksəliş tam 10 il ərzində 1991-2001-ci illər ərzində baş vermişdir. 2001-ci ilin əvvəlində resessiya baş vermiş, sonunda isə xüsusən 2007-ci ilə qədər ABŞ iqtisadiyyatında qeyri-dayanıqlı yüksəliş baş vermişdir. Sonrakı illərdə isə artıq yenidən iqtisadi-böhran ipoteka, maliyyə bazarından başlayaraq digər sahələrə də yayılmışdır.

İqtisadi böhrandan sonra **depressiya** baş verir. Depressiya fazasında istehsalın həcmi azalmasa da, onun artımında müşahidə olunmur. Əmtəə qalıqları tədricən «əriyir»,

lakin ticarət çox ədalətli şəkil alır. Borc faiz dərəcələri minimum səviyyəyə enir. Lakin tədricən milli iqtisadiyyatda artımı əks etdirən sahələr meydana gəlir. Artım sahələri ilə bağlı iqtisadiyyatda hərəkət baş verir. Sanki depressiya vəziyyətində olan dəmir yolunda dayanan qatara dartıcı qüvvəsi artırılmış lokomotivin qoşulması ilə vaqonların hərəkəti baş verir.

Depressiyadan sonra **canlanma** baş verir. Yaranmış yeni bazar şərtlərinə müəssisələr uyuşur. İstehsal avadanlıqlarının həm yeniləşməsinə, həm də tam istifadə olunmasına meyil güclənir. Canlanma şəraiti üçün xarakterikdir:

-əmtəə və xidmətlərin buraxılışının artımı;
-yeni sənaye tsikllərinin aparılması;
-mənfəət normasının yüksəlməsi;
-faiz dərəcəsinin artması;
-əməkhaqqı səviyyəsinin yüksəlməsi;
-məşğulluğun artması;
-ETT yeni nailiyyətlərinin tətbiqi.

Canlanma fazası **yüksəliş** fazası üçün şərait yaradır. ÜDM böhrana qədərki səviyyəsinə müəyyən müddətdən sonra çatır. Buraxılışın real həcmi, əmtəələrə olan tələb, qiymətin səviyyəsi artmağa doğru hərəkət edir. Yüksəliş fazasında firmaların işgüzarlıq fəaliyyəti genişlənir. Alıcıların əhval-ruhiyyəsi yüksəlir. Həm istehsalçılar, həm də istehlakçılar daha çox pul xərcləməkdə davam edirlər. Yüksəlişin əsas əlamətləri kimi göstərmək olar:

- tədiyyə qabiliyyətli tələbin ödənilməsi;
- qiymətlərin nəzərə çarpmayan səviyyədə artımı;
- işsizlərin sayının təbii səviyyəyə çatması.

Yüksəlişin zirvə nöqtəsinə çatması ilə **iqtisadi konyunkturada:** ÜMM-də, işsizlik səviyyəsində, şəxsi gəlirlərdə, sənaye məhsullarının həcmində, qiymət səviyyəsində, faiz dərəcələrində dəyişikliklər baş verir. Tədiyyə qabiliyyətli tələbdən artıq əmtəələr istehsal olunur, **iqtisadi parametrlərdəki uzlaşmalar** pozulur. İqtisadiyyatda vəziyyətin belə hal

alması yüksəlişin zirvə nöqtəsindən enməyə doğru hərəkəti baş verir ki, bu da yeni tsiklik vəziyyəti əsaslandırır.

İqtisadi konyunkturanın dəyişilməsi ilə əlaqədar tsiklin fazalarında onların hərəkətlərini fərqləndirmək lazımdır. Tsiklin gedişatında iqtisadi parametrlər ayrılır:

-tsikl yönümlü dəyişənlərə;

-əks tsiklik dəyişənlərə;

-antitsiklik dəyişənlərə.

**Tsikl yönümlü dəyişənlər:** ÜDM, məşğulluq səviyyəsi, qiymət səviyyəsi, biznes mənfəəti, pul kütləsi, pulun dövretmə sürəti, faiz dərəcələri yüksəliş fazasında artır, enmə fazasında isə azalır.

**Əks tsiklik dəyişənlər:** hazır məhsulun əmtəə–material ehtiyatları, istehsal amilləri ehtiyatları, işsizliyin səviyyəsi, müflisləşmə səviyyəsi yüksəliş fazasında azalır, enmə fazasında isə artır.

**Antitsiklik dəyişənlər:** dövlət xərclərinin ayrı-ayrılıqda idxalın həcminin, ixracın həcminin dinamikası iqtisadi tsiklin fzaları ilə uyğun gəlmir.

Olduqca vacib olan bir cəhəti nəzərə almalıyıq ki, iqtisadi konyunkturanın dəyişilmələrinin iqtisadi tsikl fazaları üzrə hərəkətinin dəqiq proqnozunu vermək çox çətindir. Bu da makroiqtisadi dəyişənlərə təsir göstərən:

-iqtisadi amillərin nəzərə alına bilınəməsi ilə;

-makroiqtisadi qeyri-sabitliyin gedişatı ilə;

-iqtisadi siyasətdəki üstün veriləcək tədbirin həyata keçirilməsi ilə əlaqədardır. Həmçinin milli iqtisadiyyatın qlobal inteqrasiya prosesində olması, ətraf mühitdə baş verəcək təbii fəlakət, iqlim dəyişiklikləri, ekoloji vəziyyət iqtisadi tsikllərin baş verməsini və fazalar üzrə onların yerdəyişmələrinin konkret **vaxtını və müddətini** müəyyənləşdirmək qeyri-mümkündür. Lakin müasir iqtisad elmi tsiklin tipləri və gedişatı barədə müəyyən elmi mülahizələrin ümumiləşdirilməsi əsasında, qanunauyğunluqlara söykənən təsnifatlaşdırmalar və dövrləşdirmələri üzrə çıxara bilmişdir.

## 9.2. İqtisadi tsikllərin təsnifatı və dövri xarakteri

Makroiqtisadi dinamikada iqtisadi tsiklin yerini müəyyənləşdirmək çətin olduğu kimi, onun niyə baş verməsini də aydınlaşdırmaq da mürəkkəb işdir. Məsələ ondadır ki, iqtisadi nəzəriyyə fundamental elmi istiqamətin əsası kimi insanlara sərvətin əldə olunması, istifadə olunması və rahat yaşaması ilə bağlı davranış qaydalarını öyrətməklə, həm də təbiətdə, cəmiyyətdə, ətraf mühitdə baş verənləri qiymətləndirməklə fəaliyyət göstərmək **imkanını seçmək** prinsipini göstərmişdir.

XIX əsrin əvvəllərindən bildirilmişdir ki, iqtisad elmində tsiklik ideyası və onun mövqeləri İngiltərədə 1825-ci ildə baş verən ilk sənaye böhranı ilə əlaqədar olmuşdur. Daha sonra 1854-cü ildə ABŞ-da, 1929-1933-cü ildəki məlum Böyük depressiya, İkinci Dünya müharibəsindən sonra 1948-1949, 1957-1958, 1960-1961, 1969-1970, 1973-1974, 1981-1982, 1990-1991, 2007-2009-cu illərdəki böhranlar bazar iqtisadiyyatının tsiklik formada hərəkətdə olduğunu göstərdi. Bununla əlaqədar iqtisadi tsikllər nəzəriyyəsi meydana gəldi və inkişafının müasir mərhələsinə qədəm qoydu.

Klassik məktəbin nümayəndələri, əgər, ümumiyyətlə, tsiklik prosesin kapitalist iqtisadiyyatı üçün xas olmadığını göstərərək ona **adi bir hal** kimi baxırdılar. Çünki zamanələrində onlar belə vəziyyətin şahidi olmamışdılar.

K.Marks kapitalist iqtisadiyyatının bilicisi kimi iqtisadi tsiklin mahiyyətini, fazalar üzrə hərəkətini göstərmiş, onun başvermə səbəbini istehsalın ictimai xarakteri ilə mənimsəmənin xüsusi forması arasındakı ziddiyyətlə əlaqələndirirdi. Həm də tsikllər bir böhrandan digər böhrana qədərki müddət olduğunu qeyd etdi.

S.de Sismondi tsiklin böhran fazasını ayıraraq kapitalist iqtisadiyyatında xarici bazarın rolunun nəzərə

alınması ilə ifrat istehsal həcminin mövcudluğunu əlaqələndirirdi.

Böyük depressiyanın baş verməsi və onun uzun müddət ərzində davam etməsi, iqtisadi konyunkturanın dəyişilməsinin səbəbi kimi iqtisadi tsiklin mahiyyəti, tipləri, davametmə müddəti və dövrləşmə prosesləri tədqiq edildi. Xüsusən Y.Şumpeterin 1939-cu ildə dərc etdirdiyi «İqtisadi tsikllər», Q.Harberlerin həmin ildə yazdığı «Sərvət və depressiya. Tsiklik tərəddüdlərin nəzəri təhlili», F.fon Hayekin 1941-ci ildə dərc etdirdiyi «Kapitalın xalis nəzəriyyəsi», C.Hiksin 1965-ci ildə nəşr etdirdiyi «Kapital və artım» əsərləri iqtisadi tsiklin mahiyyətinin daha dərindən başa düşülməsi istiqamətlərini müəyyən etməyə imkan vermişdir.

İqtisadi tsikllər nəzəriyyəsi ilə əlaqədar üç avstriyalı iqtisadçı J.Şumpeter, Q.Harberler, F.fon Hayek sanki XIX əsrdəki Avstriya məktəbinin XX əsrdəki yeni nümayəndələri təsirini bağışlayır. Xüsusən də iqtisadi tsikllərin tipləri üçün xarakterik olan **dalğavarı** hərəkətlərin müəyyən **vaxt** ərzində baş verməsi səbəbləri əsaslandırıldı.

Lakin Böyük depressiyaya qədərki dövr ərzində ABŞ-da, Fransada, Almaniyada, İngiltərədə baş verən və ardıcıl xarakter alan sənaye böhranları ilə əlaqədar tədqiqatlar aparılmışdır. Burada fransız alimi P.Samuelsonun qeyd etdiyi kimi, «zamanların dahi iqtisadçısı K.Juqlyarı (1819-1908) göstərmək olar. Onun tədqiqatlarından sonra iqtisadi tsikl ifadəsi başqa adlarla da əvəz olundu: «biznes-tsikl», «sənaye tsikli», «orta tsikl», «böyük tsikl».

İqtisad elmində artıq iqtisadi tsikllərin müddətlərinə görə təsnifatlaşması ümumiləşdirilib. Ümumiyyətlə, tsiklik inkişafla əlaqədar Forresterin (200 il), Tofflerin (1000-2000 illər) sivilizasiyanın inkişafını xarakterizə edən yanaşmalar istisna olunur. İqtisadi inkişafdakı meyillərinə görə iqtisadi tsikllərin dalğavarı hərəkət müddəti xarakterizə olunur:

-milli iqtisadiyyatın ayrı-ayrı sektorlarında fluktuasiyalar;

-kiçik tsikllər;
-orta tsikllər;
-uzunmüddətli tsikllər;
-yüzillik müddətindəki tsikllər.

Qeyd olunan bu müddətli tsikllərin tipləri onları tədqiq etmiş iqtisadçıların adları ilə təsnifatlaşdırılıb:

**Kitçen tsikli.** Onun davam etmə müddəti 2-4 il qəbul olunub. Buna **ehtiyatlar tsikli** də deyilir. Kitçenə görə qısamüddətli tsikllərdəki tərəddüdlər əsasən əmtəə–material ehtiyatlarının həcmində baş verən dəyişikliklərdə əks olunur. Ehtiyatların kəmiyyəti isə ÜMM, inflyasiya, məşğulluq və kommersiyadakı tərəddüdlərlə əlaqədardır. Bu da başlıca olaraq konkret bazar subyektlərinin, qərarların və qiymət səviyyəsindəki dəyişikliklərlə əlaqədardır.

**Juqlyar tsikli.** Onun davametmə müddəti 7-12 il qəbul olunub. Klementa Juqlyar Fransada, ABŞ-da, İngiltərədə baş vermiş sənaye istehsalındakı tərəddüdləri tədqiq edərək belə qənaətə gəlmişdir ki, faiz dərəcələrindəki, qiymətlərin səviyyəsindəki və Mərkəzi Bankın ehtiyatlarındakı tərəddüdlər investisiyanın tsiklik müddəti ilə üst-üstə düşür. İnvestisiyanın tsiklik vəziyyəti isə ÜMM-in, inflyasiyanın, məşğulluğun tərəddüdlü hal olmasına səbəb olur.

Bu gün də Juqlyarın bu elmi mülahizəsinin onun iqtisadi tsikllərinin «yüksəliş», «partlayış» «ləğvetmə» kimi fazalarına müasir innovasiyalı iqtisadiyyatın qiymətləndirilməsində böyük əhəmiyyəti vardır.

**Kuznes tsikli.** Bu tsiklin davametmə müddəti 16-25 il hesab olunur. Tsiklin belə bir müddət ərzində davam etməsi fikri Amerika iqtisadçı- statistiki Soymon Kuznesin (1901-1985) 1946-cı ildə dərc etdirdiyi «Milli gəlir» əsərində gəlmişdir. Onun tədqiqatında əsas yeri 1930-cu illərdə ABŞ iqtisadiyyatında baş verən «tikinti tsiklləri» adlandırılan sahələrindəki baş verən yüksək artım və dərin enmələrin uzun intervallarla davametmə tərəddüdlərinin müşahidəsi olmuşdur. İllik mənzil tikintisindəki sürətli artımla dərin

enmələrin səbəblərini nisbi amplituda kimi göstərmişdir. Milli gəlirin göstəriciləri olan istehlak xərclərini, istehsal təyinatlı avadanlıqlara olan, həmçinin, binalara, digər tikililərə yönəldilən ümumi investisiyalar qarşılıqlı əlaqədədir və 20 illik tərəddüdlərə malikdir. Tikintidə bu tərəddüdlər daha uzunmüddətlidir.

S.Kuznesin əsərinin dərcindən sonra tikinti tsikli terminindən demək olar ki, artıq istifadə olunmadı və onun əvəzinə uzun tərəddüdlər anlayışı istifadə olundu. Lakin 1955-ci ildə N.D.Kondratyevin «uzun dalğalar» tsiklik tipinin mövcudluğu qəbul olunmadan sonra «uzun tərəddüdlər» termini Kuznesin xidmətləri nəzərə alınaraq, onun şərəfinə «Kuznes tsikli» ifadəsi ilə əvəz olundu. Kuznes tsiklinin əsas xüsusiyyəti tərəddüdlərin baş verməsində: Gəlir→ miqrasiya → mənzil tikintisi → məcmu tələb → gəlir zəncirvari dairəsinin əmələ gəlməsidir.

**Kondratyev tsikli.** «Uzun dalğalar» adı ilə iqtisad elminə daxil olan tsiklin tədqiqatçısı rus alimi Nikolay Dmitreviç Kondratyev (1892-1983) olmuşdur. Tsiklin davametmə müddəti 48-55 il hesab olunurdu. O, İngiltərənin, Fransanın və ABŞ-ın 1770-1926-cı illər ərzində əmtəə qiymətləri, faiz dərəcələri, nominal əməkhaqqı, xarici ticarət dövriyyəsi və digər göstəricilər barədə dərc olunan statistik məlumatları ümumiləşdirib belə nəticəyə gəlmişdir ki, 7-12 illik tsikllərlə yanaşı 48-55 illik tsikllər də mövcuddur. Böyük tsikllər və ya dalğalar iki fazadan ibarət olur: **yüksələn** və **azalan.** Bu zaman ortamüddətli tsikllər böyük tsikllərin ya azalan, ya da yüksələn fazasına daxil olur. Əgər aşağı düşən fazaya daxil olursa, onda canlanma və yüksəliş fazası zəifləyir, nəticədə böhran və depressiya güclənir.Əks dinamikada isə, yəni yüksələn dalğada isə kapitalist iqtisadiyyatının bütün sahələrində dərin dəyişikliklər baş verir. Bu dəyişikliklərin ilkin səbəbi **texniki tərəqqi və struktur irəliləmələridir.** Tədqiqat dövrünün 140 il əhatəliyi çərçivəsində o, üç tsikl dövrü ərzində yüksələn dalğanı, ilk iki

tsikl dövrü ərzində isə azalan dalğanı tədqiq etmişdir və belə nəticəyə gəlmişdir:

- I tsiklin yüksələn fazasında cəmiyyət həyatının iqtisadi və sosial mühitini dəyişən yüngül və ağır sənaye inkişaf edir.

- II tsiklin yüksələn fazasında dəmir yolları çəkilir. ABŞ-da yeni ərazilər mənimsənilir, kənd təsərrüfatında yenidən təşkil olunma baş verir.

- III tsiklin yüksəliş fazasında elektrikləşdirmə, radio və telefon yayılır, avtomobil sənayesinin yaradılması və onunla bağlı sahələr meydana gəlir və yeni yüksəliş üçün zəmin yaradır.

Ümumiyyətlə, tsikllərin yüksələn fazaları üçün sosial sarsıntılar daha xarakterikdir. İnqilabların, müharibələrin ehtimalı daha yüksəkdir. Azalan fazalarda iqtisadiyyatın bütün sahələrinə nisbətən kənd təsərrüfatı daha ağır vəziyyətə düşür.

**Simanaka Yudzi tsikli.** Bu tsiklin davametmə müddəti 100 il hesab olunur. 1987-ci ildə yapon iqtisadçısı S.Yudzi Yaponiyanın iqtisadiyyatının 100 illik müddət ərzində 1885-1984-cü illər ərzində tədqiq edərək belə qənaətə gəlmişdir ki, onun üçün tsikllik xarakter olmuşdur. O, 11 illik müddəti bir «günəş tsikli» adlandıraraq belə ümumiləşmə etmişdir:

Yaponiya iqtisadiyyatının 100 illik inkişafında 9 günəş tsikli almışdır ki, bu da Juqlyarın tsikl müddəti ilə üst-üstə düşür.

Həmçinin mövcud olan Kuznes tsiklinin 2 günəş tsiklinə (22 il) Kondratyev tsiklinin 5 günəş tsiklinə (55 il) bərabər olduğunu əsaslandırmışdır.

## 9.3. Tsiklik hərəkətin səbəbləri

İqtisadi tsikllərin təsnifatlaşdırılmasından və dövrləşməsindən asılı olmayaraq onun niyə baş verməsinin səbəblərini araşdırmalıyıq. Çünki iqtisadi tsiklin baş verməsinin səbəbləri müxtəlif şəkildə izah olunur. İqtisadi tsiklin baş verməsində xarici və daxili amillərin hesabına baş verməsi iqtisadi nəzəriyyədə **eksternal** (xarici) və **internal** (daxili) nəzəriyyələr kimi qəbul edilmişdir. Lakin bu amillər qanunu daxilində fərqli baxışlar formalaşmışdır. Ən ümumi şəkildə iqtisadi tsiklin baş verməsinin xarici amilləri hesab olunur:

-təbii amillərin dəyişilməsi (günəş vurmaları, fəallığı və ya ləkələri, təbii fəlakətlər və s.);

-müharibələrin, inqilabların, ardıcıl tətillərin baş verməsi;

-əhalinin artımı, demoqrafik vəziyyətin dəyişilməsi;

-yeni iqtisadi resursların mənimsənilməsi;

-elmi-texniki yeniləşmələrin getməsi.

Xarici amillər nəzəriyyəsinin banisi U.Cevons hesab olunur. Onun günəş ləkələrinin kənd təsərrüfatı məhsullarına olan təsiri tədqiq edilmişdir.

Daxili amillərin iqtisadi tskilə olan təsiri kimi isə nəzərə alınır:

-sənayedə baş verən irəliləmələr;

-yenilikçiliyin, texniki ixtiraların baş verməsi;

-pul tələbi ilə təklifi arasındakı pozuntuların olması;

-hökumətin pul-kredit və büdcə-vergi siyasəti ilə əlaqədar siyasi işgüzar tsiklin olması;

-multiplikator və akselerator effektlərin hərəkəti;

-pul tədavülünün qeyri-sabit vəziyyətdə olması;

-real göstəricilərdə baş verən irəliləyişlərin getməsi;

-iqtisadi agentlərin səmərəli gözləmələr şəraitində optimal davranışının olması;

-tsiklik tərəddüdlərə təkan verən impulsların olması.

Qeyd olunan bu daxili amillərin hər biri ayrı-ayrılıqda iqtisadi tsiklin baş verməsini törədən səbəblər kimi qəbul olunması onların müxtəlif nəzəri cərəyan formasını almasını əsaslandırmışdır. Onların bəzilərinə diqqət yetirək:

**Sənayedə baş verən irəliləmələr** K.Marks və F.Engels tərəfindən sənaye tsiklləri nəzəriyyəsi kimi qəbul edilərək kapitalist iqtisadiyyatının əsas ziddiyyəti ilə, onların təkrarlanan və dövri xarakter daşıması ilə, əsas kapitalın daima yeniləşdirilməsi ilə əlaqədar olduğu göstərilirdi.

**Yenilikçiliyin, texniki ixtiraların baş verməsi** nəzəriyyəsi Y.Şumpeter, E.Hansen tərəfindən irəli sürülmüşdür. Tsikllərin baş verməsində yeni ixtiraların, kəşflərin olması və ondan istifadənin əsaslı rol oynadığı göstərilir. Məsələn, dəmir yollarının salınması, daxili yanma mühərrikləri buna misal gətirilir və qeyd olunur ki, hər yaranan yeniliklər növbəti innovasiyanın əmələ gəlməsinə qədər **zaman keçdikcə** zəifləyən inkişafa təkan verir.

**Pul tələbi ilə pul təklifi arasındakı pozuntular** nəzəriyyəsini R.Xautri və Y.Fişer aydınlaşdırmışdır. Onlar qeyd edirdilər ki, belə pozuntuların baş verməsi tsiklin böhranlı vəziyyətə düşməsinə səbəb olur.

**Hökumətin pul-kredit və büdcə-vergi siyasəti ilə əlaqədar baş verən siyasi işgüzar tsiklin olması** nəzəriyyəsi V.Nordhaus tərəfindən göstərilmişdir. Qeyd olunur ki, hökuməti tam şəkildə hər iki makroiqtisadi tərəddüdlərin səbəbində duran alətlərə sahib olduğundan, onların hərəkətlərində elektoratın rəğbətini qazanmaqdan ötrü əvvəl yumşaq, sonra isə «sərt» pul-kredit və büdcə-vergi siyasəti aparılır. Hər növbəti seçkiqabağı bu alətlərdən istifadə iqtisadiyyatın tənəzzülünə səbəb olur. Belə vəziyyətdə tsiklin müntəzəmliyi seçkilərin müntəzəmliyi ilə üst-üstə düşür.

**Multiplikator və akselerator effektlərin hərəkəti** nəzəriyyəsi P.Samuelson və C.Hiks tərəfindən əsaslandırılmışdır. Onlar hesab edirlər ki, ÜDM-in real həcminin tərəddüdləri, hər vahid investisiyanın artımının milli gəlirin

hər vahidinin artımından və ya əks-təsir effektlərinin hərəkətindən asılıdır.

**Pul tədavülünün qeyri-sabit vəziyyətdə olması** nəzəriyyəsi M.Fridmenə məxsusdur. O hesab edirdi ki, istehsalın tsiklik xarakteri, iqtisadiyyata yönəldilmiş pul kütləsinin həcmindən asılıdır. Monetar qaydaya görə pul kütləsinin artım sürətinə uyğun gəlməlidir.

**Real göstəricilərdə baş verən irəliləyişlərin getməsi** nəzəriyyəsi yeni keynsçilərin tərəfdarları tərəfindən əsaslandırılmışdır. Bu iqtisadçılardan R.Barro, Ç.Plosser və Q.Menkyu hesab edirdilər ki, makroiqtisadi tərəddüdlərin səbəbini nominal göstəricilərdə deyil, real göstəricilərin dəyişilməsində görmək lazımdır. Misal kimi məcmu təklifdə dəyişiklikləri doğuran yeni texnologiyalarla törənən şokları göstərirdilər. Yenilikçilik ilk növbədə kapital və əməyin məhsuldarlığını yüksəldəcək. Xüsusi halda əmək təklifində tərəddüdlər, işgüzar fəallığın tsiklik tərəddüdlərini doğuracaq.

**İqtisadi agentlərin səmərəli gözləmələr şəraitində optimal davranışı** konsepsiyası tərəfdarları olan və irəli sürdükləri real biznes-tsikl nəzəriyyələrinə görə Amerika iqtisadçıları F.Kyudland və E.Presskot 2004-cü ildə Nobel mükafatı almışlar. Onlar yeni klassik mövqedə dursalar da, bazarın müvazinətli vəziyyətdə deyil, keynsçi mövqeyindən izah edərək, onun qiymətlərin və əməkhaqqının **qeyri-elastik** olmasını əsas götürərək **iqtisadi agentlərin səmərəli gözləmələr şəraitində optimal davranışlarından** asılı olduğundan real işgüzar biznes–tsiklin baş verdiyini əsaslandırmışlar. Bu onunla əsaslandırılır ki, firmalar öz mənfəətlərini maksimumlaşdırmaqdan ötrü investisiyalaşdırma qərarına gəlirlər. Onların məhsullarına olan gələcək tələbi və texnologiyanın inkişafını nəzərə almaqla səmərəli gözləmələrlə optimal davranış edirlər.

**Tsiklik tərəddüdlərə təkan verən impulsların olması** nəzəriyyəsi R.Frişə məxsusdur. İlk Nobel mükafatçılarından

(1969-cu il) olan Raqner Friş qəbul olunmuş qərarların modellərinin izahında impuls–təkan probleminin ümumi izahını vermişdir. Problemə belə izah verilir ki, iqtisadiyyat özünün inkişafında tsiklli tərəddüdlərə təkan verən külli miqdarda impulslarla rastlaşır. İmpulsun ardınca müəyyən şərtlər daxilində dayandırıla bilən tərəddüdlü proseslərin yayılması baş verir. Lakin impulsların say çoxluğu (tsiklin xarici və daxili amilləri nəzərə alınmaqla) bazar iqtisadiyyatı tsiklik tərəddüdlərin qarşısını birdən-birə ala bilmir. Ona görə də görülmüş tədbirlərin səviyyəsindən asılı olaraq iqtisadi tsikllər qısa, orta və uzunmüddətli və dalğavarı şəkildə olur.

Keçən əsrin 90-cı illərindən başlayaraq planlı iqtisadiyyatdan bazar sisteminə keçidlə əlaqədar olaraq Şərqi Avropa və MDB məkanda tsiklik prosesə təkan verən xüsusi növ transformasiya böhranı meydana gəldi. Macar iqtisadçısı Yanoş Kornainin adı ilə bağlı olan transformAsiya böhranı və ya enmələri yeni meydana gələn bazar sistemi ilə əlaqədar əvvəlki institutlar öz fəaliyyətini itirməklə təsərrüfat fəaliyyətinin ləngidici mexanizminə çevrilirlər. Yeni meydana gələn iqtisadi sistem isə formalaşmaqda olan mərhələdə olduqlarına görə makroiqtisadi dəyişənlərin parametrləri lazımi səviyyədə olmur.

Transformasiya enmələrinin xarakterik cəhətləri ibarətdir:

-dövlətin iqtisadi fəallığının kəskin aşağı düşməsindən;

-defisitli iqtisadiyyatdan çatışmayan tələb iqtisadiyyatına keçməkdən;

-təsərrüfatçılıq motivliyinə rast gəlməkdən;

-özəlləşdirmə prosesində mülkiyyət hüququnun qeyri-müəyyənliyindən;

-müəssisələrin kütləvi olaraq qeyri-tədiyyə qabiliyyətli olmasından;

-maliyyə institutlarının zəifliyindən;

-şəxsi mənafelərlə dövlət və cəmiyyət mənafelərinin zəif əlaqələndirilməsindən;

-iqtisadi təhlükəsizliyi əks etdirən hədd göstəricilərinin aşağı səviyyədə olmasından.

Beləliklə, transformasiya enmələrinin bu cəhətləri istər-istəməz investisiyaların həcminin azalmasına və milli istehsalın miqyasının daralmasına səbəb olur.

Azərbaycan iqtisadiyyatı üçün də 1991-1995-ci illər ərzində tranformasiya enmələri xarakterik olmuşdur ki, bu bir tərəfdən planlı təsərrüfatın dağılması, yeni yaranmaqda olan bazar institutlarının zəifliyi, siyasi və iqtisadi qeyri-sabitliyin mövcudluğu və erməni təcavüzkarlarının 20%-dən çox torpaqlarımızı zəbt etməsi. Bu ərəfələrdə həm struktur, həm sənaye böhranlarının baş verməsinə şərait yaranmışdır. Nəticədə inflyasiya hiper səviyyəsinə, işsizlik yüksək həddə, müəssisələrin rentabelliyi və əhalinin həyat səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür.

Azərbaycanda transformasiya enmələri həm də tsiklin böhran forması ilə elə bir vaxtda üzləşmişdir ki, əsas istehsal fondları həm fiziki, həm də mənəvi cəhətdən tam aşınmışdır, milli iqtisadiyyatın strukturu deformasiya olunmuşdur. Mövcud iqtisadi potensialdan milli iqtisadiyyatın inkişafı üçün istifadə etmək imkanları tükənmişdir. Məhz transformsiya böhranının bu cəhətləri postsosialist məkanında mövcud olan iqtisadiyyatın ən azı iki yüz ilə qədər yaşı olan klassik iqtisadi tsikl prosesindən fərqlənməsinə səbəb olmuşdur.

Əsrin müqaviləsindən sonra 1996-2000-ci illər ərzində iqtisadi artım sürətinin baş verməsi, 2001-2005-ci illərdə iqtisadi artım sürətinin böyük sürət alması 2006-2010-cu illər ərzində, xüsusən 2006-cı ildə iqtisadi artımın 34,5% səviyyəsinə çatması, iqtisadi inkişafdan xəbər verir. 2009-cu ildə **keçid dövrünün** başa çatması bəyanatının ölkə başçısı tərəfindən verilməsi transformasiya enmələrinin də dayanması deməkdir. Lakin dünya maliyyə böhranının 2007-

2009-cu illər ərzindəki hərəkəti təbii fəlakətlərin baş verməsi «Qarabağ müharibəsi» probleminin qalması, milli iqtisadiyyatın tsiklik inkişafı prosesini saxlayır. Həmçinin **tədiyyəqabiliyyətli tələbin ölkə və regional üzrə inkişafı, iqtisadi islahatların davamlı xarakteri** iqtisadi inkişafın təkanverici qüvvəsi kimi qiymətləndirmək olar.

## 9.4. Dövlətin iqtisadi tsikl və böhrana təsiri

İqtisadi tsikl və böhranlar heç də mövcud obyektiv şəraitdən kənarda fəaliyyət göstərmir. Hər bir tsikl və böhran o iqtisadi şəraiti əks etdirir ki, o orada meydana gəlir. Ona görə də onunla yalnız müvəqqəti məsafədə uzaqlaşmaq olar.

Müasir bazar iqtisadiyyatı, qloballaşan dünya təsərrüfatçılığı şəraitində tsiklik vəziyyətlə, enmələrlə daha tez müşahidə oluna bilər. Qeyd etdiyimiz XXI əsrin birinci onilliyindəki qlobal maliyyə və iqtisadi böhran buna misal ola bilər. Burada müşahidə olunan başlıca cəhət bu vəziyyətə dünya dövlətlərinin, hökumət başçılarının fəal müdaxiləsi olmuşdur.

Dövlətin milli iqtisadiyyatın təkrar istehsal prosesinə müdaxilə etməsi, makroiqtisadi sabitləşmə siyasətində sərəncamında olan iqtisadi alətlərdən isifadə etməsi əslində həyata keçirir:

-tsiklik tərəddüdlərin yumşaldılmasını;

-antitsiklik tənzimlənmənin aparılmasını.

Müasir şəraitdə tsikl və böhranların baş verməsinin xarakterində dəyişikliklərin baş verməsindən asılı olmayaraq, dövlətin onlara təsiri üçün istifadə etdiyi yenə də iki alət üstünlük təşkil edir:

-büdcə-vergi mexanizmi;

-pul-kredit mexanizmi.

Bu alətlərlə dövlət tsiklik proseslərə və böhranlara təsir göstərməklə itkilərin azaldılmasına nail ola bilər. Bəzi

hallarda antitsiklik tənzimlənməyə makroiqtisadi sabitləşmədə deyilir. Gələcəkdə bu barədə də ətraflı məlumat verəcəyik. Lakin antitsiklik tənzimləmə makroiqtisadi sabitləşmə proqramları ilə həyata keçirilsə də, burada fərqli xüsusiyyət meydana gəlir ki, bu da asılıdır:

-milli iqtisadiyyatın potensial imkanlarından istifadə olunması səviyyəsindən;

-təkrar istehsal fazaları üzrə makroiqtisadi tədbirlərə, tsiklin fazaları üzrə görüləcək tədbirlər arasındakı fərqdən;

-dünya bazarına rəqabətqabiliyyətli məhsul çıxarılması səviyyəsindən;

-ixrac potensialından mövcud konyunktura şəraitində istifadə etmək imkanından;

-informasiya və kommunikasiyanın mənimsənilməsi və real istifadə olunmasından.

Aydındır ki, dövlət antitsiklik tənzimləmə şəraitində makroiqtisadi sabitləşməyə cəhd göstərsə də, bu zaman tsiklin hər fazasına uyğun tədbirlərin görülməsinə üstünlük verdiyi şəraitdə müxtəlif nəticələrin əldə olunmasına nail olunur. Burada antiinflyasiya tədbirləri, ucuz kredit siyasətinin aparılması, vergilərin azaldılması, yeni investisiya mühiti üçün vergi dərəcələrinin azaldılması, tsiklik prosesindəki «axının» yönümünü dəyişdirmək olur.

Tsiklin hər fazasında özünəməxsus tədbirlərin görülməsi ilə, xüsusən onun böhran və depressiya fazalarının **gərginlik** dərəcələrini yumşaltmaqla onların mənfi təsir dairəsini azalda bilər.

**Böhran fazası** milli iqtisadiyyatın dağıdıcı amili kimi görünsə də, lakin onun ağır vəziyyətdən çıxmasının maddi zəmini elə burada formalaşır. Bunu keçən əsrdəki və hazırkı əsrin əvvəllərindəki böhranlar göstərdi. Belə ki, yeniləşmələr prosesi uzunmüddətli xarakter daşısa da, bazarın özünütənzimləmə mexanizmindəki pozuntuların baş verməsi onun kənardan tənzimlənməsi zərurəti baxımından dövlətin rolu özünü tam göstərdi. Belə şəraitdə dövlət iqtisadi inkişafın

tsiklik xarakterini aradan qaldırmaq iqtidarında olmur. Burada makroiqtisadi sabitliyi qoruyan tsiklik prosesin artıb-azalmalarını zəiflətməklə böhrandan çıxışı asanlaşdırır və depressiyanı xeyli azaltmaqla ondan xilas olmaq imkanına mlik olur.

**Durğunluq fazasında** dövlətin antitsiklik tədbirləri daha qabarıq görünür. Çünki yüksəlişdən sonra enmə xətti böhrandan başlandığından ilkin olaraq görülən tədbirlər birdən-birə müşahidə olunmur. Xüsusən də müasir şəraitdə fəaliyyətdə olan iri kapitalların həcmi **tədiyyəqabiliyyətli** tələblə müəyyən müddət uzlaşır. Yüksək qiymətlər şəraitində istehsalın həcmi azalır. Parodoksal vəziyyət əmələ gəlir. Lakin beə şəraitdə dövlət müəyyən iri firmalara birbaşaköməklik göstərir ki, onlar böhranı müəyyən müddətə idarə edə bilsinlər. Bu depressiya fazasında durğunluğun əmələ gəlməsinin şərtinə çevrilir. Lakin belə vəziyyətdə iqtisadiyyatın hissiyyatlı və incə məqamı olan qiymətlərdə enmələr baş verir və tələbin artımı baş verir. Beləliklə, tsiklik vəziyyətli bazar tələbinin əmtəə və xidmətlərə artması qiymətlərin hərəkətinə səbəb olur. Deməli, müasir şəraitdə depressiya fazasında qiymətin hərəkəti iki əks meylin baş verməsinə səbəb olur:

-bir tərəfdən dövlətin dəstəklədiyi iri kapitallar hesabına əmtəə və xidmətlərin artımı;

-digər tərəfdən bazarın həcminin tutumunun tsiklik ixtisarlar hesabına azalması.

Bu isə o deməkdir ki, müasir tsiklik proses üçün durğunluqla inflyasiyanın uzlaşdırılması mümkünlüyü mövcuddur.

Ümumiyyətlə, dövlətin depressiya dövründə həyata keçirdiyi antitsiklik tədbirlərinə daxildir:

Monetar siyasət istiqaməti:

-uçot dərəcələrinin azaldılması;

-dövlətin qiymətli kağızlarının açıq bazarda alınması.

Fiskal siyasət istiqaməti:

-dövlət büdcəsinin əlavə xərclərinin azaldılması;

-vergi dərəcələrinin azaldılması.

Gəlirlər siyasəti istiqaməti:

-büdcə sferasında çalışanların əməkhaqları səviyyəsinin artırılması;

-minimum əməkhaqqının artırılması;

-təqaüdçülərin təqaüdlərinin baza hissəsinin artırılması.

Dövlət, həmçinin, investisiya və məşğulluq siyasətini həyata keçirir.

Tsiklin **canlama** və **yüksəliş** fazalarında dövlətin görəcəyi tədbirlər bir növ böhran və depressiya fazalarında həyata keçirdiyi tədbirlərin əks meyli müşahidə olunur, yəni monetar siyasət istiqamətində uçot dərəcələri artırılır, dövlətin qiymətli kağızları açıq bazarda satılır. Fiskal siyasət istiqamətində dövlət büdcəsi hesablaşmaları azaldılır, vergi dərəcələri artırılır. Gəlirlər siyasətində əməkhaqqı səviyyəsi azaldılır, minimum əməkhaqqının, təqaüdün baza səviyyəsi dəyişilməz qalır. İnvestisiya siyasətində dövlət tikililərinin miqdarı azalır.

Tsiklin canlanma fazası yüksəliş fazasını əsaslandırdığından və bu şəraitdə dövlətin antitsiklik tədbirləri dayandırıldığından, artıq dövlət tənzimlənməsi mexanizmində böhran baş verir ki, bu da tsiklik prosesin fazalarının təkrarlanmasına səbəb olur. Yəni yüksəliş fazasından böhran fazasına keçid başlayır. Ona görə də müasir dünyanın inkişaf etmiş dövlətləri antitsiklik tədbirlərdə dövlət tənzimlənməsi böhranından xilas olma yolu kimi antiinflyasiya siyasətinin həyata keçirilməsinə üstünlük verir.

# X FƏSİL. İŞSİZLİK

**10.1. İşsizlik: mahiyyəti, səviyyəsi, səbəbləri**
**10.2. İşsizliyin növləri**
**10.3. İşsizliyin göstəriciləri və dinamikası. Oyken qanunu.**
**10.4. İşsizliyin sosial-iqtisadi nəticələri. Dövlətin məşğulluq siyasəti**

## 10.1. İşsizlik: mahiyyəti, səviyyəsi, səbəbləri

İşsizlik makroiqtisadi qeyri-sabitliyi xarakterizə edən mühüm göstəricidir. İşsizlik demək olar ki, dünyanın bütün ölkələrində mövcuddur. Lakin onların **səviyyəsində, davametmə müddətində** (qısa və uzun), xarakterində (təbii, dəyişilən, xroniki) fərqlər mövcuddur. Ona görə də qeyd etmək olar ki, işsizlik işgüzar fəallıqda baş verən dəyişiklikləri müşayiət edən mühüm makroiqtisadi göstəricidir. İqtisadi sistemlərin faydalı fəaliyyətinin təşkili və idarə olunmasından asılı olmayaraq, minlərlə şirkət və müəssisələrin fəaliyyət göstərdiyi və milyonlarla insanların məşğul olduğu müasir iqtisadiyyata malik olan ölkələrdə işsizlik labüd vəziyyət alır. Buna baxmayaraq işsizliyin səviyyəsi müxtəlif ölkələrdə nəzərə çarpacaq və kəskin şəkildə fərqlənir.

İşsizliyin daha asan başa düşülməsi üçün əvvəlcə onun mahiyyətini əyani sübut edən tərifə müraciət edək.

**İşsizlik əmək bazarında və onun ayrı-ayrı seqmentlərində tələblə təklif arasında tarazlığın daima pozulması nəticəsində əmələ gələn məcburi qeyri-məşğulluğa deyilir.** Yaxud **işsizlik işləmək arzusunda olan, yaş və səhhətinə görə müvafiq gəlir əldə etmək istəyən, lakin iş tapa bilməyən insanlardır.** Ona görə də işsizlik məfhumu barədə danışarkən onun **tam məşğulluq, natamam məşğulluq şəraitində** baş verməsinə, **onun təbii, mərhələli, xroniki səviyyəsini, uzun və qısa müddətdə davam etməsini** aydınlaşdırmalıyıq. Bunun

üçün də yaxşı olardı ki, biz əvvəlcə işsizlik barədə mövcud olan nəzəri müddəalara xronoloji baxımdan nəzər yetirək:

- **Klassik məktəbə görə** işsizliyin baş verməsi əmək bazarının daxilən yekcins olmaması ilə əlaqədar olub, bazar mexanizmindən irəli gələn hadisədir. Əməkhaqqının səviyyəsinin çevikliyi iş qüvvəsinə, tələb və təklifə təsir edir və onları tənzimləməklə, aralarında zəruri tarazlığı yaradır;

- **Neoklassik məktəb** əmək bazarının özünütənzimləmə prinsipinə əsaslanaraq göstərirdilər ki, işsizlik obyektiv hadisə olub, əmək qabiliyyətli əhalinin məşğul olmayan hissəsinin dövranıdır;

- **Marksist məktəb** isə işsizliyi istehsal vasitələri üzərində xüsusi mülkiyyətə əsaslanan kapitalist cəmiyyətinin tarixi xüsusiyyəti kimi göstərirdi;

- **Keynsçi məktəb** işsizliyi əmək bazarı ilə deyil, əməkhaqqının çevik xarakter daşıması ilə əlaqələndirərək, məşğulluğun tam olmaması kimi izah edirdi;

- **Monetarist məktəb** işsizliyin real əməkhaqqının və inflyasiyanın dinamikası ilə əlaqədar olduğunu qeyd edir. Hesab olunur ki, istənilən zaman anında real əmək haqqı dərəcələri strukturunda tarazlıqla bir arada ola bilən müəyyən səviyyəli «təbii işsizlik norması» mövcuddur;

- **İnstitusional-sosialist məktəb** isə işsizliyi məşğulluq xidməti və digər sosial institutların yaradılması mövqeyindən izah etmişdir. Onlar işsizliyi təkcə makroiqtisadi cəhətdən deyil, əsasən əmək bazarındakı uyğunsuzluqları iş qüvvəsinə müvafiq əməkhaqqının səviyyələrinin strukturundakı sosial, mənəvi, dini, etnik fərqlərlə əlaqədar olduğu göstərilir;

- **Məşğulluğun müqavilə məktəbi** işsizliyi iş verənlərlə muzdlu işçilərin öz aralarında uzunmüddətli muqaviləyə girmələri ilə əlaqədar əmək bazarında uyğunlaşma qiymətlərin deyil, istehsalın və məşğulluğun fiziki həcminin dəyişilməsindən irəli gəldiyindən işsizlik baş verir;

- **Çevik əmək konsepsiyasına** son dövrdə Avropada yaranmış və işsizliyə çevik əmək bazarının aparılmamasının nəticəsi kimi baxılır. Hesab olunur ki, iş verənlərlə işçilər arasında qarşılıqlı münasibətlərin forma müxtəlifliyi əsasında məcmu xərclərin azaldılması mənfəətin artırılması və əmək bazarında çevik dinamikanın saxlanılması mümkündür.

Qeyd olunan bu nəzəri cərəyanlardan irəli gələn müddəalarla yanaşı, müasir makroiqtisadi nəzəriyyədə işsizliyin mövcudluğu onun «təbii», «normal», «sosial qəbul olunan» səviyyəsi işsizliklə inflyasiya arasındakı qarşılıqlı əlaqə, pul tədavülü, əməyin müvazinətli qiyməti konsepsiyaları çərçivəsində tədqiq olunur.

Sadaladığımız bu elmi mövqelərdən göründüyü kimi, işsizlik sosial-iqtisadi hadisə olub, insanların davranışlarında mənəvi-psixoloji təsirə malik olmaqla, onlarda gələcəyə ümidsizlik yaratmaqla, şəxsi qeyri-kamillik hisslərini yaradır.

Təsəvvür edin ki, hər səhər evdən çıxıb universitetə getmək üçün avtobus dayanacağına tələsirsiniz. Həmin vaxt qonşunuz taksi sürücüsü də səhər naharına gəlib, yenə işə tələsir. Yanınızdan keçəndə dayanacağa qədər əyləşməyinizi təklif edir. Məmnunluqla minib dayanacağa qədər gəlib, təşəkkür edib düşürsünüz. Dəfələrlə belə vəziyyətlə rastlaşırsınız. Növbəti günlərin birində qonşunuzla taksisiz rastlaşırsınız. Soruşanda ki, qonşu, nə əcəb piyadasız, o, gülümsəyib deyir ki, onun çalışdığı şirkət bağlandığından artıq orada çalışmır, hələlik işsizdir. Bir anlığa siz «təəssüf» hissi keçirirsiniz. Günlərin birində evə qayıdanda görürsüz ki, həmişəkindən erkən atanız evdədir. Soruşanda ki, ata nə əcəb bu gün evə tez gəlmisiz, o da gülümsəyib deyir ki, oğul çalışdığım tikinti şirkəti bağlandı. Ona görə də artıq bu gündən işsizəm. Onda siz çox kədərlənirsiniz və düşünürsünüz ki, görəsən bizim maddi durumumuz necə olacaq?... Bu baxımdan işsizliyi birmənalı qiymətləndirmək olmur. Bu

baxımdan yuxarıda işsizliyə verilən tərifdən fərqli olaraq **Beynəlxalq Əmək Təşkilatı (BƏT) işsizlər o adamlar hesab olunur ki, onların iş qabiliyyəti var və son dörd həftə ərzində fəal surətdə iş axtarmalarına baxmayaraq işləmirlər.**

İşsizliyin mahiyyəti ilə tanışlıqdan sonra bizim üçün qaranlıq qalan bir neçə məqama diqqət yetirək:

- İşsizliyin səviyyəsini necə müəyyən etmək olar?
- İşsizliyin baş verməsinin əsas səbəbləri nədir?
- İşsizliyin təbii səviyyəsinin aşağı salınması zamanı hansı problemlər meydana gəlir?
- İşsizlərin işə düzəlmək vaxtı nə qədər davam edə bilər?

Əvvəlcədən onu qeyd edək ki, işsizliyin səviyyəsinin aşağı salınması təkcə iqtisadi qaydalarla deyil, həm də siyasi qərarlarla əlaqədardır. Həmçinin nəzərə almalıyıq ki, görülən iqtisadi və siyasi qərarlardan asılı olmayaraq işsizlik mövcud bir proses kimi qalmaqla əvvəldə qeyd etdiyimiz kimi **«təbii səviyyəsi»** ilə hüdudlaşır. İşsizliyin təbii səviyyəsinin mövcudluğuna səbəb olan amillərə daxildir:

- minimal əməkhaqqının səviyyəsi haqqında qəbul olunan qanunlar;
- əməkhaqqının ödənilməsinə dair effektiv sistemdən istifadə;
- həmkarlar ittifaqının fəaliyyəti;
- münasib və ya arzu olunan işin axtarılması.

Göründüyü kimi, işsizliyin təbii səviyyəsinin aşağı salınması və işsizlərin vəziyyətinin yaxşılaşdırılması bir o qədər də asan məsələ deyildir. Çünki, ümumiyyətlə, işsizliyin səviyyəsinin müəyyənləşdirilməsi üçün hər ay işsizliyin səviyyəsi və əmək bazarının müxtəlif sahələrindəki məşğulluq, iş həftəsinin orta davamiyyəti, işlə təmin olunmanın orta vaxt haqqındakı məlumatlara əsaslanmaq lazımdır.

İşsizliyin səviyyəsinin müəyyənləşdirilməsində məşğul olan işsiz və işçi qüvvəsinə aid olan əhali qruplarını fərqləndirmək lazımdır:

- məşğul olan əhali dedikdə, bu, yaşı 16-dan yuxarı olan və işlə təmin olunanlar nəzərdə tutulur;

- işsizlərə isə müvvəqəti olaraq işləməyən, iş axtaranlar, müəyyən müddətə əmək fəaliyyətini dayandıranlar daxildir;

- işçi qüvvəsinə aid olmayanlara isə evdar qadınlar, təqaüdçülər, tələbələr, ordu sıralarına çağırılan gənclər daxildir.

Beləliklə də, işçi qüvvəsinin miqdarını müəyyən etmək olar. Onlara daxildir **məşğul olan əhali üstəgəl işsizlər**.

Deməli, işsizliyin səviyyəsinin müəyyənləşdirilməsində iki göstərici – işçi qüvvəsi və işsizliyin sayı əhəmiyyət daşıyır.

**İşsizliyin səviyyəsi** işsizlərin sayının işçi qüvvəsinin sayına olan faiz nisbəti kimi hesablanır:

$$\text{İşsizliyin səviyyəsi} = \frac{\text{işsizlərin sayı}}{\text{işçi qüvvəsi}} \bullet 100\%$$

İşsizliyin səviyyəsi bəlli olduqdan sonra onun təbii səviyyəsindən kənarlaşmalarına diqqət yetirmək lazımdır. İşsizliyin təbii səviyyəsi iqtisadiyyatın normal və sabit şəraitində mövcud olan işsizliyin səviyyəsi başa düşülür.

Əgər işsizliyin təbii səviyyəsini düzxətli şəkildə götürmüş olsaq, yəni illər üzrə onun dinamikasına diqqət yetirsək, işsizliyin hərəkətindəki enib-qalxmalar əmək bazarındakı real vəziyyəti əks etdirəcək. Nəzərə alsaq ki, işsizliyin təbii səviyyəsi dünyanın müxtəlif ölkələrində 4-6,5% səviyyəsində qəbul olunur, onda bu səviyyədən **aşağı hədd** əmək bazarında işsizliyin qısamüddətli olması barədə, **yüksək hədd** isə uzunmüddətli olması barədə informasiya verir.

İşsizlik bütün insanlar üçün dövri xarakter daşıyır. Onların əksəriyyəti üçün işsiz qalmaq qısamüddətli olur. Uzunmüddətli işsizlər isə məşğulluq idarəsinə müraciət edənlərin sırasında yerdəyişməyə daxil olanlardır. Hesab

edək ki, işə düzəlmək üçün hər ay 10 nəfər müraciət edir. Onlardan 8-i işlə təmin olunur 2-si yox. Növbəti aylarda da həmin kəmiyyətli müraciət olunur və həmin nisbətdə işə düzəlmə həyata keçirilir. İl ərzində görəcəyik ki, işsizlərin 80%-i üçün işsizlik qısamüddətlidir, 20%-i üçün isə uzunmuddətlidir. İqtisadi və sosial problemlər bir qayda olaraq işsizliyin uzunmüddətli xarakter daşıdığı zaman baş verir. Ona görə də həm işsizlərə yardım, həm də əmək bazarında vəziyyətin normallaşdırılması üçün uyğun tədbirlərin görülməsini zəruriləşdirir. Bu da işsizliyin mərhələli xarakter daşıdığından problemin həllini mürəkkəbləşdirir. Ona görə də hansı şəraitdə işsizliyin baş verməsini və ona hansı səbəblərin təsir etdiyini nəzərdən keçirmək lazımdır. Hər şeydən əvvəl işsizliyin əmək bazarı ilə əlaqədar olduğunu bilirik. Onu da bilirik ki, digər bazar növlərində qiymətlər mexanizmi əmtəə və xidmətlərə olan tələb və təklifi tarazlaşdırır. Əmək bazarında isə tənzimləyici rolunda əməkhaqqının səviyyəsi çıxış edir. Əməkhaqqının səviyyəsi isə rəqabət mühitində, inflyasiya şəraitində iqtisadiyyatın həm tsiklik inkişafı və enib-qalxmaları zamanı müxtəlif olur. Belə şəraitdə işləmək arzusunda olan peşə və ixtisas qabiliyyətinə malik insanlar görəcəkləri işə uyğun ödənişli iş tapa bilmirlər. Ona görə də arzuladıqları əməkhaqqının əldə olunması üçün boş qalan iş yerlərini axtarırlar. Bu isə müəyyən **vaxt tələb edir**. Friksion işsizliyi izah edərkən bu məsələyə diqqət yetirəcəyik.

İşləmək arzusu ilə iş axtaranların hamısı üçün isə uyğun **boş iş yerləri** yoxdur. Bu o vaxt baş verir ki, əmək bazarında təklif tələbi üstələyir. Bu isə struktur işsizliyə dəlalət edir ki, bu barədə də sonra danışacağıq. Struktur işsizliyin baş verməsi o vaxt olur ki, hər hansı səbəbdən əməkhaqqının səviyyəsi əmək bazarında tələb və təklifin bərabərliyini təmin edən kəmiyyətdən üstün olur.

İşsizliyin başvermə səbəbləri əslində iqtisadi sistemin daxildən törənən elementlərin fəaliyyəti və bir-birinin

tamamlanması ilə əlaqədardır. Ən sadə şəkildə demiş olsaq işsizliyin baş verməsi asılıdır:

- iqtisadiyyatın başlıca probleminin həlli üsulunun seçilməsindən;
- iqtisadiyyatın tsiklik və fluktuasiya xarakterli olmasından;
- rəqabətə dözməyən müəssisələrin müflisləşməsindən;
- texniki tərəqqi şəraitində kapital yığımından;
- istehlak, əmanət və investisiya arasındakı qeyri-tarazlıqdan;
- əmək bazarında rəqabətin qeyri-təkmilliyindən;
- demoqrafik vəziyyətdən;
- təşkilati-iqtisadi amillərdən.

İşsizliyə səbəb olan bu amillərin hər biri özünəməxsus şəkildə işsizliyə gətirib çıxarır. Həmçinin ümumi şəkildə qeyd olunmuş işsizliyin bu amilləri milli iqtisadiyyatların spesifik inkişafı ilə müxtəlif ola bilər. Belə ki, işsizlik bazar prinsiplərinə üstünlük verilən şəraitdə **açıq,** bazar prinsiplərinə riayət olunmadıqda **gizli** şəkildə baş verir.

İşsizliyin təbii xarakter alması, qeyd olunan amillərin təsiri nəticəsindən asılı olmayaraq ona görə mövcuddur ki, iş yerləri işləmək istəyənlərin arzu və ixtisasına uyğun gəlmədiyindən, həmin iş yerləri fərqli xüsusiyyətlərə malikdir, eləcə də iş yerləri və iş axtaranlar barəsində informasiya firma və ev təsərrüfatı arasında gec yayılır.

## 10.2. İşsizliyin növləri

İşin **axtarılması** arzu və istəyinə uyğun gələn **boş yerlərin** zəmanətli **əməkhaqqı** səviyyəsi ilə çıxış etməsi işsizliyin fərqli növlərə malik olmasını əsaslandırır.

İqtisadi ədəbiyyatlarda və dərsliklərdə işsizliyin növləri hesab olunur:

- Friksion işsizlik;

- Struktur işsizlik;
- Tsiklik işsizlik;
- Mövsümi işsizlik;
- Texnoloji işsizlik;
- Müvəqqəti işsizlik;
- Könüllü işsizlik;
- Beynəlxalq işsizlik;
- Dövri işsizlik.

Sadaladığımız işsizliyin bu növlərinin hər biri barəsində yığcam məlumat verəcəyik. Lakin əmək bazarının xarakterindən asılı olaraq əsasən işsizliyin üç: friksion, struktur və tsiklik növlərinə xüsusi diqqət yetirilir.

**Friksion işsizlik.** İnsanların həyat tsiklinin müxtəlif mərhələlərində **iş axtarışı** ilə əlaqədar bir sahədən digər sahəyə və bir işdən digər işə keçməsinin **fasiləsizliyi** friksion işsizlik adlanır. İnsanları qane edən işin axtarılması, hətta iqtisadiyyatda tam məşğulluğun təmin olunduğu vaxtda baş verir. Təhsil alanlar təhsilini başa vurduqdan sonra iş axtarmaq məcburiyyətində olduğundan və ya qadınların analıq məzuniyyətindən sonra iş qüvvəsi təklifinə yenidən qatılması işsizliyin hərəkətinə təsir göstərir. Friksion işsizlik bilavasitə işləmək və iş axtarmaq arzusunda olan insanın özü ilə bağlı olduğundan, onun işinin dəyişmək istəyi ilə sərf etdiyi vaxt ərzindəki işsizlik **könüllü** işsizlik kimi nəzərə alınır.

İnsanların bəziləri işlərini dəyişmək arzusu ilə ölkənin bir regionundan digərinə köçürlər. Həmçinin regionlarda spesifik məhsul istehsal edildiyinə görə onların bəzilərində iş qüvvəsinə tələbat yüksələ bilər və ya azala bilər. Eyni zamanda müəyyən işlərin görülməsində, məsələn, körpülərin, yolların salınmasında, su kəmərinin çəkilməsində cəlb olunan işçilər işdən azad olurlar. Belə hallarda yeni işlərin tapılması ilə işsizlik baş verir və işçilər əmək birjasında qeydiyyata düşürlər. İş axtarmaq üçün **sərf**

**olunan vaxt** friksion işsizliyin əsasını təşkil edir. Friksion işsizlik qısamüddətli xarakter daşıyır.

**Struktur işsizlik.** Bildiyimiz kimi, iqtisadiyyat daima dəyişikliklərlə müşayiət olunur. Sadə misalda bunu aydın görmək olar. Azərbaycanda müstəqillik dövrünə qədər adamların böyük əksəriyyəti pambıqçılıq, üzümçülük sahələrində çalışırdılar. Bu gün isə işçilərin əksəriyyəti kommersiya və tikinti sahələrində çalışırlar. İstehsalın və xidmətin strukturunda dəyişikliklərin baş verməsi ilə iqtisadiyyatın müəyyən sektorlarında yeni iş yerləri açılmış, digərlərində isə ixtisar baş vermişdir. Bu proseslərin nəticəsi olaraq əhalinin bir qisminin həyat səviyyəsi yaxşılaşmış, digərlərininki isə, tutaq ki, maşınqayırma, poladəritmə zavodlarında çalışanlar işsiz qalmış, ya yeni iş axtarmalı olmuş, ya da ki, ixtisaslarını dəyişdirmək məcburiyyətində qalmışdılar.

Beləliklə də görünür ki, struktur işsizliyin əmələ gəlməsinin əsas səbəbi kimi **iş yerləri ilə işsizlərin sayı arasında peşə–ixtisas və ərazi uyğunsuzluğunun** olmasıdır. Kapital, əmtəə və xidmətlər bazarında baş verən dəyişikliklər əmək bazarındakı tələb və təklifin strukturunun da dəyişilməsinə səbəb olur. Nəticədə bir növ işçiyə olan tələb artır, digərinə isə azalır, təklif isə mövcud dəyişikliklərə asta və yavaş uyğunlaşır. Biz tez-tez müxtəlif peşələr və ya ərazilər üzrə struktur uyğunsuzluqlarını görə bilərik, birində müəyyən sektorlar inkişaf edir, digərlərində isə zəifləyir. Belə şərait ölkənin bütün ərazisi üçün xarakterik olduğundan struktur işsizliyi əsaslandırır. Yəni iqtisadiyyatın bir sektorunda işini itirənlər, digər sektorlarda boş qalan yerlərdə isə götürülə bilmirlər. Ona görə də struktur işsizlik uzunmüddətli xarakterli olur. Adətən bu müddət altı aydan yuxarı olur. Struktur işsizlik, ərazidə yerləşmiş hasil, emal sənayesinin və xidmət sferasının inkişaf səviyyəsindən asılı olaraq dəyişilir. O yerlərdə ki, peşə, təhsil, ixtisas səviyyəsi aşağıdır, orada struktur işsizliyin səviyyəsi yüksək olur. Yeni iş yerlərinin açılması, uyğun peşə-ixtisasına yiyələn-

məsi, bu istiqamətdə məlumatlandırılmanın sürətlə yayılması struktur işsizliyin səviyyəsinə təsir göstərir.

**Tsiklik işsizlik.** Bu işsizlik növü o vaxt baş verir ki, **ümumiyyətlə, əməyə olan tələb aşağı səviyyədədir.** Məcmu xərcin və buraxılışın ixtisarı ilə demək olar ki, hər yerdə işsizlik artır. 2007-ci ildə başlamış dünya maliyyə və iqtisadi böhranı dövründə demək olar ki, əksər milli iqtisadiyyatlarda tsiklik işsizlik müşahidə olunmuşdur. Onun da əsas səbəbi iqtisadi enmələrin və ya resursların əksər bazarları əhatə etməsi olmuşdur. Belə şəraitdə ÜDM-in real həcminin azalması və iqtisadiyyatın müəyyən sektorlarında işsizliyin sayının artmasına səbəb olur.

Tsiklik işsizliklə digər növlü işsizliyin fərqləndirilməsi əmək bazarındakı ümumi vəziyyətin müəyyənləşdirilməsinə imkan yaradır. Friksion və struktur işsizlik hətta əmək bazarının tarazlı şəraitində baş verə bilər. Məsələn, kadr axını zamanı, regional disproporsiyalılığı şəraitində friksion və struktur işsizlik mövcud ola bilər. Lakin, tsiklik işsizlik, enmələr dövründə məcmu tələblə məcmu təklif arasında müvazinətin pozulduğu şəraitdə məşğulluğun səviyyəsi aşağı düşdüyü zaman mövcud olur. Tsiklik işsizlik uzunmüddətlidir. Tsiklik işsizlik üçün **gizli** işsizlik xarakterikdir. Çünki, gizli işsizlik, **aşkar** işsizliyə nisbətən enmələr şəraitində miqyası daha geniş olur. Bunun da əsas səbəbi:

- işin müvəqqəti olması üzündən tam məşğul olmayanların olması;
- ixtisas və peşə səviyyəsinə uyğun gəlməyən işdə çalışanların mövcudluğu;
- işi olmayan və işə başlamağa hazır olan və həftə ərzində təsadüfi gəlir əldə edənlər.

**Mövsümi işsizlik.** İşsizliyin bu növü aqrar sektor üçün daha xarakterikdir. Kənd təsərrüfatı məhsullarının tədarükü, emalı, daşınması və saxlanılması ilə əlaqədar fəaliyyət göstərənlər il ərzində müxtəlif kəmiyyətli olurlar.

Məsələ burasındadır ki, müxtəlif mövsümi işlər üçün tələb olunan **bacarıqlar** bir-birinə uyğun gəlmir. Məsələn, konserv zavoduna meyvə daşıyan sürücü birdən-birə həmin ərazidə yerləşən mehmanxanada aşbaz işləyə bilmir. Mövsümi işsizliyin azaldılmasında qiymət tariflərindəki dəyişilməsi rol oynayır. Belə ki, qeyri-mövsümi qiymətlərin azaldılması ilə müxtəlif fəaliyyət növlərinin hərəkətə gətirilməsinə imkan yaradıla bilər. Lakin mövsümi işsizlik, qısamüddətli olmasına baxmayaraq tamamilə aradan qaldırıla bilməz.

**Texnoloji işsizlik**. Struktur işsizliyin bir növü kimi texnoloji işsizlik, yeni texnoloji avadanlıqların tətbiqi və innovasiyalardan istifadəsi zamanı baş verir. Bu da texnikanın insanlarla əvəz etməsi prosesini əks etdirir. Həm də fəaliyyətdə olan iş qüvvəsinin sıxılmasına, xüsusən yeni texnologiyanın tətbiqi ilə, yeni iş yerlərinin açılışı ilə aşağıixtisaslı kadrların ixtisarına səbəb olur. Kompyuterləşmənin insan əməyinin yüngülləşdirilməsində və əmək məhsuldarlığının yüksəldilməsindəki rolu danılmazdır. Lakin onun istehsal və xidmət sektorunda tətbiqi ilə əldə olunan nəticə müxtəlifdir. Əgər istehsalda kompyuter texnologiyasının tətbiqini əmək məhsuldarlığının səviyyəsi baxımından müəyyənləşdirmək mümkündürsə, lakin xidmət sferasında onu təyin etmək çətindir. Bu baxımdan Amerika iqtisadçısı R.Solou qeyd edir ki, xidmət sferası üçün kompyuter texnologiyasına həddindən artıq investisiyanın yönəldilməsi heç də bu sahənin əmək məhsuldarlığının yüksəldilməsinə səbəb olmur. Bu hadisə iqtisad elmində «Solou parodoksu» adı alıb.

Texnoloji yeniləşmə ilə iqtisadiyyatın bir sahəsindən, tutaq ki, sənaye sahələrindən azad olunanlar xidmət sferasında çalışmağa doğru hərəkət edəcəkləri zaman onlar yenə də yeni peşə və ixtisasa yiyələnmək üçün vaxt itkisinə yol verməməlidirlər.

**Müvəqqəti işsizlik.** Bu işsizliyin elə formasıdır ki, ölkənin bir hissəsində xüsusi işlərin görülməsi üçün işçilər

çoxdur, digər hissəsində isə eyni qabiliyyətli işçilər çatışmır. Tutaq ki, Azərbaycanın cənubunda əl əməyinə əsaslanan işçilərin say çoxluğu olduğu halda, lakin onun şimalında boş iş yerləri mövcuddur. Tikinti quraşdırma işləri ilə əlaqədar iş yerləri olduğu halda dağlıq ərazidə yaşayanlar işsizlikdən əziyyət çəkir. Bunun da mümkün iki səbəbi var:

- mövcud vəziyyət barədə məlumatın olmaması;
- yerdəyişmə ilə əlaqədar xərclərin yüksəkliyi.

Yeni ərazilərdə iş yerlərini tapanlar maddi, mənəvi, sosial, psixoloji amillərin müqayisəsi ilə, gəldikləri nəticə, işsizliyə görə yardımın, əlavə gəlirin əldə olunması hesabına, yaşadığı yerdə iş tapmaq ümidi onun müvəqqəti işsizliyinə əsas verir. Bəzi hallarda yaşadığı məkana, torpağa, elə bağlılıq da müvəqqəti işsizliyə gətirib çıxarır.

**Könüllü işsizlik.** Friksion işsizliyin bir növü kimi əks olunan könüllü işsizlik öz iş qüvvəsini daha **yaxşı əmək şəraiti və ödənişi** əldə etmək məqsədi ilə cari əməkhaqqı səviyyəsindən imtina edib əmək bazarına çıxanlardır. Onlar hətta İnternet vasitəsilə boş iş qüvvələri haqqında məlumat əldə etdikləri halda da arzuladıqları əməkhaqqı səviyyəsi olmadığına görə könüllü işsiz qalırlar. Könüllü işsizlər, bu və ya digər fəaliyyətə **cari əməkhaqqı səviyyəsi** əldə etməyə üstünlük verirlər. Könüllü işsizlik, aşağı ixtisasa malik olan işçilər arasında müşahidə olunur. Onlar işsizliyə görə müavinətin və digər sosial yardımların alınmasına üstünlük verməklə, müvafiq iş olduğu hallarda vaxtaşırı könüllü işsiz qalırlar. Qeyd etmək lazımdır ki, könüllü işsizliyə **iqtisadi səmərəliliyin** bir meyarı kimi də baxıla bilər. Çünki hər kəs yüksək əməkhaqqı işdə çalışa bilmədiyindən, könüllü işsizlər ya **peşə-ixtisas səviyyəsini artırmalıdırlar**, ya da boş iş yerlərinin **axtarışında** olmalıdırlar. Ona görə də müasir informasiyalı iqtisadiyyat mürəkkəb proseslərin yaradılması astanasında fəaliyyət göstərir. Bir tərəfdən iqtisadiyyat öz imkanları çərçivəsində fəaliyyət göstərməklə tam məşğul-

luğu təmin edir, digər tərəfdən isə öz miqyasının genişləndirilməsi hesabına işsizlik törədir.

**Beynəlxalq işsizlik.** Xarici ticarətin ixrac-idxal əməliyyatlarında baş verən dəyişikliklər zamanı meydana çıxan işsizlikdir. Dünya bazarında rəqabətqabiliyyətli əmtəələrin çıxarılması ixrac olunan məhsulların **daxili və xarici qiymət səviyyəsindən** və **daxili valyutanın məzənnəsindən** asılıdır. Əgər əməkhaqqının səviyyəsi qalxarsa, onda daxili qiymətin artımı hesabına ixrac olunan məhsulların həcmində də dəyişiklik baş verəcək. Rəqabət aparan ölkələr əvəzedici məhsullar istehsalı ilə ixrac olan tələbi elastik edir. Bu da ölkədəki ixrac yönümlü məhsul istehsal edən sektorlara və orada məşğul olan işçilərin kəmiyyətinə azalma istiqamətində təsir edir.

Belə vəziyyət idxal şəraitində də müşahidə olunur. Əgər idxal edən ölkələrin gəlirləri aşağı düşərsə, onların yüksək gəlir elastikliyi olan mallara tələbi də azalacaq. Müasir şəraitdə dünya bazarlarında neftin qiymətinin artması idxal-ixrac əməliyyatları ilə bağlı ayrı-ayrı ölkələrdə işsizliyin baş verməsindəki **meylli** xarakterli vəziyyəti müşahidə etmək olar.

**Dövri işsizlik.** İşsizliyin bu forması iki səviyyədə özünü əks etdirir:

- iş tapmağa ümidini itirib birdəfəlik iş qüvvəsi sırasından çıxanları;
- ticarət dövriyyəsinin gedişatı ilə əlaqəli olan işsizləri.

Hər iki şəraitdə işsizlik **müddətli** xarakter daşıyır. Burada işsizliyin müddəti iş yerinin itirilməsi və yeni iş yerində işə düzəlmək arasındakı vaxtla müəyyənləşir. İşsizliyin bu formasına C.Keynsin məşğulluq nəzəriyyəsindən irəli gəlməklə, onun «məcburi işsizlik» və «tam məşğulluq» ideyasının həyatiliyinin nümunəsi kimi baxmaq lazımdır.

## 10.3. İşsizliyin göstəriciləri və dinamikası. Oyken qanunu

İstər formalaşmış bazar iqtisadiyyatlı ölkələrdə, istərsə də transformasiya prosesli dövlətlərdə **ümumi və qeydə alınan işsizlərin** sayı heç vaxt üst-üstə düşmür. Əmək bazarının səciyyəvi xüsusiyyəti ilə bağlı olan bu cəhət işsizlərin mövcud əmək bazarına uyğunlaşmasından, fəaliyyətdə olan məşğulluq siyasətindən və digər səbəblərdən asılıdır. Ona görə də ölkənin əmək potensialının malik olduğu səviyyəsinin qiymətləndirilməsi üçün işsizliyin göstəricilərinin müəyyənləşdirilməsi vacibdir. Bunun üçün əhalinin ayrı-ayrı qruplarını fərqləndirmək lazımdır.

Ümumiyyətlə, əhali **institusional** və **qeyri-institusional** hissəyə ayrılır. İnstitusional əhaliyə qeyri-bazar strukturunda, orduda, polisdə, dövlət qulluğunda çalışanların hamısı aid edilir. Əmək qabiliyyətli əhalinin yerdə qalan hissəsi qeyri-institusional hesab olunur. Əhalinin bu qrupu iki hissəyə ayrılır:

- muzdla işləyənlər və ya iş axtaranlar;
- muzdla işləməyənlər və ya iş axtarmayanlar.

Beləliklə, **iş qabiliyyətli əhali** göstəricisi meydana gəlir ki, onlar da yaşına və səhhətinə görə çalışmağa qadir olan insanlardır. İş qabiliyyətli əhali iş qüvvəsi anlayışında özünü əks etdirir.

**İş qüvvəsinə** həm məşğul, həm də işsiz əhali daxildir. Ona görə də əmək qabiliyyətli əhalini iş qüvvəsi kimi nəzərə almaqla məşğulluğun və işsizliyin vəziyyətini əks etdirən göstəricilərə daxildir:

- qeyri-institusional əhali – $Ə_{qin}$;
- məşğul olanların sayı – $Ə_{m}$;
- işsizlərin sayı – $Ə_{iş}$;
- iş qüvvəsinə daxil olmayanların sayı – $Ə_{id}$.

Qeyd olunan bu göstəricilərin arasında belə əlaqə mövcuddur:

- iş qüvvəsinin sayı: $Ə_{iş} = Ə_m + Ə_{iş}$;
- qeyri-institusional əhali: $Ə_{qin} = Ə_m + Ə_{iş} + Ə_{id}$;
- əhalinin məşğulluq səviyyəsi: $S_m = \frac{Ə_m}{Ə_{qin}}$
- işsiz əhalinin səviyyəsi: $S_{iş} = \frac{Ə_{iş}}{(Ə_m + Ə_{iş})}$
- işsizlik norması: $N_{iş} = \frac{Ə_{iş}}{(Ə_m + Ə_{iş})} \bullet 100\%$
- iş qüvvələrinə cəlb olunan əhalinin səviyyəsi: $S_{iş} = \frac{(Ə_m + Ə_{iş})}{Ə_{qin}}$

Makroiqtisadi baxımdan bu göstəricilərin səviyyəsi və dinamikası bir sıra amillərdən asılı olaraq dəyişilir:

- demoqrafik vəziyyətdən asılı olaraq;
- yaş-cins qrupunda baş verən dəyişikliklə əlaqədar olaraq;
- əhalinin sosial tərkibindəki dəyişikliklərlə bağlı olan;
- etnik tərkiblə əlaqədar olan;
- ayrı-ayrı sahə və regionlarda əmək bazarında tələb və təklif arasındakı nisbətin dəyişilməsindən asılı olan.

Konkret olaraq bu amillərin işsizliyə olan təsirini müəyyənləşdirməklə iş qüvvəsinin işsizliklə əhatə dairəsini aydınlaşdırmaq olar. Həm də işsizliyin hansı amillərin təsiri ilə davam etmə müddətinin də aşkarlanmasına imkan yaradır. Ona görə də işsizlik göstəricisinin davamiyyəti bir işsizlik halının orta müddətini əks etdirir. Məsələn, ABŞ-da qısamüddətli işsizlik beş həftədən az, uzunmüddətli işsizlik isə altı aydan çox davam edir.

İşsizlik səviyyəsinin dəyişilməsinə səbəb olan amillərdən biri də əmək qabiliyyətli əhalinin, yəni yaşı 16-dan yüksək olanların sayının artmasıdır. **İş qabiliyyətli yaşa**

çatan əhalinin işlə təmin olunması və mövcud işsizlərlə birlikdə iqtisadi fəallıq sferasına daxil edilməsi əmək bazarındakı baş verə biləcək gərginliyin xeyli azalmasına səbəb olur.

İşsizlik səviyyəsinin qiymətləndirilməsində müəyyən çətinliklər baş verir ki, bu bir sıra amillərlə əlaqədardır:

- gizli iqtisadiyyatda çalışanların sayının müəyyənləşdirilməsindəki çətinlik;
- rəsmi statistikada natamam iş günü işləyənlərin tam məşğullar sırasına daxil edilməsi. Halbuki onlar qismən məşğuldurlar;
- iş axtaranlar və boş iş yerləri barədə çevik və zəruri informasiyanın olmaması;

İşsizliyin dinamikasında baş verən dəyişikliklər bir sıra amillərdən asılıdır:

- institusional amillər. Bura qanunvericiliyin və əmək bazarının infrastrukturunun vəziyyəti, iqtisadi və siyasi qaydalar, adət-ənənələrin spesifik xarakter daşıması, mənəvi-dini davranış daxildir;
- demoqrafik amillər. Bura əhalinin doğum və ölüm səviyyəsində, yaş və cins strukturunda, orta ömür müddətində, miqrasiyada baş verən dəyişikliklər daxildir. Təkcə miqrasiya olan əhalinin tərkibində yüksək peşə və ixtisasa malik olanların artması, struktur işsizliyin baş verməsinin səbəblərindən biri kimi çıxış edir;
- texniki amillər. Bura ETT-nin iş qüvvəsinin qənaətinə səbəb olan sürət və istiqamətləri daxildir;
- iqtisadi amillər. Bura milli buraxılışın, investisiya fəallığının, maliyyə-kredit sisteminin, inflyasiyanın vəziyyəti daxildir.

İşsizliyin səviyyəsinin dinamikasındakı dəyişikliyi **işsizliyin faktiki səviyyəsi ilə təbii işsizlik norması** arasındakı fərq vasitəsilə müəyyən etmək olar. Tutaq ki, faktiki işsizlik 9%-dirsə, təbii işsizlik norması 6% qəbul olunubsa, onda 3% işsiz artığı meydana gəlir. Belə işsizlərə **konyunktur işsizlər**

**də** deyilir. Konyunktur işsizliyin mövcudluğu iqtisadi resurslardan, xüsusən də istehsal güclərindən tam istifadə olunması və ÜDM-in **mümkün həcminin** azalmasını göstərir.

Faktiki işsizlik səviyyəsi ilə təbii işsizlik səviyyəsinin müqayisəsi bir daha mövzunun əvvəlində toxunduğumuz «təbii işsizlik» anlayışına bir qədər də ətraflı diqqət yetirək. Təbii işsizlik səviyyəsi bəzən tam məşğulluq da adlandırılır. Yəni milli iqtisadiyyatda mövcud olan 4-6% səviyyəsindəki işsizlik, tam iqtisadiyyatın sabit və davamlı inkişafı mövcud işsizlərin ehtiyatı hesabına baş verir. Bu da o deməkdir ki, tam məşğulluq, işsizliyin sıfır kəmiyyətini əks etdirmir.

İşsizliyin təbii səviyyəsi friksion və struktur amillər çərçivəsində baş verdiyinə görə, onu qısa müddət ərzində heç cür azaltmaq mümkün deyil. İşsizlik səviyyəsinin dəyişilməsinə səbəb olan yuxarıda qeyd etdiyimiz amillərin təsiri təbii işsizlik səviyyəsində də öz əksini tapacaq. Bu baxımdan təbii işsizlik səviyyəsini eyni qaydada saxlamaq mümkün deyil. Ona görə də təbii işsizliyin yuxarı və aşağı norması həddində tərəddüdü istehsal olunan ÜDM-in real həcmi, milli iqtisadiyyatın **istehsal potensialını** əks etdirir. Deməli, potensial ÜDM - təbii işsizlik şəraitində istehsal olunan ÜDM-dir.

Təbii işsizlik səviyyəsi heç də ölkə iqtisadiyyatının hər zaman bu səviyyədə fəaliyyət göstərməsinə dəlalət etmir. Çünki, onun səviyyəsi faktiki işsizliyin səviyyəsindən asılıdır. Faktiki işsizliyin dəyişkənliyi təbii işsizlikdə kənarlaşmalara səbəb olmaqla, konyunktur işsizliyi törədir. Bəzi hallarda təbii işsizliyə **inflyasiyanı sürətləndirməyən işsizlik səviyyəsi də deyilir.** Doğrudan da əgər dövlət ÜDM-in potensial vəziyyətə, yəni təkcə əmək deyil, digər resurslardan da tam məşğulluğuna cəhd göstərərsə, onda mütləq inflyasiyanın sürətlənməsi baş verir.

Tam məşğulluq şəraitində ÜDM-in potensial mümkün həcmi ilə onun konyunktur işsizlik şəraitindəki faktiki həcmi arasındakı fərq konyunktur fərqi təşkil edir. Kon-

yunktur fərqlə konyunktur işsizlik arasında birbaşa və sabit əlaqə mövcuddur. İlk dəfə bu əlaqəni empirik tədqiqatlar əsasında üzə çıxaran amerikan iqtisadçısı A.Oyken olmuşdur. Artur Oyken (1928-1980) 1960-cı illərdə yazdığı işində hesab edirdi ki, **1% işsizliyin fərqi 3% ÜDM-un (faktiki ÜDM-in potensial səviyyəsindən kənarlaşması) fərqinə bərabərdir.** Daha sonrakı qiymətlər bu iki növ fərqlərin 1-in 3 deyil, 1-in 2,5-ə və ya hətta 1-in 2-yə nisbətində dəyişilir. Sonralar iqtisad elminə bu qanunauyğunluq **Oyken qanunu** kimi daxil olmuşdur. Oyken qanununu bir qədər ətraflı şərh edək. Əslində «qanun» ifadəsi iqtisadi hadisələrin daima təkrarlanan səbəb-nəticə əlaqələrini əks etdirir. Buna baxmayaraq iqtisadi hadisələrin gedişində Oyken qanununu birdəfəlik və həmişəlik təyin olunmuş bir ifadə kimi qəbul etməyə ehtiyac yoxdur. Çünki, qısamüddətli dövrdə çıxarılan nəticə uzun müddət ərzində qiymətlərin dəyişilməsi nəticəsində müxtəlif əsasların verilməsinə səbəb olacaq. Məsələnin aydınlaşdırılması üçün A.Oykenin vermiş olduğu düstura diqqət yetirək:

$$(Y_1-Y) / Y = a (U-U_n)$$

Burada, $Y_1$ - tam məşğulluq şəraitində məhsul istehsalının səviyyəsi - potensial ÜDM;

Y – faktiki məhsul istehsalı;

U – tam məşğulluq şəraitində işsizlik;

$U_n$ – tam məşğulluq şəraitində işsizlik norması (təbii işsizlik norması);

a – Ouken əmsalı (**mütləq** qiymət).

Bu qanun onu əks etdirir ki, işsizliyin faktiki səviyyəsi işsizliyin təbii səviyyəsindən yüksəkdirsə, belə vəziyyətdə ÜDM-in bir qismi işsizdir. Yəni faktiki işsizliyin artması hesabına əmtəə və xidmətlərin potensial itkisi baş verir.

Oyken qanununu rəqəmli misalla izah edək. Tutaq ki, təbii işsizlik səviyyəsi-6%, faktiki işsizlik səviyyəsi 9% təşkil edir. Oyken əmsalı isə (a) 2-yə bərabərdir. O halda

faktiki ÜDM-in həcmi potensial ÜDM-in səviyyəsindən geri qalması mənfi 6%-ə bərabər olacaqdır: (9%-6%) x (-2). Bu o deməkdir ki, ölkə potensial ÜDM-dən 6% həcmində buraxılışı əldə edə bilməyib.

Biz bilirik ki, uzunmüddətli dövrdə istehsalın həcminin artırılması, eyni zamanda əlavə kapitalın, təbii resursların, texniki tərəqqiyə nail olunması ilə mümkünləşir. İş qüvvəsinin də cəlb olunması xüsusi rol oynayır. Lakin qısamüddətli dövrdə yuxarıda sadalanan artım amillərindən yalnız iş qüvvəsinə çəkilən xərclərə görə firmalar öz davranışlarında dəyişikliklər edirlər. Ona görə də məhsul buraxılışının faktiki və potensial səviyyələri arasındakı fərqə, digər amillərə nisbətən işsizlik səviyyəsinin faktiki dəyişilməsi daha tez təsir göstərir.

Ayrı-ayrı ölkələrdə işsizlik səviyyəsinə təsir göstərən amillərdən asılı olaraq onların dinmikasındakı dəyişiklik də müxtəlif olur. Bunun da ən başlıca səbəblərindən biri təbii işsizlik səviyyəsində fərqin olması ilə izah olunur.

## 10.4. İşsizliyin sosial-iqtisadi nəticələri. Dövlətin məşğulluq siyasəti

İşsizliyin təbii səviyyədən uzunmüddətli yüksək olması cəmiyyətin həyatında həm iqtisadi, həm də sosial baxımından gərginliklərin əmələ gəlməsinə səbəb olur.

İşsizliyin formalarından asılı olmayaraq onun baş verməsi cəmiyyət həyatında dəyişikliklərin baş verməsinə səbəb olur. Belə dəyişiklikləri işsizliyin sosial-iqtisadi nəticələri kimi qiymətləndirmək olar:

- cəmiyyətin mövcud **insan kapitalından** tam istifadə olunmur;
- işsizlərin və ailə üzvlərinin həyat tərzləri pisləşir;
- peşə və ixtisasın dəyişilməsinə və ya bərpasına çəkilən xərclərin həcmi artır;

- formalaşmış milli-mənəvi-dini-əxlaqi davranış qaydalarında mənfi meyilli münasibətlər əmələ gəlir.

Burada keçən əsrin 70-ci illərində amerikan iqtisadçısı M.Harver Brenerin tədqiqatlarının nəticəsi olaraq gəlmiş olduğu ümumiləşmələri qeyd etmək maraqlıdır. O göstərirdi ki, 30 il ərzində işsizliyin 1% artımı, onun 6 il müddətində qalması şərti ilə «sosial patoloji» göstəricilərin səviyyəsinin 2-5,7% arasında artmasına səbəb olur. Bu göstəricilər kimi ölüm səviyyəsi, sui-qəsd hadisələri, həbsxanaya düşmə ehtimalı, psixi patologiyaları, qətl hadisələri əsas götürülmüşdür. Göründüyü kimi, belə mənfi xarakterli hadisələrin baş verməsi həm fərdi, həm də dövlət xərclərinin artmasına gətirib çıxarır.

İşsizliyin ən böyük 1-ci qüsuru – **ÜDM-in azalmasıdır.**

İşsizliyin ən böyük 2-ci qüsuru – **sosial gərginliyin artırılmasıdır.**

İşsizliyin ən böyuk 3-cü qüsuru – **siyasi sabitliyin pozulmasıdır.**

İşsizliyin ən böyük 4-cü qüsuru – **yoxsulluq törədən amillərin sürətləndirilməsidir.**

İşsizliyin sosial-iqtisadi nəticələrindən asılı olaraq, onun azaldılması istiqamətində həm bazar, həm də dövlətin oynadığı rolu birmənalı qiymətləndirmək olmaz. Əgər bazar mexanizmi fərdi işsizliyin azaldılması istiqamətində rol oynaya bilərsə, lakin bunu cəmiyyət miqyasında həyata keçirə bilməz. Çünki, bazar sistemi təşəkkül tapdığı zamanda o, öz ədalətsizliyinin bir cəhəti kimi hamıya işin vəd olunmamasını irəli sürmüşdür. Müasir iqtisadiyyatda internetin yeni iş yerləri barədə iş axtaranlara məlumat verilsə də, lakin o işçilərin və firmaların maraqlarını qarşılıqlı şəkildə o qədər də tez təmin edə bilməz. Ona görə də işsizliyin miqyasının azaldılmasında **dövlətin imkanları** daha genişdir. Çünki, dövlət işsizliyin miqyasının azaldılması istiqamətindəki tədbirləri, bilavasitə onun **sosial təhlükəsiz-**

**liyinin** təmin olunmasına yönəldilir. Ümumiyyətlə, işsizliyin miqyasının azaldılması istiqamətindəki hazırlanan dövlət proqramları həm iş axtarışı imkanlarını genişləndirir, həm də sosial ehtiyacların ödənilməsini asanlaşdırır. Bu baxımdan işsizliyin miqyasının azaldılmasında iki istiqamətdə siyasət həyata keçirir:

- əmək bazarının tənzimlənməsi istiqamətində həyata keçirdiyi tədbirlər;
- məşğulluğun təmin olunması ilə əlaqədar tədbirlər.

Əmək bazarında dövlət siyasəti iki formada həyata keçirilir:

- **fəal dövlət siyasəti.** Bura yeni iş yerlərinin yaradılması tədbirləri daxildir. Bu forma hazırda Azərbaycanda əmək bazarının tənzimlənməsi istiqamətində həyata keçirdiyi tədbirlər proqramı ilə üst-üstə düşür. Təsadüfi deyildir ki, ölkəmizdə 2003-2010-cu illərdə 900 min nəfər yeni iş yerləri ilə təmin olunub.
- **passiv dövlət siyasəti.** Bura müavinətlərin ödənilməsi yolu ilə işsizlərin sosial müdafiəsi üçün yardımların, sığortanın verilməsidir. Həmçinin pulsuz tibbi xidmətin həyata keçirilməsidir.

Dövlət əmək bazarını əsas üç istiqamətdə tənzimləyir:

- məşğul olmayan əhalinin işlə təmini və ixtisasartırmada yardımın göstərilməsi (əmək birjaları);
- çevik əmək bazarının stimullaşdırılması;
- işsizliyə görə sosial müdafiənin həyata keçirilməsi.

Bundan əlavə, işsizliyə görə dövlət proqramlarının həyata keçirilməsi işçilərin işdən azad olunması, əməkhaqqı səviyyəsinin minimum həddinin müəyyən edilməsi, yardımların verilməsinin qanunvericilik bazasını təşkil edir:

- minimum əməkhaqqı səviyyəsi;
- işsizliyə görə sığorta sisteminin tətbiqi;
- həmkarlar ittifaqları və kollektiv müqavilələrlə əməl olunması.

Göstərilən bu istiqamətlərin hər biri əmək bazarında əhəmiyyətli rol oynayır.

İşsiz qalan əhalinin dövlət tərəfindən dəstəklənməsi məşğulluq siyasəti vasitəsilə həyata keçirilir.

Məşğulluq anlayışı iqtisadi ədəbiyyatda ilkin olaraq C.Keyns tərəfindən «tam məşğulluq» ifadəsi ilə daxil olmuşdur. Tam məşğulluq iqtisadiyyatın elə vəziyyətini əks etdirir ki, məcmu məşğulluq qeyri-elastik olub tələbin səmərəliliyinin artmasına reaksiya vermir. Belə şəraitdə əmək bazarında ehtiyat işçi qüvvəsi meydana gəlir ki, onların da gələcəkdə istehsalın miqyasının genişlənməsində, **əlavə işçi qüvvəsinə** olan tələbin artmasında istifadə etmək mümkündür. İqtisadiyyat heç vaxt 100% iqtisadi resurslardan, o cümlədən əmək resurslarından istifadə etməklə fəaliyyət göstərə bilməz. O mütləq əmək, torpaq, kapital **ehtiyatlarına** malik olmalıdır. Milli iqtisadiyyat, resurs ehtiyatına malik olmaqla, həm geniş təkrar istehsal nöqteyi-nəzərincə, həm də yaranan müxtəlif problemlər baxımından manevrə etmək iqtidarında olur.

Məşğulluq - ölkə vətəndaşlarının qanunvericiliyə zidd olmayan və hər şəraitdə qazanc gətirən fəal fəaliyyətdir.

Məşğulluq statusuna görə əhali təsnifatlaşdırılır:

-muzdlu işçilər;

-işə götürənlər;

- fərdi əsaslarla işləyənlər;

- ailə müəssisələrindən haqqı ödənilməyən işçilər;

- kollektiv müəssisələrin işçiləri;

-təsnifata aid edilməyən işçilər.

Azərbaycan Respublikasının Məşğulluq haqqında Qanununda deyilir: İşi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanlarında **iş axtaran kimi qeydiyyatda** olan əmək qabiliyyətli yaşda olan vətəndaşlar işsiz sayılır. Belə yanaşma BƏT-nin işsizliyə aid standartlarına uyğun gəlir. Lakin məşğulluq siyasəti vasitəsilə yerli şəraitə uyğun olan işsizliyin azaldılması

prioritetlərinin müəyyənləşdirilməsi vacib hesab olunur. Bununla əlaqədar bir neçə istiqamətdə siyasətin həyata keçirilməsinə diqqət yetirmək olar:

- ölkənin iqtisadi-texniki inkişaf səviyyəsinə uyğun gələn texnologiyanın gətirilməsi. Elə texnologiyaların seçilib gətirilməsi məqsədəuyğundur ki, onlardan külli miqdarda işçi qüvvəsi istifadə etmiş olsunlar. Kapital xərclərinə nisbətən inkişaf etməkdə olan ölkələrdə əməyin qiyməti qat-qat aşağıdır. Ona görə də belə ölkələrdə **əmək tutumlu texnologiyalardan** istifadə olunması məqsədəuyğundur. Belə bir təcrübə özünü Honqkonqda, Tayvanda, Tailandda, Cənubi Koreyada, Çində doğrultmuşdur.

- kənd yerlərində xırda sənayenin inkişaf etdirilməsi. Dövlət kənd infrastrukturunun, xüsusən nəqliyyatın kommunikasiya xidmətinin, səhiyyənin və təhsil sferasının inkişaf etdirilməsi ilə xırda sənayeni genişləndirə bilər. Həmçinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərindən xırda sənayenin inkişafı ilə məşğul olanları stimullaşdıra bilər.

- iqtisadiyyatın qeyri-formal sektorunun inkişaf etdirilməsi. Bu sahələr adətən xidmət sferasına daxil olmaqla heç bir dövlət müdafiəsi görməyən ənənəvi, milli xidmət sahələri olan sənətkarlıq sektorları aid edilir. Belə sektorlar həm şəhərlərdə, həm də kənd yerlərində fəaliyyət göstərir. Dövlətin ənənəvi sənətkarlıq sahələrinə dəstəyi, işsizliyin azaldılmasına olan təsirli tədbirlərin bir istiqaməti kimi baxıla bilər.

İşsizliyin azaldılması istiqamətində həm dövlətin əmək bazarının tənzimlənməsi, həm də məşğulluq siyasəti tədbirlərinin həyata keçirilməsi səbəb olur:

- yoxsulluq həddinin azaldılmasına;
- sosial gərginliyin yumşaldılmasına;
- iqtisadi təhlükəsizliyin qorunmasına;
- məcburi işsizliyin məşğul olan işçi qüvvəsinə çevrilməsinə;

- işsizlikdən əziyyət çəkənlərin sosial müdafiəsinin yaxşılaşdırılmasına.

Müasir şəraitdə Azərbaycanda həyata keçirilən Regional inkişaf proqramları, işsizliyin azaldılmasında fəal rol oynamaqla, iqtisadi inkişafın davamlı və dayanaqlı xarakter almasında onların təsir dairəsini genişləndirir.

# XI FƏSİL. İNFLYASİYA

**11.1. İnflyasiyanın mahiyyəti və səbəbləri**
**11.2. İnflyasiyanın növləri və formaları**
**11.3. İnflyasiyanın ölçülməsi mexanizmi: İnflyasiya məsrəfləri**
**11.4. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti**

## 11.1. İnflyasiyanın mahiyyəti və səbəbləri

Müasir dünya ölkələrinin əksəriyyəti üçün inkişaf səviyyəsindən asılı olmayaraq inflyasiyanın sürəti ümumi makroiqtisadi göstərici kimi qalmaqdadır. Çünki inflyasiya makroiqtisadi qeyri-sabitliyi şərtləndirən göstərici olmaqla, insanların gündəlik həyat tərzində və iqtisadi fəaliyyətində müşahidə olunan **davamlı** prosesdir.

Əgər bu gün siz səhər naharı üçün 20-30 qəpik civarında alınan hər yumurta hesabı ilə qayğanaq bişirib yeyib, universitet və ya hər hansı bir işə tələsirsinizsə, aldığınız yumurtaların sabaha bəs edib-edilməyəcəyi barədə düşünəcəksiniz. Ancaq əvvəlki vaxtlarda yumurtanın 10-15 qəpiklə satıldığı günlərdə bu barədə düşünmürdünüz. Ancaq, idman kostyumunun, krasovkanın, konsert biletinin qiymətinin bahalaşması sizi bir o qədər narahat etmirdi. Halbuki qida, ərzaq, qeyri-ərzaq məhsullarının qiymətinin daima artması sizdə və hamıda xoşagəlməz əhval-ruhiyyə yaradır. Bu hal, yəni **qiymətlərin ümumi səviyyəsinin artması inflyasiyanı** əks etdirir. İnflyasiya latın sözü olub (inflatio - şişmə, köpmə) pul tədavülündə və qiymət səviyyəsinin artımı ilə əlaqədar olan **dəyişikliklərin** baş verməsini əks etdirir. Bu anlayışdan XIX əsrdə 1864-1865-ci illər ərzində ABŞ-da gedən vətəndaş müharibəsi illərində istifadə olunmuşdur. İnflyasiya terminini elmi dövriyyəyə gətirən A.Delmar olmuşdur. O, 1864-cü ildə Nyu-Yorkda təbliğat xarakterli «Xalqa

xəbərdarlıq: Kağız köpüyü» yazısında bu termini işlətmişdir.

Bir əsrdən çox müddət ərzində inflyasiya həm **ənənəvi baxış**, həm də **müasir** yanaşma tərzi formalaşmışdır. İlk dövrlərdə inflyasiyaya törətmiş olduğu nəticədən asılı olmayaraq pul tədavülündə baş vermiş hər cür genişlənmə kimi baxılırdı. Sonralar inflyasiyanı tədavül kanallarının əmtəə dövriyyəsinin tələbatından çox **pul kütləsinin** dolması ilə pul vahidinin qiymətdən düşməsi və müvafiq olaraq qiymətin artması kimi baxılmışdır.

XX əsrin iknci yarısından sonra iqtisad elmində inflyasiya biramilli deyil, **çoxamilli** yanaşma mövqeyi formalaşdı. Artıq inflyasiyanı təkcə pul fenomeni kimi deyil, həmçinin **ümumi iqtisadi** fenomen kimi baxılmışdı. Bu da onunla əlaqələndirildi ki, pul parametrlərinin dinamikası iki mühüm proseslərin gedişatını müəyyənləşdirir:

- təkrar istehsalın miqyasını;
- iqtisadi siyasətin hədəfini.

Beləliklə də belə qənaətə gəlmək olar ki, M.Fridmenin qeyd etdiyi kimi, inflyasiya «hər şəraitdə pul fenomeni» olmasına baxmayaraq o eyni zamanda qeyri-pul amillərinin nəticəsidir.

Deməli, **inflyasiya pul dövriyyəsi kanallarının əmtəə kütləsinə nisbətən həddən artıq dolması nəticəsində pul vahidinin qiymətdən düşməsi ilə qiymətlərin səviyyəsinin uzunmüddətli artımına deyilir.**

Göründüyü kimi, inflyasiyanın mahiyyəti iki amillər qrupu ilə əlaqədardır:

- pul amilləri. Bura pul kütləsinin artım sürəti, pula olan tələb, müvəqqəti laqların dinamikası.
- iqtisadi sistemin davamlı fəaliyyətinə təsir göstərən qeyri-iqtisadi amillər. Bura ictimai və institusional dəyişikliklər, siyasi və sosial münaqişələr, psixoloji amillər daxildir.

Bu baxımdan demək olar ki, inflyasiyanın mahiyyəti, çoxamilli proseslərlə əlaqədar olub əhatə və təsir dairəsi

geniş olmaqla təkcə milli iqtisadi sərhəd çərçivəsi daxilində deyil, həm də qlobal iqtisadi mühitdə baş verən dəyişikliklərlə əlaqədardır. Artıq dünya təcrübəsi sübut etmişdir ki, inflyasiya birmənalı şəkildə:

- ictimai psixologiyadan;
- istehlak ənənələrindən;
- cəmiyyətdəki əhvali-ruhiyyədən asılıdır.

Başqa sözlə, bu amillər qrupu «inflyasiya gözləmələri» deyilən termini formalaşdırır ki, bu da **insan amilinin** inflyasiya prosesindəki rolu ilə əlaqədardır.

Bu amillər qrupunun fəaliyyət dairəsini nəzərə alaraq, deyə bilərik ki, inflyasiyaya dünyanın ayrı-ayrı ölkələri üçün müxtəlif səviyyəli çətinliklər törədir. Əgər inflyasiya 1974-cü ildə ABŞ prezidenti C.Ford «hökumətin bir nömrəli düşməni» kimi baxırdısa, hazırda onun mülayim səviyyəsini təkcə hökumətin deyil, əhalinin də yaxın dostu hesab etmək olar. Hazırkı şəraitdə inflyasiyanın adi bir hala çevrilməsi onun artım sürətinin **aşağı səviyyədə** saxlanılması ilə əlaqədardır. İnflyasiyanın artım sürətinin yüksək olması hər bir ölkə üçün iqtisadi problem yaradır. Ona görə də yüksək artım sürətli inflyasiya hər zaman bir nömrəli «iqtisadi düşmən» hesab oluna bilər.

Müasir şəraitdə inflyasiyanın izahında onun **ənənəvi** hesab olunan **istehlak qiymətlərinin artması** ifadəsindən fərqli olaraq **maliyyə aktivlərinin qiymətinin artması** ifadəsi də daxil olmuşdur. Belə ki, **səhm məzənnələrinin qiymətinin artması, faiz dərəcələrinin enib-qalxması, fond bazarlarındakı dəyişikliklər** müasir inflyasiyanın izahında önəmli rol oynayır. İnflyasiyaya qarşı mübarizədə ənənəvi olaraq faiz dərəcələrinin artırılması üsulundan istifadə olunduğu bir şəraitdə fond bazarlarında qiymətli kağızların məzənnəsinin aşağı düşməsinə səbəb olur. Qiymətli kağızlar bazarında vəziyyətin sabitləşdirilməsi üçün faiz dərəcələrinin aşağı salınması vacibdir ki, bu da öz növbəsində **yeni** inflyasiyanın baş verməsini əsaslandırır.

XX əsrin sonunda XXI əsrin əvvəllərində dünyada inflyasiyanın əks meylli prosesi olan deflyasiya baş vermişdir.

**Deflyasiya**, əmtəə və xidmətlərə olan qiymətlərin ümumi səviyyəsinin aşağı düşməsidir. Deflyasiyanı da iki istiqamətdə xarakterizə etmək olar:

- əgər deflyasiya elmi-texniki tərəqqi nəticəsində və ya idarəetmə nəticəsində baş verirsə bu yaxşı haldır;
- əgər deflyasiya məcmu tələbin azalması hesabına baş verirsə və ya əlavə istehsal güclərinin olması və pul təklifinin azalmasına görə baş verirsə, onda belə vəziyyət təhlükəli və qorxulu haldır.

1930-cu illərdəki Böyük depressiya zamanı qiymətlərin aşağı düşməsi halqavarı şəkildə tələbin azalmasına səbəb olmaqla pessimizmin dərinləşməsinə, maliyyə gərginliklərinin baş verməsi ilə hakimiyyət orqanlarının vəziyyətdən çıxış yolunun tapılmasındakı çətinliklərlə üzləşməsinə və iqtisadi faciə ilə rastlaşmasına səbəb oldu. Məsələn, ABŞ-da beş il ərzində (1929-1933) istehlak qiymətləri 25% və ÜDM – 30% azalmışdır.

İqtisadi fəaliyyət sahəsində qiymətlərin aşağı düşməsi (çox təsadüfi hallarda da ola bilər) əslində xərclərin artımı qanuna ziddir. Lakin onun baş verməsi real şəraitdə borcun ağırlığını artırmaqla, müflisləşməyə, kommersiya banklarının və qeyri-bank sektorunun dağılmasına gətirib çıxarır. Bu da yeni **inflyasiya dalğasının** baş verməsinə səbəb olur. Dünya neft bazarında 2004-2007-ci illərdəki və 2010-cu ildən başlayaraq qiymətlərin ümumi səviyyəsinin qalxması Mərkəzi bankların inflyasiya prosesinin qarşısının alınması üçün faiz dərəcələrinin artırılması məcburiyyətində qalmışlar. Ona görə də inflyasiya və ona qarşı **səmərəli mübarizə** həm hökumətin, həm də Mərkəzi Bankın əsas məqsədi hesab olunur.

İqtisadi ədəbiyyatlarda **dezinflyasiya** terminindən də istifadə olunur ki, bu da qiymətlərin orta sürətinin azaldılması deməkdir.

Qiymətlərin inflyasiya artımının istehsalda durğunluqla uzlaşdırılması vəziyyətinə **staqflyasiya** deyilir. Yaxud milli iqtisadiyyatda inflyasiyanın və işsizliyin paralel artması da staqflyasiya adlanır.

Qiymətlərin uzunmüddətli dövr ərzində, hətta ən aşağı artım sürəti ilə hərəkəti inflyasiyanın **meyilli** xarakter almasına səbəb olur. Ona görə də bir dəfə artmış qiymətləri saxlamaq çox çətindir. Qiymətlərin davamlı olaraq artmasını inflyasiyanın **ilkin səbəbi** kimi hesab etmək olar. Çünki inflyasiya qiymətin səviyyəsindən asılı olaraq hərəkət edir. Əgər bu hərəkət 2%-dən 2000% arasında tərəddüd edirsə, deməli, buna ilkin təkan verən səbəb qiymətdir.

Qiymətin qalxması pulun dəyərinin dəyişilməsinə gətirib çıxarır. Tutaq ki, sizin iki ay əvvəl 20 qəpiyə aldığınız dönərin qiyməti 1 manata çatıb. Elə düşünə bilərsiniz ki, bəlkə dönərin tərkibindəki ətin, tərəvəzin və ya çörəyin keyfiyyətində dəyişiklik baş verib. Alıb yeyəndən sonra aydın olur ki, dönər elə əvvəlki aylarda olduğu kimidir. Yəni onda elə bir ciddi dəyişiklik hiss olunmur. Bəs belə şəraitdə nə baş verir? Sən demə, yalnız sizin cibinizdəki pulun dönərə xərclədiyiniz hissəsinin dəyəri azalıb. İlk baxışdan elə güman etmək olar ki, inflyasiyanın baş verməsi dönərin qiyməti ilə deyil, pulun dəyərinin dəyişilməsi ilə əlaqədardır. Ancaq məsələ ilə daha dərindən tanış olduqda görürük ki, inflyasiya ilə rastlaşmağımız daha çox cibimizdəki pulun dəyərinin azalmasından əvvəl, dönər üçün istifadə olunan ətin, pomidorun, xiyarın, bibərin və s. qiyməti, həmçinin, istifadə olunan enerjinin qiyməti qalxıb. Bunu nəzərə alaraq istehlak qiymətləri indeksinə nəzər salmaq ehtiyacında oluruq və ya istehlak səbətinə daxil olan əmtəələrin qiymətinə diqqət yetirməli oluruq.

Qiymətlərin ümumi səviyyəsi iki mövqedən təhlil oluna bilər:

- ya qiymətlərin artması ilə əhalinin əldə etdiyi əmtəə və xidmətlərə görə daha çox pul xərclənməsi baxımından;

- ya da ki, qiymətlərin səviyyəsinin artması ilə pulun dəyərinin aşağı düşməsi ilə mövcud pul kəmiyyəti ilə daha az miqdarda əmtəə və xidmətlərin əldə olunması baxımından.

Hər şəraitdə aydın olur ki, əmtəə və xidmətlərin kəmiyyəti pulun xərclənən miqdarından asılıdır. Deməli, qiymətlərin ümumi səviyyəsinin artması pulun dəyərini azaldır.

Pulun dəyərini də digər əmtəələr kimi tələb və təklif müəyyən edir. Sadəcə onu qeyd etmək olar ki, hökumətin çoxlu miqdarda milli pul vahidinin dövriyyəyə buraxması ilə pulların dəyəri azalır. Əslində belə vəziyyət **pulun kəmiyyət nəzəriyyəsinə** uyğun gəlir. Bu nəzəriyyə ilə artıq dünyada baş vermiş hiperinflyasiyanın izahını vermək olar. Keçən əsrin 20-ci illərində Almaniyada, 80-cı illərdə Boliviyada, 90-cı illərdə MDB məkanında baş vermiş hiperinflyasiyanı pulun kəmiyyət nəzəriyyəsi ilə izah etmək olar. Bunun üçün əvvəlcə pulun təklifinə diqqət yetirək. Bəllidir ki, pulun təklifi Mərkəzi Bankın və kommersiya banklarının fəaliyyətindən asılı olaraq baş verir. Açıq bazardakı əməliyyatların aparılmasından asılı olaraq bank ehtiyatlarındakı pul vasitələrinin həcmində dəyişiklik baş verir. Bu dəyişiklik öz növbəsində bank sistemi tərəfindən hasil olunan pulun miqdarına təsir edir.

Pula olan tələbin müəyyənləşdirilməsində onun çoxamilli olduğuna diqqət yetirilməlidir. Pulun cari hesabda saxlanılması, səhm və istiqrazlara yönəldilməsi, faiz dərəcələrinin səviyyəsindəki dəyişiklik, qiymətlərin orta səviyyəsi və s. amillər pula olan tələbə təsir göstərir. Pulun tədavül funksiyasının yerinə yetirilməsini nəzərə alaraq, qeyd etməliyik ki, müxtəlif əmtəə və xidmətlərin alınması üçün istehlakçıların yanındakı pulun məbləği əhə-

miyyətlidir. Çünki, pulun məbləği istehlakçının alacağı malların qiymətindən asılıdır. Qiymətlər yüksəldikcə sövdələşmənin hər bir aktı üçün daha çox pul tələb olunacaq. Nəticədə istehlakçılar əllərində və cari hesablarında daha çox pul saxlamalı olacaqlar. Belə vəziyyətin davam etməsi, yəni qiymətlərin yüksəldilməsi pulun dəyərini aşağı salmaqla, ona olan tələbi yüksəldəcək. Beləliklə, pulun dəyərinin azalması ilə inflyasiyanın həm qısa, həm də uzunmüddətli dövrdə səviyyəsində dəyişiklik baş verir. Qısamüddətli dövrdə inflyasiyanı **faiz dərəcəsi** vasitəsilə yumşaltmaq mümkündürsə, lakin uzunmüddətli dövrdə isə bunu **qiymətlərin ümumi səviyyəsinin** pula olan tələbin təklifə bərabər olduğu halda həyata keçirmək olar. Qiymətlərin səviyyəsi pulun tələb və təklifinin tarazlıq səviyyəsindən yüksəkdirsə, onda istehlakçılara daha çox miqdarda pul lazım olacaqdır. **Pulun miqdarının həcminin artması** inflyasiyanın baş verməsinin **ikinci mühüm** səbəbidir.

Biz əvvəlki mövzuların izahında, xüsusən real ÜDM-in, əmanətlərin, investisiyaların, tsiklik proseslərin, işsizliyin, real faiz dərəcələrinin dəyişmələrini **pulun mövcudluğunu** nəzərə almamışdıq. Lakin inflyasiyanın izahında pul sistemindəki dəyişikliklərin rolunu nəzərə almadan keçinmək olmur. Əslində pulun makroiqtisadi dəyişənlərə olan təsiri mövcuddur. Lakin, onun iqtisadi dəyişənlərin nominal və real səviyyəsinə təsiri müxtəlifdir. İqtisadi dəyişənlərin iki qrupa bölünməsi **nominal dəyişənlər** – yəni pul vahidləri ilə ölçülən vahidlərin, **real dəyişənlər** – fiziki vahidlərlə ölçülən kəmiyyətlərin ayrı-ayrılıqda nəzərə alınması, qiymətin və pulun inflyasiyanın baş verməsindəki rolunu aydınlaşdırmaq olar. İqtisad elminə, dəyişənlərin iki qrupa bölünməsi **klassik dixotomiya** adı ilə daxil olmuşdur. Onun banisi görkəmli filosof-iqtisadçı Devid Yum hesab olunur. Sonralar bu ideyanı müasir iqtisadçılar daha da inkişaf etdirmişlər. Məsələn, Q.Menkyunun «Ekonomiksin prinsipləri» dərsliyində «klassik dixotomiya və pulların

neytrallığı» sualını qeyd etdiyi kimi, D.Yumun tədqiqatlarına əsaslanaraq izah edir (**dixotomiya** sözü iki qrupa bölünmək deməkdir, **klassik** ifadəsi isə ideyanın keçmiş mütəfəkkirlər tərəfindən irəli sürüldüyünü bildirir). Məsələnin mahiyyəti ondan ibarətdir ki, pul vahidi ilə ölçülən nominal dəyişənlərin kəmiyyətlərin artması, real dəyişən olan fiziki vahidlərilə ölçülən kəmiyyətlərə təsir göstərmir. Yəni monetar dəyişikliklər real dəyişikliklərə təsir göstərmir. Bu da **pulların neytrallığını** əks etdirir.

Tutaq ki, buğdanın **qiyməti** manatla ölçüldüyündən o nominal dəyişilənlərə, onun **kəmiyyəti** kiloqram, sentner, tonla ölçüldüyündən real dəyişənlərə aiddir. Burada gördüyümüz kimi, kəmiyyətin qiymət vasitəsilə təqdim olunması istər-istəməz pul ifadəsi ilə təsdiqlənir. Nominal kəmiyyət pul sisteminin dəyişilməsinin təsiri altındadırsa, lakin real dəyişilənlərin kəmiyyətinə onun heç bir təsiri yoxdur. Əgər MB pul təklifini ikiqat artırırsa, onda bütün qiymətlər iki dəfə artır, bunun müqabilində pulun dəyəri isə yarıbayarı azalır. Çünki, pullar dəyər ölçüsü kimi iqtisadi sövdələrin qiymətinin miqdar göstəricisidir.

Pul təklifinin artımı **pulun tədavül sürətinin** inflyasiyanın səviyyəsindəki baş verən dəyişikliklərin üçüncü mühüm səbəbi kimi çıxış edir. Pul tədavülü sürəti pulun kəmiyyət nəzəriyyəsinin istifadə yolu kimi özünü əks etdirir. Onun vasitəsilə hər yeni buraxılan və ya tədavülə daxil olan banknotun yeni istehsal olunmuş əmtəə və xidmətlərin ödənilməsi üçün orta hesabla ildə neçə dəfə istifadə olunduğunu müəyyənləşdirmək olar. **Pulun tədavül sürəti** dedikdə banknotların bir adamın pul kisəsindən digərinin pul kisəsinə **keçidin tezliyi** başa düşülür.

Başqa cür demiş olsaq, istehsal edilmiş ÜDM-in nominal dəyərini pulun miqdarına bölməklə pulun tədavül sürətini müəyyən etmək olar. Əgər qiymətin səviyyəsini (ÜDM-deflyatoru kimi) P adlandırsaq, istehsal edilmiş məhsulun miqdarını (real ÜDM kimi) Y adlandırsaq və pul

miqdarını M kimi nəzərə alsaq, onda pulun tədavül sürətini belə ifadə etmək olar:

$$V=(P\times Y)/M$$

V-pulun tədavül sürəti.

İndi sadə bir misalla bunu izah edək. Tutaq ki, «corat qutabı» istehsal edən kafenin illik istehsal həcmi 1000 ədəddir. Bir dəst corat qutabının dəsti 10 manatdır, iqtisadiyyatda pulun miqdarı isə 50 manata bərabərdir. Onda pulun tədavül sürəti:

$$V=(10\times 100)/50=20$$

Deməli, əhali il ərzində corat qutabına 1000 manat pul xərcləyir. Xərclənən 1000 manatlıq pul, əslində pulun ümumi miqdarının 50 manat olduğu halda hər banknot ildə 20 dəfə əldən-ələ keçmişdir.

Bu sadə misaldan sonra **pulun kəmiyyət nəzəriyyəsinin tənliyi adını almış** düsturu müəyyən etmək olar:

$$MV=PY$$

Tənlikdən görünür ki, pulun miqdarı çoxalanda iqtisadiyyatda qiymətin səviyyəsi və ya istehsal olunan məhsulun kəmiyyəti artmalıdır, yaxud da pulun tədavül sürəti azalmalıdır. Çox hallarda pulun tədavül sürəti nisbi sabitliyə malik olur. Lakin bank işində texniki yeniliklərin mövcudluğu qanunvericilikdə dəyişikliklərin edilməsi, qiymətli kağızlardan yığım vasitəsi kimi üstünlüyün verilməsi pulun tədavül sürətini yüksəldə bilər. Pulun tədavül sürətinin istehsal **artımının** üstələnməsi inflyasiya törədici səbəb kimi çıxış edir.

Ümumiyyətlə, inflyasiyanın səbəblərinin şərhində iki konsepsiyanı fərqləndirməyə əsas verir:

- monetar yanaşma, burada əsas diqqət qiymətlərin inflyasiya artımının səbəbləri kimi pul tədavülü ilə əlaqədardır;

- qeyri-monetar yanaşma, burada əsasən həm pul tədavülünə, həm də istehsalın özündə baş verən dəyişikliklərlə inflyasiyanın artımının əsaslandırılmasına diqqət

edilir. İnflyasiyaya dair bu yanaşmaların heç biri digərini inkar etmir. Nəzərə alınsa ki, hər bir milli iqtisadiyyatın konkret inkişaf mərhələsində bu və ya digər makroiqtisadi sabitləşdirmə tədbirlərinə üstünlüyün verilməsi inflyasiya səviyyəsinə təsir göstərən amil rolunu da oynayacaq.

## 11.2. İnflyasiyanın növləri və formaları

İnflyasiyanın mahiyyəti və başvermə səbəbləri ilə tanışlıq göstərdi ki, o çoxamilli proses olub, iqtisadiyyatda özünü müxtəlif növ və formalarda təqdim edir.

İnflyasiya təzahür formasına görə **açıq** və **gizli** ola bilər.

**Açıq inflyasiya** – qiymətlərin sərbəst hərəkəti nəticəsində aydın görünməklə iqtisadiyyatın dolayısı ilə tənzimlənməsi şəraitində baş verir. İnflyasiyanın belə təzahür forması baza iqtisadiyyatlı ölkələrə xasdır.

**Gizli inflyasiya** – iqtisadiyyatda ümumi inflyasiya meylində qiymətlərin inzibati nəzarəti həyata keçirilən zaman baş verir. Gizli inflyasiya sabit qiymət səviyyəsi ilə müşayiət oluna bilər. Lakin onun gedişatı əmtəə və xidmətlərin defisitinə, onların keyfiyyətinin aşağı düşməsinə və açıq-aşkar «qara» bazarın əmələ gəlməsinə gətirib çıxarır.

İnflyasiya sürətindən asılı olaraq, onun aşağıdakı növləri fərqləndirilir:

- **normal inflyasiya**, sürəti ildə 3-3,5%-ə qədər olarsa;

- **mülayim və görünən inflyasiya**, sürəti ildə 8-10% qədər olarsa, başqa sözlə, inflyasiyanın sürəti birrəqəmli olarsa, ən yaxşı halda inflyasyanın sürəti 4-9% olar.

- **sürətli inflyasiya**, orta illik sürəti 200% qədər olarsa, sürətli inflyasiya çərçivəsində bəzən orta illik sürəti 100% qədər olan **«yüksək inflyasiya»** terminindən də istifadə olunur.

- **hiperinflyasiya**, orta illik sürəti 200%-dən yuxarı olarsa, sürətli inflyasiyadan fərqli olaraq hiperinflyasiyaya

daha çox diqqət yetirilmişdir. Bu istiqamətdə amerikalı iqtisadçı F.Keyqenin mövqeyini xüsusi qeyd etmək lazımdır. Onun yanaşması hiperinflyasiyaya **Keyqen tərifi** özünəməxsus yer almışdır. O, 1956-cı ildə hiperinflyasiyanı qiymət artımının 50%-ə çatdığı **aydan** başlayan inflyasiya kimi müəyyənləşdirmişdir. Əgər aylıq inflyasiya sürəti 50% təşkil edirsə, o zaman mürəkkəb faizləri istifadə edərək müəyyən etmək olar ki, il ərzində qiymətlər 1300%-dən çox artacaq.

**Məkan** xarakterinə və tədqiqat obyektinə görə **milli, regional** və dünya inflyasiyası fərqləndirilir.

**İnflyasiya impulslarının** xarakterinə görə **idxal edilən** və **ixrac edilən** inflyasiyalar da fərqləndirilir. Ölkədə **sərt** valyuta kursu saxlanıldığı şəraitdə idxal məhsullarının istənilən qiymət artımı ölkəyə inflyasiyaya uğramış şəkildə daxil olacaq. İnflyasiyanı ixrac etmək valyutası ehtiyat valyutası kimi istifadə olunan digər ölkələrin idxalında yüksək yer tutan ölkələr üçün xarakterikdir.

İnflyasiya proseslərinin inkişafında bazar subyektlərinin **gözləmələri** mühüm rol oynamaqla gözlənilmə meyarına görə o **gözlənilən** və **gözlənilməyən** hissələrə ayrılır.

Ümumiyyətlə, insan fəaliyyətinin bütün sahələrində gözləmələr keçmişi, hazırkı vəziyyəti və gələcəkdəki məqsəd və vəzifələri tutuşdurmaqla müəyyən təsəvvürlərin əldə olunmasına imkan yaradır. **İnflyasiya gözləmələri-qiymətlərin səviyyəsi və ya inflyasiyanın gələcək sürəti barədə təsəvvürlərdir.** Bu baxımdan inflyasiya gözləmələri bölünür:

- **adaptiv və ya uyğunlaşmış** inflyasiya gözləmələri;
- **rasional** inflyasiya gözləmələri.

Adaptiv inflyasiya gözləmələrinə bəzən **keçmişə meyilli olan** gözləmələr də deyilir. Bu onunla əlaqələndirilir ki, bazar subyektləri inflyasiya sürətini yalnız keçmiş qiymət səviyyəsini nəzərə almaqla və yalnız yeni iqtisadi məlumatların təsiri altında tədricən öz gözləmələrini dəyişirlər. Adaptiv inflyasiya gözləmələri bu düsturla ifadə olunur:

$$\Pi^e_{t+1}=\Pi^e_t+M(\Pi_t+\Pi_t^e)$$

$\Pi^e_t$ – cari dövrdə gözlənilən (məsələn, 2011-ci ildə) inflyasiya sürətidir;

$\Pi_t$ – faktiki olaraq törənən (məsələn, 2011-ci ldə) inflyasiya sürətidir;

$\Pi^e_{t+1}$ – gələcək dövr üçün gözlənilən (məsələn, 2012-ci il) inflyasiya sürətidir;

M – adaptasiya əmsalıdır (qiymət gözləmələrinin düzəliş dərəcəsi də adlanır). Bu əmsalın kəmiyyəti $0<M<1$ arasında dəyişir.

Adaptiv gözləmələr modelində iqtisadi agentlər öz proqnozlarının səhvini mötərizədəki ifadə ilə müəyyənləşdirirlər. Əgər faktiki əmələ gələn inflyasiya sürəti cari müddətdə gözləniləndən yüksək olarsa, onda səhv proqnoz nəzərə alınacaq və növbəti müddətdə bazar subyektləri öz inflyasiya gözləmələrini onların artırılması istiqamətində düzəldəcəklər və əksinə. Məsələn, bazar subyekti gözləyir ki, 2011-ci ildə inflyasıyanın sürəti 5% olacaq. Adaptasiya əmsalı 0,5-ə bərabərdir. 2011-ci ildə faktiki inflyasiyanın sürəti 10%-ə bərabər olmuşdur. Belə şəraitdə səhv proqnoz 5%-ə (10%-5%) bərabərdir. Onda bazar subyekti də 2011-ci ildə inflyasiya sürətinin: 5+0,5 (10-5) =7,5% olmasını gözləyəcək (bax düstura).

Rasional inflyasiya gözləmələri çox vaxt **gələcəyə meyilli** gözləmələr də adlandırılır. Bu o deməkdir ki, bazar subyektləri öz proqnozlarında səhv edə bilərlər, lakin ən başlıcası odur ki, onlar **sistemli səhvlər** etmirlər. Rasional inflyasiya gözləmələrin düsturu belədir:

$$\Pi^e_{t+1} = \Pi^e_{t+1}(x_i),\ i=1,\ldots n$$

Buradan görünür ki, fərdlər qiymətlər haqqında cari zaman üçün mümkün məlumatları istifadə edirlər. Başqa sözlə, təkcə inflyasiyanın keçmiş sürətinə dair məlumatla kifayətlənməyib, həmçinin, gələcək dövr ərzində inflyasiyanın sürətinə təsir edə biləcək bütün amillərin mümkün

təsirini proqnozlaşdırırlar. Düsturdakı ($x_i$) ifadəsi bütün amillərin funksiyasını əks etdirir. Burada nəzərdə tutulur:

- pul emissiyasının miqyası;
- mübadilə məzənnəsi;
- faiz dərəcəsi;
- enerjidaşıyıcılarının qiyməti;
- Vergi Məcəlləsindəki dəyişikliklər;
- Mərkəzi Bankın pul siysətinə dair məqsədləri və s.

İnflyasiya gözləmələrinin formasından, orada bazar subyektlərinin mümkün proqnozlarının aparılmasından asılı olmayaraq qiymətlərin gələcək artım sürətlərinə uyğunlaşdırılan **proqnozlaşdırılan** və **proqnozlaşdırılmayan** inflyasiya fərqləndirilir.

**Proqnozlaşdırılan və ya gözlənilən inflyasiya** – müəyyən vaxt müddətindən sonra gözlənilən inflyasiya tempidir. Tutaq ki, enerjidaşıyıcıların qiymətinin artması müəyyən müddətdən sonra **spiralvari** şəkildə inflyasiyanın sürətinin artmasına səbəb olur.

**Proqnozlaşdırılmayan və ya qəfil inflyasiya** - faktiki inflyasiya sürətinin gözlənilən inflyasiyanı ötüb keçməsidir. Məsələn, yaz və yay aylarında təbii fəlakət nəticəsində əkinçilik təsərrüfatına dəyən ziyan nəticəsində heyvandarlıq məhsullarının, meyvə-tərəvəzin, konserv məmulatlarının qiymətinin qəfil qalxmasına səbəb olur.

Biz yığcam olsa da müxtəlif meyarlar baxımından inflyasiyanın növləri barəsində danışdıq və onların fərqləndirilməsinə cəhd göstərdik. Həmçinin, gördük ki, inflyasiya təkcə pul (monetar) amili ilə deyil, eyni zamanda qeyri-monetar, yəni qeyri-pul xarakterli amillərdən, xüsusən tariflərin artması, inflyasiya gözləmələri, pula tələbin dəyişməsi inflyasiyaya təsir göstərir. Ən başlıcası odur ki, makroiqtisadi səviyyədə **məcmu tələb və məcmu təklifin qeyri-müvazinətli vəziyyəti inflyasiyanın baş verməsinin əsası kimi çıxış edir.** Bu səbəbdən asılı olaraq inflyasiyanın formaları meydana gəlmişdir:

- tələb inflyasiyası;
- xərclər inflyasiyası;
- struktur inflyasiyası.

**Tələb inflyasiyası** – mövcud iqtisadiyyatda məcmu tələbin təklif olunan əmtəə və xidmətlərin üstələdiyi şəraitdə meydana gəlir. Yəni qiymətlərin səviyyəsinin sabit və davamlı olaraq artması tələbin artması ilə nəticələnir. Belə şəraitdə birdəfəlik qiymət artımından söhbət getmir. Bizə inflyasiyanın tərifindən aydındır ki, o insanların iqtisadi fəaliyyətində müşahidə olunan davamlı prosesdir.

Yada salaq ki, Keyns məşğulluğun təmin olunması ilə əlaqədar apardığı təhlildə məcmu tələbin stimullaşdırılması ilə onun sabitləşdirilməsini həyata keçirmək mümkün idi. Çünki işsizliyin normal və ya təbii səviyyəyə çatana qədər, yəni qısamüddətli dövrdə qiymətlər, məhsul istehsalının müvafiq artması ilə qalxmayacaqdır. Lakin, müəyyən çatışmazlığın baş verməsi ilə, xüsusən büdcə kəsirinin artması ilə qiymətlərin artımı müşahidə olunacaqdır.

Tələb inflyasiyası, bir qayda olaraq, dövlət büdcəsində kəsirlərin gəlirləri ötüb keçməsi ilə bağlı yeridilən makroiqtisadi sabitləşdirmə siyasəti zamanı baş verir. Daha doğrusu, büdcə kəsirinin maliyyələşdirilməsi mənbəyi yalnız «çap dəzgahının» vasitəsilə həyata keçirildiyi zaman tələb inflyasiyası özünü büruzə verir. Bu da bəllidir ki, heç bir hökumət düşünülmüş şəkildə pul kütləsinin səviyyəsinin artmasının sürətləndirilməsini istəmir. Lakin mövcud iqtisadi proseslərin həlli, məsələn, yüksək məşğulluq səviyyəsini saxlamaq, vergi dərəcələrini aşağı salmaq şəraitində tələb inflyasiyası baş verir. Bunu qrafik təsvirdə aydın görmək olar.




**Şəkil 1. Tələb inflyasiyası**

Həqiqi inflyasiya şəraiti birdən-birə baş vermir. AD əyrisinin $AD_1$ vəziyyətinə sağ tərəfli meyil etməsi qiymətlərin səviyyəsinin $P_1$–qədər yüksəlməsinə səbəb olur. Bu yerdəyişmənin nəticəsində ÜDM-in potensial səviyyəsi və ya $Y_*$ nöqtəsinin $Y_1$ nöqtəsinə meyil etməsi E müvazinət nöqtəsinin $E_1$ nöqtəsinə qalxmasını tələb edir. Həmçinin, $Y_1$ nöqtəsi göstərir ki, məşğulluq səviyyəsi öz təbii səviyyəsindən yüksəkdə durur. Bunun əvəzini isə inflyasiya ilə ödəmək mümkün olur.

**Xərclər inflyasiyası.** Buna bəzən təklif inflyasiyası da deyilir. Xərclər inflyasiyası məcmu təklifin azalmasına səbəb olan qiymət səviyyəsinin sabit və davamlı artması deməkdir. Xərclər inflyasiyası çox vaxt istehsal amillərindən istifadəyə görə ödənişlərin üstün həyata keçirilməsi ilə əlaqədar baş verir. Məsələn, əməkhaqqının **amillərin məhsuldarlığına** nisbətən üstün artımı. Bu o vaxt baş verir ki, bazarda həmkarlar ittifaqı hakim mövqeyə malik olmaqla əməkhaqqının artımına təsir göstərir. Həmçinin, firmaların

bazarda hakim mövqedə olması ilə qiymətin artımına təsir göstərirlər. İstehsal xərclərinin artımı hesabına baş verən inflyasiyanın **tiplərini** fərqləndirmək lazımdır:

- əməkhaqqının artımı hesabına baş verən inflyasiya. Bu o vaxt baş verir ki, həmkarlar ittifaqı sahibkarları əməkhaqqını əmək məhsuldarlığının artımına nisbətən yüksəldilməsinə məcbur edirlər;

- mənfəətin artırılması naminə baş verən inflyasiya. Bu o vaxt meydana gəlir ki, firmalar mənfəəti, məhsulların qiymətinin artırılması hesabına təmin edirlər. Halbuki istehsalın səmərəliliyinin təmini hesabına istehsal xərclərinin azaldılması da mümkündür. Xərc inflyasiyası şəraitində sahibkarlıq məhsulunun qiymətinin artırılmasına üstünlük verilir;.

- «əmtəəlik» inflyasiya. Bu inflyasiya xammal və materialların qiymətinin birdən-birə bahalaşması zamanı baş verir. Bəzən inflyasiyanın bu tipinə təklif şoklarının törətdiyi inflyasiya da deyilir. Tutaq ki, neftin qiymətinin kəskin qalxması, motor, sürtkü yağlarının da qiymətlərinin də bahalaşmasına səbəb olur.

İndi isə xərclər inflyasiyasının qrafik təsvirinə diqqət yetirək. Yuxarıda qeyd olunan inflyasiya tiplərini nəzərə almaqla xərclər inflyasiyası spiralvari xarakterdə olduğu aşkarlanır. Nəticədə AS əyrisi $AS_1$ əyrisinə doğru sola meyil edir. $P_0$ qiymət səviyyəsi $P_1$ səviyyəsinə qalxır. Bu onunla əlaqədardır ki, biznes gəlirlərinin aşağı düşməməsi üçün sahibkarlar öz məhsullarının qiymətini artırmağa məcburdurlar. Nəticədə potensial $Y_*$ (ÜDM) qarşı məhsul istehsalı $Y_1$ səviyyəsinə qədər azalır, həmçinin, qiymətlərin artması, faktiki işsizliyin öz təbii səviyyəsindən yuxarı qalxması baş verir.

Ümumiyyətlə, tələb inflyasiyası və xərclər inflyasiyası bir-biri ilə qarşılıqlı əlaqədə olub **vaxtaşırı** bir-birini gücləndirir.




**Şəkil 2. Xərclər inflyasiyası**

**Struktur inflyasiyası.** Bu tipli inflyasiya tələb və xərclər inflyasiyası nəticəsində baş verir. Struktur inflyasiyası o vaxt baş verir ki, qiymətlərin artımı müxtəlif sahələrdə tələbin qeyri-bərabər artımı və ya xərclərin qeyri-bərabər artımı zamanında müşahidə olunur. Məsələn, armatura olan tələbin artması, poladəritmə zavodunda istehsal xərclərinin yüksəlməsi. Belə şəraitdə tələb və ya xərclər inflyasiyasının hansının ilkin, hansınınsa törəmə olduğunu müəyyən etmək çətindir. Ancaq məlum həqiqət odur ki, dövlət xərclərinin artımı tələb inflyasiyasını, istehsal xərclərinin artımı isə xərclər inflyasiyasını əks etdirir. Lakin inflyasiyanın bu iki forması arasında mühüm bir fərq mövcuddur. Bu da ondan ibarətdir ki, məcmu tələbin məcmu təklifdən üstün olması hesabına meydana gələn inflyasiya o vaxta qədər davam edir ki, məcmu tələb ölkənin **istehsal imkanlarını üstələyir.** Lakin istehsal xərcləri hesabına meydana gələn inflyasiya isə **məhdud xarakterlidir.** Çünki o təklifin ixtisarına səbəb olduğundan öz növbəsində xərc tərəfindən qiymətə olan təsiri saxlayacaqdır.

## 11.3. İnflyasiyanın ölçülməsi mexanizmi. İnflyasiya məsrəfləri

İnflyasiya səviyyəsini, başvermə səbəblərini, növ, forma və tiplərini aydınlaşdırdıqdan sonra onun ölçülməsi üsullarını da müəyyənləşdirməyə ehtiyac duyulur. Bir halda ki, inflyasiya qiymətlərin ümumi səviyyəsinin uzunmüddətli artımını xarakterizə edir, onda **qiymətlərin səviyyəsi** altında nemət və ya nemət dəstini (səbətini) pulla qiymətləndirmək olar. Qiymətlərin səviyyəsi vaxt keçdikcə dəyişildiyindən inflyasiyanın səviyyəsinin ölçülməsi üçün **qiymətlər indeksindən** istifadə olunur. Qiymətlər indeksinin düsturu belədir:

$$İ_{nd}=P_t / P_b$$

Burada: $İ_{nd}$ – konkret məmulatın qiymətlər indeeksini; $P_t$ - həmin məmulatların t-ci ildəki qiymətini; $P_b$ - isə məmulatın bazis illərdəki qiymətini xarakterizə edir.

Ümumiyyətlə, inflyasiyanın səviyyəsini ölçmək üçün istifadə edilir:

- **topdansatış qiymətlərin indeksindən və ya istehlakçıların qiymətlərinin indeksindən**. Topdansatış qiymətlər indeksi sahəsində qiymətlər səviyyəsindəki dəyişiklikləri müəyyənləşdirməyə imkan verir. İstehlakçı qiymətləri indeksi isə ümumiyyətlə topdansatış bazarında inflyasiyanın miqyasının dəqiq müəyyənləşdirilməsi üçün istifadə edilir.

- **istehlak qiymətlərinin indeksindən** (İQİ). Bu indeks hər hansı istehlakçının orta hesabla aldığı əmtəə və xidmətlər «səbətinin» qiymətlər səviyyəsinin dəyişilməsini əks etdirir. «İstehlak səbəti»-nin tərkibi bazis ili çərçivəsində nəzərdə tutulur və orada nə qədər nemət daxil edilərsə, inflyasiyanın səviyyəsi bir o qədər dəqiq aşkarlanar. İQİ-ni artıq bizə tanış olan Laspeyras düsturu ilə müəyyən etmək olar:

İQİ= İstehlak səbətinin cari dəyəri / həmin səbətin bazis dəyəri

İQİ pərakəndəsatış qiymətlərini əks etdirdiyndən o birbaşa topdansatış qiymətlər indeksi ilə sıx əlaqədədir. Çünki, topdansatış qiymətlərin artımı pərakəndəsatış qiymətlərnin də artımına səbəb olur.

- **ÜDM-in deflyatorundan.** Artıq bizə tanış olan bu statistik göstərici cari ilin bazar qiymətlərinin bazis ili ilə müqayisədə artım sürətini əks etdirir. Bu göstərici əhalinin rifah səviyyəsinin aşağı düşməsini əks etdirməsə də, əmtəə və xidmətlərin qiymətlərinin ümumi səviyyəsinin müəyyənləşdirilməsinə imkan verir. ÜDM-in deflyatoru Paaşe düsturu ilə müəyyənləşdirilir:

ÜDM deflyatoru=Nominal ÜDM/Real ÜDM

İnflyasiya səviyyəsinin müəyyənləşdirilməsində indekslərlə yanaşı **inflyasiyanın sürəti (π)** göstəricisindəndən istifadə olunur. Bu göstərici **nominal** və **real** faiz dərəcələri arasındakı nisbəti əks etdirməklə əmanət və investisiyaların indiki və gələcəkdəki iqtisadiyyatda oynadığı rol barədə fikir irəli sürməyə imkan verir. Bu nisbət Fişer tənliyi adlanır:

$$r = i - \pi$$

Burada: π - inflyasiya sürətini;
i – faiz dərəcəsinin nominal qiymətini
r – faiz dərəcəsinin real qiymətini əks etdirir.

Fişer səmərəsi kimi nəzərə alınan pulun miqdarı ilə və inflyasiyanın faiz dərəcəsi arasında əlaqənin üzə çıxarılması vacibdir. **Nominal faiz dərəcəsi** bilavasitə bank tərəfindən müəyyən edilir. **Real faiz dərəcəsi** isə inflyasiyanı nəzərə almaqla zaman keçdikcə əmanətlərin alıcılıq qabiliyyətinin dəyişilməsini göstərir. Bir qayda olaraq **real faiz dərəcəsi** nominal faiz dərəcəsinin və inflyasiya sürətinin fərqinə bərabərdir. Yuxarıdakı tənliyin açıq şərhi:

Real faiz dərəcəsi = Nominl faiz dərəcəsi – inflyasiyanın sürəti

Bunu sadə misalla izah edək. Tutaq ki, siz pullarınızı nominal faiz dərəcəsini illik 13% səviyyəsində elan edən

banka qoymuşsunuz. Həmin ildə inflyasiya sürəti 8% təşkil edir. Onda əmanətlərinizin dəyəri ildə 5% artacaq.

Nominal faiz dərəcəsi inflyasiya sürətinin bütün hərəkətlərini təkrar edir. İlk dəfə İrvinq Fişer (1867-1947) bu dəyişənlər arasındakı əlaqəni təhlil etmişdir. Ona görə də onun şərəfinə adalandırılan **Fişer səmərəsi** nominal faiz dərəcəsinin **zamanla** dəyişmələrinin başa düşülməsinin açarı hesab olunur.

Makroiqtisadi nəzəriyyədə «70-lər qaydası» kimi tanınan köhnə qaydadan istifadə olunur. Bu qayda ölkədə qiymət səviyyəsinin neçə ildən sonra **ikiqat** artacağını müəyyən etməyə imkan yaradır. İllik inflyasiya sürətini 70 rəqəminə bölməklə neçə ildən sonra iki dəfə artacağını görmək olar. Məsələn, inflyasiyanın illik sürəti 7%-ə bərabərdisə, onda əmtəələrə olan qiymət (70/7) 10 ildən sonra ikiqat artacaq. Əgər 5% olarsa, qiymətlərin ikiqat artımı 14 ildən sonra (70/5) baş verəcək. Sual oluna bilər bəs nə üçün 100 deyil, məhz 70 rəqəmi götürülür. İş burasındadır ki, hesab mürəkkəb faizlərlə aparılır və qiymətlərin 100% artımının neçə ildən sonra baş verəcəyini müəyyən etmək imkanını asanlaşdıracaq. Bu qaydadan ÜDM-in real həcminin, əhalinin sayının, gəlirlərin, əmanətlərin artımının müəyyən olunmasında istfadə oluna bilər. Bunun üçün 70 rəqəmini artım sürətinin kəmiyyətinə bölmək lazımdır. Artım sürəti və həndəsi şəkildə effekti kimi görünən 70-lər qaydası göstərir ki, hətta cüzi artım sürəti zaman keçdikcə təsəvvür olunmaz nəticələrə gətirib çıxardır. Ona görə də dahi Albert Eynşteyn həndəsi silsiləni bütün zamanların ən mühüm riyazi kəşfi adlandırmışdır.

İnflyasiyanın başvermə səbəblərini, növ və formalarını, eləcə də ölçülməsi üsullarını müəyyənləşdirdikdən sonra özümüzə belə bir sualla müraciət edə bilərik. Əgər inflyasiya ilə əlaqədar iqtisadi proseslər bu dərəcədə aydındırsa, onda niyə bir sıra ölkələrdə sürətli və hiperinflyasiya baş verir? Yəni MB-lər niyə bu qədər çox pul çap

edirlər ki, onların dəyəri birdən-birə sürətlə aşağı düşür? Birincisi, bu onunla əlaqədardır ki, həmin ölkələrin hökumətləri öz xərclərinin ödənilməsinə görə pul çap edirlər. Bu da müharibənin aparılması, daxili münasibətlərdən yaxa qurtarmaq üçün əlavə polis, mühafizədə çalışanların sayının artırılması, yolların salınması, irixərcli, dövlət əhəmiyyətli layihələrin reallaşdırılması, bərpa və sağlamlıq mərkəzlərinin yaradılması, aztəminatlı əhaliyə müavinətlərin verilməsi və s. Belə xərclərin bir qismi vergitutma yolu ilə dövlət istiqrazlarının buraxılması ilə ödənilsə də, lakin zəruri miqdarda pulun buraxılmasına da ehtiyac duyulur. Deməli, dövlət öz gəlirlərini əlavə pul çap edilməsi yolu ilə artırılması **inflyasiya vergisi** formasını alır. İnflyasiya vergisi digər vergi növlərindən onunla fərqlənir ki, o açıq şəkildə deyil, gizli formada üzə çıxır. Yəni hökumət artıq miqdarda pul çap etdirməyə başladığı zamandan qiymətlərin səviyyəsi artır, əhalinin pullarının dəyəri isə aşağı düşür. Nəticədə pulu olan hər bir kəsə **inflyasiya vergisi qoyulur.**

İkincisi, inflyasiya müxtəlif əhali qruplarının malik olduğu gəlir və sərvətinə eyni səviyyədə təsir etmədiyindən pulların dəyəri hamı üçün eyni dərəcədə aşağı düşməsi müşahidə olunur. İnflyasiyadan daha çox səhm sahibləri əziyyət çəkirlər. Nağd pul sahibləri onu müxtəlif, lakin o dərəcədə lazım olmayan əlavə 3-4 soyuducuya, 4-5 televizora, əlavə istehlak şeylərinə dəyişə bilirlər. İri pul sahibləri depozit formasında sadaladıqları vəsaitlərin dəyərini itirmiş olurlar. Belə itki də inflyasiya vergisi kimi görünür. Məsələn, sizin ehtiyatda nağd 10 000 manat məbləğində pulunuz var, illik inflyasiya sürəti 13%-dir. Bu o deməkdir ki, sizin malik olduğunuz ehtiyatdan 13% məbləğində, yəni 1300 manat həcmində itirirsiniz. Əgər siz, öz ehtiyatınızı əmanət şəklində faiz gətirən depozitə saxlayırsınızsa, inflyasiya zamanı itirəcəyiniz **nisbətən** az miqdarda olacaq. Əgər illik depozitlə siz 8% alırsızsa, onda inflyasiya vergisi şəklində olan itkidən tam xilas olmasanız da, lakin onun

səviyyəsini azalda biləcəksiniz. Yəni depozit dərəcəsindən – inflyasiyanın sürət dərəcəsi çıxılır. Bizim misalda 8% - 13%= - 5%. Bu o deməkdir ki, siz inflyasiya vergisi kimi 500 manat ödəmisiz.

Qeyd olunan inflyasiya vergisi, inflyasiya məsrəfləri kimi çıxış edir. İnflyasiya məsrəflərinin mövcud olması ona daha çox diqqət yetirməyi zəruri edir. Bu da onunla əlaqədardır ki, inflyasiya vergisindən yaxa qurtarmağa çalışır. Bu mümkündürmü? Zahirən bu suala müsbət cavab verməк olardı. Xüsusən o şəraitdə bunu demək olar ki, ətalətli inflyasiya getmiş olsun. Yəni illik 2% həcmində. Hətta belə şəraitdə də inflyasiya məsrəfləri müşahidə olunmasa da, lakin onun baş verdiyi dövr ərzində **real dəyişənlərin kəmiyyəti** müxtəlif olur. Çünki, inflyasiya dövrü ərzində bütün qiymətlər və əməkhaqqı dərəcələri müxtəlif istiqamətdə dəyişilir. Bu da **nisbi qiymətlərin** dəyişilməsinə səbəb olur. Nisbi qiymətlərin nəticəsində inflyasiyanın iki effekti üzə çıxır:

- əhalinin müxtəlif qrupları arasında gəlir və sərvətin **yenidən bölgüsü;**

- müxtəlif nemətlərin buraxılışının həcminin və nisbi qiymətlərin **pozulması.**

İnflyasiya məsrəfləri o zaman baş verir ki, əllərdə olan pulun, eləcə də banklarda yatırılan pulların real dəyərləri aşağı düşür. Bunun nəticəsində əllərdə saxlamaqdansa, onu zahirən yüksək % dərəcəli gəlir kimi görünən bankın hesabında yerləşdirməyə cəhd göstərilir. Bunun nəticəsində əllərdə olan pulların miqdarının azalması baş verir. Pulu olan şəxslərin banklara tez-tez baş çəkməsi, müxtəlif faiz dərəcələri ilə pulların yerləşdirilməsi, yerdəyişməsi onların əlavə məsrəflərin sərfi ilə, xüsusən vaxtın itirilməsinə, əlavə narahatçılığın əmələ gəlməsinə səbəb olur. Bu baxımdan pulların miqdarının azalması ilə bağlı olan xərclər **«əyilmiş başmaqlar» məsrəfləri** adlandırılır. Ona görə ki, banklara müntəzəm baş çəkənlər ayaqqabılarının tez

sıradan çıxmasına və ya dabanın getməsinə gətirib çıxarır. Belə ifadə sadəcə simvolik xarakter daşıyır. Əslində belə vəziyyət hiperinflyasiyaya və ən azı sürətli inflyasiyaya məruz qalan ölkələrdə aydın müşahidə olunur.

Digər inflyasiya məsrəfi kimi **«menyu» məsrəfi** adlanır. Restoran fəaliyyətindən irəli gələn bu termin onunla əlaqədardır ki, hər hansı bir firma öz məhsullarının qiymətlərini hər gün, hər həftə dəyişmir. İqtisadiyyatında normal inflyasiya müşahidə olunan ölkələrdə firmalar qiymətlərini adətən bir ildənbir dəyişirlər. Çünki, yeni menyunun hazırlanması, çap edilməsi əlavə xərclər tələb edir. İstər onun yayılması, reklamlaşdırılması, istehlakçıların cəlb olunması əlavə xərclər tələb edir. Lakin, inflyasiyanın son həddinə qədər gedən vaxt ərzində, xüsusən hiperinflyasiya zamanı menyunun bir neçə dəfə dəyişilməsi zəruriləşir ki, bu da əlavə məsrəflər hesabına başa gəlir.

**Nisbi qiymətlərin dəyişilməsi** ilə bağlı inflyasiya məsrəfləri də mövcuddur. Belə ki, bazar iqtisadiyyatında məhdud resursların bölüşdürülməsi nisbi qiymətlərə uyğun gəlir. Belə vəziyyət həm firmaların, həm də istehlakçıların davranışına təsir göstərir. Çünki, bu və ya digər əmtəə və xidmətlərin təklif edilməsi, eləcə də onun əldə olunması, onların digər məhsullarının qiymət və keyfiyyəti **nisbi** şəkildə müqayisə edilir. Buradakı **seçim imkanları** və qəbul etdikləri qərarlar nisbi qiymətlərin dəyişilməsinə səbəb olur. Belə şəraitdə bazar iqtisadiyyatı resursların daha səmərəli bölüşdürülməsində öz imkanlarını tam nümayiş etdirə bilmir. Ona görə də iqtisadi sövdələşmələrin ölçüsünü müəyyən edən pul birdən-birə dəyərini itirdikdə istər-istəməz MB inflyasiya şəraitində onun dəyər ölçüsünün real qiymətini dəyişir. Real qiymətlərin dəyişilməsi isə inflyasiyanın baş verməsinə təkan verir. Belə olan şəraitdə inflyasiyanın sosial iqtisadi nəticələrini aydınlaşdırmaqla antiinflyasiya siyasətinin mahiyyətini də aydınlaşdırmalıyıq.

## 11.4. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti

Mövzunun şərhi zamanı qısa da olsa biz inflyasiyanın sosial-iqtisadi nəticələri barədə bəzi mülahizələr söyləmişik. Xüsusən əhalinin pullarının dəyərinin azalması, onların istər-istəməz inflyasiya vergisinə cəlb olunması və s. barəsində qeydlər olmuşdur. Ümumiyyətlə qeyd etməliyik ki, müasir iqtisadiyyatda sosial-iqtisadi, siyasi əlaqələrin makroiqtisadi təhlilində inflyasiyaya xüsusi diqqət yetirilir. Bu onunla əlaqədardır ki, istər bütövlükdə əhalinin, istər istehsalçıların, istərsə də hakimiyyət orqanlarının davranışı, bazar iqtisadiyyatının tərəfdaşı olan inflyasiyanın gedişatından, onun artım sürətinin səviyyəsindən asılıdır.

Nəzərə alsaq ki, nominal gəlirlərin artımı ilə qiymətlərin artımı il ərzində hər bir kəsin real gəlirlərinin səviyyəsinə təsir göstərdiyindən, onun sosial-iqtisadi nəticələri müxtəlif olacaqdır. Tutaq ki, mövcud il ərzində nominal gəlirlər 10% , qiymətlərin səviyyəsi 5% artıb, onda həmin dövrdə real gəlirlər orta hesabla 5% artacaq. Əgər əks vəziyyət olsa, yəni nominal gəlirlər 5%, qiymətlər 10% artarsa, onda real gəlirlər 5% azalacaq. Buradan görünür ki, inflyasiya hamının iqtisadi və sosial vəziyyətinə təsir göstərir. Bir fərqli cəhət ondan ibarətdir ki, burada cəmiyyətin müəyyən qismi çox itirir, digərləri vəziyyətdən çıxmaq üçün əlavə məsrəflər sərf etməklə uyğun imkan tapır. Bəziləri isə bu vəziyyətdən udur. Məsələn, əgər büdcə vəsaitləri ilə təqaüd və müavinətlərlə yaşayanlar, əmanət sahibləri, kredit verənlər inflyasiyanın nəticələrindən əziyyət çəkirlərsə, lakin, borclar belə şəraitdə uduş şansında olurlar. Çünki, pulların «ucuzlaşması» onların ödənilməsi imkanlarını genişləndirir. Həmçinin ipoteka krediti alan mənzil sahibləri də inflyasiyadan udma imkanlarına malikdirlər. ABŞ-da 2007-ci ildəki maliyyə böhranın başvermə səbəblərindən biri ipoteka kreditinin şişirdilmiş məbləğə gəlib çatması olmuşdur.

Ümumiyyətlə, ən yığcam şəkildə qeyd etmək olar ki, inflyasiyanın səviyyəsi təsir göstərir:

- əhalinin cari real gəlirlərinin azalmasına və rifah halının aşağı düşməsinə;
- əmanətə olan meylin azalmasına. Çünki, sonraya saxlanılan əmtəələrin alınmasının daha da bahalaşacağından onun cari dövrdə alınmasına üstünlüyün verilməsinə;
- faiz dərəcələrinin yüksəlməsinə;
- investisiya qərarlarının qəbulu zamanı inflyasiya qeyri-müəyyənliyi güclənir. İqtisadiyyatın real sektoruna pul qoymaq əlverişli olmur. Alqı-satqı meylinin yüksəlməsinə;
- real ÜDM-in ixtisarına, uzunmüddətli dövrdə ölkənin milli sərvətinin dağıdılmasına;
- resursların qeyri-səmərəli yerləşdirilməsinə, yəni likvidliyə yönəldiləcək vəsaitlər investisiya kimi deyil, inflyasiyadan daha çox mühafizə olunan vəsaitlərin alınmasına, ofislərin avadanlıqlarının dəyişilməsinə olan meylin güclənməsinə;
- iqtisadi fəaliyyətin səmərəliliyinin aşağı düşməsinə, qiymət artımı ilə istehsal olunan məhsulların keyfiyyət və rəqabətqabiliyyətliliyi deyil, onun miqyasının gəlir gətirmək səviyyəsində saxlanılmasına;
- iqtisadi və sosial gərginliyin artmasına, hakimiyyət orqanlarına olan inamın azalmasına;
- birmənalı şəkildə pulun alıcılıq qabiliyyətinin aşağı düşməsinə;
- əməkhaqqı ilə qiymətlərin artması arasındakı spiralvari əlaqənin xoşagəlməz sonluqla, hiper vəziyyətinə çatdırılmasına;
- ictimai, siyasi, iqtisadi, sosial vəziyyətin kəskinləşməsinə, ölkə üçün nəticəsi bəlli olmayan şəraitin hazırlanmasına.

Qeyd olunan nəticələri nəzərə almaqla inflyasiya sürətinin qarşısının alınması onun normal və mülayim

vəziyyətə salınması üçün dövlət özünün **antiinflyasiya siyasətindən** istifadə edir. Burada antiinflyasiyaya yönəldilmiş makroiqtisadi sabitləşdirmə vasitələri hesab olunan monetar və fiskal metodlardan istfadə edir.

Yüksək inflyasiya sürəti şəraitində, onun qarşısının qısa müddət ərzində almaq mümkün olmadığı şəraitdə ilkin olaraq iki istiqamətdə həyata keçirilən **inflyasiyanın neytrallaşdırılması siyasəti həyata keçirilir:**

- gəlirlərin indeksləşdirilməsi;
- yüksək inflyasiya sürətinin dayandırılmasına yönəldilmiş fəal strategiya.

Birinci istiqamətə adətən **adaptiv və ya uyğunlaşdırılan** siyasət də deyilir. Bu siyasətin üstünlüyü onunla əlaqədardır ki, sosial gərginliklərin yumşaldılması, həyat səviyyəsinin **aşağı düşmə həddi müəyyənləşdirilir.** Minimum istehlak forması, ehtiyac səviyyəsinin ödənilməsi buna misal ola bilər. Həmçinin, inflyasiyanın sürətindən asılı olaraq **indeksləşdirmə** əmsalı da müəyyənləşdirilir. İnflyasiya zamanı büdcə defisit vəziyyətində olduğundan indeksləşdirmənin aparılması heç də səmərəli olmur. Ona görə də inflyasiya sürəti ilə mübarizədə adaptiv siyasətin bir istiqaməti kimi **gəlirlər** siyasətindən istifadə olunur. Belə vəziyyətin bəlli olan bir neçə nümunəsi mövcuddur:

- qiymət və əməkhaqqı üzərində nəzarət;
- qymətlərin antiinhisar tənzimlənməsi;
- qiymət və əməkhaqqı təmayülünün dövlət tövsiyələri.

**Fəal antiinflyasiya siyasətinin strategiyasına** gəldikdə o da bir neçə istiqamətdə həyata keçirilir:

- dövlət xərclərinin artırılması, kreditlərin «ucuz pul» siyasəti ilə artırılması;
- vergi dərəcələrinin azaldılması və qiymətlərin azaldılması;
- istehsalın sabitləşdirilməsi və stimullaşdırılması əsasında iqtisadiyyatda struktur yenidən qurulması.

Qeyd olunan bu istiqamətlərlə yanaşı vergiqoyma sahəsində islahatlarının aparılması, büdcə defisiti probleminin həlli, qeyri-məhsuldar xərclərin azaldılması və s. əhəmiyyət daşıyır. Həmçinin, bazar infrastrukturunun yaradılması, istehsalın və ticarətin inhisarsızlaşdırılması, valyuta məzənnəsinin tənzimlənməsi də vacib hesab olan tədbirlər kimi inflyasiya sürətinin neytrallaşmasında xüsusi rol oynayır.

İnflyasiya sürəti ilə mübarizə yolu inkişaf etmiş, inkişaf etməkdə olan, zəif inkişaf etmiş və keçid iqtisadiyyatlı ölkələr üçün müxtəlif olsa da, lakin metodoloji baxımdan onlar üçün ümumi görünən bəzi cəhətləri qeyd etmək olar.

C.M.Keynsin adı ilə bağlı olan ilkin antiinflyasiya siyasətinin aparılması «səmərəli tələb» prinsipi ilə və dövlətin makroiqtisadi tənzimlənməsi ilə əlaqələndirilirdisə, sonrakı dövrlərdə, xüsusən keçən əsrin 70-ci illərində inkişaf etmiş ölkələrdə, əsasən ABŞ-da yeni bazar iqtisadi fenomeni olan **strategiya** meydana gəldi. Ona qədər isə inflyasiyanın və işsizliyin qarşılıqlı əlaqəsini əsaslandıran Olban Fillipsin (1914-1975) ideyası meydana gəlmişdir. Onun 1958-ci ildə irəli sürdüyü fikrinə görə, pullu (nominal) əmək haqqındakı dəyişiklik işsizliyin əmələ gəlməsində rol oynayır. Burada tətbiq olunan qrafik üsullu təsvirdə əldə olunan və işsizliklə pullu əməkhaqqının dəyişiklikləri arasındakı nisbəti xarakterizə edən əyri, onun şərəfinə **Fillips əyrisi** adlandırıldı. Bu adı 1960-cı ildə P.Samuelson və R.Solou verməklə yanaşı, həm də Fillips modelində nominal əməkhaqqının artım sürətini inflyasiyanın sürəti (| |) ilə yerdəyişmə etdilər. Qrafik təsvirlər vasitəsilə bunlara nəzər salaq.




**Şəkil 3. Fillips əyrisi: inflyasiya ilə işsizlik arasında əks əlaqə**

Göründüyü kimi, $P_h$ simvolu Fillips (Pillins) əyrisini əks etdirməklə, onun meyli göstərir ki, A nöqtəsində inflyasiyanın sürəti 7% olduqda, 2%-li işsizlik uyğun gəlir. B nöqtəsində inflyasiya 2% olduqda 5% işsizlik səviyyəsi uyğun gəlir. İnflyasiya sürəti ilə işsizliyin səviyyəsi arasındakı əks əlaqənin izahı üçün bir sıra iqtisadi vəziyyətləri yada salmalıyıq. Belə ki, friksion və struktur işsizliyin cəmi tam məşğulluğu əks etdirir. Şəkil 3.-dəki 6,5% işsizlik səviyyəsinə uyğun gəlir. İşsizliyin bu səviyyəsindən yuxarı olan və sağa doğru meylini davam etdirən $P_h$ əyrisi tsiklik işsizliyi xarakterizə edir. Artıq işçilər nominal əməkhaqqının artmasını tələb etmirlər. Bu da sahibkarlara məhsullarının qiymətini sabit saxlamağa sövq edir. Nəzərə alaq ki, iqtisadiyyatın tam məşğulluq səviyyəsinə çatması «AD-AS» modelində müvazinətin pozulması, onun yenidən bərpası zəruriyyətindən və əmələ gələn «boşluqların» doldurulması üçün sahibkarlar öz müəssisələrinə işçi qüvvəsi cəlb etmək məcburiyyətində qalmaqla əməkhaqqını artırmalı olurlar.

Əməkhaqqının artımı ilə istehsal xərcləri artır. Ona görə də biznesmenlər öz mənfəət səviyyələrini qorumaq naminə istehsal etdikləri məhsulların qiymətini artırırlar ki, bu da iqtisadiyyatda ümumi qiymət səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Deməli, işsizliyin öz təbii səviyyəsindən aşağı düşməsi inflyasiyanın sürətinin artmasını müşayiət edir. **Qısamüddətli dövr** üçün xarakterik olan bu vəziyyət sübut edirdi ki, inflyasiyanın sürətini artırmadan işsizliyin səviyyəsini azaltmaq və müvafiq olaraq inflyasiyanın sürətinin azaldılması, işsizliyin səviyyəsini artırmadan mümkün deyil. ABŞ-da, İngilterədə qəbul olunmuş bu qanunauyğunluq 1970-ci illərin əvvəllərinə qədər davam etmişdir. Lakin, aydın olanda ki, inflyasiyanın artımı işsizliyin artımı ilə müşayiət olunur, yəni bizə tanış olan **staqflyasiya** prosesi gedir, onda belə əlaqəyə maraq azaldı. Həmçinin, staqnasiya (durğunluq, istehsalın enməsi-resesiya) şəraitində də inflyasiya baş verir, eyni zamanda istənilən inflyasiya sürəti şəraitində və ya istənilən işsizlik səviyyəsində inflyasiya sürəti artır, onda bu əlaqəyə yeni yanaşma mövqeləri irəli sürüldü.

Amerikanın bir qrup iqtisadçısı Robert Lukas, Tomas Sercent və Robert Barro **rasional gözləmələr** nəzəriyyəsi adını almış yanaşma əsasında inflyasiya sürətinin və işsizliyin səviyyəsinin izahında əsas götürülməsində israrlı idilər. Onlar qeyd edirdilər ki, iqtisadi subyektlər öz proqnozlarında bütün informasiyadan, o cümlədən dövlətin bu istiqamətdəki siyasətindən də istifadə edirlər. Rasional gözləmələr nəzəriyyəsinin əhəmiyyətini nəzərə alan M.Fridmen və E.Felps **işsizliyin təbii səviyyəsi** ideyasını irəli sürməklə, qeyd etdilər ki, inflyasiya gözləmələri uzunmüddətli dövrdə deyil, qısamüddətli dövrdə qiymətlərin artımı və işsizlik arasındakı əks əlaqənin asılılığının izah olunması üçün çox əhəmiyyətlidir. Qısamüddətli asılılığın mövcudluğu və davam etməsi inflyasiya gözləmələrinin dəyişmə sürətindən asılıdır. Həm də M.Fridmen və E.Felps haqlı olaraq iddia

edirdilər ki, iqtisadi siyasət dəyişdikdə uyğun olaraq iqtisadi agentlərin inflyasiya gözləmələri də dəyişir. Deməli, inflyasiyanın sosial-iqtisadi nəticəsi dövlətin iqtisadi siyasətində **qısa və uzunmüddətli dövrlərdə inflyasiyanın sürəti ilə işsizliyin səviyyəsi arasındakı əlaqənin bu və ya digər həddinin seçilməsindən** asılıdır.

Uzunmüddətli Flipps əyrisinin izahında inflyasiya gözləmələri baxımından əsasən iki yanaşma mövcuddur:

- adaptiv (uyğunlaşan) gözləmələr nəzəriyyəsi; burada əsas diqqət inflyasiyanın faktiki səviyyəsinin vaxtaşırı nəzərdən keçirilməsinə verilir;
- rasional gözləmələr; burada iqtisadi agentlərin öz proqnozlarına əsaslanaraq gələcək qiymətlər haqqında mövcud bütün informasiyadan istifadə olunmaqla orta hesabla düz nəticəsinin əldə olunması nəzərdə tutulur.

Hər iki nəzəriyyə əsasında inflyasiya münasibətin necə qurulmasında dövlətin antiinflyasiya siyasətinin həyata keçirilməsinin səmərəli nəticələnməsi ilə əlaqədardır.

Dövlətin antiinflyasiya siyasəti əsasən inflyasiyanın sürəti ilə pul kütləsinin artım sürəti arasındakı qarşılıqlı əlaqənin tənzimlənməsinə yönəldilir ki, bu da əsasən iki metod vasitəsilə həyata keçirilir:

**Monetar metodlar.** Bura daxildir:

- pul kütləsinin, verilən kreditlərin (bahalı pullar) həcminin artımına məhdudiyyətlərin qoyulması;
- uçot dərəcələrinin artırılması;
- məcburi ehtiyatlar normasının artırılması;
- açıq bazar əməliyyatlarının aparılması; (dövlətin qiymətli kağızlarının satılması).

**Fiskal metodlar.** Bura daxildir:

- dövlət xərclərinn azaldılması;
- birbaşa və dolayı vergi dərəcələrinin artırılması;
- amortizasiya ayırmalarının normalarını tənzimləyən qaydaların sərtləşdirilməsi.

Müasir şəraitdə bazar iqtisadiyyatının inflyasiya sürətində xilas olması təkcə daxili amillərlə deyil, qloballaşma prosesinin nəticəsi olaraq **xarici amillərlə** birbaşa əlaqədar olduğundan dövlət belə şəraitdə mövcud vəziyyətdə istənilən səviyyədə nəzarət edə bilmir. Məsələn, 2006-2007-ci illərdəki dünya bazarında enerjidaşıyıcılarının qiymətlərinin sıçrayışlı artımı, həm **idxal olunan** inflyasiyanın sürətini artırdı, həm də məcmu təklifdə **dəyişikliklər** etdi. Bu baxımdan əgər inflyasiyanın mahiyyət və təbiəti bu və ya digər səbəbdən asılı olaraq aydındırsa, onda qiymətlərin artırılmasına qarşı görülən tədbirlər uyğun olmalıdır.

Tələb inflyasiyası şəraitində antiinflyasiya siyasəti **pul kütləsinin artım sürətinin məhdudlaşdırılmasına** yönəldilir. Uğurlu antiinflyasiya siyasəti üçün **dövlət büdcəsinin kəsirinin** azaldılması, xüsusən də onun pullarının emissiyası hesabına maliyyələşdirilməsi böyük əhəmiyyət kəsb edir. Pul təklifi «bahalı pul» siyasəti, uçot dərəcəsi və məcburi ehtiyat normalarının artırılması zamanı azalır.

Xərclər inflyasiyası zamanı hökumət **məcmu təklifi stimullaşdırır.** Real buraxılış həcminin artırılması hesabına qiymət artımının qarşısı alınacaq və hətta onun aşağı düşməsi baş verəcək.

**İnflyasiya gözləmələrinin aşağı salınması** ilə əlaqədar dövlət «əməkhaqqı-qiymətlər» spiralını ləğv etməyə çalışır. Bunun üçün «bahalı pulların» sərt siyasəti ilə məcmu tələbin ləngiləşməsi və istehsalın miqyasının azalması, həmçinin, işsizliyin artımı baş verir. İnflyasiya sürətinin azalması və tsiklik işsizliyin artımı ilə inflyasiya gözləmələrinin səviyyəsi aşağı düşəcək. Lakin sosial istiqamətdə belə siyasət o qədər də uğurlu hesab olunmur. Çünki, inflyasiya gözləmələrini yalnız işsizlik yüksək səviyyədə olduqda qurmaq olar. Deməli, məcmu tələbin azaldılması siyasəti inflyasiya sürətini aşağı sala bilər, lakin adekvat olaraq işsizliyin yüksək səviyyəsi baş verəcək.

Qısamüddətli dövrdə belə siyasət özünü doğrultsa da və az sosial ziyanla müşayiət olunsa da, lakin **inflyasiya ətalətini** əmələ gətirir. Yəni artıq iqtisadi subyektlər iki amilin baş verməsinə adət edirlər:

- qiymətlərin daim artmasına;
- inflyasiyanın davam etməsinə.

Müasir şəraitdə aparıcı dünya iqtisadçılarının hesablanmasına görə inflyasiya ətaləti sürətinin 1% aşağı salınması ÜDM-in potensial həcminin 4% azaldılmasını tələb edir. Ona görə də inflyasiya sürətinin aşağı salınması tədbirləri istiqamətində həyata keçirilən tədbirlər hər bir milli iqtisadiyyatın xüsusiyyətləri ilə də sıx əlaqələndirilir.

Azərbaycanda son 20 illik tarixi dövr ərzində (1999-2011-ci illər) tələb inflyasiyası xarakterik olan və daha çox xərc inflyasiyası ilə bağlı olan dövrü fərqləndirmək lazımdır:

- 1991-1995-ci illərdəki inflyasiya sırf monetar səbəblərdən baş vermişdir. Həmçinin, siyasi qeyri-sabitlik, iqtisadi əlaqələrin dağılması, ölkə daxili qarşıdurmalar, erməni təcavüzkarlığı hiperinflyasiyanın artım sürətini 1750% -ə çatdırmışdır;
- 1996-2003-cü illərdəki həyata keçirilən sərt pul-kredit siyasəti, inflyasiyanın tədricən aşağı düşməsi və onun ikirəqəmli səviyyəyə çatdırılması və makroiqtisadi sabitləşmə alətlərindən istifadə ilə onun əhalinin dözümlüyü səviyyəsinə çatdırılması;
- 2004-2011-ci illərdəki inflyasiya prosesi həm monetar, həm də fiskal metodlarla tənzimlənərək ÜDM-in artım sürətinin 2005-2006-2007-ci illərdəki yüksək səviyyəyə 26%-dən-34,5%-ə qədər yüksəlməsi müvafiq olaraq aşağı hədli ikirəqəmli inflyasiyanı labüdləşdirmişdir. Lakin bu dövrdə milli valyutanın, manatın dollara nisbətdə dəyəri möhkəmlənmişdir. Qeyd olunan dövrün son illərində inflyasiyanın sürəti 5% mülayim sürətlə hərəkəti baş vermişdir. Vəziyyətin belə davam etməsi artıq əhalidə sabit inflyasiya gözləmələri əmələ gətirmişdir. Lakin, enerjidaşıyıcılarının

qiymətlərinin birdən-birə qaldırılması, təbii inhisara dəstək verən tariflərin yüksəldilməsi inflyasiya gözləmələrinə olan meyilin dəyişilməsinə səbəb olur. O gündən ki, qiymətlərin artım sürəti yüksəlir, həmin günün səhəri inflyasiyanın sürəti məsələsi milli problemlərin birinə çevrilir. Ona görə də müasir iqtisadiyyatın tələblərindən irəli gələn mühüm bir elmi istiqamət kimi və **pulun dəyərinin azalmasının qarşısının** alınmasına yönəldilmiş **inflyasiya ilə iqtisadi artımın qarşılıqlı əlaqəsinin** təmin olunması və onların artım sürətininin seçilməsi həm qısa, həm də uzunmüddətli dövrlər üçün əhəmiyyətli görünən məsələlərdəndir.

# XII FƏSİL. MALİYYƏ SİSTEMİ

**12.1. Maliyyənin mahiyyəti, nəzəri konsepsiyaları və təkamülü**
**12.2. Dövlət büdcəsi və onun strukturu**
**12.3. Büdcə kəsiri və onun maliyyələşdirilməsi yolları**
**12.4. Dövlət borcu və onun sosial-iqtisadi nəticələri**

## 12.1. Maliyyənin mahiyyəti, nəzəri konsepsiyaları və təkamülü

İqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq dünyanın bütün ölkələrində maliyyə sistemi fəaliyyət göstərir. Maliyyə sistemi özündə pul resurslarının bölgüsü və istifadəsi ilə əlaqədar olaraq fəaliyyət göstərən iqtisadi institutların məcmusunu əks etdirir. Ən geniş mənada maliyyə sistemi sərbəstləşən pul resurslarının yığımlarını toplamaq arzusunda olanlardan borc alanlara qədər olan hərəkəti təmin edir. Ona görə də pul resurslarının bölgüsü və onlardan istifadəyə qədər mövcud olan **dəyər axınlarının** mahiyyətinə diqqət yetirməliyik. Belə şəraitdə aydın olur ki, iqtisadi subyektlərin fəaliyyəti bilavasitə maliyyədən asılıdır. Maliyyə-əmtəə-pul münasibətləri şəraitində dövlətin iqtisadi funksiya və tələbatlarının yerinə yetirilməsi ilə əlaqədar meydana gələn və inkişaf edən **pul münasibətləri prosesidir.** Bu baxımdan çox vaxt maliyyə sistemində **dövlət maliyyəsi** ilə yanaşı **xüsusi müəssisə və korporasiyaların maliyyəsi də** fəaliyyət göstərir. Hər iki şəraitdə pul bölgüsünün və istifadəsinin nəticəsində meydana gələn iqtisadi münasibətlər öyrənilir. Maliyyənin mahiyyəti, malik olduğu iqtisadi funksiyalarla təzahür olunur. Həmin funksiyalar maliyyənin spesifik xüsusiyyətlərini əks etdirir.

**Bölüşdürücü funksiya** ilə maliyyə ÜDM-in və milli gəlirin istehsalının iştirakçıları hasil, emal, xidmət sahələri

arasında bölgü və təkrar bölgüsünün həyata keçirilməsində fəal iştirak etməsində təzahür olunur.

**Nəzarət funksiyası** ilə maliyyə real buraxılışın istehsalı, bölgüsü və mübadiləsi üzərində nəzarəti həyata keçirir. Xüsusən pul resurslarının müxtəlif təsərrüfat subyektlərinin sərəncamına keçməsinin müddətini, qənaətli və səmərəli istifadəsini əks etdirir.

**Təhlükəsizlik funksiyası** ilə maliyyə-pul resurslarından, daxili və xarici təhdidlərdən qorunması üçün istifadə olunmasının həddini öyrənməyə imkan verir.

**Sabitləşdirici funksiya** ilə maliyyə tam məşğulluğun, qiymət səviyyəsinin sabitliyinin, davamlı iqtisadi artımın nail olunmasına yönəldilmiş məqsədlərin həyata keçirilməsinə təminat verir.

**Tənzimləyici funksiya** ilə maliyyə fiskal alətlərlə və dövlət borcu vasitəsilə əldə olunan pul vasitələrindən iqtisadiyyatın sabitləşdirilməsi və onun artımının stimullaşdırılmasını həyata keçirir.

Maliyyənin göstərilən bu funksiyaları bilavasitə mövcud cəmiyyətin iqtisadi quruluşu ilə dövlətin irəli sürdüyü iqtisadi siyasətin həyata keçirilməsi istiqamətləri ilə əlaqədardır.

Maliyyə tarixi kateqoriya kimi öz adını italyan sözü olan **finansia**-dan almışdır. Bu onunla əlaqədar olmuşdur ki, XII-XV əsrlərdə İtaliyanın Venesiya, Genuya, Florensiya kimi şəhərlərində iri ticarət və bank mərkəzləri əmələ gəlmişdir. Finansı ifadəsi «gəlir» və «ödəniş» mənasını daşımaqla, sonralar demək olar ki, bütün Avropa ölkələrini əhatə etdi. Hətta qardaş Türkiyədə də pul münasibətləri sistemində **finans** ifadəsindən istifadə olunur. İfadə olunması tərzindən asılı olmayaraq maliyyə öz mahiyyətində həm pul resurslarından istifadəni, həm də dövlətin öz iqtisadi və siyasi məqsədlərinin həyata keçirilməsi imkanlarını birləşdirir. Maliyyənin inkişaf qanunauyğunluqları kapitalizmin meydana gəldiyi dövrdən başlayır. Kapitalist münasibətləri in-

kişaf etdikcə dövlətin pul gəlirləri və xərclər artdıqca onun dövlət xəzinəsi formasında təşəkkülündən sonra maliyyənin mahiyyət etibarilə əhəmiyyəti artmağa başlamışdır. Çünki artıq hökmdarların şəxsi xəzinələri müstəqil xarakter daşıdığından, digər gəlir mənbələri «dövlət maliyyəsi», «dövlət büdcəsi» adını almağa başlamışdır. Ona görə də maliyyənin mahiyyətindən danışarkən onun yerinə yetirdiyi funksiyalar timsalında dövlət maliyyəsindən ibarət olduğu düşüncəsinin əmələ gəlməsinə səbəb olur. Halbuki, qeyd etdiyimiz kimi, xüsusi xarakterli maliyyə də mövcuddur. Deməli, bizim üçün əhəmiyyətli olanı odur ki, maliyyə öz mənşəyini pul münasibətlərindən götürməklə əmtəə və xidmətlərin istehsalı, bölgüsü və mübadiləsi şəraitində formalaşır. Pulların hərəkətindən asılı olaraq dövlət maliyyəsi iqtisadi inkişafa təsir göstərir. Belə ki, dövlət maliyyəsinin iqtisadi inkişafa olan təsir vasitəsini əks etdirir:

- ÜDM-in artım sürətində;
- prioritet sahələrin inkişafında;
- iqtisadiyyatın struktur dəyişikliklərinin sürətlənməsində;
- milli iqtisadiyyatın rəqabətqabiliyyətliyinin yüksəlməsində;
- regional iqtisadi inkişafın optimallığının təmin olunmasında.

Bununla yanaşı qeyd etmək lazımdır ki, dövlət maliyyəsi, iqtisadi konyunkturaya, əhalinin həyat səviyyəsinə təsir göstərməklə, eyni zamanda iqtisadi və sosial sahədə yeni çətinliklər meydana gətirir. Əmələ gələn çətinlik və problemlərin aradan qaldırılması istiqamətləri **dövlətin maliyyə siyasəti** vasitəsilə müəyyən edilir.

Mövcud dövrün iqtisadi və sosial problemləri və gələcək dövrdə proqnozlaşdırılan çətinliklərin maliyyə sisteminin elementləri vasitəsilə həlli mümkünləşir. Ona görə də **maliyyə siyasəti** dedikdə mümkün iqtisadi çətinliklərin ma-

liyyə sistemi vasitəsilə həyata keçirilən tədbirlər toplusu başa düşülür.

**Dövlət maliyyəsi, maliyyə sistemində əmtəələri toplayan və borc vasitələrinə ehtiyacı olanların qarşılıqlı maraqlarının ödənilməsinə kömək edən iqtisadi mexanizmdir.** Dövlət maliyyəsinin fəaliyyət mexanizmi, bilavasitə maliyyə sisteminin aparıcı institutları hesab olunan maliyyə bazarının və maliyyə vasitəçilərinin inkişaf səviyyəsindən asılıdır.

**Maliyyə bazarları** dedikdə, bir qayda olaraq, əmanətləri toplamaq arzusunda olanlara öz resurslarını işgüzar və səhmlər bazarında borcalana təqdim etmək imkanı verən maliyyə idarələrinin məcmusu nəzərdə tutulur.

**Maliyyə vasitəçiləri** dedikdə burada banklar və borc fondlarının fəaliyyəti və onların vasitəçiliyi ilə əmanətlərinə yönəldilmiş vasitələrin borc almaq istəyənlərə verilməsi nəzərdə tutulur. Həmçinin, təqaüd fondları, kredit ittifaqları, müxtəlif xırda sələmçilik də mövcuddur ki, onlar da maliyyə vasitəçiləri rolunu oynayırlar.

Maliyyə sisteminin makroiqtisadi təhlil üçün əsas əhəmiyyəti ondadır ki, onun malik olduğu bənzərliklərin müxtəlif olmasından asılı olmayaraq, bütövlükdə onların məcmusu bir məqsədlə əlaqədardır: **kreditorların resurslarını borc alanlara təqdim etmək.**

Beləliklə də biz şahid oluruq ki, maliyyə sistemi bu və ya digər formada əmanət kimi yığılmış resursların, investisiyaya yönəltmək üçün onların borc almaq istəyənlərə çatdırılması əslində bütövlükdə iqtisadi inkişafın fəaliyyətini əks etdirir.

Dövlət maliyyəsi öz inkişafını, XX əsrin 30-cu illərindən başlayaraq tapmışdır. Düzdür, buna qədər qərb dövlətlərinin iqtisadi inkişafı üçün neoklassik nəzəri müddəalar üstünlük təşkil edirdi. Bu elmi istiqamətin əsasında dövlətin iqtisadiyyata müdaxilə etməməsi prinsipi dururdu. Azad rəqabət əsasında bazarın özü-özünə tənzimlənməsinə üstünlük verilməsi prinsipi dövlət maliyyəsindən istifadəyə ehtiyac

olmadığı fikrini əsaslandırırdı. Lakin, bəlli olduğu kimi, «Böyük depressiya»nın baş verməsi, iqtisadi dəyişikliklərə səbəb olan real vəziyyətin üzə çıxarılması və C.M.Keyns tərəfindən onun əsaslandırılması dövlət maliyyəsinə olan münasibətin tamam yeni istiqamətinin formalaşmasının əsasını qoydu. Belə ki, resurslardan istifadə və onların realizə olunmasının təklif mövqeyindən deyil, **tələb** baxımından qiymətləndirilməsi vacib hesab olundu. Təkrar istehsal prosesinin geniş miqyasda baş verməsi dövlət maliyyəsinin əhəmiyyətini artırmaqla onun **tənzimləyici** vasitə kimi istifadə olunmasını zəruriləşdirdi. Xüsusən büdcə siyasəti ilə **məşğulluğun** təmin olunması dövlət maliyyəsinin əhəmiyyətli olduğunu göstərdi. Həmçinin, Keyns makroiqtisadi dəyşikliklərin dövlət xərcləri ilə yanaşı vergi siyasətinin borclar hesabına maliyyələşdirilməsinin aparılmasının vacibliyini də qeyd etmişdir. Daha sonra keynsçilik məktəbinin nümayəndələri **dövlət xərclərinin artırılması** ilə maliyyələşdirilməsini «kəsirlə maliyyələşdirmə prinsipi» adlandırmışdılar.

Keynsin maliyyə konsepsiyası birmənalı şəkildə öz əhəmyyətini XX əsrin 60-cı illərinə qədər saxladı. Lakin dünya iqtisadi artımın intensiv inkişaf tipinin meydana gəlməsi, dövlət maliyyəsindən istifadə yeni meyil və istiqamətlərin əmələ gəlməsinə səbəb oldu.

İqtisad elminə **neoklassik sintez** kimi daxil olan konsepsiya Nobel mükafatları laureatları amerikalı P.Samuelson və ingiltərəli C.Xiks tərəfindən əsaslandırıldı. Göstərildi ki, tam məşğulluğun mövcud olmadığı şəraitdə də makroiqtisadi müvazinət formalaşdığından Keynsin iqtisadiyyatın tənzimlənməsində büdcə-vergi nəzəriyyəsi ilə yanaşı neoklassiklərin pul-kredit nəzəriyyəsini də daxil etməklə onu sintezləşdirmək mümkündür. Yəni uçot-faiz dərəcələrinin dəyişdirilməsi, açıq bazarda əməliyyatların aparılması, məcburi ehtiyat normalarının dəyişdirilməsi ilə makroiqtisadi tənzimlənməni həyata keçirtmək olar.

Dünyanın inkişaf etmiş ölkələrində işsizliyin təbii səviyyəsi çərçivəsində, aşağı birrəqəmli inflyasiya şəraitində iqtisadi artımın davamlı xarakter alması XX əsrin 70-ci illərində neoklassik istiqamətdə **təklif iqtisadiyyatı** nəzəriyyəsinin meydana gəlməsinə səbəb oldu. Burada əsas diqqət ona yönəldilmişdir ki, dövlətin iqtisadi rolu, onun təsərrüfat həyatına, xüsusən də sosial sferaya müdaxiləsi yolverilməzdir. İqtisadi vəziyyətin normal vəziyyətə salınmasında dövlət mülkiyyətinin bir hissəsinin özəlləşdirilməsi, təklifin artırılması, istehsalın stimullaşdırılması vacibdir. Vergilərin azaldılması, büdcə kəsiri və onu doğuran inflyasiya ilə mübarizə məsələsi ön cərgəyə çəkilirdi.

Dövlət maliyyəsinin bir elmi konsepsiyası da **nekonservatizmdir.** Burada əsas diqqət mərkəzində «sağlam maliyyə»nin təmin olunması prinsipi dururdu. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, hər il büdcə gəlirləri ilə xərcləri arasında **tarazlığın mütləqliyi** bərpa edilir. Dövlət büdcəsinin kəsirli xarakteri, eləcə də dövlət borcu həm iqtisadiyyatın sabit inkişafına, həm də inflyasiya səviyyəsinin artmasına təsir göstərir. Ümumiyyətlə, bu konsepsiya tərəfdarları maliyyə siyasətinin iqtisadi inkişafın uzunmüddətli xarakter almasının əsası kimi qəbul etməklə keynsçiliyin qısamüddətli maliyyə siyasətinə qarşı qoyurlar.

## 12.2. Dövlət büdcəsi və onun strukturu

Maliyyə sistemi dövlətin siyasi, iqtisadi və sosial funksiyalarının yerinə yetirilməsi üçün istifadə olunan maliyyə hissələrindən ibarət olaraq əks etdirir:

- dövlət büdcəsini;
- yerli maliyyənin hissəsi kimi yerli büdcəni;
- dövlət müəssisələrinin maliyyələrini;
- xüsusi hökumət fondlarını.

Ümumiyyətlə, maliyyə sisteminin ilk iki elementi birlikdə dövlətin büdcə sistemini əmələ gətirməklə mərkəz-

ləşdirilmş pul fondu kimi fəaliyyət göstərir. İllik büdcə təqvim ilinə uyğun olaraq bir maliyyə ili üçün tərtib olunur və 1 yanvardan 31 dekabra qədər davam edir.

**Dövlət büdcəsi** maliyyə sisteminin əsas hissəsi kimi ən iri mərkəzləşdirilmiş pul fondu olmaqla, dövlətin iqtisadi, sosial və siyasi məqsədlərinin yerinə yetirilməsində istifadə olunur. Əslində büdcə-pul münasibətləri sistemini əhatə etməklə maliyyənin bütün əsas keyfiyyət xüsusiyyətini özündə əks etdirir.

**Yerli maliyyə sistemi** büdcənin tərkib hissəsi olmaqla yerli hakimiyyət orqanlarının funksiyalarının həyata keçirilməsində əhəmiyyət daşıyır. Yerli büdcə vəsaitləri dövlətin müvafiq inzibati ərazi bölgüsü ilə müəyyənləşdirilir. Ona görə də ümumidövlət maliyyə sisteminin bütün resurslarında yerli büdcənin payı federativ dövlətlərdə (ABŞ, Rusiya, Almaniya, Kanada və b.) 40-50%, unitar dövlətlərdə isə (şəhər və bələdiyyə büdcəsi kimi) 30%-ə qədər təşkil edir.

**Dövlət müəssisələrinin maliyyələri** sərəncamlarında əsas və dövriyyə kapitalı kimi qalan müstəqil smetaya malik olan və qanunla tənzimlənən maliyyə vasitələridir. Bu da dövlət müəssisələrinin müxtəlif səviyyədə istehsal və maliyyə müstəqilliyi ilə əlaqədardır.

**Xüsusi hökumət fondları** da müstəqil maliyyə hissəsi kimi fəaliyyət göstərir. Məsələn, bura sığorta fondları, neft fondu, pensiya fondu və s. daxildir. Bu fondlar məqsədli fəaliyyət göstərsələr də, onlar hökumətin maliyyə çətinlikləri baş verdikləri zaman müraciət olunan ehtiyat fondlarına çevrilirlər.

**Dövlət büdcəsi** müəyyən müddət ərzində adətən bir təsərrüfat ili ərzində müəyyən edilən müxtəlif növ gəlirləri, xərcləri, dövlət borclarını əks etdirməklə qanunvericiliklə təsdiq olunur.

İqtisadi kateqoriya kimi büdcə müəyyən maddiləşmiş tərkibə malik olmaqla, dövlətin mərkəzləşdirilmiş pul fondu kimi onun bölgüsü prosesini əks etdirir.

Bu proses özünü dövlətin əsasən vergilər hesabına səfərbər etdiyi və istehlak etdiyi pul resurslarının **axınında** təzahür etdirir. Dövlət büdcəsi vasitəsilə bazar iqtisadiyyatlı ölkələrdə milli gəlirin 30-55%-ə qədəri yenidən bölüşdürülür.

Büdcənin strukturunun formalaşması bilavasitə ÜDM-in artım səviyyəsindən asılıdır. İstər büdcənin gəlir hissəsi, istərsə də xərc hissəsi ÜDM-in fiziki həcminin artımından asılı olaraq dəyişilir. Məsələn, Azərbaycanda ÜDM-in həcmi 2000-ci ildə 4718,1 mln. AZN olduğu vaxt onda büdcə gəlirinin xüsusi çəkisi 15,1% olmaqla 714,6 AZN-ə bərabər olmuşdur. 2009-cu ildə müvafiq olar bu göstəricilər 34578,7 mln. AZN-ə 29,9%-ə və 10325,9 mln. AZN olmuşdur. Bu o deməkdir ki, dövlət 35 mlrd. AZN-ın 30%-ə qədərini büdcə gəliri kimi bölüşdürmüşdür. Sual oluna bilər: Dövlət bu qədər vəsaiti nəyə bölüşdürmüşdür? Sual sadə görünsə də, cavabının əsaslandırılması bir neçə prinsiplə əlaqədardır.

**Birinci prinsip.** Dövlət yaradılmış bütün nemət və vəsaitləri, cəmiyyət üzvləri arasında **ədalətlilik** prinsipinə riayət olunması naminə, bazarın «qayğı göstərə» bilmədiyi, işsizlərin, yoxsulların, əmək qabiliyyəti olmayanların, sosial ehtiyaca tələbatlarının ödənilməsi naminə gəlirləri bölüşdürmək zəruriyyətində qalır.

**İkinci prinsip.** Cəmiyyətdə, xüsusən bazar sistemi şəraitində gəlirlərin **qeyri-bərabərliyi** hökm sürdüyündən, onun ziddiyyətlərinin yumşaldılması xatirinə gəlirlər bölüşdürülür.

**Üçüncü prinsip.** Makroiqtisadi dəyişikliklərin kəskin və tərəddüdlü xarakter alması üçün **sabitləşdirmənin** həyata keçirilməsi üçün gəlirləri bölüşdürür.

**Dördüncü prinsip.** Dayanaqlı iqtisadi inkişafın təmin olunmasında **stimullaşdırıcı** prinsiplə məcmu tələb və məcmu təklifin müvazinətliliyini gəlirlərin bölüşdürülməsi ilə təmin edir.

**Beşinci prinsip.** Milli iqtisadiyyatın insanla bağlı hər cür uğursuzluqlarının qarşısının alınması üçün nəzərdə tutduğu və həyata keçirəcəyi sosial müdafiə ilə işsizlik və inflyasiya, iqtisadi artım və inflyasiya arasındakı əlaqənin qorunması, qısa və uzunmüddətli seçimin edilməsi ilə, makroiqtisadi **səmərəlilik** prinsipi ilə gəlirlərin bölüşdürülməsini aparır.

Əldə olunan gəlirlər heç də cari və perspektiv dövrdə müəyyən etdiyi strateji istiqamət üçün nəzərdə tutulan xərclə uyğun gəlməyə bilər. Ona görə də sosial və investisiya yönümlü dövlət büdcəsinin formalaşması üçün onun xərc hissəsinin gəlir hissəsindən üstün olmasını əsaslandırır. Hər il büdcə strukturunun **balanslaşdırılması** ilə yaradılmış gəlirlərdən məqsədyönlü istifadə etmək olur. Xərcin gəlirdən artıqlığı ÜDM-in 3%-dən yuxarı qalxdıqda, onda icmal büdcəyə müraciət olunur. Yəni büdcənin ehtiyat fondu kimi fəaliyyət göstərən «Neft fondu»nun və MB-in «Valyuta ehtiyatları»ndan istifadə olunmaq zərurəti meydana gəlir. 2010-cu il üçün bu ehtiyatların məbləği 35 mlrd. ABŞ dolları həcmində olmuşdur.

Dövlət büdcəsinin əmələ gəlməsi və istifadə olunmasına görə istiqamətlənir:

- milli iqtisadiyyatın maliyyələşdirilməsinə;
- sosial-mədəni tədbirlərin həyata keçirilməsinə;
- hərbi qüdrətin saxlanılmasına;
- dövlət idarəetmə xərclərinin ödənilməsinə.

Beləliklə, dövlət büdcəsi, dövlətlə müxtəlif mülkiyyət formalarının subyektləri və ayrı-ayrı vətəndaşlar arasında mərkəzləşdirilmiş pul resursları fondunun əmələ gəlməsi və ümumidövlət məqsəd və funksiyaların yerinə yetirilməsi barəsində baş verən iqtisadi münasibətləri əks etdirir. Büdcə iri mərkəzləşdirilmiş pul fondu olmaqla milli gəlirin yenidən bölgüsü nəticəsində yerinə yetirilməsi üçün xərclənməsidir. Büdcə ilkin olaraq **maliyyə siyasətinin** həyata keçirilməsini icra etməklə əsasən üç mühüm funksiyanı yerinə yetirir:

- *fiskal funksiyanı*. Dövlət malik olduğu mülkiyyətdən əlavə öz fəaliyyətinin təmin olunması üçün maliyyə bazasını yaradır;

- *iqtisadi tənzimlənmə funksiyasını*. Dövlət öz gəlir mənbəyinin təmin olunmasından ötrü vergilərdən istifadə etməklə iqtisadi siyasətini həyata keçirir;

- *sosial funksiyasını*. Milli gəlirin yenidən bölgüsü ilə mövcud sosial ehtiyaclar ödənilir.

Büdcənin məzmunu, vergi və istiqrazların mahiyyəti ilə izah olunur ki, onlar da bilavasitə dövlət büdcəsinin gəlirlilik səviyyəsini əks etdirir. Vergi və istiqrazlar öz növbəsində təkrar istehsalın qanunları ilə, cəmiyyətin məcmu gəlirlərinin kəmiyyət və keyfiyyətləri ilə müəyyənləşir. Hələ vaxtı ilə A.Smit qeyd edirdi ki, büdcənin formalaşması dövlətin xərci ilə əlaqədar müəyyənləşdirilməlidir. Bu baxımdan hər bir dövlətin büdcəsinin formalaşması onun milli iqtisadiyyatının xüsusiyyətləri ilə əlaqədardır. Ona görə də dövlət büdcəsi ölkələr üzrə eyni mahiyyət daşısa da, onların strukturunda, yəni gəlir və xərc hissələrində fərqli formalaşma xüsusiyyətlərinə malik ola bilər. Tutaq ki, Azərbaycan büdcəsinin xərc hissəsində hərbi xərclərə ayrılan vəsaitlərin çoxluğu heç də hərbiləşmə ilə deyil, bilavasitə erməni təcavüzkarlarından işğal olunmuş torpaqlarımızın azad olunması ilə, hərbi qüdrətin artırılması ilə əlaqədardır. Deməli, büdcənin strukturunun formalaşması konkret tarixi şəraitin tələblərindən irəli gəlir. Xərc strukturu büdcə vəsaitlərinin məqsəd və istiqamətini müəyyənləşdirməklə özündə əks etdirir:

- sosial xidmətləri. Səhiyyə, təhsil, sosial təminata yönəldilmiş xərcləri;

- təsərrüfat ehtiyatları. Dövlət müəssisələrinə dotasiyaları, infrastruktura yönəldilmiş investisiya xərclərini;

- hərbi sahəyə yönəldilmiş xərcləri;

- xarici siyasətin həyata keçirilməsinin maddi təminatına yönəldilmiş xərcləri;

- inzibati-idarəetmə xərclərini. Ədliyyə-hüquq-mühafizə, dövlət qulluğunda çalışanların xərclərinin ödənilməsi;

- dövlət borcu ilə əlaqədar ödənişlər.

Büdcə gəlirlərinin strukturu əks etdirir:

- vergilərin bütün növlərini və rüsumları;

- qeyri-vergi daxilolmaları. Dövlət mülkiyyətindən, dövlət ticarətindən gəlirləri;

- dövlət fondlarına ödəmələr.

Qeyd etmək lazımdır ki, büdcənin strukturunun formalaşması və istifadəsi milli iqtisadiyyatın müvazinətinin təmin olunmasından asılıdır. Bu məqsədin icra olunmasından asılı olaraq büdcənin gəlir və xərc strukturunu balanslaşdırmaq olar. Bu baxımdan büdcənin qurulması aşağıdakı **prinsiplərin** nəzərə alınmasını tələb edir:

- **vahidlik prinsipi.** Burada dövlətin gəlir və xərclərinin bir yerə cəmləndirilməsi, vahid büdcə sistemi, vahid nümunəli maliyyə sənədləri və büdcə təsnifatının yaradılması nəzərdə tutulur;

- **tamlıq prinsipi.** Burada büdcənin hər maddəsi üzrə bütün xərc və bütün daxilolmalar nəzərə alınır;

- **reallıq prinsipi.** Burada dövlətin gəlir və xərclərinin hüquqiliyi nəzərdə tutulur;

- **aşkarlıq prinsipi.** Burada büdcənin əsas gəlir və xərc mənbələri barədə əhalinin məcburi şəkildə informasiya ilə təmin olunması nəzərdə tutulur.

Müasir şəraitdə inkişaf etmiş ölkələrin timsalında heç də həmişə bu prinsiplərə riayət olunması müşahidə olunmur ki, bu da müxtəlif xüsusi fondların və büdcədənkənar fondların meydana gəlməsi, bir sıra dövlət təşkilatlarının (kredit, sosial, elmi-texniki, investisiya fondları və s.) maliyyə müstəqilliyi ilə fəaliyyət göstərməsi ilə əlaqədardır.

Müasir şəraitdə büdcə strukturundan istifadə ilə iqtisadiyyatın tənzimlənməsinin həyata keçirilməsi və onun bazar mexanizminin tələbləri ilə **sintezləşdirilməsi** mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan dövlət büdcəsindən iqti-

sadi alət kimi istifadə olunması heç də həmişə nəzəri konsepsiyalarda birmənalı toxunulmayıb. Uzun müddət inkişaf etmiş ölkələrdə **büdcənin neytrallaşdırılması** konsepsiyası hökm sürmüşdür. Hesab olunurdu ki, büdcədən yalnız xalis maliyyə vəzifələrinin həyata keçirilməsi zamanı, yəni pul resurslarının cəlbi və bölgüsü zamanı istifadə etmək olar. Hesab olunurdu ki, maliyyənin normal fəaliyyəti elə iqtisadiyyatın səmərəliliyi deməkdir. Lakin, büdcənin xərc və gəlir hissələrinin sərt uzlaşdırılması öz çatışmazlıqlarını göstərmişdir:

- iqtisadi əməliyyatların uzunmüddətli və irimiqyaslı miqyasda aparılmasının məhdudlaşdırılmasında;
- iqtisadi əməliyyatların səmərililiyinin aşağı düşməsində. Çünki müəssisələrin vergi güzəştləri mövcud maliyyə əməliyyatları ilə uzlaşdırılaraq iqtisadi səmərə nəzərə alınmayıb;
- dövlət büdcəsinin onsuz da zəif olan elastikliyinin azalmasında.

Dövlət büdcəsindən istifadənin Keyns proqramı ilə **«funksional maliyyələr»** konsepsiyasının təşəkkülü ilə iqtisadi sabitləşmə prosesində ondan istifadənin mexanizmi əsaslandırıldı. Belə ki, makroiqtisadi sabitləşdirməyə büdcənin həm müsbət saldosu ilə, həm də artam kəsiri ilə nailolmanın mümkünlüyü göstərildi. «Funksional maliyyə» konsepsiyası ilə uzunmüddətli dövr ərzində büdcə kəsiri probleminin həllinin qeyri-mümkünlüyünü nəzərə alaraq, ondan adətən qısamüddətli dövr ərzində istifadə olunur ki, bu da **büdcə siyasətinin** həyata keçirilməsinin səmərəliliyini əks etdirir. Büdcə siyasətinin səmərəliliyi özünü bilavastə haqqında sonra danışacağımız büdcə kəsiri ilə dövlət borcunun tənzimlənməsində əks etdirir.

Müasir şəraitdə Azərbaycanda həyata keçirilən büdcə siyasəti özünün müsbət meyilliyi ilə müşahidə olunur. Xüsusən ölkəmizdə XXI əsrin əvvəllərində 1999-cu ildə yaradılmış «Neft fondunun» **ehtiyat büdcə fondu** kimi forma-

laşması təkcə büdcə xərclərinin örtülməsi üçün deyil, həm də gələcək nəslin əmanəti kimi əks olunur. Ona görə də mövcud büdcə ehtiyat fondunun həm cari dövr üçün, həm də orta və uzunmüddətli dövrlər üçün bölüşdürülməsi mexnizminin həyata keçirilməsini də yeridilən büdcə siyasətinin səmərəliliyini əks etdirən cəhət kimi nəzərə alınaq olar.

Müasir şəraitdə ölkəmizin büdcə siyasətinin əsas prinsipləri kimi qeyd etmək olar:

- dövlət xərclərinin artım sürətinin iqtisadi artım sürətindən üstünlüyünə yol verilməməsi;
- xərclərin investisiya və sosialyönümlülüyünün təmin olunması;
- nəzərdə tutulmuş dövlət və bələdiyyə idarəetməsindəki öhdəliklərin yerinə yetirilməsi;
- büdcə resurslarından regional inkişaf üçün prioritet əhəmiyyət daşıyan sahələr üçün istifadə olunması;
- dövlət büdcəsinin xərcləri üzrə məlumatların bütün səviyyələrdə açıqlığının və əldə olunmasının mümkünlüyü.

### 12.3. Büdcə kəsiri və onun maliyyələşdirilməsi yolları

Dövlət büdcəsinin xərclərinin və gəlirlərinin üst-üstə düşməsinin qeyri-mümkünlüyü, onun strukturundakı dəyişikliklərlə yanaşı bir sıra iqtisadi problemlərin meydana gəlməsinə səbəb olur. Bunlara əsasən büdcə kəsiri və büdcə artıqlığı daxildir. Büdcə xərclərinin büdcə gəlirlərindən çoxluğu **büdcə kəsirini**, gəlirlərin xərclərdən çoxluğu isə **büdcə profisitini və ya büdcə artıqlığını** əmələ gətirir.

Bazar iqtisadiyyatlı ölkələr tez-tez dövlət büdcəsinin profisiti ilə deyil, kəsiri ilə üzləşir. Belə hal keçid iqtisadiyyatlı ölkələrdə, həmçinin, ilkin bazar sisteminə daxil olan ölkələrdə də müşahidə olunur. Ölkəmizdə də bazar islahatları başlayandan sonra, xüsusən neft gəlirlərinin sürətlə artdığı dövrdə yalnız 2006-cı ildə büdcə profisiti müşahidə olunmuşdur.

Büdcə profisitinin və ya artıqlığının əmələ gəlməsi onun müxtəlif məqsədlər üçün istifadə olunmasına, xüsusən:

- maliyyə ehtiyatlarının artırılmasına;
- dövlət borcunun ödənilməsinə yönəldilir.

Büdcə profisiti dövlət maliyyə ehtiyatlarının artırılmasına və pul tədavülünə müsbət təsir göstərsə də, lakin mövcud gəlirlərin, dövlətin müvafiq məqsəd və vəzifələrin həyata keçirilməsi namınə **səmərəli istifadəsi** zəruriləşir. Bu da büdcə kəsirinin əmələ gəlməsinə səbəb olur. Qeyd etməliyik ki, qərb ölkələrinin əksəriyyəti üçün büdcə kəsirinin mövcud olması xarakterik haldır. Düzdür, büdcə kəsirinin olması əslində iqtisadi-sosial vəziyyətin qaydasında olmadığını göstərir və ətraflı təhlil olunmasını tələb edir.

Büdcə kəsirinin makroiqtisadi təhlili göstərir ki, onun baş verməsi səbəblərini və növlərini fərqləndirmək lazımdır:

- istehsalın enməsi;
- son istehsal xərclərinin artması;
- «gizli» kapitalın dövranının artması;
- qeyri-məhsuldar xərclərin artması;
- iqtisadiyyatın stimullaşdırılmasında fiskal metodlardan istfadəyə üstünlüyün verilməsi;
- siyasi amillərin mövcud olması.

Büdcə kəsirinin üç növü fərqləndirilir:

- **faktiki kəsir.** Dövlət büdcəsinin gəlir və xərcləri arasındakı həqiqi mənfi fərqi əks etdirir.
- **struktur kəsir.** Tam məşğulluğa təmninat verən ÜDM-in səviyyəsi üçün hesablanmış dövlət büdcəsinin gəlirləri və xərcləri arasındakı fərqdir.
- **tsiklik kəsir.** İqtisadiyyatın enməsi dövründə vergi daxilolmalarının azalması ilə əlaqədar olan büdcə kəsiridir.

Büdcə kəsirinin səbəb və növlərini aydınlaşdırdıqdan sonra ortalığa belə bir sual meydana gəlir. Ola bilməzmi büdcə **balanslaşdırılmış formada** olsun? Suala birmənalı cavab vermək çətindir. Çünki, biz «büdcə neytrallığı» və

«funksional maliyyələr» konsepsiyaları ilə tanışıq və ordan da görünür ki, büdcə kəsirinin mövcudluğu birmənalı xarakter daşımır. Çünki, bir tərəfdən iqtisadi konyunktura daima **dəyişkəndir**, görünməz nəticələr qanunu fəaliyyət göstərir. Digər tərəfdən «funksional maliyyələr» konsepsiyasına görə nisbətən **aşağı büdcə kəsiri** müsbət haldır. Çünki, onun vasitəsilə dövlət xərcələrini kəsirlə maliyyələşdirməklə **məcmu tələbi** artırmaq və ya stimullaşdırmaq olur.

Büdcə kəsirinin cəmiyyət üçün kəsb etdiyi sosial-iqtisadi əhəmiyyəti qiymətləndirmək üçün diqqət verilməlidir:

- iqtisadiyyatın tənəzzül xarakter daşıması ilə əlaqədar olmasından;
- dövlət maliyyə siyasətinin nəticəsi olduğundan;
- məcmu tələbin stimullaşdırılması ilə əlaqədar investisiya resurslarının artırılması ilə əlaqədar olduğundan.

Büdcə kəsirinin mahiyyətini aydınlaşdırdıqdan sonra onun maliyyələşdirmə mənbələrinə nəzər salmaq lazımdır.

Bir anlığa büdcə kəsirini öz ev təsərrüfatımızla müqayisə edək. Tutaq ki, bağ evi tikdirmək istəyirik. Bunun üçün zəruri görünən xərclər nəzərdə tutulan müddət ərzində əldə edəcəyimiz gəlirdən üstündür. Onda büdcə kəsirimizin olduğu, yəni xərclərimizin gəlirimizdən üstünlüyü görünür. Neyləməliyik? Ya malik olduğumuz əmlakdan, qiymətli əşya və ya ziynət şeylərindən sabit pul əldə etməliyik, ya da banka müraciət edib girov müqabilində kredit əldə etməliyik. Başqa çıxış yolu yoxdur. Amma bizim ev təsərrüfatındakı vəziyyətimizdən fərqli olaraq dövlət büdcə kəsirinin aradan qaldırılmasında bir üstün cəhətə malikdir ki, o da onun əlavə pul çap etdirməsi imkanına malik olmasıdır.

Makroiqtisadi səviyyədə büdcə kəsirinin aradan qaldırılmasının iki mühüm maliyyələşdirmə üsulu mövcuddur:

- maliyyələşdirmənin emissiya üsulu və ya yeni pul buraxılışı;
- maliyyələşdirmənin qeyri-emissiya üsulu, yaxud istiqrazların buraxılışı.

Dünya ölkələrinin əksəriyyətində büdcə kəsirinin maliyyələşdirilməsində əsasən ikinci üsuldan, yəni istiqrazların buraxılmasından istifadə edilir.

İndi isə bu mexanizmin həyata keçirilməsinə diqqət yetirək. Ölkənin Maliyyə Nazirliyi Mərkəzi Bankdan pul götürmək yolu ilə istiqrazların buraxılışını təmin etməklə büdcə kəsirini aradan qaldıra bilir. Əgər yeni pul çap olunmasına üstünlük verilərsə, onda bu, ölkə iqtisadiyyatında yeni problemlər yaratmış olardı. Ona görə də yeni pulların çap üsulu bir çox ölkələrin hakimiyyətləri üçün problem yaradıcı üsul kimi görünür. Məsələn, ABŞ-da dövlət büdcəsinin kəsirinin aradan qaldırılmasında yeni banknotlardan çap olunması qanunla qadağan olunmuşdur. Yəni dövlətin pul emissiyasının inhisar hüququ nəticəsində əmələ gələn **senyarojdan (gəlirdən)** imtina olunması göstərilir. Buna görə də MB-dan pul borc götürüldüyü halda pul təminatının artmasının başqa yolu əmələ gəlir. Məsələni ətraflı araşdıraq.

Dövlət adından Maliyyə Nazirliyi MB-a dövlət qiymətli kağızlarını satmaqla ondan lazım olan miqdarda borc alır. Bunun əvəzində MB-ın Maliyyə Nazirliyinin cari hesabında məbləği artar. Maliyyə Nazirliyi bu vəsaiti xərcləyir. Nəticədə onlar kommersiya banklarının hesabına daxil olur. Bu da kommersiya banklarının pul ehtiyatlarını artırmaqla onların borc vermək imkanlarını genişləndirir, yəni pul təminatı yüksəlir. Xüsusən də pul aqreqatı olan $M_1$ həcmi artır. Pul təminatı çek dövriyyəsinin artması hesabına yüksəlir. Pul təminatının yüksəlməsi hesabına büdcə kəsirinin maliyyələşdirilməsi **monetarizasiya effekti** adlanır. Tam məşğulluğun təmini şəraitində bu, inflyasiyanın artımına səbəb ola bilər. Ona görə də büdcə kəsirinin maliyyələşdirilməsinin bu ilk üsuluna inflyasiyalı üsul da deyilir. Bunun üçün də büdcə kəsirinin aradan qaldırılmasında qeyri-inflyasiyalı üsulun seçilməsi zəruriləşir və vəsaitin MB-dan deyil, kommersiya banklarından və ya əhalidən götürülməsi

məqsədəuyğun hesab olunur. Dövlət öz istiqrazlarını kredit bazarında yerləşdirərək özəl sektorla rəqabətə girir. Belə şəraitdə özəl sektorlar tərəfindən kreditə olan tələbatları da dövlət tələbatı ilə yanaşı artacaq. Əgər mövcud pul təklifinin dəyişməz şərtləri qalarsa, onda faiz dərəcəsinin artımı baş verəcək. Belə şəraitdə isə, yəni faiz dərəcələrinin artımı ilə özəl investisiyalara olan tələbin həcmi azalacaq. Biz bilirik ki, faiz dərəcələri ilə investisiyalar arasında tərs mütənasiblik mövcuddur. Həmçinin istehlakçı xərclərinin uzunmüddətli əmtəələrə olan tələbin reallaşmasına yönəldilən hissəsinin də azalması meyli yüksələcək. Çünki, istehlakçı kreditlərinin bahalaşması mövcud olacaq. Büdcə kəsirinin belə maliyyələşdirilməsi üsulu zamanı dövlət xərcləri artacaq, lakin potensial özəl investisiyaların həcmi müəyyən kəmiyyətdə azalacaq. Dövlət istiqrazlarının buraxılması müəyyən hallarda investisiyaların bir qisminin **istehsal prosesindən** kənarda qalmasına səbəb olur ki, buna da **«sıxışdırılma effekti»** deyilir.

Bir halda ki, büdcə kəsiri hər bir milli iqtisadiyyat üçün normal hal hesab olunur, deməli, onun mövcud olmasından deyil, onun səviyyəsinin kəskin vəziyyət almamasından narahat olmaq olar. Ona görə də Amerika iqtisadçısı A.Lafferin qeyd etdiyi kimi, «kəsir özlüyündə problem deyil. O nə baş verdiyinin barometridir». Büdcə kəsirinin iqtisadi vəziyyətin pisləşməsinə deyil, onun yaxşılaşmasına doğru istiqamətləndirilməsi, onun maliyyələşdirilməsi üsullarının **konkret dövrün** tələblərindən asılı olaraq seçilib həyata keçirilməsindən asılıdır.

### 12.4. Dövlət borcu və onun sosial-iqtisadi nəticələri

Büdcə kəsirinin aradan qaldırılmasında pul emissiyası ilə yanaşı, istiqrazların buraxılması üsulundan istifadə olunması dövlət borcu anlayışını əsaslandırır. Dövlət borcu

büdcə siyasətinin tərkib hissəsi kimi **maliyyə kəsiri** şəklində özünü əks etdirir.

**Dövlət borcu** – büdcə kəsirinin müəyyən müddətdə yığılmış məbləğidir. Dövlət borcu özünü əks etdirir:

- dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində iqtisadi tənzimlənmə aləti olmasında;
- qısamüddətli dövrdə büdcə kəsirinin bərpası ilə sabit iqtisadi artımın və tədiyyə balansının müvazinətliliyinin təmin olunmasının vasitəsi olmasında.

Dövlət borcunun daxili və xarici formaları mövcuddur.

**Daxili borc** – dövlətin ölkə daxilində büdcə kəsirinin maliyyələşdirilməsi üçün əhaliyə istiqrazların satılması yolu ilə götürdüyü borcdur.

**Xarici borc** – dövlətin xarici ölkə vətandaşlarından və təşkilatlarından götürdüyü borcdur.

Qeyd etməliyik ki, müxtəlif ölkələrin dövlət borcunun yaranmasının özünəməxsus səbəbləri var. Ən ümumi şəkildə dövlət borcunun əmələ gəlməsi səbəbləri kimi göstərmək olar:

- müharibələrin olması;
- iqtisadiyyatda enmə və resesiyaların davamlı xarakter alması;
- vergi gəlirlərinin azalması;
- qısamüddətli istiqrazlar vasitəsilə səfərbər olunmuş vəsaitlərin qeyri-səmərəli istifadə olunması.

Dövlət borcunun daxili və xarici formasından asılı olmayaraq onun yığılıb qalması sosial-iqtisadi nəticəsi baxımından həmişə **bütövlükdə** xüsusi əhəmiyyət kəsb edir. Ona görə də müasir şəraitdə **dövlət borcunun idarə edilməsi** makroiqtisadi nöqteyi-nəzərdən maraqlı görünür. Dövlət borcunun idarə edilməsinə daxildir:

- borc kapitalı bazarında konyunkturanın öyrənilməsi;

- borcun yenidən maliyyələşdirilməsi mənbəyi olan istiqrazların yeni seriyalarının buraxılınası həcminin müəyyənləşdirilməsi;

- əvvəllər buraxılmış istiqrazlara görə faizlərin ödənilməsi;

- dövlət krediti üzrə faiz dərəcələrinin müəyyənləşdirilməsi;

- yeni buraxılacaq istiqrazların şərtlərinin hazırlanması.

Dövlət istiqrazları adətən iki üsulla yerləşdirilir:

- yazılma qaydası ilə bura hökumət təşkilatları, kommersiya bankları, xüsusi investorlar, sığorta şirkətləri, yerli hakimiyyət orqanları;

- bankların vasitəçiliyi ilə bura **təkrar maliyyələşdirmə** daxil olmaqla dövlət borcunun və onun faizlərinin ödənilməsi büdcə vəsaitləri hesabına həyata keçirilir.

Bank vasitəçiliyi ən geniş yayılmış üsul olmaqla köhnə borc sahibləri ilə hesablaşmaların yeni istiqrazların buraxılması hesabına təmin edilir.

Dövlət borcu istiqrazlara görə **gəlirlilik şərtlərinə** və **borcun müddətinə** görə dəyişikliklərin edilməsinə görə fərqləndirilir:

- gəlirliyə görə şərtlərin dəyişdirilməsi borcun **konversiyası** adlanır;

- borcun müddəti ilə əlaqədar olan dəyişikliklər **konsolidasiya** adlanır. Yəni qısamüddətli istiqrazların orta və uzunmüddətli istiqrazlara çevrilməsi.

Dövlət borcunun həcminin **qiymətləndrilməsi** üçün iki üsuldan istifadə olunur:

- mütləq göstəricilərdən, yığılmış öhdəliklərin nominal və real kəmiyyətlərindən;

- nisbi göstəricilərdən, borcun ağırlığını əks etdirən, onun **ÜDM-ə** və **ixraca** olan nisbətindən.

Dövlət borcunun mütləq kəmiyyətini bilməklə, onun bir «yük» olaraq kəmiyyət həyatında oynadığı rolun əhə-

miyyətinə və sosial-iqtisadi mahiyyətinə də diqqət yetirmək lazımdır. Bu baxımdan borcun nisbi kəmiyyətini əks etdirən, xüsusən də onun ÜDM-ə olan nisbətinə də diqqət yetirmək lazımdır. Bu göstərici, onun hansı hissəsi hesabına borcların tam ləğvetmə mümkünlüyünü əks etdirir. Hazırda Avropa Birliyinə üzv olan ölkələr 1992-ci il Maastrixt razılaşmasının reallaşmasında iştirak etmək üçün imkan yaradan makroiqtisadi göstəricilərin siyahısına uyğun olaraq «Maastrixt meyarları»ndan istifadə olunur. Onun standart tələblərinə uyğun dövlət borcu (daxili və xarici borcu birlikdə) göstəricisi ÜDM-dən nisbətini 60%-ə qədər və ondan aşağı səviyyədə saxlanılmalıdır. Dövlət büdcəsinin kəsiri isə ÜDM-in 3%-dən artıq olmamalıdır. Vəziyyətin bu istiqamətdə hər bir ölkə üçün xarakterizə olunması, onun dövlət borcu və büdcə kəsiri üzrə göstəricilərinin Maastrixt standartlarına uyğunluğunu əks etdirməklə, onun milli iqtisadiyyatının sabitlik və davamlı artım şəraitində olduğunu əks etdirir. 2000-ci ildən başlayaraq Azərbaycan dövlətinin borcu Maastrixt standartlarına uyğun gəlir.

Bir cəhətə də diqqət yetirməliyik ki, XXI əsri dünyanın ən inkişaf etmiş dövlətləri fiziki həcminə görə iri məbləğli borclarla qarşıladılar:

· ABŞ – 5685 mlrd.dol. ÜDM-in 57%;

· Yaponiya – 5300 mlrd.dol. ÜDM-in 130%;

· Almaniya – 1223,5 mlrd. alman markası, ÜDM-in 60%;

· Fransada – 1406 mlrd. frank, ÜDM-in 58%;

· Böyük Britaniya – 579 mlrd.dol. ÜDM-in 62%.

Ümumiyyətlə, dövlət borcunun ÜDM-ə olan nisbətinin müəyyənləşdirilməsi və onun iqtisadiyyatın tənzimləyici **aləti** kimi qiymətləndirilməsi digər mühüm makroiqtisadi problem olan iqtisadi təhlükəsizliyin həddi göstəricisi kimi üzə çıxır. Düzdür, dünya təcrübəsində dövlət borcunun xarici hissəsinin ÜDM-də xüsusi çəkisinin 50%-i ötəndən

sonra ölkə iqtisadiyyatının təhlükəsizliyinin artım amili kimi qəbul olunub. Həm də xarici borca xidmət xərclərinin valyuta ehtiyatlarında xüsusi çəkisinin maksimum həddi 25% nəzərdə tutulur.

Azərbaycanda xarici borcun 2000-2009-cu illər ərzindəki məbləği ÜDM-də xüsusi çəkisi 12-8% çərçivəsində mövcud olmaqla, 1158 mln. dol-3422 mln. dollar həcmində olmaqla, adambaşına düşən kəmiyyəti 145 dollardan 388 dollara çatmışdır. Zahirən xarici borc yükünün adambaşına düşən kəmiyyətinin artığını görmək olar. Lakin, büdcə gəlirlərində xarici borcun xüsusi çəkisinin 2000-ci ildəki 145%-dən 2009-cu ildə 26,2%-ə enməsi, xarici borca xidmət xərclərinin 20,1 mln. dollardan 167 mln. dollara qalxması, onun ölkə iqtisadiyyatı üçün **tənzimləyici** xarakterli olmasını əks etdirir.

Xarici borclar üçün məhdudlaşdırıcı hədd özünü əks etdirir:

- borcun ÜDM-ə - 80%-dən yuxarı olmayan həddində;
- borcun ixraca nisbətdə - 200%-dən artıq olmayan həddində;
- xarici borc xidmətinin ixraca nisbi dəyərinin 15-20%-dən artıq olmayan həddində.

Bir anlığa ortalığa sual çıxa bilər, niyə biz xarici borcla əlaqədar dövlət borc yükü barəsində danışırıq. Axı daxili borcda iqtisadi dəyişikliklər də vacib rol oynayır. Düzdür, daxili borc xarici borca nisbətən bir o qədər də təhlükəli xarakter daşımır. Çünki, bu bizim özümüzün-özümüzə olan borcumuzdur. Belə olan vəziyyətdə borc yükünün gələcək nəslin qiymətləri üzərinə düşmək ehtimalı yoxdursa, lakin xarici borc üzrə bunu demək olmaz.

Bu fərqli cəhətə bir qədər də ətraflı baxaq. Daxili borc şəraitində dövlət istiqrazları onun passivi olmaqla ödənilmək üçün nəzərdə tutulur. Həmçinin, bu istiqrazlar investorların əlində cəmləndiyindən gəlir gətirmək qabi-

liyyətində olan aktivlərdir. Yaradılan **iqtisadi mühitdən** asılı olaraq onun qısa, orta və uzunmüddətli gəlir gətirmək qabiliyyətindən asılı olaraq daxili borcun xarici borcdan fərqli yükə malik olduqlarını görmək olar. Bu baxımdan gələcək nəsil üçün xarici borc yükü daxili borc yükünə nisbətən daha çox ağırlığa malikdir. Çünki gələcək nəsil valideynlərindən miras qalmış istiqrazlara görə ödənişləri alacaq. Lakin xarici borca gəldikdə bunu demək olmur. Çünki, dövlət xarici borcu yaradılmış ÜDM-dən ödədiyindən, onun sosial ehtiyatlar və iqtisadi rifah halının yaxşılaşdırılmasına yönəldiləcək hissəsinin azalması baş verəcək ki, bu da gələcək nəslin xarici borc yükünün ağırlığının çəkməsi ehtimalını artıracaq.

Dövlət borcunun kəsb etdiyi bu xüsusiyyətləri nəzərə almalıyıq ki, bütün bazar sistemli ölkələr üçün ondan istifadə səviyyəsi iqtisadiyyatın tənzimləyici aləti kimi görünür. Bu funksiyanın yerinə yetirilməsi isə iki vəzifənin həlli ilə üzə çıxır:

- fiskal vəzifə kimi dövlət ehtiyacları üçün maliyyə vəsaitlərinin əldə olunması;
- tənzimləyici vəzifə kimi bu vasitələrin makroiqtisadi sabitləşmənin və iqtisadi artımın stimullaşdırılması üçün istifadə edilməsi.

Makroiqtisadi sabitləşməyə dövlət borcunun təsiri, ya borcun həcminin, ya da onun strukturunun dəyişilməsi ilə həyata keçirilir. Əgər dövlət öhdəlikləri, qeyri-bank sektoru üzrə nəzərdə tutulubsa, onda dövlətin istehsalının, əmanətin və investisiyanın səviyyəsinə olan təsiri birbaşadır. Yoxsa dövlət borcu bank sistemi vasitəsi ilə iqtisadi konyunkturaya təsir göstərirsə, onda o daha mürəkkəb hal alır. Çünki, makroiqtisadi dəyişilənlərdən olan istehlakın, əmanətin və investisiyanın səviyyəsi, bank sisteminin fəaliyyətindən asılı olaraq əks olunur. Beləliklə, görünür ki, dövlət borcu, iqtisadiyyatın tənzimlənməsi ilə əlaqədar olub cəmiyyətin iqtisadi və sosial tələbatları arasındakı **ziddiyyə-**

**tin** yumşaldılmasına və onların büdcə vəsaitləri hesabına ödənilməsi imkanına istiqamətlənir. Ona görə də belə hesab etmək olar ki, əgər dövlət borcu vəsaitləri iqtisadi və sosial ehtiyacların ödənilməsinə, iqtisadiyyatın struktur irəliləmələrinə yönəldilirsə, o səmərəlidir. Əgər əhalinin bir qrupunun firavanlaşmasına yönəldilirsə, o qeyri-səmərəli olub dövlət tənzimləyici alətindən çıxıb iqtisadiyyatın böhranlı yola düşməsinə səbəb olur.

Dövlət borcunun ikili təbiətə malik olması, yəni **stimullaşdırıcı** və **qeyri-sabitləşdirici** hala malik olması, onun tənzimləşdirilməsi zəruriliyini meydana gətirir. Dövlət borcunun tənzimlənmə metodlarından asılı olaraq onun iqtisadi inkişafının yükü və ya stimullaşdırıcı aləti olduğu müəyyənləşdirilir.

# XIII FƏSİL. VERGİ SİSTEMİ

**13.1. Vergilərin iqtisadi məzmunu, funksiyası və növləri**
**13.2. Vergi sistemi. Vergiqoymanın prinsipləri**
**13.3. Vergi sisteminin iqtisadiyyata təsir alətləri**
**13.4. Bazar iqtisadiyyatının təşəkkülü prosesində Azərbaycanın vergi siyasəti**

## 13.1. Vergilərin iqtisadi məzmunu, funksiyası və növləri

Maliyyə sisteminin mahiyyətini izah edərkən qeyd etmişdik ki, onun əsas hissələrindən biri dövlət büdcəsidir. Həm də dövlət büdcəsi mərkəzləşdirilmiş pul fondu kimi dövlətin sərəncamına daxil olmaqla iqtisadi, sosial və siyasi funksiyalarının yerinə yetirilməsində istifadə olunur. Beləliklə, biz büdcə strukturunda gəlir və xərclərin mahiyyəti ilə tanış olduq. Xərclərin müəyyənliyi ilə gəlirlərin formalaşmasının zəruriliyini gördük. Xərclərin istiqaməti ilə tanış olduq və bir ifadə ilə yada saldıq ki, büdcə gəlirlərinin əsas mənbəyini **vergilər** təşkil edir. Bilərəkdən büdcə gəlirlərinin formalaşmasında vergilərin oynadığı roldan bəhs etmədik. Çünki, müasir cəmiyyətdə vergilərin rolu o qədər əhəmiyyətli olmuşdur ki, onun məzmunu ilə daha ətraflı və mükkəməl şəkildə tanış olmaq lazımdır. Bu onunla əlaqədardır ki, vergilər artıq ənənəvi olaraq dövlətin əlində **məcburi** şəkildə cəmlənmiş pul resursları kimi deyil, həm də sosial və institusional xarakter daşıyır. Sivilizasiyalı inkişafın ilkin dövrlərindən başlayaraq uzun tarixi yol keçmiş dövlətçilik ənənələrinin təşəkkülü ilə əlaqədar **vergilər** xəzinələrin doldurulması, ordunun saxlanılması, hərbi yürüşlərin həyata keçirilməsi, dövlətin saxlanılması vasitəsindən, cəmiyyət həyatında **iqtisadi-siyasi** və **sosial-hüquqi** münasibətlərini özündə birləşdirən mürəkkəb bir anlayışa çevrilmişdir. Ona görə də vergilərin məzmunundan bəhs edərkən ona çoxcə-

hətli münasibətləri özündə birləşdirən real iqtisadi həyatın məzmununu özündə əks etdirən bir məfhum kimi diqqət yetirmək lazımdır.

Lakin bu qeyd olunanlarla yanaşı ən yığcam cavab yenə ona yönəldilir ki, **vergilər dövlət tərəfindən fiziki və hüquqi şəxslərdən tutulan məcburi ödəmələrdir.**

Vergilərin zəruriliyi, ondan qaçılmazlığı barədə hələ 1789-cu ildə ABŞ-ın Müstəqillik Deklarasiyasının müəlliflərindən biri olan Bendjamin Fraklin söylədiyi fikri yada salmaq kifayətdir. O yazırdı: «Bu dünyada ölüm və vergi istisna olmaqla heç nəyə əmin olmaq olmaz».

Vergilər birmənalı şəkildə dövlətin fəaliyyət göstərməsinin iqtisadi əsasını təşkil edir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində göstərilir: «Vergi dövlətin və bələdiyyələrin fəalyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vasitələrinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir (AR Vergi Məcəlləsi. B, 2010, s. 10-11).

Vergilərin dövlətçilik institutu qədər qədim olduğunu nəzərə alaraq qeyd etmək olar ki, o, dövlətlə hüquqi və fiziki şəxslər arasında ictimai tələbatın ödənilməsi məqsədi ilə qanuni formada müəyyənləşdirilmiş **pul gəlirlərinin bölüşdürülməsi** münasibətlərini əks etdirir. Bu baxımdan vergilərin hüquqi və iqtisadi cəhətlərini fərqləndirmək lazımdır.

**Hüquqi** baxımdan vergilərin spesifik cəhətlərinə aiddir:

- qanunvericilik əsasında qoyulması;
- məcburi xarakter daşıması;
- hüquqi baxımdan reqlamentləşdirilməsi.

Beləliklə də vergi **hüquqi** cəhətdən spesifik öhdəlik sistemi kimi dövlətlə vergiyə cəlb olunan (hüquqi və fiziki şəxslər) subyektlər arasındakı münasibətləri əks etdirir.

Vergilərin qanuni xarakter alması, onun ödənilməsinin məcburi xarakter almasına sövq etməklə, ondan imtina bu və ya digər ölkənin qanunvericiliyində müəyyən edilmiş cəza tədbirlərinin tətbiqinə gətirib çıxarır.

Vergilərin **iqtisadi** baxımdan spesifikliyinə aiddir:

- mülkiyyət formasından asılı olmayaraq pul vəsaitlərnin özgəninkiləşdirilməsi;
- ekvivalentlikdən kənar olması.

Azərbaycan Respublikasında 2 səviyyəli vergitutma sistemi fəaliyyət göstərir:

1. **Dövlət vergiləri**. Bura daxildir:

- fiziki şəxslərin gəlir vergisi;
- hüquqi şəxslərin mənfəət vergisi;
- əlavə dəyər vergisi (ƏDV);
- aksizlər;
- hüquqi şəxslərin əmlak vergisi;
- hüquqi şəxslərin torpaq vergisi;
- yol vergisi;
- mədən vergisi;
- sadələşdirilmiş vergi.

2. **Yerli və ya bələdiyyə vergiləri**:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi.

Vergilər bazar iqtisadiyyatında mühüm **funksiyaları** yerinə yetirirlər. Bunlara daxildir:

- Fiskal funksiya;
- İqtisadi funksiya.

**Fiskal funksiya** – ənənəvi olaraq bütün iqtisadi sistemlərdə fəaliyyət göstərən dövlətlərə xasdır. Vergilər fiskal funksiyanın aləti kimi dövlətin pul fondlarını yaratmaqla, onun müxtəlif məqsədlərinin həyata keçirilməsi və məqsədlərinin qorunması üçün maddi ilkin şərait yaradır. Həmçinin, zəruri ümumi milli tələbatları ödəyir.

**İqtisadi funksiya -** buna bəzən iqtisadiyyatı makrosəviyyədə dolayı tənzimləyən metod da deyilir. Bir cəhəti də qeyd etməliyik ki, vergi öz fəaliyyətində hər iki funksiyanı eyni vaxtda yerinə yetirir. Lakin, iqtisadi funksiyanın mahiyyəti ondan ibarətdir ki, o, milli gəlirin yenidən bölgüsünü həyata keçirməklə iqtisadiyyata təsir göstərir. Müasir şəraitdə vergilərin iqtisadiyyata təsir mexanizmini iki üsulla müəyyənləşdirmək olar:

- stimullaşdırıcı üsul;
- yenidən bölüşdürücü üsul.

Vergilərin iqtisadiyyata təsirinin **stimullaşdırıcı üsullarına** ilk dəfə marjinalistlər diqqət yetirmişlər. Onların konsepsiyasına görə ödəyicilərdən məcburi qaydada (qeyri-ekvivalent yolla) nemətlərin bir hissəsini götürməklə, onlarda istehsalın yüksəldilməsi stimulu yaranır. Alman tarixi məktəb nümayəndələri hesab edirdilər ki, vergilər məhsuldar kapitalın istehlakıdır.

Belə ki, onlar əmtəələrin istehsal xərclərinə daxil olmaqla bütün istehlakçılara yönəldilir, dövlət xidmətləri ilə əmək məhsuldarlığının yüksəldilməsinə şərait yaratmaqla, vətəndaşlara ödənilmiş vergini geri qaytarır.

Müxtəlif yanaşmaların olmasına baxmayaraq ən ümumi şəkildə qeyd etmək olar ki, vergilərin iqtisadi və ya tənzimlənmə funksiyasının stimullaşdırıcı üsulu özünü məcmu tələbdə, məcmu təklifdə, əmanətdə, investisiyada, milli iqtisadiyyatın miqyas və artım tempində əks etdirir. Vergilərin təsiri dedikdə, burada dövlətin **vergi dərəcələrinin** dəyişdirilməsi nəzərdə tutulur. Vergi dərəcələrinin dəyişdirilməsi mühüm bir qanunauyğunluğa səbəb olur ki, bu da insanların davranış qaydalarıdır. Vergiqoymanın davranış effekti-insanların davranışının müsbət və ya mənfi meyil etməsi ilə müəyyənləşir. Əslində vergilərin stimullaşdırıcı üsulu o vaxt təsirli görünür ki, hər bir fərd öz vergi öhdəliklərini dəyişdirmək üçün heç bir əlavə üsula əl atmır. Yəni

vergilərin minimumlaşdırılması və ondan yayınması barədə düşünmür.

Vergilərin **yenidən bölgüsü** üsulu ilə iqtisadiyyata təsir mexanizminə diqqət yetirərkən aydın olur ki, dövlət **ədalətlilik** və **səmərəlilik** funksiyaları çərçivəsində bir qrup əhalinin gəlirlərini digər qrup əhaliyə müxtəlif ödəmələr (transfertlər) şəklində verməklə, bazarın «görünməz əllər» prinsipini nəzərə almaqla gəlirlərin bölüşdürülməsindəki güclü qeyri-bərabərliyi məhdudlaşdırmağa çalışır. Lakin belə bölüşdürmə insanların iqtisadi davranışında qeyri-səmərəli mövqe yaratsa da, onların cəmiyyətin maraqları naminə həyata keçirilməsi vacibdir. Hökumət gəlirlərin qeyri-bərabərliyi həddini bilməklə vergi dərəcələrini tətbiq edir və uyğun sosial siyasət yeridir.

Vergilərin qeyd olunan hər iki funksiyası, aralarındakı ziddiyyətlərə baxmayaraq, onlar qarşılıqlı əlaqədədirlər və birlikdə fəaliyyət göstərirlər. Birlikdə bu funksiyalar sahibkarlığın inkişafına xələl gətirmədən dövlətin gəlirlərini təmin edirlər. Lakin bununla yanaşı bu funksiyaların hər biri vergi münasibətlərinin müəyyən tərəfini təzahür etdirir. Fiskal funksiya vergi ödəyicilərinin dövlət qarşısındakı öhdəliklərini, tənzimləyici funksiya isə dövlətin vergiödəyiciləri qarşısındakı öhdəliklərini əks etdirir. Hər iki funksiya arasındakı nisbi müvazinətin qorunması rasional vergitutmanı müəyyən edir.

Vergilər cəlbolunma obyektinə görə birbaşa və dolayı xarakter daşıyırlar.

**Birbaşa vergilərə** bilavasitə hüquqi və fiziki şəxslər, eləcə də onların gəlirləri məruz qalırlar.

**Dolayı vergilərə** isə resurslar, fəaliyyət növləri, əmtəə və xidmətlər məruz qalırlar.

Birbaşa vergi kimi onun ödəyicisi olan fiziki və hüquqi şəxslər həmin məbləği birbaşa büdcəyə ödəyirlər. Dolayı vergitutma zamanı verginin məbləği reallaşdırılmış əmtəə və xidmətin qiymətinə daxil edilir. Məsələn, siz maşı-

nınıza benzindoldurmadan 10 l benzin vurmuşsunuzsa, siz artıq dolayı vergi ödəmisiniz. Çünki, benzin aksizli məhsuldur. Yəni aksizlər bir sıra geniş istehlak olunan əmtəələrin qiymətlərinə daxil edilmək yolu ilə tutulan vergilərdir. Aksiz tətbiq olunan məhsullara, məsələn, tütün məmulatları, spirtli içkilər, benzin və s. daxildir

Ümumiyyətlə, birbaşa və dolayı vergiləri aşağıdakı kimi təsnifləşdirmək olar:

**Birbaşa vergilərə** daxildir:

- Əhalidən ümumi gəlir vergisi;
- Müxtəlif gəlir növlərinə vergilər, o cümlədən:

- əməkhaqqı, sahibkar mənfəəti və korporasiyaların mənfəəti;

- faiz gəlirləri;

- torpaq rentası.

- Əmlak vergiləri, o cümlədən:

- daşınmaz əmlak;

- miras və hədiyyə.

- Torpaq vergisi.

**Dolayı vergilərə** daxildir:

- gömrük rüsumları;
- aksizlər;
- ƏDV;
- satışdan vergi;
- sosial sığrota fondlarına ödənişlər.

İndi isə birbaşa və dolayı vergilərin strukturuna daxil olanların mahiyyətinə diqqət yetirək.

**Əhalinin ümumi gəlir vergisi** dedikdə bura ev təsərrüfatından və korporasiyaya daxil olmayan müəssisələrdən tutulan vergi nəzərdə tutulur. Bazar iqtisadiyyatında gəlir vergi sisteminin əsas elementi kimi fəaliyyət göstərir. Son və orta vergi dərəcələrinin tətbiqindən asılı olaraq gəlir vergisinin həcmi dəyişilir. Son vergi dərəcəsi dedikdə, ödənilən verginin artımının alınan gəlirin artımına nisbəti nəzərdə

tutulur (belə şəraitdə fiziki şəxsin gəlir vergisi nəzərdə tutulur). Orta vergi dərəcəsi dedikdə isə ödənilən vergi məbləğinin vergi tutulan gəlir məbləğinə olan nisbət, nəzərdə tutulur. Gəlir vergilərinin ödənilməsi ya nağdsız şəkildə, birbaşa köçürülməsi yolu ilə, ya da göstərməklə ondan deklarasiya yolu ilə verginin məbləğini ödəyir.

Qeyd etmək lazımdır ki, verginin bu növü müxtəlif ölkələrin büdcəsində əhəmiyyətli rol oynamaqla onun 75-90%-ə qədərini təşkil edir. ABŞ-da, İngiltərədə, Almaniyada, Fransada orta ailə gəlirlərinin 25-30%-ə qədəri vergilərin ödənilməsinə gedir. Bu da orta ailələrin gəlir səviyyəsinin yüksəkliyini əks etdirir.

**Əməkhaqqına vergi** həm iş verənlərdən, həm də muzdlu əməkdən tutulur. Vergi dərəcəsi dövlət tərəfindən müəyyənləşdirilir. Azərbaycanda əməkhaqqına gəlir vergisi 14% faiz həcmində müəyyən edilmişdir. Qeyd etməliyik ki, digər inkişaf etmiş ölkələrə nisbətən bu ən az gəlir vergisi hesab olunur.

**Mənfəətə vergi** – hüquqi şəxslər üçün müəyyən edilir. O müəssisələrin dövlət büdcəsinə məcburi ödənişinin həcmini müəyyən edir. Cəlbolunma obyekti kimi ümumi mənfəət hesab olunur. Müxtəlif əməliyyatlar nəticəsində əldə olunan gəlirdən istehsal xərcləri çıxıldıqdan sonra yerdə qalan hissədən vergi qanunvericiliklə müəyyən olunmuş dərəcə ilə tutulur.

**Əmlak vergisi** – həm mülkiyyətə, həm də miras və hədiyyələrə qoyulur. Belə vergini həm firmalar, həm də ev təsərrüfatı ödəyir. Əmlak vergisinin dərəcəsi bir qayda olaraq əmlakın dəyəri ilə proporsionallıq təşkil edir. İnkişaf etmiş ölkələrdə müəssisələrin əmlakından və gəlirlərdən büdcəyə olan vergi ödəmələri 10-25%-ə bərabərdir.

**Torpaq vergisi** də həm hüquqi, həm də fiziki şəxslər üçün müəyyən edilir.

Birbaşa vergi yığımlarının kəmiyyəti, bir qayda olaraq, hər bir ödəyici üçün ayrı-ayrılıqda müəyyən edilir.

Vergi daxilolmalarının böyük hissəsini təşkil edən birbaşa vergilər bir sıra çatışmazlığa malikdir. Onların səviyyəsi yüksək olduqca onlar iqtisadi agentlərin stimulunu və təşəbbüskarlığını zəiflədir. Xüsusən iqtisadiyyatda baş verən enmələr şəraitində mənfəət vergisinin əvvəlki səviyyədə saxlanılması sahibkarlıq fəaliyyətinin zəifləməsinə gətirib çıxarır. Ona görə də çox hallarda mənfəət vergisinin dərəcəsində dəyişikliklər edilir ki, bu da onun iqtisadiyyata təsir mexanizminin gücləndirilməsi ilə əlaqədardır.

Dolayı vergilər də birbaşa vergilər kimi büdcə gəlirlərinin formalaşmasına xidmət göstərir. Lakin onun fərqli cəhəti ondan ibarətdir ki, o:

- əmək fəaliyyəti ilə deyil, resurs və əmlakdan istifadəyə görə müəyyənləşir;
- yerli büdcələrin formalaşmasında üstünlük təşkil edir;
- pərakəndə qiymətlər vasitəsilə istehlakçıların hesabına formalaşır.

**ƏDV** – müəssisənin satdığı və aldığı əmtəələrin qiymətləri arasındakı fərq kimi müəyyənləşdirilir.

ƏDV – bir çox əmtəə və xidmətlərin istehsalının hər bir mərhələsində **daimi dərəcə** vasitəsilə müəyyən edilir. Məsələn, əl arabası 100 manatdır, ancaq ƏDV-18%-dir, onda əl arabasını alan istehlakçı onun üçün 118 manat ödəyir ki, bunun da 18 manatı ƏDV-ni təşkil edir.

Əl arabasının istehsalının hər mərhələsində ƏDV ödənilir. Belə ki, boru istehsalçısı üçün o 5,5 manata, dəmirçi sexinin sahibi üçün 4,5 manata, qaynaqçı üçün 3 manata, rəngsaz üçün 2 manata, pərakəndə satıcı üçün 3 manata bərabərdir. Lakin praktikada hər istehsalçı vergi xidmətinə satılmış məhsulun dəyərinin 18%-ni ödəyir ki, bu da hər bir mərhələyə uyğun satılan əmtəənin ƏDV-nin hesaba köçürülmüş kəmiyyətinin nəzərə alınması nəticəsində başa gəlir. Yəni, pərakəndə satıcı yalnız ƏDV kimi 3 manat ödəyir. Çünki, ona qədər malgöndərənlərin məhsullarının

qiymətində 15 manat ƏDV kimi ödənilmişdir. Bu baxımdan qanunvericiliklə hər bir vergi ödəyicisi, mövcud fəaliyyət növü üçün yalnız **bir dəfə** vergiyə cəlb olunur.

İnkişaf etmiş ölkələrdə qida məhsulları, ev, kitab, qəzet, ictimai nəqliyyat, dərman və s. ƏDV-yə cəlb olunmur.

ƏDV-nin əsas üstünlüyü onun **vergi baxışının** genişliyidir. Çatışmazlığı ilə bütün xarakter daşımasıdır. ƏDV büdcəyə hər bir fərdin gəlirinin az olduğu şəraitdə onun böyük bir hissəsini büdcəyə köçürür. Vergi yükü belə şəraitdə cəmiyyətin aztəminatlı üzvlərinin üzərinə düşür. Bu da dolayı vergilərin çatışmayan cəhəti kimi üzə çıxır. Ona görə də bu effektin təminatı üçün çox hallarda ilkin zəruri nemətlər ƏDV-yə cəlb olunmur.

İqtisadi və sosial siyasətin əlaqəli şəkildə fəaliyyətinin səmərəliliyinin artırılması üçün dövlət vaxtaşırı ƏDV-nin dərəcəsinin dəyişdirilməsinə diqqət yetirir.

**Gömrük rüsumları** – idxal və ixrac məhsullarından tutulur. Bu rüsumların tutulması və səviyyəsi, çox hallarda, dövlət həm daxili bazarın qorunması, həm də zəruri istehlak şeylərinə olan tələbatın vaxtaşırı ödənilməsi ilə həyata keçirir.

**Aksizlər** – geniş istehlak olunan məhsulların qiymətlərinə daxil edilməklə ölkə daxilində tutulan vergilərdir. Bir daha xatırladaq ki, bura spirtli içkilər, tütün məmulatları, qənd, benzin və s. daxildir. Belə məhsullara fiskal inhisarlı məhsullar da deyilir.

Azərbaycanda tətbiq olunan vergilərin növü göstərir ki, bazar sistemli ölkələrin təcrübəsinə əsaslanaraq dövlətin gəlirləri əsasən vergitutma əsasında formalaşır.

Müxtəlif ölkələrin büdcə gəlirlərinin 70-80%-ni, bəzilərində isə 90%-ni vergi daxilolmaları təşkil edir ki, bu da həmin ölkələrin iqtisadi inkişafının təbiətindən və tətbiq etdiyi inkişaf strategiyasından irəli gəlir.

## 13.2. Vergi sistemi. Vergiqoymanın prinsipləri

Hər bir ölkənin vergi sistemi, onun yeritdiyi iqtisadi siyasətin məzmunu kimi çıxış edir. **Vergitutma sistemi dedikdə – qanunvericiliklə qəbul olunmuş potensial vergi ödəyicilərinin gəlirlərinin yenidən bölgüsünün praktiki aləti başa düşülür.** Verginin müəyyən olunması, verginin elementlərinin aşkarlanması ilə əlaqədardır. Vergitutma elementlərinə daxildir: vergitutma obyekti, vergitutma bazası, vergi dövrü, vergi dərəcəsi, verginin hesablanması qaydası, verginin ödənilməsi müddəti və qaydası.

Vergi sistemi, verginin funksiyalarından istifadəsi barəsində təsəvvür yaratmaqla, onun real iqtisadi həyatdakı fəaliyyəti barədə dolğun və real məlumat verir. Praktiki olaraq vergitutma sistemindən funksional formada istifadə olunması ölkənin iqtisadi vəziyyətini möhkəmləndirməklə, həm biznes mühitinin inkişafına, həm də ayrı-ayrı vətəndaşların həyat səviyyəsinin yaxşılaşmasına imkan yaradar.

Qeyd etmək lazımdır ki, hər bir dövlətin vergi sistemi müxtəlif məqsədli və çoxsaylı vergilərdən ibarət olduğundan mürəkkəb xarakter daşıyır. Ona görə də vergi yükünün ağırlığının aradan qaldırılması və müxtəlif kateqoriyalı vergi ödəyiciləri arasında bölüşdürülməsini **ədalət** və **səmərəlilik** prinsipi əsasında həyata keçirilir. Lakin praktik olaraq bu prinsiplərin uzlaşdırılması o qədər də asan deyil. Çünki bəzən ədalətlilik səmərəliliyin pozulması ilə və əksinə, səmərəlilik ədalətin pozulması hesabına başa gəlir. Onları uzlaşdıra bilən ölkələrdə vergi sistemi həmişə səmərəli olur.

Vergi sisteminin səmərəliliyinə təsir göstərən meyarlar:

- **İqtisadi neytrallıq.** Burada vergilərin istehlakçı və firmaların bazar davranışına, resursların bölgüsünə olan səmərəli təsiri nəzərdə tutulur.
- **Təşkilati sadəlik.** Burada vergi sisteminin işləməsi və vergi yığımları xərclərinin müəyyənləşdirilməsi nəzərdə tutulur.

- **Öhdəliklərin bərabərliyi.** Burada müxtəlif iqtisadi vəziyyətdə olan vergi ödəyicilərinə fərqli vergi dərəcələrinin müəyyənləşdirilməsi nəzərdə tutulur.

Bu meyarlara əsaslanaraq vergi sisteminin səmərəliliyinin əldə olunması heç də birdən-birə baş vermir. Onun əldə olunması iqtisad elmində artıq öz həyati vəsiqəsini almış A.Smitin irəli sürmüş olduğu və vergiqoymanın demək olar ki, bütün dünya ölkələrində istifadə olunur.

- **Ümumilik prinsipi.** Dövlət müvafiq gəlirləri ilə özünün saxlanılması və qorunmasını təmin etməlidir.

- **Ədalətlilik prinsipi.** Vergi ödənilmə müddətinə, məbləğinə və üsuluna görə müəyyənləşdirilmişdir. Vergi yükü bir qrup vergi ödəyiciləri üçün yüngül, digərləri üçün ağır olmamalıdır. Bunun üçün **şaquli** və **üfüqi** bərabərlik olmalıdır. Üfüqi bərabərlik dedikdə bütün mənalarda bərabər olan insanlara eyni dərəcədə vergi tətbiq olunur və heç bir diskriminasiyaya yol verilmir. Şaquli bərabərlik dedikdə isə insanların tutduqları mövqeyə görə digərlərinə nisbətən yüksək verginin ödənilməsi nəzərdə tutulur. Yəni yüksək gəlir əldə edənlər nisbətən yüksək dərəcədə vergi ödəməlidirlər.

- **Əlverişlilik prinsipi.** Hər bir verginin tutulması vaxt və üsuluna görə əlverişli olmalıdır ki, ödəyici üçün o əlverişli olsun. Bu da vətəndaş üçün bərabər şəraitin deyil, bərabər **imkanın** yaradılması ilə əlaqədardır. Vergi sistemi fərdlərin tələbatlarını dəyişdirən və azad seçimlərinin məhdudluğuna deyil, əksinə onların genişləndirməsinə imkan verən vergi sistemi əsasında qurulmalıdır.

- **Müəyyənlik prinsipi.** Dövlət xəzinəsinə daxil olacaq vəsaitlərdən artıq vergitutmaları olmamalıdır. Vergi ödəyiciləri dəqiq bilməlidirlər ki, nəyin naminə onlar vergi ödəyirlər.

Zaman keçdikcə qeyd olunan bu prinsiplərə aşağıdakılar da daxil olunmuşdur:

• **Elastiklik prinsipi.** Ölkə iqtisadiyyatında baş verən dəyişikliklərlə əlaqədar vergi sisteminin adekvatlılığının qurulması, xüsusən iqtisadi konyunkturaya uyğun vergi sisteminin reaksiyasının təmin olunması. Məsələn, inflyasiya səviyyəsinin artımı şəraitində qiymətlərin ümumi səviyyəsinin artımı ilə vergilərin kəmiyyəti də artır.

• **İnzibati sadəlik prinsipi.** Ümumiyyətlə, vergi sistemi aşağı inzibati xərclərlə, şəffaflıqla və vergilərdən yayınmanın çətinlikləri ilə səciyyələnməlidir.

Vergi sistemi özünəməxsus mexanizimlə fəaliyyət göstərir ki, bu da vergitutmanın təşkilati-hüquqi və idarəetmə metodlarının məcmu şəkildə fəaliyyəti ilə əlaqədardır. Buna görə də hər bir dövlət öz vergi sisteminin hüquqi formada fəaliyyət göstərməsi üçün vergi qanunvericiliyini əsaslandırır. Ona görə də fiziki və hüquqi şəxslərdən vergitutmaları Vergi Məcəlləsi ilə müəyyənləşdirilir. Vergi sisteminin əsas elementləri vergi növlərindən, **vergi dərəcələrinin** və **vergi bazasının** hesablanması prinsipindən ibarətdir.

**Vergi dərəcəsi** – gəlirin müəyyən payı olub, büdcəyə vergi şəklində daxilolmalardır. İqtisadi nəzəriyyə və mühasibat uçotunda vergi dərəcəsi, adətən, %-lərlə ifadə olunur. Məsələn, əgər vergitutma obyektinin dəyəri, fiziki və digər xarakteristikası əks olunan vergi bazası kimi vətəndaşın şəxsi gəlirinin 10.000 manat məbləğini götürsək, köçürülən verginin həcmi isə 1.000 manat təşkil edirsə, bu zaman vergi dərəcəsi 10%-ə bərabər olacaq.

$$(1.000manat/10.000manat)\times100\%=10\%$$

Nəzərə almaq lazımdır ki, vergi dərəcəsi hər bir gəlir kateqoriyası üçün uzun müddətə müəyyənləşdirilir. Vergi dərəcələri dövlətin həyata keçirdiyi iqtisadi siyasətin məqsəd və vəzifələrinə uyğun olaraq müəyyən olunan vergitutmaların məbləğinə uyğun gəlməzsə, onda vergi dərəcələri azalma və artırılma istiqamətlərində dəyişdirilə bilər. Ümumiyyətlə, dövlət vergi dərəcələrini müəyyənləşdirərkən iki məqsədə söykənir:

- bazar iqtisadiyyatının inkişafına;
- büdcəyə maksimum vəsaitlərin daxil olmasına.

**Vergi bazası** - vergitutmaya cəlb olunan ümumi gəlirin məbləği, yəni vergi dərəcəsi tətbiq olunan gəlirin həcmidir. Vergi bazası qanunvericiliklə müəyyən edilmiş çərçivə daxilində dəyişilə bilər. Məsələn, müəyyən edilmiş gəlirlərdən nəzərdə tutulmuş vergi göstəriciləri həcmində vergi bazası azaldıla bilər və s.

İstər vergi dərəcələrinin və istər vergi bazasının dəyişdirilməsi vergi sisteminin iqtisadiyyatda **çevik** rola malik olması ilə əlaqədardır və ondan fərqləndirilmiş şəkildə istifadə olunmasına səbəb olur.

Vergi sisteminin dəyişilməsi asılıdır:

- ölkədə iqtisadi konyuktura ilə əlaqədar vergitutma dərəcələrinin qismən dəyişdirilməsindən;
- müxtəlif vergi güzəştlərinin və endirimlərinin mövcudluğundan;
- vergiyə cəlb olunmayan ilkin məbləğlərin müəyyənləşdirilməsindən.

Vergi sisteminin ölkə iqtisadiyyatına təsiri adətən bir sıra alətlər vasitəsilə həyata keçirilir ki, bu da onun səmərəlilik səviyyəsini əks etdirir.

## 13.3. Vergi sisteminin iqtisadiyyata təsir alətləri

Müasir şəraitdə vergi sisteminin iqtisadiyyata olan təsirinin gücləndirilməsi bilavasitə onun bütün bazar subyektləri üçün asılıdır:

- **davamlı** xarakter daşımasından;
- bazar mexanizminə **neytral** olmasından;
- bütün iqtisadi subyektlər üçün **bərabər** təsərrüfat **imkanlarının** yaradılmasından.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, vergi sisteminin iqtisadiyyata olan təsir alətləri əsasən özünü əks etdirir:

- vergi güzəştlərində;
- vergi kreditlərində;
- amortizasiyanın sürətləndirilməsində;
- vergi dərəcələrinin manipulyasiyasında.

Dünyanın aparıcı ölkələrində vergi güzəştlərinin çoxsaylı növlərindən istifadə olunur. Məsələn, ABŞ-da onların sayı 100-ə, Böyük Britaniyada isə 80-ə çatır. Bir sıra vergi güzəştləri çox hallarda **regional** və **selektiv** xarakter daşıyır. Regional vergi güzəştləri o hallarda tətbiq olunur ki, həmin ərazidə yerləşən rayonlar iqtisadi cəhətdən geri qalmış hesab olunduqda, selektiv xarakterli vergi güzəştləri isə həmin ərazi və ya sahə **prioritet** əhəmiyyətə malik olduqda tətbiq edilir. Məsələn, ixrac potensiallı, strateji rəqabətqabiliyyətli məhsul istehsallı sahədir. Bunu əyani olaraq keçən əsrin 80-ci illərindən etibarən ABŞ-ın Alyaska ştatının timsalında görmək olar. Belə ki, Alyaska ştatının büdcəsinə neft və qaz hasilatından vergi və royalti[1] aşağıdakı şəkildə daxil olur:

- hasilat avadanlıqlarına vergi – (2%);
- hasilata vergi (15%);
- mənimsəmə hüququna görə royalti (hasilat dəyərinin 12,5%-ni);
- neft korporasiyalarının gəlir vergisi (9,4%).

Tətbiq olunan vergi tutumunun həcmi ildə təxminən əldə olunan 2,4 mlrd. dollarlıq gəlirin yarısına qədərini ştatın büdcəsinə yönəltmiş olur. Ona görə də Alyaska ştatında fiziki şəxslərdən gəlir vergisi və satışdan vergi tutulmur. Yalnız federal xarakterli vergilər tutulur. Alyaska ştatının neft-qaz hasilatındakı vergi modelinin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, əldə olunan gəlirlər iki fondda cəmlənir:

---

[1] Royalti – istifadə hüquqlarının verilməsinə görə mükafat şəklində alınan ödənişlərdir. Daha ətraflı bax: AR Vergi Məcəlləsi 13-2-23 maddəsi

- Permanent fonduna;
- Konstitusiyalı Ehtiyat Büdcə fonduna.

Daimi dəyşilməz fondu Alyaska ştatının qubernatoru Cey Hammond tərəfindən təsis olunmaqla 1976-cı ildə yaradılmışdır. Məqsəd ondan ibarətdir ki, neft hasilatından əldə olunan gəlirlərin bir hissəsi gələcək üçün saxlanılsın. İldə neft və qaz hasilatından əldə olunan dövlət royaltisinin 50%-ni Daimi dəyişilməz fonduna yönəldilir. Hazırda həmin fondun aktivlərinin həcmi 26 mlrd. dollar təşkil edir ki, onun da 20 mlrd. dolları əsas kapitalın payına düşür. Ona görə də bu fond dünyanın iri investisiya fondlarından hesab olunur.

Alyaska Ştatının Konstitusiyası fondun əsas kapitalının toxunulmazlığını elan etməklə onun gəlirlərinin bir hissəsinin inflyasiya və devalvasiyadan müdafiə olunmasına yönəldilməsinə, digər hissəsinin isə hər il dividend şəklində Alyaskanın bütün vətəndaşlarına verilməsinə təminat verir. Alyaska vətəndaşlarının fondun həqiqi sahibləri olduğundan onların illik dividendlərinin həcmi də xeyli artır. Əgər bu dividendlərin adambaşına həcmi 1980-ci ildə 300 dollar idisə, bu rəqəm 2000-ci ildə 2000 dollara çatmışdır. Əldə olunan dividendlər ya əmanətə, ya da ştatın iqtisadiyyatının investisiyalaşmasına yönəldilmişdir.

**Konstitusiyalı Ehtiyat Büdcə Fondu** – 1990-cı ilə ştatın seçiciləri tərəfindən yaradılmışdır. Bu fondun gəlirləri neft kompaniyalarının neft-qaz vergiləri və royalti ilə əlaqədar dövlətlə baş vermiş məhkəmə münaqişələri zamanı müəyyən edilmiş cərimələrin ödənişlərdən və digər rüsumların hesabına formalaşır. Bu fondun vəsaitlərindən ştatın cari büdcəsinin maliyyələşdirilməsi üçün istifadə olunur. Hazırda bu fondun məbləği 3 mlrd. dollardan yuxarı qiymətləndirilir.

Dünyanın müxtəlif ölkələrində bu istiqamətdə bir sıra mütərəqqi xarakterli fondların mövcudluğu, o cümlədən ölkəmizdəki Neft fondu və onların vəsaitlərindən vergi

sisteminin səmərəliliyinin yüksəldilməsi naminə istifadə olunması vergi güzəştlərinin **tətbiq olunması** və **istifadə olunması** istiqamətində nəzəri ümumiləşdirmələrin və praktiki təcrübənin əldə olunması barəsində düşünməyə əsas verir.

**Vergi kreditləri.** Bu, ilkin vergilərin kəmiyyətindən çıxmalardır. Xüsusən bu elmi-tədqiqat və sınaq-konstruksiya işlərini aparan sferalara tətbiq olunan vergi kreditləridir. Məsələn, ABŞ-da 1962-ci ildə yeni kapital qoyuluşu üçün 7% həcmində vergi enimi müəyyənləşdirilmişdir. Bu tədbirin xüsusiyyəti ondan ibarətdir ki, 7% yeni investisiyaların məbləği verginin həcmindən çıxılır. Bununla da müəssisələr yeni alınan avadanlıqların dəyərini 7% aşağı salır.

Vergi güzəştlərinin bir istiqaməti kimi də vergiyə cəlb olunmanın **müddətinin uzadılmasıdır**. Adətən belə güzəşt kiçik və yeni yaradılmış müəssisələrə şamil edilir. Vergi güzəştlərinin səhmdar cəmiyyətləri üzrə mövcud olan Fransa modelinə də diqqət yetirmək olar. Burada səhmdar cəmiyyətlərinin ilk iki ili ərzində mənfəətdən vergidən tam azad olmurlar, üçüncü ildə mənfəətin 25%-i vergiyə cəlb olunur. Dördüncü və beşinci illər ərzində də güzəşt minimuma endirilir, yalnız altıncı ildə kompaniyanın fəaliyyətinin nəticəsi olan bütün mənfəət tam vergiyə cəlb olunur.

**Amortizasiyanın sürətləndirilməsi.** Əsas kapitalın alınmasına olan xərclərin ödənilməsi müddətinin azaldılması nəzərdə tutulur. Amortizasiyanın sürətləndirilməsi təcrübəsi ilk dəfə ABŞ-da 1942-ci ildə, AFR-da 1948-ci ildə, Fransada 1960-cı ildə, İngiltərədə 1962-ci ildə tətbiq olunmuşdur. Hazırda demək olar ki, bütün inkişaf etmiş ölkələrin vergi sistemində istifadə olunur. Amortizasiya norması qanunvericiliklə müəyyən edildiyindən, vergi qanunvericiliyi də firmalara əsas kapitalın faktiki aşınmasını üstələyən həcmdə amortizasiya silmələrinin aparılmasına icarə verir. Bu ya əsas kapitalın ilk xidmət ili ərzində onun dəyərinin silinməsinin sürətlənməsi yolu ilə, ya da onun işlək müddətinin qısaldılması yolu ilə həyata keçirilir. Sürətləndirilmiş

amortizasiya sistemi amortizasiyanın normasını yüksəltməklə müəssisələrə əsas kapitalın aşınmasına **qədər** dəyərini qaytarır. Amortizasiya vasitələri isə kapitalın yığım və avadanlıqların modernizasiyası üçün istifadə edilir. Belə şəraitdə amortizasiya fondunun təkcə sıradan çıxmış əsas kapitalın ödənilməsinə yönəldilmiş məbləğ deyil, həm də vergiyə cəlb olunmamış mənfəətin müəyyən hissəsi daxil olacaq. Bu baxımdan inkişaf etmiş ölkələrdə vergi sisteminin bu alətindən istifadə olunmaqla ondan həm sahənin, həm də sahibkarlığın inkişafı üçün istifadə edilir.

**Vergi dərəcələrinin manipulyasiyası** - inkişaf etmiş ölkələrdə vergi siyasətinin mühüm elementi hesab olunur. Vergi sisteminin bu elementindən keçən əsrin 80-ci illərindən etibarən inkişaf etmiş ölkələr nəzərəçarpacaq dərəcədə istifadə olunmuşdur. Belə ki, korporasiyaların mənfəətinə olan vergi dərəcələri ABŞ-da 1987-ci ildə 46%-dən 34%-ə, Böyük Britaniyada 1984-1987-ci illərdə 52%-dən 35%-ə, Yaponiyada 1989-1990-cı illərdə 42%-dən 37,5%-ə endirilmişdir. Vergi dərəcələrinin mənfəətə olan səviyyəsinin azaldılması demək olar ki, bütün inkişaf etmiş ölkələrin vergi sisteminin yenidən qurulmasında aparılan islahatlaşma kimi əks olunurdu.

2010-cu ilin sonundan etibarən bazar sisteminə keçid dövrünü başa çatdıran Azərbaycanda vergi sisteminin elementlərindən istifadə ilə milli iqtisadiyyata təsir alətlərindən, real şəraiti, potensial imkanı, yerli xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilmişdir. Bununla yanaşı sivilizasiyalı bazar iqtisadiyyatına xas, milli maraqlara cavab verən vergi sisteminin qurulmasına cəhd göstərilmişdir.

Vergi sisteminin səmərəliliyinin artırılmasında, xüsusən vergi ödəyicilərinin gəlirinin hansı hissəsinin **ödənilməsi dərəcəsi meyarı** baxımından vergilər fərqlənir:

- proqressiv vergi;
- proporsional vergi;
- reqressiv vergi.

**Proqressiv vergi** dedikdə, bu gəlirlərin artımı nəzərdə tutulur. Burada prinsip əsas götürülür ki, gəlirin müəyyən edilmiş həddindən sonra gəlirin artımı ilə vergi dərəcələri də artır. Gəlirlərin səviyyəsi azaldıqca vergi dərəcəsi də azalır. Şəxsi gəlir vergisi və korporasiyaların mənfəətinə vergi proqresiv vergi tutmaya aiddir. Bazar iqtisadiyyatlı ölkələrin əksəriyyətində gəlir vergitutması proqressivdir.

**Proporsional vergi** o deməkdir ki, gəlirin kəmiyyətindən asılı olmayaraq vergi dərəcəsi dəyişməz qalır. Məsələn, aşağı və yuxarı hədd vergi dərəcəsi dəyişməz qalır. Əgər aşağı vergi dərəcəsi 14%-dirsə, ayda 500 manat və 1000 manat alanlar 60 və 140 manat gəlir vergisi, yuxarı vergi dərəcəsi 20%-dirsə müvafiq olaraq 100 və 200 manat vergi ödəniləcək.

**Reqressiv vergi** dedikdə isə o nəzərdə tutulur ki, vergi ödəyicilərindən vergi aşağı gəlirin böyük hissəsi və yuxarı gəlirin kiçik hissəsi kimi tutulur. Yəni gəlirin artımı ilə verginin orta dərəcəsinin aşağı düşməsini əks etdirir. Satışdan vergi, əməkhaqqına vergi, aksiz vergiləri, əmlak vergisi, bir qayda olaraq, reqressiv meyilli hesab olunur.

Dövlət büdcəsinə gəlirlərin səviyyəsindən asılı olaraq tətbiq olunan vergi dərəcələrinin **optimallığı** və **ədalətliliyi** baxımından vergi sisteminin qurulması və təkmilləşdirilməsi uzun müddət iqtisadçılar və siyasətçilər arasında fərqli mövqelərin əmələ gəlməsinə səbəb olmuşdur. Bunun da əsasında **vergi dərəcələrinin səviyyəsi ilə vergi daxilolmalarının kəmiyyəti arasındakı nisbət durur.** Qoyulmuş problemin həlli ilə əlaqədar «təklif iqtisadiyyatı» nəzəriyyəsinin görkəmli nümayəndəsi, Amerika iqtisadçısı Artur Laffer vergi sistemi ilə əlaqədar konsepsiya irəli sürməklə, bu gün də iqtisad elmində daha çox müraciət olunan bir iqtisadi cərəyana çevrilmişdir. A.Laffer konsepsiyasının mahiyyəti ondan ibarətdir ki, hökumətin vergi yükünü, vergi dərəcələrini azaltmaq yolu aşağı sala bilər. Çünki, dövlət hər dəfə öz gəlirlərini artırmaq və ya məcmu tələbin stimullaşdırılması üçün vergi

dərəcələrini yüksəldir. Bu isə həm insanların əmək və kapital təklifinin azalmasına səbəb olur. Ona görə də vergilərin yüksəldilməsi vergi daxilolmalarının artımına deyil, **azalmasına** səbəb olur. Qrafik təsvirlə izah olunan bu vəziyyət **Laffer əyrisi** adı ilə iqtisad elminə daxil olmuşdur.




**Şəkil 1. Laffer əyrisi**
**t – vergitutma dərəcəsi**
**T – dövlət büdcəsinin gəlirləri**

Müxtəlif qrafik təsvirə əsasən belə qənaətə gəlmək olur ki, əgər vergi dərəcəsi 0-dan 100%-ə qədər artırılarsa, ilkin olaraq dövlət büdcəsinə daxilolmaları müəyyən maksimal səviyyədə, tutaq ki, 50% vergi dərəcəsinə uyğun gələn M nöqtəsində yüksələcək, sonra isə vergi dərəcələrinin artımı vergi daxilolmalarının azalması meylini əsaslandırmaqla, onu «0» nöqtəsinə endirəcək. Vergi dərəcələrinin yüksək həddi yalnız özünü müsadirə aləti kimi təqdim edəcək. Qanuni fəaliyyət qeyri-qanuni davranışla, xüsusən kölgəli və ya gizli iqtisadiyyatın fəaliyyətini əsaslandıracaq. Ona görə də Laffer göstərirdi ki, əgər iqtisadiyyat K nöqtə-

sində yerləşirsə və vergi dərəcəsi 70% həddindədirsə, vergi dərəcələrinin 20% azaldılması ilə əslində 50% vergi dərəcəsi ilə dövlət büdcəsinə daxil olan gəlirlərin həcmini artırmaq mümkündür. Lafferin gəlmiş olduğu nəticənin iqtisadi mahiyyəti onunla əlaqədardır ki, vergi dərəcələrinin azaldılması əməyə, əmanətə və investisiyaya olan stimulu artırır. Vergi dərəcələrinin azaldılması həm də **real potensial buraxılışa və məşğulluğun** artırılmasına səbəb olmaqla transfer xərclərini, xüsusən işsizliyə görə müavinətlərin həcmini azaltmaqla dövlətin sosial yükünü yüngülləşdirəcək. Beləliklə, Laffer belə qənaətə gəlir ki, vergi dərəcələrini o vaxt yüksəltmək olar ki, iqtisadiyyat L nöqtəsində və ondan aşağı vəziyyətdədir. Onda həmin nöqtələrdən M nöqtəsinə qədər vergi dərəcələrini artırmaq olar.

A.Lafferin bu konsepsiyası 1981-1986-cı illərdə R.Reyqanın ABŞ-a prezidentliyi dövrünə təsadüf edirdi. R.Reyqan da hesab edirdi ki, varlılara vergi dərəcələrini azaltmaq lazımdır. Çünki, onlar öz varidatlarını təşəbbüskarlıqları ilə risketmə cəhətləri ilə əldə etmişlər. Bu baxımdan həmin dövrdə A.Laffer Reyqan administrasiyasının ən tanınmış məsləhətçilərindən idi, ona görə də həmin dövrdə aparılmış islahatlarla əlaqədar iqtisadiyyat «reyqanomika» adı almışdır.

Lakin Lafferin konsepsiyası sonralar birmənalı qəbul olunmadı və bir sıra etirazlarla o, tənqid hədəfinə məruz qaldı. Bunu Lafferin opponentləri bir sıra dəlillərlə əsaslandırırdılar:

- əməyin təklifi o dərəcədə elastik deyil ki, vergi dərəcələrinin azaldılmasına reaksiya versin və işgüzarlıq fəaliyyətinin yüksəldilməsinə gətirib çıxarsın;

- vergi dərəcələrinin azaldılması uzunmüddətli təsirlaqına malik olan tədbir olduğundan məcmu təklifin artması vergi dərəcələrinin azaldılmasından dərhal sonra deyil, daha sonrakı dövr üçün xarakterikdir;

- qısamüddətli dövr kəsiyində büdcə daxilolmalarının məhdudlaşması təhlükəsi mövcuddur;

- vergi dərəcələrinin azaldılması ilə büdcə daxilolmalarının kəmiyyətinin artımı empirik təhlilin nəticəsi olduğundan, o real konyunktur dəyişmələrinin mahiyyətini tam əks etdirə bilməz;

- heç kəs tam əminliklə Lafferin təklif etdiyi vergi sisteminin M nöqtəsinin yuxarı və aşağı nöqtələri arasındakı intervala uyğunluğunu müşahidə edə bilməz.

Keçən tarixi dövr ərzində Lafferin ideyası ABŞ iqtisadiyyatında özünü tamamilə doğrultmasa da, lakin onun elmi əhəmiyyətini heç cür danmaq olmaz. Çünki, Amerika iqtisadiyyatı onun hərbi-sənaye kompleksinin inkişafı, dövlət borcunun məbləğinin çoxluğu (hazırda 1,4 trln.dol, 1987-ci ildə 2,4 trln. dol.), dünyada baş verən hər cür münaqişələrə müdaxilə və s. səbəblərdən real iqtisadi vəziyyətin **M nöqtəsindən aşağı** yerləşməsi A.Laffer konsepsiyasının mahiyyəti ilə ziddiyyət təşkil edir. Bir həqiqət mövcuddur ki, dövlət gəlirləri, müəyyən vergi dərəcələrinin həddi çərçivəsində **optimal** səviyyədə maksimumlaşır. Laffer əyrisi bu mənada həqiqi vəziyyəti əks etdrir. Lakin çətinlik ondan ibarətdir ki, iqtisadiyyatın real vəziyyətini əks etdirən «simvolik M» nöqtəsinin tapılması, onun aşağı və yuxarı həddinin tapılması, aşağı və yuxarı həddinin müəyyən edilməsi, aşağı səviyyəsi üçün xarakterik olan faiz dərəcələrinin yüksəldilməsi və yuxarı səviyyəsi üçün səciyyəvi olan vergi dərəcələrinin azaldılmasını müəyyənləşdirməkdir.

## 13.4. Bazar iqtisadiyyatının təşəkkülü prosesində Azərbaycanın vergi siyasəti

Bazar sisteminə transformasiya olunmuş Azərbaycanın milli iqtisadiyyatı aparılan məqsədyönlü islahatlaşmalar əsasında hal-hazırda vergi sisteminin formalaşması istiqamətində iki mühüm vəzifəyə nail ola bilmişdir:

- bir tərəfdən dövlət büdcəsinin rasional yığım mənbəyi olan vergi sistemini formalaşdırmışdır;

- digər tərəfdən makroiqtisadi sabitləşdirmə vasitəsi kimi verginin tənzimləyici funksiyasını tətbiq edə bilmişdir.

Bəllidir ki, bazar iqtisadiyyatının təşəkkülünə qədər Azərbaycanın özünəməxsus vergi sistemi olmamışdır. Belə olan şəraitdə müstəqilliyin bərpasından sonra vergi sisteminin qurulması sınaq və təcrübə yolu ilə, səhv və düzəlişlərlə dünyanın ən qabaqcıl ölkələrinin təcrübəsindən, həmçinin vergi sisteminin **təşkili** istiqamətində mövcud olan modellərdən istifadə etməklə özünəməxsus vergi sistemi yarada bilmişdir. Yeri gəlmişkən qeyd etməliyik ki, dünyada vergi sisteminin bir neçə təşkilati modeli fəaliyyət göstərir:

- **İngilis-sakson modeli.** Burada vergilərin birbaşa növünə üstünlük verməklə vergi yükü əsasən fiziki şəxslərin üzərinə düşür. Az miqdar vergi yükü dolayı vergilərin payına düşür. Bu model daha çox ABŞ-da, Yeni Zelandiyada, Avstraliyada, Kanadada yayılmışdır.

- **Avropa qitəli model.** Burada sosial sığortaya olan ödəmələr, dolayı vergilərin payı üstünlük təşkil edir. Birbaşa vergilərin payı dolayı vergilərin payından bir neçə dəfə azlıq təşkil edir. Bu model Almaniyada, Avstraliyada, Fransada, Belçikada geniş yayılmışdır.

- **Latın-amerikan modeli.** Burada inflyasiyanın səviyyəsi yüksək olduğundan dolayı vergitutmaya üstünlük verilir ki, bu da əsasən Argentinada, Çilidə, Boliviyada, Peruda tətbiq olunur.

- **Qarışıq model.** Burada birbaşa və dolayı vergilərin payı demək olar ki, eynidir. Bu model daha çox Latviya, Rusiya, o cümlədən Azərbaycan üçün də xasdır.

- **İslam iqtisadiyyatına xas model.** Burada əsas diqqət **zəkatın** qırxda bir, **xümsün** beşdə bir, **üşrün** onda bir prinsipi ilə ildə bir dəfə əldə olunan gəlirlərdən tutulması nəzərə alınır. Bu modeldən bir sıra ərəb ölkələri, İran, Maldiviya Adaları istifadə olunur.

Vergi sisteminin optimal səviyyədə təkmilləşdirilməsi hər bir ölkənin **Konstitusiyalı iqtisadiyyatının** fəaliyyətinin meyarlarından asılıdır. Bizim ölkəmizdə **sosial yönümlü bazar sisteminin qurulması** konstitusiyalı əsasda müəyyənləşdirildiyindən, vergi mexanizminin təkmilləşdirilməsi və proqnozlaşdırılması da bu istiqamətdə aparılmalıdır. 2000-ci ildən Vergi Məcəlləsinin qəbul olunması və son on il ərzində 100-dən artıq dəyişikliklərin aparılması, bilavasitə milli iqtisadi inkişaf modelinin formalaşdırılması və onun sosial yönümlüyünün təmin olunması ilə əlaqədar olmuşdur. Bəzi hallarda DB-nin, BVF-nun təkidi və təklifi ilə ölkəmizdə vergi sistemində edilən mexaniki dəyişikliklər istənilən nəticəni verməmişdir. Çünki, tanınmış bu iqtisadi institutlar ölkəmizin milli mentalitetinin davranışını, milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə ala bilməmişlər. Ona görə də hazırda ölkəmizdə, Avropada və yaxın qonşu dövlətlərdə mövcud olan səmərəli vergiqoyma, vergitutma elementlərindən istifadə olunmaqla mövcud reallıqlar çərçivəsində vergi siyasəti formalaşmışdır.

Vergi siyasətinin formalaşması istiqamətləri kimi qeyd etmək olar:

**Vergi yükünün azaldılması.** Bu istiqamət əsasən ona yönəldilmişdir ki, Vergi Məcəlləsində aparılmış hər bir dəyişiklik və düzəlişlər istər burada, istərsə də dolayı vergi elementlərinə, onları sahibkarlıq fəaliyyətinin təşəbbüskarlığına və risketmə imkanlarına mənfi təsir göstərməsin.

Ümumiyyətlə, iqtisadiyyatda vergi yükünün bölüşdürülməsinin iki üsulu bəllidir:

- *Əldə olunan nemətdən vergitutma prinsipi.* Burada ev təsərrüfatının və sahibkarların dövlətdən əldə etdikləri nemətin faydasına görə vergi ödəməlidirlər ki, onların istehsalı gələcəkdə də mövcud olsun. Belə nemətlər ictimai xarakterlidir. Benzin, yol, qaz, su və s.
- *Tədiyyə qabiliyyətli prinsip.* Bu prinsipə görə vergi konkret gəlir və rifah halına görə müəyyənləşdirilməlidir.

Yüksək gəlirə görə həm mütləq, həm də nisbi həcmdə yüksək vergi ödənilməlidir.

Vergi yükü konkret göstəricilərdə özünü əks etdirməlidir. Hazırda belə bir göstərici vergilərin məbləğinin ÜDM-ə olan nisbətidir. Orta statistik göstərici olan vergi yükü Azərbaycanda son on il ərzində 18-14% həddində tərəddüd etmişdir. Bu o deməkdir ki, ölkənin ÜDM-i göstərilən faizlər çərçivəsində yenidən bölüşdürülmüşdür. Lakin konkret olaraq hər bir vergi ödəyicisi konkret olaraq nə qədər ödəməlidir? sualına heç bir vergi orqanı cavab vermək iqtidarında deyildir. Vergi yükünün azaldılması həm iqtisadi inkişafın, həm də maliyyə sağlamlığının təmin olunmasının mühüm alətidir.

**«Bir pəncərə» sisteminin yaradılması.** Bu sistemin yaradılması vergi mexanizminin təkmilləşdirilməsini əks etdirməklə, qeydiyyat proseduralarını sadələşdirərək dövlət qeydiyyat orqanı kimi Vergilər Nazirliyinin müəyyən edilməsi, vergi daxilolmalarının artırılmasına imkan yaradacaq.

**Vergilərin sayının azaldılması.** Dövlət və yerli bələdiyyə vergilərinin sayının məhdud çərçivədə müəyyənləşdirilməsi vergi sisteminin səmərəli fəaliyyət göstərməsinə imkan yaratmışdır.

Kiçik və orta sahibkarlığın **güzəştli vergitutmaya cəlb olunması.** Ölkədə uğurla həyata keçirilən Regionların sosial-iqtisadi inkişafının Dövlət Proqramının 2004-2009-cu illər və 2009-2013-cü illər üzrə fəaliyyətinə uyğun olaraq güzəştli vergilərin, xüsusən torpaq vergisi üzrə tədbirlərin həyata keçirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması Dövlət Proqramının həyata keçirilməsinin maddi şərti, aqrar sektorun davamlı inkişafında həlledici amili kimi qiymətləndirilməlidir. Həmçinin bütövlükdə sahibkarlığın inkişafı üçün mənfəətə olan verginin azaldılması da əhəmiyyətli rol oynamışdır.

**Vergi inzibati-idarəetmə sisteminin təkmilləşdirilməsi.** Azərbaycanda həyata keçirilən vergi islahatlaşmalarının bu

istiqaməti xeyli miqdarda idarəetmə xərclərinin azaldılmasına və vergi nəzarətinin çevikliyinə səbəb olmuşdur.

Ümumiyyətlə, son on illik ərzində Azərbaycanda həyata keçirilən vergi islahatları öz müsbət nəticələrini verməklə iqtisadiyyatın müxtəlif sahələrində, regional inkişafda müsbət təsirini göstərməklə sahibkarlıq fəaliyyətinin təmini üçün müsbət şərait yaratmışdır. Lakin vergi islahatlarını hələ tam başa çatmış hesab etmək nəzəri-metodoloji və əməli baxımından düzgün olmazdı. Çünki davamlı iqtisadi inkişaf sosial bazar modelinə uyğun milli iqtisadi inkişaf modelinin formalaşması prinsipləri, vergi islahatları prosesində bir sıra daxili ziddiyyətlərin əmələ gəlməsinə səbəb olacaq.

Keçmiş illərin təcrübəsi göstərir ki, ölkədə formalaşmış vergi sistemi əsasən büdcə daxilolmalarının prioritetini təmin edən fiskal istiqamət olmuşdur. Vergi islahatlarının aparılması bundan sonra birbaşa iqtisadi inkişafla, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə, kiçik biznesin inkişafı ilə birbaşa əlaqələndirilmiş şəkildə aparılmalıdır. Bu istiqamətdəki vergi sisteminin təkmilləşdirilməsi, onun səmərəli fəaliyyətinin istiqaməti kimi qiymətləndirilə bilər ki, o ümumi dövlət və xüsusi maraqları tarazlaşdırır.

# XIV FƏSİL. PUL-KREDİT SİSTEMİ

**14.1. Pulun mahiyyəti və funksiyaları**
**14.2. Pula olan tələb və təklif**
**14.3. Kreditin funksiyaları və rolu**
**14.3. Bank sistemi**

## 14.1. Pulun mahiyyəti və funksiyaları

Müasir iqtisadiyyatın bütün səviyyələrdəki fəaliyyəti pulla əlaqədardır. Pul iqtisadi fenomen kimi, bütün iqtisadi sistemlərin özəyində durmaqla onların inkişafının süqutunu əsaslandırmışdır. Lakin, pullar hər cür «məhəbbət» və «bəlalar» rəmzi olsa da, onun iqtisadiyyatındakı rolu əvəzsizdir. Çünki, o hər cür mübadilənin aparılmasında iştirak etmək və müxtəlif əmtəə və xidmətləri əldə etmək üçün istifadə olunan cibimizdəki banknotlar və xırda pullardır. Pullara müxtəlif yanaşmalarla təriflər vermək olar. Ən sadə şəkildə **pul, əmtəə və xidmətlərin əldə olunması, borc alıb və ödəmək üçün istifadə olunan əskinaslardır.** Onun dəmir, kağız və ya elektron formada olması vacib deyil. Çünki, tarixən pul formasında mal-qaradan, dəridən, balıqqulağından, yun və pambıq geyimlərindən və s. pul kimi istifadə olunmuşdur.

Pullar ictimai əmək bölgüsünün inkişafı ilə ticarətin və mübadilənin gedişatı ilə əmələ gələcək likvid əmlak formasını almışdır. Yəni daha tez və sürətli **reallaşma** vasitəsinə çevrilmişdir. Tutaq ki, **likvid əmlak** kimi olan pula ziynət əşyaları, maşın, mebel, ev, torpaq və s. alınır. Lakin müəyyən müddətdən sonra onları satmaq və ya qarşılıqlı mübadiləyə çıxarıldığı şəraitdə, hətta barter şəraitində də yenə likvid əmlak olan pula müraciət olunur. Məhz bu baxımdan **pulun mahiyyəti onun mübadilənin mütləq likvid xarakter daşıması ilə** izah olunur. Ona görə də görkəmli Amerika iqtisadçısı P.Heyne haqlı olaraq qeyd edir ki, «şey nə qədər likviddirsə, bir o qədər pula oxşayır».

Makroiqtisadi nəzəriyyədə pulların mahiyyəti bilavasitə onun yerinə yetirmiş olduğu funksiyalarla izah olunur. İndi isə bu funksiyalara diqqət yetirək:

- **Pullar mübadilə vasitəsidir.** Bu o deməkdir ki, pullar vasitəsi ilə mübadilə aparılır. Yəni əmtəə və xidmətlərin əldə olunması pullar vasitəsilə həyata keçirilir və onlarla da pullar əldə olunur.

- **Pullar dəyər və ya qiymətlilik ölçüsüdür.** Yəni pullar **hesab vahidi** kimi müxtəlif əmtəə və xidmətlərin qiymətliliyini vahid şəkildə **tutuşdurmağa** imkan verir. Pulun yaranmasına qədər hər bir əmtəənin qiymətliliyi onun çoxlu sayda digər əmtəələrlə mübadilə nisbəti ilə əks oluna bilərdi. Məsələn, müəyyən ölçü vahidi buğdanın, müxtəlif miqdarlı heyvandarlıq, ovçuluq, balıqçılıq məhsullarında ifadə oluna bilərdi. Pulun meydana gəlməsi, məhsulların əmtəə formasını alması və saysız-hesabsız mübadilə nisbətlərini **qiymətləndirmək** anlayışını əsaslandırdı. Yəni **əmtəənin pula mübadilə nisbəti qiymət kimi** meydana gəldi.

- **Pullar tədiyyə vasitəsidir.** Yəni əmək haqqının ödənilməsində, borcların ödənilməsində, vergilərin ödənişində müxtəlif vaxt ərzində həyata keçirilən funksiyadır.

- **Pullar qiymətliliyinin saxlanması funksiyasını yerinə yetirir.** Buna yığım vasitəsi də deyilir. Lakin onun zamanla alıcılıq qüvvəsində olan dəyişiklik onun qiymətliliyinin saxlanılması kimi təzahür olunmasını əsaslandırır. Əgər hər kəs əldə etdiyi gəliri dərhal xərcləmək istəmirsə, onu toplayıb böyük məbləğ formasına gətirmək arzusundadırsa, onda bu pullar qiymətliliyin saxlanılması vasitəsi kimi əks olunur. Pulların qiymətliliyin saxlanılması vasitəsi kimi çıxış etməsi, yalnız onda olan **mütləq likvidlik** xassəsi ilə əlaqədardır. Fransızlar doğru deyir ki, «Məhəbbət çox şey edə bilər, lakin pullar hər şey».

Pullar mübadilə sövdələşmələrinin transaksiya xərclərini azaltmaqla təsərrüfat subyektlərinin faydalı fəaliyyətini sürətləndirir. Pulların burdan da **əsas təyinatını**

müəyyən etmək olar. Pullar faydalı fəaliyyəti əsaslandırmaqla **sövdələşmələrin transaksiya xərclərinin qənaətini həyata keçirir.**

Bir anlığa **barter** mübadiləsini xatırlayaq və belə şəraitdəki çətinliklər barədə düşünək. Tutaq ki, mal-qaranın taxıla barter mübadiləsi aparılır, onların daşınmasında, saxlanılmasında, keyfiyyətinin qorunması külli miqdar xərclə bağlıdır. Əlavə itkilərin əmələ gəlməsi səbəbi meydana gəldi. Tədricən qiymətli metal pulların qızıl və gümüşün meydana gəlməsi tədavüldəki əməliyyatların sadələşməsi üçün onların müxtəlif forma və çəkili formaya salınması onlardan hesablaşma vasitəsi kimi istifadəsinə səbəb oldu. Lakin, qızıl və gümüşün XVI-XIX əsrlərdə **bimetalizm** kimi fəaliyyəti yalnız qızılın ifadəsi kimi **monometalizmin** mövcudluğu tədavül sferasındakı çətinlikləri aradan qaldırmadı. Çünki, qızılın və gümüşün özü pul tədavülünə keçid əmtəə tədavülünü kəskin şəkildə artırdı. Ona görə də **kağız** pullar meydana gəldi. Tədavüldə olan pulların mübadilədə iştirak edən əmtəələrin dəyərinə bərabər dəyəri təmsil etmələri vacibliyi kağız pulları meydana gətirdi. Kağız pullar tam dəyərli pulların **əvəzləyicisi** kimi çıxış edir. Yəni kağız pullar trilyonlarla qızıl pul nişanı ilə ölçülən **miqyasdakı** əmtəə dövriyyəsinə xidmət etmək iqtidarında olmayan pulların əvəzləyicisidir. Əslində kağız pullar – **simvolik pullardır.** Kağız pullar ona görə simvolik xarakter daşıyır ki, onların daxili qiymətliliyi nominal qiymətliliyindən dəfələrlə aşağıdır. Məsələn, ABŞ-ın 100$ banknotunun hazırlanması xərci dövlətə 11 sentə başa gəlir. Buna baxmayaraq belə kağız pullar mübadiləyə **dekret pullar** kimi dövlət tərəfindən qanuniləşdirilərək daxil olunur. Dekret ifadəsi pulların simvolik xarakterini aradan qaldıraraq onun tədavüldə və tədiyyədəki fəaliyyətini qanunlaşdırır.

Kağız pulların meydana gəlişi ilə onun **emissiya (senoraj) gəliri** əldə etmək imkanı yarandı ki, bu da dövlətin sərəncamına, onun pul buraxmağına, inhisarçılıq mövqey-

inə mənfəət kimi məcburi məzənnə ilə müəyyən olunur. Ölkənin Mərkəzi Bankının buraxdığı kağız pullar dövlət pul nişanlarına olan tələbatının nəzərə alınıb-alınmamasından asılı olaraq tədavül sferasına daxil olan banknotlar həm üstünlüklərini, həm də çatışmazlıqlarını əks etdirir. Tələbatı nəzərə alınmaqla və «qaydalar prinsipi»nə uyğun olaraq buraxılan kağız pullar öz üstünlüyünü və çatışmazlığını əks etdirir.

İstehsalın miqyası genişləndikcə pulların kredit tədavül vasitələrilə əvəzlənməsi zərurəti yarandı. Artıq hazırda **kredit pullar** ümumi ekvivalent kimi çıxış etməyə başlamışlar. Kredit pullar özünü borc öhdəliklərini bildirməklə pulun sadaladığımız dörd funksiyasını əhatə edirlər.

Kredit pullara daxildir:

- **Veksel** – bu xüsusi iqtisadi subyektin digər iqtisadi agentə borca götürdüyü məbləği müəyyən müddət və müəyyən faizlə ödənilməsi öhdəliyidir. Veksellərdən ilk dəfə XII-XIII əsrlərdə İtaliyada istifadə olunub. Veksel – universal, kredit-hesablaşma aləti olub, hazırda milli veksel qanunvericiliyinin normalarına, 1930-cu ildə Cenevrə də qəbul edilmiş Vahid veksel konvensiyasına əsaslanır.

- **Banknot** – bu, bankın borc öhdəliyidir. Keçmişdə banknotlar xüsusi kommersiya bankları tərəfindən buraxılırdı. Lakin XIX-XX əsrdən etibarən bütün ölkələrdə borclu qismində dövlətin Mərkəzi Bank, banknotların təminat vasitəsi kimi isə ölkənin qızıl-valyuta ehtiyatları çıxış edir. Bazar iqtisadiyyatlı əksər ölkələrdə banknotlar qızıla müəyyən nisbətlərlə dəyişdirilirdi. Belə sistem **qızıl standartı** adlanırdı. Onun fəaliyyəti 1971-ci ildə dağıldı. Ona görə də dünyanın heç bir yerində kağız-kredit pullar qızıla dəyişdirilmir.

- **Çek** – bu, müəyyən bank hesabı sahibinin vermiş olduğu müəyyən məbləği özündə əks etdirən borc yazılı xüsusi sərəncamın qəbzidir. Çeki təqdim edənə onda qeyd olunmuş məbləğin ödənilməsi barədə şəksiz sərəncamın ic-

rasıdır. Əslində çeklə nağdsız hesablaşma aparılır. Çek bankdan pul alınmasına, müxtəlif əmtəələrin ödənilməsi üçün istifadə olunur. Çeklər ilk dəfə XVII əsrin ortalarında İngiltərədə tətbiq olunmuşdur. Çeklərin tətbiqi nağdsız hesablaşmaların aparılmasında müstəsna rol oynamışdır.

Kredit pulların meydana gəlməsi onun **elektron-kağız** pul sistemini də əmələ gətirdi. Elektron-kağız pul sistemi həm ticarət şəraitinin dəyişilməsi, həm də bankların öz fəaliyyət dairəsinin genişləndirilməsi və bank texnologiyalarının inkişafı ilə əlaqədar olmuşdur. Bank kartlarının keçən əsrin 60-cı illərində meydana gəlməsi, internetin yaranması ilə plastik kartların qüsurunun üzə çıxması 80-ci illərdə «smartkart» və elektron pulların fəaliyyətini əsaslandırdı.

**Elektron-pul sisteminə** daxildir:

- çoxməqsədli «card-based sistems» kartları;
- şəbəkə pulları.

Hər iki şəraitdə xüsusi proqram təminatı, idarəedici siqnallar vasitəsilə elektron kommunikasiya kartları ilə köçürülmə prosesi həyata keçirilir.

Pul tədavülü dairəsinə aid edilir:

- **Nağd pul forması.** Bura daxildir banknotlar, xırda pullar, kağız (xəzinədarlıq) biletləri, həmçinin metal pullar. Onların dəyəri və alıcılıq qabiliyyəti, pul vahidi kimi onun buraxılışına sərf olunan xərcdən xeyli yüksək olur ki, bu da onların əridilib külçə halına salınmasının qarşısının alınmasına görə tətbiq edilir.
- **Nağdsız pul forması.** Bura bank hesablarındakı pullar, müddətsiz depozitlər, əmanətlər daxildir. Həmçinin «çeklər, veksellər», akkreditivlər, kredit kartları, tədiyyə tapşırığı və s. aparılan hesablamalar nağdsız pul formasına aiddir.

Pul tədavülü kimi onun nağd və nağdsız formada olması pul kütləsi haqqında düşünməyə zəmin yaradır. Biz nəyi pul hesab edək, cibimizdəki əskinasları, banklardakı depozit və ya əmanətləri, yaxud çekləri, veksellərі, kredit

kartoçkalarını, elektron pulları? Düşünəndə ki, pullar mütləq likvidliyə malikdir, onda nağd pullarla nağdsız pullar arasında likvidlik dərəcələrinə görə müəyyən fərq olmasına baxmayaraq onlar maliyyə aktivləridir. Ölkənin pul hakimiyyəti rolunda çıxış edən Mərkəzi Bank pul təklifini pul aqreqatları formasında həyata keçirir. İndi isə **pul aqreqatları** göstəricilərinə ABŞ-ın Federal Ehtiyat Sistemi (FES) tərəfindən və Azərbaycanın Mərkəzi Bankı tərəfindən verilmiş pul aqreqatlarına diqqət yetirək.

FES tərəfindən istifadə olunan pul aqreqatları:

- $M_1$ = Nağd pullar+yol çekləri+Tələbolunanadək qoyuluşlar+Digər çek hesabları;
- $M_2$ = $M_1$+100 min dollara qədər müddətli depozitlər+əmanət qoyuluşları və pul bazarının depozit hesabları+pul bazarının qarşılıqlı fondlarında paylar+Avrodollarla qısamüddətli qoyuluşlar+Əks alışla (girovdan çıxartmaqla) qiymətli kağızların alışı haqda razılaşma;
- $M_3$ = $M_2$+100 min dollardan yuxarı müddətli depozitlər+Əks alışla (girovdan çıxartmaqla) qiymətli kağızların alışı haqda uzunmüddətli razılaşma;
- L = $M_3$+Avrodollarda uzunmüddətli qoyuluşlar+Dövlətin əmanət istiqrazları+xəzinədarlığın qısamüddətli veksellər+kommersiya qiymətli kağızları+Kommersiya banklarının veksellərı.

**$M_1$ pul aqreqatı – bu, sözün məhdud mənasında, puldur.** Yəni mütləq likvid formada olduğundan faiz ödəmələri şəklində xeyir gətirmir. Digər pul aqreqatları özündə daha az likvid aktivləri daxil etdiyindən, nağd vəsaitdən və cari depozitlərdən fərqli olaraq onlar sahiblərinə gəlir gətirir.

Pul aqreqatlarının tətbiqinin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, hər bir sonrakı aqreqat əvvəlkilərin hamısını öz tərkibinə daxil edir. Həmçinin pul aqreqatları biri-birindən yüksək likvidliyinə görə, yəni tez nağd pula çevrilməsi ilə də fərqlənirlər.

$M_2$ pul aqreqatı – bu, **sözün geniş mənasında, puldur.** Yəni ona $M_1$ aqreqatı kimi əlavə olunan bütün aktivlərlə birlikdə daha az likvidlidir. $M_2$ aqreqatı **kvazi** və ya **təxmini** pullardır ki, onun sonrakı aqreqatlara keçidi likvidlik səviyyəsini aşağı salır. Bu o deməkdir ki, $M_1$-dən L-ə keçidə qədər pulun likvidlik qabiliyyəti aşağı düşür. Bu o demək deyildir ki, pul öz funksiyalarını yerinə yetirmək qabiliyyətini itirir. Sadəcə onun likvidliyinin vaxt kəsiyi artır. Əgər əlinizdəki istiqrazla səhər yeməyinə xama almaq istəsəniz və evinizin qonşuluğundakı avtosalondan arzuladığınız avtomobili almaq istəsəniz, bunun üçün əvvəlcə istiqrazlarınızı satmalısınız və sonra alışı həyata keçirə bilərsiniz.

İndi isə Azərbaycanın Mərkəzi Bankının tətbiq etdiyi pul aqreqatlarına diqqət yetirək.

$M_0$ = Banklardan kənarda nağd pullar;

$M_1$ = $M_0$+Manatla tələb olunan depozitlər;

$M_2$ = $M_1$+Manatla müddətli depozitlər;

$M_3$ = $M_2$+SDV-də depozitlər. Bura da nəzərdə tutulur: bankların depozit sertifikatları, dövlət istiqrazları, banklar və dövlətin digər qiymətli kağızları.

Pul aqreqatlarının həcmindəki dəyişiklikləri və hərəkəti əyani olaraq faktiki rəqəmlərlə də görmək olar. Məsələn, Azərbaycanda 2000-ci ildə $M_0$=270,0 mln.m, $M_1$=315,5 mln.m, $M_2$= 325,8 mln.m, $M_3$=509,7 mln.m olmuşdursa, müvafiq olaraq bu göstəricilər 2010-cu ildə $M_0$=5455,8 mln.m, $M_1$=6718,9 mln.m, $M_2$=8297,5 mln.m, $M_3$=10527,5 mln.m olmuşdur (bax: Azərbaycan Respublikasının Mərkəzi Bankının Statistik Bülleteni №12, 2010, s.16). Azərbaycanın MB $M_0$ pul aqreqatı ilə banklardan kənar nağd pulları ayırır. $M_1$ aqreqatı qərb ölkələrindəki pul aqreqatlarına analoji olaraq hesablanılır. Lakin mahiyyətinə görə ondan fərqlənir. Məsələ ondadır ki, əhalinin və müəssisələrin kommersiya banklarındakı tələb olunanadək depozitləri **çekli** deyildir. Məsələn, «Bakı Elektroniks»dən «Boşş» firmasına məxsus iki qapılı soyuducu alışında malik olduğu-

nuz əmanət kitabınızdan istifadə edə bilməzsiniz. Çünki, siz əvvəlcə kommersiya bankına getməlisiniz, müəyyən məbləği çıxartdıqdan sonra alışı həyata keçirə bilərsiniz. Bu baxımdan makroiqtisadi təhlil və hesablaşmalarda $M_1$ aqreqatından deyil, $M_2$ aqreqatından istifadə olunur. Azərbaycan MB-nin müəyyən etdiyi $M_2$ pul aqreqatı banklardan kənar nağd pul həcmi ilə manatla müəssisələrin, təşkilatların və fiziki şəxslərin hesablaşma, cari hesblarında və depozitlərindəki qalığı bildirir. Məsələn, 2011-ci ilin mart ayında $M_2$ pul aqreqatı 8115, 5 mln. manat olmuşdur.

Pul aqreqatlarının fərqləndirilməsi əslində pul kütləsinin, pula olan tələbin, pulun dövretmə sürətinin təhlili üçün xüsusi əhəmiyyət daşıyır. Ona görə də pulları ayırmaq lazımdır:

**- axın və ya gəlir kimi;**

**- ehtiyat kimi.**

Pul axını və ya gəliri dedikdə bu hər hansı zaman üçün müəyyənləşdirilir. Məsələn, saatda 100 manat, ayda 20.000 manat və s. Pulun ehtiyat kimi qiymətləndirilməsi də müəyyən dövr üçün nəzərdə tutulur. Məsələn, iqtisadi subyektin 2011-ci ilin mayın 9-na olan pul ehtiyatı 8 min manatdır. Pul ehtiyatı pul gəlirinin və xərclərinin nisbətindən asılıdır. Pul ehtiyatının həcmi hər zaman dəyişilir. Qeyd etdiyimiz 9 maydakı 8 min manatlıq pul ehtiyatından iqtisadi subyekt «Qələbə günü» münasibəti ilə günorta saatlarında $13^{00}$-da 500 manatlıq restoranda xərcləyirsə, onun pul ehtiyatı azalacaq (bütün şərtlər bərabər götürülərsə). Əgər xaricdə yaşayan biznesmen dostu hesab olunan iqtisadi subyektə 3.000 manat həcmində xarici valyuta yollayırsa, onda pul ehtiyatı 10.500 manata çatacaq.

Bütövlükdə iqtisadiyyatın pulla təmin olunması pul ehtiyatından asılıdır. Lakin bu o demək deyildir ki, pul ehtiyatı nə qədər çox olarsa, iqtisadiyyat daha səmərəli fəaliyyət göstərəcək. Bunun üçün **monetarizasiya normasından** istifadə edilir. Yəni **likvidliyin üstünvermə əmsalı** çərçivəsində

pu ehtiyatının həcmi müəyyənləşdirilir. Ehtiyat pullar manatla müəyyənləşdirilir. Bu da **pul bazası kimi** formalaşır. Pul bazasına daxildir:

- Dövriyyədə olan nağd pullar;
- Bankların sərbəst və məcburi ehtiyatları.

Məsələn, Azərbaycanın ehtiyat pulları 2011-ci ilin mart ayına 6289,9 mln.manat olmuşdur.

$M_2$ aqreqatının ÜDM-ə %-lə olan nisbəti əslində monetarizasiya əmsalını əks etdirir. Monetarizasiya əmsalı aşağıdakı düsturla müəyyənləşdirilir:

$$K=(M/PY)\,x100\%$$

Burada:

K-monetarizasiya əmsalı;

M-pul kütləsi, ($M_2$-aqreqatı);

PY-ÜDM həcmi.

Praktikada monetarizasiya əmsalı $M_2$ aqreqatının nominal ÜDM-a olan nisbəti kimi hesablanılır. Məsələn, 2010-cu ildə Azərbaycanda $M_2$ «geniş pullar» aqreqatının nəzərə alınması ilə monetarizasiya əmsalı 19,7% təşkil etmişdir. Bu göstəricinin aşağı və yuxarı həddi inflyasiyanın səviyyəsi ilə əlaqədardır. Monetarizasiya əmsalı ilə inflyasiyanın səviyyəsi arasında tərs mütənasiblik mövcuddur.

Yüksək inflyasiya dövründə monetarizasiya əmsalı aşağı düşür, çünki əhali əlindəki nağd və banklardakı tələb edilənədək pulları təcili əmtəə və xidmətlərə dəyişdirirlər. Aşağı inflyasiya şəraitində isə monetarizasiya əmsalı yüksək olur. İnflyasiya səviyyəsi 2-4% həddində tərəddüd edən inkişaf etmiş Qərb ölkələrində «K» əmsalı orta hesabla 60-90% civarında tərəddüd edir.

Pul sistemi ilə əlaqədar əgər fizikadakı obyektin hərəkətinin tezliyini əks etdirən **sürət** anlayışından istifadə etsək, onda **pulun sürətini** və pulun kəmiyyət nəzəriyyəsinin tənliyini tapmış olarıq. Düzdür, inflyasiya mövzusunda Amerika iqtisadçısı İrvinq Fişerin **MxV=PxY** pulun kəmiyyət nəzəriyyəsinə toxunmuşduq. İndi isə bu tənliyə pu-

lun tədavül sürətinin müəyyənləşdirilməsi prizmasından yanaşdıqda da o belə şəkil alır: M=PQ/Y

Burada, M-pul kütləsi;

PQ-əmtəə qiymətlərinin cəmi;

V-pulun tədavül sürəti.

**Pulun kəmiyyət nəzəriyyəsinin tənliyi** adlanan bu düstur göstərir ki, pulun miqdarı çoxalanda, iqtisadiyyatda qiymətin səviyyəsi və ya istehsal olunan məhsulun kəmiyyəti artmalıdır, yaxud da pulun tədavül sürəti azalmalıdır və yaxud tam əksinə.

Pulun tədavül sürətinin nizamlanması MB tərəfindən pul təklifinin dəyişdirilməsi ilə həyata keçirilir.

## 14.2. Pula olan tələb və təklif

Pulun mütləq likvidliq qabiliyyəti, vaxt itkisinin aradan qaldırılması və əlavə xərclərin çəkilməsinə yol verməməsi onun **hamı tərəfindən** istənilməsinə səbəb olur. Sən demə pula olan tələb və təklif, almaya, nara olan tələb və təklif kimidir. Pula olan tələb və təklifin dəyişilməsi, onun dəyərini müəyyən edir. Ona görə də pula olan tələb və təklifi pul bazarı müəyyən edir. **Pul bazarı dedikdə pula olan tələb və təklifin qarşılıqlı əlaqəsindən asılı olaraq pulun miqdarının müvazinatlı kəmiyyəti və müvazinatlı faiz dərəcəsinin müəyyənləşməsi nəzərdə tutulur.**

Pul bazarı maliyyə bazarının bir hissəsi olub özündə əks etdirir:

- uçot bazarını;
- banklararası bazarı;
- valyuta bazarını.

**Uçot bazarına** xəzinədarlıq və kommersiya veksellləri, qısamüddətli (bir ilə qədər) öhdəlikləri əhatə edən bazarlar daxildir.

**Banklararası bazara** kredit müəssisələrinin müvəqqəti sərbəst pul resursları daxildir. Bu resurslar banklararası depozit formasında qısa müddətə yerləşdirilir.

**Valyuta bazarına** müxtəlif ölkələrin pul öhdəliklərinin ödənilməsi ilə əlaqədar beynəlxalq tədiyyə dövriyyələrinin ödənilməsi daxildir. Məcmu tələb və məcmu təklif əsasında valyuta alışı və satışı baş verir.

Maliyyə bazarının digər hissəsini təşkil edən kapital bazarı əhatə edir:

- qiymətli kağızlar bazarını;
- qısa və uzunmüddətli bank kreditləri bazarını.

Kredit bazarlarının inkişaf səviyyəsi və fəaliyyəti, bilavasitə pul bazarına təsir göstərir. Ona görə də pul bazarında tələb və təklifin dəyişilməsi iqtisadiyyatın pul sisteminin vəziyyətindən asılıdır. Sərvətin heç bir forması **pul qədər likvid** olmadığından, ona olan tələb iqtisadiyyatın bütün bölmələrində artır. Pula olan tələbin iki mühüm konsepsiyası mövcuddur:

- Neoklassik ənənələr əsasında formalaşmış **monetarist nəzəriyyə**. Burada pulun kəmiyyət nəzəriyyəsinin əsas müddəalarına əsaslanaraq hesab edilir ki, tədavüldə pulun artırılması qiymətlərin artırılmasına səbəb olur və əksinə. Ona görə də pula olan tələbin həcmi asılı olur:

- qiymətlərin mütləq səviyyəsindən;
- real istehsalın həcminin səviyyəsindən;
- pulların tədavül sürətindən.

Pula olan tələbin ikinci konsepsiyası keynsçiliyə məxsusdur:

- **Likvidliyə üstünlük vermə nəzəriyyəsi.** Burada insanların sərvətlərinin bir qisminin pul şəklində saxlamağın üç səbəbi göstərilir:

- pulların əməliyyat amili kimi saxlanılması;
- pulların ehtiyat amili kimi və ya «aktiv balans» kimi saxlanılması;
- pulların möhdəkirlik amili kimi saxlanılması.

**Müasir pul nəzəriyyəsi** likvidliyə üstünlük vermənin əməliyyat, ehtiyat, möhdəkirlik amillərini inkar edərək, sübut etməyə çalışırlar ki, pula tələb **faiz dərəcəsindən** asılı olaraq formalaşır.

Qrafik təsvir vasitəsilə bu nəzəriyyənin mahiyyətinə diqqət yetirək (şəkil 1). Şaquli xətt üzərində faiz dərəcəsi «r» kimi, üfüqi xətt üzərində isə «M» kimi pula tələb göstərilir. Pula məcmu tələb əyrisi isə «$M_d$» kimi əks olunur. Göründüyü kimi, faiz dərəcəsi 10 vahid olduqda, A nöqtəsində pula olan tələb 300 vahidə, B nöqtəsində isə faiz dərəcəsi 5 vahidə düşdükdə pula olan tələb 600 vahidə qədər yüksəlmişdir. Lakin, pula məcmu tələb əyrisi birmənalı şəkildə faiz dərəcəsi ilə pul kütləsinin həcmi arasındakı əlaqə ikili xarakter daşıyır.

Birinci halda əgər pul tədavül vasitəsi hesab olunan işgüzar, əməliyyat, transaksion prosesinin aparılması və dəyərin saxlanılması kimi aktivlərin, ehtiyatların və möhdəkirlik vasitəsi kimi **tələb məhdudlaşdırılarsa**, onda məcmu tələb əyrisi dəyişilər.

İkinci halda dəyərin saxlanılması kimi pula tələb faiz dərəcəsindən asılı olur və o şəkil 1-dəki vəziyyəti alır. Deməli, pula tələb yalnız faiz dərəcəsindən deyil, həm də nominal ÜMM-in həcmindən asılıdır. Pula olan tələbin dəyişməsi, həmçinin **qısa və uzunmüddətli dövrlər** ərzində pulun mütləq likvidliyinə üstünlük verilməsi meyli ilə əlaqədardır. Bu da qiymətli kağızların saxlanılması ilə bağlıdır. Bu o deməkdir ki, insanlar qiymətli kağızların gələcək qiymətlərini nəzərə alaraq, həm də gələcək faiz dərəcələri ilə möhdəkirlik edirlər. Pulların qısa və uzun müddətə saxlanılması bilavasitə **itki ehtimalı** ilə əlaqədar olduğundan və qeyri-müəyyənliklə bağlılığından hər dəfə yeni möhdəkirliyin baş verməsi təbii halda iqtisadi konyukturanın dəyişməsi, real ÜDM-in artım tempi, iqtisadi fluktuasiyanın nəzərə alınması pula olan tələbin səviyyəsinə təsir göstərən amillər kimi qiymətləndirmək lazımdır.




**Şəkil 1. Pula məcmu tələb əyrisi**

İndi isə **pul təklifini** araşdıraq. Biz nəyin pul olub-olmadığını özümüz üçün müəyyənləşdirdik. Bizə aydın oldu ki, insanların əmtəə və xidmətlərin ödənilməsinə yönəltdiyi və mütləq likvid xarakter daşıyan vəsaitlər puldur. Həm də gördük ki, o vəsaitlərə ki, dövlət təminatı yüksəkdir, onlar pul hesab olunur. Çünki artıq biz bilirik ki, kağız pullarla yanaşı, metal pullar da mövcuddur. Eyniliyi ilə bank depozitlərində olan kredit pullar da mövcuddur. Deməli, qeyd olunan bu pul formalarından biz eləsinə müraciət etməliyik ki, o həqiqətən «pul kimi pul funksiyasını» yerinə yetirir və o necə təklif olunur və ona kim tərəfindən nəzarət olunur.

**Pul təklifi dedikdə – müvafiq pul aqreqatlarından əmələ gələn pul kütləsi və ya mövcud dövrdə-anda tədavüldəki tədiyyə vasitələrinin cəmi nəzərdə tutulur.**

Pulu iqtisadiyyata təklif edənlər:

- Mərkəzi Bank;
- Kommersiya bankları;

- Əmanətçilər. Pullarını depozit şəklində banklarda saxlayan fiziki və hüquqi şəxslər.

Pul təklifinə nəzarəti Mərkəzi Bank həyata keçirməklə, həm də onun kütləsini tənzimləyir.

Pulun təklifində banklar mənfəət hasil edən maliyyə vasitəçiləri kimi xüsusi rol oynayırlar. Onların kredit vasitələri məhdud dairədə pul funksiyalarını yerinə yetirir. Bankların depozitləri pul təklifinə nə zaman və necə təsir etdiyinə diqqət yetirək. Tutaq ki, siz bağ evi tikdirməkdən ötrü sərəncamınızda olan nağd 10.000 manatı A bankına depozitə qoyursunuz. Həmin vəsait Kommersiya Bankının passivinə çevrilərək, öhdəçilik vəsaiti kimi tələb etdiyiniz vaxtda onları sizə qaytarmağa **borcludur**. Depozitin yerləşdirilməsindən sonra pul təklifi elə həmin məbləğdə nağd puldan nağdsız pula çevrilir. Bu halda şəraitdə nə baş verdiyinə diqqət yetirdikdə bəlli olur ki, ölkədə pul kütləsinin artıb və azalmasında heç nə baş verməmişdir. Belə şəraitdə bankın heç bir gəlir əldə etmədiyi müşahidə olunur ki, bu da bank fəaliyyətinə xas olan cəhət deyil. Ona görə də banklar qismən **ehtiyatlandırma** sistemindən istifadə edir. Yəni ehtiyatlar qəbul olunmuş qaydaların məbləğinin müəyyən hissəsini təşkil edir. Maliyyə böhranı və sarsıntıları istisna olunmaqla, banklar öz ehtiyatlarını depozitlərin qəbul olunmuş məbləğinin yalnız müəyyən məbləği həcmində saxlayır. Tutaq ki, 20% həcmində ehtiyatla kifayətlənirlər. Onda bizim misalda bu, qoyuluşların beşdə biri deməkdir. Belə şəraitdə A bankının yekun mövqeyi olacaqdır:

*A bankı*

| **Aktivlər** | **Passivlər** |
|---|---|
| Ehtiyatlar 2000<br>Ssudalar 8000 | Depozitlər 10.000 |

Ssudaların verilməsi ilə artıq A bankı gəlir əldə etməyə başlamışdır. Fərz edək ki, fərdi tikinti ilə məşğul olan şəxs qaraj tikintisi üçün banka müraciət edərək ondan 8.000

məbləğində ssuda alır. İndi diqqət yetirək görəsən pul təklifində nə baş verdi? Depozit hesabda 10.000 manat və nağd pul vəsaiti 8.000 manat. Pulun miqdarı nağd və nağdsız formada 18.000 manata çatdı. Tikinti aparan şəxs daş karxanasından daş, dəmirçi sexindən dəmir qapı və s. alır. Onların satıcıları tikinti aparan şəxsin pullarının xərclənməsindən sonra əldə etdikləri gəlirləri B bankına yerləşdirirlər. Bu bankın balans hesabı aşağıdakı kimidir:

*B bankı*

| **Aktivlər** | **Passivlər** |
|---|---|
| Ehtiyatlar 1600<br>Ssudalar 6400 | Depozitlər 8000 |

B bankının aktivləri onun passivlərinə bərabərdir. Lakin depozitlərin 20%-ni (1.600 manatı) ehtiyatlar şəklində saxlayır, yerdə qalan hissəsini – 6.400 manatı müəyyən faizlə ssudaya verir. Axı hamının pula böyuk ehtiyacı var. Elə qaraj tikdirənin qonşusunun oğlu «Vaz» markalı maşınların ehtiyat hissəsinin alqı-satıcısı ilə məşğul olur və həmin pulları o, ssuda şəklində alıb əldə etdiyi qazancı C bankına yerləşdirib. Bu bank əməliyyatından sonra kommersiya banklarının hərəkətinə baxaq:

*C bankı*

| **Aktivlər** | **Passivlər** |
|---|---|
| Ehtiyatlar 1280<br>Ssudalar 5120 | Depozitlər 6400 |

Burada bir cəhəti yada salmalıyıq ki, kommersiya bankları ehtiyatları istəklərinə uyğun deyil Mərkəzi Bank tərəfindən «məcburi ehtiyat forması kimi» təyin olunur. Ona görə də bizim misalda bütün kommersiya bankları üçün ehtiyatların norması 20% təşkil edir. Rəqəm simvolik xarakter daşıyır.

Pul təklifində kommersiya banklarının rolu ilə tanışlıqdan sonra bizə aydın olur ki, burada əhəmiyyət daşıyır:

- Depozitlərin - D, bank əmanətçilərinin qoymuş olduğu məbləğ;

- Ehtiyatlar - R, əmanətçilərin tələblərinin dərhal ödənilməsi üçün nəzərdə tutulan məbləğ.

Nəzərə alaq ki, Mərkəzi Bank tərəfindən təyin olunan **məcburi ehtiyat normasından** əlavə, kommersiya bankları öz mülahizələrinə görə də öhdəliklərdən **artıq** və ya **əlavə** ehtiyatlar da saxlayırlar. Bu onunla əlaqədardır ki, banklar öz tədiyyə qabiliyyətini qorumaq və inkişaf etdirmək istəyirlər. Lakin bizim göstərdiyimiz misalda sadəlik naminə artıq və ya əlavə ehtiyatların saxlanılmasını qeyd etməmişik.

Məcburi ehtiyat norması (rr) – bu ehtiyatların məbləğinin depozitlərin məbləğinə olan nisbətidir. Yəni rr =R/D. Bizim misalda rr – ehtiyat norması 20%-ə bərabərdir. Reallıqda isə onun norması depozitlərin növündən, müddətindən asılı olaraq tərəddüd etdiyindən müxtəlif olur. Dünya ölkələrində məcburi ehtiyat normaları 1-25% arasında tərəddüd edir.

Kommersiya banklarının ehtiyatları MB-də saxlanılır və onun passivinə çevrilir. Saxlanılan ehtiyatlara görə də ya faiz ödənilmir, ya da çox aşağı səviyyədə olur. Ona görə də rr-in artması kommersiya bankları üçün sərfəli olmur. Çünki belə şəraitdə onların mənfəəti azalır. Lakin pul kütləsinin tənzimlənməsi və inflyasiya səviyyəsinin qarşısının alınması naminə MB rr-in tətbiqi ilə qabaqlayıcı tədbirlərini görür. Qayıdaq gətirdiyimiz misala. Görəsən kommersiya banklarının fəaliyyətindən sonra pul təklifində nə baş verdi?

Diqqət yetirək:

**İllik depozit:** - 10.000 manat

A-bankı ssudası – 8.000 manat

B- bankı ssudası – 6.400 manat

C- bankı ssudası – 5.120 manat

-----------------------------------------

-----------------------------------------

-----------------------------------------

Lakin yekun olaraq bank sistemi tərəfindən yaradılan pul təklifi – 50.000 manata çatacaq. Həndəsi silsilə yolu ilə tapdığımız bu məbləğdən bəlli olur ki, bankların ssudalar verdiyi vaxt pullar yaradılır.

Həndəsi silsilə belədir:

10.000 x (1+0,5+0,$8^2$+0,$8^3$+......) = 10.000 x (1/rr) = 10.000 x 5 = 50.000

Deməli, belə aydın oldu ki, bank sisteminin pul yaratma prosesi, **depozit multiplikatorunun** hərəkəti ilə əlaqədardır. Ona görə də depozit multiplikatoru pul təklifinin mühüm elementi olmaqla, onun multiplikator vəziyyətinə gətirib çıxarır.

**Pul multiplikatoru** dedikdə – bu pul bazasının hər vahid artdığı şəraitdə pul təklifinin ölkə üzrə nə qədər artdığı nəzərdə tutulur.

**Depozit multiplikatoru** dedikdə – bu pul bazasının hər vahid artdığı şəraitdə kommersiya banklarının depozitlərinin maksimum nə qədər arta biləcəyi nəzərdə tutulur.

Pul multiplikatoruna təsir göstərən ikinci mühüm amil kredit multiplikatorudur. **Kredit multiplikatoru** dedikdə – bu pul bazasının hər vahid artdığı şəraitdə əhaliyə bank kreditlərinin məbləğinin maksimum nə qədər arta biləcəyi nəzərdə tutulur.

Pula olan tələb və təklifi müəyyənləşdirdikdən və onların çox amillərdən asılı olduğunu bildikdən sonra onların tarazlığı barədə düşünməliyik. Çünki, pul **mütləq likvidlikdən, qiymətlərin orta səviyyəsindən və tədavül sürətindən** daha çox asılı olduğundan, digər şərtlər bərabər götürüldüyü şəraitdə pula tələblə təklif arasında tarazlıq formalaşır. Diqqət yetirək, bildiyimiz kimi, pul tədavül vasitəsi funksiyasını yerinə yetirdiyindən, onun başqa aktivlərdən, səhm və istiqrazlardan fərqli olaraq, onlar müxtəlif əmtəə və

xidmətlərin ödənilməsində istifadə olunur. Həm də hər bir alıcı alış-verişini yanında olan pulun məbləği ilə aparır. Aldığı malların qiymətində baş verən dəyişiklik isə onun xərclədiyi pulun məbləğinə təsir göstərir. O da bəllidir ki, əmtəə və xidmətlərin qiyməti bir qayda olaraq daha çox yüksəlmək istiqamətində olur. Ona görə də hər bir sövdənin yerinə yetirilməsi üçün daha çox pul məbləği tələb olunacaq. Bu isə o deməkdir ki, hər bir alıcı pul kisəsində daha çox pul saxlamaqla yanaşı cari hesabından da pul çıxarmalı olacaq. Beləliklə görürük ki, qiymətlərin səviyyəsinin yüksəlməsi, nəinki pula olan tələbi artıracaq, həm də cari hesablardan pulların çıxarılması və ya depozitlərə pulların qoyulmasından pul təklifinin azalmasına da təsir göstərəcək.

Başqa bir cəhəti də yada salaq ki, mütləq likvidliklə qazanc tərs mütənasibdir. Likvidsizlik çox yüksək qazanc səviyyəsi ilə kompensasiya olunmalıdır. Yalnız pul tərəfindən təmin olunan mütləq və ya tam likvidlik qazancın tamamilə itməsinə səbəb olur. Lakin nəzərə alsaq ki, likvidlik pul sahibi üçün həm də **sərvətin saxlanılması** arzusunu yerinə yetirir, ona üstünlüyün verilməsi **faiz qazancının** əldə olunması ilə hüdudlaşır. Ona görə də mütləq likvidlik faiz dərəcəsinin səviyyəsindən asılı olaraq bölüşdürülür.

Mərkəzi Bankın dövriyyəyə buraxdığı pul vəsaitləri həcminin əhalinin onlara olan tələbinin müvazinətliliyinin təmin olunması **qısamüddətli dövr üçün faiz dərəcəsi** əhəmiyyətlidir. Lakin **uzunmüddətli dövr üçün isə qiymətlərin ümumi səviyyəsi** pula olan tələblə təklifin müvazinətliyində xüsusi rol oynayır.

İndi isə pul bazarında məcmu pul təklifi ilə məcmu pul tələb arasındakı makroiqtisadi modelin qrafik təsvirinə diqqət yetirək.




**Şəkil 2. Pul bazarının makroiqtisadi modeli**

Gördüyümüz kimi, müxtəlif faiz dərəcələri ilə pul təklifi ilə ona olan tələbin müvazinətliyi $r_E$ səviyyəsi ilə E nöqtəsindədir. Bu o nöqtədir ki, iqtisadi subyektlər müvazinətli faiz dərəcəsində bank sistemininin təklif etdiyi pulun miqdarına uyğun gələn $M_E$ və $r_E$ müvazinətli qiymətləri əldə olunub. Əgər faiz dərəcəsi müvazinətli səviyyədən yuxarı qalxarsa, onda pulların saxlanılmasının alternativ dəyərinin artması baş verəcək və pula tələb $M_1$ nöqtəsinə qədər azalacaq. Əksinə, əgər faiz dərəcəsi müvazinətli səviyyədən $r_2$ nöqtəsinə enərsə, onda pulların saxlanılmasının alternativ dəyəri və pula olan tələb artacaq.

Hər bir müvazinətin əmələ gəlməsinin qeyri-müvazinətlikdən törəndiyini nəzərə alaraq deməliyik ki, pul bazarında müvazinətin pozulması həm pula tələbdə, həm də pul təklifində olan dəyişikliklərlə əlaqədardır. Ona görə də pul bazarında pula tələb və pul təklifi arasındakı müvazinətin yaradılması onların **həcmləri arasındakı bərabərliyin yaradılması** ilə əlaqədardır. Pul bazarında müvazinətin qorun-

ması yeridilən pul-kredit siyasəti ilə əlaqədar olub, bilavasitə bank sisteminin səmərəli fəaliyyəti ilə əlaqədardır.

## 14.3. Kreditin funksiyaları və rolu

Bazar iqtisadiyyatının sivilizasiyalı xarakter alması bilavasitə kreditin rolu ilə əlaqədardır. Tarixi iqtisadi kateqoriya kimi **kredit** (lat.-borc) bəşəriyyətdə öz mahiyyətini əks etdirməklə, iqtisadi inkişafın dövrləşməsi mərhələlərində müstəsna əhəmiyyət daşımaqla, bazar iqtisadiyyatının müasir vəziyyətinə xas olan cəhətləri ilə fəaliyyət göstərir. Qeyd etməliyik ki, müasir kredit sistemi **iki cəhəti özündə** ehtiva edir:

- birincisi, funksional cəhət şəklində kreditləşmənin forma və metodlarının məcmusu kimi;

- ikincisi, institusional cəhət şəklində sərbəst pul vəsaitlərini toplayan və borc verən maliyyə-kredit təşkilatları kimi.

Bazar iqtisadiyyatında kredit özünü bilavasitə borca verilmiş pul kapitalının hərəkət formasıdır. Kapitalın hərəkət formasından törənən və təkrar istehsal prosesinin fasiləsizliyindən irəli gələn **zəruri iqtisadi prosesdir**. Kreditin zəruri xarakter daşımasının əsasında durur:

- istehsal prosesinə sərf olunan pul vəsaitləri ilə onların geri qayıtması arasındakı daimi xarakterli vaxt fərqinin olması;

- istehsal xərclərinin və borc öhdəliklərinin vaxtında ödənilməsi üçün pul resurslarına ehtiyacın olması;

- iqtisadiyyatın müxtəlif sahələrində mövsümlüyün olması üzündən kredit resurslarına tələbatın olması;

- iqtisadiyyatın ayrı-ayrı sahələrinin vaxtaşırı yeniləşdirilməsi və modernləşdirilməsi naminə investisiyaya əlavə ehtiyacın olması.

Bəllidir ki, iqtisadi resursların hamısı təkrar istehsal prosesindən keçir. Lakin bir neçə nəsil tərəfindən yığılmış istehsal vasitələri kimi mövcud olan kapital resursları bir istehsal sahəsindən digərinə ötürülə bilməz. Buna onun fi-

ziki cəhəti imkan vermədiyindən ötürülmə prosesi pul şəklində kredit vasitəsilə həyata keçirilir.

Kapitalın dövriyyəsi istehsalın müxtəlif sahələrində müvəqqəti sərbəst pul vasitələrinin azad olmasına şərait yaradır. Bu da öz növbəsində **borc kapitalını** əmələ gətirir. Borc kapitalı formasını alan sərbəst pul vəsaitləri tətbiq olunma sahəsini tapmaq üçün hərəkət etmək zəruriyyətində qalır. Əks təqdirdə o özü-özünə dəyərini artıra bilməz. Ona görə də borc kapitalı kredit formasında, başqalarının ehtiyacını ödəməkdən ötrü bir sahədən digər sahəyə hərəkət edir. Əslində kreditləşmə prosesi sərbəst pul resurslarının təkrar bölgüsünü həyata keçirməklə, yaranmış çatışmazlıqları aradan qaldırır.

Borc kapitalının mənbəyini təkcə bir sahədə yaranmış sərbəst pul vəsaitləri ilə deyil, həm də bir sıra fərqli sahələr üzrə yaranan resurslar təşkil edir. Bura daxildir:

- firmaların dövriyyə vəsaitlərinin alınması üçün nəzərdə tutduqları pul vəsaitlərinin vaxta görə sərbəstləşməsi;
- əsas kapitalın tam bərpası üçün nəzərdə tutulmuş amortizasiya fondlarının formalaşması prosesində əmələ gələn vəsaitlər;
- istehsalın inkişafına yönəldiləcək mənfəətin bir hissəsinin istehsalın miqyasından və mövcud konyunkturadan asılı olaraq onların tətbiqindən yaranan sərbəst pul vəsaitləri;
- əhalinin müddətli əmanətləri;
- dövlətin pul yığımları.

Qeyd olunan bu mənbələr hesabına formalaşan kredit, artıq bir neçə **funksiyanı** yerinə yetirmək qabiliyyətini alır.

Bura daxildir:

- pul resurslarının kapital formasında toplanması;
- pul kapitalının təkrar bölgüsü;
- nağd pulların kredit pulları ilə (veksel, çek, banknot) əvəzlənməsi hesabına tədavül məsrəflərinin azaldılması;

- kapitalın mərkəzləşdirilməsi və təmərküzləşdirilməsi prosesinin sürətləndirilməsi;

- tənzimlənmə mexanizminin vasitələrindən biri kimi çıxış etməsi.

Kreditin başlıca xüsusiyyətləri ibarətdir:

- müddətli olması;
- geri qaytarılması;
- borc faizinin əmələ gətirilməsi.

Kreditləşmə prosesində əsas yeri pul vəsaitlərinin borca verilməsi ilə əlaqədar faiz **normasının** müəyyənləşdirilməsi tutur. Borc faizinin səviyyəsi borc kapitalı bazarında tələb və təklifdən asılı olduğundan faiz norması dəyişilən kəmiyyətdir. Yəni **borc faizi məbləğinin borc kapitalının kəmiyyətinə olan nisbəti** kimi müəyyənləşən faiz norması, konkret dövrün iqtisadi vəziyyəti ilə əlaqədardır.

Borc faiz kəmiyyətinə və onun aşağı və yuxarı həddinə təsir göstərir:

- inflyasiyanın səviyyəsi;
- istehsalın miqyası;
- firmaların sərbəst pul ehtiyatları;
- əhalinin əmanət və nağd ehtiyatları;
- beynəlxalq amillər (qlobal maliyyə böhranını yada salaq).

Mərkəzi Bankın həyata keçirtdiyi «sərt» və ya «yumşaq» pul siyasəti.

Kreditləşmə prosesi uzun tarixi inkişaf mərhələlərindən keçərək müasir forma almaqla, bazar sisteminin mütərəqqi xarakter almasına təkan vermişdir. Kreditləşmənin ilk tarixi forması **sələm** şəklindəki kreditdir. Çox qədim zamanlardan meydana gələn sələmçilik əmtəələrin mənimsənilməsini pul şəklində həyata keçirilməsini əvəzləyərək gəlirin artmasını nəzərdə tuturdu. Belə kreditləşmə nəinki gəlirlərin artımına imkan verirdi, hətta quldarlığın əmələ gəlməsinin mühüm amilinə çevrilmişdi. Sələmi vaxtında ödəyə bilməyənlər uşaqlarını, həyat yoldaşını, daha sonra özünü

faiz əvəzinə ömürlük sələm sahibinin ixtiyarına qul şəklində verirdi. Bu baxımdan Qədim Mesopatomiya hökmdarı Xammurapinin (e.ə. 1792-1750) verdiyi qanunları qeyd etmək olar. Belə ki, sələmçiliyin geniş yayılmasının qarşısını almaq məqsədi ilə qul borc verilməsi müddəti üç ildən, pul formasındakı sələmin həddi 20%-dən, natural formada isə 33%-dən çox ola bilməzdi. Maraqlananlar ətraflı şəkildə «İqtisadi təlimlər tarixi» dərsliyindən daha ətraflı məlumat əldə edə bilərlər. Kapitalist istehsalının təşəkkülü və bazar iqtisadi sisteminin meydana gəlməsi kreditləşmə sahəsində mütərəqqi irəliləyişlərin baş verməsinə səbəb oldu.

Beləliklə də kreditin aşağıdakı formaları meydana gəldi:

- kommersiya krediti;
- istehlak krediti;
- ipoteka krediti;
- bank krediti;
- beynəlxalq kredit;
- dövlət krediti.

**Kommersiya krediti** – burada əsas məqsəd əmtəənin **ödənişini etmədən** onun borca müddətlə verilməsidir. Belə şəraitdə mənfəətin reallaşdırılmasının sürətləndirilməsidir. Kommersiya kreditlərindən istifadəyə görə olduğundan ödənilən faizin səviyyəsi sələm kreditləşməsindən xeyli aşağıdır. Belə kreditləşmə kapitalist əmtəə münasibətlərindən irəli gəlirdi. Lakin bazar sisteminin formalaşması kommersiya krediti sahəsində bir sıra məhdudiyyətlər qoydu ki, bunlardan ən əsası onun **qısamüddətli** xarakter daşımasıdır. Halbuki kreditə tələbat uzunmüddətli də ola bilər.

**İstehlak krediti** – burada əmtəələrin pərakəndəsatış marketinqlərindən **haqqının gec** ödənilməsi şərti ilə kommersiya krediti formasında çıxış edir. İstehlak kreditinin verilmə müddəti adətən üç ildən yuxarı nəzərdə tutulmur və onun qiyməti xeyli yuksək olur. Bəzi hallarda bu müddət 5 ilə qədər uzadılır ki, bu da çox hallarda minik avtomaşınla-

rının satışında müşahidə olunur. İstehlak krediti məqsədi ilə bankların verdiyi borclar da istehlak krediti formasını alır.

**İpoteka krediti** – burada mənzillərin alınması və ya tikilməsi və torpaq sahələrinin alınması üçün daşınmaz əmlakın girov qoymaq yolu ilə **uzunmüddətə** verilən borc nəzərdə tutulur. Məsələn, Azərbaycanda 25-30 il müddətinə mənzilə görə ipoteka krediti verilir. 4% sosial, 8% isə adi ipoteka kreditləri 35-50 min manat həcmində, onun da ilkin həcminin 30% nağd ödənilməsi yolu ilə həyata keçirilir. Lakin mənzillərin qiymətinin baha olması, əməkhaqqının orta səviyyəsinin aşağı olması ipoteka kreditinin ləngidici amili kimi fəaliyyət göstərir. Görünür bu istiqamətdə gələcəkdə dövlət səviyyəsində ciddi addımlar atılacaq.

Bir cəhəti də yada salaq ki, ipoteka kreditinin geniş vüsət almış olduğu inkişaf etmiş ölkələrdə, xüsusən ABŞ-da, Kanadada, İngiltərədə iqtisadi konyunkturadan asılı olaraq 10-30% səviyyəsində çox iri məbləğlərlə verilir. Lakin onun şişirdilmiş məbləği və nəzarətdən kənar istifadə olunması ölkə iqtisadiyyatına kəskin təsir göstərir. Məsələn, 2008-ci ildə baş vermiş dünya maliyyə böhranının səbəblərindən biri kimi ABŞ-da ipoteka krediti olmuşdur.

Ancaq unutmaq olmaz ki, müasir bazar iqtisadiyyatının imkansızlığından irəli gələn sosial ehtiyacların ödənilməsində ipoteka krediti xüsusi rol oynayır:

- cavan nəsl sərbəst yaşayış imkanı verir;
- fəaliyyət göstərən hər bir kəsə layiq olduğu yaşayışa təminat verir;
- tikinti sektorunun və kənd təsərrüfatının sürətli inkişafına şərait yaradır.

**Bank krediti** – növbəti sualda haqqında daha ətraflı danışacağımız kreditin bu forması **istənilən iqtisadi subyektlərə** borc pulun verilməsi nəzərdə tutulur. Bank krediti hər cür məhdudiyyətlərdən kənar, ehtiyatlarından asılı olmayaraq, imkanları çərçivəsində istənilən istiqamətdə fəaliyyətini genişləndirə bilir. Ona görə də banklarla yanaşı,

sərbəst pul resursları olan və lisenziya əldə etmək yolu ilə maliyyə-kredit təşkilatları da banklara bənzər fəaliyyət göstərməklə mənfəət əldə edirlər. Bank kreditləşməsinin üstün cəhəti ibarətdir:

- fəaliyyətdə olan kapitalın fasiləsiz dövriyyəsinə imkan yaradır;
- istehsalın miqyasının genişləndirilməsinə və yeniləşdirilməsinə təkan verir.

**Beynəlxalq kredit** – burada borc kapitalının **dövlətlərarası** hərəkəti nəzərdə tutulur. Beynəlxalq kreditlər verilir:

- ya əmtəə formasında;
- ya da valyuta formasında.

Beynəlxalq kreditləşmənin aparılmasında həm beynəlxalq təşkilatlar (DB, BVF, İslam İnkişaf bankı, Asiya İnkişaf Bankı və s.), həm də Kommersiya Bankları, özəl müəssisələr iştirak edirlər.

**Dövlət krediti** – burada borc verən kimi dövlət və yerli hakimiyyət orqanları, borc alanlar kimi kiçik və orta sahibkarlar iştirak edirlər. Bəzi strateji sahələrin inkişafı məqsədi ilə dövlət iri biznesi də kreditləşdirir. Hal-hazırda dövlət krediti formasından ölkəmizdə Sahibkarlığa Kömək Milli Fondu timsalında geniş istifadə olunur. Onun vəsaitləri gündən-günə artaraq regionlarda sahibkarlığın inkişafına yönəldilir.

Dövlət kreditləşməsinin bir xarakterik xüsusiyyəti ondan ibarətdir ki, o, həmçinin aşağı rentabelli sahələrə yönəldilir ki, o da milli iqtisadiyyatın təkrar istehsal prosesinin miqyasının genişləndirilməsi üçün əhəmiyyətlidir. Xüsusən infrastruktur sahələrinin kreditləşdirilməsini misal göstərmək olar. Körpülərin salınması, yolların çəkilməsi, bəndlərin tikilməsi, yeni kanalizasiya xətlərinin çəkilməsi və s. qeyd etmək olar.

Dövlət kreditləşməsinin əhəmiyyəti bilavasitə milli iqtisadiyyatın müvazinətli inkişafı və əhalinin yaşayış imkanlarının yaxşılaşdırılması ilə əlaqədardır.

Sadalanan kreditin bu formalarının mahiyyətindən və yerinə yetirdiyi funksiyalardan asılı olmayaraq belə qənaətə gəlmək olar ki, sərbəst pul vəsaitlərinin toplanması, onların borc kapitalına çevrilməsi və yaranan tələbatlara istiqamətləndirilməsi obyektiv olaraq vasitəçi institutların yaradılmasını zəruriləşdirir. Belə **vasitəçi institutlar** tarixi inkişaf mərhələlərində banklar formasında meydana gəlmiş və formalaşmışdır.

## 14.4. Bank sistemi

Banklar – kredit institutu olub, sərbəst pul vəsaitlərinin axınını təmin və idarə edən bütün pul dövriyyəsini əlində cəmləşdirməklə, iqtisadiyyatın ayrılmaz hissəsidir.

Bank ifadəsi italyanca «banca»-pul masası sözündəndir. Onun yaranma tarixi orta əsrlərə təsadüf edir. Belə ki, Şərq ölkələri ilə Avropa arasındakı ticarət əlaqələrinin yolları İtaliyadan keçirdi. Xüsusən XV əsrin əvvəllərindən başlayaraq Venesiyada, Genuyada, Florensiyada banklar yaranmağa başlamışdır. İtaliyada bankların yaranması 1587-ci ilə təsadüf edərək nağdsız ödənişlər və veksel şəklində həyata keçirilirdi. Daha sonra Avropanın digər ölkələrində İtaliya banklarının prinsipləri əsasında yayılmağa başlamışdır. XVII əsrin ortalarından başlayaraq, kapitalizmin ilkin **kapital yığımı dövrünün** sürətlə inkişaf etməsi nəticəsində artıq banklar iqtisadiyyatın ayrılmaz hissəsinə çevrilərək bütün pul dövriyyəsini öz əllərində cəmləşdirə bilmişdilər.

Azərbaycanda ilk bank XIX əsrin ortalarından etibarən Rusiyanın işğalından sonra meydana gəlmişdir. Rusiyanın ən iri bankı hesab olunan Rus-Asiya Bankının filialı Azərbaycanda açılmışdır. Sonralar ölkəmizdə neft sənayesinin inkişafı, kapitalist iqtisadi münasibətlərinin formalaşması, bank fəaliyyətinə məxsus demək olar ki, bütün bank və mühasibat uçotu əməliyyatları həyata keçirilirdi.

1920-ci ildə bolşevizmin Azərbaycana daxil olması, həm bankların milliləşdirilməsi ilə, həm kommersiya prinsiplərinin aradan qaldırılması ilə, həm onun inzibati prinsiplərə tabe etdirilməsi ilə və bütövlükdə fəaliyyət göstərən bankların SSRİ Mərkəzi Bankının şöbələrinə çevrilməsi ilə nəticələndi.

1991-ci il 18 oktyabrda müstəqilliyin bərpasının elan olunması dövründən sonra ölkədə ikipilləli bank sistemi – **Mərkəzi Bank** və **kommersiya bankları** meydana gəldi. Həmçinin müasir kredit sistemində borc kapitalları bazarının inkişafı üçün **sığorta bölməsinin** və **qeyri-bank sektoru kimi ixtisaslaşmış maliyyə-kredit institutlarının** yaradılması imkanları əmələ gəldi.

Lakin nəzərə almaq lazımdır ki, kredit sistemi üçün xarakterik olan bu dördpilləli strukturlar heç də bazar sistemli ölkələrdə eyni səviyyədə istifadə olunmur. Bəzi ölkələrdə ikıpilləli bank sisteminə, bəzilərində üçpilləli sistemə, bəzilərində isə dördpilləli sistemə üstünlük verilir. Məsələn, Qərbi Avropanın inkişaf etmiş ölkələrində ABŞ-da, Yaponiyada dördpilləli kredit sisteminə üstünlük verilir. Ölkəmizdə ilkin olaraq ikipilləli bank sistemi, hazırda isə üçpilləli kredit sistemindən istifadə formalaşmaqdadır.

Kredit sisteminin qurulmasının **əsas prinsipi** Mərkəzi Bank (emissiya) və yerdə qalan bank sisteminə daxil olanların **funksiyalarının qanunvericilik yolu ilə bölgüsüdür.**

Kredit sisteminin digər vacib prinsipi Mərkəzi Bankın aşağı pilləli banklarının nəzarətdə saxlanılması və tənzimlənməsidir.

Kredit sisteminin başqa və olduqca zəruri görünən bir prinsipi də Mərkəzi Bankın fəaliyyətində ölkədaxili **pul bazarında** rəqabət aparılmasında iştirakına **qadağanın** qoyulmasıdır.

Müasir pul-kredit sisteminin əsasında mərkəzi banklar durur. ABŞ-da MB-in funksiyalarını 1913-cü ildə yara-

dılmış və Vaşinqtondakı Federal ehtiyat sistemindən (FES) və 12 ştatdakı Federal ehtiyat banklarından ibarətdir.

Azərbaycanda Mərkəzi Bank bazar institutu kimi 1991-ci ildən qanunvericiliklə yaradılmışdır. 1996-cı ildə «Banklar və bank fəaliyyəti» haqqında qanunla müvafiq olaraq funksiyaları dəqiqləşdirilmişdir. Bura daxildir:

- nağd pulların buraxılması (emissiya);
- qızıl-valyuta ehtiyatlarının saxlanılması 01 iyun 2011-ci il tarixə Azərbaycanın qızıl ehtiyat 387 kq, 01 aprel 2011-ci il tarixə xalis xarici aktivləri 5826,0 mln $ olmuşdur.
- kommersiya banklarını borc vəsaitləri ilə təmin etmək;
- hökumətin maliyyə agenti olmaq, çünki MB əmanət açır və xəzinədarlığa ssudalar verir;
- kommersiya banklarının fəaliyyətinə nəzarət etmək;
- pul-kredit sistemi əsasında siyasət yetirməklə tənzimlənmə mexanizmini həyata keçirtmək.

MB balansı bəlli olduğu kimi aktiv və passivlərdən ibarətdir.

**MB-in aktivlərinə** daxildir:

- Xarici aktivlər (qeyri-rezidentlərdə yerləşdirilmiş xarici valyuta vəsaiti);
- Kommersiya banklarına kreditlər;
- Hökumətin borc öhdəlikləri.

**MB-in passivlərinə** daxildir:

- Tədavüldə olan nağd pullar;
- Kommersiya banklarının ehtiyatları;
- Hökumətin depozitləri;
- Xüsusi kapital.

MB-nin passivində qeyd olunan yuxarıdakı iki bəndi pul bazasını təşkil edir. Bu barədə artıq pul sistemini izah edəndə qeyd etmişdik.

Bank sektoru və pul sistemi üzrə MB-in həyata keçirtdiyi fəaliyyətə pul-kredit və yaxud monetar siyasət deyilir. Bu siyasətin mahiyyəti ÜDM-in **inflyasiyasız artımından**

**və tam məşğulluğa nail olunmasından ötrü pul təklifi üzərində nəzarətin həyata keçirilməsindən ibarətdir.**

Bazar sistemli ölkələrdə MB-nin əsas məqsədləri ibarətdir:

- iqtisadi artımın təmin olunmasından;
- məşğulluq səviyyəsinin yüksəldilməsindən;
- qiymətlərin sabitliyinin qorunmasından;
- maliyyə və valyuta bazarlarında makroiqtisadi sabitliyə nail olunmasından.

Göstərilən bu məqsədlərin həyata keçirilməsini MB birmənalı şəkildə həyata keçirə bilməz. Çünki bu məqsədlər dəyişiləndir və MB-nin onlara birbaşa nəzarət etmək imkanı yoxdur. Ona görə də MB bilavasitə ona tabe olan məqsədləri seçir və fəaliyyətini onlara doğru **hədəfləyir**. Bura daxildir:

- pul aqreqatları (pul təklifi);
- faiz dərəcəsi;
- valyutanın mübadilə məzənnəsi.

Bu seçilən hədəflərə nail olunması üçün isə MB aşağıdakı **alətlərdən** istifadə edir:

- açıq bazar əməliyyatlarından;
- uçot və yaxud diskont dərəcəsinin dəyişilməsindən;
- məcburi ehtiyat normasının dəyişilməsindən.

**Açıq bazar əməliyyatları** dedikdə əsasən hökumətin borc öhdəliklərinin alqı-satqısı başa düşülür. Həmçinin qiymətli kağızların və dövlət istiqrazlarının alqı-satqısı nəzərdə tutulur. Belə fəaliyyət bazar iqtisadiyyatı inkişaf etmiş ölkələr üçün xarakterikdir. Bizim ölkəmizdə isə etibarlı maliyyə aktivləri hesab olunan **çox yüksək olmasa da,** zəmanətli gəlir gətirən qısamüddətli dövlət qiymətli istiqrazları (DQİ) nəzərdə tutulur.

Dövlət istiqrazlarının MB tərəfindən alınması bu resursların əldə olunmasına imkan yaradır. Yəni pullar sadəcə çap olunmur, «borc» kimi təqdim olunur. İstiqrazları həm kommersiya bankları, həm də əhali saxladığı üçün MB

kommersiya banklarından onların alınması hesabına ehtiyatlardakı pul məbləğinin artımı baş verir. Belə şəraitdə kommersiya banklarına MB-dən istiqrazların alınmasından ötrü daxil olan pullar hesabına onlarda ssuda vermək imkanları genişlənir ki, bu da **pul kütləsinin** çoxalmasına səbəb olur. Deməli, MB pul bazasına təsir göstərmək hesabına pul kütləsinin çoxaldılması ilə **pul multiplikatorunun** fəaliyyətini əsaslandırır.

**Uçot dərəcəsinin dəyişməsi, yaxud diskont siyasət** dedikdə bu bankların kreditləşdirilməsinin əsas əlaməti olmaqla, MB kommersiya banklarına verdiyi kreditlər üzrə **təyin etdiyi faiz dərəcəsidir.** Buna bəzi hallarda yenidən maliyyələşdirmə də deyilir. Burada bir cəhəti nəzərə almaq lazımdır ki, əgər MB uçot dərəcələrini yüksəldirsə, onda bu kommersiya banklarının ona olan borclarını azaldır. Digər tərəfdən isə kommersiya banklarının ssuda vermək imkanlarını azaltmaqla, pul təklifini məhdudlaşdırır. Belə vəziyyətdə kommersiya banklarından ssuda götürən iqtisadi subyektlər üçün daha **yüksək cari faiz dərəcəsi** üzrə ödənişin əmələ gəlməsi baş verəcək.

Uçot dərəcəsi – MB-in kommersiya banklarına müvəqqəti ehtiyatlarının ödəmək məqsədi ilə verə biləcəyi ssudanın minimal dərəcəsini əks etdirir. Daha uzun müddətə kreditlər daha yüksək dərəcələrlə və təminatla verilir ki, bunlar **lombard dərəcələri** adlanır.

**Məcburi ehtiyatlar normasının dəyişməsi** dedikdə, bu, kommersiya banklarının MB-də saxlanılan ehtiyatlarıdır. Əmanətlərin növlərindən və müddətlərindən asılı olaraq məcburi ehtiyat normasının dərəcələri dəyişilir. Dünya təcrübəsində bu 1%-dən 15%-dək dəyişlir ki, bu da MB-lərin həyata keçirdiyi pul-kredit siyasətlərindən asılıdır.

Bank sistemində öz funksional fəaliyyətinə görə mühüm yer tutan **kommersiya banklarıdır.** Bu banklar pul vəsaitlərinin cəlb edilməsi yolu ilə, kreditləşmə prinsipləri

əsasında onların hərəkət və axınlarını təmin etməklə mənfəət əldə edən kredit təşkilatlarıdır.

Azərbaycanda kommersiya banklarının fəaliyyəti (hazırda onların sayı 1rub 2011-ci il tarixdə 43-ə bərabərdir) 4 mart 2005-ci il tarixdə «Banklar haqqında Azərbaycan Respublikasının Qanun»u ilə tənzimlənir. Kommersiya bankları özlərində ölkənin kredit resurslarının böyük hissəsini cəmləşdirir. Digər kredit təşkilatlarından fərqli olaraq kommersiya bankları iqtisadi konyunkturanın dəyişilməsindən asılı olaraq meydana gələn bütün riskləri öz üzərinə götürməklə fəaliyyət göstərir.

Kommersiya banklarının fəaliyyətinin əsasında müəyyən **prinsiplər** durur:

- bankın real resurslara malik olması;
- bankın iqtisadi məsuliyyətindən irəli gələn iqtisadi müstəqilliyinin olması;
- bankın müştəriləri ilə qarşılıqlı münasibətdə olması;
- pul yaratmaq qabiliyyətinin olması;
- hüquqi və fiziki şəxslərin sərbəst pul vəsaitlərinin təkrar bölgüsündə kreditləşmədə vasitəçiliyin həyata keçirilməsi;
- iqtisadi sistemdə fəaliyyət göstərən iqtisadi subyektlərin əmanətə olan meylinin gücləndirilməsi;
- hesablaşma-ödəniş mexanizminin təmin edilməsi;
- qiymətli kağızlarla əməliyyatlarda vasitəçiliyin aparılması.

Kreditləşmə prosesində iştirak edən üçüncü qrup bank olmayan **kredit təşkilatlarıdır** (1rüb 2011-ci ildə onların sayı ölkədə 106 olmuşdur).

Kredit təşkilatları da qüvvədə olan qanunvericiliyə müvafiq olaraq fəaliyyət göstərirlər.

Kredit təşkilatları ayrı-ayrı bank əməliyyatlarını həyata keçirir. Qeyri-bank kredit təşkilatları da banklar kimi bir sıra əməliyyatları yerinə yetirir:

- pul vəsaitlərini hüquqi və fiziki şəxslərdən depozitləşdirməyə cəlb edir;

- pul vəsaitlərinin öz hesabına ödənilmək, qaytarmaq və vaxtında yerinə yetirmək prinsipi ilə yerləşdirir;

- nağd və nağdsız formada xarici valyutanın alqı-satqısını həyata keçirir;

- üçüncü şəxslərə görə öhdəliyin pul şəklində yerinə yetirilməsini nəzərdə tutan zəmanət verir;

- məsləhət və məlumat xidmətlərini görür;

- lizinq əməliyyatları aparır.

Maliyyə etibarlılığının təmin edilməsi məqsədi ilə kredit təşkilatlarının da Mərkəzi Bank tərəfindən müəyyənləşdirilmiş və qanunvericiliyin tələblərinə uyğun gələn ehtiyatları mövcud olmalıdır. Ya fond, ya da qiymətli kağız şəklində.

Kredit təşkilatlarına bir sıra qadağalar şamil olunur ki, bu da onların banklardan fərqi kimi görünür. Adətən, bu, istehsal, sığorta və ticarət istiqamətindəki qadağalarla hüdudlaşır.

# XV FƏSİL. MAKROİQTİSADİ SABİTLƏŞMƏ

**15.1. Makroiqtisadi sabitləşmənin mahiyyəti, məqsədi və prinsipləri**
**15.2. Milli iqtisadiyyatda makroiqtisadi sabitləşmənin alətləri**
**15.3. Makroiqtisadi sabitləşmədə iqtisadi səmərəlilik və kənarlaşmaların yeri**
**15.4. Makroiqtisadi sabitləşmə siyasətinə laqın (uyğunlaşma dövrünün, vaxtın) təsiri**
**15.5. Milli iqisadiyyatda sabitləşdirmə siyasətinin xüsusiyyətləri**

## 15.1. Makroiqtisadi sabitləşmənin mahiyyəti, məqsədi və prinsipləri

Makroiqtisadi nəzəriyyənin meydana gəlməsi milli iqtisadiyyatların **optimal** və **səmərəli** fəaliyyət göstərilməsi istiqamətində yeni iqtisadi mühitin yararlanmasına səbəb oldu. Bu, hər şeydən əvvəl, onunla əlaqədardır ki, dövlət təkcə tsiklik və böhranlı şəraitdə deyil, eyni zamanda qısamüddətli dövrlərdə baş verə biləcək fluktuasiyaların qarşısını almaqdan ötrü məqsədyönlü iqtisadi siyasət yetirmək imkanı əldə edir. Dövlət həyata keçirəcəyi iqtisadi siyasət çərçivəsində ən ümumi şəkildə:

-resursların səmərəli bölgüsünə yönəldilmiş makroiqtisadi siyasət;

-resurslardan qiymətlərin sabitliyi şəraitində tam istifadə edilməsi məqsədi ilə makroiqtisadi siyasət;

-xalis milli məhsulun (XMM) artımına yönəldilmiş xalis ixrac yönümlü meqoiqtisadi siyasət həyata keçirir.

Qeyd olunan bu siyasətlər arasında dövlətin makroiqtisadi sabitləşmə siyasəti aparıcı qüvvəyə malikdir.

Makroiqtisadi sabitləşmə dedikdə, milli iqtisadiyyatın mövcud siyasi-iqtisadi qaydalar çərçivəsində potensial

buraxılışa təminat verən və ona yönəldilmiş tədbirlər kompleksi nəzərdə tutulur. Deməli, ən yığcam şəkildə demiş olsaq, makroiqtisadi sabitləşmə siyasəti dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olub, iqtisadiyyatın stabil və səmərəli fəaliyyətini təmin edən iqtisadi alətlərin məcmusudur.

Makroiqtisadi sabitləşmə elə iqtisadi mühitin yaradılmasına xidmət göstərir ki, o bir tərəfdən **qiymətlərin stabil səviyyəsi ilə tam məşğulluq arasında**, digər tərəfdən isə **iqtisadi artımla ümumi rifahın yaxşılaşdırılması arasında** davamlı əlaqə yaradır.

Müasir dünya təsərrüfatının qloballaşdığı bir şəraitdə, xüsusən də açıq iqtisadiyyatın milli inkişaf modellərində əhəmiyyətli rol oynadığından makroiqtisadi sabitləşmə təkcə ölkədaxili müvazinəti deyil, həm də xaricdəki müvazinətli vəziyyətin **həddini** nəzərə almalıdır. Xüsusən dünya bazarlarında neftin, qızılın, buğdanın, şəkərin və s. qiymətlərindəki qeyri-sabitliklərə reaksiya verilməlidir. Həmçinin, xarici ticarət balansında kapitalın hərəkətində baş verən dəyişikliklər istər-istəməz hər bir ölkənin makroiqtisadi sabitləşdirilmə səviyyəsinə təsir göstərəcək. Digər tərəfdən həddindən artıq xarici borcun artması, xarici iqtisadi əlaqələrin zəifləməsi, sabit qiymət səviyyəsinin saxlanılması, tam məşğulluğun təmin olunması və davamlı iqtisadi artım sürətinin qorunmasına mənfi təsir göstərir.

Makroiqtisadi sabitləşmənin əsas məqsədinə daxildir:

-qiymətlərin sabitliyinin saxlanılması;

-tam məşğulluğun təmin olunması;

-davamlı və səmərəli iqtisadi artıma nail olunması.

Milli iqtisadiyyatların qeyri-müvazinətli xarakter daşıması, qısamüddətli fluktuasiyanın mövcudluğu hər bir ölkənin özünəməxsus makroiqtisadi sabitləşdirmə proqramları olur. Ona görə də qeyri-sabitlik şəraitində iqtisadiyyata dövlət müdaxiləsi üsulları müxtəlif olsa da, lakin ümumi cəhət ondan ibarətdir ki, real buraxılış həddinin qorunması ilə əlaqədar işgüzarlıq fəaliyyətini stimullaşdıran tədbirlər

görülməlidir. Bu baxımdan qeyri-sabitliyin baş verdiyi tsiklik prosesin böhran və depressiya fazalarında hökumət **stimullaşdırıcı** makroiqtisadi siyasət aparır. Lakin tsiklik inkişafın yüksəliş fazasında isə **qoruyucu** makroiqtisadi siyasət aparılır. Yəni işgüzar fəaliyyətə müqabil makroiqtisadi sabitləşdirici siyasət əks hərəkətlər tədbirlərini ifadə edir:

-yüksəliş dövründə iqtisadiyyatın sonrakı dövrlərində məcmu tələb elementlərinin artımının qarşısının alınması üçün qoruyucu tədbirlərin görülməsində;

-tənəzzül dövründə məcmu tələbin stimullaşdırılmasına yönəldilmiş tədbirlərin görülməsində.

Lakin hər iki şəraitin məqsədi birdir, dövlət faktiki ÜDM-un trend xətti ətrafındakı tərəddüdlərinin amplitudlarını yumşaltmağa cəhd göstərir. Obrazlı demiş olsaq, havanın hərarətindən asılı olmayaraq suya olan ehtiyacın ödənilməsi üçün normal şərait yaradır.

Milli iqtisadiyyatlar müxtəlif şərait və qaydalar çərçivəsində formalaşdığından hər bir ölkə iqtisadi inkişafını təmin etməkdən ötrü özünəməxsus proqramlar, strategiyalar müəyyənləşdirir. Bəllidir ki, inkişaf etmiş, inkişaf etməkdə olan, zəif inkişaf edən və keçid iqtisadiyyatlı ölkələrin tətbiq etdikləri makroiqtisadi siyasətlərində fərqli xüsusiyyətlər baş verəcək. Çünki, iqtisadi inkişaf, siyasi, sosial, hüquqi, ekoloji və texniki sferalarda baş verən dərin dəyişiklikləri özündə cəmləşdirən çoxnövlü prosesdir. Lakin buna baxmayaraq **iqtisadi inkişaf strategiyası,** xüsusilə də sabitləşdirmə siyasəti dünya təsərrüfatında tətbiq olunan və bəşər sivilizasiyasının təkamülündən doğan prinsiplərə əsaslanmalıdır. Bu baxımdan makroiqtisadi sabitləşdirmənin prinsipləri kimi göstərmək olar:

-makroiqtisadi müvazinətin yaradılması və qorunması;

-əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması;

-seçilmiş milli iqtisadi inkişaf modelinə uyğun ardıcıl iqtisadi tədbirlərin görülməsi.

Göstərmək lazımdır ki, makroiqtisadi sabitləşdirmə siyasətinin səmərəli həyata keçirilməsi bir sıra əməli xarakterli çətinliklərlə üzləşir. Bu çətinliklərə aid etmək olar:

-tətbiq olunan iqtisadi alətlər arasında müvəqqəti vaxtın (laqın) olması;

-iqtisadi informasiyaların qeyri-təkmilliyi;

-iqtisadi gözləmələrin dəyişkənliyi;

-iqtisadi və tarixi şəraitin müxtəlifliyi.

Makroiqtisadi sabitliyin həyata keçirilməsində əsas çətinlik, onun qarşıya qoyduğu məqsədlərin həyata keçirdiyi zaman baş verir. Bu da ziddiyyətli proseslərin baş verməsinə gətirib çıxarır. Tam məşğulluğun təmini əgər inflyasiyanın aşağı səviyyəsinin saxlanılması üçün edilirsə, lakin işsizliyin azaldılması ilə inflyasiyanın yüksəlməsinin qarşısını necə almaq olar? Göründüyü kimi, bir problemin həlli digər problemi əmələ gətirir. Belə şəraitdə inflyasiya ilə işsizliyin eyni vaxtlı yüksəlməsi ilə «staqflyasiya» prosesi əmələ gəlir.

Makroiqtisadi sabitləşmənin həyata keçirilməsində yaranan problemlərdən biri də iqtisadi alətlərin, yəni fiskal və monetar siyasətin tətbiqi zamanı qeyri-müəyyənliyin olmasıdır ki, bu da laqlarla (vaxtla) əlaqədardır. Bu barədə sonra ətraflı bəhs etsək də, qeyd etməliyik ki, laqlar özünü:

- daxili laqlar şəklində, yəni iqtisadi şoklar momenti ilə uyğun iqtisadi siyasət tədbirlərin görülməsi, qərarların qəbul edilməsi arasındakı aralıq vaxtda əks etdirir.

-xarici laqlar kimi hər hansı iqtisadi siyasət tədbirlərinin qəbul olunması momenti ilə bu tədbirlərin nəticələrinin görünməsi momenti arasındakı aralıq vaxtdır.

Deməli, qeyri-sabitliyin başlanması ilə onun aradan qaldırılmasına yönəldilən iqtisadi siyasət tədbirlərinin həyata keçirilməsi **aralıq vaxtın** olması ilə əlaqədardır. Laqların aralıq vaxt kimi baş verməsinin səbəblərini qeyd etmək olar:

-mövcud problemin dərk olunması ilə;

-uyğun siyasətin reallaşdırılması ilə;

-iqtisadiyyata sabitləşdirici siyasətin təsiri ilə.

Ümumiyyətlə, vaxt mövqeyi nəzərincə makroiqtisadi sabitləşmə qısa vəorta müddətli olur (adətən 1-3 il ərzində). İqtisadiyyatın belə vəziyyətində əsas diqqət məcmu tələbin tənzimlənməsinə yönəldilir ki, onun vasitəsilə makroiqtisadi müvazinətin əsas dinamik ünsürü kimi, məcmu təklifin artımını stimullaşdırsın və ya azalmasını təmin etsin. Başqa sözlə, milli istehsalın həcminin potensial və real istifadə səviyyəsinə çatdırılması üçün stimullaşdırıcı və qoruyucu tədbirlər görülür.

Milli iqtisadiyyatın uzunmüddətli dinamikasının təmininə yönəldilən uzunmüddətli siyasət makroiqtisadi sabitləşdirmədən fərqli olaraq struktur siyasət adlanır. Struktur siyasətin həyata keçirilməsinin əsas məqsədi məcmu təklifin dinamikasına təsir edən tədbirlərin görülməsidir. Dövlətin bu tədbirlərinə daxildir:

-resursların bölgüsünün səmərəli artımının stimullaşdırılması;

-rəqabət mühitinin artırılması;

-istehlak amillərindən səmərəli istifadə olunması.

Bəzi hallarda struktur siyasətinə dar çərçivədə sənaye siyasəti kimi də baxılır. Bir qayda olaraq, inkişaf etmiş ölkələrdə müasir şəraitdə sənaye siyasəti kimi iqtisadiyyatın inkişafı üçün zəruri görünən **prioritet istiqamətlərin seçilməsidir.** Bu da qlobal səviyyədə elmi-texniki tərəqqinin və milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin üstünlüklərindən irəli gələn qanunauyğunluqlarla əlaqələndirilir. Nəticədə prioritet istiqamət dövlət proqramları şəklində qəbul edilir və həyata keçirilir. Belə bir vəziyyət uzunmüddətli dövrdən sonra başlanacaq yeni qısa və ortamüddətli dövrlərdə makroiqtisadi sabitləşdirmə siyasəti ilə bağlı tədbirlərin nisbətən asan və yumşaq reallaşdırma imkanlarını artıracaq. Eyni zamanda qısa və ortamüddətli makroiqtisadi sabitləşmə uzunmüddətli struktur siyasətin dumanlı görnüşündə işıqlı yolun seçilməsinə imkan yaradacaq.

Makroiqtisadi sabitləşmənin mahiyyəti, məqsəd və prinsiplərini aydınlaşdırdıqdan sonra belə qənaətə gəlmək olur ki, ona nail olmaq siyasətinə daxildir:

-sosial siyasət;

-monetar siyasət;

-məcmu təklifdə dəyişikliklərə istiqamətləndirilmiş siyasət.

Lakin makroiqtisadi sabitləşdirmənin həyata keçirilməsində əsas diqqət fiskal və monetar siyasətlərə, onların həm ayrılıqda, həm də sintezləşdirilməsi vəziyyətindəki siyasətə verilir.

## 15.2. Milli iqtisadiyyatda sabitləşmənin alətləri

Bizə artıq bəllidir ki, qısamüddətli fluktuasiyalar şəraitində məcmu tələb və məcmu təklifdə baş verən dəyişikliklər istehsalın həcminə, məşğulluğun səviyyəsinə və qiymətlərin sabitliyinə təsir göstərir. Deməli, işgüzarlıq fəallığında da dəyişiklik baş verir. Dövlətin iqtisadiyyata müdaxiləsi həddindən asılı olmayaraq vəziyyətin normal hala salınması üçün iqtisadi tədbirlərin görülməsinə vadar edir. Bu əsasdan da iqtisad elmində dövlətin makroiqtisadi sabitləşdirmə siyasətinə metodoloji yanaşma baxımından fərqli mövqelər meydana gəlmişdir. Keynsçi **aktiv** makroqtisadi siyasətlə, klassik **passiv** makroiqtisadi siyasət formalaşmışdır. Onların arasındakı fərqin əmələ gəlməsi səbəbləri hesab olunur:

-məcmu tələbin qeyri-sabitliyin baş verməsinin səbəblərinin müxtəlifliyi;

-məcmu təklifi müəyyən edən amillərn fərqli hesab olunması;

-inflyasiya və işsizlyin qarşılıqlı əlaqəsinə fərqli baxış;

-sosial və monetar siyasətin alətlərindən istifadə.

**Keynsçi modeldə** makroiqtisadi siyasətin **fəallığı** onunla əlaqələndirilir ki, iqtisadiyyatın daxili qeyri-sabitliyi

əmək bazarında qeyri-çevikdir, əməkhaqqı sərt xarakter daşıdığından, onun aşağı düşmə ehtimalı ilə qiymətlər də qeyri-elastikdir.

**Klassik modeldə** makroiqtisadi siyasətin **passivliyi** onunla əlaqələndirilir ki, iqtisadiyyat daxilən stabildir və avtomatik olaraq uzunmüddətli müvazinət halına gəlir. Özünü tənzimləmə aləti əməkhaqqının, qiymətin və faiz dərəcəsinin çevikliyi hesab edilir. Ona görə də dövlət müdaxiləsi iqtisadi qeyri-sabitliyi sürətləndirir.

Məsələnin belə qoyuluşu makroiqtisadi sabitləşmənin təminində iki mühüm alət vasitəsilə siyasətin həyata keçirilməsinə üstünlük vermişdir: **fiskal** və **monetar** siyasətlər.

Makroiqtisadi sabitləşmənin fiskal siyasət ilə təmini bilavasitə dövlətin iqtisadiyyata birbaşa müdaxiləsinin mülahizəsi kimi qəbul edilir. Lakin belə şəraitdə monetar alətlərdən yalnız ikinci dərəcəli vasitə kimi istifadəsi qəbul olunur. Makroiqtisadi sabitləşmənin monetar siyasət vasitəsilə təmin olunması dövlətin iqtisadiyyata qismən müdaxiləsi mülahizəsi kimi qəbul olunur. Hesab olunur ki, pul təklifinin dəyişilməsi məcmu tələbə, eləcə də nominal ÜDM-ə təsir göstərəcək.

Nəzəri cəhətdən görünür ki, makroiqtisadi sabitləşməyə həm fiskal, həm də monetar siyasət təsir göstərir. Lakin iqtisadi alət kimi onlardan istifadə olunması vaxtında və dəyişikliklərinin həyata keçirilməsi müddətində ləngimələr və gecikmələr baş verir. Bu amil də bu və ya digər alətdən makroiqtisadi sabitləşmədə istifadəsinə üstünlüyün verilməsinə səbəb olur.

Fiskal siyasət, dövlət büdcəsinin **xərc hissəsinin və vergiqoymanın** iqtisadi artımın sürətləndirilməsinə, məşğulluq və inflyasiya üzərində nəzarəti həyata keçirir.

Tətbiqi xarakterinə görə fiskal siyasət iki formada həyata keçirilir:

-stimullaşdırıcı formada;

-qoruyucu və ya ləngidici formada.

**Stimullaşdırıcı** fiskal siyasət həyata keçirilir:
- dövlət xərclərinin artırılması yolu ilə;
- vergilərin azaldılması yolu ilə;
- dövlət xərclərinin artırılması ilə vergilərin azaldılmasının uzlaşdırılması yolu ilə.

**Qoruyucu və ləngidici** fiskal siyasət həyata keçirilir:
-dövlət xərclərinin azaldılması yolu ilə;
-vergilərin artırılması yolu ilə;
-dövlət xərclərinin azaldılması ilə vergilərin artırılmasının uzlaşdırılması yolu ilə.

İqtisadi konyunkturadan asılı olaraq fiskal siyasətin formalarından istifadə olunur. Belə şəraitdə fiskal siyasətin aparılmasında istifadə olunan alətlər dəyişilməzdir:

- *Dövlət satınalmaları.* Burada əmtəə və xidmətlərin alışı və tələbin səviyyəsi nəzərdə tutulur.
- *Vergilər.* Burada dövlətin ev təsərrüfatından, firmalardan təmənnasız, qayıtmaz şəkildə əldə etdiyi ödənişlərdir.
- *Transfert ödəmələri.* Burada dövlətin sosial xarakterli ödənişləri (pensiya, müavinət, təqaüd) müəssisə və firmalara dotasiya (subsidiya, vergi – rüsum dəhlizi) xarakterli ödənişləri nəzərdə tutulur.

Ümumiyyətlə, dövlətin makroiqtisadi problemlərin həllində iştirakına görə fiskal siyasətin aparılma mexanizmi:
- diskret fiskal siyasət;
- avtomatik fiskal siyasət formasında həyata keçirilir.

**Diskret fiskal siyasət** düşünülmüş şəkildə dövlət xərcləri və vergilərlə bağlı aparılan siyasətdir. Burada məqsəd məcmu tələbin dövlət xərclərinin artırılması və vergilərin azaldılması hesabına məcmu tələbin stimullaşdırılmasından ibarətdir.

Dövlət xərcləri məcmu tələbin tərkib elementi olmaqla, o digər elementlərə istehlak və investisiya ilə birlikdə ÜMM-in müvazinətli vəziyyətə gətirilməsinə səbəb olur. Buna görə də dövlət xərclərinin artırılmasına bazar sistemi-

nin çatışmazlığının aradan qaldırılması vasitəsi kimi baxılır. Burada bir cəhətə diqqət yetirmək lazımdır ki, dövlət xərclərinin ÜDM-in həcminə olan təsiri düzxətli deyil. Çünki, dövlət əmtəə və xidmətlərin alış xərclərini, istehsalçıların əlavə gəlir əldə etməsinə və onların da bizə bəlli olan psixoloji qanun əsasında son istehlak və son əmanətə yönəltdiyindən o multiplikasiya effekti formasında ÜDM-in həcminə təsir edəcək. Belə vəziyyət iqtisadiyyatın öz potensial vəziyyətinə çatdığı dövr üçün xarakterikdir. Lakin potensial səviyyə şəraitində dövlət xərclərinin artımı iqtisadiyyatda sabit qiymət səviyyəsinin pozulmasına və onun artırılmasına səbəb olacaq. Ona görə də avtomatik fiskal siyasətdən istifadə olunması zərurəti meydana gəlir.

**Avtomatik fiskal siyasət** dövlət xərclərinin azaldılması ilə vergilərin mütərəqqi səmərəli sistemlə artırılması və məşğulluğun sığortalanması yolu ilə aparılan makroiqtisadi sabitləşmədir.

Vergilərin artırılması və məşğulluğun sığortalanması yolunun tətbiqi ilə makroiqtisadi sabitləşmənin həyata keçirilməsi avtomatik fiskal siyasət kimi xarakterizə olunur. Çünki dövlət büdcəsinin defisitliyi vergi sistemi vasitəsilə nəinki aradan qalxır, hətta onun müsbət saldolu olmasına səbəb olur. Bəzən belə vəziyyətə iqtisadiyyat «avtopilota» qoyulub ifadəsindən də istifadə edilir. Vergi daxilolmalarının artdığı şəraitdə ÜDM-in real həcminin yüksəlməsi sabitləşməni avtomatik olaraq nəinki təmin edir, hətta büdcə kəsirinin ləğvi meylini əsaslandırmaqla büdcə artığı və ya profisitini əmələ gətirir. Ancaq ÜDM-in real həcminin azaldığı şəraitdə, vergi daxilolmaları avtomatik aşağı düşür və dövlət büdcəsinin artıqlıq meyli defisitliyə doğru hərəkət edir.

Vergi sistemi vasitəsilə sabitləşmənin yaradılması, iqtisadi tərəddüdlərin ağırlıqlarının yumşaldılmasına baxmayaraq iqtisadi yüksəliş və ya enmə üçün diskresion fiskal tədbirlərin görülməsini zəruriləşdirir. Çünki vergi dərəcəsi-

nin, vergi strukturunun və dövlət xərclərinin kəmiyyətini dəyişdirmədən makroiqtisadi sabitləşdirməni qısamüddətli dövrdə həyata keçirmək çox çətindir.

Müasir şəraitdə makroiqtisadi sabitləşməyə nail olmasında monetar siyasət alətlərindən daha geniş istifadə olunur. Xüsusən maliyyə böhranı baş verdiyi və makroiqtisadi sabitləşmənin ortamüddətli dövrə hədəflənməsi zamanı pul-kredit siyasətinin alətlərindən istifadə olunur. Müasir monetar siyasətinin həyata keçirilməsi çoxhalqalı sistemdən ibarət olub özündə üçpilləli sektoru birləşdirir. Bura daxildir:

- Mərkəzi Bank;
- Bank sektoru: kommersiya, əmanət, ipoteka və investisiya bankları;
- Qeyri-bank sektoru: ixtisaslaşmış maliyyə-kredit təşkilatları, pensiya fondu, sığorta şirkətləri, investisiya şirkətləri.

Müasir şəraitdə dövlətin monetar siyasəti, Mərkəzi Bankın pul-kredit siyasəti vasitəsilə həyata keçirilir. Çünki dövlətin monetar siyasətlə makroiqtisadi sabitləşməyə nail olunması məqsədi ilə Mərkəzi Bankın (MB) pul-kredit siyasətinin məqsədi ilə üst-üstə düşür.

Bu məqsədlərə daxildir:

- ÜDM-in inflyasiyasız artımı;
- tam məşğulluğa nailolma;
- pul təklifi üzərində nəzarət;
- qiymətlərin sabitliyi;
- maliyyə bazarında sabitlik;
- valyuta bazarında sabitlik.

Göstərilən bu məqsədlərə bilavasitə nail olması üçün MB, ona tabe olan **aralıq** hesab olunan **məqsədləri** seçir:

- pul təklifini (pul aqreqatlarını);
- faiz dərəcəsini;
- valyutanın mübadilə məzənnəsini.

MB – aralıq məqsədlərə nail olunmasında istifadə etdiyi alətlər bunlardır:

-açıq bazar əməliyyatları;
-uçot, yaxud diskant dərəcəsinin dəyişilməsi;
-məcburi ehtiyat normasının dəyişilməsi.

**Açıq bazar əməliyyatları** (hökumətin borc öhdəliklərinin alqı-satqısı) qiymətli kağızların, dövlət istiqrazları kimi maliyyə aktivləri ilə əlaqədar həyata keçirilir. Lakin, açıq bazar əməliyyatları daha çox inkişaf etmiş ölkələr üçün xarakterikdir. Bazar sisteminin ilkin mərhələsində olan ölkəmizdə və keçid iqtisadiyyatlı ölkələrdə daha çox zəmanətli gəlir gətirən qısamüddətli dövlət istiqrazlarının alqı-satqısı həyata keçirilir. Dövlət istiqrazlarının MB tərəfindən alınması və onların kommersiya banklarına və əhaliyə satılması, pul təklifi büdcə kanalları vasitəsilə həyata keçirildiyindən maliyyə resursları tələb olunur. MB, kommersiya banklarında yerləşən dövlət istiqrazlarını alduqda, o, emissiya hesabına onların ehtiyat hesablarındakı pulun məbləğini artırır. Nəticədə bankların ssudaverme qabiliyyəti artır və pul kütləsinin həcmi çoxalır. Əhalidən istiqrazların MB tərəfindən alınması, həmçinin, onların əldə qalan hissəsinin cari hesablara depozitə qoyuluşu, nağd pulla hesablaşmaya səbəb olur. Bu isə pulun və ehtiyatlarla birlikdə **pul bazasının** genişlənməsinə səbəb olur. Belə vəziyyət isə öz növbəsində pul multiplikatorunun fəaliyyəti nəticəsində pul kütləsini artırır. Lakin kommersiya bankları istiqrazların alınması ilə öz ehtiyatlarını azaldır. Həmçinin, əhali də istiqrazları alaraq öz pul ehtiyatlarını azaldırlar. Pul bazasının azalması ilə pul multiplikatorunun təsiri nəticəsində pul təklifi azalır.

Monetar siyasətin mühüm alətlərindən biri də **diskont siyasəti** və ya **uçot dərəcələrinin dəyişməsidir**. MB-in kommersiya banklarına verilən kreditlər üzrə təyin etdiyi faiz dərəcəsidir. Maliyyə bazarında sabitləşmənin təmini, xüsusən də pul təklifi ilə pula olan tələb arasındakı müvazinətin təmin olunmasında bu alətdən istifadə olunur. Uçot dərəcələrinin artırılması zamanı kommersiya bankları MB-də

olan borclarının həcmi ixtisar olunur və onların ssuda vermək imkanları da azalır. Nəticədə pul təklifi azalacaq, kommersiya banklarından ssuda götürən iqtisadi subyektlər daha yüksək cari faiz dərəcəsi üzrə ödəniş aparmalı olacaqlar. Uçot dərəcəsi – MB-in kommersiya banklarına, onların ehtiyatlarını artırmaqda müvəqqəti ehtiyaclarını təmin etmək məqsədi ilə verə biləcəyi ssudanın minimal dərəcəsidir.

Monetar siyasətin üçüncü aləti **məcburi ehtiyatların normasının dəyişilməsidir**. Bu alətlərdən istifadə müxtəlif ölkələrdə əmanətlərin növ və müddətlərindən asılı olaraq 1%-dən 15% arasında fərqlənir. Belə şəraitdə kommersiya bankları məcburi ehtiyat fonduna təyin olunmuş normativə uyğun valyuta və manat əmanətlərinə görə köçürmələr həyata keçirməlidir.

Kommersiya banklarının ehtiyatları MB-də saxlanılır. Bu ehtiyatlar MB-in passivləri hesab olunur. Yəni MB – kommersiya banklarına **borcludur**.

Məcburi ehtiyat normasının qaldırılması kommersiya banklarının kreditvermə qabiliyyətlərini məhdudlaşdırır. Belə şəraitdə onlar daha az həcmdə ssuda verə bilirlər. Pul multiplikatorunun təsiri nəticəsində pul təklifi azalacaq, əks şəraitdə isə pul təklifi artacaq.

Monetar siyasət alətlərindən biri də **diskresion** və ya «azad, çevik» pul-kredit siyasətidir. Makroiqtisadi sabitləşmənin ortamüddətli dövrdə həyata keçirilməsində tətbiq olunan diskresion siyasət əsasən iki formada həyata keçirilir:

- **Stimullaşdırıcı diskresion** və ya **«ucuz» pullar siyasəti**. Burada əsas diqqət arzu olunan səviyyədə faiz dərəcələrinin sabitləşdirilməsinə yönəldilir.

- **«Qaydalar üzrə» pul-kredit siyasəti**. Burada əsas məqsəd müəyyən səviyyədə pul təklifinin sabitləşdirilməsinin nəzərdə tutulmasıdır. Buna «sərt» pullar siyasəti də deyilir.

Diskresion siyasətin birinci forması Keyns, ikinci forması isə M.Fridmen nəzəriyyələrinə əsaslanır. «Qaydalar

üzrə» diskresion siyasətin aparılmasının mahiyyəti belədir ki, **pul təklifinin artım sürəti real ÜDM-in trend artım sürətinə müvafiq olmalıdır**. Amerika iqtisadiyyatı üçün nəzərdə tutulmuş bu qayda uzunmüddətli əhatə olunması ilə ildə 3-5% pul təklifinin artımı nəzərdə tutlulmuşdur. Lakin monetaristlərin bu ideyası özünü yeni iqtisadi sistemə keçən ölkələrin timsalında, **aparılan islahatlaşmalar** fövqində özünü doğrultmadı.

Düzdür, keçən əsrin 70-ci illərində M.Fridmenin bu ideyası inkişaf etmiş qərb ölkələrinə çox məşhurluqla yayıldı və buna oxşar tədbirlərlə öz həyatiliyini göstərdi. Pul kütləsinin gələcək dövr üçün üst və alt həddinin təyin olunmasını nəzərdə tutan **pul təklifinin hədəflənməsi** (ing. target - hədəf) öz əməli tətbiqi ilə makroiqtisadi sabitləşmənin həyata keçirilməsində zaman keçdikcə bir sıra problemlərin əmələ gəlməsinə səbəb oldu. Bu barədə ətraflı şəkildə «maliyyə sistemi» mövzusunda bəhs olunacaq.

Lakin «qaydalar üzrə» diskresion siyasətin makroiqtisadi sabitləşmənin ortamüddətli dövr üçün əhəmiyyəti danılmazdır. Ona görə də qısamüddətli dövrə makroiqtisadi sabitləşmə üçün nəzərdə tutulan stimullaşdırıcı diskresion siyasətlə ortamüddətli «qaydalar üzrə» diskresion siyasətin **sintezləşdirilməsindən** istifadə müasir dövrün ən səmərəli makroiqtisadi sabitləşdirmə aləti hesab olunur.

## 15.3. Makroiqtisadi sabitləşmədə iqtisadi səmərəlilik və kənarlaşmaların yeri

Müasir şəraitdə, xüsusən də son iyirmi ildə iqtisadi artımın sürətləndirilməsi naminə məcmu təklif əyrisinin sağa doğru meyilliliyinin yüksəldilməsi üçün iqtisadi siyasətdən istifadə olunur. Burada da o stimullardan istifadə olunması nəzərdə tutulur ki, onlar hədəflənir:

-əməkhaqqının və məhsuldarlığın yüksəlməsinə;

-əmanətlərin sığortalanmasına;

-investisiya mühitinin əlverişliliyinə;

-iqtisadi səmərəliliyin təmin olunmasına.

Məcmu təklifin stimullaşdırılması əslində iqtisadi səmərəliliyin yüksəldilməsi siyasətidir. Bu siyasətin də həyata keçirilməsində əsas diqqət verilir:

-vergilərin azaldılmasına;

-qeyri-tənzimlənmənin aparılmasına;

-büdcə defisitinin aradan qaldırılmasına.

**Vergilərin azaldılmasındakı** müddəanın əsaslandırılması onunla əlaqədardır ki, gəlirlərə olan vergilərin azadılması insanların işləməyə olan meylini stimullaşdırar. Həmçinin faiz öhdəliklərinə, dividentlərə olan verginin aşağı salınması xeyli dərəcədə yığımın stimullaşdırılmasına səbəb olar. Digər tərəfdən korporasiyalara olan verginin azaldılması investisiyalara və kapitalın artımına olan meylin yüksəlməsinə gətirib çıxardar. Lakin, vergilərin azaldılması birmənalı şəkildə məcmu təklifə deyil, həm də məcmu tələbə də təsir göstərir. Çünki, gəlirlərə olan verginin azaldılması real gəlirlərin artımına səbəb olmaqla istehlak xərclərinə təsir edərək iqtisadiyyatın inflyasiyaya olan meylini əsaslandırır.

**Qeyri-tənzimləmənin aparılması** dedikdə sənaye sahələrinin bir qismini tənzimlənmə mexanizmindən ayırmaq və ya özəlləşdirmək nəzərdə tutulur. Xüsusən ziyanla işləyən, qeyri-səmərəli fəaliyyət göstərən sahələrdə özəlləşdirmənin həyata keçirilməsi rəqabət mühitinin yaradılmasına və əmək məhsuldarlığının yüksəldilməsinə səbəb olar. Sahə prinsipi ilə tənzimləmə mexanizminin həyata keçirilməsi heç də həmin sahələrdə yeniləşməyə, innovasiyalı artıma səbəb olmur. Ona görə də müəyyən dövlət müəssisələrinin qeyri-tənzimləməyə istiqamətləndirilməsi, yəni özəlləşdirməyə çıxarılması səmərəliliyin artım amili kimi qəbul olunur.

**Büdcə defisitinin aradan qaldırılmasında** əsas diqqət iri büdcə kəsirinə verilir. Bəllidir ki, iri büdcə defisiti investisiyaların sıxışdırılmasına və kapitalın artım sürətinin aşağı

düşməsinə gətirib çıxarır. İri büdcə defisitinin vergi dərəcələrinin azaldılması şəraitində baş verməsi iqtisadiyyata mənfi təsir göstərməklə faiz dərəcələrinin yüksəldilməsinə, investisiyaların azaldılmasına və xarici ticarətin defisitliyinə gətirib çıxarır. Adətən bu qanunauyğunluğun ABŞ iqtisadiyyatının keçən əsrin 80-ci illərindəki «reyqanomika» islahatları timsalında izahı verilir. Büdcə defisiti şəxsi əmanətləri udmaqla, xüsusi sektora investisiyanın yönəldilməsinə maneəyə çevrilmişdi.

Ona görə də büdcə gəlir və xərcləri elə balanslaşdırılmalıdır ki, əldə olunacaq vasitələr ölkənin əsas kapitalının artırılmasına, infrastruktur sahələrinin möhkəmlənməsinə yönəldilməklə, **səmərəliliyin və məhsuldarlığın** yüksəldilməsinə nail olmaqla məcmu tələb əyrisinin sağa doğru meyil etməsinə səbəb olsun.

Makroiqtisadi sabitləşmədə **kənarlaşmanın yerini** müəyyən etməkdən ötrü məcmu tələblə məcmu təklifin müvazinətindəki dəyişikliyə diqqət yetirilməlidir. Çünki, bu dəyişikliklər enib-qalxmalara gətirib çıxarır:

-məhsul buraxılışında;

-faiz dərəcələrində;

-qiymət səviyyəsində.

Bu dəyişikliklərin səbəbi həm daxili, həm də xarici amillər olduğundan, onlar birdən-birə, gözlənilmədən baş verə bilər. Tez-tez baş verən bu kənarlaşmalar qeyri-müvazinətliyi yaratmaqla, iqtisadiyyatda adi hal kimi qəbul olunur. Lakin, bu qısamüddətli enib-qalxmalar makroiqtisadi qeyri-sabitliyə gətirib çıxarır. Ona görə də elə iqtisadi siyasət tətbiq olmalıdır ki, o iqtisadiyyatın daxili müvazinətə doğru hərəkət etməsini təmin etsin. Yəni qiymətlərin sabitliyi və tam məşğulluğun təmini həyata keçirilsin. Lakin bu vəziyyətin əldə olunması həqiqətən olduqca çətindir. Bu vəziyyət əlaqədardır:

-fiskal və monetar siyasətlərin tətbiqindəki qeyri-müəyyənliklə;

-onların mövcud vəziyyətə təsir dərəcəsi ilə;
-onların iqtisadiyyata təsir vaxtı ilə;
-onların təsir dövrünün başa çatması ilə.

İndi isə iqtisadi pozuntuların, kənarlaşmaların baş verməsi səbəblərinə diqqət yetirək. Adətən belə səbəblərə aid edilir:

- müharibələr, siyasi-iqtisadi xarakterli tətillər;
- sosial layihələr;
-istehlakda irəliləmələr;
- investisiyada irəliləmələr;
- təklif şəraitindəki dəyişikliklər;
- milli istehsal əmanətlərinə xarici tələbin dəyişilməsi;
- iqtisadi siyasətin konkret şəraitə hədəflənməsi səviyyəsi.

**Müharibə** ilə əlaqədar onu qeyd etmək olar ki, onun qədər iqtisadi konyukturaya, xüsusən də kənarlaşmaya ciddi səbəb olan amil yoxdur. Başqa amillər şəraitində vəziyyətdən çıxış yolu ilə bağlı manevrə etmək mümkündür. Lakin müharibə iqtisadiyyatın resurs imkanının böyük bir hissəsinin silah istehsalı istiqamətində təmərküzləşdirməsinə səbəb olur. İnflyasiyanın və məcmu xərclərin tam məşğulluq səviyyəsində saxlanması üçün dövlətin artan xərcləri xüsusi sektora tələbin azaldılması yolu ilə kompensasiya edilir. Müharibənin davam etməsi müddətindən asılı olaraq, kənarlaşma müddəti də uzanır, makroiqtisadi vəziyyət pisləşir.

Müharibədən fərqli olaraq **siyasi-iqtisadi xarakterli** tətillər qısamüddətli olub, iqtisadi kənarlaşmalara səbəb olsa da, vəziyyətdən çıxış yolu tez tapılır. Lakin bu da cəmiyyət üçün itkisiz keçmir.

**Sosial layihələrlə** əlaqədar onu qeyd etmək olar ki, sosial təminat xarakterli proqramların təhsilin yaxşılaşdırılması, səhiyyə xidmətinin yüksəldilməsi, sağlamlığını itirmiş və təqaüdçülər üçün bərpa, sağlamlıq istirahət mərkəzlərinin yaradılması məcmu tələbdə ciddi dəyişikliklərə səbəb olur. Ona görə də milli iqtisadiyyatlar öz imkanları baxı-

mından sosial layihələrin reallaşmasına diqqət yetirirlər. Bəzən elə olur ki, siyasi populizm yolu ilə hakimiyyətə gələnlər, ən adi sosial layihənin həyata keçirilməsinə nail ola bilmirlər və ya büdcə defisitinin kəskinləşməsinə gətirib çıxarırlar.

**İstehlakda irəliləmələrin** baş verməsi, gəlirlərin artması, zövq və üstün vermənin dəyişilməsi, reklam, xarici ölkələrə səyahət, təhsil səviyyəsinin yüksəlməsi müxtəlif mədəniyyət və davranışların mənimsənilməsi ilə əlaqədardır. Belə şəraitdə son istehlak və son əmanətə olan meyil dəyişilir. Nəticədə pula olan tələbin dəyişilməsi ilə faiz dərəcələrində də tərəddüdlü xarakter almasına səbəb olur.

**İnvestisiyada irəliləyişlərin** getməsi, iqtisadi kənarlaşmaya səbəb olması onunla əlaqədardır ki, firma sahiblərinin və menecerlərin gələcək gözləmələrə olan inamları ilə fəaliyyətlərini genişləndirirlər. Halbuki gələcək dövr görünməz qanunlara daha çox dəyişikliklərin, kənarlaşmaların baş verməsi ilə, investisiyaların tətbiqi və həcmi isə elmi-texniki tərəqqi ilə bilavasitə əlaqədardır. Müasir informasiya-kommunikasiya şəbəkəsinin genişlənməsi, internetlə əlaqələrin sürətlənməsi, yeni innovasiyaların həyata keçirilməsi, iqtisadiyyatın emal və xidmət sahələrinin tələbatına uyğun daha çox investisiya resurslarına olan ehtiyacı artırır. Həmçinin, mənfəət səviyyəsinin gələcəkdə artırılması imkanı nəzərə alınaraq investisiyada irəliləmələr baş verir.

**Təklif şəraitinin dəyişilməsi** demək olar ki, son 20 ildə dünya ölkələrinin iqtisadiyyatında baş verən kənarlaşmalarda neftin qiymətində olan dəyişikliklərlə əlaqədar olmuşdur. Keçən əsrin 90-cı illərin əvvəllərində neftin dünya bazarında qiyməti aşağı düşmüş, sonra isə XXI əsrin birinci onilliyində neftin hər barelinin qiymətinin kəskin şəkildə dəyişilməsi və gözlənilməz və fantastik səviyyədə 150$ qalxması demək olar ki, 2008-2009-cu illərdəki qlobal maliyyə və iqtisadi böhranın əsas səbəblərindən biri oldu. Son 10 il ərzində neft ixrac edən ölkələr, OPEK ölkələri ilə yanaşı,

digər dövlətlərdə də iqtisadi dəyişikliklərə səbəb oldu. Bu özünü ən çox əks etdirdi:

-qiymətlərin səviyyəsində;

-istehsal xərclərinin artmasında;

-məhsuldarlığın və səmərəliliyin aşağı düşməsində.

Təklif şəraitinin dəyişilməsində dünyada baş verən iqlim dəyişiklikləri, havaların qeyri-münasib keçməsi, quraqlığın olması, torpaq sürüşmələri, daşqınların baş verməsi ərzaq məhsullarının istehsalında və qiymət dəyişikliyində xüsusi rol oynayır.

**Milli istehsal əmtəələrinə xarici tələbin dəyişilməsi** ilə əlaqədar qeyd etmək olar ki, Azərbaycanda pambıqçılığın və üzümçülüyün enməsi bu sahənin məhsullarına olan xarici tələbin də enməsinə səbəb oldu.

**İqtisadi siyasətin konkret şəraitə hədəflənməsi səviyyəsi** barədə onu demək olar ki, fiskal və monetar alətlərindən mövcud vaxtda düzgün istifadə olunması ya inflyasiya, ya da işsizliyə səbəb olur. Həmçinin, bu siyasi qaydalara riayət olunmaması, yerlərdə onun ləngidilməsi nəticə etibarilə milli iqtisadiyyatda kənarlaşmalara gətirib çıxaracaq. Bəzi hallarda seçkiqabağı il ərzində iqtisadi artımın yüksək sürətinə nail olunması üçün siyasətçilər stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi ilə gələcək seçkisinin təmininə nail olur. Belə vəziyyət gələcək illərin siyasi fəaliyyətlə iqtisadi tsiklin baş verməsinə gətirib çıxardır.

Siyasi əhatəli iqtisadi tsikllər icra və qanunvericilik hakimiyyətini seçkiqabağı vergilərin azaldılmasına və dövlət xərclərinin artırılmasına, seçkidən sonra isə vergilərn yüksəldilməsinə və dövlət xərclərinin azaldılmasına sövq edir. Əlbəttə, siyasi addımın atılması, istər-istəməz yenə də fiskal və monetar alətlərdən istifadəsi ilə əlaqədardır. Hər cür kənarlaşmanın məhdudlaşdırılması isə uyğun siyasətin reallaşması vaxtı və ya uyğunlaşma dövrü ilə, başqa sözlə, laqlarla bağlıdır.

## 15.4. Makroiqtisadi sabitləşmə siyasətinə laqın (uyğunlaşma dövrünün, vaxtın) təsiri

İqtisadi ədəbiyyatlarda nisbətən az işlədilən investisiya və multiplikator effekti ilə əlaqədar istifadə edilən **laq** terminine makroiqtisadi sabitləşmə siyasətinə nail olunması üçün tətbiq olunan iqtisadi alətlərin uyğunlaşdırılması zamanında da müraciət olunur. Laq nədir?

- Laq müəyyənedici amilin dəyişilməsinə uyğunlaşdırılmış dövr deməkdir;

-Arzuolunmaz vəziyyətin meydana gəlməsi ilə onların aradan qaldırılmasına və real nəticələrin əldə olunmasına yönəldilmiş dövlət tədbirlərinin qəbulu arasındakı aralıq vaxta laq deyilir.

Hər iki şəraitdə laq ifadəsi istər iqtisadi, istərsə də siyasi qərarların qəbulunda və tədbirlərin həyata keçirilməsində **vaxt** məfhumunu əhatə edir. Makroiqtisadi sabitləşmə siyasətinin həyata keçirilməsində laqa diqqətin verilməsi olduqca vacibdir. Çünki iqtisadi həyatda külli miqdar çətinliklər hökm sürür. Onların arasından zəruri görünəni seçmək və ona uyğun gələn siyasətin reallaşdırılması və siyasətin iqtisadi sabitləşməyə olan təsirin müəyyənləşdirmək üçün aralıq vaxtın nəzərə alınması vacibdir.

Yaddan çıxarmaq olmaz ki, sabitləşmə alətlərinin istifadəsində **iqtisadi gözləmələrə** üstünlük verilir. Yəni fiskal alətlərin və ya monetar alətlərin tətbiqi uyğunlaşma dövrü ərzində hansı effekti verə bilər? Daha doğrusu, siyasətdə olan dəyişiklik **iqtisadi gözləmələrdəki** sürüşkənliyi daha da mürəkkəbləşdirir. İnvestisiya ilə bağlı əvvəlki sualda qeyd etdiyimiz kimi, gözləmələr iqtisadiyyatda mühüm rol oynayır. Məsələ ondadır ki, gözləmələrdən asılıdır:

-makroiqtisadi tənzimləmənin nəticəsi;

-iqtisadi siyasət tədbirləri.

Dövlətin və MB-in siyasətində baş verən dəyişiklik iqtisadi agentlərin gözləmələrinə və iqtisadi davranışlarına

təsir edir. İqtisadiyyatın səmərəli idarə olunması bu dəyişiklikləri proqnozlaşdırmaq üçün daha mürəkkəb modellərdən istifadə olunmasını tələb edir. Lakin, hər cür makromodelin qurulmasından asılı olmayaraq onlar qeyri-təkmildirlər. Təsadüfi deyildir ki, 1995-ci ildə Nobel mükafatı almış Amerika iqtisadçısı R.Lukas iqtisadi siyasətin səmərəliliyinin qiymətləndirilməsi üçün makroiqtisadi modellərdən istifadəni tənqid etmişdir. «Lukas tənqidi» adı almış terminin mahiyyəti ondan ibarətdir ki, ənənəvi olaraq iqtisadi siyasətin təhlili üçün istifadə olunan makromodellər siyasi dəyişikliklərin iqtisadi gözləmələrə olan təsirini əks etdirə bilməz. Ona görə də iqtisadi gözləmələrin laq vasitəsi ilə təhlil olunmasının xüsusi əhəmiyyəti var.

Ümumiyyətlə laqlar iki formada olur:

- daxili laqlar;
- xarici laqlar.

*Daxili laqların növləri* ibarətdir:

**-dərk olunan laqdan**. Bura iqtisadi kənarlaşmanın baş verməsi və ona uyğun siyasətin qəbulunun dərk olunmasının vaxt dövrü daxildir. Statistik məlumatların toplanması, kənarlaşmanın daimi və ya müvəqqəti olması ilə bağlı materialların toplanması vaxtı və s.

**- qərarların qəbulu laqından**. Bura siyasətçilərin iqtisadi kənarlaşmaların etirafı və hərəkətə gəlmə ilə siyasi qərarların qəbulu arasındakı gecikmələr vaxtı daxildir. Bu laq fiskal siyasətdən monetar siyasətə keçid vaxtı ilə əlaqədardır. Bu da siyasi alətin istifadəsi ilə, kənarlaşma müddətinin qısaldılması ilə əlaqədardır. Ona görə də çox hallarda iqtisadi kənarlaşmalarda fiskal siyasətə nisbətən daha çox monetar siyasətə müraciət olunur.

**-fəaliyyət və ya hərəkətetmə laqından**. Bura hökumətin müəyyən siyasətin tətbiqi ilə əlaqədar qəbul etdiyi qərarla onun reallaşdırılması arasındakı dövr, müddət daxildir. Yəni iqtisadi kənarlaşmaya səbəb olan amilin aradan qaldırılması, tutaq ki, taxıl ehtiyatlarının azalması ilə çörək

bişmədəki kənarlaşmanın aradan qaldırılması üçün müvafiq malgöndərənin tapılması, onun alışı, müqavilələrin bağlanması və s. istər-istəməz vaxt sərfi ilə əlaqədardır. Ona görə də fövqəladə vəziyyətə qədər ehtiyat fondu barədə hökumətə vaxtında müraciət olunması, hərəkət və ya fəaliyyət laqının daha səmərəli olmasına gətirib çıxarar. Hətta belə informasiyanın yayılması biznes mühitinin də canlanmasına səbəb olar.

**Xarici laqlar** iqtisadi sabitləşmə siyasətinin hərəkətə gətirilməsi və onun iqtisadiyyata təsiri ilə əlaqədar olan vaxt müddətidir. Bu laqların mahiyyəti iqtisadiyyatın paylanması ilə bağlıdır.

Fiskal və monetar alətlər vasitəsilə iqtisadiyyata vaxtın paylanması, görülən tədbirlərin əldə olunan gəlir səviyyəsinə təsiri ilə əlaqələrdır. Belə şəraitdə fiskal siyasət monetar siyasətə nisbətən gəlir səviyyəsinə daha tez təsir göstərir. Məsələn, vergi dərəcələrinin azaldılması sərəncamda qalan gəlir səviyyəsində qısa müddət ərzində əks olunur. Lakin, monetar siyasətdə faiz dərəcəsinin azaldılmasının daha sürətli və tez həyata keçirilməsinə baxmayaraq, investisiya miqyasının dəyişilməsi daha ləng gedir. Firma, hətta ən aşağı faiz dərəcəsində investisiyalaşdırmaya tələsmir. Çünki gələcəkdə öz investisiyasından mənfəət əldə etmək imkanı görmür.

Həmçinin, bahalı pullar kütləsinin artımı ehtiyatlara müəyyən vaxt müddəti ərzində təsir göstərir. İlkin effekt az olsa da, lakin uzun vaxt müddəti ərzində onun artımı baş verəcək.

Ona görə də xarici laqlar daha çox iqtisadi gözləmələrlə əlaqədardır. Keçmiş dövrün tədbirləri nəticələri ilə gələcək dövrdə əldə olunacaq effekti hər zaman əsas götürmək olmur. Ən yaxşı halda siyasi qərarların qəbulu üçün düzgün laqın seçilməsi əhəmiyyətlidir. Ona görə də makroiqtisadi sabitləşmə siyasətinin işlənib hazırlanmasında görüləcək tədbirlərin ardıcıllığına diqqətin artırılması vacibdir:

- Laqların davam etməsinin nəzərə alınması;

- Gələcək kənarlaşmaların baş verə biləcəyini nəzərə almaq;

- İqtisadi siyasətin uyğun tədbirlərini müəyyənləşdirmək;

- İqtisadi islahatlaşma prosesi ilə iqtisadi kənarlaşmaları müqayisəli təhlil etmək.

## 15.5. Milli iqtisadiyyatda sabitləşdirmə siyasətinin xüsusiyyətləri

XX əsrin sonunda dünyanın 30-a yaxın ölkəsi iqtisadi sistemlərin transformasiya prosesinə daxil oldu. Belə ölkələrdən biri də Azərbaycandır.

Azərbaycanın müstəqil dövlət kimi bazar iqtisadiyyatına keçid prosesi, istər-istəməz yeni iqtisadi siyasətə əsaslanan strategiyanın hazırlanmasını və tətbiq olunmasını tələb edirdi. Bununla əlaqədar istər dünyanın aparıcı iqtisadi təşkilatlarının, istərsə də yaxın qonşu ölkələrin tarixi təcrübəsi əsasında bazar sisteminə keçidin proqramı həyata keçirilməyə başlandı.

Lakin təəssüf hissi ilə qeyd etməliyik ki, həmin illərdə respublikamızda iqtisadiyyatın sabitləşdirilməsi tədbirlərinin mərhələliliyinin gözlənilməsi adı altında liberal iqtisadi modelin qurulmasına cəhd göstərildi. Keçid mərhələsində iqtisadiyyatın sabitləşməsinə yönəldilən tədbirlər o halda lazımi səmərəni verər ki, iqtisadi proseslər sistem halına salınsın və ardıcıl şəkildə həyata keçirilsin.

Liberallaşma prosesi, keçid mərhələsinə xas iqtisadi proqramların qurulmasına deyil, onların ayrılmasına xidmət göstərmişdir.

Makroiqtisadi sabitləşməyə nail olmaq və respublikanın bazar iqtisadiyyatına keçməsinin əməli proqramının işlənib hazırlanması, hər şeydən əvvəl, mövcud iqtisadi potensialdan səmərəli istifadə olunmasına makro və mikro-

proseslərinin qarşılıqlı əlaqəsinin yaradılmasına əsaslanmalıdır.

Müstəqilliyin ilkin mərhələsində respublikamızda ÜDM-in həcminin kəskin azalması, istehsal, maliyyə və əmək potensialından istifadədə yaranan çətinliklər, inflyasiya və işsizlik vəziyyətinə ciddi təsir göstərməklə, böhran törədici amillərə geniş yer verməklə, makroiqtisadi qeyri-sabitliyin baş verməsinə təkan vermişdir. Nəticədə respublikada iqtisadi inkişafın makroiqtisadi müvazinəti pozulmuş və əhalinin həyat səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Ona görə də makroiqtisadi sabitləşməyə nail olmaq qarşıda duran mühüm vəzifəyə çevrilmişdir.

Müstəqillik əldə olunandan sonra qarşıda duran vəzifələri aşağıdakı kimi qruplaşdırmaq olar. **Birincisi,** iqtisadiyyatın sabitləşdirilməsi əsasında milli iqtisadiyyatın bazar sistemi əsasında formalaşdırılmasının istiqamətlərini müəyyənləşdirmək; **ikincisi,** makroiqtisadi müvazinətin bərpası əsasında əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq, **üçüncüsü,** bu vəzifələrin həyata keçirilməsindən ötrü transformasiya prosesi ilə bağlı iqtisadi islahatlar proqramının işlənib hazırlanması.

Son dövrlərdə bazar iqtisadiyyatına keçidin dünya təcrübəsi göstərir ki, makrosəviyyədə sabitləşdirməyə nail olmaq üçün milli iqtisadiyyatın xarakterinə uyğun iqtisadi inkişaf modeli seçilir. Belə şəraitdə əsas diqqət, tətbiq olunan inkişaf modelinin sosialyönümə nə dərəcədə uyğun gəlməsinə verilir. Eyni zamanda belə inkişaf modelinin makroiqtisadi sabitləşməyə təminat verəcəyi də ön plana çəkilir.

Respublikamızda keçidin ilkin mərhələsində böhranı doğuran səbəblərin obyektiv və subyektiv amillər baxımından təhlili göstərdi ki, Azərbaycanın məhz özünəməxsus sabitləşmə proqramı olmalıdır. Bazar transformasiyası prosesinin gedişatına uyğun makroiqtisadi sabitləşmənin mərhələli proqramı olmalıdır. Buna uyğun olaraq artıq dünya

təcrübəsində sınaqdan çıxmış iqtisadi siyasət vasitəsi olan **fiskal siyasət, monetar siyasət və məcmu təklifin dəyişdirilməsi siyasətindən istifadə olunmalıdır.** Bu vasitələrdən istifadə olunarkən hər bir mərhələdə qarşıya qoyulan məqsədlərin xarakterinə uyğun stimullaşdırıcı siyasətin tətbiqinə üstünlük verilməlidir. İslahatlaşma şəraitində milli iqtisadiyyatın makrosəviyyədə inkişafı ilə əlaqədar həyata keçirilən iqtisadi islahatlar, böhrandan çıxışdan sonra ilkin olaraq aparılan makromaliyyə sabitliyi iqtisadi sabitləşməyə imkan verdi.

Mülkiyyət formalarından asılı olaraq vergi verənlərin ayrı-seçkiliyi aradan qaldırıldı. Aparılan vergiqoyma siyasəti sahibkarların vergiyə cəlb olunması istiqamətində təkmilləşdirməyə gətirib çıxardı.

BVF və DB tövsiyəsi ilə həyata keçirilən islahatlar proqamı bir tərəfdən ölkəyə xarici investisiya axınını gücləndirsə də, digər tərəfdən, ölkədə müvafiq sahibkarlıq və investisiya mühitinin olmaması ölkədən kapital axınının güclənməsini və mövcud maliyyə resurslarının qeyri-istehsal, habelə şəxsi yığım məqsədi ilə geniş istifadəsini stimullaşdırdı.

Burada bir məsələni xüsusi qeyd etmək istərdik ki, bəzi iqtisadçılar respublikamızda iqtisadi sabitliyə nail olunmasını uzunmüddətli iqtisadi inkişaf prosesləri ilə qarışdırırlar. Bu bir məlum həqiqətdir ki, iqtisadi sabitliyə nail olmadan, həmin dövrdə nə səmərəli böhrandan çıxış, nə də sabitləşmə siyasətini həyata keçirmək və strateji inkişafı müəyyənləşdirmək olmaz. İqtisadi sabitləşmənin təmin edilməsi islahatların məqsədəuyğun şəkildə həyata keçirilməsinin ən başlıca və ilkin şərtidir. Çünki makroiqtisadi sabitləşməni təmin etmədən iqtisadi artıma, sabit qiymətqoyma, milli iqtisadiyyatın formalaşdırılmasına, keçid iqtisadiyyatının mühüm şərti olan sahibkarlıq mühitinin yaradılmasına nail olmaq olmaz. Ona görə də iqtisadi proseslərin xarakterini və mərhələlərini obyektiv qiymətləndirmək üçün makroiqtisadi

sabitləşmə prosesinin özünün mahiyyətini və onun keçid iqtisadiyyatı şəraitində kəsb etdiyi cəhətlərə xüsusi diqqət yetirmək lazımdır. Lakin iqtisadi sabitləşmə bilavasitə yeni iqtisadi sistemin və milli iqtisadiyyatın formalaşması ilə bağlı bir proses olduğu üçün onun miqyasında baş verən dəyişikliklər həyata keçirilən iqtisadi siyasətlərin tələbindən asılıdır.

Ölkələrin iqtisadi inkişaf səviyyəsi və fəaliyyət göstərən iqtisadi sistemin xarakteri və quruluşundan asılı olaraq həyata keçirilən makroiqtisadi sabitləşmə siyasətinin fərqli cəhətlərinə baxmayaraq, onun bütün mərhələləri üçün əsas götürülən ümumi cəhət, **makroiqtisadi müvazinətin təmin olunması əsasında əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması əsas götürülür.** Lakin keçid iqtisadiyyatı şəraitində bu proses tamam başqa şəkil alır. Bunu konkret olaraq respublikamızın timsalında da görmək olar. Ölkəmizdə müstəqilliyin ilkin illərində baş verən siyasi və iqtisadi böhran, məqsədyönlü bazara keçid iqtisadi konsepsiyasının olmaması, nəticə etibarilə yalnız liberallaşmaya və bazar qiymətlərinin sərbəstləşməsinə imkan yaratdı və makroiqtisadi sabitləşmə tamam kənarda qaldı. Bu da formalaşmalı olacaq milli iqtisadiyyat üçün iqtisadi inkişaf qanunauyğunluqlarından istifadə etməyə imkan vermədi.

Makroiqtisadi sabitləşmə proqramı o halda lazımı səmərəni verir ki, həmin tədbirlər bazar sisteminə keçid üçün əlverişli iqtisadi və sosial mühit yaratsın. Hazırkı şəraitdə belə bir mühitin iqtisadi şəraiti yaradılaraq ölkədə ÜDM-un artım dinamikası təmin edilmişdir.

Bununla belə əhalinin hələ də sosial sahədə mövcud olan bir sıra problemləri həll olunmamışdır. Burada diqqəti cəlb edən bir xarakterik xüsusiyyət ondan ibarətdir ki, dövlət büdcəsinin gəlirləri son dövr ərzində dövlət büdcəsinin xərclərinə nisbətən xeyli artmışdır. Bu da onu göstərir ki, dövlət xərclərinin azalması büdcə kəsirinin azalması üçün şərait yaratmışdır.

Keçid mərhələsində həyata keçirilən makroiqtisadi sabitləşmə tədbirlərinin əməli cəhətdən qiymətləndirilməsinin başlıca problemi, bir tərəfdən bu mərhələnin özünün çox ziddiyyətli olmasından irəli gəlirsə, digər tərəfdən, dövlətin ümumi sabitləşmə siyasəti konsepsiyasında milli iqtisadiyyatın formalaşması ilə bağlı bazar sisteminin hansı modelinə üstünlük verməsindən asılıdır. Bütün bunlar bir daha onu göstərir ki, keçid mərhələsində ölkənin makroiqtisadi sabitləşdirilməsi probleminə ancaq milli iqtisadiyyatın formalaşması aspektində yanaşmaqla düzgün nəticəyə gəlmək olar. Milli iqtisadiyyatın makroiqtisadi sabitləşməsinin iki forması: formal və real sabitləşdirilməsi fərqləndirilir. Keçid mərhələsində formal iqtisadi sabitləşmə dedikdə ölkənin milli iqtisadiyyatının tam halda sabitləşməsi nəzərdə tutulmur. Belə yanaşmada ölkə iqtisadiyyatının makrosabitləşməsi bir neçə mikroiqtisadi göstərici ilə əlaqələndirilir.

Keçid mərhələsində makroiqtisadi sabitləşmə prosesinə tam nail olmaq mümkün deyildir. Çünki formal sabitləşmə milli iqtisadiyyatın təşəkkülü və yeni iqtisadi sistemə keçid üçün ilkin zəruri bir mərhələ olsa da, o, hələ ölkənin sabit iqtisadi artım sürətinin təmin olunması üçün tələb olunan iqtisadi mühiti, imkan və şəraiti tam yaratmır. Lakin makroiqtisadi sabitləşmənin ikinci forması olan real iqtisadi sabitləşmə ölkədə, hər şeydən əvvəl, **makromaliyyə sabitləşməsini, büdcə kəsirinin, dövlət borclarının minimum həddə çatdırılmasını, valyuta kursunun, məşğulluğun və minimum həyat səviyyəsinin optimal səviyyəsinin təmin edilməsini əhatə edir.** Deməli, formal və real formalar baxımından makroiqtisadi sabitləşmə prosesini keçid iqtisadiyyatı üçün qiymətləndirsək, görərik ki, məhz keçidin sonrakı dövrləri üçün makromaliyyə sabitliyi, xüsusən də vergi siyasətinin sistem formalaşdırıcı istiqamətdə tətbiqindən bilavasitə asılıdır. Göstərməliyik ki, MDB ölkələrinin əksəriyyətində makroiqtisadi sabitləşmə siyasəti iqtisadçılar tərəfindən çox hallarda fiskal siyasətin təzahür forması kimi qəbul olun-

muşdur. Buna baxmayaraq, bazar sisteminə keçidin ilkin mərhələsində tətbiq olunan liberallaşma prosesi makroiqtisadi sabitləşməni pozaraq, sonrakı dövrlər üçün müəyyən çətinliklər törədir. Ona görə də keçidin **ilkin və sonrakı mərhələləri arasında mövcud olan makroiqtisadi sabitləşmə proseslərini fərqləndirmək lazımdır.**

İlkin şəraitdə makroiqtisadi sabitləşməyə nail olduqdan sonra, dövlət sonrakı mərhələlər üçün həm mövcud vəziyyəti qorumaq, həm də gələcək dövr üçün iqtisadiyyatın müvazinətli inkişafını və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün çevik iqtisadi islahatlar proqramını həyata keçirməlidir. Başqa sözlə, real makrosabitləşməyə imkan verən iqtisadi tədbirlər toplusunu tətbiq etməlidir. Bu da öz növbəsində iqtisadi islahatlar prosesi üçün qəbul olunmuş qanunların mexanizminə təminat yaratmalıdır. **Makroiqtisadi sabitləşmə siyasətinin mərhələli şəkildə həyata keçirilməsində məqsəd bir tərəfdən iqtisadi proseslərin dəyişməsinə dinamik xarakter verməklə və iqtisadi tənəzzülün qarşısını almaq, iqtisadi müvazinəti bərpa etməklə ardıcıl iqtisadi artım sürətinə malik olmaq, digər tərəfdən əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə təminat verən iqtisadi mühitin yaradılmasından ibarət olmalıdır.** Lakin, keçid mərhələsində bir çox postsovet ölkələri kimi, xüsusən Rusiya proqramına uyğun Azərbaycanda da iqtisadiyyatın sabitləşməsində fiskal siyasət əvəzinə daha çox inkişaf etmiş bazar iqtisadiyyatı ölkələri üçün xarakterik olan monetar siyasət əsasında liberallaşmaya üstünlük verildi. Monetar siyasətin mahiyyəti, hər şeydən əvvəl, sərt pul-kredit siyasətinə söykənməklə bank sistemi vasitəsilə azad bazar qiymətləri əsasında pul dövriyyəsinin sabitliyini təmin etməkdən ibarətdir. Lakin nə Rusiyada, nə də Azərbaycanda bu, gözlənilən nəticələri vermədi.

Göstərməliyik ki, makroiqtisadi sabitləşmə prosesinin həyata keçirilməsində monetar siyasət fiskal siyasətə nisbətən daha dağıdıcı xarakter daşıyır. Çünki monetar siyasət

güclü iqtisadi potensiala, sərbəst bazar qiymətlərinə, rəqabət qabiliyyətli məhsullar istehsal edən iqtisadiyyata əsaslanır. Lakin keçid iqtisadiyyatlı ölkələrin əksəriyyəti kimi Azərbaycan da çox zəif iqtisadiyyata, əslində beynəlxalq miqyasda rəqabət qabiliyyətinə malik olmayan, iqtisadiyyata monetar siyasəti tətbiq etməklə 1995-ci ilə qədər öz iqtisadi inkişafını tam mənası ilə ləngidirdi. Ona görə də keçid iqtisadiyyatına malik ölkələrdə monetar siyasətin birmənalı tətbiqi ziddiyyətli və ümumən milli iqtisadiyyatın inkişafına güclü neqativ təsir göstərən bir proses kimi qiymətləndirilməlidir. Respublikamızda 1995-ci ildən BVF-nin tələblərinə uyğun olaraq **birinci iqtisadi inkişaf proqramının** qarşısında qoyulan başlıca vəzifə Azərbaycanda makroiqtisadi sabitliyin təmin olunması idi. Həmin proqramda makroiqtisadi sabitliyi təmin etməyin istiqamətləri aşağıdakı kimi müəyyən olmuşdur.

- manatın məzənnəsinin sabitləşdirilməsi;
- inflyasiyanın və büdcə kəsirinin minimuma endirilməsi;
- mülkiyyət formalarının transformasiya prosesinin sürətləndirilməsi;
- struktur islahatlarının həyata keçirilməsi.

Azərbaycanda bu proqramın həyata keçirilməsi üçün ilyarım vaxt nəzərdə tutulmuşdur. Bu müddət ərzində Azərbaycan iqtisadiyyatı sağlamlaşdırmağı və strateji dəyişiklikləri həyata keçirməyi öz öhdəsinə götürərək makroiqtisadi sabitliyin ilkin mərhələsinə qədəm qoydu. Əslində bu, ölkədə əldə olunan siyasi sabitliyin nəticəsi ilə bağlı idi. Lakin əldə olunan ilkin makroiqtisadi sabitlik BVF-nin 1998-ci ildə növbəti ikinci sənəd, sərbəst bazar iqtisadiyyatının təşkili üçün zəruri olan tədbirlər proqramının istiqamətini müəyyənləşdirdi:

- Hökumət tərəfindən aparılan işlərin şəffaflığının artırılması;
- Korrupsiyanın aradan qaldırılması;

- Yerli və xarici investorların sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin yaradılması nəzərdə tutulurdu.

Qəbul olunmuş **ikinci proqram** çərçivəsində BVF nümayəndələri 2000-ci ilə qədər Azərbaycanda Neft Fondunun yaradılması, vergi, bank, enerji sektorunun, sosial sferanın yenidən qurulması, eləcə də dövlət sektoru və idarəetmədə təxirəsalınmaz islahatların zəruriliyini göstərmişdir.

BVF ölkəmizdə birinci və ikinci proqram çərçivəsində sabitləşmə və institusional dəyişikliklərin həyata keçirilməsi üçün 500 mln. ABŞ dolları kredit vermişdir. BVF ilə respublikamızda birgə həyata keçirilməsi nəzərdə tutulan **üçüncü proqram** yoxsulluğa qarşı mübarizə proqramı adlanır. Burada aşağıdakı istiqamətlər nəzərdə tutulur.

- makroiqtisadi sabitlik sahəsində əldə olunan nəticələrin davamlı xarakterə keçilməsi;
- kənd təsərrüfatı və digər qeyri-neft sektorunun inkişafının stimullaşdırılması;
- dövlət idarəçiliyinin təkmilləşdirilməsi.

BVF-nin və DB-nin tövsiyəsi əsasında ölkəmizdə makroiqtisadi sabitləşmə və onun nəticələri ilə bağlı olaraq qeyd etməliyik ki, ayrı-ayrı hallarda islahatlar proqramlarında edilən dəyişikliklər, real sektorun inkişafına təminat vermişdir. Lakin o, makrosəviyyədə xüsusən sahibkarlığın inkişafında kifayət dərəcədə mühüm rol oynamamışdır. Bu məsələləri araşdıran C.Stiqlis qeyd edir ki, «Bu məsələlər hər bir demokratik cəmiyyətin mərkəzi problemlərindən biridir. Onlardan ən mühümü dövlət və xüsusi sektor arasındakı normal nisbətin saxlanılması, eləcə də dövlətin məqsədləri nə olursa olsun onlara nailolmanın ən effektiv yollarının araşdırılması məsələləridir». Ümumiyyətlə, C.Stiqlis heç vaxt özünü iqtisadi siyasət sahəsində BVF-nin mövqelərini müəyyən edən və monetarizmin bünövrəsini təşkil edən liberal ideologiyaları neoklassik məktəbin tərəfdarı saymamışdır. Bu mövqeyə görə bazar iqtisadiyyatlarını

formalaşdıran ölkələrdən **üç əsas şərtin yerinə yetirilməsi tələb olunurdu:**

- özəlləşdirmə və bazar qiymət əmələgəlmə mexanizmi də daxil olmaqla bazar islahatlarının keçirilməsi;
- xarici iqtisadi fəaliyyətin, xüsusilə kapital bazarının liberallaşdırılması;
- sərt büdcə və pul-kredit siyasəti yolu ilə makroiqtisadi sabitləşməyə nail olmaq.

Çox maraqlıdır ki, vaxtı ilə BVF-nin məsul işçilərindən olan Nobel mükafatı laureatı Cozef Stiqlis 2003-cü ilin noyabr ayında Bakıda olarkən BVF-nin inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Azərbaycanda həyata keçirdiyi islahatlar proqramını kəskin tənqid etmiş və göstərmişdir ki, bu ölkələrin real iqtisadi inkişafa nail ola bilməməsinin əsas günahkarlarından biri BVF-dir (bax: «İqtisadiyyat» qəz. №54 2003. səh 3.). Ona görə də belə qənaətə gəlmək olar ki, makroiqtisadi sabitləşmə prosesinin davamlılığının təmin olunmasında xarici təşkilatların tövsiyələrindən tədricən uzaqlaşmağa, milli mənafelərə cavab verən inkişaf strategiyasına üstünlük verilməlidir. Artıq 2003-cü ildən başlayaraq ölkəmizdə makroiqtisadi sabitləşmənin dördüncü mərhələsi başlandı. Bu dövrün səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, artıq milli mənafelərə, iqtisadi strategiyanın reallaşmasına cavab verən iqtisadi proqramların həyata keçirilməsinə start verildi:

- davamlı və dayanaqlı iqtisadi artıma təminat verən dövlətin iqtisadiyyatın makrotənzimlənməsi mexanizmi öz təsir dairəsini genişləndirdi;
- regional inkişafa dair Dövlət Proqramı qəbul olundu. Mərhələli xarakter almaqla bu gün də əhəmiyyətli və aktual olaraq qalır;
- iqtisadi təhlükəsizlik də daxil olmaqla Milli Təhlükəsizliyin təmin olunmasının əsas istiqamətləri müəyyənləşdirildi;

- əhalinin fasiləsiz qida məhsulları ilə təmin olunması üçün Ərzaq Təhlükəsizliyi Proqramının həyata keçirilməsinin zəruriliyi ön plana çəkildi;

- milli iqtisadiyyatda təsiri yumşaq qəbul olunan 2008-2009-cu illərin dünya maliyyə və iqtisadi böhranı şəraitində ölkəmizdə iqtisadiyyat sahəsində keçid dövrünün başa çatması barədə 2009-cu ilin noyabrında ölkə başçısının bəyanatı;

- inkişafın Azərbaycan modeli ideyasının real iqtisadiyyat baxımından qiymətləndirilməsi və s.

Qeyd olunan bütün bu istiqamətlər keçid dövrü şəraitində makroiqtisadi sabitləşmənin milli iqtisadiyyatda kəsb olunan xüsusiyyətlərlə bağlı olduğunu əks etdirir.

# XVI FƏSİL. İQTİSADİ TƏHLÜKƏSİZLİK

**16.1. İqtisadi təhlükəsizliyin mahiyyəti və funksional fəaliyyəti**
**16.2. İqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunmasının şərtləri, amilləri və əsas cəhətləri**
**16.3. İqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmi**
**16.4. İqtisadi təhlükəsizlik balanslaşdırılmış vətəndaş-dövlət-cəmiyyət maraqlarının qorunmasının meyarı kimi**

## 16.1. İqtisadi təhlükəsizliyin mahiyyəti və funksional fəaliyyəti

Müasir şəraitdə iqtisadi təhlükəsizlik və iqtisadi mənafelərin milli müstəqillik şəraitində qiymətləndirilməsi, onların mahiyyət və məzmununa sistemli, kompleks və məntiqi baxımdan yanaşmaq, formalaşacaq iqtisadi sistemlə qarşılıqlı əlaqəsini üzə çıxarmaq, iqtisadi strategiyanın elmi və metodoloji bazasının formalaşmasına kömək edəcək mülahizələrin irəli sürülməsi olduqca vacibdir. Bu, hər şeydən əvvəl, onunla əlaqədardır ki, formalaşmaqda olan bazar iqtisadiyyatının xüsusiyyətlərini, qloballaşma prosesindən doğan ikitərəfli, regional və çoxtərəfli inteqrasiya prosesinin gedişatını, milli mənafelərin qorunması istiqamətində vətəndaş, dövlət və cəmiyyətin əlaqələndirilmiş və balanslaşdırılmış iqtisadi təhlükəsizlik sisteminin yaradılması prosesi gedir. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi əhalinin normal həyat fəaliyyətinə təminat verən iqtisadi sistemin səmərəliliyinin qorunması meyarı kimi çıxış edir.

İri və kiçik dövlətlərin iqtisadi təhlükəsizlik və milli mənafelərin qorunması səviyyəsi müxtəlif problemlərin həlli çərçivəsində aparıldığından, ümumi nəzəri konsepsiyalardan

çıxış etməklə, konkret fəaliyyət dairəsini, onu törədən amilləri, şərtlərin və ünsürlərin nəzərə alınmasını zəruri edir.

Bundan əlavə, iqtisadi təhlükəsizliyin və milli mənafelərin əsas cəhətlərini üzə çıxarmaqla onlara milli iqtisadi inkişaf modelində diqqət yetirilməsi olduqca vacibdir. Burada nəzərə alınmalıdır:

- iqtisadi müstəqillik;
- makroiqtisadi sabitlik;
- iqtisadi azadlıq;
- rəqabətqabiliyyətlilik;
- davamlı iqtisadi inkişaf;
- sosial tərəqqi və yoxsulluğun azaldılması;
- kriminallaşmanın, gizli iqtisadiyyatın aradan qaldırılması;
- milli mənəviyyatın qorunması.

Makroiqtisadi baxımdan iqtisadi təhlükəsizliyin mahiyyətinin müasir iqtisadi təfəkkür baxımdan qiymətləndirilməsi müstəqillik dövrünün ilk illərindən başlayaraq, hazırkı müddətə qədər həyata keçirilmiş milli dövlət quruculuğu, etibarlı müdafiə qabiliyyətinin yaradılması, milli iqtisadiyyatın sabitliyinin qorunması, davamlı iqtisadi inkişafın təmini və sosial gərginliyin azaldılması ilə əlaqədardır.

Ən yığcam şəkildə iqtisadi təhlükəsizliyin mahiyyətini belə qiymətləndirmək olar:

**Milli iqtisadiyyatın mövcud iqtisadi sistemin səmərəliliyinin qorunması ilə əhalinin normal həyat səviyyəsinin saxlanılması, makroiqtisadi və sosial sabitliyin təmini və layaqətli milli-mənəvi dəyərlər və maraqlar sisteminin fəaliyyət göstərməsinə təminat verən iqtisadi mexanizmdir.**

İqtisadi təhlükəsizliyin təmini vasitəsilə konstitusiyalı iqtisadiyyatın fəaliyyət göstərməsinə imkan yaranır. İqtisadi təhlükəsizliyin fərqləndirici xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onu təkcə iqtisadi metodlarla deyil, həm də **qeyri-iqtisadi vasitələrlə: siyasi, hərbi, ideoloji, mənəvi, hüquqi, dini amillərlə** təmin edilir. Ona görə də iqtisadi təh-

lükəsizliyin təminində dövlət maraqlarının öncüllüyü meydana gəlir və tənzimlənmə mexanizmi ilə həyata keçirilir.

Qeyd etmək lazımdır ki, ölkəmizin müasir qloballaşan dünya iqtisadiyyatına sürətlə inteqrasiya prosesinə daxil olduğu milli və regional iqtisadi inkişafın tarazlaşdırılmasının zəruriləşdiyi və adekvat milli iqtisadi inkişaf modelinin formalaşdığı bir şəraitdə ilkin bazar sistemi dövründə iqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunmasının və təmin olunmasının nəzəri və əməli problemləri yeni iqtisadiyyat aspektindən öyrənilməlidir. Sivilizasiyalı bazar sisteminin qurulması, milli iqtisadi inkişaf modelinin təşəkkül tapması, dünya təsərrüfat sisteminə, milli mənafelərin qorunması və iqtisadi təhlükəsizliyin təmin olunması problemlərindən doğan xüsusiyyətlərinin üzə çıxarılması, mövcud iqtisadi potensialdan istifadə olunması imkanlarının müəyyənləşdirilməsi, ölkə ərazisinin bütövlüyünün bərpası istiqamətində iqtisadi gücün artırılmasını və dinamizminin saxlanılmasını şərtləndirir. Digər tərəfdən keçid dövründə Azərbaycan iqtisadiyyatının yüksək artım sürətinə malik olması, xarici investisiya qoyuluşlarının iri həcmə, iqtisadiyyatın neft amilindən asılılığının aradan qaldırılması, iqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunması istiqamətində qarşıya çıxacaq problemlərin həlli yollarının üzə çıxarılması, mövcud məkan və zaman çərçivəsində ümumi qanunauyğunluqlara söykənməklə, konkret şəraitdən milli xüsusiyyətdən, mənəvi dəyərlərdən irəli gələn iqtisadi problemlərin nəzəri-metodoloji cəhətdən öyrənilməsini tələb edir.

Ərazi bütövlüyünün bərpası, hər cür təhlükələrin, təhdidlərin qarşısının vaxtında alınması vətəndaşların, dövlətin və cəmiyyətin mənafelərinin qarşılıqlı və ardıcıl qaydada təmini ilə onun demokratik, sivil, dünyəvi inkişaf prosesində, eləcə də qloballaşma şəraitində əhəmiyyətinin üzə çıxarılması iqtisadi təhlükəsizliyin mahiyyətinin dərkində vacib cəhət kimi nəzərə alınmalıdır.

Eyni zamanda iqtisadi təhlükəsizliyin funksional fəaliyyəti kimi diqqət yetirilməlidir:

- milli iqtisadi inkişaf modelinin formalaşması çərçivəsində təhlükəsizlik və milli mənafelərin qarşılıqlı əlaqəsinin təmin olunmasına;

- iqtisadi təhlükəsizlik konsepsiyasının iqtisadi sistemin transformasiyası prosesində qanunauyğunluqlarını, xüsusiyyətlərini üzə çıxarmaqla, milli iqtisadiyyatın təşəkkülü və inkişafı səviyyəsinin təsirini qiymətləndirməklə məlum dünya təcrübəsinin əhəmiyyətini və tətbiqi imkanlarının nəzərə alınmasına;

- milli mənafelərin qorunmasının nəzəri-metodoloji əsaslarını və başlıca prinsiplərini nəzərə almaqla, transformasiya prosesində milli iqtisadiyyatın formalaşması prosesində milli iqtisadi mənafelərin mahiyyətinin spesifik cəhətləri və prinsipləri əsasında konkret dövrün qanunauyğunluqları, ziddiyyətləri və problemləri sistemində vətəndaşların, dövlətin və cəmiyyətin mənafe birliyinin yaradalmasının üstün cəhətlərinə;

- ölkəmizdə həyata keçirilən islahatlaşma prosesinin xarakterik cəhətlərini nəzərə almaqla, onun iqtisadi təhlükəsizlik və milli mənafelərin qorunmasına olan təsirin qiymətləndirilməsinə;

- maliyyə təhlükəsizliyi strategiyasının formalaşması əsasında milli mənafelərin qorunmasını müəyyənləşdirməklə, milli iqtisadiyyatın formalaşması prosesində və iqtisadi təhlükəsizlik strategiyasının qorunmasında vergi siyasəti vasitəsilə dövlət müdaxiləsinin optimal həddinin mövcudluğuna;

- keçid mərhələsində əldə olunan yüksək iqtisadi artım sürətini onu təmin edən amillər baxımından təhlil etmək və investisiya, innovasiya potensialının artırılmasında bank sisteminin rolunu müəyyənləşdirmək və onların sosial-iqtisadi nəticələrinin iqtisadi təhlükəsizliyin qorunmasındakı əhəmiyyətinə;

- iqtisadi sistemin dəyişməsi prosesində korrupsiyalaşmanı və gizli iqtisadiyyatı şərtləndirən başlıca obyektiv və subyektiv amillər qrupunu təhlil etməklə, gizli iqtisadiyyatın miqyası ilə iqtisadi təhlükəsizliyin yüksəlməsi arasındakı qarşılıqlı əlaqənin olmasına;

- milli iqtisadi mənafelərin reallaşması ilə yoxsulluğun azaldılması arasındakı əlaqənin istiqamətlərinin üzə çıxarılmasına diqqət yetirməklə, onun dinamikasını xarakterizə edən göstəricilər sistemini müəyyənləşdirməklə, milli mənafelərin təmin olunması istiqamətində oynadığı rolun nəzərə alınmasına.

İqtisadi təhlükəsizlik anlayışı hər şeydən əvvəl, mühüm makroiqtisadi komponentlərlə müəyyənləşdirilir. Burada hər bir dövlətin, o cümlədən Azərbaycanın milli-dövlətçilik maraqlarına və məqsədlərinə uyğun gələn hədd göstəricilər sistemi fəaliyyət göstərir. Bu hədd göstəriciləri **qısa** və **uzunmüddətli** dövrlər üçün iqtisadi, sosial, ekoloji potensialından **istifadəsi səviyyəsini** və **imkanını** əks etdirməklə, müvafiq **sabitləşdirici** tədbirlərin görülməsinə imkan yaradır. Beləliklə, milli iqtisadiyyatda mövcud olan **resurs potensialından** istifadə olunması imkanlarını, **rəqabətqabiliyyətliliyin** təmin olunması səviyyəsini, **sosial gərginliyin** aradan qaldırılması imkanlarını müəyyənləşdirmək olur.

Hazırda iqtisadi təhlükəsizliyin təmin olunması səviyyəsini xarakterizə edən göstəricilərdən istifadə olunur ki, bu da müxtəlif ölkələrin **iqtisadi inkişaf, sosial tərəqqisinin** həm müəyyənləşdirilməsi, həm də müqayisəsi üçün əlverişli hesab olunur. Bura daxildir:

- ÜDM-in adambaşına düşən həcmi;
- ÜDM-də emaledici sənayenin payı;
- sənayenin ümumi məhsulunda maşınqayırmanın xüsusi çəkisi;
- ÜDM-in artım sürətinə investisiyaların artım sürətinin nisbəti;
- ÜDM-də müdafiə xərclərinin payı (%-lə);

- gəlirlərin səviyyəsinə görə 10% ən çox əhali ilə, 10% ən az əhali arasındakı nisbət;

- beynəlxalq standartlarla müəyyən olunmuş yoxsul əhalinin səviyyəsi;

- gözlənilən ömür müddəti (illə);

- fəal əhalinin tərkibində işsizlərin sayı (%-lə);

- ÜDM-ə nisbətən dövlət borcunun həcmi (%-lə);

- xarici borcun ÜDM-ə nisbəti (%-lə);

- illik inflyasiya səviyyəsi (%-lə);

- idxalın həcmində ərzaq məhsullarının payı %-lə;

- ÜDM-ə nisbətən «gizli» iqtisadiyyatın payı (%-lə);

- ümumi taxıl tədarükü (milyon tonla);

- ÜDM-də ixracın həcmi.

Dövlətin vahidliyinin, bütövlüyünün təmin olunmasında güclü ordu və yüksək texnologiyaya malik müdafiə sistemi ilə yanaşı, daha təkmil iqtisadi, hüquqi və təşkilati mexanizmlərin mövcudluğu, güclü və səmərəli iqtisadi sistemin yaradılması zəruridir. Bunun üçün vacibdir:

- inkişaf etmiş istehlak malları və xidmətləri sektorunun yaradılması;

- daxili sosial-siyasi sabitlik və etibarlı sosial bazaya əsaslanan islahatların aparılması;

- ümumi iqtisadi potensialla balanslaşdırılmış kifayət qədər güclü müdafiə potensialının təmin olunması.

Bütövlükdə iqtisadiyyat və müdafiə sistemi arasında dərin disproparsiyanın olması sonda ölkənin dağılması üçün real təhlükə mənbəyinə çevrilə bilər.

Təhlükəli amillər sırasında xaricdən olan təhlükələr daha ciddi xarakterə malikdir. Xarici təhlükə mənbələri kimi, ölkənin xarici borclarının artması, ixracatın xammal yönümlü olması, xarici ticarət dövriyyəsinin həcminin azalması kimi amillər aşağı iqtisadi səmərəliliyi, emal sənayesinin zəif rəqabət qabiliyyətliliyini şərtləndirir və sonda daxili təhlükə üçün zəmin yaradır.

İqtisadi təhlükəsizliyə qarşı olan bütün amillər iqtisadiyyatın mühüm sferalarını əhatə edərək, insanın həyat fəaliyyətinə, onun fundamental əsaslarına ciddi mənfi təsir göstərir. Yenidənqurma adı altında istehsalın dağılmasına gətirib çıxaran iqtisadi siyasət nəticədə milli təhlükəsizliyin əsaslarını sarsıdaraq, süni surətdə inkişafı ləngidir.

Bazar təsərrüfatı sisteminin imkanları informasiya bazası üzərində qurulan iqtisadi strategiya olmadan reallaşa bilməz.

İqtisadi təhlükəsizlik təminatı bütövlükdə milli təhlükəsizliklə bağlı dövlətin həyata keçirdiyi strategiyanın əsasını təhlükə qorxusunu minimuma endirə biləcək **strateji prioritetləri,** milli maraqları nəzərə alacaq **inkişaf ideologiyası** (yəni iqtisadi, sosial, informasiya, hüquqi, politoloji və mənəvi və s. bağlı elmi baxışlar sistemi, elmi dünyagörüşü) təşkil etməlidir. Əgər bazarın özünün gücü ilə ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyilsə, o zaman bazar şəraitinin geniş və dərin təhlili əsasında istehsalın artırılmasının bazası müəyyənləşdirilməlidir. İnkişaf ideologiyası olmadan, sənaye və elmi-texniki yüksəlişi təmin etmədən, ona şəraiti yaratmadan büdcə gəlirlərini artırmaq, əhalinin məşğulluq səviyyəsini təmin etmək, əhalinin həyat keyfiyyətini və sosial müdafiəsinin səviyyəsini yüksəltmək kimi iqtisadi təhlükəsizlik məsələlərini həll etmək olmaz.

Milli iqtisadi təhlükəsizlik isə dövlətin milli maraqlarını, bütövlükdə **ölkənin ahəngdar, sosial yönlü inkişafının,** daxili və xarici təsirlər şəraitində belə kifayət dərəcədə iqtisadi və müdafiə potensialını təminatlı şəkildə qoruya bilən institutlarının və iqtisadiyyatının mövcud durumunu ifadə edir.

## 16.2. İqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunmasının şərtləri, amilləri və əsas cəhətləri

Cəmiyyətdə gedən sistem dəyişikliklərinin nəzəri-metodoloji əsaslarına söykənərək, aparılan islahatlaşma şəraitində iqtisadi təhlükəsizliyin təmin olunması prosesi təkcə iqtisadi resursların istehsal səviyyəsini, ölkənin iqtisadi potensialını deyil, həm də bu resursların ədalətli bölgüsünə təminat verən bir mexanizmin fəaliyyətini və bu mexanizmin fəaliyyəti nəticəsində ölkədəki bütün sosial-demoqrafik qrupların bütün cəmiyyət üzvlərinin yüksək həyat səviyyəsini, ölkənin yüksək müdafiə qabiliyyətinin əsaslı formalaşmasına rəvac verən kompleks münasibətlər sistemini, elmi-texniki, texniki-iqtisadi yüksəlişin səviyyəsini başa düşmək olar.

İqtisadi təhlükəsizliyin mahiyyəti və strategiyası yeni struktur siyasəti əsasında iqtisadi inkişafın bərpası, təminatı problemləri, istehlakçı və investisiya tələbatının təmin olunması, qiymətli kağızlar bazarının inkişafı, rəqabət mühitinin yaradılması, mülkiyyət və idarəetmə (menejment) münasibətlərinin optimallaşdırılması, bazar iqtisadiyyatının çevik dövlət tənzimləməsi sisteminin yaradılması kimi problemlərin həlli ilə bitmir. Əgər iqtisadiyyatın ayrı-ayrı sferalarında, o cümlədən maddi istehsal sahələrində; elmi-texniki, sosial və xarici iqtisadi sferalarda, regionlarda iqtisadi təhlükəsizliklə əlaqəli məsələlərin konkretləşdirilməzsə, strategiya həqiqi siyasi bir alət ola bilməz.

İqtisadi təhlükəsizliklə bağlı strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi dövlətin milli iqtisadi maraqlarının, mənafelərinin təmin olunması çərçivəsində reallaşmalıdır. Onu da qeyd edək ki, makro və mikroiqtisadi tədbirlər sistemi ilə həyata keçirilən bu addım dövlətin sosial-iqtisadi siyasətinin əsas ana xətti kimi onun bu sahədəki praktik fəaliyyətinin prioritetlərini təşkil etməlidir. Hər bir dövlət bu sahədəki praktik fəaliyyəti ilə davamlı inkişafa

nail olmaqla dünya iqtisadi sisteminə uğurlu inteqrasiya edərək, bu sistemin fəal subyektinə çevrilə bilər.

Müstəqillik konsepsiyasından irəli gələn milli iqtisadi mənafelərin qorunmasının milli iqtisadiyyatın formalaşması prosesindəki yeri və rolu, qiymətləndirilməsi, istehsal və investisiya sahəsində iqtisadi maraqların təmin olunmasından asılıdır. Hər bir ölkədə milli mənafelərin qorunması şərtləri kimi ön cərgəyə çəkilir:

- dövlət müstəqilliyinin qorunması;
- ərazi bütövlüyünün təmini və müdafiəsi;
- cəmiyyətin bütün üzvlərinin mövcud imkanlar daxilində firavan yaşayışının təmini;
- milli iqtisadiyyatın malik olduğu resurs potensialından davamlı inkişaf naminə səmərəli istifadə;
- mədəni-mənəvi və dini dəyərlərin qorunması və inkişaf etdirilməsi;
- zaman və məkan çərçivəsində, daxili və xarici şərait dəyişikliklərinin nəzərə alınması ilə həyat fəaliyyətinin təkmilləşdirilməsi.

Ölkənin milli sərvəti kimi mövcud olan **iqtisadi məkanın vahidliyi, daxili bazarın genişliyi, regionların ixtisaslaşma səviyyəsi** istənilən şəxsiyyət, dövlət və cəmiyyət mənafelərinin qorunması üçün imkanlar yaradır.

Milli mənafelərin qorunmasının özəyini ilkin növbədə təsərrüfat subyektlərinin ehtiyaclarının ödənilməsi ilə əlaqədardır. Burada siyasi və iqtisadi qərarların verilməsi, milli təhlükəsizliyin möhkəmləndirilməsi ilə iqtisadi təhlükəsizliyin qorunmasına təkan verən iqtisadi tədbirlərin həyata keçirilməsi və dayanaqlı inkişafa səbəb olacaq strategiyanın tətbiqi əsas götürülür.

İstehsal sferasında iqtisadi maraqların təmin olunması aşağıdakı məsələlərin həllini tələb edir:

- iqtisadi inteqrasiya şəraitində iqtisadiyyatın açıqlığını təmin etməklə onun geniş təkrar istehsal prosesi çərçi-

vəsində fəaliyyətinin texniki, təşkilati, institusional əsaslarını təmin etmək;

- nisbətən az səmərəli iqtisadi institutların strukturunun təkmilləşdirilməsi, səmərəli bazar sisteminin formalaşması, sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, dünya iqtisadi sisteminə inteqrasiya, mikrosəviyyədə biznesin inkişafının qarşısını alan maneələrin aradan qaldırılması;

- təşkilati-institusional strukturun təkmilləşdirilməsi yolu ilə iqtisadiyyatın sahələrinin yenidənqurulmasını həyata keçirmək. Bu, elm və istehsalın inteqrasiyasının sürətlənməsi, yerli sənaye müəssisələrinin formalaşması və idarə olunması proseslərinin təkmilləşməsi, onların rəqabətqabiliyyətliyinin yüksəlməsi, dövriyyə kapitalından səmərəli istifadəyə geniş imkanlar açır. Onu da qeyd edək ki, istehsalın strukturunun yenidən qurulması məhsulun resurs və enerji tutumunun azaldılması, elm tutumlu məhsul istehsalının həcminin genişləndirilməsinə yönəlməlidir.

- innovasiya və investisiya fəallığının artırılması, bunun əsasında əsas istehsal fondlarının, texnika, texnologiyanın yeniləşdirilməsinin həyata keçirilməsi. Bu, istehsalın yüksək səviyyədə texnika ilə silahlanması, elm və istehsal arasında inteqrasiyanın sürətlənməsi, yerli istehsalın rəqabətqabiliyyətliliyinin yüksəlməsini təmin edə bilər.

- ölkənin elmi-texniki potensialının elmi-texniki tərəqqinin müasir istiqamətlərinə uyğun fundamental və tətbiqi elmlərin prioritet inkişaf istiqamətlərində inkişafının təmin edilməsi, elmtutumlu və yüksək texnologiyalı sənaye, kənd təsərrüfatı istehsalının yaradılması.

- intellektual mülkiyyət bazarının formalaşması və inkişafına şərait yaratmaq, istehsal və elmi-texniki müəssisələrin, orta və kiçik innovasiya müəssisələrinin təşkilinə diqqət ayırmaq, onların səmərəli fəaliyyəti, innovasiya məhsulları və xidmətlərini yüksək texnologiyanı reallaşdıra bilmələri üçün şəraiti təmin etmək;

- ölkənin milli iqtisadi təhlükəsizliyini təmin edən sahələrin fəaliyyətinə dövlət nəzarətinin gücləndirilməsi və bu sahədə normativ hüquqi bazanın yaradılması və təkmilləşdirilməsinə nail olmaq;

- istər ölkə daxilində, istərsə də dünya sistemində baş verən fövqəladə hallara, konyuktur dəyişikliklərə hazırlıq baxımından strateji-maddi ehtiyatların formalaşdırılması;

- ölkənin təbii-resurs potensialından uzunmüddətli və səmərəli istifadə, istismar strategiyasının işlənib hazırlanması;

- ölkənin ixrac potensialının inkişaf etdirilməsi.

Milli mənafelərin qorunmasının əsas cəhəti kimi investisiya mühitinin yaradılması çıxış edir. İnvestisiya fəaliyyətinin tənzimlənməsi dövlətin iqtisadi siyasət strategiyası çərçivəsində həyata keçirilir. Burada əsas tənzimləyici alət ayrı-ayrı iqtisadi sferalar və regionlar, bütövlüklə ölkə iqtisadiyyatının prioritet inkişaf istiqamətlərinə yönəlmiş investisiya proqramları və layihələri üstünlük təşkil edir. Bu məsələlərin həlli birinci olaraq, **sabit struktur dəyişikliklərinin təmin edilməsi,** ikinci isə **dövlət və xüsusi müəssisələrin** investisiya fəaliyyətlərinin iş mexanizmini və özünütənzimləməsini müəyyən iqtisadi vasitələrdən uyğun şəkildə istifadə etməklə əlaqədardır. Burada qarşılıqlı əlaqəli iqtisadi-təşkilati tədbirlərin həyata keçirilməsi zəruriləşir. Müasir bazar münasibətləri şəraitində müxtəlif iqtisadi sfera və regionlar üçün prioritet investisiya istiqamətlərinin əsaslandırılmasında yeni texniki-iqtisadi metodların işlənib-hazırlanması çətin olsa da, həlli vacib məsələdir. Bu metodlar bazar iqtisadiyyatı konsepsiyaları ilə ziddiyyət təşkil etməməlidir.

Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün dövlət tərəfindən investisiyalar ayrılan prioritet iqtisadi sferaları hesab etmək olar:

- belə vacib əhəmiyyətli məhsulları istehsal edən müəssisələrin aşağı rentabelliklə işləməsi dövlətin fəal şə-

kildə onların fəaliyyətinə yardım etməsinə, maliyyələşdirməsinə zərurət yaradır;

- rəqabətqabiliyyətli məhsullar buraxan müəssisələrin sayını artırmaq. İnhisar strukturlarının təsiri ilə formalaşan qiymətlərdən qorunmaq məqsədilə bu müəssisələrə kömək etmək onların istehsal xərclərini azaltmaq zərurətindən irəli gəlir;

- uzun müddət yüksək tələbat duyulan məhsulların istehsalı;

- daha yüksək keyfiyyətli və ya yeni məhsul növlərinin buraxılışını mənimsəyən müəssisələrin yaradılmasına dəstək vermək;

- istehsal və sosial infrastrukturu möhkəmlətmək.

Xarici iqtisadi sferada milli iqtisadi təhlükəsizliyin təmin olunmasında mövcud potensialdan istifadə ilə əlaqədar aşağıdakı tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir:

- ölkənin dünya iqtisadi sisteminə uğurlu inteqrasiyası baxımından elmtutumlu yüksək texnologiyalı məhsul istehsal edən aparıcı şirkətlərlə strateji əməkdaşlığı inkişaf etdirmək, beynəlxalq miqyasda resursları əldə etmək imkanlarını genişləndirmək;

- ölkənin inkişafı və dövlətin maraqlarına uyğunluq baxımından əsaslı sahələrə investisiya axınına şərait yaratmaq;

- iqtisadi sahədə ölkənin qanunvericilik bazasının beynəlxalq səviyyədə qanunvericiliyin tələblərinə uyğunlaşdırılması, xüsusilə beynəlxalq iqtisadi təşkilatlarla sıx əməkdaşlıq əlaqələrini inkişaf etdirmək və bu zaman ölkənin milli iqtisadi maraqlarının önə çəkilməsi;

- dünya ölkələri, yaxın qonşularla əməkdaşlıq əlaqələrinin, iqtisadi münasibətlərin və inteqrasiya proseslərinin prioritet inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və inkişaf etdirilməsi;

- ixracın strukturunda elmtutumlu məhsulların, yüksək texnologiyanın həcminin artırılması, ixraca dövlət yardımının və nəzarətin təmin edilməsi;

- yerli istehsalın idxalın, eləcə də haqsız rəqabətin təsirindən qorunması;

- dövlətin maraqları çərçivəsində gömrük-tarif və qeyri-tarif tənzimləmə mexanizmlərindən istifadə edilməsi;

- ölkə vətəndaşlarının, yerli investorların xaricdə öz fəaliyyətlərini qurmalarına kömək etmək, həmin fəaliyyət göstərdikləri dövlətlərdə onların maraqlarının yüksək səviyyədə hüquqi baxımdan qorunmasını təmin etmək;

Regional baxımdan ölkənin milli iqtisadi maraqlarının təmin olunması ölkə daxilində vahid iqtisadi məkanın formalaşması və uğurlu fəaliyyəti, regionlarda kriminogen qüvvələrin iqtisadi strukturların fəaliyyətinə müdaxiləsinin qarşısını almaq, ölkə daxilində əlverişli inteqrasiya proseslərinin həyata keçirilməsinə şərait yaratmaq. Bu mənada dövlətin sosial-iqtisadi siyasətinin başlıca prioritetlərindən biri də məhz ölkənin paytaxt və iri şəhərlərinin inkişaf səviyyələri arasındakı uyğunsuzluğu minimuma endirmək və aradan qaldırmaq, **regional inkişafın optimal istiqamətlərini** müəyyənləşdirməkdir. Bu istiqamətdə aşağıdakılar həyata keçirilməsi vacib görünür:

- ölkə daxilində vahid dövlət nəzarətinin optimal mexanizminin işlənib hazırlanması;

- regionlararası təsərrüfat əlaqələrinin səmərəli şəkildə qurulması, maliyyə vəsaitlərinin regionlar arasında səmərəli bölgüsü və regionlara fərqli münasibətlərə yol verilməməsi;

- hər bir regionun potensialından müvafiq olaraq ölkənin ümumi inkişafında və həmin regionun özünün inkişafında optimal şəkildə istifadə etmək;

- vergi-büdcə tənzimlənməsi məsələlərində hər bir regionun coğrafi-iqtisadi imkanlarının nəzərə alınması, bu

sahədə optimal güzəştlər sisteminin, mexanizminin işlənib hazırlanması.

Ölkənin ayrı-ayrı regionlarında normal iqtisadi inkişafı təmin etmək üçün dövlətin və regionların maraqlarının səmərəli kəsişmə strategiyasının işlənib hazırlanmasını əsaslandırır və ölkə ərazisində vahid iqtisadi siyasətin həyata keçirilməsinə zəmin yaradır.

İqtisadi təhlükəsizliyin təmin olunmasında dövlət strategiyası müəyyən məsələlərin həlli bir sıra tələblərin təmin olunması yolu ilə uğurla reallaşa bilər. Birincisi, hökumətin, icra orqanlarının üzərinə düşən funksiyaları dəqiq müəyyənləşdirmək. İkincisi, dövlətin tənzimləyici funksiyalarının adekvat informasiya təminatı tələb olunur.

İqtisadi təhlükəsizliyin təmin olunması üzrə dövlətin fəaliyyətinin bir sıra mühüm müddəaları hər il dövlət büdcəsinin və dövlətin sosial-iqtisadi inkişaf proqnozları layihələrinin işlənib hazırlanması prosesində həyata keçirilir.

İqtisadi təhlükəsizliyin strateji məqsədlərinin qoyuluşu və müəyyən edilməsindən onun təmin olunması üzrə müvafiq vəzifələrin və tədbirlərin konkretləşdirilməsi olduqca vacibdir. Bununla əlaqədar olaraq dövlət tərəfindən baş verə biləcək hər bir iqtisadi böhrandan çıxmaq istiqamətində kompleks tədbirlər hazırlayır. Bu tədbirlər kompleksi iqtisadiyyatın bütün sferalarını əhatə etməklə, ölkənin iqtisadi təhlükəsizliyinin təminatı kimi çıxış edir. Belə tədbirlər sırasına daxildir:

- fəal struktur və sosial siyasətin həyata keçirilməsi;
- investisiya, maliyyə, pul-kredit və xarici iqtisadi sferada dövlətin fəallığının gücləndirilməsi;
- institusional dəyişikliklərin aparılmasının davam etdirilməsi.

Beləliklə, aydın olur ki, tarixi inkişafın hər bir mərhələsində iqtisadi təhlükəsizliyin və milli mənafelərin qorunması milli-dövlət maraqları kimi əks olunaraq siyasi, iqtisadi, hərbi və texnoloji sahələrdə müvafiq üstünlük

vermə istiqamətlərinin formalaşmasına təkan verir. Bunlar da öz növbəsində milli-dövlət maraqlarının iqtisadiyyatın inkişaf səviyyəsindən asılı olaraq möhkəmlənməsinə və dayanaqlı xarakter almasına imkan yaradır.

Azərbaycanın milli maraqları, malik olduğu milli sərvətə və milli mənəvi, mədəni dəyərlərə əsaslanır. Ona görə də ölkəmizin milli maraqlarını bir neçə istiqamətdən qiymətləndirmək olar:

• tarixi baxımdan – Azərbaycan qədim dövlətçilik ənənələrinə malik olmaqla, islami dəyərlərlə inkişaf yolunu keçməklə, yaxın keçmişdə şərqdə ilk demokratik prinsiplərə əsaslanan Xalq Cümhuriyyəti kimi mövcud olmuş, SSRİ-nin tərkibinə sosialist ölkəsi kimi daxil olmuş və 1991-ci ilin oktyabrın 18-dən etibarən müstəqil Respublika kimi fəaliyyət göstərir;

• geosiyasi baxımdan – Azərbaycan Avrasiyada unikal coğrafi mövqedə – Qədim İpək Yolunun üstündə yerləşməklə Qərb-Şərq, Şimal-Cənub dəhlizində sabitləşdirici siyasətin həyata keçirilməsinə imkan verir;

• iqtisadi baxımdan – quruda və dənizdə zəngin resurs potensialına malik olmaqla müstəqil dövlət kimi sürətli inkişafa və təbii sərvətə malik olan ölkədir;

• milli baxımdan – etnik və azsaylı xalqların, azərbaycanlılarla bərabərhüquqlu əsaslarla yaşayanların vahid vətənidir;

• mənəvi-dini dəyərlər baxımından tailradlıq prinsiplərinə söykənən hər üç səmavi kitablara hörmətlə yanaşan və çoxəsrlik ənənələrə sadiq qalan ali milli maraqların qoruyucusudur.

## 16.3. İqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmi

İqtisadi sistem dəyişikliklərinin səmərəli fəaliyyətinin təmin olunmasında iqtisadi mənafelərin kompleks şəkildə qorunmasının məntiqi, vacibliyi və üstünlüyü, mikro və makroiqtisadi səviyyələr arasında meydana çıxan problemlərin iqtisadi təhlükəsizliyin qorunması baxımından nəzəri təhlili, bilavasitə onun təmin olunması mexanizmi ilə əlaqədardır.

Makroiqtisadi səviyyəyə aşağıdakı məsələlər daxildir:

- məcmu tələbin yüksəldilməsi;
- maliyyə və istehsal resurslarının fəaliyyət göstərə bilməyən müəssisələrdən və sektorlardan daha səmərəli istehsal sahələrinə yönəlməsini təmin etmək;
- ixracın stimullaşdırılması və onun diversifikasiyası;
- ümumi qaydalar çərçivəsində yerli istehsalın qorunması məqsədilə idxalın tənzimlənməsi.

Makroiqtisadi səviyyədə struktur siyasətinin həyata keçirilməsi zamanı iqtisadi cəhətdən səmərəli işləyən müəssisələrin inkişafını stimullaşdırmaq və ona təkan vermək, qeyri-səmərəli fəaliyyət göstərən iqtisadi strukturların ləğvi və ya onların yenidən qurulması, qiymətlərin qalxmasının qarşısını almaq məqsədilə razılaşma proseslərinin təşkili, iqtisadi subyektlərin bazar davranışı normalarının tətbiqi kimi məsələlər ön plana keçir.

Müasir şəraitdə normal iqtisadi inkişafı təmin edəcək makroiqtisadi siyasətin minimum iki fundamental məqsədini qeyd etmək olar. **Birincisi,** istehsal sferasının, o cümlədən onun kapital dövriyyəsi sferasına pul vəsaitlərinin axınından dağılmaq təhlükəsi qarşısında olan seqmentlərinin inkişafını və canlanmasını təmin etmək. **İkincisi,** istehsal sferası və kapitalın dövriyyəsi sferası arasında, eyni zamanda onların daxilində olan maneələri aradan qaldıraraq inteqrasiyanı təmin etmək. Belə şəraitdə ölkənin istehsal müstəqilliyinin yaradılmasına şərait yaranar. Ona görə də

makroiqtisadi sabitləşdirmə mexanizmi ilkin olaraq istehsalçıların maraqlarının qorunması ilə hüdudlaşmağı ön cərgəyə çəkir.

Milli iqtisadiyyatın davamlı inkişafına yönəldilmiş maliyyə-pul siyasətinin vəziyyəti, ondan istifadə dərəcəsi, dünya maliyyə institutlarının bu istiqamətdəki fəaliyyəti və onların respublikamızda iqtisadi artım prosesinə olan təsirinin üzə çıxarılması iqtisadi təhlükəsizliyin təmin olunması mexanizmi kimi qiymətləndirmək olar.

Maliyyə təhlükəsizliyi sisteminin formalaşmasının əsasını maliyyə bazarının inkişaf strategiyasının işlənib-hazırlanması təşkil edir. Bu istiqamətdə, maliyyə bazarının bütün iştirakçılarının maraqlarının balanslaşdırılmasının eyni vaxtda təmin edilməsilə və bütün əsas seqmentlərinin inkişafını əlaqələndirmək vacibdir.

Maliyyə sistemi üçün təhlükə səviyyəsi nə qədər az olarsa, yatırılan vəsaitlərdən gələn gəlir, fayda bir o qədər çox olar. Vahid konsepsiya formasında maliyyə təhlükəsizliyi sisteminin formalaşması üçün islahatlar dövründə maliyyə-pul alətlərinin fəaliyyətinin kompleks təhlili vacibdir. İqtisadi artıma şərait yaradacaq maliyyə mühitinin yaradılmasını təmin edə bilən sistemin konseptual əsaslarının işlənib-hazırlanması nəzərdə tutulan təhlilin əsas istiqaməti və yekun nəticəsi olmalıdır. Burada əsas diqqət cari maliyyə-iqtisadi problemlərin həllinə yönəldilən maliyyə və pul siyasətinin məqsədyönlü təhlili üzərində cəmləşdirilməlidir. Bu istiqamətdə maliyyə sisteminin bütün elementləri arasında mühüm qarşılıqlı əlaqələr nəzərə alınmalıdır.

İnflyasiyanın aşağı düşməsi, pul kütləsinin azalması, dövlətin qısamüddətli borc bazarının gəlirliyinin aşağı düşməsi bankları və digər maliyyə institutlarını kapital qoyuluşu üçün yeni sahələr, sferalar axtarıb-tapmaq məcburiyyətində qoyur. Belə olan halda onların istehsal sferası ilə sıx əməkdaşlıq etmək məsələləri daha da ciddi xarakter alır və zərurətə çevrilir. Bu heç də bankların istehsala tərəf

çevrilməsi demək deyildir. Sənaye müəssisələri arasında yatırılan investisiyaları qaytarmaq qabiliyyəti olan müəssisələrin sayı da bu prosesə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan, banklar özləri zərbə altında qalmamaları üçün çox vaxt belə müəssisələrlə kreditləşmə sövdələşmələri aparmırlar.

Bu ziddiyyətli məsələni həll etmək üçün həm maliyyə institutları, həm də müəssisələr investisiya mühitinin dəyişməsinə ciddi reaksiya verməklə yanaşı, onlar öz mövqelərini də düşünülmüş şəkildə qiymətləndirməlidir. Onu da qeyd edək ki, bu gün respublikamızda yerli sənaye müəssisələrinin kapital qoyuluşlarına olan tələbatının səviyyəsi müəssisələrin bu investisiyalardan real istifadə imkanlarını xeyli üstələyir. Bu mənada, bank sistemində baş verən böhranı investisiya proseslərindəki yeni keyfiyyət dəyişikliklərinin əlaməti kimi də hesab etmək olar.

Vergi siyasətinin konkret vəzifələrindən biri sosial səmərəlilik və ədalət prinsiplərini nəzərə alaraq və maksimum dərəcədə stimullaşdırıcı formada vergi yükünün mütənasib bölüşdürülməsidir.

Makroiqtisadi sabitliyin təmin olunması üçün həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərindən biri büdcəyə və büdcədənkənar fondlara daxil olan vergi ödəmələrini və vergilərin sayını azaltmaq və sistemləşdirməkdir. Ayrı-ayrı regionlar üzrə çoxsaylı müxtəlif vergilərin tətbiqinə yol verilməməlidir. Regionlarda yerləşmə xüsusiyyətləri baxımından müəssisələrə ayrılan vergi güzəştlərinə nəzarəti təmin etmək vacibdir.

Vergi mexanizmi kredit-bank siyasəti, faiz dərəcəsi ilə qarşılıqlı fəaliyyət əlaqəli olmalı, bu istiqamətdə maliyyə, kredit təşkilatları və investisiya məqsədləri üçün uzunmüddətli borclardan istifadə edən müəssisələrə müəyyən üstünlüklər verilməlidir.

İqtisadi təhlükəsizliyin qorunması mexanizmi, həmçinin, resurs təminatı prosesi, investisiya, innovasiya, bank

kapitalı vasitəsilə həyata keçirilməsinin xarakteri, miqyası, sürəti ilə bilavasitə sıx əlaqədədir.

Ölkənin investisiya-innovasiya potensialının artırılmasında bank sisteminin rolunun yüksəldilməsi olduqca vacibdir. Bu istiqamətdə bank sisteminin fəallığının təmin olunması ilə bağlı imkanların aşkara çıxarılması, ölkədə əlverişli siyasi və iqtisadi şəraitin yaradılması mühüm rol oynayır, eləcə də bankların özlərinin də xüsusiyyətləri az əhəmiyyət kəsb etmir. Bu mənada aşağıdakı cəhətlərə diqqət yönəltmək məqsədəuyğundur:

- uzunmüddətli kapital qoyuluşları imkanlarını məhdudlaşdıran qısamüddətli passivlərin üstünlük təşkil etməsi;
- passivlərdə depozitlərin payının aşağı olması;
- müəssisə və təşkilatların passivlərindəki qalığın payının hesablar üzrə yüksək olması;
- aktivlərin və passivlərin strukturunun üst-üstə düşməməsi, uyğunsuzluğu;
- bank aktivlərinin likvidliyi probleminin olması, kəskinləşməsi və s.

İnnovasiya-investisiya layihələrində yaxından iştirak edən bankların kapital bazası beynəlxalq, dünya standartlarına cavab verməlidir. Çünki yalnız iri banklar istehsala investisiya yatırmaq istiqamətində vəsaitlərinin əksər hissəsini onların təsərrüfat dövriyyəsindən çıxarılmasına tab gətirə bilər.

Kapitalın ölkəyə qaytarılmasına zəmin yaratmaq üçün əlverişli ümumi iqtisadi şərait formalaşdırmaq məqsədəuyğun olardı. Dünya təcrübəsi göstərir ki, kapitalın ölkəyə qayıtması kapital axını problemi ilə üzləşmiş ölkənin iqtisadiyyatının stabilləşmədən iqtisadi artıma keçməsi, investisiya mühitinin sağlamlaşdırılması, investisiyaların iqtisadi və siyasi risklərdən etibarlı təminat sistemini formalaşdırmaq, sabit və şəffaf vergi sistemi yaratmaqdan asılıdır.

Xarici partnyorlarla əlaqəyə girməklə kapitalın ölkəyə qaytarılması prosesini müəyyən qədər yüngülləşdirmək olar.

Gömrük, valyuta və bank nəzarəti üzrə tədbirlərin işlənib-hazırlanması. Bu mənada, bazar alətlərini təkmilləşdirmək, fond bazarlarının şəffaf və sabitliyi üçün şərait yaratmaq, korporativ qiymətli kağızlar bazarı hesabına fond bazarının həcminin genişləndirilməsi vacibdir. Əks halda qeyd etdiyimiz istiqamətlər üzrə tədbirlər sistemi ölkədən çıxarılmış kapitalın geri qaytarılmasına öz-özünə kömək edə bilməz.

Bank sisteminə qarşı inamın artırılması və əhalinin banklardakı vəsaitlərinin saxlanılmasına təminatın gücləndirilməsi, möhkəmləndirilməsi üzrə tədbirlərə xüsusi əhəmiyyət vermək lazımdır. Etibarlı bank sistemi olmadan depozitlərin sığortalanması dövlət maliyyəsi üzərinə əlavə yük ola bilər, çünki kifayət dərəcədə likvidli olmayan qeyri-tədiyyə qabiliyyətli bankların müflisləşməsi nəticəsində üzləşdikləri itkilər depozitlər üzrə ödəmələrin sığortalanması hesabına əvəz oluna bilməz.

Bank depozitlərinin məbləğində sərbəst olaraq dövr edə bilən və dollara mübadilə olunan sertifikatların buraxılışı barəsində tövsiyələr hazırlamaq. Bu tövsiyələr milli valyuta ilə əmanətlər toplanmasına stimul yaradaraq, onların müsadirə olunmasına qarşı təminat ola bilər. Bu ideya təkcə əmanətlər baxımından deyil, investisiya potensialının artırılması məqsədilə ətraflı, dərin təhlil edilməlidir.

Ölkədə aparıcı bankın (Mərkəzi Bankın) və aparıcı kommersiya banklarının xarici təşkilatlarla birgə kapital axınının mexanizmləri və kanallarının təhlili, ölçüsünün (miqyasının) qiymətləndirilməsi üzrə məsləhətlər aparılması məqsədəuyğun olardı. Bəzi halda ölkənin Mərkəzi Bankı ilə xarici bank arasında ölkədən qanunsuz çıxarılmış kapitalın ölkəyə qaytarılması formaları və şərtləri haqqında xüsusi razılaşma hazırlanması barədə danışıqlar aparıla bilər.

Kapitalın ixracının tənzimlənməsi üzrə qanunverici bazanı genişləndirmək vacibliyi zəruriləşir.

## 16.4. İqtisadi təhlükəsizlik balanslaşdırılmış vətəndaş-dövlət-cəmiyyət maraqlarının qorunmasının meyarı kimi

İqtisadi təhlükəsizliyi balanslaşdırılmış vətəndaş-dövlət-cəmiyyət maraqlarının qorunmasının meyarı kimi qiymətləndirərkən nəzərə alınmalıdır:

- korrupsiyalı iqtisadiyyatın aradan qaldırılması;
- «gizli», «kölgə», «qeyri-formal», «qeyri-leqal» adlı iqtisadi fəaliyyətin minimuma endirilməsi;
- sosial təhlükəsizliyin təmin olunması;
- yoxsulluğun azaldılması;
- gəlirlərin səviyyəsindəki kəskin fərqin yumşaldılması.

Göründüyü kimi, bu problemlərin həlli dövlətin iştirakı ilə mümkündür. Ölkənin təhlükəsizliyinə mümkün təhdidlərinin qarşısının alınması yalnız dövlətin həyata keçirtdiyi qabaqlayıcı tədbirlərlə mümkündür. Balanslaşdırılmış vətəndaş-dövlət-cəmiyyət maraqlarının meyarı kimi iqtisadi təhlükəsizliyin rolunun qiymətləndirilməsini həyata keçirilən və fasiləsiz görünən **haqlayıcı tədbirlərin** mahiyyətində görmək olar.

İqtisadi sferada baş verən cinayətlər və digər oğurluq halları ilə mübarizə məqsədilə yalnız iqtisadiyyatdakı dəyişikliklər deyil, eyni zamanda hüquq-mühafizə orqanlarının fəaliyyətini gücləndirmək, mülkiyyətçilərin hüquq və əmlaklarının qorunması istiqamətində fəaliyyətin keyfiyyətini yüksəltmək lazımdır. Bu tədbirlər və digər iqtisadi tədbirlər yeni iqtisadi mühit formalaşdırır ki, bu da kriminal iqtisadi sferanın miqyasının məhdudlaşdırılmasına kömək edir. Bu baxımdan, yeni şəraitdə kölgə iqtisadiyyatının neytrallaşdı-

rılması inzibati və vətəndaş hüquq normaları ilə ifadə olunan iqtisadi metodlarla həyata keçirilə bilər.

Aydındır ki, iqtisadi dəyişikliklərin həyata keçirilməsi müvafiq təşkilati və hüquqi təminat tələb edir. Bu məqsədlə, kölgə iqtisadiyyatının neytrallaşdırılması ilə əlaqədar aşağıdakı iqtisadi tədbirlər kompleksini həyata keçirmək məqsədəuyğundur:

- iqtisadi münasibətlərin bütün sferalarında rəqabətə şəraitin yaradılması;
- sahibkarlıq fəaliyyətinin iqtisadi stimullaşdırılması və istehsalın həcminin artırılması;
- əməyin səmərəliyinin artırılmasında iqtisadi stimullaşdırma;
- vergi sisteminin təkmilləşdirilməsi;
- əmtəə və xidmətlərin bazar mexanizmləri əsasında bölgüsü;
- təsərrüfat fəaliyyətinə iqtisadi nəzarətin həyata keçirilməsi.

Kölgəli iqtisadi fəaliyyətə təsir etmək və onu neytrallaşdırmaq üçün kompleks dövlət proqramı işləyib-hazırlamaq lazımdır. Buraya aşağıdakılar daxil olmalıdır:

- vergi bazasının genişləndirilməsi, eyni vaxta vergi dərəcələrinin nominal həcminin azaldılmasını nəzərdə tutan kompleks vergi islahatlarının həyata keçirilməsi;
- milli mühasibat hesabatları sisteminin sadələşdirilməsi və unifikasiyası məqsədilə islahatların aparılması;
- investisiya yatırımlarının artırılması məqsədilə maliyyə resurslarının cəlb edilməsi üçün daha əlverişli şəraitin yaradılması;
- xüsusi mülkiyyətin kommersiya və bank sirlərinin qorunmasını gücləndirmək üçün, sahibkarların hüquqi müdafiəsini təmin etmək məqsədilə qanunvericilik aktları paketinin qəbul edilməsi;

- gizli yollarla toplanmış kapitalın (kriminal mənşəli olmayan) qanunilaşdirilməsi üzrə proqramın qəbul edilməsi və həyata keçirilməsi;

- kölgə iqtisadiyyatının bütün təzahür formalarının tədqiqi üçün çevik elmi-praktiki tədqiqat qruplarının yaradılması və dövlət tərəfindən maliyyələşdirilməsini təmin etmək.

Kölgə iqtisadiyyatının aradan qaldırılması və ya neytrallaşdırılmaq istiqamətində təşkilati xarakterli tədbirlər kimi iqtisadi sferada cinayətkarlığa qarşı ümumdövlət mübarizə proqramı işlənib hazırlanmalıdır. Bu mübarizə tədbirləri çərçivəsində aşağıdakılar həyata keçirilə bilər:

- vətəndaşların gəlirlərinə və sahib olduqları əmlakın həcminə ümumi və birbaşa nəzarət mexanizminin işlənib-hazırlanması: bazar münasibətləri şəraitində bu, gizli, kölgə iqtisadiyyatının «işbazları» və cinayətkar aləmin liderləri tərəfindən toplanmış gəlirlərə və sərvətə qarşı etibarlı sipər yaradır;

- çevik qiymət və vergi sisteminin yaradılması. Bu, dövlət sifarişlərinin yerinə yetirilməsini iqtisadi cəhətdən stimullaşdırmağa, yüksək keyfiyyətli, ucuz başa gələn və tələbatı təmin edən əmtəələrin və xidmətlərin istehsalına kömək edir; təsərrüfat hesablı gəlirdə xüsusi çəkisindən asılı olaraq əməkhaqqı fondundan mütərəqqi vergi tutumu şkalasının tətbiqi;

- maddi və maliyyə ehtiyatlarının, o cümlədən qeyri-məhsuldar xərclərin və itkilərin hərəkəti haqqında yeni qeydiyyat və hesabat sisteminin işlənib-hazırlanması;

- istehsal-təsərrüfat fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanunvericiliyi təkmilləşdirmək, stimullaşdırıcı tədbirlərə diqqət ayırmaq;

- xırda qanun pozuntularının nəzərdən keçirilməsi üçün inzibati hüquq sisteminin yaradılması;

- vətəndaşların hüquq və maraqlarına, təsərrüfat fəaliyyətinə əsassız müdaxilənin qarşısını almaq üçün qanunların qəbulunda müvafiq məsələlərin nəzərə alınması;

- maliyyə, audit nəzarətinin gücləndirilməsi, təşkilatlararası yoxlama, ekspertiza xidmətinin təkmilləşdirilməsi, vergi nəzarətinin təkmilləşdirilməsi;

- zəhmətsiz yolla əldə edilən gəlirlə mübarizə metodlarının işlənib-hazırlanması, cinayətkar yollarla əldə edilən vəsaitlərin maliyyə orqanlarına könüllü verilməsi və cinayət məsuliyyətindən azad olmaları ilə əlaqədar imkanların qanunvericilikdə nəzərə alınması;

- hüquq-mühafizə orqanlarının maddi, sosial-məişət və texniki təchizatının yaxşılaşdırılması.

Milli mənafelərin reallaşdırılması və iqtisadi təhlükəsizliyin təmin olunmasında yoxsulluğun azaldılması əsasında sosial təhlükəsizliyin qorunmasının başlıca istiqamətlərinin müəyyənləşdirilməsi vacibdir.

Sosial siyasətin həyata keçirilməsi zamanı ölkənin regionlarının spesifikası, əhalinin tarixən formalaşmış təsərrüfat fəaliyyətinin təşkili metodları və formaları, məşğulluğu nəzərə alınmaqla, əhalinin sosial təhlükəsizliyi və fiziki mövcudluğu, sağlamlığının təmin edilməsinə diqqətin yönəldilməsi, gələcəkdə əhalinin həyat səviyyəsinin və keyfiyyətinin aşağı düşməsinin qarşısının alınması, əhalinin tənəzzülünə yol verməmək, iqtisadi artımın strateji əhəmiyyətli amilləri olan təhsil və peşə sisteminin dağılmasının qarşısını almaq, ona imkan verməmək kimi məsələlər də diqqət mərkəzində olmalıdır. Bu sahədə fəaliyyət təxirəsalınmaz vəzifələrin həllindən orta və uzunmüddətli perspektivdə daha yüksək məqsədlərə nail olmağa doğru yönəlməlidir.

Sosial sahədə yaranmış vəziyyət fəaliyyətin aşağıdakı prioritet istiqamətlər üzrə təkmilləşdirilməsini tələb edir: fəal məşğulluq siyasətinin aparılması; əhalinin həyat səviyyəsinin aşağı düşməsinin qarşısını almaq, aztəminatlı ailələrin etibarlı sosial müdafiə sistemini təşkil etmək məqsədilə orta təbəqənin formalaşması istiqamətində gəlir və vergi siyasətinin aparılması; cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinə qayıdış, onun əsaslarının bərpası, yüksəlişinə nail olmaq,

ailənin əsaslarının möhkəmləndirilməsi və bu istiqamətdə dövlətin bütün təsir, təhsil vasitələrindən, o cümlədən televiziya, incəsənət, ədəbiyyat, dinin imkanlarından istifadə edilməsi.

Yoxsulluğun miqyasının məhdudlaşdırılması ilə bağlı tədbirlər sırasında real əməkhaqlarının artırılması, əmək-haqları, təqaüdlər, pensiyalar, müavinətlər üzrə borcların ləğvi xüsusi yer tutur.

Ən çətin məsələlərdən biri də yoxsulluq həddində yaşayan imkansız əhali qrupuna sosial yardım və onların sosial müdafiəsi ilə bağlı mexanizmlərin işlənib-hazırlanmasına, eləcə də dövlət tərəfindən sosial yardımlar məqsədi ilə ayrılan maliyyə vəsaitlərinin xərclənməsində (mənfi mənada) bərabərçiliyə yol verməməklə bağlıdır. Problemin həllinə prinsipial yanaşma ehtiyac səviyyəsinin nəzərə alınması ilə birbaşa ünvanlı sosial yardım göstərilməsi ehtiyacı olanların seçiminin əsaslandırılmasıdır. Eyni zamanda bu məqsədlər üçün ayrılmış maliyyə vəsaitlərindən israfsız istifadəyə yol verməmək, ölkənin bütün regionlarında belə yardımların alınmasının sabitliyini təmin etmək məsələsi də prinsipial əhəmiyyət kəsb edir. İşsizliyin səviyyəsinin artması yoxsulluğun və sosial qeyri-sabitliyin dərinləşməsinə səbəb olan amil kimi iqtisadi təhlükəsizlik üçün daha ciddi təhdidlar sırasına daxil edilməlidir.

Milli iqtisadi mənafelərin bazar transformasiyası gedişində əhali gəlirləri arasındakı kəskin fərqlənmənin və sürətli təbəqələşməyə olan meylin istiqaməti və başlıca səbəbləri müəyyənləşdirilərək, neqativ proseslərin qarşısının alınmasının mövcud reallıqlara əsaslanan sosial təhlükəsizlik mexanizmi formalaşmalıdır. Bunun üçün sosial sahədə maraqların təmin olunmasında məqsəd əhalinin həyat səviyyəsinin və onun keyfiyyətinin yüksəldilməsinə nail olmaq və bunu davamlı iqtisadi inkişafın əsas təminatçısı səviyyəsində qəbul etməkdən ibarətdir. Sosial sahədə maraqların təmin olunması aşağıdakı məsələlərin həllinə ehtiyac yaradır:

- əhalinin gəlirlərinin səviyyəsi və yoxsulluq səviyyəsinə görə təbəqələşməsinin, diferensiasiyasının azaldılması;

- inflyasiyanın səviyyəsinə uyğun olaraq əhalinin pul gəlirlərinin indeksasiya edilməsi və onun yaşayış minimumu həddinə çatdırılması;

- ölkədə yaşayış minimumunun təyin olunmasında çevik mexanizmin işlənib-hazırlanması;

- əhalinin səmərəli məşğulluğunun təmin olunması. Bu istiqamətdə çevik əmək bazarının formalaşması, işçi qüvvəsinə tələb və təklifin işlək mexanizminin təmin olunması, peşə-ixtisas təhsili almaq imkanı, eləcə də işçi qüvvəsinin mobilliyini yüksəltmək, bunun əsasında əmək kapitalının, insan kapitalının sərbəst yerdəyişməsinə nail olmaq əsas rol oynayır;

- ölkədə təhsilin, səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi və onun dünya standartları həddinə çatdırılmasına nail olmaq;

- aztəminatlı əhali təbəqəsinə dövlət tərəfindən göstərilən yardımların ünvanlılıq prinsipi əsasında həyata keçirilməsi;

- dövlətin düzgün, səmərəli qiymət və gəlir siyasətinin həyata keçirilməsi;

- əhalinin bütün sosial-demoqrafik qruplarının keyfiyyətli təhsil, mədəni, səhiyyə və digər xidmətlərlə təmin olunması, sosial sahədəki tədbirlərin, ümumiyyətlə, sosial siyasətin prioritetlərinin əhalinin həyat səviyyəsinin yüksəldilməsi məsələləri ilə üzvi şəkildə həyata keçirilməsinə nail olmaq.

Vergi-büdcə sahəsində milli iqtisadi maraqların təmin olunması aşağıda qeyd olunan məsələlərin həlli ilə həyata keçirilir:

- büdcə sisteminin dayanıqlığının təmin olunması, dövlətin daxili və xarici borclarının azaldılması, büdcənin gəlir və xərclərinin balanslaşdırılması;

- vergi-büdcə sisteminin yüksək inflyasiyanın təsirindən qorunması, dövlət tərəfindən ölkə daxilində qiymətlərin səviyyəsinə səmərəli nəzarətin təmin edilməsi, çevik antiinhisar siyasətinin həyata keçirilməsi;

- fəal sahibkarlığa, investisiya, innovasiya fəaliyyətinin və əhalinin məşğulluğunun stimullaşdırılmasına şəraiti təmin edən optimal vergi sisteminin yaradılması;

- investisiya və innovasiya fəallığının stimullaşdırılması və iqtisadiyyatın dinamik inkişafına yönəlmiş büdcə siyasətinin rolunun bu istiqamətdə gücləndirilməsi;

- dövlətin maliyyə nəzarətinin və tənzimlənməsinin səmərəliliyini yüksəltmək;

- büdcəyə daha çox gəlir gətirən iri müəssisələrin fəaliyyətinə, ölkədə maliyyə axınlarına mərkəzləşdirilmiş və çevik maliyyə nəzarəti mexanizmlərini işləyib-hazırlamaq.

Müasir dünyada gedən qloballaşma prosesinə uyğun, ərzaq və qida təhlükəsizliyinin milli iqtisadi mənafelər baxımından artırılması və yoxsulluğun tədrici şəkildə aradan qaldırılmasının mümkünlüyünün nəzəri, metodoloji və praktiki cəhətdən daima diqqət mərkəzində durmaqla, inkişaf iqtisadiyyatının strateji istiqaməti kimi nəzərə alınmalıdır.

İnsan potensialının inkişafı nöqteyi-nəzərindən sosial-iqtisadi problemlərin həlli yanaşmanın prioritetlərinin dəyişilməsini tələb edir. Burada, iqtisadi maraqların təmin edilməsi xatirinə insan yox, insanın potensial inkişafı baxımından iqtisadiyyat, eləcə də dövlət sərhədlərinin qorunması xatirinə insan yox, insanın maraqlarının, mənafeyinin qorunması, ictimai birliyə, həmrəyliyə nail olmaq xatirinə dövlət, dövlətçiliyin formalaşması, inkişafı ön planda durur. Ərzaq bazarının inkişafı, ərzaq məhsullarının istehsalı kapital, vəsait toplamaq yox, insanın inkişafına, onun sağlamlığının, yüksək həyat səviyyəsinin təmin olunmasına xidmət etməlidir.

Ərzaq təhlükəsizliyinin tənzimləməsinin səmərəliliyini yüksəltmək, dövlətin ölkə vətəndaşlarının maraqlarına xidmət etməsi üçün əsas alətlərdən, vasitələrdən biri həyat keyfiyyətinin monitorinqidir, o cümlədən onun mühüm bir cəhəti olan - insanın ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Monitorinq sisteminin yaradılması ölkədə aparılan dövlət siyasətində ölkə vətəndaşlarının maraqlarının təmin edilməsi prioritetlərinin güclənməsinə kömək edir.

Ümumiyyətlə, iqtisadi təhlükəsizliyin təmin edilməsində dövlət tənzimlənməsinin əsas istiqamətlərindən biri, müvafiq institutların, yəni qanunverici, icra və məhkəmə strukturlarının formalaşması, hüquqi bazanın yaradılması, qəbul edilmiş qanunların və müxtəlif hüquqi aktların icrası ilə bağlı şəraiti təmin etməkdir. Bununla dövlət öz sərhədləri daxilində qayda-qanun yaratmaqla, digər dövlətlərlə də münasibətlərini tənzimləyir. Hətta ən ciddi iqtisadi böhran şəraitində belə dövlət bu imkandan istifadə etməklə özünün milli iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində ciddi və cəsarətli addım atmış olur.

Mövcud siyasi, sosial və iqtisadi şərait nəzərə alınmaqla milli iqtisadi təhlükəsizliyin möhkəmlənməsində dövlət tənzimlənməsinin yeri və məqsədi müəyyənləşdirilərək, iqtisadi təhlükəsizliyin məzmunu, strukturu, sistemi və göstəricilərinin dinamikası ilə dövlət müdaxiləsi arasındakı nisbət tədqiq edilərək milli iqtisadi mənafelərin struktur və sistem dəyişikliklərinə uyğunluğu həddinin əsaslandırılması olduqca vacibdir.

Dövlət idarəetməsi ilə bağlı həyata keçirilən fəaliyyətin iqtisadi təhlükəsizliyin təmin olunmasında əsas cəhətləri səmərəli, sosialyönümlü bazar iqtisadiyyatının qurulması istiqamətində iqtisadi siyasətin həyata keçirilməsi, ölkənin milli iqtisadi resurslarından səmərəli istifadəyə nəzarətin həyata keçirilməsi, dövlət, sahibkar, ayrı-ayrı vətəndaşlar, bütövlükdə cəmiyyətdə sağlam rəqabət prinsipləri əsasında sosial-iqtisadi münasibətlərin, əməkdaşlığın təmin olunma-

sından ibarətdir. Bu mənada aşağıdakı məsələlərə diqqət yönəldilməsi vacibdir:

- ilk növbədə dövlətin müstəqilliyinin təmin olunması və qorunub saxlanılması;

- milli xüsusiyyətlərin, adət-ənənələrin, dəyərlərin yad ünsürlərin təsirindən, aşınmadan qorunması, iqtisadi fəaliyyətin etik normaları fonunda bu cəhətlərin əsas götürülməsi və qloballaşma şəraitində ətraf dünyadan faydalı cəhətlərin əxz olunması;

- dünya bazarında rəqabətqabiliyyətinə malik milli iqtisadiyyatın formalaşması üçün əlverişli şəraitin təmin edilməsi;

- təsərrüfat subyektlərinin, kapital, maliyyə, intellektual kapital sahiblərinin fəaliyyətini, eləcə də ölkədə sahibkarlığın inkişafını, işgüzar əlverişli investisiya mühitinin yaradılmasını təmin edəcək qanunverici bazanın təmin olunması mexanizmlərinin yaradılması və onların işləməsi üçün şəraitin təmin olunması;

- bürokratiya, korrupsiya, iqtisadi cinayətkar fəaliyyətə qarşı sivil, amansız mübarizə tədbirlərinin işlənib hazırlanması;

- bazar sistemi şəraitində iqtisadiyyatın dövlət tərəfindən səmərəli tənzimlənməsi mexanizmlərinin yaradılması;

- yüksək ixtisaslı kadrların dövlətin idarəetmə strukturlarında işə cəlb edilməsinin təmin olunması; dövlət qulluğu haqqında təkmil qanunverici bazanın yaradılması; savadlı idarəetmə kadrlarının hazırlanması, ölkənin istehsal-iqtisadi ehtiyatlarından səmərəli istifadənin idarə edilməsinə cəlb olunması.

Milli iqtisadi mənafelərin qorunmasına təminat verən qlobal, milli və regional iqtisadi təhlükəsizliyin qarşılıqlı əlaqəli şəkildə təmin olunması, eləcə də balanslaşdırılmış vətəndaş dövlət və cəmiyyət maraqlarının həyata keçirilməsinin mümkünlüyünü müəyyənləşdirmək olar.

Müasir Azərbaycan dövləti bazar sisteminə əsaslanan yeni cəmiyyət quruculuğunun ilkin mərhələsindədir. Onun regionlarında ərazi əmək bölgüsünün inkişafına qayğı göstərilməsi, birinci növbədə iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi, əhalinin müxtəlif məhsullara tələbatının yerli istehsal hesabına ödənilməsi və dünya bazarına daha çox və rəqabətqabiliyyətli məhsul çıxarılması probleminin həllində, habelə regionlarda yeni istehsal münasibətlərinin formalaşmasında daha mühüm rol oynaya bilərdi.

Əlbəttə, ölkənin dünya bazarından asılı olmayacaq səviyyəyə çatdırılması tam şəkildə mümkün deyildir. Qloballaşma şəraitində dünya ölkələri ilə iqtisadi əlaqələri, inteqrasiyanı genişləndirmək Azərbaycan üçün önəmli bir məsələ olduğu üçün bu istiqamətdə ixrac imkanlarının tam reallaşması da respublikamız üçün əhəmiyyətlidir, o cümlədən elmtutumlu məhsulların və istehlak mallarının ixracı da mühüm rol oynayır. Lakin iqtisadiyyatın ixracdan tam asılılığı heç bir ölkə üçün, onun milli, iqtisadi təhlükəsizliyi baxımından yolverilməzdir. Bu mənada, daxili tələbatın ixrac vasitəsilə təmin edilməsi ölkənin xarici təsirlərdən asılılığına şərait yaratmayacaq bir səviyyədə, çərçivədə həyata keçirilməlidir.

Bu vəziyyət çox zaman maşınqayırma, ağır sənaye sahələrində müşahidə edilir. Məlum olduğu kimi, Azərbaycanda daha çox neft maşınqayırması inkişaf etmişdir. Bu gün yeni qurulan, yaradılan müəssisələrə avadanlıqlar, texnoloji qurğular xaricdən gətirilir. İqtisadi asılılığını minimuma endirməyə çalışan hər bir ölkə üçün bu sahənin inkişafı olduqca mühüm bir məsələdir və bu, böyük həcmdə investisiya tələb edən bir sahədir.

Bu gün Azərbaycanda üstün olan yanacaq-xammal resurslarının ixracı və maşın, avadanlıq, bir sıra istehlak mallarının idxalına əsaslanan iqtisadi inkişaf modeli fəaliyyət göstərir. Bu isə xeyli dərəcədə dövlətin xarici bazardakı hakim konyunkturadan, xarici dövlətlərin qəbul et-

dikləri qərarlardan asılı vəziyyətə düşməsinə münbit şərait yaradır.

Vəziyyətdən çıxış yolu kimi ölkənin elmi-texniki potensialını gücləndirmək, təhsili dünya standartlarına uyğun şəkildə qurmaq, iqtisadi inkişafın mühüm amili olan insan kapitalının inkişafının qorunmasını təmin etmək, onun yaradıcılıq potensialına münbit şərait yaratmaq, başlıcası isə bu istiqamətlərdə investisiya yatırımlarının həcmini artırmaqdır.

Üzə çıxa biləcək ziddiyyətlərin aradan qaldırılması, hər şəraitdə milli maraqların üstünlüyünə imkan verən dövlətin iqtisadi inkişaf strategiyasında əsaslı yer tutan sosial-iqtisadi proqramların həyata keçirilməsinə, elmi cəhətdən əsaslandırılmış və milli mənafelərin tərkib hissəsi olan iqtisadi təhlükəsizliyin qorunmasına və möhkəmləndirilməsinə səbəb ola biləcək tədbirlərin görülməsi vacibdir.

Cəmiyyət, dövlət tərəfindən bölgü münasibətləri mexanizminin təkmilləşdirilməsi, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi tədbirlər həyata keçirməlidir. İlk növbədə yoxsulluğu törədən səbəbləri aradan qaldırmaq, iqtisadiyyatda qeyri-sabit və böhran vəziyyətinin qarşısını almaq lazımdır. Əhalinin gəlir səviyyəsindəki fərqləri azaltmaq məqsədilə vergi sisteminin rolunu artırmaq, gəliri yüksək olanlara vergi dərəcələrinin silsiləli artımı, həmçinin, əhalinin varlı təbəqəsinin gəlirləri və mülkiyyəti barədə deklarasiyanın düzgünlüyünə nəzarətin gücləndirilməsi və sərtləşdirilməsi və bu məlumatların vergiqoymada nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Şübhəsiz ki, bu, bazar sisteminə uyğun olmayan ümumi bərabərçiliyə sövq etmir. Əsas məsələ bazar iqtisadiyyatının ilkin mərhələsində ölkənin yaşadığı vəziyyətin gərginliyinin, ağırlığının müxtəlif əhali qrupları arasında bərabər bölünməsi mexanizmini işləyib hazırlamaq və onu təkmilləşdirməkdir.

Ölkənin iqtisadi təhlükəsizliyinə qarşı ciddi təhdidlərdən biri də iqtisadiyyatın həddindən artıq açıqlığıdır. Strateji planda iqtisadiyyatın açıqlığı düzgün kurs hesab olunur və dünyanın bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrinin təcrübəsi də bunu sübut edir. Lakin iqtisadiyyatın normal açıqlığı onun səmərəliliyini, rəqabətqabiliyyətliyini və çevikliyini artırmağa kömək edir. Lakin inkişaf etməkdə olan dövlətlər eləcə də gənc müstəqil Azərbaycan dövləti üçün onun iqtisadiyyatının açıqlığı müəyyən bir ölçü, hədd, həmçinin, ehtiyatlılıq tələb edir. İqtisadiyyatın açıqlığını təmin edərək yerli istehsalın, maliyyə və bank sisteminin, pul dövriyyəsinin, strateji sahələrin və istehsal sferalarının müdafiəsini, mühafizəsini lazımi şəkildə təşkil etməyi tələb edir. Burada iqtisadiyyatın açıqlığı ilə əlaqədar mövcud olan proseslərin dövlət tərəfindən ləng və ya tələsikliklə tənzimlənməsi arzuolunmaz hesab olunur.

İnvestisiya yatırımlarının və investisiya fəallığının azalması, elmi-texniki potensialın dağılması ölkənin iqtisadi təhlükəsizliyinə qarşı çox ciddi təhdidlərdəndir, bu, iqtisadiyyata qoyulan investisiyanın həcminin və investisiya fəallığının azalmasında özünü büruzə verir. Milli iqtisadiyyatın böyük həcmdə kapital qoyuluşları tələb edən sahələri olmadan ölkənin iqtisadi cəhətdən yüksəlişinə, inkişafına nail olmaq mümkün deyildir. Bu gün kifayət qədər təbii ehtiyatlara malik olan Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin olunması bu ehtiyatların güclü investisiya və innovasiya potensialı ilə üzvi şəkildə əlaqələndirilməsini zəruri etmişdir. Burada qarşıda duran iqtisadi siyasətin mühüm istiqamətlərindən biri də ölkənin özünün investisiya potensialını formalaşdırmaq və inkişaf etdirməkdən ibarətdir.

İdxal asılılığının zəiflədilməsində vacibdir:

- yerli istehsal müəssisələrinə dövlət tərəfindən maliyyə yardımı göstərilməsi;

- daha çevik gömrük güzəştləri sistemi tətbiq etmək (diferensiallaşmış);

- gömrük yardımına ehtiyacı olan iqtisadi fəaliyyət sahələrinin müəyyən edilməsi;

- idxalın diversifikasiyası; dərman preparatlarının, alkoqollu içkilərin və tütün məmulatlarının, buğdanın ölkəyə gətirilməsində dövlətin inhisarının gücləndirilməsi.

Balanslaşdırılmış vətəndaş-dövlət-cəmiyyət maraqlarının qorunması iqtisadi təhlükəsizliyin təmin olunması ilə qarşılıqlı əlaqədə olub, fasiləsiz iqtisadi-siyasi, sosial-təşkilati, hüquqi-mənəvi prosesdir.

# XVII FƏSİL. İNKİŞAF İQTİSADİYYATI NƏZƏRİYYƏSİ

**17.1. İnkişaf iqtisadiyyatı nəzəriyyəsinin mahiyyəti və xarakterik xüsusiyyətləri**
**17.2. İnkişaf iqtisadiyyatının formalaşmasının səbəbləri və amilləri**
**17.3. İnkişaf iqtisadiyyatına nail olmanın milli aspektləri**

## 17.1. İnkişaf iqtisadiyyatı nəzəriyyəsinin mahiyyəti və xarakterik xüsusiyyətləri

Dünya təsərrüfatının qloballaşması ilə müasir iqtisad elmində inkişaf iqtisadiyyatının formalaşmasına təkan verən istiqaməti meydana gəlmişdir. Bəlli olduğu kimi, XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən dünya iqtisad elmində iqtisadi artım nəzəriyyəsi ilə yanaşı, iqtisadi inkişaf nəzəriyyəsi meydana gəlmişdir.

İnkişaf nəzəriyyəsi öz formalaşma dövrünü XX əsrin əvvəllərindən götürmüşdür. İnstitusionalizm elmi cərəyanının görkəmli nümayəndəsi Yozef Şumpeter 1912-ci ildə «İqtisadi inkişaf nəzəriyyəsi» adlı monoqrafiyanı yazır. Ondan sonra iqtisadi dinamikaya, yəni iqtisadi artıma, iqtisadi tsiklə həsr olunmuş əsərlər meydana gəlir. Eyni zamanda neoklassik, keynsçilik, təklif iqtisadiyyatı, rasional gözləmələr, yeni institusionalizm istiqamətində əsərlər meydana gəlir. Burada C.M.Keynsin, R.Harrodun, Q.Myurdalın, N.Domarın, C.Solounun, U.Lyuisin, S.Kuznesin, V.Leontyevin, M.Todoronun, M.Porterin, C.Stiqlisin adlarını xüsusi qeyd etmək lazımdır. Məhz onların elmi ideyalarının müzakirəsi və onlara tənqidi yanaşmalar yeni konsepsiyaların əmələ gəlməsinə və formalaşmasına səbəb olmuşdur. Belə bir elmi konsepsiyalardan biri də XX əsrin sonunda formalaşmış və XXI əsrin əvvəllərində özünü daha

çox qabarıq şəkildə büruzə vermiş «inkişaf iqtisadiyyatı» nəzəriyyəsidir.

İqtisadi artım nəzəriyyəsi iqtisadi inkişafın baza prinsiplərini əhatə etməklə, ÜDM kəmiyyət artımında təzahür olunmaqla, inkişafın sosial amillərini əhatə etmir. İqtisadi inkişaf nəzəriyyəsi isə bir tərəfdən artımın özünün, digər tərəfdən iqtisadi konyunkturanın dəyişilməsi ilə, mövcud iqtisadi sistemin səmərəli fəaliyyətinə təkan verməklə, onun **tədrici olaraq** sosial ehtiyacların həllindəki prinsiplərin nəzərə alınmasına üstünlük verir.

Keçən əsrin 70-ci illərindən etibarən iqtisadi inkişafın əsas diqqəti iqtisadi artım prosesində yoxsulluğun, qeyri-bərabərliyin və işsizliyin miqyasının azaldılmasına yönəldilmişdir. Qeyd olunan bu üç göstəricinin iqtisadi artım prosesində aşağı düşmə meyli baş vermirsə, onda ölkədə iqtisadi inkişafın getdiyini göstərmək olar. Bununla yanaşı, daha 20 ildən sonra 90-cı illərdə BMT-nin insan potensiallı inkişafı proqramının qəbul olunması ilə, artıq inkişafda qeyd olunan göstəricilərlə yanaşı **gözlənilən ömür müddətinin uzanması, səhiyyə və təhsil xidmətlərinin yüksəlməsi, adambaşına ÜDM həcminin artması** iqtisadi inkişafı xarakterizə edən amillər cərgəsinə daxil olundu. Elə həmin dövrdən başlayaraq XXI əsrin qədəm qoyduğu dövrdən etibarən ətraf mühitin qorunması, **ekoloji tarazlığın** bərpası iqtisadi inkişafın xarakteristikasında dəyişiklik edərək **davamlı inkişaf** konsepsiyasını formalaşdırdı.

Artıq iqtisadi inkişafda cəmləşən:

- iqtisadi artım;
- yoxsulluğun miqyası;
- gəlirlərdə qeyri-bərabərliyin səviyyəsi;
- işsizliyin miqyası;
- insan potensiallı inkişafı göstəriciləri;
- ekoloji tarazlıq;
- qidalanmanın yaxşılaşdırılması;
- şəxsi azadlığın genişləndirilməsi;

- mənəvi-mədəni həyat tərzinin mövcudluğu, əmələ gəlməsi iqtisadi inkişaf anlayışının **inkişaf iqtisadiyyatı** anlayışı ilə əvəzlənməsinə gətirib çıxardı.

Əgər iqtisadi inkişaf daha çox kəmiyyət göstəriciləri ilə iqtisadi artım, sosial inkişaf və ekoloji tarazlıqla əlaqədardırsa, inkişaf iqtisadiyyatı isə bir tərəfdən qeyd olunan kəmiyyət göstəriciləri ilə, digər tərəfdən isə həm həyat keyfiyyətlərinin yaxşılaşdırılması ilə, həm də onun **davamlı** xarakter daşıması ilə əlaqədardır. Ən başlıcası isə odur ki, inkişafdakı davamlılıq hazırkı nəslin, gələcək nəslin ehtiyaclarının ödənilməsinə yönəldiləcək hər cür **potensialdan israfyönümlü** istiqamətdə istifadə olunmasın. İnkişaf iqtisadiyyatında insanlarda təbii potensialın realizə olunması ilə əlaqədar mümkün və gələcəyə real şərait yaradan maddi, mənəvi, mədəni şəraitin yaradılmasına üstünlüyün verilməsi təşkil edir.

Ona görə də müasir şəraitdə inkişaf iqtisadiyyatının tədqiqat obyektinə hər bir milli təsərrüfatçılıq formasına uyğun və sivilizasiyalı bazar sisteminə qoşulması, ilk növbədə mövcud qeyri-bərabər inkişafı şərtləndirən səbəbləri üzə çıxarmalı, **qısamüddətli islahatlaşmalar prosesinin uzunmüddətli strateji məqsədlərə yönəldilməsi istiqaməti** müəyyənləşdirilməli, sosial və institusional dəyişikliklərə söykənən iqtisadi siyasət həyata keçirilməlidir. Deməli, artıq inkişaf iqtisadiyyatında **iqtisadi siyasətin rolunun** nəzərə alınması danılmaz amilə çevrilmişdir.

İqtisadi inkişafla əlaqədar dövlətin iqtisadi siyasətinin nəzərə alınmasına olan münasibət Nobel mükafatı laureatlarından olan Yan Tinbergenin, Pol Samuelsonun, Ceyms Byukkenin, Robert Lukasın fərqli baxışları mövcud olsa da, lakin onların ideyalarını sintezləşdirən bir cəhət mövcuddur ki, o da bütün mövcud olan iqtisadi, sosial, siyasi, mənəvi, mədəni, hüquqi, əxlaqi problemlərə sistemli və konkret dövr üçün bunların hər birinə üstünlüyün verilməsi ardıcıllığının həyata keçirilməsinə diqqətin verilməsidir.

Neoliberalizm cərəyanının banilərindən olan Valter Oyken isə onlardan əvvəl göstərmişdir ki, dövlət institutlarının sosial-iqtisadi sferada mövcud vəziyyətin qiymətləndirilməsi və baş verə biləcək dəyişikliklərə uyğun fəaliyyətin həyata keçirilməsi ilə, xüsusən «sosial tarazlığın» qoruyucusu olduğunu qeyd etmişdir.

Düzdür, liberalizm tərəfdarlarına inkişaf iqtisadiyyatında dövlətin iqtisadi siyasətinin oynadığı rolun nəzərə alınması xoş gəlməsə də, bu artıq dünyəvi həqiqətdir. Çünki qlobal dünya maliyyə və iqtisadi böhranı və ondan çıxış yollarının axtarılması, məhz qabaqcıl 20 ölkənin başçılarının bir araya gəlməsi, birləşdirilmiş və əlaqələndirilmiş iqtisadi siyasətin tətəbiqi ilə vəziyyətdən yaxa qurtarmağın istiqamətləri göstərilmişdir. Həm də nəzərə almaq lazımdır ki, ümumiyyətlə, inkişaf iqtisadiyyatını xarakterizə edən göstəricilərin əksəriyyəti, dövlətin yeritmiş olduğu siyasətlərlə əlaqədardır. Burada artım, demoqrafik, məşğulluq, struktur, sənaye, aqrar, sosial, regional, institusional siyasətlərin adını çəkmək kifayətdir.

Həm də nəzərə almaq lazımdır ki, hər bir cəmiyyətdə, inkişaf səviyyəsindən asılı olmayaraq **fundamental qərarların** kimin və nəyin naminə qəbul olunması inkişaf iqtisadiyyatının mahiyyətinin aydınlaşdırılması üçün vacibdir. İnkişaf iqtisadiyyatına dövlətin iqtisadi siyasətinin təsir mexanizmini, onun mövcud potensiallardan insanların necə istifadə olunması **imkanlarının yaradılması** ilə müəyyənləşdirmək olar. Ona görə də inkişaf iqtisadiyyatında sırf iqtisadi dəyişənlər hesab olunan gəlir, əmanət, qiymət, mülkiyyətdən əlavə qeyri-iqtisadi institusional amilləri təbii resursların istifadəsindən tutmuş, idarəetmə mexanizmi, asudə vaxt, şəxsiyyətin inkişafına təkan verən bütün amillər daxildir.

Bu baxımdan inkişaf iqtisadiyyatı özündə dünyada gedən bütün mütərəqqi meyilləri, informasiya-kommunikasiya sistemlərində birləşdirməklə, qarşılıqlı asılılıqlarla xa-

rakterizə olunur. Belə bir vəziyyət qloballaşma prosesindən doğan meyillərin milli xüsusiyyətlərlə əlaqələndirilməsi və inkişafın milli modelinin formalaşmasına təkan verir. Məhz bu baxımdan bu yaxınlarda Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri akademik R.Mehdiyevin «İnkişafın Azərbaycan modeli» məqaləsini inkişaf iqtisadiyyatının təmin olunması istiqaməti kimi qiymətləndirmək olar. Lakin bununla yanaşı qeyd etmək yerinə düşərdi ki, inkişaf iqtisadiyyatına nail olunma yolunun müəyyənləşdirilməsi heç də bir sıra ziddiyyətləri aradan qaldırmır. Əksinə, bəzi hallarda daha da dərinləşir, bütövlükdə milli iqtisadi inkişafın **ləngidici** amilinə çevrilir. Burada əhalinin təbəqələşməsini xüsusi qeyd etmək lazımdır. Xüsusən **az bir qisim azlığın** (buna bütün əhaliyə nisbətən əhali qrupu da demək olmaz) həddindən artıq və mütləq şəkildə varlanması, təmtəraqlı həyat tərzi, digər əhali qrupunun orta səviyyəyə belə çatmaması, başqa əhali qrupunun mövcud sərvət tərəqqisinə nisbətən yoxsulluğa düçar olması inkişaf iqtisadiyyatının **əsas ziddiyyətidir**.

Yoxsulluq dedikdə, bu heç də gəlir səviyyəsindəki məhdudiyyəti deyil, eyni zamanda orta ömür müddətinin uzadılmasına olan imkanın olmaması, tibbi xidmətdən istifadənin zəifliyi, təhsil səviyyəsinin yuxarı pillələrindən istifadənin qeyri-mümkünlüyü, istirahət və sanatoriya xidmətlərindən istifadənin olmaması və s. nəzərdə tutulur. Artıq yoxsulluq maddi amillər çərçivəsindən çıxıb mənəvi-mədəni, əxlaqi-hüquqi amillərlə əlaqəlidir.

Təkcə bir dəlili qeyd etmək kifayətdir ki, inkişaf etmiş ölkələrdə bir həkimə 500 adam düşürsə, inkişaf etməkdə olan ölkələrdə bu rəqəm 5000-dən yuxarı adam düşür. Bu da səhiyyənin ümumiyyətlə səviyyəsini əks etdirir. Həm də peşə-ixtisas, diaqnostika, xidmət səviyyəsi nəzərə alınsa, onda vəziyyətin nə qədər mürəkkəb olduğunu görmək olar.

Beləliklə, **inkişaf iqtisadiyyatı özündə iqtisadi inkişafı, davamlı inkişafı, dövlətin yeritdiyi iqtisadi siyasəti** birləşdir-

məklə, cəmiyyətin qısa və uzunmüddətli inkişafının ümumi istiqamətini xarakterizə edir.

İqtisadi artımın hərtərəfli olaraq təmin olunması davamlı inkişaf üçün, əhali və dövlət gəlirlərinin yüksəlməsi və yoxsulluğun azaldılması üçün oynadığı əhəmiyyət heç də yeni olan bir problem deyil. Lakin hazırkı şəraitdə dünya iqtisadiyyatında gedən qloballaşma prosesinin, inteqrasiya əlaqələrinin dərinləşməsi, maliyyə və iqtisadi böhranın mövcudluğu dövründə hər bir milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin üstünlülüyünün təmin olunmasında bu problemə müasir təfəkkür baxımından diqqət yetirmək lazımdır. Bəllidir ki, informasiyalaşmanın genişləndiyi bir şəraitdə milli iqtisadiyyatlar öz inkişafında bu amildən daha çox bəhrələnmək istəyirlər. Lakin nəzərə almaq lazımdır ki, iqtisadi artım üçün milli iqtisadi potensialın mövcud səviyyəsi və imkanı xüsusi rol oynayır. İqtisadi artımın start vəziyyətə gətirilməsi, əgər keçid dövrünün ilkin illəri üçün karbohidrogen resurslarından təbii amil kimi istifadəsində üstünlük verilmişdisə, transformasiya prosesinin sonrakı illəri üçün qeyri-neft sektorundan daha səmərəli istifadəyə üstünlük verilməyə başlanmışdır. Artıq keçid dövrünün başa çatması ilə iqtisadi artımın milli iqtisadiyyatın bütün sektorları üzrə innovasiya amili hesabına əldə olunması zəruriləşir. Azərbaycan reallığında bu, aqrar sektorda innovasiya və investisiyaların hesabına əmək məhsuldarlığının və investisiyanın yüksəldilməsini təkidlə qarşıya qoyur. Bu o deməkdir ki, aqrar bölmənin əhatə olunduğu regionlarda əmək prosesində iştirak edən insan kapitalından istifadənin rolu artır. Nəticədə bu ərazilərdə nisbətən yoxsulluq çərçivəsində yaşayanların maddi imkanları yaxşılaşmağa başlayır. Bunu həm Şərqi Asiya ölkələrinin timsalında, həm də bizim ölkəmizdə həyata keçirilən və keçirilməsi davam etdirilən «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»ndan irəli gələn tədbirlərdən görmək olar. Sürətli iqtisadi artım o vaxt milli iqtisadiyyatın davamlılığını xarak-

terizə edər ki, o bir tərəfdən əhalinin gəlirlərini yüksəltsin, digər tərəfdən yoxsul əhalinin xüsusi çəkisini azaltsın. Lakin növbədə sürətli iqtisadi artım, mütləq mənada həm gəlirlərin yüksəlməsini, həm də yoxsul əhalinin sayının azalmasını təmin etməlidir. İqtisadi inkişafın sonrakı mərhələlərində milli iqtisadiyyatın tsikllik xarakterlərindən, inflyasiyanın və işsizliyin səviyyəsindən asılı olaraq iqtisadi artım sürəti, gəlirlərin yüksəldilməsi və yoxsulluğun azaldılmasında nisbi xarakter daşıya bilər. Bu proses uzunmüddətli xarakter daşıya bilər. Lakin yoxsulluğun azaldılması və gəlirlərin yüksəldilməsi naminə iqtisadi artım sürətinin saxlanılması hər bir yeridilən iqtisadi siyasətin əsasında durur. Yeridilən iqtisadi siyasət, əgər yüksək, orta və ya aşağı artım sürətini əsaslandırsa, bu o deməkdir ki, mövcud iqtisadi imkanlar, dünya bazarlarındakı qiymət amili, regional inkişafın tarazlığı, sosial müdafiə sisteminin təmin olunması nəzərə alınır. Ona görə də hər zaman, hər il üçün yüksək ÜDM artımının nəzərə alınması olduqca çətin və mürəkkəb iqtisadi prosesdir. Çünki iqtisadi artımın dayanıqlığı:

-məşğulluq səviyyəsinin yüksəldilməsindən;

-işsizliyin aşağı salınmasından;

-gəlirlər üzrə qeyri-bərabərlik səviyyəsinin kəskin xarakter almasından;

-keyfiyyətli xidmətin əldə olunmasının maliyyə imkanlarından;

-sosial tarazlığın qorunması sahəsində həyata keçirilən ardıcıl və uzun müddətə hədəflənən dövlət siyasətindən asılıdır.

Bəlli olduğu kimi, müstəqilliyin ilk dövrlərindən ölkə əhalisinin yarısına qədəri 49% yoxsul əhali idisə, sonrakı dövrlərdə həyata keçirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində, xüsusən də dünya bazarında yaranmış münbit mühitdən istifadə olunmaqla 2003-2008-ci illər ərzində yüksək iqtisadi artım sürətinə nail olundu ki, bu da ölkədə yoxsul əhalinin sayının 11% enməsinə imkan verdi. Bu da

belə qənaətə gəlməyə əsas verir ki, ölkə əhalisinin həyat səviyyəsinin dünyada gedən maliyyə böhranın nəticəsindən asılı olmayaraq nisbətən yaxşılaşmasını xarakterizə edir. Əgər nəzərə alsaq ki, 2011 il üçün ÜDM-in artım səviyyəsi 3,5% civarında nəzərdə tutulubsa, onda artım sürətinin faiz tutumu artmaqla, həm də gəlirlərin artımında da yoxsulluq səviyyəsinin azaldılmasına müəyyən dərəcədə təsir göstərəcək. Burada müsbət meyillik mövcudluluğuna ölkənin neft və qaz məhsullarının dünya bazarında rəqabətə tab gətirmək imkanının olması, həm də iqtisadi artımın təkcə yoxsul əhali üçün deyil, həm də bütün insan kapitalının hərəkətə gətirilməsi üçün əhəmiyyətli olduğu ilə əlaqədar olacaq. Yoxsulluğun azaldılması naminə iqtisadi artımın sürətlənməsi konsepsiyası olduqca cəlbedici görünür. Xüsusən keçən əsrin 90-cı illərindən başlayaraq müstəqilliyini elan etmiş dünyanın 30-a qədər ölkəsində bu konsepsiya həm siyasətçilər, həm də nəzəriyyəçi və tədqiqatçı iqtisadçılar tərəfindən dəstəklənirdi. Hətta nəyin bahasına olursa-olsun yüksək iqtisadi artım sürətinə də xüsusi üstünlük verildi. Lakin ölkənin iqtisadi potensialı, spesifik inkişaf yolu, təsərrüfatçılıq qayda və prosesləri nəzərə alınmadan ölkənin açıqlıq səviyyəsi qorunmadan həyata keçirilən belə istiqamətləri iqtisadi siyasət çox hallarda bir sıra ölkələrin dərin iqtisadi-siyasi, sosial böhrana düçar olmasına gətirib çıxarmışdır. Xöşbəxtlikdən ölkəmizdə həyata keçirilən məqsədyönlü iqtisadi siyasət, bazar prinsiplərinə əsaslanmaqla milli iqtisadi inkişaf modelinin iqtisadi artım surəti ilə əlaqələndirilməsini bazarda azadlığa, rəqabətə, sosial tarazlığın yaradılmasına və tənzimlənməsi elementlərinin qarşılıqlı təsir mexanizminə əsaslanmışdır. İqtisadi artım sürəti ilə gəlirlərin səviyyəsindəki qeyri-bərabərliyin artması və yoxsulluğun azaldılması arasındakı qarşılıqlı əlaqənin mövcudluğunun daha dərindən tədqiq olunması ayrı-ayrılıqda bu problemi həm induktiv, həm də deduktiv metodla təhlil etmək olar.

## 17.2. İnkişaf iqtisadiyyatının formalaşmasının səbəbləri və amilləri

Nəzərə almaq lazımdır ki, iqtisadi artımla gəlirlərin səviyyəsindəki qeyri-bərabərliyin və yoxsulluğun azaldılması arasındakı nisbətin öyrənilməsinin həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan, həm zəif, həm də keçid iqtisadiyyatlı ölkələr üçün özünəməxsus spesifik cəhətləri mövcuddur. Bu onunla əlaqədardır ki, **iqtisadi artıma nail olunması hansı sosial, iqtisadi, struktur, hərbi, texniki, diversifikasiya və s. problemlərin həllinə yönəldilib**. Əslində iqtisadi artım sürəti özlüyündə nə əhalinin gəlirləri səviyyəsindəki fərqə, nə də ki, yoxsulluq səviyyəsinin azaldılmasına təminat vermir. Bu proses birbaşa aparılan iqtisadi siyasətin mahiyyəti ilə əlaqədardır. Çünki aparılan siyasət bir tərəfdən iqtisadi artımın davamlılığına, digər tərəfdən gəlirlərin səviyyəsindəki fərqlərin, yoxsulluğun və onun səviyyəsinin azaldılmasına yönəldilməlidir. **Problemin həlli birmənalı şəkildə kompleks şəkildə həyata keçirilməlidir**. İnkişaf etmiş ölkələrin təcrübəsi buna sübutdur. İngiltərədə, Fransada, Almaniyada və bir sıra digər ölkələrdə həyata keçirilən proqramlarda iqtisadi artımın təmin olunması, gəlirlərin səviyyəsindəki fərqlərin və yoxsulluğun azaldılmasına bu istiqamətdə nail olunur. Bu o deməkdir ki, inkişaf iqtisadiyyatını xarakterizə edən davamlı iqtisadi artım, gəlirlərin səviyyəsindəki qeyri-bərabərliyin azaldılması, yoxsulluğun miqyasının aşağı salınması və ətraf mühitin qorunması sayəsində həyat keyfiyyətinin yaxşılaşdırılması **müasir iqtisadiyyatın** əsas məqsədinə çevrilir. **İnkişaf etmiş ölkələrdə həyat səviyyəsinin yüksəldilməsi istiqaməti ilə inkişaf etməkdə olan ölkələrdə həyat səviyyəsinin yaxşılaşdırılması, keçid iqtisadiyyatlı ölkələrdə həyat səviyyəsinin qorunması və zəif inkişaf edən ölkələrdə yaşayış səviyyəsinin minumum həddən çıxarılması istiqamətləri, hər bir ölkə üçün özünəməxsus iqtisadi və sosial problemləri qarşıya qoyur.** Həm də tə-

sərrüfartçılıq qaydalarının həyata keçirilməsi müvafiq iqtisadi mühitin yaradılması, ölkənin iqtisadi potensialından daha səmərəli istifadə olunmasına şərait yaratmalıdır. Əgər torpaqdan, insan resurslarından istifadə müasir qlobal inkişaf nöqteyi nəzərincə bir qədər adi, ənənəvi təsəvvür yaratsa da, hər halda milli iqtisadiyyatlarını yeni formalaşdırmış ölkələr üçün bu xüsusi əhəmiyyət daşıyır. Bu amillərin rolunu texniki tərəqqi ilə və ya innovasiyalı inkişaf yolu baxımından nəzərə almamaq, bu yalnız itirilmiş imkan deməkdir. Ölkəmizdə resurs amillərindən istifadə hesabına yoxsulluğun nəzərəçarpacaq dərəcədə azaldılması, əhali gəlirlərindəki fərqin nisbətən yumşaldılması baş versə də, bu heç də problemin tam həlli demək deyil. Belə olmasaydı regional və aqrar sektorun inkişafına diqqət yetirilməzdi. **Hər halda belə qənaətə gəlmək olar ki, ölkəmizdə milli iqtisadiyyatın inkişafında aqrar sektorun investisiyalaşdırılması və insan resurslarının kapitallaşdırılması xüsusi rol oynayacaqdır**. Ona görə də müasir dövrün iqtisadi inkişafı bilavasitə **makroiqtisadi struktur, regional və sahəvi sahədə iqtisadi siyasətin qarşılıqlı əlaqəli şəkildə aparılmasından asılıdır**. Çünki, iqtisadi artımın davamlılığı, işgüzarlıq, fəallığın yüksəldilməsindən, işləmək və çalışmaq istəyən potensial işçi qüvvəsindən tam istifadə olunmasından asılıdır. Həm də nəzərdə tutulan tədbirlər planının qısa və uzun müddət ərzində həyata keçirilməsi əhəmiyyətli görünə bilər. Bu da bir neçə qarşıya çıxacaq sualları cavablandıra bilər.

- həyata keçirilən tədbirlər nə qədər yoxsul əhalini iqtisadi artımın sürətlənməsinə cəlb etmək olar;
- belə əhali qrupu ilə əldə olunan artımdan nə qədər gəlir əldə olunmaqla bəhrələnmək olar;
- milli iqtisadiyyatın spesfik inkişafı ilə iqtisadi artımla gəlirlərin qeyri-bərabərliyindəki kəskin fərqi və yoxsul əhalinin sayını necə azaltmaq olar;

-iqtisadi artım sürəti, gəlirlərin yüksəldilməsi, yoxsulluğun azaldılması istiqamətində görülən tədbirlər qısamüddətli xarakter daşımamalıdır;

- iqtisadi artım sürətinin səviyyəsindən asılı olmayaraq o hansı istiqamətdə gəlirlərin kəskin fərqinin və yoxsulluğun azaldılmasına milli strateji xətt kimi görünə bilər.

Aydındır ki, yüksək artım sürəti ilə aşağı gəlir səviyyəsi arasında iqtisadi təhlilin aparılması və ya dövrlər üzrə onların müqayisəsi, heç də yoxsul əhalinin sayının azaldılması ilə, onların yaşayış şəraitinin yaxşılaşmasını tam əhatə etməyəcək. Çünki gəlirlərin paritet alıcılıq qabiliyyəti tam fərqlidir. Bu milli iqtisadiyyatlar üçün daha xarakterikdir. Pulun alıcılıq qabiliyyəti, real iqtisadiyyatla əlaqədar olsa da, lakin effektlər baxımından onun tutumluluğu, xərclərin artımı baxımından daima azalmağa doğru meyillidir. Yəni, əgər 10-15 il bundan əvvəl yoxsul əhali üçün gündəlik yaşayış həddi minimum 2 dollardan yuxarı hədd nəzərdə tutulurdusa və ətin 1 kq-ı 2 dollara idisə, bu qəbul olunan kimi nəzərdə tutulurdu. İndiki şəraitdə isə artıq ətin 1 kq-ı 5-6 dollar səviyyəsinə qalxarsa, yoxsulluq həddini müəyyən edən gündəlik gəlir səviyyəsinin də labüd şəkildə yüksək olmasını tələb edir. Deməli, yoxsulluğun azaldılması, təkcə iqtisadi artımla bağlı deyil, həm də mövcud dövrdə əldə olunan gəlirlərin alıcılıq qabiliyyəti ilə əlaqədardır. Ona görə də gələcək üçün rifah halının yaxşılaşmasının təmin olunması naminə yoxsul əhali çərçivəsindən çıxmış insanlar üçün **daimi gəlir yerlərinin yaradılmasına şərait yaradılmalıdır**. Bu həm iqtisadi, həm də sosial tədbirlərlə əhatə olunmalıdır. Belə insanların kiçik sahibkarlığa cəlb olunması, güzəştli kreditlərin verilməsi, mövsümi xarakterli fəaliyyətlə məşğul olması imkanlarının yaradılması məqsədəuyğun görünə bilər.

Dünya təcrübəsindən bəllidir ki, əhalinin kütləvi şəkildə yoxsullaşması, həyat keyfiyyətinin aşağı düşməsi, sağlamlıq səviyyəsinin pisləşməsi, reproduktiv potensialın

aşağı düşməsi və genefondun zəifləməsi, ölkədə istehsalın dağılması fonunda təhsil və intellektual potensialın tədricən tənəzzülə uğraması, kadrların hazırlanması və təhsil sisteminin keyfiyyətinin aşağı düşməsi, ixtisaslı mütəxəssislərin xaricə axını, əhalinin milli xüsusiyyətlərinə yad olan həyat tərzinin yayılması, qanunsuzluğun, qəddarlığın hökm sürməsi – dövlət idarəetmə orqanlarının fəaliyyət prinsiplərinin ölkə vətəndaşlarının maraqlarına cavab verməməsi, dövlətin sosial siyasətinin düzgün istiqamətlənməməsinin nəticəsidir. Sosial proqramların deklarativ, rəsmi xarakter daşıması, onların dövlətin maliyyə imkanlarına uyğunsuzluğu, sosial sferada həyata keçirilən islahatların sürətinin əhalinin real gəlirləri ilə əlaqələndirilməməsi bu proqramların səmərəliliyini heçə endirir.

Bu mənada dövlətin vahid sosial siyasət konsepsiyasının olması, onun uzunmüddətli perispektiv üçün prioritetlərinin, istiqamətlərinin konkretləşdirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Dövlətin iqtisadi və sosial siyasətinin məqsəd və prioritetlərinin dəqiqləşdirilməsi, bazar iqtisadiyyatının formalaşması və inkişafı proseslərində dövlətin iqtisadi-tənzimləyici funksiyasının transformasiyası spesifikasını nəzərə almaqla sosial-əmək münasibətlərinin dövlət tənzimləməsi mexanizmlərini təkmilləşdirmək tələbi durmadan artır.

Onu da qeyd edək ki, sosial siyasətin həyata keçirilməsi zamanı ölkənin regionlarının spesifikası, əhalinin tarixən formalaşmış təsərrüfat fəaliyyətinin təşkili metodları və formaları, məşğulluğu nəzərə alınmaqla, əhalinin sosial təhlükəsizliyi və fiziki mövcudluğu, sağlamlığının təmin edilməsinə diqqətin yönəldilməsi, gələcəkdə əhalinin həyat səviyyəsinin və keyfiyyətinin aşağı düşməsinin qarşısının alınması, əhalinin tənəzzülünə yol verməmək, iqtisadi artımın strateji əhəmiyyətli amilləri olan təhsil və peşə sisteminin dağılmasının qarşısını almaq, ona imkan verməmək kimi məsələlər də diqqət mərkəzində olmalıdır. Bu sahədə

fəaliyyət təxirəsalınmaz vəzifələrin həllindən orta və uzunmüddətli perspektivdə daha yüksək məqsədlərə nail olmağa doğru yönəlməlidir.

Bu məsələlərin həllində dövlətin mühüm funksiyası iqtisadi dəyişikliklərin taktikası və prioritetlərinin sosialyönlü islahatların tempi və prioritetləri arasında dəqiq və ciddi uyğunluğun təmin edilməsidir. Həmçinin, həyata keçirilən hər hansı istənilən iqtisadi xarakterli tədbirlərin sosial nəticələrini əvvəlcədən görmək, gəlirlərin ölkənin iqtisadi yüksəlişinə yönəlmiş yenidən bölüşdürülməsi prosesinin tənzimlənməsi vasitəsilə sosial və iqtisadi mexanizmlərin birləşdirilməsi də bu istiqamətdə əsas dövlət funksiyalarına aiddir.

Göründüyü kimi, söhbət keyfiyyətcə yeni şərait daxilində sosial proseslərin tənzimlənməsində dövlətin rolunun artırılmasından gedir. Bu istiqamətdə əsas vasitə dövlətin fəal sosial siyasət yeritməsidir. Bu siyasətin mühüm tərkib hissələri məşğulluq, gəlirlər, sosial-mədəni sferanın inkişafı sahəsində aparılan siyasət, əmək və kapital arasında münasibətlərin tənzimlənməsi, vətəndaşların hüquqlarının sosial müdafiəsinə təminatdır.

Lakin sosial-iqtisadi proseslərin tənzimlənməsində dövlətin rolunun artırılması məsələsinin özünə də çox ehti- y-atla yanaşmaq lazımdır. Dövlət müdaxiləsinin hüdudlarını və təsir dairəsini dəqiq müəyyənləşdirmək və sonrakı dövrlərdə onun nəticələrini düzgün proqnozlaşdırmaq lazımdır. Əvvəlki dövrlərdə iqtidarda olan hökumət tərəfindən görülən tədbirlər əhəmiyyətli dərəcədə bugünkü iqtisadi siyasətə təsir göstərir və bəzən iqtisadi islahatların aparılması üçün çox əlverişsiz şərait yaradır. Dövlətin iqtisadiyyata müdaxiləsinin çoxillik praktik təcrübəsi vardır. Bu isə bəslənən ümidləri və nəticələri müqayisə etməyə imkan verir. Bu sahədə aparılan tədqiqatlardan məlum olur ki, bu müqayisənin nəticələri heç də ürəkaçan deyil, xüsusilə inkişaf etməkdə olan ölkələrdə. Bir çox misallar onu göstərir ki,

dövlət müdaxiləsi resursların bölgüsünü yaxşılaşdırmamış, iqtisadi artıma və gəlirlərin daha səmərəli bölgüsünə gətirib çıxarmamış, daha sabit təsərrüfat mühiti yaratmamışdır. Əksinə resursların bölgüsündə əhəmiyyətli dərəcədə qeyri-bərabərlik qorunub saxlanılır, hətta çox vaxt buna səbəb, məhz dövlətin apardığı siyasət olmuşdur. Əldə olan məlumatlar onu göstərir ki, Cinni əmsalı və gəlirlərin qeyri-bərabərliyinin digər göstəriciləri ümumilikdə təkmilləşməmiş, yaxşılaşmamış, dövlətin iqtisadiyyata geniş müdaxiləsi ilə səciyyələnən ölkələrdə isə qeyri-bərabərlik heç də iqtisadiyyatları daha liberal olan ölkələrdən az deyil. İnflyasiya, işsizlik, makroiqtisadi müvazinətsizlik əvvəlki kimi bir çox ölkələr, xüsusilə iqtisadiyyata geniş dövlət müdaxiləsi olan ölkələr üçün xarakterik xüsusiyyət olaraq qalır. Dövlətin rolu daha məhdud və daha konkretləşdirilmiş olan bir çox ölkələri misal göstərmək olar ki, orada daha müvəffəqiyyətli inkişaf prosesləri gedir. Bu kontekstdə Cənubi-Şərqi Asiya, Çili və Yeni Zelandiyanı qeyd etmək olar. Son illər belə bir fikir geniş yayılmağa başlamışdır ki, bazar proseslərinə dövlət müdaxiləsi dövlətin əsas funksiyalarına diqqətin yayınması ilə müşahidə olunur.

Bazar münasibətlərinin qurulduğu şəraitdə əsas sosial problemlərdən biri əhalinin təbəqələşməsinin kəskin xarakter alması və sosial-əmlak fərqlərinin dərinləşməsidir. Bu mənada əməyə münasibətin, eləcə də iqtisadi fəaliyyətin stimullaşdırılmasının yeni formalarının tətbiqi, iqtisadi baxımdan özünümüdafiə sisteminin yaradılması ilə yanaşı, gəlirlərin bölüşdürülməsi siyasəti ilkin imkanların bərabərləşdirilməsi və əhalinin aztəminatlı təbəqəsinin, qruplarının müdafiəsi ilə bağlı tədbirlər sistemini də əhatə etməlidir. Burada xüsusən aşağıdakılar nəzərdə tutulur: yaşayış minimumu həddində gəlirlərin vergilərdən azad edilməsi, təhsil dövründə güzəştlərin verilməsi, evdə, yaxud da sosial müdafiə müəssisələrində olan qeyri-əmək qabiliyyətli şəxslərə

(ruhi xəstələrə) güzəştlərin verilməsi, xeyriyyəçiliyin miqyasının genişləndirilməsi və s.

Gəlirlərin bərabər bölüşdürülməsi siyasətində aşağı gəlir səviyyəsinə malik olan əhali qruplarının sosial müdafiəsinə, yaxud da yüksək gəlir səviyyəsinə malik olan əhali qruplarının gəlirlərinin məhdudlaşdırılması istiqamətlərinə üstünlük verilə bilər. Həyata keçirilən siyasətin hər iki istiqaməti özündə birləşdirməsi və vergiqoyma sisteminin-sosial güzəştlərin səmərəli təşkilinə istiqamətlənməsi daha yaxşı hal hesab oluna bilər. Tənzimləmə üst səviyyədə başlamalı və ölkənin iqtisadi inkişafına yönələn tələblərlə sosial proqramların irəli sürdüyü tələblər arasında səmərəli tarazlığın, balansın əldə edilməsinə gətirib çıxarmalıdır. Belə sosial proqramların həyata keçirilməsinə yalnız dövlət deyil, həm də müxtəlif institusional strukturlar və ictimai təşkilatlar da cəlb edilməlidir.

İnsanların həyat səviyyəsi ümumi, xüsusi, konkret yanaşma ilə öyrənilir, tədqiq olunur, proqnozlaşdırılır. Belə ki, ayrı-ayrı regionlarda, ayrı-ayrı sosial-iqtisadi qruplarda onların istehlakına, gəlirləri və xərclərinə, sərbəst vaxtlarına balans şəklində baxılır, təhlil olunur. Ona görə də həyat səviyyəsinin öyrənilmə metodikası ümumi inteqral konkret yanaşma göstəricilərinin vəhdəti formasında həyata keçirilir. Sonradan diferensial yanaşma formalaşır. Diferensial yanaşma dedikdə, onun yaratdığı amilləri qiymətləndirmək başa düşülür. Məsələn, təhsilin, peşənin xarakterinin həyat səviyyəsinə təsiri. Həyat səviyyəsinin diferensiasiyası daha çox ümumi göstərici olan gəlirlərin diferensiasiyası və diferensial əmsalı ilə ölçülür.

Sosial siyasətin yalnız dövlət və onun strukturlarının vəzifələri və hüquqları olmasını düşünmük düzgün olmazdı. Sosial siyasət-müxtəlif, bəzən oxşar maraqları olan sosial qrupların, siniflərin qarşılıqlı münasibətləridir. Bəzən də bu münasibətlər çərçivəsində bütövlükdə əhalinin və onun təbəqələri, sosial birliklərin (yəni ailə, xalq, şəhər əhalisi,

qəsəbə region əhalisi və s.) sosial vəziyyətinin dəyişilməsi və saxlanılması maraqları uyğunluq təşkil etmirlər. Sosial siyasətin istiqamətləri müxtəlif sosial qrupların və siniflərin, regionların, yerli özünüidarəetmə orqanlarının maraqları nəzərə alınmaqla dəqiqləşdirilməlidir. Bu amil dövlətin müstəqil sosial siyasət həyata keçirmək imkanlarının məhdudlaşması və onun rolunun zəifləməsinə dəlalət etmir. Əksinə, müxtəlif subyektlərin funksiyalarının dəqiqləşdirilməsi və onlar arasında qarşılıqlı təsirin təmin edilməsi əhəmiyyətini artırır. Sosial siyasət sferasında dövlətin və onun subyektlərinin əsas qarşılıqlı təsir prinsipləri aşağıdakılardır:

- bütün regionlar üçün ümumi normaların işlənib-hazırlanması;
- bərabər siyasi-hüquq və sosial-iqtisadi imkanların təmin edilməsi;

Sosial siyasətin aktivliyi prinsipinin həyata keçməsi üçün qarşıda duran əsas problem regionların və yerli idarəetmə orqanlarının özlərini onların üzərinə düşən sosial funksiyaları həyata keçirmələri üçün lazımi həcmdə maliyyə vəsaitləri ilə təmin etmək şəraiti formalaşdırmaq, bu subyektlərə onlar qarşısında duran sosial vəzifələrin icrasına təminat verən həcmdə konkret gəlir növlərini təhkim etməkdən ibarətdir. Mərkəzi dövlət idarəetmə aparatının fəaliyyət prioritetləri aşağıdakılardır:

- dövlətin sosial siyasətinin məqsəd və vəzifələrini işləyib-hazırlamaq;
- bütün ölkə ərazisi üçün sosial sferada vahid davranış qaydalarını müəyyənləşdirmək;
- ümumi sosial təminat sistemi və səviyyələrinin (əməkhaqqı, pensiya, müavinət, təqaüd, təhsil, tibbi xidmət) formalaşdırılması;
- dövlətin sosial siyasətini həyata keçirməsi üçün qanunvericilik bazasının işlənib-hazırlanması;
- böhran vəziyyətlərində regionlara yardım etmək.

Beləliklə, dövlətin sosial siyasəti dedikdə, ölkənin konkret tarixi inkişaf mərhələləri və müəyyən məqsədlərlə əlaqədar olan və müəyyən yekun nəticələr nəzərə alınmaqla təşkilati və maliyyə cəhətdən əsaslandırılmış dövlət fəaliyyəti başa düşülür.

Yoxsulluq səviyyəsinin qiymətləndirilməsi ilk növbədə yoxsulluq həddinin müəyyən edilməsini tələb edir. Müxtəlif əmtəələrin istehlak səviyyəsi az və ya çox dərəcədə uzunmüddətli perspektivdə insanın sağ qalmasına birbaşa dəlalət edir. Bundan başqa, yoxsul ölkələr də daxil olmaqla əksər cəmiyyətlərdə «yoxsulluq» anlayışı yaşayış üçün lazımi minimum çərçivəsində kənara çıxır. «Yoxsulluğun həddi» anlayışı ilk dəfə 1970-ci ildə qəbul edilmişdir. Yoxsulluğun müəyyənləşdirilmiş həddindən bir qədər aşağı tərzdə yaşayan insanın bu həddən bir qədər yuxarı tərzdə yaşayan insana nisbətən pis həyat səviyyəsinə malik olması fikrinə əsaslanaraq bəzi konsepsiyalar «yoxsulluq həddi» anlayışını qəbul etmirlər.

MDB ölkələrində isə yoxsulluğun mütləq həddi qəbul edilmişdir. Mütləq yoxsulluq insanın yemək, su, geyim və sığınacağa olan minimal fizioloji tələbat səviyyəsini qiymətləndirmək imkanını nəzərdə tutur. Burada sosial-mədəni tələbatlar deyil, məhz fizioloji tələbat əsas götürülür. Mütləq yoxsulluq o zaman aşkar olunur ki, insan geyim, ərzaq, yemək, sığınacaq əldə etmək imkanından məhrum olur, yaxud onu itirir və onun həyat tərzi bu səviyyədən aşağı olur. Mütləq yoxsulluq həddini təyin etmək üçün ərzaq səbətinin tərkibi və onun dəyəri müəyyən edilməlidir. Nisbi yoxsulluq konkret cəmiyyətdə, konkret dövrdə ümumi qəbul edilmiş həyat tərzilə, səviyyəsilə müəyyən edilir. Bu, minimal fizioloji tələbatla təyin edilmir.

Yoxsulluq problemi heç də bütün ölkələrdə keyfiyyətcə oxşar deyildir. Yoxsulluq anlayışının birmənalı, ümumi qəbul edilmiş, elmi cəhətdən əsaslandırılmış dürüst tərifi yoxdur və ola da bilməz. Problemin sosial, iqtisadi və

psixoloji tərəfləri ilə yanaşı, o siyasi əhəmiyyət, məzmun da kəsb edir. Bu, siyasi mübarizə gedişində konkretləşir və modifikasiyaya uğrayır. Yoxsulluq anlayışı sadəcə olaraq cəmiyyətdəki vəziyyəti əks etdirmir, o, eyni zamanda yaranmış vəziyyətin qəbuledilməzliyini, yolverilməzliyini, hadisənin özünün aradan qaldırılma zəruriliyini göstərir. Dövlətin sosial siyasəti yoxsulluq anlayışının məzmununun şəklini dəyişir.

İnkişaf etmiş ölkələrdə yoxsulluq problemi inkişaf etməkdə olan ölkələrdə olduğundan əhəmiyyətli dərəcədə fərqlənir. Bu, birincilərə nisbətən ikincilərdə belə proqramların ya hələ ibtidai səviyyədə olması, yaxud da tamamilə olmaması səbəbindən irəli gəlir.

Yoxsulluğun mütləq həddi-dəqiq təyin edilmiş yaşayış minimumudur. Belə yanaşma problemin mahiyyətini, miqyasını məhdudlaşdırır və əlavə tədqiqatların aparılmasına imkan vermir. Mütləq yoxsulluq həddinə – orta güzəran səviyyəsinin dəyişməsindən asılı olmayaraq bir qədər ümumi həyat səviyyəsi kimi baxmaq məqsədəuyğun olardı, nisbi yoxsulluq həddi isə əksinə olaraq dəyişilir və orta həyat səviyyəsini ötüb keçmir. Beləliklə, iki eyni həyat səviyyəsinə malik insan təhsil yerindən və zamanından, siyasi vəziyyətin dəyişməsindən asılı olmayaraq yoxsul, yaxud varlı hesab olunacaq. İnsanların rifahının eyni şəkildə, tərzdə təhlili mənasında yoxsulluq eyni cür qiymətləndirilir.

Yoxsulluq həddinin müəyyən edilməsində ən geniş yayılmış yanaşma əsas tələbatların təhlilidir. Ərzaq mallarına olan tələbat əsas tələbat hesab olunur ki, bu da tövsiyə edilmiş qida enerjisinin istehlak həcmidir. Belə yanaşmada orqanizmin qida enerjisinə olan tələbatını müəyyən etmək əsas məsələdir. Bu tələbat müxtəlif adamlarda, hətta eyni adamda müxtəlif dövrlərdə də fərqlidir. Dietoloqlar orqanizmin enerjiyə olan tələbatını bədən çəkisinin dəyişməz saxlanılması, qidanın həzmi və fərqli fiziki aktivlik səviyyəsi baxımından qiymətləndirirlər. Yoxsulluq həddini orqaniz-

min enerjiyə olan tələbatı nöqteyi-nəzərdən müəyyən etmək nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, yoxsul adamın bədən çəkisinin normadan aşağı olması onun fiziki aktivliyini məhdudlaşdıran, azaldan amilə çevrilir. Müxtəlif əhali qrupları üzrə yoxsulluq həddini təyin edən zaman fiziki aktivlik səviyyələrindəki, bədən çəkilərindəki fərqə əsaslansaq belə qənaətə gəlmək olar ki, yoxsul əhali qrupunun aşağı fiziki aktivlik səviyyəsi onlar üçün təbii olmayıb, birbaşa enerji, güc çatışmazlığından irəli gəlir. Bu problem tələbat səviyyəsindəki yaş fərqləri ilə az ümumilik təşkil edir.

Yoxsulluq həddinin ərzaq tərkibi, komponentləri ilə əlaqəsi heç də qidaya olan tələbatla bitmir. Müxtəlif ərzaq məhsullarının birgə istifadəsi vasitəsilə orqanizmin minimal xərclərlə qida enerjisinə olan tələbatını təmin etmək olar. Lakin bu, bəzən insanın çoxəsrlik tarixi ənənələr fonunda formalaşmış qida vərdişlərinə, qida rasionuna zidd ola bilər. Yoxsulluğun yüksək qiymətlər fonunda orqanizmin qida tələbatının minimal xərclərlə təmin edilməsi kimi təyin edilən ərzaq həcmi ilə müəyyənləşən həddi yoxsul əhali təbəqəsi üçün əlçatmaz olan qida rasionunun işlənib-hazırlanması ilə nəticələnə bilər. Orqanizmin minimal enerji tələbatının təmin edilməsi üçün lazım olan minimal xərclər yoxsul əhalinin real xərclərindən olduqca az ola bilər. Görünür, lazımi həcmdə enerji qəbul etmək qidalanmaya üstünlük verilməsində tək motiv deyildir.

İkinci problem qeyri-ərzaq təyinatlı tələbatın nəzərə alınması ilə əlaqədardır. Qeyri-ərzaq təyinatlı tələbat fonunda yoxsulluq həddinin təyini zamanı qidanın tərkibinə, komponentlərinə uyğun olaraq qidalanma enerjisinə olan tələbat qədər əhəmiyyətli rol oynamır.

Belə bir qənaətə gəlmək olar ki, yoxsulluq həddi elastikdir. Real yoxsulluq həddi əhalinin ümumi həyat səviyyəsinin qalxması dərəcəsinə görə artmağa meyillidir. Lakin ən yoxsul ölkələr üçün bu artım tempi zəifdir. Mütləq yoxsul-

psixoloji tərəfləri ilə yanaşı, o siyasi əhəmiyyət, məzmun da kəsb edir. Bu, siyasi mübarizə gedişində konkretləşir və modifikasiyaya uğrayır. Yoxsulluq anlayışı sadəcə olaraq cəmiyyətdəki vəziyyəti əks etdirmir, o, eyni zamanda yaranmış vəziyyətin qəbuledilməzliyini, yolverilməzliyini, hadisənin özünün aradan qaldırılma zəruriliyini göstərir. Dövlətin sosial siyasəti yoxsulluq anlayışının məzmununun şəklini dəyişir.

İnkişaf etmiş ölkələrdə yoxsulluq problemi inkişaf etməkdə olan ölkələrdə olduğundan əhəmiyyətli dərəcədə fərqlənir. Bu, birincilərə nisbətən ikincilərdə belə proqramların ya hələ ibtidai səviyyədə olması, yaxud da tamamilə olmaması səbəbindən irəli gəlir.

Yoxsulluğun mütləq həddi-dəqiq təyin edilmiş yaşayış minimumudur. Belə yanaşma problemin mahiyyətini, miqyasını məhdudlaşdırır və əlavə tədqiqatların aparılmasına imkan vermir. Mütləq yoxsulluq həddinə – orta güzəran səviyyəsinin dəyişməsindən asılı olmayaraq bir qədər ümumi həyat səviyyəsi kimi baxmaq məqsədəuyğun olardı, nisbi yoxsulluq həddi isə əksinə olaraq dəyişilir və orta həyat səviyyəsini ötüb keçmir. Beləliklə, iki eyni həyat səviyyəsinə malik insan təhsil yerindən və zamanından, siyasi vəziyyətin dəyişməsindən asılı olmayaraq yoxsul, yaxud varlı hesab olunacaq. İnsanların rifahının eyni şəkildə, tərzdə təhlili mənasında yoxsulluq eyni cür qiymətləndirilir.

Yoxsulluq həddinin müəyyən edilməsində ən geniş yayılmış yanaşma əsas tələbatların təhlilidir. Ərzaq mallarına olan tələbat əsas tələbat hesab olunur ki, bu da tövsiyə edilmiş qida enerjisinin istehlak həcmidir. Belə yanaşmada orqanizmin qida enerjisinə olan tələbatını müəyyən etmək əsas məsələdir. Bu tələbat müxtəlif adamlarda, hətta eyni adamda müxtəlif dövrlərdə də fərqlidir. Dietoloqlar orqanizmin enerjiyə olan tələbatını bədən çəkisinin dəyişməz saxlanılması, qidanın həzmi və fərqli fiziki aktivlik səviyyəsi baxımından qiymətləndirirlər. Yoxsulluq həddini orqaniz-

min enerjiyə olan tələbatı nöqteyi-nəzərdən müəyyən etmək nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, yoxsul adamın bədən çəkisinin normadan aşağı olması onun fiziki aktivliyini məhdudlaşdıran, azaldan amilə çevrilir. Müxtəlif əhali qrupları üzrə yoxsulluq həddini təyin edən zaman fiziki aktivlik səviyyələrindəki, bədən çəkilərindəki fərqə əsaslansaq belə qənaətə gəlmək olar ki, yoxsul əhali qrupunun aşağı fiziki aktivlik səviyyəsi onlar üçün təbii olmayıb, birbaşa enerji, güc çatışmazlığından irəli gəlir. Bu problem tələbat səviyyəsindəki yaş fərqləri ilə az ümumilik təşkil edir.

Yoxsulluq həddinin ərzaq tərkibi, komponentləri ilə əlaqəsi heç də qidaya olan tələbatla bitmir. Müxtəlif ərzaq məhsullarının birgə istifadəsi vasitəsilə orqanizmin minimal xərclərlə qida enerjisinə olan tələbatını təmin etmək olar. Lakin bu, bəzən insanın çoxəsrlik tarixi ənənələr fonunda formalaşmış qida vərdişlərinə, qida rasionuna zidd ola bilər. Yoxsulluğun yüksək qiymətlər fonunda orqanizmin qida tələbatının minimal xərclərlə təmin edilməsi kimi təyin edilən ərzaq həcmi ilə müəyyənləşən həddi yoxsul əhali təbəqəsi üçün əlçatmaz olan qida rasionunun işlənib-hazırlanması ilə nəticələnə bilər. Orqanizmin minimal enerji tələbatının təmin edilməsi üçün lazım olan minimal xərclər yoxsul əhalinin real xərclərindən olduqca az ola bilər. Görünür, lazımi həcmdə enerji qəbul etmək qidalanmaya üstünlük verilməsində tək motiv deyildir.

İkinci problem qeyri-ərzaq təyinatlı tələbatın nəzərə alınması ilə əlaqədardır. Qeyri-ərzaq təyinatlı tələbat fonunda yoxsulluq həddinin təyini zamanı qidanın tərkibinə, komponentlərinə uyğun olaraq qidalanma enerjisinə olan tələbat qədər əhəmiyyətli rol oynamır.

Belə bir qənaətə gəlmək olar ki, yoxsulluq həddi elastikdir. Real yoxsulluq həddi əhalinin ümumi həyat səviyyəsinin qalxması dərəcəsinə görə artmağa meyillidir. Lakin ən yoxsul ölkələr üçün bu artım tempi zəifdir. Mütləq yoxsul-

luq həddi aşağı gəlir səviyyəli ölkələrə, nisbi yoxsulluq isə yüksək gəlir səviyyəli ölkələr üçün münasibdir.

Yoxsulluq problemi sosial-iqtisadi dəyişikliklərin neqativ nəticələri olmaqla, intellektual, mədəni inkişaf səviyyəsi, təhsil, vicdanlılıq, düzlük, tamahkarlıq kimi insani keyfiyyətlərlə də sıx bağlıdır və inkişaf iqtisadiyyatının mahiyyətinin əks olunmasında xüsusi rol oynayır.

## 17.3. İnkişaf iqtisadiyyatına nailolmanın milli aspektləri

Hər bir ölkənin potensial iqtisadi imkanlarına uyğun olaraq yoxsul əhalinin sayını və gəlirlərin orta səviyyəsinin artımını nəzərə alaraq **iqtisadi artım sürətini qısa və uzun müddət ərzində müəyyənləşdirmək olar.** Milli iqtisadi inkişaf strategiyası çərçivəsində belə tədbirlərin həyata keçirilməsi bilavasitə aparılan makroiqtisadi, struktur, sosial və regional islahatların xarakteri ilə əlaqədardır.

Yeridilən iqtisadi siyasət inkişaf iqtisadiyyatının amilinə o vaxt çevrilir ki, o işsizliyin sayının azalmasına, yoxsulluğun miqyasının aşağı düşməsinə və gəlirlərdəki qeyri-bərabərlik səviyyəsinin azaldılmasına səbəb olub. Əgər bu amillərdən hər birinin ilkin səviyyələri qorunursa, onda inkişaf dövrünü keçirən iqtisadiyyat kimi xarakterizə oluna bilər. Əks təqdirdə, ÜDM-in hansı səviyyədə artması, inkişaf iqtisadiyyatı üçün heç bir əhəmiyyət daşımır.

Yoxsulluğun miqyasının azaldılması və qeyri-bərabərliyinin yumşaldılması istiqamətində və iqtisadi artımdan istifadə olunmasına, qarşıya qoyulmuş problemin tam həlli kimi baxmaq olmaz. Buradan iqtisadi artımın fiziki həcmindən nə qədər səhiyyənin, təhsilin, mədəniyyətin inkişafı üçün nə qədər vəsait xərclənməsini nəzərə almaq lazımdır. Çünki, yoxsulluğun azaldılmasında **əhalinin, səhiyyənin, təhsilin, mədəniyyətin xidmətindən istifadə çox əhəmiyyətlidir**. Bu sahənin özünün maliyyələşdirilməsi və ya sırf bazar

prinsipləri çərçivəsində fəaliyyətinin gücləndirilməsi, yoxsul əhalinin xeyrinə deyil, əksinə onun ziyanına işləyən mexanizm kimi qalacaqdır. Belə olan şəraitdə iqtisadi artım yoxsulluğun azaldılmasına deyil, əksinə onun xroniki vəziyyət almasına səbəb olacaq. Həmçinin, gəlirlərin səviyyəsindəki qeyri-bərabərliyini fərqini daha da dərinləşdirəcək. Tutaq ki, nisbətən yüksək gəlir əldə edənlər səhiyyə, təhsil xidmətindən, eləcə də mədəni xidmətlərdən istifadə etməklə öz imkanları çərçivəsində statuslarını qoruyub saxlaya biləcəklər. Lakin istehsal səviyyəsinə uyğun gələn gəlir əldə edənlər zəruri olan səhiyyə və təhsil xidmətindən çox çətinliklə istifadə etməklə bütövlükdə mədəni xidmətlərdən imtina edəcəklər. Ona görə də müasir dövrdə yoxsulluğun azaldılması təkcə iqtisadi amillə deyil, bilavasitə sosial və mənəvi amillərlə əlaqədardır. Əhalinin bütün təbəqələri üçün əldə olunan ÜDM ilkin start vəziyyəti yaratmalıdır. Belə şəraitdə **meydana gələcək qeyri-bərabərlik** təbii proses kimi görünə bilər ki, bu da insanların fərdi fəaliyyəti, təhsili, intellektual səviyyəsi, sağlamlığı, mülkiyyət və əmlakdan və s.-dən istifadəsindən asılı olacaqdır.

Deməli, belə qənaətə gəlmək olar ki, iqtisadi artım sürəti, gəlirlərin qeyri-bərabərliyindəki fərqin və əhalinin yoxsulluğunun azaldılmasında o vaxt əhəmiyyətli görünür ki, onunla əldə olunan nəticələr bilavasitə qeyd olunan problemin həllinə yönəldilir. Sadəcə iqtisadi artım əgər bu istiqamətlə əlaqədar olmayıb dövlətin bu və ya digər tədbirlərinin həyata keçirilməsi ilə əlaqədardırsa, onda, bu ilkin mövcud olan qeyri-bərabərliyin gələcək illər üçün daha da dərinləşməsinə rəvac verir. Belə vəziyyət iqtisadi artımı böyük əhali kütləsi üçün əhəmiyyətsiz etməklə sosial gərginliyin artmasına, milli mənafelərin pozulmasına, nəticə etibarilə iqtisadi təhlükəsizliyin yüksəlməsinə, həm də cəmiyyətdə korrupsiyalaşmanın daha da dərindən kök salmasına səbəb olur.

Qeyd olunan bu elmi mülahizələrdən belə qənaətə gəlmək olar ki:

- iqtisadi artım gəlirlərin qeyri-bərabərliyinin və yoxsulluğun azaldılması üçün əhəmiyyətlidir;
- əhali təbəqələrinin sosial ehtiyac və zəruri xidmətlərinin ödənilməsi ilə əlaqədar olmayan iqtisadi artım nə gəlirlərin səviyyəsindəki fərqlərin, nə də ki, yoxsulluğun azaldılması üçün heç bir əhəmiyyət daşımır;
- milli iqtisadi inkişafın təməl prinsipi kimi gəlirlərin bölüşdürülməsi xarakterinə uyğunlaşdırılan iqtisadi artım sürətini əsas götürmək olar;
- ilkin yaranmış qeyri-bərabərliyin yumşaldılmasına və azaldılmasına yönəldilməyən iqtisadi artım yoxsulluğun azaldılmasının manetörədici amilinə çevrilir;
- nəticədə yoxsulluq özü-özlüyündə iqtisadi artım sürətinin qarşısını alan amil rolunu oynayır;
- iqtisadi artım sürətinin uzun müddətə hədəflənməsi, gəlirlərin səviyyəsinin qeyri-bərabərliyinin və yoxsulluğun azaldılması üçün əhəmiyyətli şərt kimi qalır;
- iqtisadi artım sürətinin aşağı 1-3%, orta 4-8%, yuxarı 8-12% və yüksək 13% səviyyəsinin təmini gəlirlərin qeyri-bərabərliyinin və yoxsulluğun azaldılmasında fərqli rol oynayacaqdır.

Gəlirlərin əldə olunması, formasından asılı olmayaraq, müəyyən müddət ərzində ölkənin malik olduğu iqtisadi resurslardan istifadəsinin və bölgüsünün nəticəsi kimi üzə çıxır. Belə şəraitə formalaşan gəlirlər öz səviyyəsinə, strukturuna, diferensiasiyasına və əldə olunması üsullarına görə milli iqtisadiyyatın iqtisadi və sosial vəziyyətinin real göstəricisi kimi çıxış edir. Bəzi hallarda gəlirlər anlayışında əsas diqqət il ərzində əldə olunan pul gəlirlərinin həcmi göstəricisindən daha çox istifadə olunur. Lakin gəlirlər öz məzmun və formasına görə daha geniş və əhatəlidir. Burada millət, dövlət, əhali, şəxsi gəlirləri bir-birindən fərqləndirmək lazımdır. Çünki gəlirlər öz həcm və miqyasına görə daima

fərqləndirici mexanizmə malikdir. Çünki resurslardan istifadə olunması səviyyəsi müxtəlif olduğundan, gəlirlərin də bölgüsü və formalaşması fərqli meyillərin baş verməsini əsaslandırır. Ən yüksək səviyyədə gəlirlərin əldə olunması onların fərqlənməsi və ya diferensiasiyaya uğraması meylini dərinləşdirir. Ona görə də cəmiyyət miqyasında resurslardan istifadə olunmasının səmərəliliyi, konkret olaraq, onun cəmiyyət üzvləri arasında bərabər bölgüsünün aparılmasından asılıdır.

Deməli, millətin gəliri əhalinin, dövlətin və ayrı-ayrı şəxslərin əldə etdiyi gəlirlərin məcmusu kimi çıxış edir. Yəni millətin gəliri əsasən əhalinin əldə etdiyi gəlirlərə söykənməklə, eyni zamanda dövlətin əldə etdiyi gəlirin bölgüsü nəticəsində ayrı-ayrı şəxslərin əldə etdiyi gəlirlərin məcmusundan ibarətdir. Resursların ilkin bölgüsü zamanı, onun sərəncamına və istifadə olunması imkanına uyğun olaraq fəaliyyət göstərən hüquqi-normativ aktlar gəlirlərin səviyyəsinin formalaşmasına səbəb olur. Nəticədə gəlirlərin formalaşması ilə normativ və pozitiv iqtisadiyyatın prinsiplərindən irəli gələn iqtisadi mühit formalaşır. Belə şəraitdə fəaliyyət göstərən bazar modelindən və ya ona keçid istiqamətindən asılı olmayaraq gəlirlərin səviyyəsində fərqlərin və qeyribərabərliyin əmələ gəlməsi baş verəcəkdir. Bu da gəlirlərin bölgüsündə bazar sisteminin fəaliyyətində iqtisadi inkişafın səviyyəsindən asılı olmayaraq sosial sahədəki tərəqqinin əldə olunmasına imkan yaratmayacaq. Gəlirlərin bölgüsü zamanı bir qayda olaraq cəmiyyət miqyasında əldə olunan iqtisadi səmərə ilə sosial səmərə arasındakı fərqin və ya kənarlaşma həddinin yumşaldılması və ya azaldılması istiqaməti bir problem kimi dövlətin iqtisadi siyasətində daima durur. Çünki milli iqtisadiyyatın dinamik və stabil inkişafı, sosial ədalətin bərpa olunması istiqamətindəki nəzərdə tutulan proqramlar nə qədər qarşılıqlı əlaqəli şəkildə həyata keçirilərsə, gəlirlərin miqyasında və bölgüsündə bir o qədər səmərənin əldə olunması müşahidə olunar. Bəzi hal-

larda əhalinin gəlirlərinin artırılması sahəsində deklarativ, iqtisadi inkişafın nəticəsindən asılı olmayan siyasi motivlərə əsaslanan fikirlər də irəli sürülür. Bu da gəlirlər sahəsində mövcud olan fərqlərlə yanaşı, onların əldə olunması sahəsində sosial gərginliklərin daha da artmasına şərait yaradır. Hətta ən yaxşı halda gəlirlərin bölgüsü sahəsində bu və ya digər proqramın seçilməsi və tətbiqi heç də mövcud olan fərqləri və sosial gərginlikləri həll edə bilməz. Çünki istər fəal əhali üçün, istərsə də kasıb və yoxsul əhali üçün gəlirlərin əldə olunması mürəkkəb bir iqtisadi proses olmaqla, son dərəcə əhəmiyyətli sosial bir problemdir.

Ona görə də ən ümumi şəkildə əhalinin gəlirləri müəyyən bir müddət ərzində (adətən 1 il) əldə etdiyi müxtəlif gəlir növlərinin məcmusundan ibarətdir. Təsəvvür edək ki, əhali və ya onun hər bir nəfəri, əməkhaqqı, mənfəət, faiz, renta, yardım, təqaüd, transfer və s. şəkilli müxtəlif mənbələrdən gəlir əldə edir və öz yaşayışını təmin edir. **Belə vəziyyətdə yenə də mənbələr üzrə əldə olunan gəlirlərin səviyyəsi, miqyası, tədiyyə qabiliyyətliyi istiqamətində onların fərqləndirilməsi və öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir**. Çünki gəlirlər öz daxilolma mənbələrinə və bölgüsü səviyyəsinə görə istər-istəməz qiymət və qeyri-qiymət amilləri, vergiyə cəlb olunma prinsipləri, psixoloji mühitlə bilavasitə əlaqədardır. Ona görə də əhalinin gəlirləri sahəsində tədqiqatların aparılması bilavasitə natural, real gəlirlər, qiymət səviyyəsi, transferlərin həcmi, vergilərin səviyyəsi, inflyasiyanın miqyası, işsizliyin səviyyəsi və s. amillərlə bilavasitə əlaqədardır. Ən ümumi şəkildə gəlirlər istehsal olunan ÜMM həcmindən asılı olaraq, onun alınmasında tətbiq olunan amillərin funksional fəaliyyətin nəticəsi kimi çıxış edir.

Metodoloji olaraq belə qənaətə gəlmək olar ki, **məhdud resurslar şəraitində hüdudsuz tələbatların ödənilməsi ilə bağlı olan insanların davranış qaydaları, bilavasitə gəlirlərin əldə olunması ilə əlaqədardır**. Sərvətin, nemətin əldə olunması ilkin olaraq özünü gəlir şəklində təzahür etdirir. De-

məli, ÜMM-in ilkin bölgüsü prosesində cəmiyyət miqyasında istehlak olunmuş gəlirlərlə, istehsal olunmuş gəlirlərin fərqləndirilməsi zərurəti meydana gəlir. Əslində il ərzində istehlak olunmuş gəlirlərin səviyyəsi nə qədər aşağı olarsa, cəmiyyətin sərəncamında bir o qədər çox istehsal olunmuş gəlir qalacaqdır. İstehsal olunmuş gəlirlər ilkin **bölgü sferasına daxil olarkən milli gəlir və ya ÜDM şəklini almış olur**. ÜDM-in ilkin və yenidən bölgüsü şəraitində, onun istehsalı üçün tətbiq olunan amillərin funksional asılılığı baş verir.

ÜDM istehsalında və bölgüsündə tətbiq olunan amillərin funksional fəaliyyətindən asılı olaraq gəlirlərin formalaşması prosesi baş verir. İstehsal amillərinin tətbiqinin səmərəlilik səviyyəsindən, məhsuldarlıq xüsusiyyətlərindən asılı olaraq gəlirlərin səviyyəsi cəmiyyət miqyasında formalaşır.

Ümumiyyətlə, sərvət və gəlir anlayışları eyni mahiyyət daşımasalar da, lakin onların formalaşması prosesi, mənafelərin reallaşmasındakı rolu eyniliyə malikdir. İstər sərvətin, istərsə də gəlirlərin artımı o zaman baş verir ki, onların əldə olunması üçün tətbiq olunan və ya sərf olunan vəsaitlərin əlavə kəmiyyəti yaransın. Yəni **hər bir resursun tətbiqindən sonra əlavə dəyər, faydalılıq və ya məhsul əldə olunur. Bu cəhət daima iqtisadi nəzəriyyə elminin inkişafı qarşısında duran prinsip kimi nəzərə alınmalıdır**. Resursların tətbiqi imkanı və onlardan istifadə səviyyəsi hər bir millətin tərəqqisinin vacib şərti kimi, eyni zamanda sərvət və gəlir yaradıcı səviyyəsini müəyyən edir. Deməli, hər bir millətin inkişafı, ümumi xarakter almış ictimai inkişafın daxili elementləri arasında olan nisbətin düzgün qurulmasından, seçilməsindən və həll edilməsindən asılıdır. Ümumi şəkildə cəmiyyətin inkişafı və ya millətin tərəqqisi, bir tərəfdən idarəetmə sistemindən, digər tərəfdən mənəvi-dini dəyərlərdən istifadə səviyyəsindən asılı olmuşdur. İdarəetmə sistemi ilə mənəvi-dini dəyərlər arasındakı nisbət, hakim qrupun mənafeyi ilə ümumi millətin mənafeyi arasındakı nisbət, sərvət

və gəlirlərin əldə olunması ilə əlaqədar olan imkan və şəraitin yaradılması ilə ona nail olanlar arasındakı nisbət, cəmiyyət həyatında işlək, dinamik mexanizm kimi özünü əks etdirməklə ümumi inkişafın zəncirvari, dalğavari, vintvari hərəkətinə gətirib çıxardır. Ardıcıl, fasiləsiz hərəkətdə olan inkişaf elementləri, təkcə iqtisadi sahəni deyil, həmçinin texniki, hüquqi, mənəvi, sosial, mədəni, əxlaqi sahələri də əhatə edir. Bu sahələrin də özünəməxsus inkişaf xüsusiyyətləri olduğuna görə cəmiyyət miqyasında bütün sahələrdə eyni səviyyəli inkişafa nail olmaq olmur. Çünki ictimai inkişaf elementləri arasında daima hərəkətdə olan ziddiyyətli münasibətlər baş verir. İqtisadi elementlər belə şəraitdə daha fəal təsir dairəsinə malik olmaqla, müxtəlif xarakterli inkişaf elementlərinin pozotiv fəaliyyətinə təsir göstərə bilir. Bir-birinə ziddiyyətli təsir göstərən inkişaf elementləri o vaxt yumşalır ki, onların arasındakı daha fəal görünən, sistem formalaşdırıcı amil kimi çıxış edən ünsürlər üstünlük təşkil edir. Buradan da belə nəticəyə gəlmək olar ki, ictimai inkişafın tərkib elementlərindən olan sosial-iqtisadi elementlər, əskikliklərin vəhdəti və mübarizəsinin təsiri altında inkişaf edir. İqtisadi və ya sosial inkişafın elementləri də qarşılıqlı əlaqəli şəkildə bir-birini əvəz etməklə və ya bir-biri üçün maddi ilkin şərait yaratmaqla, sistemdaxili inkişafı əsaslandırmaqla bir-birindən imtina edirlər. Nəticədə elementlərarası nisbət baş verir. Bu nisbətin elementləri arasındakı əmsal, onların qarşılıqlı əlaqələrinin həddini müəyyən edir.

İqtisadi və sosial inkişafın elementləri arasındakı nisbət, mövcud iqtisadi sistemin səmərəlilik səviyyəsindən asılı olaraq müxtəlifləşir. Bu da onunla əlaqədardır ki, iqtisadi sistemin özü müxtəlif və çoxsaylı kateqoriyalardan ibarət olmaqla, çoxnövlü nisbətlərin meydana gəlməsinə səbəb olur. Xüsusən də bu nisbətlər həm kəmiyyət, həm də keyfiyyət parametrlərini əks etdirən cəhətlər kimi formalaşır. Əlbəttə, qeyd olunan bu proses iqtisadi təfəkkürdə fəlsəfi

dərketmə metodu vasitəsilə qiymətləndirilə bilər. Lakin məqsədimiz tədqiq etmək istədiyimiz gəlirlər problemini iqtisadi və sosial inkişaf prizmasında şərh etmək olduğundan məsələnin yalnız iqtisadi sistem daxilindəki xüsusiyyətlərinin nəzərə alması fikirlərin ümumiləşdirilməsi ilə əlaqədardır. Daha doğrusu, **mövcud iqtisadi sistemin fəaliyyəti çərçivəsində iqtisadi inkişafın xarakterindən, yəni tsiklik, sabit, qeyri-sabit, davamlı, dayanaqlı xarakterindən asılı olaraq resursların bölgüsü prosesi, gəlirlərin formalaşması xüsusiyyətləri, onun əmək məhsuldarlığından, iqtisadi artımdan asılılıq və nisbətinin üzə çıxarılması maraq doğurur**.

Gəlirlərin formalaşması prosesi üçün yeni olan paradiqmanın xüsusiyyəti ondan ibarətdir ki, vaxt və məkan çərçivəsində onların formalaşması prosesində sadədən mürəkkəbə doğru baş verən növ dəyişikliklərinin tarixi və məntiqi ardıcıllıqla müşahidə və tədqiq edilməsinə üstünlük verilsin. **İqtisadi sistemin xarakterini müəyyən etmədən, gəlirlərin formalaşması səviyyəsi barədə edilən ümumiləşmənin heç bir nəzəri və əməli əhəmiyyəti olmayacaqdır**. Hələ vaxtı ilə A.Smit tədqiq etdiyi iqtisadi təsərrüfatçılıq sisteminin, alıcılarla satıcıların mənafelərinin daha tez reallaşmasına imkan verən bazar sisteminin olduğunu qeyd etmişdir. Bu əsasdan da o, belə bir fikri irəli sürmüşdür ki, ən sadə şəkildə bazar mexanizmi bilavasitə əmtəə təsərrüfatının mövcudluğuna söykənir. Xüsusi mülkiyyətə və mübadiləyə söykənən əmtəə təsərrüfatı bazar sisteminin təşəkkülünün ilkin maddi şərti kimi sərvətlərin əldə olunmasına səbəb olmaqla iqtisadi adamlar fəaliyyət dairəsindən və məhsuldarlığı səviyyəsindən asılı olaraq gəlirlər əldə edirlər. Gəlirlərin formalaşması ilə əlaqədar ən ümumi şəkildə klassik ideyanın mahiyyəti bundan ibarətdir. Düzdür, daha sonra D.Rikardo bölgü nəzəriyyəsi vasitəsilə gəlirlərin formalaşması istiqamətindəki dəyişikliklərin baş verməsi səbəblərini üzə çıxarmaqla bu istiqamətdəki fikirləri daha da zənginləşdirdi. Sözsüz ki, istər sərvət, istərsə də gəlir sahəsindəki iqtisadi

fikirlər öz təkamül yolunu iqtisadi nəzəriyyənin bir elm kimi formalaşması üçün zəruri olan inkişaf mərhələləri ilə əlaqədar olmuşdur. Merkantilizm, fiziokratizm, klassik iqtisadi məktəb, bunlara alternativ olan marksizm, daha sonra neoklassik istiqamət, marjinalizm, institusional-sosioloji istiqamət, keynsçilik, neoliberalizm, yeni keynsçilik, neosintez, təklif iqtisadiyyatı, səmərəli gözləmə nəzəriyyələri bəzi hallarda bir-birinə zidd olan fikirlərə, mülahizələrə əsaslansa da, **burada bir olan cəhət ondan ibarətdir ki, ictimai istehsalın formasından asılı olmayaraq, sərvət və gəlirlərin artırılması bilavasitə iqtisadi və sosial inkişafın səviyyəsindən asılıdır**. Fərqli cəhət irəli sürülən elmi mülahizələrin istismara, qapalı iqtisadiyyata, sinifli cəmiyyətə, xüsusi mülkiyyətə, dövlətin iqtisadiyyata müdaxilə etməsi səviyyəsi, demoqrafik vəziyyətin dəyişilməsinə, milli iqtisadi sistemə və s. amillər qrupuna söykənməsi ilə əlaqədardır. Əlbəttə, qeyd olunan bu amillərin təsir dairəsi müxtəlif olsa da, eynilik təşkil edən cəhət ondan ibarətdir ki, bütün iqtisadi mülahizələrdə ictimai istehsalın proporsional inkişafı vasitəsilə həm mikro, həm də makrosəviyyədə tələb və təklif arasında müvazinətin yaradılması əsas götürülüb. Bu da doğru və düzgün mülahizədir. Çünki istər sərvətin, istərsə də gəlirin artırılmasında müvazinətin yaradılması və qorunması ən düzgün seçim və üsuldur. Lakin bunu da inkar etmək olmaz ki, elmi-texniki tərəqqi, informasiya texnologiyası, innovasiyalı iqtisadi inkişaf hər an həm tədrici, həm də ümumi müvazinatın pozulmasına səbəb olur. Bu da həm iqtisadi artımın sürətinə, həm də sosial səmərənin səviyyəsinə ciddi təsir göstərir. Ona görə də sərvət və gəlirlərin artımında qeyri-müvazinətlik müşahidə olunur. Bir anlığa (yəni aylıq, rüblük, illik) əmələ gələn müvazinət dərhal pozulur. Nəticədə prosesin normallığının təmin olunması birmənalı olaraq həm yeridilən iqtisadi siyasətin səmərəliliyinə, həm də iqtisadi mühitin nəzərdə tutulan iqtisadi sistemin

formalaşmasına uyğun gələn səviyyədə fəaliyyət göstərməsinə doğru tutuşdurulması zəruriyyəti meydana gəlir.

Daima uyğun gəlməyən yeniləşmə prosesi ilə sərvət və gəlirlərin cari müddət ərzində müvafiq olmayan meyillərinin tez-tez müşahidə olunması, irəli sürülən məqsədlərin mövcud iqtisadi imkanlara müqabil optimallığının təmin olunması vacib şərt kimi nəzərə alınmalıdır. Çünki keçid prosesi özü ziddiyyətli xarakter daşıması ilə yanaşı, hər an sosial gərginliklərin artması ilə, qeyri-bərabərliyin dərinləşməsi ilə əlaqədardır. İstər iqtisadi inkişaf, istərsə də gəlirlər sahəsində qeyri-bərabərlik müşahidə olunmaqla, problemin milli iqtisadiyyat çərçivəsində həll olunması ilə əlaqədardır. Bunu istər Şərqi Avropa, istərsə də MDB məkanlı ölkələrin iqtisadiyyatının və sosial inkişafının timsalında aydın görmək olar. Azərbaycanın 2005-2006-cı illərdəki iqtisadi artım sürətlərində 26-36% səviyyəsindəki hədd, dünyada ən yüksək göstərici kimi qeyd olunur. Bu həqiqətdir. Lakin bu da həqiqətdir ki, bu artım hələ gəlir sahəsində, yoxsulluğun mövcudluğu sahəsindəki problemləri heç də tam həll etməyib. Deməli, belə düşünmək səhv olardı ki, yüksək iqtisadi artım sürəti gəlirlərin bərabərliyinə deyil, daha çox qeyri-bərabərliyinə səbəb olur. Lakin yüksək artım sürəti gəlirlərin səviyyəsindəki qeyri-bərabərliyin yümşaldılmasına səbəb ola bilər. Çünki **iqtisadi artım səviyyəsi uzunmüddətli xarakter daşıyırsa, birmənalı şəkildə onun nəticələrindən əhalinin gəlirləri səviyyəsində olan fərqlərin aradan qaldırılması üçün deyil, azaldılması üçün istifadə etmək lazımdır. Bu da yeridilən iqtisadi siyasətin düzgünlüyünə olan inamın artırılmasına və sosial sahədəki çatışmazlıqların müvəqqətiliyinə olan dözümlülük meylinin yüksəldilməsinə səbəb olmaqla, inkişaf iqtisadiyyatının reallıqlarını əks etdirən amilə çevriləcəkdir.**

# İstifadə olunan ədəbiyyat


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2010
2. «İqtisadi nəzəriyyə» T.S.Vəliyevin. Ə.P.Babayevin və M.X.Meybullayevin ümumi elmi redaktəsi ilə. Bakı, 2001
3. «İqtisadi təlimlər tarixi». M.X.Meybullayevin ümumi elmi redakdəsi ilə. Bakı, 2005
4. M.X.Meybullayev M.X. İslam iqtisadiyyatı. 2-ci nəşri. Bakı, 2004
5. T.Ə.Quliyev. İnflyasiyanın anatomiyası. Bakı, 2008
6. Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri. Respublika elmi-praktik konfransın materialları. Bakı, 2010
7. Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik bülleteni. 12/2010; 1-3/2011
8. Jack Harvey Ernie Jovsey Müasir Ekonomiks. Bakı, 2008
9. Qriqori Menkyu N. Ekonomiksin prinsipləri. Bakı, 2009
10. A.P.Qradov Milli iqtisadiyyat. Rus dilindən tərcümə. Bakı, 2008
11. Мировая экономика и международные экономические отношения /Под ред. А.С.Булатова и Н.Н.Ливенцева/ Москва, 2010
12. Анализ экономических систем /Под общей редакцией Альфреда Шюллера и Ханса Гюнтера Крюссельберга/. Москва, 2006
13. Курс экономики / Под ред. Б.А.Райзберга/. Москва, 1997
14. Экономическая теория / Под ред. О.С.Белокрыловой/. Ростов-на-Дону, 2008
15. Инфляция и экономический рост: теория и практика. Москва, 2007
16. Е.А.Киселева Макроэкономика. Москва, 2005

17. Макроэкономика. Учеб. пособие / В.А.Воробьев, А.В.Бондарь и др./Минск, 2009
18. Экономическая теория. Макроэкономика 1,2. Москва, 2008
19. Т.А.Агапова, С.Ф.Серёгина Макроэкономика. Москва, 2009
20. М.К.Бункина Национальная экономика. Москва, 2002
21. М.К.Бункина, В.А.Семенов Макроэкономика. Москва, 2000
22. В.Н.Костюк Макроэкономика. Москва, 2008
23. Линвуд Т. Гайгер Макроэкономическая теория и переходная экономика. Москва, 1996
24. А.С.Селеищев Макроэкономика. Санкт-Петербург, 2001
25. Н.Ф.Чеботарев Мировая экономика. Москва, 2008
26. М.А.Сажина, Г.Г.Чибриков Экономическая теория. М., 2009
27. Пол А. Самуэлсон, Вильям Д.Нордхаус, Экономика, Бином-Кио Рус. Москва, 1997
28. Экономическая теория: под. Ред. А.Ж.Добрынин и др. Санкт-Петербург, 1997
29. Д.С.Львов Экономика развития. Москва, 2002
30. Современная экономика, Под ред. О.Ж.Мамедов, Ростов-на-Дону, 1997
31. Экономика. Учебник, Под ред. А.С.Булатова, Москва, 1999
32. А.Ж.Добрынин, А.Ж.Салов, Экономика, Москва, 2002
33. Экономическая теория: Учебник. Под ред. В.Ж.Видяпина, А.Ж.Добрынина и. др. Москва, 2005
34. Экономическая теория. Учебник. Под ред. Архипова, С.С.Жлена, М., 2005
35. Кемпбелл Р. Макконнелл, Стенли Л.Брю Экономикс: принципы, проблемы и политика. Москва, 1992
36. С.С.Носова Экономическая теория. Москва, 2009

Nəşriyyatın müdiri *Kamil Hüseynov*

Baş redaktor *İsmət Səfərov*

Redaktor *İsabə Hüseynova*

Korrektor *Südabə Manafova*

Kompyuter operatoru *Təranə Baxşəliyeva*

Dizayner *Vüsalə Axundova*

**i.e.d., prof. Meybullayev M.X.**

**Makroiqtisadiyyata giriş**

*Dərs vəsaiti*

***Çapa imzalanıb 15. 07. 2011. Kağız formatı 60x84 1/16.***
***Həcmi 30,1 ç.v. Sifariş 179. Sayı 1000.***

***" İqtisad Universiteti " Nəşriyyatı.***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***